Namiq Atabəyli

# FATEH

zəfər poeması




BAKI - 2021

**2020 8-10 noyabr 2021**
**Ermәni faşizmi üzәrindә son**
**Qәlәbәmizin ildönümü**
**qarşısında!..**

**NAMİQ ATABӘYLİ**

# FATEH

## (ZӘFӘR POEMASI)



**Sizi vәsf edәrkәn xәyala daldım:**
**Tarix olacaqmı bu böyük hünәr?**
**Şair ürәyimdәm bir cavab aldım:**
**Mәnim İLHAMımdır bu böyük ZӘFӘR!**

**Kitab iki hissәdәn ibarәtdir. Birinci hissәni şairin Azәrbaycan ordusunun ermәni faşizmi üzәrindә son zәfәrini әks etdirәn "Fateh" zәfәr poeması tәşkil edir. Poemanın baş qәhrәmanı müzәffәr Ordumuzun Ali Baş komandanı Prezident İlham Heydәr oğlu Әliyevdir. II Hissә, әsasәn, müәllifin son illәr İnternet Mediada işıq üzü görmüş müharibә, sülh, mәdәniyyәt vә tarix mövzularında yazdığı müxtәlif mәqalә, müsahibә vә çıxışlarından ibarәtdir – naşir ("Avropa" Nәşriyyatı). Bakı-2021**

**© Namiq Atabәyli (Fәrәcov Namiq Rәşid oğlu)**

## 2020 8-10 noyabr 2021
## Erməni faşizmi üzərində son Qələbəmizin ildönümü qarşısında!..



**Sənə gün demirəm--gün batır, çıxır...**
**Heç zaman qaralmaz gündüzün sənin.**
**Haqqa, Həqiqətə, Vətənə baxır**
**Günəşdən işıqlı hər üzün sənin.**

**Azadlıq! İstiqlal! Zəfər!- dedin sən.**
**Yurdumdan əksilməz hünər!--dedin sən.**
**Bu uca bayrağa qədər!--dedin sən:**
**Silinməz tarixdən haqq sözün sənin.**

**Yurdda at oynatdı hər azğın gədə...**
**Soyub yağmaladı xalqı min çetə.**
**Düşməni dərdinə gülən ölkədə**
**Ağladı Vətənə hər gözün sənin.**

**İzzət-- pul-parada, küfr--imanda?!.**
**Qurban həbsdəydi, cani – amanda...**
**Bu xəstə dünyada, xəstə zamanda**
**Dərdin dərmanıydın tək özün sənin.**

**Daim dəyişəcək bu aylar, illər...**
**Qovacaq bir-birin fərqli fəsillər...**
**Gələcək, gedəcək neçə nəsillər--**
**Bir də olmayacaq əvəzin sənin!!.**

**© Namiq Atabəyli (Fərəcov Namiq Rəşid oğlu)**

**Namiq Atabəyli**

# FATEH

(zəfər dastanı)

***8-10 Noyabr (2020-ci il)- erməni faşizmi üzərindəki Böyük Qələbəmizin birinci ildönümünə həsr edilir.***



1

## Proloq əvəzi

Ey mənim şah zirvələrdən əsla yenməz Bayrağım!
Ey mənim səcdeyigahım, pak, müqəddəs Bayrağım!

Dünyada, ey əbədiyyən nurlu sönməz bir Günəş,
Laciverd göy, yamyaşıl yer, Tanrı nəfəs Bayrağım!

İlk Azadlıq harayımsan, Milli dövlət amalım,
Ürəyimdə eşqi-həyat, arzu, həvəs, Bayrağım!

Səni başa qaldıran bir ilk günümdən başlayır,
Bəşəriyyət içrə tarix, kövni-ələst, Bayrağım!

Babadağım, Savalanım, şah Səhəndimsən mənim,
Ana Göygöl, Şuşa, Xankənd, Gəncə, Kəpəz: Bayrağım!

Zəfərindən zəfərinə İlhamımı səslə, hey,
Zirvələrdən zirvələrə yürü, tələs, Bayrağım!

**Nəqarat:**

Can! Ey əziz Ümummilli, ali cahan Bayrağım!
Şanlı, məğrur, uca, ülvi Azərbaycan Bayrağım!

Səndən ötrü keçməsə kim öz canından: düşmənim!
Eldən ötrü keçər candan ər oğullar, Vətənim!!

Ağaoğlu, Məmmədəmin, Məniçöhr , Eldəniz...
HEYDƏRimsən, tariximsən, qürurumsan sən mənim!

Nizamimsən, Füzulimsən, Üzeyirimsən mənim,
İlk Azadlıq istəyimsən, şeyri-sənət məxzənim...

Qorqud Atam, Xan Qazanım yol açıblar Turana,
Hansı qəlbdə sevda ki var, oradadır Ötkənim!!

Bütün İslam yollarında uca Turan izim var:
Allahın elçisin görüb şanlı Bək Düz Yəmənim!

Əhrimənlər torpağıma basa bilməz bir ayaq,
Mərd ərənlər oylağıdır Odlu Yurdum- məskənim!

Cənnətimsən, qucağında tapmışam ilk pərvəriş,
Təkcə sənsən dünyada öz ilk beşiyim, mədfənim!

Dayanıbdır keşiyində şanlı ordum müsəlləh,
Yaşa! Yaşa!- sənə deyir mənim bütün evrənim.

Qərinədən qərinəyə hər zəfərim sənindir:
Qazi olsam sancağımsan, şəhid olsam kəfənim!!

**Nəqarat:**
Can!! Ey əziz Ümummilli, ali cahan Bayrağım!
Şanlı, məğrur, uca, ülvi Azərbaycan Bayrağım!

***(Şeir-marş 44 Günlük II Qarabağ Vətən müharibəsi dövründə yazılmış, 5 oktyabr 2020-ci il tarixində "atatv.az" xəbər portalında virtual oxucular üçün dərc edilmişdir. Marş Azərbaycan Ordusunun müzəffər Ali Baş komandanı Preziden İlham Heydər oğlu Əliyəvə ithaf olunmuşdur.-Müəllif)***

**Birinci nəğmə**

## Mənim İLHAMımdır bu böyük ZƏFƏR!




**1**

**Nə qraf Bayronam, nə də ki Cami:**
**VƏTƏNdir qəlbimin əsl İLHAMı!..**

**Nə Çayl Haroldun səyahətləri,**
**Nə də ki Züleyxa-Yusif kədəri...**

**Bu gün Qələmimin deyil mövzusu.**
**Canım Qarabağdır qəlbin arzusu!**
**Sevinclə doludur şeiriyyət camım:**
**Qələbə bizimdir!- deyib İLHAMım!**




"Bakının dastanı"n yarımçıq qoydu,
Bir vaxt Vurğunumuz qısa ömrü tək...
Görünür "Vaqif"in hədəfi buydu:
ŞUŞAda qoyulsun son NÖQTƏ gərək!..

Həyatda hər şeydə dəqiq məntiq var:
Məntiqdən kənarda olan naxışdır...
NÖQTƏ ilə bitir bütün kitablar,
ZƏFƏR nöqtə deyil- BAŞLANĞICDIR!..

Ötən 30 ildə faşist Yerevan
Günlərin ötürdü təntənələrlə...
Ötən 30 ili Can Azərbaycan
Keçirdi min küsü, min tənələrlə...

Yalnız Ümummilli Liderin parlaq
Siması yol açdı xalqa Günəş tək.
İlk Zəfər günündə Qələm alaraq,
Rəhbərə salama tələsdi ürək!..



Sənə gün demirəm--gün batır, çıxır...
Heç zaman qaralmaz gündüzün sənin.
Haqqa, Həqiqətə, Vətənə baxır
Günəşdən işıqlı hər üzün sənin.

Azadlıq! İstiqlal! Zəfər!- dedin sən.
Yurdumdan əksilməz hünər!--dedin sən.
Bu uca bayrağa qədər!--dedin sən:
Silinməz tarixdən haqq sözün sənin.

Yurdda at oynatdı hər azğın gədə...
Soyub yağmaladı xalqı min çetə.
Düşməni dərdinə gülən ölkədə
Ağladı Vətənə hər gözün sənin.

İzzət-- pul-parada, küfr--imanda?!.
Qurban həbsdəydi, cani – amanda...
Bu xəstə dünyada, xəstə zamanda
Dərdin dərmanıydın tək özün sənin.

Daim dəyişəcək bu aylar, illər...
Qovacaq bir-birin fərqli fəsillər...
Gələcək, gedəcək neçə nəsillər--
Bir də olmayacaq əvəzin sənin.

2

Siz ey bu savaşda can qurban vermiş,
Vətənin sevdalı mərd şəhidləri!..
Sizi bu torpağa Tanrı göndərmiş,
Cənnətə çevirmək üçün hər yeri!

Sizi vəsf eləyir İlhamım mənim,
Tarixə yazılsın gərək hər hünər!
Bəli, zəmanəmin son Vurğunuyam:
Mənim İLHAMımdır bu böyük ZƏFƏR!

8 NOYABRda Şuşa pikimdə
Milli Bayrağıma Zəfər açanlar!
Sizin şəninizə gərək Qələm də
Yazsın poemalar, neçə dastanlar...

Bu zəfər Azadlıq hərəkatından,
Qanlı meydanlardan yol keçib gəlib.
Azəri xalqının milli adından
Dünya tarixinə qol çəkib gəlib!..

Qarabağ – azadlıq, şərəf deməkdir,
Ən ağır cəzadır şərəfsiz ölmək!
Qarabağ Zəfəri milli birlikdir:
Əsl alçaqlıqdır Zəfəri bölmək!

Siz ey şahədətin taxtına sahib
Böyük Zəfərimin mərd əsgərləri!
Şəhidlik rütbədir: rüşvətsiz, ali...
Tarix alqışlayır sizin hünəri!..

Ağır savaşlardan keçən bir elin
Zəfərin vəsf edən son şairəm mən:
Azadlıq səsiyəm haqq-hürriyətin.-
Yaşa, Böyük Zəfər! Qəhrəman Vətən!..

***

3

Oxucum, mən səni görüb uzaqdan,
Yaxın sirdaş kimi edirəm söhbət...
Quyruqlu doğulur hər zaman yalan,
Şahid tələb edir əsl həqiqət!..



QARABAĞ "Vaqif"lər deməkdir, öncə,
Qacarlar burada məhv edildi...
Səməddir başında şeirimin, məncə,
Vurğunsuz bir şeir İLHAM deyildir!..

Otuz il vuruşdu Qarabağ üçün
Erməni faşizmi bizimlə burda.

Otuz il vuruşduq İlhamımla mən:
Qalmasın Dastanım yolu yarıda...

İllərlə bitməyən ən uzun savaş
44 Gün içində iqdama yetdi.
Şuşada başlanmış bu qanlı təlaş
Şanlı bir Zəfərlə Şuşada bitdi.

Qalmadı "Azadlıq dastanı"m yarı,
Ürəyim vurduqca əlim yazacaq!
Tarixdə qəhrəman doğulanları
Milli ədəbiyyat yaşadır ancaq...

Böyük Avrasiyanın Rus çöllərində
Babam Rzaxanın məzarı vardır.
Vurğunun son "Zəfər" nəğmələrində
Dünya Hitlerlərin başına dardı...

Erməni faşizmi üzərində son
Zəfəri qazandı Rzaxan nəsli.
Mənəm bu Zəfərin nəğməsin yazan:
Qələbə nəfəsli, bahar nəfəsli!..

Ey xalqa, vətənə 10 Noyabrda
Qarabağ Zəfərin qazandıranlar!..
Qanlı savaşlarda - çətində, darda
ŞUŞAya dağ kimi arxa duranlar!

Sizi vəsf eləyir İlhamım mənim,
Tarixə yazılsın gərək bu hünər!
Bəli, zəmanəmin son Vurğunuyam:
Mənim İLHAMımdır bu böyük ZƏFƏR!

Ey zəfər Bayrağın Şuşaya asan
Tarixdə ən böyük igid qəhrəman!..
Şəhid zirvəsində sən dağa döndün:
Fanikən, əbədi Bayrağa döndün!..

Bu BAYRAQ  vətəninin namusu, arı,
Bu BAYRAQ vətəninin ruhu, canıdır.
Böyük  azadlığın ilk ixtiyarı,
Böyük İlhamımın həyəcanıdır...

Kiçik axıntılar quruyar gec-tez,
Selə dönər  gücü Kürləşənlərin.
Dünya qarşısında dayana bilməz
Qəzəbi YUMRUQda birləşənlərin!

**İkinci nəğmə**

## Qarabağ: ümumbəşəri müharibə...

**1**




**Səslən, Üzyirin "Üvertura"sı!..**
**Qarabağ "Koroğlu" meydanımızdır!**

**Komandan İlhamın ardınca gedən ORDU - ümummilli vicdanımızdır!..**

Riyazi məntiqlə yaşamır həyat-
Taleyin hər hökmü ilahidəndir.
Əgər pərvanəni yandırırsa od,
Odun da yanmağı pərvanədəndir...

Savaş siyasətin zor davamıdır,
Vəhşilik zamanı bitsə də çoxdan.
Qanlı qırğınlara bu gün can atır
Sakit görünsə də Qafqaz uzaqdan...

Sentyabr ayının 27-si
Üçüncü minillik, 20-ci il:
Qarabağ Azadlıq Zəfər Ordusu
Döyüş tapşırığın aldı əlbəəl!

Dumanlı bir səhər Azər əsgəri
Düşmən üzərinə hücuma keçdi.
“Bayrakdar” və “Harop” tapıb hədəfi,
İşğalçı haylara kəfənlər biçdi...

Kibersavaşlara başladı gənclik,
İlk gündən dağıldı 90 hay saytı.
“Anti-armaniya team” qrupu
Haylara cəhənnəm etdi həyatı.

İlk həmlə. Canlı tank alayı “öldü”:
Gömüldü çuxura Hayk oğulları.
“Arsax”dan cəhənnəm dibinə endü
“Böyük Hayastan”ın gop nağılları...

Cəbrayıl, Qubadlı, Ağdam, Füzuli,
Qaldırdı Koroğlu nərəsin göyə!..
Bu Vətən bölünməz, Xalq bölünməzdir-
Zəfər  bölünməzdir: VAHİDDİR!-deyə.

Quldurlar yağısı- Şir üzlü "Yaşma"
Erməni faşistə vahimə salmış.
Bu aslan tinətli mərd oğulları
Doğmuş analara alqış, min alqış!..

Dumanlar içində pəncələşərək,
Aşdılar Daşaltı maneələrin.
Əsrə bərabərdir, söyləyək gərək:
Savaşda  müddəti saniyələrin...

Xudat, Sabirabad, Lerik, Cəlilabad,
Lənkəran, Şamaxı, Bakı, Naxçıvan...
Kürdəmir, Qubadlı, Şəki, Ordubad,
Ağsu, İsmayıllı: Can Azərbaycan!..



Bu qanlı savaşda düşməni əzib,
Erməni faşistin canın aldılar...
Qələbə əzmilə hər əcrə dözüb,
Bəzən şeh, yarpaqla qidalandılar...

Şəhadət Vətənə bağlıdır ancaq!
Vəzifə davası aparmaz  igid.
Bu dünya durduqca hey ucalacaq
Ərşi-əlayadək qəhrəman şəhid!

İgidlər can qoydu Vətən uğrunda,
Qanlar Azadlığa sərmayə oldu.
Babək!  Əfridun!- deyə sonunda,
Şəhadət Vətəndə təkrar doğuldu!

İmanın ilk şərti Vətən haqqıdır,
Şəhadət Vətənin yolunda olur!..
Kim deyir azadlıq sən-mən haqqıdır?
Şəhadət Vətənin  uğrunda olur!..

2




Ölməz Mübarizim,  ruhun şad olsun:
Bu Zəfər sənindir! Şəhidlərindir!
Zülmət bir gecədə can versən də sən,
Bu Zəfər açılan ilk səhərindir!..

Tehran Mənsimovla Hikmət Mirzəyev
Şuşa tarixini təkrar yazdılar.
"Yaşasın Azadlıq!" "Qarabağ!"- deyə,
Zəfər bayrağımı pikdən asdılar!..

Topçu Vüsalım da ön cəbhəmizdə
Düşmənin başına alovlar tökdü.
Qondarma "Qarabağ parlamenti"sə
Azəri əsgərin önündə çökdü.

SİHA-lar düşmənə kibersəd çəkdi,
"İtqovan"larımız itləri qovdu...
Erməni faşistin papağın tökdü
Azəri xalqımın Milli Ordusu!



Heydər Əliyevin ordusudur Xalq!
Düşmənlər önündə yenilə bilməz.
Bizimdir bu torpaq, gözəl Qarabağ,
Ey əsgər! İlhamla irəli tələs!..

Şühəda doğuran Vətən eşqidir,
Əgər vətən yoxsa, cənnət də yoxdur.

Rəşadət doğuran Zəfər əzmidir,
Əgər Zəfər yoxsa, şöhrət də yoxdur!..

Vətənə bağlıdır dahinin ömrü,
Əgər vətən yoxsa, düha da yoxdur.
Vətənsiz deyildir Tanrının əcri,
Əgər vətən yoxsa, əhya da yoxdur!

Ey APREL günləri Lələtəpədə
Müzəffər tuğuma Zəfər yazanlar!
8 NOYABRda təkrarən bir də
Şuşa üzərinə Bayraq asanlar!..

Ey qoç Koroğlunun mərd igidləri,
Qarabağ sizindir! Şuşa sizindir!..



Polad Həşimov tək xalq şəhidləri
Qaldırın Bayrağı başa: SİZİNDİR!

Eşq olsun yurdumun ərənlərinə!
İsmi əbədidir qəhrəmanların...

Ruhunu bayrağa çevirənlərə
Taleyi borcludur sağ qalanların!

Fəqət Vətən satan xainlər də var:
Lənətlə yad edir onları bu el.
Həmzələr, Smbatlar və Yalıncıqlar
Bizim bu millətdən, bu xalqdan deyil!

Ot kökü üstündə bitər demişlər,
Zatı olmayana kök nə gərəkdir?
Qoyun sürü ilə otlağı gəzər,
Aslanlar meydanda həmişə təkdir.

Füzuli-Ağdərə döyüşlərində
Satqın bir general planı üzrə...
Minlərcə əsgərim günün birində
Oldu dörd tərəfdən tam mühasirə...

Ey şəhid övladı, şax tut qəddini!
Atanın ruhunu yaşadırsan sən.
Özün tək diri bil daim cəddini:
Unutmaz şəhidin bu el, bu vətən!

Şəhadət - yoludur azad Vətənin:
Oğullar ölməzsə, doğulmaz Zəfər!
Qəhraman bir şəhid ruhudur, bilin,
Hər doğan ilk Günəş, açılan səhər!

**Səslən, Üzeyirin “Üvertura”sı,**
**Qarabağ “Koroğlu” dastanımızdır.**
**İlham Əliyevin qaldırdığı bu**
**Yumruq Azərbaycan QALXANımızdır!..**

3



İlərlə BMT qətnamələri
Kağız üzərində düşüb qalsa da,
44 gün içində Azər əsgəri
Qarabağ  ismini saldırdı yada...

Şeytani bir dildir Diplomat dili-
Könüldən keçəni gizlətmək üçün.
Havaya sovurdu ATƏT çox ili,
Etiraf etməyə bilmərik bu gün...

Dərdi başqa imiş Makronların da,
Yalanın 40-ca gün ömrü olurmuş.
“Sülh”dən hey dəm vuran tribunların da
Atəşin söndürdü Şuşada bir qış!

Türkə dəstək verdi qardaş Türkiyə!
Eşq olsun Atatürk oğullarına!..
Tək Dəmir Yumruqla tüpürdük deyə
Qərbin diplomatik nağıllarına!..



**Cənab Ərdoğana min alqış gərək!**
**Bəli, fəxarətlə döyünür ürək...**
**Türklüyün  şərəfin qaldırdı göyə.**
**Qardaşlıq əbədi mirasdır!- deyə..**



**Unuda bilmərik dost Pakistanı:**
**Ruhumuz, qanımız, canımız birdir!**
**Tanıdıq çətində dost İmran Xanı-**
**Türkə tərəf duran yalnız türklərdir!..**

Sən ey Qəznəvilər, xan Teymurilər,
Şahruxlar, Baburlar yurdu Pakistan!

Tarixin yenidir,  çox da deyirlər,
Sinəndə məhəbbət salıbdır  Şirvan!

Böyük məhəbbəti Böyük Əkbərin
Yaşayır bəşərin xoş xəyalında:
Dərin mənası var bu ülvi eşqin
Cahana sığmayan Tac-Mahalında.




**Pir Allahi yurdu Bakı** üçün sən
Doğma  qardaşdan da bizə əzizsən.
Dərs   alıb Bakuvi dərvişlərimdən
Paklara  min alqış söyləyirəm mən!..

**Qıpçaq əmirəmiz Raziyə bəyim**
**İllərlə tacını gəzdirib sənin...**
**Bu ağır günlərdə unutmaz mənim**
**Xalqım  İmran Xanın qardaş köməyin.**

Avrasiya içrə biz vahid bir gücük:
Geosiyasətlər  türksüz qurulmaz!
Şeyx İbrahimin Şirvan eşqiyik-
Güclü sevgilərdən hesab sorulmaz!

Bir Şahrux  Baburlar  tarixin yazdı,
Bir Şahrux Şirvanın şəhadətini...
Bir  Teymur Şirvanı bağrına basdı,
Bir Teymur Paklığın sədaqətini.






İlk **nəvəm Ərteymur Atabəyli**dən
Pakistan xalqına salamlar olsun!
Şanlı keçmişimdən gələn nəsildən
Müzəffər Günəşli  sabah doğulsun!

Qardaşlıq doğuran Zəfər günündə
Sevin, doğma Bakım!  Sevin, Xəzərim!
Aşiq ürəyimin sarı simində
Dostluqdan danışır canlı əsərim!..

**Xəzər xaqanlığı- əşkinazilər**
**Azəri türkümə əlin uzatdı.**
**İsrail  yumruqlu  kiber mərmilər**
**Erməni faşizmin qana boyatdı.**

Bəli, xəzərlərin varisiyəm mən:
Tarixə hökm etmiş Eldənizlərim!
Mənimdir bu torpaq, bu göy, bu vətən-
Bu dostlar, qardaşlar: ilk əzizlərim!..

Mən yaxşı bilirəm sədaqət nədir:
Nədir qardaşlığı doğma ellərin?!
Mənim İLHAMım tək tam əbədidir
Bu  sufi dostluğu pak könüllərin!



**Ərdoğan, İmran Xan, İLHAM-** bu gün mən
Bu dostluq önündə təzim edirəm..
Sufi qardaşlığa güvən, ey  VƏTƏN,
İLHAMLI  ZƏFƏRə  doğru gedirəm!!!

8 Noyabrda doğma Şuşamda
Qardaşlıq və Dostluq ilk Zəfər çaldı.
Qədim Şirvanımın Şah Sarayında
Dərbəndi türklüyün ruhu ucaldı!..

Namərd gülləsi də atıldı bizə,
Arxada gizlənmiş mənfur dəstədən.
Düşmənlər yenildi qüdrətimizə,
Alqış söyləyirəm bu QÜDRƏTə mən!..

PKK, UPG, ASSALA... endi,
Neçə tip terrorçu qaçdı meydandan.
Müzəffər türklüyün qalib önündə
Atdı bayrağını məğlub Hayastan!..

Etnik klanların ayı türləri
Əlində etməkçin türklüyü mağmın,
Total  bir nəzarət qurmaq istədi
Avropa üstündən  özəl haqqımın?!.

Füzuli, Cəbrayıl, Zəngilan, daha
Qubadlı, Kəlbəcər, Laçınla Ağdam...
Ta Hadrutadək azad olundu.
Zəfər raportları aldı Komandan!

**İlham Heydər oğlu!.. Baş komandanım!**
**Sizinlə döyünür çarpan hər ürək!**
**Uca şəninizə  "FATEH" dastanım**
**Qızıl hərflərlə yazılsın gərək!**



General  qüdrətin  yaşa dolsa da,
Bütün gənclik üçün  son rəhban oldun!
Şuşa zəfərlərin yeni olsa da,
Vətənə əbədi qəhrəman oldun!

Dəmir Yumruq kimi birləşib bu gün
Tamam bütünləşdi Dövlət-Xalq-Ordu:
8 Noyabrda Şuşa Zəfərin
Yazdı  Tarixlərə HEYDƏRin  oğlu!..

XTD-lərimiz bir aslan kimi
Dovşan erməninin  canını aldı.
Azadlıq Bayrağın haqq çırağıtək
Şuşa zirvəmizin  üstə ucaltdı...

Əldə-ayaqdadır Minsk Qrupu,
Nə deyək 30 il göz yumanlara...
Kipr, Yunanıstan, Fransa, beca,
Atəşkəs istəyir Hay siçanlara?!.



Xeyr! Gecikmişsiz, cənablar, daha
Cəhənnəm yolçusu odda da ölür!
Bu qış cəhənnəmdir Haykaza Şuşa:
Bahar Xəzərlərin üzünə gülür!..

Qarabağ bizimdir, tək ad çəkilir:
“Qonaq” statusun  çox tez unutduz?..
Artıq gözünüzdən axıb tökülür:
Bizlə kəsdiyiniz həm çörək, həm duz!!.



Uyub “Hayastan”da nağılbazlığa
Qafqaza min yeni “Tarix” yazdınız...

“Qızıl yun” ardınca Kolxidadasa
Arqo gəmisi tək təkrar azdınız...

Tarixdə Troya, Turan var yalnız,
Mete-Oğuz kağan hun keçmişimdir.
İnsanlıq olubdur ilk amalımız,
Adəm cəddi ilk Türk anla gör kimdir!

Bir ucu Alyaska, bir ucu Firəng-
Belədir ünvanı Dəşti-Qıpçaqın.
Tarixim tarixdən min kərə nəhəng,
Zamana hökm edir bu gün də çağım.

Parflar türkün orta Asiyasından
Yunanlar üstünə baş qaldırdılar.
Cahanı Ellindən qurtardı Turan,
Tarix kitabında başqa de nə var?..

Şərqi Türkistanda- Turfan, Duxanda
Hər daş kitabə min illik duğumdur.
Orxan-Yeniseyim Gün Doğanımda
Avrasiya yönümlü könül qayğımdır..

Dünyanın birinci Darül-Fününu
Bağdadda qurulmuş “Nizamiyə”dir.
Səlcuq Alp Arslanıçm açmışdır onu,
Çağ: 1066 miladi ildir!..

Qoy Tarix söyləsin, tərəf tutmayaq:
Qələm, yoxsa Qılınc yendi Yunanı?..
Qələmi, Qılıncı durarsa dayaq
Zəfər izləyəcək daim Turanı!

Haqqın, Həqiqətin milləti olmur,
Haqqın, Həqiqətin Allahı olur!
Zülmətdə boğulmaz ilahi bir Nur:
Bütün gecələrin sabahı olur!..

30 il sərasər Minsk Qrupu,
Bakı-Yerevana gəlib getdilər...
Qarabağ adlanan Azər yurdunu
Xaçın tələbilə Haykın dedilər...

Şeytani bir dildir Diplomat dili-
Könüldən keçəni gizlətmək üçün.
Havaya sovurdu ATƏT çox ili,
Etiraf etməyə bilmərik bu gün...

30 il sərasər qan ağladım mən
Sənin bu müztərib halına, Vətən.
Bir yanda ağladı Natavan gözəl,
Bir yanda qəlbimdə pəri bir Qəzəl:

Mənim bu dəhri-dun içrə adamə ehtiyacım var,
Nə dünyayə, nə üqbayə, nə damə ehtiyacım var.

Yarın hüsni-kitabından alıb dərsin mənim könlüm,
Nə əlif-zal, nə mimü-qaf, nə lamə ehtiyacım var.
Cahanda bir padişahə itaət etmədim əsla,
Nə bir xasü-xəlayiqə, nə amə ehtiyacım var.

Tutub bəhri-bərimi öylə qeyz ilə şəbixunriz,
Nə pərvanə, nə bir atəş, nə şamə ehtiyacım var.
Yusifi-Misri tək yerim quyu oldu, ya da zindan,
Nə qardaşdan, nə də yardan salamə ehtiyacım var.

Yetər,  ”Dəşti-Muğamat”la ovundur qəlbimi, ey tar,
Dəramədsiz danış mənlə, muğamə ehtiyacım var.
Edə bilməz həkamətlə ürəyimi ədu məhkum,
Fəqir könül sarayımda həşamə ehtiyacım var.

Yem üçün yer gəzən çərkəz deyildir qəlbimin mürğü,
Bir Ənqayam, nə nəxcirə, nə damə ehtiyacım var.
Ata, künci-xərabətdə qəmü-dərdə batan muğəm,
Nə saqiyə, nə səhbayə, nə camə ehtiyacım var.

***

Kimlərəsə FORPOST  lazımdır Qafda,
Noxta keçirilib Haykın boynuna…
Saxta xəritədə, saxta kitabda
“Ağıl öyrədilib” Ərnən qoynuna?!

“Xocalı” açanda Haykın iç üzün,
Dünya “məzlumluğun” gördü İblisin.
İkili standart yumanda gözün,
QANUN Avropaya daha nə desin?..

Krit əlifbası (Egey dənizi):
Heroqlif əsaslı “B” xətti yazı-
Turan hürufudur, Türk əlifbası,
Turansız tanımır Tarix Qafqazı…



**Açın Krameri, Süleymenovu!..**
**Şumeri, Etrusku öyrənin dərin.**

**Türkcədir Qaf  Dağın zəka alovu,**
**Türkcədir ilk sözü uca göylərin.**

**Mənəvi gücdədir ən böyük qüdrət,**
**Əsrlər elmlə bir-birin ötüb…**
**Bəşər yaranandan budur həqiqət:**
**Tarix mənəvinin ardınca gedib…**

4

Rayner Rılkenin pritçası var:
“Əjdəhaya qalib gəlmiş qəhrəman.”
Nəmərçin yarışmaz  əsl pəhləvan:
Vətən söhbətində yoxdur can, canan...

Bir zamanlar  “İlham” adlı qəzetdə
Şöbənin müdiri çalışmışam mən.
Həmin pritçanı günün birində
Çevirdim Mariya Rayner Rılkedən.

Ana Vətən üçün hamı uşaqdır:
Hər igid general, əsgər,  qəhrəman...
**Söhbət vətəndirsə, başqa söz yoxdur,**
**Azadlıq savaşı getdiyi zaman.**




Oxudum Puşkinin, Lermontovun mən
Rusları vəsf edən əsərlərini.
Çar demək deyildi onlarçın Vətən,
Xalqa çevirəndə nəzərlərini...

Firənglərə qarşı  Borodinoda
Moskallar yenəndə Napolionu;
Puşkin Pyotra yazanda “Oda”
Qərbə mesaj verdi işğalın sonun...

Dahi Tolstoyun “Hərb və sülh”ünü
“Qurani-şərif”dən az oxumadım.
Təqdir eyləmədim insan ölmünü:
Savaşa nifrətlə keçdi həyatım.

Xeyr, ayırmadım mən Kutuzovu
Monqola toy tutmuş Kutuz bəyimdən.
Bəli, ayırmadım heç vaxt Sidonu,
Rusun Borodino adlı çölümdən...

Çarizmi sevmirdi böyük Puşkin də,
Fəqət Rus hünərin kəşf eylədi o!..
Çarizm Moskvanı tərk etmişsə də,
Borodin  Zəfərin vəsf eylədi o!..



Azadlıq şairi sayılır Puşkin,
Cahana, İnsana, Xalqa azadlıq!
Neçə həbs gördü, neçə də sürgün...
“Puşkin meydanı” var: adına layiq!

Qafqaza girəndə Rusun süngüsü
Puşkin də onlarla bir yerdə idi...
Polşanı boğanda Rus tülüngüsü
"Borodino" yazdı ilham pərisi...

Bəli, bir şairəm doğma ölkəmdə,
Düşməni deyiləm mən heç bir xalqın.
Sevmirəm Bayrondan az mən, bəlkə də,
Başqa millətlərin  Azadlıq haqqın!..

"Sevirəm Qafqazı..." Puşkindən artıq,
Qafqazlı etmişdir məni də qədər.
Vicdanım önündə deyirəm açıq:
Sevirəm Novanı Nəsimim qədər...

Azadlıq "işıq"dır,  Azadlıq- həyat!
Azadlıq hər kəsin haqqın tanımaq!
Azadlıq olmazsa, bütün kainat
NÖQTƏdən ibarət olardı ancaq...

Bu gün sağ əlimlə tutduğum qələm
Sabah  sol əlimə cavabdehimdir.
Məsuliyət üstə qurulub aləm,
Başı pozuqlarsa tamam heç kimdir!

Fəqət asan deyil Haqqa tapınmaq:
Azadlıq hər xalqın halal malıdır!
Şərəfdir millətə bir əsgər olmaq,
Azadlıq daima qorunmalıdır!..

Bəli, gəncliyimdə Sovet sərhədin
Mən də qorumuşam bir zabit kimi.

Heç bir siyasətə satmamışam mən
Sinəmdə bölünməz Vətən eşqimi.

Vətən vətəndaşlıq deməkdir öncə.
Hüquqsuz bir diyar "vətən" deyildir:
Hüququ tapdanan insançın, məncə,
Torpağın üstündən yaxşıdır Qəbir!

Vətən – içdiyim su, yediyim çörək!
Vətən azadlığım, ədalətimdir!
Vətən sinəm içrə döyünən ürək,
Vətən varlığımdır, həqiqətimdir!

Vətən keçmişimdir, Vətən bu günüm,
Vətən ən işıqlı gələcəyimdir.
Vətən hər nəfəsim, hər səsim, ünüm,
Vətən ümidlərim, görəcəyimdir!

Hüquqsuz bir Vətən vətən deyildir,
Məni qorumayan Vətən – düşmənim.
Vətən müdafiə edən vəkildir:
Vətən hüququmdur, haqqımdır mənim!

Çox da siyasətdən kənar biriyəm:
Haqqıma, hökmümə VƏTƏN deyirəm.
Nə qədər ayaqda durur, diriyəm:
"Əlincə", "Ərkimə" VƏTƏN deyirəm.

...Qədim Naxçıvanda sərhəd boyunca
Çox keşik çəkmişəm şaxtada, qarda...
Əsgəri andımı tutmuşam uca:
Harda sərhəd varsa, vətən var orda!

Qəhrdən az qalır canım boğulsun:
Əsla keçmişimə xətt çəkmərəm mən,
İdeya, siyasət nə olur olsun,
Hər şeydən irəli Anadır Vətən!

Anadır mənimçin Böyük Avrasiya,
Ağdaşlı Mockovu Şirvanım tikmiş.
Gəncəmdə yaxşı bax bağa, baxçaya
Yuri Boqolyubov min ağac əkmiş...

Apollon sevdalar keçməz könlümdən,
Satmaram Faust tək qəlbi İblisə.
Mənim İLHAMımdır bu doğma VƏTƏN,
Hazıram bu vətən nəyi əmr etsə!..

Babam Eldənizlər dövləti qurdu:
Hər kəs bu vətənə vətəndaş oldu.
Nizamim vəsf etdi bu gözəl yurdu,
Mıxtar Qoçlarım burda doğuldu!..

Bəli, şairlik də bir əsgərlikdir,
Sənətin, İlhamın keşiyin çəkmək!
Sərhəd dirəyi tək tənhadır, təkdir,
Keşikdə durubsa sinədə ürək!

Xeyr, asan deyil şairlik etmək,
Sözün ağrısını yaşamaq qəlbən...
Şeir tənhalıqdır. Bu yolu getmək-
Uzağa düşməkdir qəlb istəyindən...

Bəli, asan deyil şairin işi,
Qəlbinin qanıyla misralar yazmaq!

Susdurub büsbütün çərxi-gərdişi,
Ürəyin  səsini dinləmək ancaq!

Allahlıq etməkdir  Sözü xəlq etmək,
İlahi bir güc var şair sözündə,
Xeyr, asan deyil bu yolu getmək,
İnsanlı, iblisli bu yer üzündə...

İlham qanadında şairə Leyla
Gəzmiş Qarabağın gül camalını.
Vətənin Natavan bir zamanında
Göstərmiş cahana pür kamalını...

“Qarabağ bizimdir!”- söylədi Leyla
İlk bahar nəfəsli misralarında...
İlhamlı anlarda getdi xəyala
Müzəffər  Ordumun sıralarında!



Nənə Natavanın Qərənfillərin
O düzdü misra tək şəhidlər üstə.
Azad Qarabağda əsən yellərin
Nəfəsin duyurdu şeirlərində...

Əhsən, o kamala, o İLHAMa ki,
Zəfərə şeirdən çələng bağladı.
Əhsən, o misraya, o kəlama ki,
Azadlıq qoynunda coşub çağladı!..

Kamanım, tarımdır mənim Qarabağ!
İlham mələyimdir xarı bülbülüm!
Şəhadət zirvəsi əbədi çırağ,
Zəfər çələngimdir Şuşa tək gülüm!

Həyat yaranandan insanlıq üçün
Mərdlik, qəhrəmanlıq edilmiş seçim.
Azadlıq dastanın bu azad Vətən
Qələm yox, Qan ilə yazmışdır daim!..

Qalib millətimin nəzər nöqtəsi
Daim Zəfərlərin üzərindədir.
Dumanlar içində başlayan hərbim
Aydın səhərlərin üzərindədir!

Bu Zəfər günündə doğuldu nəvəm:
Ərteymur qoyduq biz onun adını.
Dilini açan tək dedi: Əsgərəm!
Tanrı təyin edib təyinatımı!..

Mən zəngi yurduma- şah Qubadlıma
Atımı dördnala çapıb gedəcəm!..
Atıb ilk qədəmi ata yurduma,
Onun hər qarışın cənnət edəcəm!!

Böyü, gözəl bala, arzun çin olsun!
Böyü bu azadlıq, bu Zəfər kimi...

Arzundan min yeni arzu doğulsun,
Böyü bir komandir, bir əsgər kimi!

Bəli, ilk Zəfərin  ərəfəsində
Gəldi bu dünyaya **Ərteymur nəvəm!**
Azad Qarabağın ilk müjdəsindən
Gözümdə büsata döndü bu aləm!



Qarlı bir gecədə Baharım gəldi,
Gülləyə bürünmüş güllər ilə bir.
O Bülbül nəğməsi ucadan dedi:
Qarabağ bizimdir! Şuşa bizimdir!

Əzəldən belədir eşqin Dastanı:
Son sözü gələcək nəsillər deyir...
Azadlıq sevdalı Azərbaycanı
Ucaldaq göylərə!- ilk ZƏFƏR deyir.

Azəri xalqımın haqq sevgisindən,
Həqiqət eşqindən doğdu Ərteymur!
Qəlbimin hökmilə deyirəm ki mən:
Qutsal həqiqətin son hökmü odur!!.

Mənim həyatımda çox savaşlar var:
Sənin gəlişinlə çökdü düşmənlər...
Böyü, Ərteymurum! Sənindir  Bahar,
Sənindir bu  azad güllər, çəmənlər!

Keyqubad Adilin Zəfər ruhunu
Doğma Qubadlıya sən gətirmisən!
Cavanlıq eşqiylə Qoca Şirvanı
İlhamlı Zəfərə sən yetirmisən!

O hansı Daşdır ki, Tanrı gücündən
Qayanın köksündə çiçək bitməsin?!
O hansı duadır qəlbin içindən
Gəlib keçə bilsin: Haqqa yetməsin?!.



Mehriban xanımın xoş duasıyla
Açılan səhərə salamlar olsun!
Taleyin, tarixin ilk mənasıyla
Yazılan  Zəfərə salamlar olsun!

**-Ey könül, qapını daim açıq tut:**
**Gözəl rəhimi var gözəl Allahın!**

**İblisin, şeytanın adını unut,**
**Gözəl isimi var gözəl Allahın!**

**Tanrı məhəbbətdir, iman bir barış.**
**Tale bir oyundur, həyat bir yarış.**
**Nə işə əl atsan, ALLAH! -de,   çalış,**
**Gözəl əzmi var gözəl Allahın!**

**Qəlbinin şahı ol, Tanrının qulu!..**
**Səadət yoludur Quranın yolu.**
**124  min haqqın  rəsulu,**
**Gözəl məsumu var gözəl Allahın!**

**Qeybdə yazan var şərin cəbrini.**
**Qazma arzuların, eşqin qəbrini!**
**Qoru ümidini, üzmə səbrini,**
**Gözəl dözümü var gözəl Allahın!**

**Xızrı, İlyasıdır bir an yatmayan,**
**Nuhun gəmisidir heç vaxt batmayan!**
**Nakəsin, namərdin əli çatmayan**
**Gözəl bəzmi var gözəl Allahın!**

**Həqiqət  ardınca könül at çapar,**
**Məhəbbət ünvanın Tanrıda tapar!..**
**Ədalət pozulsa, Qiyamət qopar,**
**Gözəl çözümü var gözəl Allahın!**

**Ey Ata! Könlündə tək Allahla ol!**
**Müqəddəs İslamdır tutduğumuz yol!**
**Gözüm Ona heyran! Könlüm Ona qul!**
**Gözəl rəsmi var gözəl Allahın!..**

Böyük millətimin Zəfəridir bu:
Alın yazısıdır taleyimizin.
Odur ki, bu qanlı  savaşın sonu
Güldürdü Vətənin hər iki gözün!




Sevin, əziz Bakı!.. Gül, əziz millət!
Bu Zəfər tarixi haqqındır sənin.
Yalandan güclüdür hər bir həqiqət,
Zəfəri halaldır doğru Vətənin!..

Haqqın, azadlığın qart düşmənləri
Vətənçin ölməyi bacarmadılar...
Torpağı  böldülər, xalqı böldülər,
Zəfəri bölməyi bacarmadılar!

**Səslən Üzeyirin "Üvertura"sı,**
**Qarabağ "Koroğlu" meydanımızdır!**
**Heydər Əliyevin yoluyla gedən**
**İLHAM ümummili vicdanımızdır!**

5

Mən yaxşı bilirəm sədaqət nədir:
Nədir qardaşlığı doğma ellərin?!
Mənim İLHAMım tək tam əbədidir
Dostu-qardaşlığı pak könüllərin!

Ərdoğan, İmran Xan... Bəli, bu gün mən
Bu dostlar önündə baş da əyirəm.
Böyük qardaşlığa güvənən VƏTƏN
Böyük bir Zəfərə yetdi!- deyirəm.

Namərd gülləsi də atıldı bizə,
Arxada gizlənmiş mənfur dəstədən.
Düşmənlər yenildi qüdrətimizə,
Alqış söyləyirəm bu QÜDRƏTə mən!..

PKK, UPG, ASSALA,.. daha
Neçə tip terrorçu qaçdı meydandan.
Müzəffər türklüyün qalib önündə
Endirdi bayrağın məğlub Hayastan!..

Etnik klanların ayı türləri
Əlində etməkçin türklüyü mağmın,
Total bir nəzarət qurmaq istədi
Avropa üstündən milli haqqımın?!.

**Füzuli, Cəbrayıl, Zəngilan, daha**
**Qubadlı, Kəlbəcər, Laçınla Ağdam...**
**Ta Hadrutadək azad olundu.**
**Zəfər raportları aldı Komandan!**

**İlham Heydər oğlu!.. Baş komandanım!**
**Sizinlə döyünür çarpan hər ürək!**
**Uca şəninizə "FATEH" dastanım**
**Qızıl hərflərlə yazılsın gərək!**

Heydərim! Hünərin yaşa dolsa da,
Ruhunla gəncliyə son rəhban oldun!
Şuşa zəfərini 40 gün gün yazsa da,
Tarixə əbədi qəhrəman oldun!



**Dəmir Yumruq kimi birləşib o gün**
**Tamam bütünləşdi Dövlət-Xalq-Ordu:**
**8 Noyabrda Şuşa Zəfərin**
**Yazdı Tarixlərə "HEYDƏRin oğlu"!..**

Bu Zəfər vətənin şanlı növrağı,
Tarixin, taleyin mənası oldu!
Şuşaya asılmış Zəfər bayrağı
Heydər Əliyevin imzası oldu!..

Girib bu savaşa bir gəngavər tək,
Şuşanın zəncirli qolunu açdı.
Cəbhədən cəbhəyə qoşun çəkərək
ZƏFƏRin tarixə yolunu açdı!..

XTD-lərimiz bir aslan kimi
Dovşan ermənin canını aldı.

Azadlıq Bayrağın haqq çırağıtək
Şuşa zirvəmizin üstə ucaltdı...

Əldə-ayaqdaydı Minsk Qrupu,
Nə deyək 30 il göz yumanlara...
Kipr, Yunanıstan, Fransa, beca,
Atəşkəs istədi Hay siçanlara?!.

Xeyr! Gecikmişsiz, cənablar, daha
Cəhənnəm yolçusu odda da ölür!
Bu qış cəhənnəmdir Haykaza Şuşa:
Bahar Azərimin üzünə gülür!..

Qarabağ bizimdir, tək ad çəkilir:
“Qonaq” gəlmənizi çox tez unutduz?..
Artıq gözünüzdən axıb tökülür:
Bizlə kəsdiyiniz hər çörək, hər duz!!.

Mən yaxşı bilirəm etibar nədir:
Nədir qardaşlığı doğma ellərin?!
Mənim İLHAMım tək tam əbədidir
Dosta sədaqəti pak könüllərin!..

Mən də az görmədim saxta “dostları...”
Meydanda tək qoyub dostu qaçdılar.
Üzünə çevirib köhnə astarı,
Təzə “bəylər” kimi məndən qaçdılar?!

Bəli, gecə quşu, yapalaq əsla
Günəşi, gündüzü sevməz ürəkdən.
Hər satqın əsgərə, hər xain “dost”a
Döyüş meydanında tüpürürəm mən!

Savaşda sınanır əsgər dostluğu:
Vətəndə sınınmış şəhadət kimi!
Böyükdür, ülvidir bu qutsal duyğu
Vətənə, millətə sədaqət kimi!

Azadlıq "işıq"dır, Azadlıq- həyat!
Azadlıq hər kəsin haqqın tanımaq!
Azadlıq olmazsa, bütün kainat
Bir xətdən ibarət olardı ancaq...

Siz ey savaşlarda can qurban vermiş,
Vətənin sevdalı mərd şəhidləri!..
Sizi bu torpağa Tanrı göndərmiş,
Cənnətə çevirmək üçün hər yeri!

Sizi vəsf eləyir İlhamım mənim,
Tarixə yazılsın gərək bu hünər!
Bəli, zəmanəmin son Vurğunuyam:
Mənim İLHAMımdır bu böyük ZƏFƏR!

8 NOYABRda Şuşa pikimdə
Milli Bayrağıma Zəfər açanlar!
Sizin şəninizə bu gün Qələm də
Yazır poemalar, qoşur dastanlar...

Bu zəfər Azadlıq hərəkatından,
Qanlı meydanlardan yol keçib gəlib.
Azəri xalqımın milli adından
Dünya tarixinə qol çəkib gəlib!..




Qarabağ – azadlıq, şərəf deməkdir,
Ən ağır cəzadır şərəfsiz ölmək!
Qarabağ Zəfəri milli birlikdir:
Əsl alçaqlıqdır Zəfəri bölmək!

Bəli, ən şərəfsiz düşmənə qarşı
RƏHBƏRin ardınca getdi şəhidlər!
Unudub hər şeyi- gəncliyi, yaşı
ZƏFƏRin ardınca getdi şəhidlər!

Siz ey şahədətin taxtına sahib
Böyük Zəfərimin mərd əsgərləri!
Şəhidlik rütbədir: rüşvətsiz, ali...
Tarix alqışlayır sizin hünəri!..

Qanla möhürləndi şöhrət-şanınız,
Azad Vətən adlı əbədiyyətə.
Hədər axmamışdır sizin qanınız:
Görksiniz ümumən bəşəriyyətə!

Ağır savaşlardan keçən bu elin
Zəfərin vəsf edən bir şairəm mən:

**Azadlıq səsiyəm haqq-hürriyətin.-**
**Yaşa, Böyük Zəfər! Qəhrəman Vətən!..**

***

6



Haqqın dərgahına Fərhadlar kimi
Əlində külüngü gələnlərik biz.
Qəlbində gizlədib kədəri, qəmi,
Həsrətin üzünə gülənlərik biz.

Mənasız gəlmədik biz bu həyata.
Andı, sədaqəti vermədik bada.
Bu zəri, zərgəri saxta dünyada
Saf zərin qədrini bilənlərik biz.

Hər ağıl anlamaz sevdanın gücün.
Tacdan yuxarıdır bizimçin hüsn.
Bir zərif ürəyə yol açmaq üçün
Min dağın köksünü dələnlərik biz.

Birdən uca deyil məqamı yüzün.
Əyrinin ağası, quluyuq düzün.
Eşqin kitabından xəyanət sözün
Bağrının qanıyla silənlərik biz.

Eldən ayrı deyil bizim baxtımız.
Haqqa dua ilə keçir vaxtımız.
Qurulub qəm üstə könül taxtımız,
Sevinci hamıyla bölənlərik biz.

7

Faşist Nijdelərin kölə ruhları
Eçmədzin içində hay qoparanda,
Zəfər müjdəsini verdi xalqlara
Ali Baş komandan Azərbaycanda!

Ədalət uğrunda çarpışdı xalqım:
Qonağa yerini göstərmək üçün.
Verilə bilərmi gəlməyə haqqım?-
Verdik cavabını son mənfur küfrün...

İsanın "Qan tökmə" fikrinə qarşı
ATƏT dəstəklədi qantökənləri.
30 il geriyə salıb BARIŞı,
Tam ələ saldılar bütün bəşəri?!..

Faşist Nijdelərin kölə ruhları
Eçmədzin içində hay qoparanda,
Zəfər müjdəsini verdi xalqlara
Ali Baş komandan Azərbaycanda!

Əli avtomatlı Anna Akopyan
Şuşada, Xan kənddə daban yoranda

**Bakıda ay üzlü Xanım Mehriban**
**Barış çağırışı etdi cahanda!..**




**Mən təbrik edirəm xalqı bir daha:**
**Mübarək deyirəm bu xoş Zəfərə!**
**Alnımız açıqdır bizim Sabaha,**
**Alqış bu MEHRİBAN, cəsur Hünərə!**

**Əli avtomatlı Annanın, yayğın,**
**Tarix kül élədi küt təpəsindən...**
**Könlüm İlham aldı Mehribanlığın,**
**Şuşada müzəffər təntənəsindən!**

Savaşın on min il tarixi vardır.
Aqrar mədəniyyət doğurmuş onu.
Yalnız malbaşlara bu dünya dardır:
Elm-texnikadır Barbarlıq sonu.

Mülkdür özəl haqqın təməli.- Roma
Belə bir hüquqla çıxmış ortaya.
Təbiət vətənsə hər bir canlıya,
Özəl haqq nə gərək torpağa, çaya?..

Nədən özəl haqqı yoxdur biliyin,
Nədən ümumişlək olmuş alətlər?..
Bir ovuc tarixdə çürümüş beyin
Özəl mülkçiliyi bizə vəsf edər...

Kəşflər,  icadlar ümumbəşəri,
Ağızlar, nəfislər özəldir hələ.
Tanrı hamı üçün yaratmış yeri:
Özəllik hüquqlar gedilməz belə!

Ağlı yetməyənlər idrak etməyə,
Əlinə almışlar daim silahı:
Ömrü sərf etmişlər yalnız yeməyə,
İblisin adına yazıb günahı...

Ailə məktəbdir!  Elm məktəbdir!
Nəsillər yürüşü  bir estafetdir!
Öyrənmək, öyrətmək ilkin tələbdir:
Nəvələr babanın ardınca gedir...

Başını uca tut komandir Heydər!
Sən də yaşat adın BABA HEYDƏRin!
Ən böyük məktəbdir o dahi Rəhbər,
Hələ qarşıdadır sənin hünərin!..

Ömür ötəridir, arzu əbədi...
İnsan köç etsə də arzular qalar.
Həyat ki nəsillik yoldur, körpüdür-
Babadan sonrasın nəvələr salar...

İnsanda təbii gözəllik ki var:
Yalnız mənaviyat, ağıl nur saçır!
Mövsimi bir şeydir bütün savaşlar:
Tarixə  məktəblər, elm yol açır!..

Təbiət  əvvəlcə Sözü yaratdı,
Sonra da bu sözə can verdi Allah!

Tarix  Sözlə durdu, Söz ilə yatdı:
Söz ilə açıldı Fikirdə sabah!..

Daim Sülh istədi  Baba Heydərin,
İnsana, millətə  dostluq lazımdır!
Azəri yurdudur doğma Vətənin,
Can Azərbaycan ilk  alın yazındır!

Azəri yurdunun hər vətəndaşı
Yeni Zəfərlərin marağındadır!
Şəhid evlərindən axan göz yaşı
Sevincli günlərin sorağındadır!..



Əbədi  konflikt, total xaosla
Xalqı aldadanda beynəlmiləl şər,
Danışmaz heç zaman quru pafosla
İlhamı FATEHə dönmüş dahilər!

Bizlər ruhumuzu satmadıq heç vaxt
Mefistofellər tək  xain varlığa.
Yaşadıq Ramzesdən, İblisdən uzaq,
Can qoyduq İlhamlı fədakarlığa...

Kiber bir cəmiyyət yaradır bəşər,
Millətlər elmdə yarışa çıxmış.

Üç yüz il Məğribdə at çapdı min Şər,
Nəhayət, zəfəri qazandı BARIŞ!

Hərdən yolum düşür kənd Sığırlıya,
Əkinsiz torpağa baxa bilmirəm.
Ürək tap gətirmir bəzən ağrıya,
Torpaq ağlayanda qəlbən gülmürəm...

Çox yerdə görürəm solğun üzləri,
Bürüyüb vətəni nəfsin qulları...
Şoranlıq çürüdür yaşıl düzləri...
Torpağı basıbdır yulğun kolları...

Yoxdur o başlar ki, qonşu Rusyada
Kosmik icadlara bizimdir desin:
Nədən məktəbimiz can Sığırlıda
Toğrul Fərəcovlar yetişdirməsin?..



Sən ey bu torpağın millət vəkili,
Uzaqdan bərq vurur uca mülklərin.
Nədən sən deputat olandan bəri
Əkinçi tərk edib çöl-dirliklərin?..

Hanı orta sinif? Hanı sahibkar?..
Bakıda od tutub yanır hər bazar...

Bəlkə, kəndim ilə ədavətin var:
Dörd yandan kəndləri bürüyüb bezar?..

Bakıda “avtoşluq” edəndə “varlı”,
Kasıblar vuruşdu can Qarabağda:
Pafos olmalıdır bir az abırlı:
İlhamım danışsın həm də bu haqda...

Kim açmış “avtoş”a saxta “xəstəlik”?
Savaşdan yayınmış bığı burmalar?..
Mən sözü kəsirəm burda hələlik:
Hər bir cinayətin bir cavabı var.

Kəndlərim yaşatdı bu Azadlığı,
Torpağa can verən ilk bahar kimi.
Kəndlərim yetirdi bu azad çağı
Könüldə yetişən arzular kimi.

Doğma Sığırlımda beş atabəyli
Bir kiçik obadan şəhid getdilər!
Ramzes güruhundan qəlbi gileyli
Allah hüzuruna şahid getdilər...

Sığırlı “Kürdəmir” demək deyildir
Milli MSK-mın dairəsində?!.
Kürüstü bir kəndkən, bəs nədir bu sirr:
Namiq Sığırlının barəsində??.

Sərmayə yığmadı bizim igidlər,
Məhrumiyyətlərə sinə gərdilər.
Tək könül sahibi idi şəhidlər,
Onu da Bakıya qurban verdilər.

Toğrulun xalası oğludur biri:
Ağır tank sürürdü o da savaşda.
Cənnət qapısında igid Cabbarı
Tanrı salamladı  cavan bir yaşda...




Cavanşir,  Famil və Cabbar!..  Bu gün
Sizin  adınızdır bu şanlı Zəfər!
Şəhidlər cənnətdə olduğu üçün
İstərəm cənnətlik  olsun bu əsər!..

Ey könül, bunu da gəl saxla yadda:
Tarixdə yekun söz  tək  millətindir:
Zəfəri qorumaq, məncə, həyatda
Onu qazanmaqdan daha çətindir...

Səbəb yox, nəticə üzrə düşündüm:
Həyatda çox aşrım, çox  yoxuş gördüm.
Ən dar  hücrələrdə ərzi düşündüm,
Hər şəhid ölmündə doğuluş gördüm...

Nazirlər, ayılın bəri başından:
Xalqın rifahını  xalqa qaytarın!
Səadət qurulmaz gözlər yaşından:
Haqqı, həqiqəti haqqa qaytarın!

Apallon yaşantı – məkansız gediş,
Faust yaşantısa cismsiz məkan...
Umrumda deyildir plansız bir iş,
Nə də ki insansız bir arxa plan...

Birinci Planda: yalnız QARABAĞ!
Qalan şey, -deyək ki, - təfərrüatdır.
Zəfərdən sonrakı həm Sülh, həm Bayraq
Xalqın rifahıdır, iqtisadiyyatdır!..



Bu xalqın, Vətənin gözəl günləri,
Əsl həqiqəti hələ öndədir!..
Tarixin ən böyük, ən şah əsəri
Heydərin İlhamlı ürəyindədir!..

Gərək son qoyulsun hər cür rüşvətə,
Miilətçin verdilər şəhidlər canın.
Silahın lüləsin endirib yerə,
Qaldıraq rifahın Azərbaycanın!..

***

8

Bir can borcumuz var qoca dünyada,
Uca Tanrımızın öz qarşısında.

Bu borc qaçılmazdır, hər cəhd bihudə,
Sərvət qarşısında, söz qarşısında.

Ariflər ayaqda, başsızlar başda...
Fırlanır geriyə fələk də, vaxt da...
Mizanlar pozuqdur, əyarlar saxta,
Qızıl qiymətsizdir mis qarşısında.

Ər başı namərdlər qoltuğundadır,
Ac mədə vədlər bolluğundadır.
Koroğlu Həmzələr qulluğundadır,
Yaxşı boyun əyib pis qarşısında.

Ax, hardan bilək biz kim kimdir, nədir?
Vətənə kim doğma, kim biganədir?
Qarğalar bülbülə nəğmə öyrədir,
Kül oddan danışır köz qarşısında...

Ey Ata, bu ömrü biz verdik bada.
Gəldi başımıza  min bəla, xəta...
Həyatın  yolları əyri olsa da,
Dayandıq vicdanın düz qarşısında!

***

Kiberistehsalat  əsrindəyik biz,
İblis tək quyruqlu yalanlar çoxdur.
Heyvanlıq dövranı  deyil əsrimiz:
Çox da  ki bellərdə palanlar çoxdur...

Haram imarətlər baş vurur göyə,
Oyunlar qurulur naşının üstə...
Danabaş hökm edir Allaham deyə,
Arifin, aqilin başının üstə.

Qayınatasına kürəkən deyir:
-Sən mənim tayfamı kişi etmisən!
(Bir addım qabağa, sən ey Rəsmi şər,
İki addım geriyə varıb getmisən...)

Rus Razumovcki ilk Darülfunu
Yaratdı Bakıda xalqımız üçün:
Neçə ali təhsil işi başında
Cahil rüşvətxoru görürük bu gün...

Monqol qafasıyla alimlik etmək,
Tayfa dığalığın zehniyyətidir.
Səfehin, nadanın ardınca getmək
Qohumbaz, yerlibaz "qətiyyətidir."

Talançı "xanlar"a "baba"m deyənlər
Heç zaman milləti, xalqı düşünməz.
Rüşvətxor məmura adam deyənlər
Heç vaxt ədaləti, haqqı düşünməz...

Vəzifə xidmətdir, ləyaqət deyil,
Birinci itəndə ikinci qalar...
Ağalıq eyləmək mərifət deyil,
İnsanı mənliyi şəxsən ucaldar.

Mən ki az görmədim: yaltaq-yalaqlar
Rəyasət başında necə durmuşlar...
Bu doğma vətənə ögey "calaqlar"
Ağalıq eşqiylə çox qudurmuşlar...

Bəli, öz Dövlətin xalqdır yaşadan,
Xalqı heç bir Dövlət yaşada bilməz.

Xaindir Dövlətdən var uman insan:
Dövlət bir qulluqdur!-qoy bilsin hər kəs.

Gərək son qoyulsun qohumbazlığa!
Bədəni irəli Baş aparmalı.
Rüşvətxor, haramxor olanda "ağa",
Dönər səfalətə kəndlinin halı...

Vətən vətəndaşlıq eşqindən başlar!
Vətəndaş deyildir Vətən talayan.
Qəlbində qüssələr, gözündə yaşlar
Mənim İLHAMımdır məni anlayan...

Sən ey bu Vətənə can fəda edən
Qəhrəman, cəngavər, ərən şəhidim!
Mən də ruhunuza üz tutub gedən
Qələmli, kitablı şair-şahidəm!..

Sizin önünüzdə baş dikib yerə,
Təkrar and içirəm son şəhadətə:
Nə qədər Qələmim çalışır hələ
Xidmət edəcəyəm mən HƏQİQƏTə!..

**Bu xalqın, Vətənin gözəl günləri,**
**Əsl həqiqəti hələ öndədir!..**
**Tarixin ən böyük, ən şah əsəri**
**Cavan HEYDƏRimin ürəyindədir!..**

***

Bir Tanrı sirridir bu yer, bu yer, bu cahan,
Bəlkə də, hər şeydə dərin məna var.
Çox vaxt başa düşmür, anlamır insan,
Dünyaya gəlməkdə, getməkdə nə var...

Buludu əmməsə, quruyar dəniz.
Xanım-xatunluqdan uzaqdır kəniz.
Arifə, cahilə bölünmüşük biz:
Bir dana başlı var, bir də danə var!

Oxuyub çox sirdən olmadıq agah,
İdrakın üzünə bağlıdır dərgah.
Gədadan bəy olmaz, çakərdən də şah:
“Piyadə” vəzrinə neçə xanə var...

Oxuyun şerimi, a dostlar, tarda.
Gülmədi çox üzlər üzümə yurdda?!.
Atayam, ürəyim dəryadır, orda
Əlli sədəf varsa, min dürdanə var!..

9

Qarabağ savaşı Şuşada bitdi,
Qələbə bayramın Bakı keçirdi.
Əzablar, ağrılar iqdama yetdi,
Zəfər İLHAMıma badə içirdi...

Xeyr, mümkün deyil qəlb sevinməsin,
Vətənin bu böyük şücaətinə.
Gərək bütün yer-göy alqışlar desin
Müzəffər ordumun rəyasətinə!..

***

Bir Oyun qurmuşdu qart imperiyalar:
“Qarabağ oyununu”?!. Türkü yıxmağa.
ATƏT ağırlıqda vardı yalanlar:
Şahid gəzirdilər görünən dağa...

Oyun üzərində qurulub həyat,
Tale uduzanın üzünə gülməz.

Oyunda sevinc var, həm də ki nifrət,
Bir kimsə oyunun sonunu bilməz.

Oyundur məhəbbət, oyundur nifrət:
Hisslər taxta üstə fiqur kimidir.
Qəlbdə həm zəfər var, həm məğlubiyyət—
Hər kəsin son ağlı son hakimidir.

Təklənən uduzur, məhv olur gedir...
Həyat heç kəs üçün solo deyildir.
Döyüş meydanında oyunçu--əsgər,
Meydandan kənarda--adi veyildir...

Ümid vadısındə səmum yelidir
Yolu Əzrayıl tək kəsib duranlar.
Öndəki rəqibdən təhlükəlidir
Oyunun içində oyun quranlar.

Bir raunddur cəmi Ömür/Oyunlar.
Qələbə yol açır Əbədiyyətə.
Yalnız zəfərlərdə ALLAH hökmü var:
Bais, uğrayandır məğlubiyyətə...

***

Eşq olsun alp Ali Baş Komandana!
Qarabağ Fatehi adını aldı.
Qələbə yetirib Azərbaycana
Tarixi zirvəyə qalxıb ucaldı!

Eşq olsun İLHAMı doğan anaya,
Doğuran Ataya alqışlar olsun!..
Eşq olsun Zəfəri quran bənnaya:
Bu dünya durduqca, daim var olsun!

İnamdır Rəhbərin əsl qüdrəti,
Sədaqət gərəkdir inananlara!..
İLHAMdır qəlbimin şeiriyyəti
İLHAMLI ZƏFƏRi qazananlara!

İnamla, İLHAMla getdik irəli,
Hünər bayrağını pikdən asdıq biz.
Bu ZƏFƏR İLHAMla vəsf edilməli,
İlhamla ötməli İLHAM pərimiz!

Bakı!.. Şirvanımın qədim paytaxtı!
Gözüsən oturaq mədəniyyətin...
Qəlbə yaraşıqdır Bakuvi taxtı,
Yolçusu İLHAMdır əbədiyyətin!

Mələkdən üstündür İnsan doğulmaq,
Qəlb bütün varlığın tam mənasıdır.
Bakı Ordusuna komandan olmaq:
Taleyin ilahi bir simasıdır!..



Bakıya tuşlanan düşmən raketi
Allaha edilmiş düşmənçilikdir.
Budur Baba Dağın son həqiqəti:
İnsanlıq nə məzhəb, nə dinçilikdir!

Milli bir İslama sahibik biz də,
Hər kəsi dilindən eşidir Tanrı...
Bizim Bakı adlı ilk Kəbəmizdə
Nədən xaric vurur Məscidin janrı?..

Nədən unudulmuş Baba Kuhimiz?
Bakuvi Vətəni Bakuvisizdir...
Kimin arxasınca yol gedirik biz?
Kimin mövlaları bizə əzizdir?..

Mədinə "şəhər"dir ərəb dilində,
Qədim mədəniyyət beşiyi: Bakım!
Baba Dağ Bakuvi BAKI şəhrində
Günəş tək əbədi nurum, çırağım!..

Qafqaz diyarında Şirvan ilk kərə
İslami Qılıncsız qəbul etmişdir!..
Quran bir kitabdır baş bilənlərə,
Dünya Quran ilə əqlə yetmişdir!

İslamın cihadı bütlərə qarşı
Dünyanın əbədi bir savaşıdır...
Quran ağılların qutsal yarışı,
Adəmin adəmlə qutsal barışıdır!

Bakıya edilmiş düşmənçiliklər
Allaha, İnsana bir haqsızlıqdır.
Odur ki, İlhamım gur səslə deyir:
Erməni faşizmi allahsızlıqdır!

Allahsız güruhun sonu ölümdür!-
Yekunu bəqadır hər şəhadətin.

Haqqa qovuşmağın yolu bilimdir:
Kitabdır  əzəli hər  həqiqətin!..

***

Dünya evinin sirrini Sübhan bilər ancaq!
Piran olanın halını piran bilər ancaq!

Yıxdı yerə can mülkümü gərdun be-qəfildən:
Can ağrımı canımdakı bu can bilər ancaq!

Məcnuni-misal eşqə düşüb, düzləri gəzdim,
Qəlbim nə çəkib dəşti-biyaban bilər ancaq!

Ömrüm boyu bir əhli-səxa murə qulam mən:
Bu quş dilidir,  təxti-Süleyman bilər ancaq!

Əğyari-ədu aşiq halın fəhm edə bilməz,
Aşiq halını fəhmdə canan bilər ancaq!

Söz ki deyilir: xiridarı yoxsa nə sözdür?
Ata sözümün qədrini irfan bilər ancaq!

***

Tolerant xilqətdir Azəri əhli,
Burda hər millətə, hər dinə yer var:
Yenərək  hər cəhli, hər küdurəti
Qardaş, dost olublar  daim insanlar.

Dini təfriqələr ordulaşaraq,
Tolerant Şirvanı qəsb etmiş bir vaxt...
Gəlmə və yadelli olma hər bir şah
Qardaş qırğınına yol açmış ancaq.

Mövlanə Baba Dağ Bakuvi burda
X əsrdən Sufi nur saçmış...

Allaha məhəbbət adlı Divanda
İnsanın  İlahi məğzini açmış...

İngilis, fransız...  milli dilində
Oxuyur Babanın qutsal Divanın...
Fəqət, tanımayır onu elində
Başçısı hələ də  akademiyanın?!.

İLHAMım bitirib yox edər  axır
HƏQİQƏTə  qarşı yolkəsənləri...
BAKI  Bakuvilər nəslin tanımır
Başlar  qızılbaşa yenəndən bəri?!.

Tanrını tanıdan bir mövlananı
Necə tanımayaq, tanıtmayaq biz?!.
Bakıda bir büstü yoxsa da,  ona:
Uca dağlarcadır  qutsal sevgimiz.

Tanrının adına bir xeyriyyədir
Bu cahan mülkində Allahın evi.
İbadət yerində bizneslər nədir?
Kim salmış məscidə Nəfs adlı divi?..

İslam islahata möhtacdır bu gün:
Allahsız rejimlər mizanı pozmuş...
Tanrı- bəndə içrə girdiyi üçün
Əmmamı Quranı min yerə yozmuş.

Hanı Bakımızın sufi saflığı?..
Banan bazarıdır ibadətxana?..
Dinə bürümüşlər Allahsızlığı,
Quyruqlar qoşmuşlar dinə, imana..

Din xalqı, insanı haqqa çağırmaq,
Sosial ədalətə yol açmaq demək!
Din  şər üstə  Xeyirə zəfərlər çalmaq,
Kasıba, gücsüzə, əlsizə  kömək!..

Din uca Allaha güvənc bağlamaq,
Tanrının adına yardım almaqdır.
Din iman içində daim çağlamaq,
Allahla, Özünlə birgə qalmaqdır!

Noyabr zəfəri günləri BABA
Müqəddəs ruhuyla gəzdi Bakıda.
Şəhid oğulların xiyabanında
Qələbə müjdəsin verdi bu xalqa!

Bu Dastan Zəfərin müjdəsin verən
Baba Bakuvinin qaranquşudur!..
Bu Dastan bu xalqa müjdə göndərən
Şəhid ruhlarının son  alqışıdır!..

İlk Zəfər nəğməsin yazdığım zaman
Ağır pandemiya yıxdı məni də...
Ölmədim: mövlanam verdi mənə can,
Bitirdim bu Zəfər əsərimi də...

Qoy Tanrı qorusun, İLHAMım, səni
Zəfərin cahanda əbədi olsun!
Paytaxt Bakımızda günlərin biri
Baba Dağ Bakuvi büstü qoyulsun!

Haqqın Zəfəridir çünki bu Zəfər!
İlahi ədalət qalib gəlmişdir.

Qələbə eşqilə bu qutsal şəhər
Bakuvi ruhu tək  bəxtə  gülmüşdür!

Böyük məhəbbətlər ölmür heç zaman,
Baba Heydərlərin qutsal ruhu tək!
Müqəddəs diyardır tüm Azərbaycan:
Daim  bu paklığı qoruyaq  gərək!..

Bakıya edilmiş düşmənçiliklər
Allaha, İnsana bir haqsızlıqdır.
Odur ki, İlhamım gur səslə deyir:
Erməni faşizmi  allahsızlıqdır!

Allahsız güruhun sonu ölümdür!-
Baqidir axırı  mərd şəhadətin.
Haqqı qorumağın yolu bilimdir,
Qanlı üzü vardır sərt həqiqətin!..

Tarixi pozanın ağır cəzasın
Tarix özü verir- zamanı gəlir.
Zəfər yaşadıqca,  pak Bakımızın
Baba Bakuvi tək sədası gəlir!..

Bakının haqqına qarşı erməni
Faşizmi illərcə savaşlar açdı.
Qara zülmətlərdən bir Günəş kimi
Baba Dağ Bakuvim nur, işıq saçdı...

Bakıya yar oldu mövlamın ruhu,
Haqqına qovuşdu xalqımın haqqı.
Ruhunuz şad olsun, ey Baba Kuhi,
Qovduq cəhənnəmə təkrar  nahaqqı!

Bu ağır savaşda bizimlə oldu
Uca Tanrımızın qutsal qərarı.
Şuşa zirvəmizə qalxıb ucaldı
Xalqımın Allaha pak etibarı!..

Ey Böyük Zəfərə  imzasın atmış
Qüdrətli, yenilməz, igid komandan!
İLHAMLI  ZƏFƏRlə bitdi bu savaş:
Mənim İLHAMımdır can AZƏRBAYCAN!..




**Müzəffər Bakımın başı üstündə**
**Hər səhər  Bakuvi duası durur.**
**Sufi Bakuvimin  ruhu bu gün də**
**Sevdalı qəlblərdə   aşiyan qurur.**

Bu qoca dünyada bir uzun yol var:
Hər kəsə  sürdüyü həyat yoludur.
Ömür kitabları çox-çox əfsuslar,
Həm sevinc, həm də ki qəmlə doludur...

İnsan da Günəş tək  təkrarən doğur:
Alqış insanlığa, imana,  dinə!
Məhəbbət əbədi gerçəklik olur:
Söykənsə Baba Dağ həqiqətinə!



“Hər məscidə, hər deyrə varıb ALLAHI GÖRDÜM!
Min dağü-Bisütunu yarıb ALLAHI GÖRDÜM!..

Qəlbimdə kədər, qüssə- Pənah Allaha!- derkən,
Hər dərdimə dərmanı bulub ALLAHI GÖRDÜM!

Dildən duamı eyləmədim əskik Onunçun,
Allah Rəsulun yada salıb ALLAHI GÖRDÜM!

Ruhumla, vücudumla Ona can nisar etdim,
Dünyavi-məfihaya dalıb ALLAHI GÖRDÜM!

Açdım gözümü aləmə, bir nur məni tutdu;
Yumdum gözümü nuru sarıb ALLAHI GÖRDÜM!

Bir şam kimi atəşdə yanıb can əridirdim:
Od dilləri tək hey ucalıb ALLAHI GÖRDÜM!

Baxdım özümə, gözlərimi pərdə qapatdı,
Baxdım yuxarı səcdə qılıb ALLAHI GÖRDÜM!

Köçdüm, bu fəna mülkünü tərk eylədi cismim,
Ruhumla, Baba, baqi qalıb ALLAHI GÖRDÜM!

Fəxrəddin İraqi "Üşşaqnamə"də
Vəsf edib Babanın Tanrı eşqini.
Fəqət Bakı adlı bir camiədə
"Bakuvi Divanı" çəkmir heç kimi...

Şirvanın oturaq mədəniyyətin
"Yox etmək" yarışı gedir Bakıda.
Müqəddəs mövlana pak həqiqətin
Çəkilmir Vətəndə quru adı da?!

Qara kıyınların, Ağ kıyınların
Monqol keçmişilə fəxr edir Vətən.
Şirvanı özünə yad sayanların
"Vətən" pərvərliyi hayqırır fövrən...

Tarix yəğmaçılıq, talanlar deyil,
Tarix mədəniyyət, elm deməkdir.
Tarix uydurulmuş yalanlar deyil,
Baba Dağ Bakuvi adlı gerçəkdir!

Bu ağır savaşda bizimlə oldu
Uca Tanrımızın qutsal qərarı.
Şuşa zirvəmizə qalxıb ucaldı
Xalqımın Zəfərə pak etibarı!..

Ey Böyük Zəfərə imzasın atmış
Qüdrətli, yenilməz, igid komandan!
Parlaq zəfərinlə bitmişdir Savaş:
İlham Əliyevdir Can Azərbaycan!

Baba Dağ Bakuvi- 0 ilk mövlamın
Müqəddəs ruhunun yolçusuyam mən.
Bakımdır zirvəsi qutsal aləmin,
Bakuvi yurdumun xocasıyam mən!

Bakıda uyuyan gənc şəhidlərin
Cənnəti, behişti Baba Dağımdır!

Mən  Kəbəm bilirəm Bakı səhərin:
Əqidəm, inamım  azadlığımdır!..

Tanrının müqəddəs məqamı: BAKI
Ən son zirvəsidir mədəniyyətin!..
Baba Dağ Bakuvi Şirvani  (933-1050) kimi
Mən də  yolçusuyam haqq-həqiqətin!..

Bəli, son güləndir -  həqiqi gülən!
Sonuncu gülüş də BAKImın oldu!
Vətəni uğrunda ölüb öldürən
Xalqımın ruhundan ZƏFƏR doğuldu.

Mən də bir sufiyəm: Şirvandır elim!
İnsanlıq yurdudur mənə bu Vətən.
Allahlıq etməyə qarşıdır qəlbim:
Ərzi  insanlığa çağırıram mən!..

**Üçüncü nəğmə**

## Bir kərə yüksələn Bayraq!..

1




Həyat bir savaşdır, könül silahdaş:
Can deyil şeytanı qovmayan insan...

Sayılmaz Vətəndə heç vaxt vətəndaş
Daşı bir daş üstə qoymayan insan.

Meşələr, ormanlar aslanı sıxmaz,
Dağların zirvəsi qartalı yıxmaz.
Gecədən gündüzə-işığa çıxmaz
Günəşdən irəli durmayan insan.

Sonuncu ümiddir sonuncu nəfəs.
Arifə ömür-gün deyil boş həvəs.
Fərhadlıq eşqinə düşməsin əbəs,
Külüngü dağları yarmayan insan.

Tanrı kainatın müəllimidir!
Dünya ariflərçin elm aləmidir.
Döyüşdə cavabsız sual kimidir
Zəfəri özündən sormayan insan.

***


*000135

АЗӘРБАЈЧАН СОВЕТ СОСИАЛИСТ РЕСПУБЛИКАСЫ
АЗЕРБАЙДЖАНСКАЯ СОВЕТСКАЯ СОЦИАЛИСТИЧЕСКАЯ РЕСПУБЛИКА

АЛИ СОВЕТИН
Истинтаг комиссијасы

Следственная комиссия
ВЕРХОВНОГО СОВЕТА

МАНДАТ

Решением Депутатской-следственной комиссии Верховного Совета Азербайджанской ССР по расследованию последствий введения чрезвычайного положения в Азербайджанской ССР и столице г. Баку
тов. ФАРАДЖОВ НАМИГ РАШИД ОГЛЫ
уполномочен посещать и обследовать любой объект расположенный на территории [illegible], получать от должностных лиц и граждан справки, [illegible] и другие материалы необходимые для установления истины.

Председатель Депутатской-следственной комиссии Верховного Совета Азербайджанской ССР
Народный Депутат СССР
Я. Т. АББАСОВ

Bu Zəfər qiymətin itirər, dostum,
20 Yanvarı yada salmasaq...
Bu gün bu Zəfərə yol açan ordum
20 Yanvardan yol gəlib ancaq!

Bolşevik güruhun işğal ordusu
Təkrar qəsd edəndə Azərbaycana,
Azadlıq!- bağırdı xalqın arzusu,
Bakımız boyandı bir daha qana...

170 şəhid oğlu Vətənin
Canını Azadlıq yolunda verdi.
Şaxtalı, ayazlı soyuq qış günü
İstiqlal yazından müjdə gətirdi...



Sovet tanklarının tırtılı altda
Əzilib məhv oldu uşaq, ixtiyar...
İzcızan Kalaşnik avtomatında
Gülləyə tutuldu eşqlər, arzular.

ABŞ bir ad verdi- fundementalist?..
Beykerin xaçpərəst fikirlərilə;
Türkiyədə Qorqud Ozal tək teist
Səhv saldı Şüubi şiələriylə...

Xeyr, bir millətin haqq səsiydi bu
Gülləyə tutulan böyük həqiqət.
"Qardaş millətlərin" Sovet Ordusu
BAKIda törətdi ağır cinayət...

Bakı. Əyilməzlik simvolu Bakı
Tarixi kimliyin verdi biruzə.
Eşqin meydanında durdu yanakı
Şəhid xiyabanı:  İLHAM-FƏRİZƏ.

“Siyasi kapital deyil Qan”- deyə
Yazdım “İlham”dakı ilk məqaləmi.
Bu qana bələnmiş torpağa, göyə
Qarşıydı qəlbimin acı matəmi.

“KQB” içindən keçib gələnlər,
“Paqonsuz” agentlər-ara qatanlar...
İfşa olunacaq- zamanı gələr:
Onlara xoş idi bu axan qanlar.

Neftin hesabına çökmüşdü Sovet:
Rolu böyük idi Səudiyyənin.
Şirin nağıllarda yoxdur həqiqət:
Yeri zindan idi doğru deyənin...

“Qırmızı mafiya” çoxdan satmışdı
Marksist Kodeksi, Əqidəsini...
70 il kommunistlər çox aldatmışdı
Vətənin “vətəndaş” adlı qismini.

Adi bir Oyundu SSRİ də:
Rotşildin qurduğu bir plan üzrə.
Yıxılmış çarizmin talan yerində
“Sovetlər”həqiqət deyildi ərzə.

İlan qabığını dəyişən kimi,
Mafiya son qabıq dəyişdirirdi.

Rezerv Fondlardakı Qızıl çən kimi,
Hesablar da qalıq dəyişdirirdi.

Azadlıq ürəyin neft mədənitək
Qanlı fontanların açdı ağzını.
Avropa qanlardan vəcdə gələrək
Pozdu “sovetlərin” tarazlığını...

Çıxdı meydanlara Robespyerlər,
Maratlar gilyotin çəkdi ortaya.
Bu cür bir ortamda belə deyərlər:
KQB güc verdi agenturaya!..

Dağılan zavodlar, fabrik, kolxozlar
Yalnız  binalara yol açmalıydı...
Qərb ilə anlaşmış mafiozalar
Dollar səmasında qol açmalıydı..

Yersizlər yerlini sıxıb evində,
İşindən-gücündən çıxarmalıydı...
Bir ovuc həşarat daim kefində
“Məşğulluq” adıyla oturmalıydı...

“Demokrat diktator” oyunu salıb,
Qərb Şərqə bir İpək Yolu açırdı.
Bakılı paytaxtdan başını alıb,
Uzaq Avropaya qoyub qaçırdı...

Mənə də bu Sınıq Qələm yadigar
Qaldı o günlərin  xatiratından...
Bir də ki “İşsizlik statusu”m var:
Böyük Azadlığın boş büsatından?!

90-cı ildə Yanvar ayından
Mənim də bu yöndə keçdi həyatım.
“Bir kərə yüksələn Bayraq!”darımdan
Qara  siyahıya salındı adım...




*“Bir kərə yüksələn  Bayraq,*
*Hürriyyətlər doğdu səni!*
*Bir kərə yüksələn Bayraq,*
*Əsarətlər boğdu səni...*

*Dünənimiz təkcə sənsən,*
*Sabahımız səndən keçir.*
*Dincliyimiz təkcə sənsən.*
*Savaşımız səndən keçir.*
*Bir kərə yüksələn Bayraq!*

*Qılınc vuran qolumuzsan,*
*Sən azadlıq yolumuzsan.*

*Simurq kimi doğulmusan,*
*Bir kərə yüksələn Bayraq!*

*Topla yenə gücümüzü,*
*Yenilməyən əzmimizi.*
*Nəsil-nəsil qaldır bizi,*
*Bir kərə yüksələn Bayraq!..”*

(Bir kərə yüksələn Bayraq! -simfonik marş. *Bəstəkar: Ədviyyə Rəhmətova. İlk dəfə “A.Atasoy” psevdonimi ilə 1991-ci ilin 2 fevralında “İlham” qəzetinin 13-cü sayında dərc edilmişdir. Əsər Dövlət orkestrinin ifasında Qızıl Fonda götürülmüşdür)*

20 Yanvarda tankların altda
Ölmüş şəhidlərin biriyəm mən də:
Onlar ölümsüzdür bu gün həyatda,
Şəhadət durduqca diriyəm mən də!

Əsla bir Qərbpərəst olmadım heç vaxt:
Soyadım “Fərəc” bir çar məmuruydu.
Qafqazın dəmiryol xəttində ancaq
Paqonlu müsəlman ilk dəfə oydu...

Böyük Avrasiya yolunda o da
İlk cahan savaşı verdi həyatın.
İdeya mənəvi doğulursa da,
Məhv olur məkrindən maaddiyatın...

Stansa “Saqiri” (-Sığırlı) - “Vağzalı” ilə
Yola salmış idi ilk rus qatarın...
Babam Ələsgərin xəyalı ilə
Tiflisə göndərib ilk arzuların...

Qədim Sığırlımda kiçik vağzal var:
Nəfsini qoruya bilməyib zaman.
Günəşdə artsa da, parlaq ZİYAlar,
Vallah, dəyişmir ki, dəyişmir insan...

Sığırlı köyləri çoxdur cahanda:
Ən gözəli sayır hər kəs öz kəndin.
Sığırlı vahiddir Azərbaycanda,
Dünyadan mən artıq bilirəm qədrin!




Avrasiyaçıyam: Seyid Əzim tək!
Bəli, Həsən bəyin davamçısıyam...
Elmə məhəbbətlə doludur ürək,
Məktəbin, kitabın mən bir acıyam!

Ana dilimdəki ilk məktəbləri,
Birinci Dərsliyi ruslar yaratdı...
Unuda bilmərəm Çerniyayevi,
Çıxmaz ürəyimdən Razumovski adı...

Qırmızı cəlladlar deyil Rusiya,
Mənim qonşuluğum, qardaşlığımdır.
Babamı sürgünə çəkən Mafiya
Stalin, Mikoyan adlı yağımdır!

Niyyətim deyildir Qanlı Şənbəni
Böyük  Rus xalqının adına yazmaq?!.
Avropa təşvişə saldıqca məni,
İstərəm Avrasiya haqqında yazmaq!

"Demokrat diktator"- belədir tələb:
Şərqi qaragünlük eləyənlərin...
Texnotron əsrin qədərin bilib,
Bizə "azad bazar" söyləyənlərin

Heç vaxt arxasınca düşməmişəm mən.
Sənin taleyindir bəxtim, ey VƏTƏN!
Keçmişi yadıma saldıqca bəzən
Bəşərin halına ağlayıram mən...

Günəşin də iki sifəti vardır:
Xəbərsiz qalmayaq görünməz üzdən.
İki cahan qanın tökən onlardır:
Nəyin intiqamın almışlar bizdən?!.

Bizlə kontinental qonşudur Ruslar:
Ortaq Avrasiya evimiz vardır!
Qardaş ürəklərdə böyük arzular
Üçün bütün dünya, inanın, dardır!

Qəlbimə hakimdir Dekabristlər,
Onlardır Azadlıq dərsliyim mənim!
Keçmiş xanlıqlardan min dəfə atrıq
Ruslara borcludur bu gün Vətənim...

ABŞ! Berlindən aviasiyanı
İrana gətirdi 9 May günü.

Bir il bombaladı Azərbaycanı,
Pəhləvi taxtını qorumaq üçün?!.

Bir üzr borcu var Konqresin də
Naqasaki kimi Təbriz önündə.
Anqllar dost deyil türklərə,- dedi
Ölməz Pişəvərim son nəfəsində...

Bəli, general Corc Vaşinqton
Yalnız ABŞ üçün vuruşmamışdır.
İnsan hüquqları, təbii Qanun
Bəşər tarixinə ondan qalmışdır.

Mən də az sevmirəm özəl haqları:
Təpədən dırnağa respublikaçıyam!
Amma neyləyim ki, Sem dayıları
Mümkünatı yoxdur bir İNSAN sayam!

Axı, Ruzveltlərin Amerikası
İmperiya marağı güdübdür yalnız.
Dünyada yatanda, Alman qovğası,
ABŞ bombalayıb türkü günahsız...

"Demokrat diktator" idi Rza şah
Hitler Argentində gizlədiləndə.
Təbrizin başına bomba hər sabah
Günəş ziyası tək gəlib düşəndə...

Avrasiya çölü də bir cənnət deyil:
Maddi hüquqa yer yoxdur onda.
Qafqaz da min zülm, min zillət çəkir:
Başqa bir seçimi olmadığınca...

Qızıl imperiya xas oğulları
Qanun pərdəsilə alanda həbsə.
Paqonlu Həmzələr boş nağılları
Uydurub vermişdi “sud”da səs-səsə.

Azadlıq verilməz, alınar!- deyə!
Azadlıq meydanın doldurdu bu xalq.
Başını əymədən küt köləliyə,
Azadlıq, İstiqlal istədi ancaq!..

Qırmızı faşizm!.. Bir vaxt babamı
Qulaq eyliyərək Sibirə atdı.
Mənim tək minlərcə ağ gənci tamam
Qara siyahıya salıb qaraltdı...

Satqınlar ətrafda sədlər quranda,
Vuruşdum Azadlıq əsgəri kimi:
ADU-nun elmi konfransında
Oxudum “Verlibr” haqda əsəri!..




Mən layiq görüldüm “Qızıl medal”a:
Adı mənim oldu, dadı özgənin...

Bütün zəhmətlərim getdi zavala,
Deyin, sovetizmin bəyənim nəyin?..

"Sinfi düşmənçilik" bidəti ilə
Elmi bölmüşdilər iki cəbhəyə:
Yüz illər əsarət görmüş millətə
"Bəy nəsli", "proletar balası" deyə...

Varlam Şalamov tək ağırsürgündə
Keçmədi mənim də bütün gəncliyim.
Amma elə bir xoş gün keçirmədim,
Mən ona bu gün bir xoşbəxtlik deyim?!.




Mən "Azad şeirin poetikası"n
İlk dəfə sistemə gənckən salmışam.
Tələbə-elmi Konfransının
Qızıl medalını onda almışam!

İndi elmi adla yaşayır bir qız":
Vardır neçə yüksək vəzifəsi də...
Vicdandan, bikidən uzaqdır yalnız,
Saxtadır aldığı hər nəfəsi də...

Daim uzun olub rüşvətin əli,
Məni ADU-daca tutub saxladı.
Gənclik illərimin “alim” xəyalı,
Məndən bir kitablıq xatırə qaldı...

Xeyr, Soljenitsın deyiləm, nə də...
Qapalı lagerdə olmamışam mən:
O zalım, o saxta, qatil əsrdə
Səni də bir zindan bilmişəm, VƏTƏN!



Bəli, yoxdur bu gün elmi dərəcəm,
Yoxdur AYB-lərdə üzvlüyüm də...
Təqiblər yaşayıb bütün ailəm:
Yasaq olmuş mənə işim, evim də...

İblisin üzünə min səhər gülsə,
İnsanlıq günəşi geriyə dönməz...
Yüz zülmət qaranlıq gəlib getsə də,
Gündüzdə can verən Həqiqət sönməz!..

“Jurnalist oğulu” son romanımdır:
Mən onu ömrümlə tamamlayacam.
Onun mürəkkəbi ürək qanımdır,
Şənimi onunla ərzə yayacam!..

Gözlə, əziz Ata, səbrini qoru!
Önümü kəsmiş Şər yeniləcəkdir!
Himnimi oxuyan Ədalət xoru
Mənə and içəcək gün gələcəkdir!..

Halallıq üstündə qurulmuş cahan,
Nizamsız bir heçdir bütün kainat.
Rüşvətə aludə olanda insan
Məşhərə çevrilir bütün bu həyat...

Bəli, biz dəyişdik tarixin yönün,
Yeni bir aləmə böyük yol açdıq.
Amansız savaşda insan qəlbinin
Haqqın, ədalətin təkrar yaşatdıq.

Bəli, biz qaldırdıq xalqı ayağa,
Hər kəsi haqqına bir hakim etdik.
Qanun qarşısında yox nökər, ağa:
Hər kəsə müsavi, bərabər dedik!..

Kəsdi önümüzü Şərin tankları,
Qırmızı baltalar çıxdı qınından...
Haykırdıq ucadan: İNSAN HAKLARI!
İstiqlal istədi Can Azərbaycan!..

"Azadlıq verilmir, alınır!" – deyə
Atıldı meydana oğullar, qızlar.
Məşhərin son suru çalınır deyə
Qan rəngi aldı o gecəki Yanvar.

Bəli, ilk savaşı tamamladıq biz,
20 Yanvarın şəhadətilə!

YANVARa borcludur ilk ZƏFƏRimiz
Xalqın hürriyətə sədaqətilə!..



20 Yanvarda yazdım ilk şeiri,
"Bir kərə yüksələn Bayraq"ım oldu.
Anamın çəkdiyi sancılar deyil,
"İLHAM" adlı qəzet məni doğurdu.

20 Yanvarda türk qətiyyətim:
Qələmim, idrakım kamala yetdi...
(Mənim inqilabi fəaliyyətim
"İlham"la başladı, İLHAMla bitdi...)

Mən gözəl bilirəm Azadlıq nədir:
Nədir Vətən üçün canından keçmək?!.
"Xüsusi şöbə"lər, Qara dəftərlər...
İllərlə işsizlik içrə keçinmək...

Mən yaxşı bilirəm kim kimdir, nədir.
Nədən yaxamızdan əl çəkməyir Şər?..
Niyə dərdimizə ərz biganədir,
Nədən zillət çəkir düşünən bəşər?..

Nədən önümüzü kəsir hər addım
Dünən həqiqəti gülləliyənlər?..
Mənim hüriyyətdir, haqdır tək adım:
Bir heçdir  quyruqda baş girləyənlər!

Satqınlar, saxtalar, xainlər- bütün
Satqından, saxtadan, xaindən doğmuş.
Siz ey qarlı qışda Yanvarda ölən
Şəhidlər!..  Bahardır cənnət içrə qış!..

O qanlı Şənbədən çox illər  keçdi...
Vətən parçalandı,
Millət bölündü...
Aradan tikanlı min məftil keçdi.
Qan ilə bələnmiş qərənfil keçdi...

Nəhayət, bir Dəmir Yumruq ucaldı,
Tarixi ən düzgün bir yola saldı...
Zəfər adlanırdı  böyük  şanlı yol.
Bayraqlı, münəvvər, həyəcanlı yol...
Məhəmməd imanlı,
Haqqa ƏMİN yol!
30 il sonra
Şuşaya gətirdi bizi həmən yol.

Tutaraq üzümü son  qibləmə mən,
Bütün var səsimlə deyirəm, Vətən:
Azadlıq, İstiqlal nə qədər ki  var,
Şəhidlər çiçəkdir, şəhadət bahar!

Qarabağ zəfəri ilk heykəlidir
20 Yanvarın adına bizdə.
Şəhadət arzunun coşqun selidir,
Azadlıq dəryadır  tariximizdə...

Yaşa FATEH İlham! Yaşa, ey hünər!
Yaşa, azad Şuşa! Yaşa, ey Zəfər!!.

Babam Eldənizdir, Şeyx İbrahimdir,
Savaş aparıram gör neçə ildir!
Bu yurdda kölələr bizdən deyildir.
Ey mənim harayım, ünüm, Qarabağ!
Ey mənim təvəllüd günüm, Qarabağ!

Behrəngim, Səhəndim, Biriyam, yaşa!
Siz ömrü şərəflə vurdunuz başa.
Qovuşar gün gələr qardaş qardaşa...
Ey mənim bütünüm, tamım, Qarabağ!
Ey mənim vüsalım, kamım, Qarabağ!

Nə qədər qalacaq bu Vətən darda?
Babəkim, Səttarım, hardasız, harda?
Sizi haraylayır kaman da, tar da...
Ey mənim kök telim, simim, Qarabağ!
Ey mənim taleyim, eşqim, Qarabağ!

Atayam, könlümün var intizarı,
Çətində sınaram hər dostu, yarı.
Bütöv bir Vətəndir ömrün şüarı.
Ey mənim İLHAMım, duyğum, Qarabağ!
Ey mənim Azadlıq ruhum, Qarabağ!..

***

20 Yanvardan
30 il sıra-sıra keçdi...
Neft daşıyan qatarlar kimi,
Neft kəmərləri kimi torpağımızın sinəsini cıra-cıra keçdi...
Yaşamağa ümidsiz ürəklər kimi
Son kərə vura-vura keçdi...
Sinə deşən güllə kimi içimizi yara-yara keçdi...
Yatmadı İlhamım gecələri səhərə kimi...
20 Yanvardan 30 il keçdi,

İlhamımın hər misrası qızıl qan içdi
Şuşamızda Zəfərə kimi!..

20 Yanvar: faciə, yoxsa məzhəkə?!
Baxır kimə nə...
30 il uzatdılar
Bağlanmamış cinayət işləridək
Aylarla, illərlə çəkə-çəkə...
Yalanlara bükə-bükə...
Vətən torpaqları tək bölüb parçaladılar tikə-tikə...
Nə deyək?
Hakimiyyət davasımı,
Yoxsa Kommunizmin gorunu qazanların texniki qəzasımı?..
Sadəcə, 20 Yanvar , bəlkə?..

20 Yanvardan 30 il keçdi...
Yandırır kədər içimi:
Soljenitsının “İvan Denisoviçində
Üç min altı yüz əlli üç günlük ağır tema kimi...
Yazdığım poema kimi!!!

2

Ey şəhid qardaşlar!
Mən sizi anıram gözümdə yaşlar...
Qara torpaq çəkir bizi durmadan,
Budağından qopmuş son yarpaq kimi,
Gözlərə qoyulan bir torpaq kimi...
Tarix çəkir məni də
Azadlıq şəhidlərinə sarı.
Vətənin ən qutsal məbədidir
Paytaxt Bakımızda
Şəhidlərin üzəri qərənfilli məzarı...

Şəhidlər unudulmaz!

Qan yerdə qalmaz!..

Ey 20 Yanvarı törədən cinayətkarlar!
Sakral örtüklərlə örtülməz  cinayətlər...
Yoxsa gələr cinayətlər cinayətlərin üstünə.
Bu dünyada ən yaxşı məlhəm
Anaların göz yaşlarıdır
Şəhidlərin büstünə.

Ey Şuşa zəfərini tarixə yazan
İgid qəhrəman!
Bu Dastan məndən daha çox
Sənin əsərindir.
Çünki
20 Yanvarın şəhidlərinə qoyulmuş
Ən böyük abidə
Sənin  tarixi Şuşa Zəfərindir!..

Ey 20 YANVARın
Qəhrəman şəhidləri!
Sizə borcludur bu gün
Vətənimin Günəşli hər gündüzü,  səhəri!
Sizə borcludur Bakı,
Sizə borcludur Şəki...
Naxçıvan, Qubadlı, Astara, Lerik...
Sizə borcludur Lənkəran, Biləsuvar...
Sizə borcludur Maştağa, Biləcəri...
Kürdəmir, Kəlbəcər, Xudat, Ordubad...
Qazax, İsmayıllı...
Ağsu, Cəbrayıl...
Sizə borcludur Göyçay, Masallı...
Gəncə, Cəlilabad, Ağdaş,  Sabirabad...
Quba, Mingəçevir, Qax, Zaqatala...
Bütün Azərbaycan – sizə borcludur.

Çünki
Ürək nə görürsə gözə borcludur!..
Şəhadət Azadlığın yeganə yoludur!
Çünki
Şəhidlər Azadlığın oğludur!..

Ey şəhid qardaşlar, uyuyun rahat!
Yer üstü qürbətdir, yer altı Vətən.
Zəfərə dönəndə savaşda həyat
Şəhadət möhrilə təsdiqlənir MƏN!...

Oxu, gözəl Şuşa, oxu sən bu gün,
Oxu, bülbül səsin aləmi tutsun!
Qələbə sevincin yaşamaq üçün
Natavan keçmişi könlüm unutsun...

Oxu, Vaqifimin qoşmalarını,
Könlümü İlhama gətir yenidən!
Oxu, ürəyimin arzularını:
Gülsün bu azad xalq, bu azad Vətən!

Mənim mükafatım Vətən sevgisi,
Vəzifəm əbədi azadlığımdır.
Mənim hürriyətim Bülbülün səsi:
Qəlbə İLHAM verən QARABAĞımdır!

Yaşa, Komandanım! Yaşa, FATEHim!
Dövrəndə fırlansın bütün kainat.
Rəsmini çəkdikcə vurğun Qələmim,
Böyüyür gözümdə ŞUŞA! FÜTUHAT!

Qarabağ xalqımız üçün şərəf, şan,
Şuşaya yol açmış Zəfər deməkdir!

Qarabağ tarixi bir  Azərbaycan,
Heydər Əliyev tək ÖNDƏR deməkdir!



İnsanlıq seçimi tamaşa deyil,
Səhnəyə çevirib oynasın bəşər.
Ey könül, dühalar önündə əyil:
Yalnız Gün doğanda açılır səhər!

Azadlıq  ardınca getdiyi gündən
İnsan bütövləşir, Haqq bütövləşir.
Bu gün ona görə xoşbəxtəm ki mən
Başıma İstiqlal kölgəsi düşür!..

Mən də bu Vətənin bir şairiyəm:
Fütuhat bağırır könlümün simi.
Sənət meydanının mərd əsgəriyəm,
Xaqani, Nəsimi,  Seyid Əzim kimi!..

Qürur nəğməsidir  "FATEH" əsərim,
Bir xalqın  Zəfərin vəsf edirəm mən!
Tarixə dikilib QALİB  nəzərim:
Qürurum, şərəfim sənsən, ey VƏTƏN!..

3

Fərman kölə etməz: əsl kölələr
Qorxudan bağırı yarılanlardır.
Ruhu qul, vücudu qara kölgələr,
Pul üçün ayağa sarılanlardır!

Quldur- köləliklə çörək yeyənlər!
Quldur- gədalığa “şahım”- deyənlər!
Qul!- zülmə, zalıma boyun əyənlər,
Zəfərə ümidi qırılanlardır!..

Aqil öləndə də dünyaya gülər,
Gülün günəş eşqi qayalar dələr.
İgidlər alnından gülləyə gələr,
Qorxaqlar kürəkdən vurulanlardır.

Azaddır əməli, sözü doğrular!
Azaddır vicdanı gül qoxulular!
Azaddır meydanda Qoç Koroğlular!
Kölələr savaşdan yorulanlardır.

Cənab Panavropa mübəlliğləri!
Siz yaxşı bilirsiz islamın gücün.
İslamdan başlayıb Türkün hünəri:
Quran  öncül kitab olduğu üçün!

Məhəbbət şairi doğulmuşam mən:
İnsanlıq  sevdası pak  könlümüzdür.
Şirinlər  doğurmuş alban Bərdədə
Fərhadlıq eyləyən  Nizamimizdir!..

Bəli, bir Nizami İlidir bu il,
Şirin Zəfərimlə İLHAMım daşır.
Qıpçaq Afaqımın Fərhad eşqilə
Nizamim Şuşanı gəzib dolaşır...

Fəqət bir millətin, bir xalqın deyil,
Bütün insanlığın Zəfəridir bu!
Haqla, Ədalətlə vermiş əl-ələ
Şanlı vətənimin qalib ordusu.

10 il dərs demişəm mən də Bakıda:
"Müəllim" poemam dillər əzbəri...
Yazmaq istəyirəm təkrar bu haqda-
Necə dəfv etmişəm çətinlikləri?..




Milləti üstünlük Zirvələrinə
Müəllim zəkası ucaldır yalnız!
Gündüz Günəş deyək onun işinə,
Gecə də ən parlaq, ən nurlu ulduz!

Yalana, doğruya bölünür dəhr,
Müşkildir məqsədə düzlüklə yetmək.
Müəllim olmağın ilkin şərtidir:
Bu əyri dünyanın düz yolun getmək!

İsmayıl müəllim ruhun şad olsun:
Çiyni kəndinin də gözləri aydın!
Bir vaxt şagirdlərə deyib haqq sözü:
Gəncliyi  Vətənin əsgəri saydın!..

Bəli, şəhadətin Zəfəridir bu:
Qanlıdır yazdığım bütün misralar:
Dastana çevrilmiş  qəlbin arzusu
Qalsın  İLHAMımdan xalqa yadigar!

Bu Zəfər orduma əsgər yetirmiş,
Sərkərdə yetirmiş məktəblərindir!
Şuşamda vətənə güllər bitirmiş,
Sevdalı qəlblərin, pak əllərindir.

Şuşa Zəfərimi vəsf eləyərkən,
Hər şəhid əsgərdə müəllim gördüm!
İsmayıl ocağı haqda dinərkən,
Mikayıl örnəyin ölçü götürdüm!

Onun xahişidir yazdığım əsər,
Mən də öz vədimi yetirdim başa!
Yazdığım hər misra açıq söyləyər:
Mikayıl müəllim, səni min yaşa!..

"FATEH" dastanımın ilk nüsxəsini
Ünvana yetirə bilməsəm də mən,
Salamlar göndərən qəlbin səsini
Sizə duyururam  hər sətirimdən!..

Ölməz şairimiz Seyid Əzimlə
Mürşidlik,  müridlik yolların keçdim.

Ölməz Mir Cəlala, Bəxtiyara mən
Sənət dünyamızda qutsal And içdim!

Heydər Əliyevin məktəbin keçib,
Zəfərə çox uzun bir yol gəlmişəm.
Millətə qulluğu əqidə çeçib,
Şeirimin İLHAMın Vətən bilmişəm!..

"Bilik ilahinin odudur, sanmam
Biriylə başlayıb, biriylə bitdi...
Bəşər doğulandan bəri daima
Məktəb sona yetməz bir estafetdir!

Bir qara tablodur Yazı taxtası,
Bir də ağ təbaşir- Məktəbin gücü!..
Bütün ömrümüzün bəyaz mənası
Bu qara tabloya cəmləyir bizi..."

Dahi Öndərimiz Heydər Əliyev,
Bu xalqı məktəblə sınağa çəkdi.
Hər insan, cəmiyyət, hər ailə, ev
Məktəbə dönəcək- gün gələcəkdir!

Ailə məktəbdir! Elm məktəbdir!
Nəsillər yürüşü bir estafetdir!
Öyrənmək, öyrətmək ilkin tələbdir:
Nəvələr Babalar ardınca gedir...
Bu dahi fikirlər Çiyni kəndində
İsmayıl xocadan qalmış yadigar!
(Səhəri ertədən açanda gün də,
Gündüzə qarşıb itər ulduzlar...)




Lakin unutmağa haqqımız yoxdur
Ömrünü Günəşə çevirənləri...
Arzumuz işıqlı, qəlbimiz toxdur
Şirvan  mədəniyyət sevəndən bəri!



**Şuşa Zəfərimdən bəhs eləyərkən,**
**Hər şəhid əsgərdə MÜƏLLİM gördüm!**
**İsmayıl ocağın vəsf  eləyərkən,**
**Mikayıl örnəyin ölçü götürdüm!**
(PS: SOKAR şirkətinin eks vitse-prezidenti
**Mikayıl İsmayıl oğlu İsmayılov** nəzərdə tutulur.-Red.)

**Onun xahişidir yazdığım əsər,**
**Mən də öz vədimi yetirdim başa!**

**Yazdığım hər misra daim söyləyər:**
**MİKAYIL müəllim, səni min yaşa!..**

**Az əsər yazmadım mən bu həyatda:**
**Yaşadım bir Bayron, bir Bazak kimi...**
**Etiraf edirəm ədəbiyatda**
**Mikayıla borcluyam Şah Əsərimi!**

Alın yazısıdır kim, nə doğulmaq...
Bəxt edir müəyyən bəxtiyarlığı.
Hər kəsin özündən aslıdır ancaq
Vətənin uğrunda fədakarlığı!

Yamanlar olmazsa, Yaxşı bilinməz:
Çətindir qorumaq yaxşı adları...
Ağıllı, ağılsız- həyatda hər kəs
Düzə etməlidir istinadları...

Qaydasız oyunlar üzə gülsə də,
Yaxşı adımızı qoruduq biz də.
Vətənə, millətə qarşı bir gün də
Xəyanət olmadı ürəyimizdə.

**Bəli, çox çalışdım "Fateh" dastanım**
**Zəfər bayramına qədər yazılsın.**
**Bu son poemamda hər bir misramın**
**Önündə İLHAMLI bayraq asılsın!..**

## Dördüncü nəğmə
# İLHAMLI SÜLH



**1**

**İrəli, xalqım, əziz can ola Bayrağa fəda,**
**Mavi-al rəngli-yaşıl tarixi övrağa fəda!**

**Bu gözəl yurduma bax, yer üzünün cənnətidir,**
**Canımız hər çəmənə, gülşənə, hər bağə fəda!**

**Uca tutmaq gərəkir bizlərə Ulduzlu Tuğu**
**Ki, olaq həm Hilala, Ülkərə, həm Tuğə fəda!**

**Edər aləmə şayan bizləri Fərhadi-hünər,**
**Edə bilsək bu Şirin canları biz dağə fəda!**

**Vətən eşqidi bizim könlümüzə şahlıq edən,**
**Olalım gündə neçə yol bu gözəl şahə fəda!**

**Vətən uğrunda şəhid olmuş əziz gənc əsgər,**
**Canımız olsun o sizlər bükülən ağə fəda!**

**Şühəda əhlinə min rəhmət oxur şanlı Vətən,**
**Onlar etmiş canını çünki bu torpağə fəda!**

**Bizi Azadlıq üçün doğdu, doğurdu ki zaman,**
**Yaşayaq özgür, edək ömrü bu növrağə fəda!**

**Bir ömür azdır, Ata, can Vətən uğrunda verək,**
**Neçə yol gündə olaq biz də bu Bayrağa fəda!!.**

*******

Dostluqdur həyatın ilkin mənası,
ZƏFƏR sədaqətin təntənəsidir!
Etibar deməkdir İLHAM dünyası,
Şeir məhəbbətin təranəsidir!

Mən yad elədikcə ötən keçmişi
Ömrümün günləri səslənir bir-bir.
Sərf-nəzər etdikcə çərxi-gərdişi
Mənə səbirli ol!- söyləyir şeir!..

Zəfər Sülh deməkdir, Sülh də son Zəfər!
Bəşər Tarixə yol açandan bəri.
Yazdığım misralar anbaan deyər:
Ey könül, sədaqət yoluyla yeri!

Vətənin iki mərd igid oğlunu
Bir zaman ürəkdən vəsf etmişəm mən.
Yad edib "General Nəsirov"umu,
Bəhs edim həmçinin mərd Şahidimdən!

Unutmaq haqqımız yoxdur heç kəsi,
Zəfər ilk növbədə qəhrəmanındır.
Bəytəpə döyüşü, Hərami düzü...
Tankçı ŞAHİDimin şöhrət-şanıdır!

Bəli, vəsf etmişəm ULU ÖNDƏRin
Tarixə görk olmuş mərd ƏSGƏRlərin:
Günəşin göylərdə itirsək yerin
Zamanı bilinməz nurlu səhərin...

Yarımçıq bir Sülhə dönər bu Dastan,
Hər kəsi Haqqına qovuşdurmasaq.
İlhamım HEYDƏRdən danışan zaman
Haqqa, Həqiqətə söykənir ancaq!..

"Şahid" (2010) poemamda Atəşkəs üçün
Ürək arzusuyla ÖNDƏR adından
Yazmışdım: gələcək, ey oğul, bir gün
Qılınclar çıxacaq təkrar qınından!..

"Unutma bu yurdun hər qarışını
Geriyə qaytarmaq sənin borcundur!
Masalar ardında yorma başını,
Əsl müdafiə yalnız HÜCUMdur!..

Unutma, bu yurda girmiş düşmənin
Qəbrini burada sən qazacaqsan!
Şahidi olaraq son Qələbənin,
Şuşa salnaməmi sən yazacaqsan!.."
("Şahid" poeması. "Terrorizm-qan çilənən
torpaqlar". III Kitab. "Avropa" nəşriyyatı
Bakı-2010, səh:172-213).

Şahid Həbibulla. Cəng bitdi başa!
Qarabağ qazismiz! Ruhun şad olsun!
ZƏFƏR bu xalqındır, azaddır Şuşa!
Müzeyin tarixə bir irşad olsun...



Bəli, qəhrəmanlıq Oğuzdan qalan,
Muxasdan başlayan tarixi yoldu...
**Əntiqi əşyalar Müzeyi – QALA,**
**ŞAHİD! Son ZƏFƏRə ilk töhfən oldu.**

Bir əlində silah, bir əlində gül
Gəzdin Qarabağı sən qarış-qarış...
Xilas eylədiyin keçmişimlə bir
Bu günüm söyləyir adına: alqış!

Qarabağ türkündür, bu üzdən də sən,
Tarixi güllədən, oddan qorudun.
Hər saxsı qırığı, hər mərsin, mis cam—
Şanlı Zəfərim tək çıxdı döyüşdən!

Hər qədim misgərlik abidəmizdə
Qədim keçmişimin bir dastanı var.
QALA- müzeyinin hər guşəsində
Adını min könül, min gül salamlar!

Çoxları antikvar bazar açanda,
Qorudun onları bircə-bircə sən.
İlk örnək yaratdın Azərbaycanda,
Ağır zəhmətini unutmaz Vətən!



Bir yalnız torpağı qorumadın sən,
Hifz etdin vətənin əntiq  sərvətin...
Bu gün  Tretyakov qalerisindən
Gözümdə artıqdır sənin zəhmətin!

Qarabağa  "Arsaq" deyən hayların
Ən böyük cavabı bu müzeydədir.
Yalan sellərində axan "çayların"
Mənsəbi Qalada quruyub, bitir...

Qarabağ Sülhünün ilk imzasını
Sənin tank alayın atmış tarixə.
Könüldən yazıram mən bu yazını,
Fikrimdə, sözümdə yox mübaliğə!

Vətənin keçmişin, əntiq sərvətin
Savaş meydanında qorumuşsan sən.

Qazanıb əbədi el məhəbbətin,
Müzəffər çıxmışsan Haqq döyüşündən!..

Tarixə, keçmişə şər atanların
Nəslinə, soyuna ar deyirəm mən!
Zəfərə yol açmış qəhrəmanların
Ruhunun önündə baş əyirəm mən!

Bu kiçik dastanda, təəssüflər ki,
Hamını yad etmək imkanım yoxdur...
Qarabağ savaşı elə hünər ki,
Onun ŞAHİDləri ulduzdan çoxdur!..



Könlüm alqış deyir gələrək dilə:
Sevin, Oğuz yurdu, Şahidin ruhu!
Vətənə məhəbbət hissləri ilə
Zəfəri qazandı millətçi Ordu!

“Dağlar ətəyində cənnət Oğuzun,
Hər daşı, kəsəyi “Oğuznamə”dir.
Nigardır, Həcərdir gəlini, qızı,
Hər Oğuz ərəni bir salnamədir.

Vətən dara düşsə, topdan, tüfəngdən
Öncə bayatılar, laylalar dinər.
Ərənlər dərs almış şirdən, pələngdən,
Ədalət susanda, qayalar dinər!..

Bəyaz qar örtülüb ağ örpək kimi,
İsmətli dağların gəlin başına.
Beşikdə körpənin bir örnək kimi,
Müridlər köçübdür qan yaddaşına...

Coşqun sularında dağ çaylarının
Müdrik Şeyxlərin səbiri daşar.
Dağlar ölkəsinin dolaylarında
Şamilin, Muradın harayı yaşar...

Oğuzun  misilsiz sərvət-varıdır
Qoruyan oğullar, quran oğullar.
Allahın yerdəki sütunlarıdır
Şahid tək sözündə duran oğullar!"

Keçdin zülmətindən Lefertofanın,
Hər kəs mərdliyinə tay ola bilməz!
Düşmən ürəyinə atdığın oxun,
Hər ip kamanına yay ola bilməz!

Kişilər söz verdi Vətən önündə,
Millətə  Qələbə gətirəcəklər.
Dünyanın hər gecə, hər gündüzündə
Onlara eşq olsun deyir ürəklər!

***

"Kişinin vicdanı sekuntantıdır:
Hər kəsin özüylə bir dueli var.

Olumdan ölümə bircə santıdır,
Hər qəlbin tətikdə duran əli var.

Xoş həyat insanın son qış nağılı.
Hər baş bəlalıdır, hər ürək dağlı.
Tükənməz deyildir arifin ağlı,
Hər sükut içində könlü dəli var.

Həyat səbrlidir, tale ərköyün.
Yerdən soruşulmur nizamı göyün.
Bəndədən gizlənmiş bir namərdliyin
Tanrı hüzurunda min bədəli var.

Dövr edir kainat, dönür qərinə,
Ölənin bir kimsə ölmür yerinə...
Həyatda əbədi deyildir heç nə,
Dünyanın həm sonu, həm əzəli var!”

***

Hər daşın, kərpicin öz yeri vardır,
Bizim Vətən adlı can mülkümüzdə.
Tarixi yaradan qəhrəmanlardır
Həm bu gün, həm də ki keçmişimizdə...

Gəldi-gedərdilər Boz kardinallar!
Monqolun köçəri tayfaları tək.
Hər zaman yazılmaz şanlı Dastanlar:
Hər kəsə nəğmələr söyləməz ürək!

Dinlə İLHAMımı, ey könül, sən də
Çevir Tarixlərə bu FÜTUHATı.
Hər Böyük Əbədi Son Zəfərin də
Məğzində durmuşdur ŞAHİD həyatı

2

Savaş bir sualdır, Sülh də bir cavab:
Hər Sülhün dərgahda savabı vardır...
İlhamım hər kəsə edir bir xitab:
Onun öz sualı, cavabı vardır...

Kimə gərək idi, gənclərin ölmü?..
Analar qəlbinə dağları çəkmək?..
Allah  da götürən deyil bu zülmü!
Hər kəsin sorğusu olacaq tək-tək!

Cavab ver: Köçəryan, Serj, Paşinyan!
Analar ahından qurtulmaq çətin.
Hər şeyi yerinə qoyanda zaman,
Gözündən qaçassız daim millətin...

Kələbəcər qızılı üstdə vuruşduz:
“Qarabağ” şüarın atıb ortaya.
Xalqın övladının canın  uduzduz:
Yığıb varidatı Pan  Fransaya.

Vicadandan savayı hər şeyiniz var:
Mülkünüz, bağınız, bank hesabınız...
Övladı savaşda ölən insanlar
Sizdən haqq soracaq: yox cavabınız!

Xeyr, orijinal deyil faşizm:
Debil ağlınızla təkrarçısız siz.
Tarix biliyimiz dərindir bizim:
Təkrardır bu faşist əməlləriniz.

Bir zaman Hitlerin ağlı qarışdı,
Qırdırdı öz xalqın qarışqa kimi...
Bütün diktatorlar birgə yarışdı:
Haqqın başı üstə bir qarğa kimi.

Tarix yaxşı bilir Sonluq nə olur,
Qansıza cəhənnəm bu dünyadadır.
Mənim də gözümü bir duman alır,
Anamın köksündə bir yara yatır...

Babamın məzarı Rusiyadadır:
Odur ki, əzizdir ora da mənə.
Şər də, xeyir ruh da bu dünyadadır:
Ömrün mənasını incələyənə...

Savaş başladısa, mərd önə çıxır.
Namərdlər arxada başın girləyir.
Qəhrəman ölümün gözünə baxır,
Qorxaq dilənçi tək min sifət geyir...

Savaş arxasında gizlənərək siz
Yaxşı pul yığdınız ölümdən-qandan.
Heç zaman qurtula bilməyəcəksiz
Məsum  anaların göz yaşlarından.

Əsgər güllə ilə sözün deyəndə,
Geniş kürsülərdən şüar söylədiz.
Günəş kəlləsini yerə əyəndə,
"Mənim hesabımı gətirin!"- dediz.

Əbədi vəzifə, mənəvi borcdur:
Hər kəsə Vətəni, xalqı qorumaq!
Namərdlər xoş gündə "yerini" tutur,
Kişilər dar gündə tanınır ancaq...

Hayastan yalanla yedirilәndә,
Haykaz cavanları Ölüm yeyirdi.
Zori Balayanlar başlar kәsәndә,
Yerevan “oğlumu qaytar”- deyirdi...

Xeyr faşizmin millәti yoxdur:
Faşistdir cahanda tüm vicdansızlar!
Kim deyir ki, Hitler bir soysuzdur:
Hitlerin oğludur bütün qansızlar.

Qarabağ Zәfәri onunçun belә
Bu qәdәr müqәddәs, әzizdir mәnә:
Gәtirdi anamı İlhamım dilә,
Qoşuldum onun ilk ata dәrdinә...

Keçmiş SSRİ. Vәtәn savaşı...
Moskva uğrunda vuruşdu babam.
Cavan Rzaxanı vurana qarşı
Yaşadı anamda daim intiqam!..

Nәvәlәr babanı saldılar yada,
Yeni salnamәsin yazıb hünәrin.
Qeyd oldu ötәn il bütün dünyada
75 İlliyi Böyük zәfәrin...

2020. 10-u NOYABR!..
Hәm Zәfәr, hәm dә SÜLH gәtirdi bizә!
İLHAMım әn Böyük SÜLHә çağırır:
Eşq olsun bu BÖYÜK ZӘFӘRimizә!

Bir daha tatixi salaraq yada
Faşist bir keçmişә salıram nәzәr.
Binadan belәdir qoca dünyada
Әbәdi mövcuddur hәm xeyir, hәm şәr?!

...Zaman: 1929.
Dünya iqtisadi böhran içində...
Başını qaldırmış Adolf tək quduz:
Avropa - faşizmin məngənəsində.



Oyuna çevrilib tüm həyat, ömür,
Savaşa çağırır Hitler cahanı.
Oyunun ilk şərti müharibədir:
Xalqları üz-üzə qoymaq planı.

Kütləvi partiya- total psixoz:
Budur hitlerizmin əsas silahı.
Fərdin hüququna, fikrinə bir qoz:
"Köməkçi" edibdir Fürür "allahı"...

Mən yaxşı bilirəm kimdir hərb sevən:
Mülki yaşayışın uğursuzları...
50-ci illərdə Əlcəzairdən
Kim tanımır qaçqın fransızları?..

Bəli, Respublika, İnsan haqları...
Oyunbaz mühitdə bir heçə dönür.
Zülmət bürüyəndə Günəşin nurun,
İnsan qəlbində də mərhəmət sönür...

Qabino almanı “ari” irqinin
Etalon millәti hesab etmişdi:
Adolf Hitler mәhz belәlәrinin
Xәstә beyinindә “şeff” yetişmişdi...

80-90-cı illәr. Qafqazın
Hayastan bölgәsi Qabino kimi
Faşizmin götürüb alçaq mәnasın
Elan etdi özün Şәrqin hakimi...

Faşist Nijdelәri bütә çevirib
Tәcavüz etdilәr Azәrbaycana.
“Ari irq” faşizmә “salam” yetirib:
Sığındı “demokrat” Firәngistana!!.

Siz ey Respublika ideyasının
Firәng sәlәflәri, qalxın mәzardan!
Alınız özünüz әdl qisasın
Haqqa düşmәn firәnf “deputatlardan”...

Fransa Makronlar demәk deyildir:
Hüqodur, Balzakdır, Romen Rollandır!..
Qafqazda tamamәn düz otuz ildir
Hayka dәsatәk duran de - Jan Valjandır.

Kәlbәcәr qızılın Fransa üçün
Ortaq mal edibdir çatlaq Hayastan.
Hansı mәhkәmәyә çıxsınlar bu gün
Serj Sәrksyan, Robert Köçәryan?!.

BMT üzvüyәm: haqqım tanınmış-
Azad Qarabağdır ilk HӘQİQӘTİM!

Qəlbim insanlığa, haqqa tapınmış,
Çünki əbədidir Cümhuriyətim!..

Mən azad ruhumu satmaram heç vaxt
Mefistofellər tək xain varlığa.
Yaşaram tayfabaş Ramzesdən uzaq,
Can qoyub İlhamlı fədakarlığa!..

Hələ Yer üzündə "allahlar" çoxdur:
Bu eşqə düşən də hələ az deyil.
Vəhşətlər içində insanlıq yoxdur:
Heyvanlıq yarışı gedir elə bil...

Qanunlar bir kağız parçası kimi,
Əl-ağız silməyə yarayır ancaq.
Məmurlar Qanunun ağası kimi
Özünü aparır: tapdalanır haqq.

"Qibləmdə İnsan var!" –deyən Nəsimi
"Erməni" rədifli şeir yazanda,
Şair öldürəni "Teymur Xan" kimi
Amir tanıdırdı haykaz cahanda?!.

Ədalət bilməyən bir yırtıcıdan
İnsanlıq gözləmək, əlbətdə, olmaz!
Qara kıyınların Cahan Şahından
Eçmədzini bəxşiş almışdı HAYKAZ!

Atabəkiyyədə Hayastan evi
Tartarlar qurmuşlar 1441-də.
Kirakos I Virapetsini
Cahan Şah gətirdi Türk vətənimə?!.

Səlib Kilikiya katolikləri
Zəngi torpağıma axışıb gəldi.
Zəngi Ərməniyə Qıpçaq türkləri
Haykı Qara kıyın "qonağı" bildi...

Boynuna Xaç salmış Çingiz xanların
Monqol əşirəti məscidlər sökdü.
Babası bu saxta "Oğuzxanların"
Şirvan torpağında kilsələr tikdi...

Siz ey anti-Şirvan danabaş köçü,
Tarixim üstünə "tarix" yazmayın!
Şirvana qəsd edən monqolun bici-
Monqoldur: cəddizi monqol da sayın!

Yamanlıq etmədik biz ki sizlərə?!
Adamlıq elədik yad "qonaqlara".
Dini bayraq etmiş siz dinsizlərə
Harammış yerləşmək bu torpaqlara!

Atabəy Zübeydə Eldəniz xatun
Ərmənşah olanda bir zaman sizə,
Haykazlı, Qıpçaqlı "ərməni"- bütün
Qayıtdız fəxr ilə "türklüyünüzə"???

Büqələmunluq deyil İnsan doğulmaq,
Ləyaqət varlığın tam mənasıdır.
Nəsimi, ya Fərhad- şirvanlı olmaq:
Allahın cahanda ilk simasıdır!!!

Erməni xalqını etmirəm qınaq:
Hər xalqın yaxşısı, pisləri vardır.

İnsan qanlarını içənlər ancaq
İnsan qılığında bir canavardır.

Savaşı millətlər, xalqlar aparmaz:
Savaş siyasətin zor davamıdır.
Savaş sevənlərə ürəyim varmaz:
Savaş vəhşətlərin kor davamıdır.

Mən də bir sufiyəm: Şirvandır elim!
İnsanlıq yurdudur mənə bu Vətən.
Allahlıq etməyə qarşıdır qəlbim:
Ərzi  İnsanlığa çağırıram mən!..

3

Neanderthalensis 40 min il əvvəl
Homo sapiensə Yeri tərk edib:
Fəqət bu son iki əsr  elə bil
Vəhşət baş qaldırıb təkrar cəng  seçib?!.

Ey könül, bunu da sən saxla yadda:
Tarixdə yekun söz  tək  millətindir:
Zəfəri qorumaq, məncə, həyatda
Onu qazanmaqdan daha çətindir...

Səbəb yox, nəticə üzrə düşündüm:
Həyatda çox aşrım, çox  yoxuş gördüm.
Ən dar  hücrələrdə ərzi düşündüm,
Hər şəhid ölmündə doğuluş gördüm...

Az qanlar axmadı Qoca Qafqazda,
Çox uydu bu bölgə ağ  Avropaya.

Tarixdən dərs alıb, biz qonşuluqda
Böyük Sülhə imza atdıq bir daha...

Harda işğalçı var, orda HİTLER var:
Nə fərqi erməni, alman faşizmi?!.
Hitlerlə vuruşdu igid babalar,
Ardınca yol gəldi sonrakı nəsli.

Yadımdan çıxmır heç ilk gəncliyimdə
Vətən sərhədində keşik çəkdiyim.
Keçmiş SSRİ. Nostalji kimdə!..
Bəlkə, mən də sizə xatirə deyim?!.

Mövlanə Ruminin vardır bir Sözü-
Düşür yadıma o mənim çox zaman:
"Əgər axtarmasan, tapmazsan nəsə,
Dostusa tapmasan, axtaranmazsan."



**Vətənin ən cənub sərhədlərində**
**Xidmət eyləmişəm bir zaman mən də.**
**Gəncliyim Arazın sahillərində**
**Keçmişdir: ruzigar tərsə əsəndə.**

Cahanı sarmışdı indiki kimi:
Suriya-İsrayıl münaqişəsi...
83- cü il.  Yanvar qış günü.
İran sərhədinə düzdülər bizi...

Qıvraqda yerləşən alayda qulluq
Edirdim bir taqım komandiri tək.
Arazı adlayıb bizlər biryolluq
Əmrlə  Şamadək getməli idik.

Bizdən aslı deyil hökmü zamanın,
Vaxt qalmır özünə ağlın bir anlıq...
Doğulur bəxtində bəzən insanın,
Ani təsadüfdən min qəhrəmanlıq...

Alayda üç nəfər Azəri zabit:
Bəyzadə, Əlizadə, bir də mən idim.
Xeyr, sanılmırdı o zaman igid
Bizim aramızda hələ ki  heç kim...

Biz savaş dövründə doğulanların
20 il sonrakı övladlarıydıq...
Azadlıq yolunda axan qanların
Vətəndə gül açmış son baharıydıq!

Yaxın Şərq böhranı bütün dünyada
Böyük dövlətləri qoyub üz-üzə:
Cavan ömrümüzü verərək bada,
Son qoymaq istərdi taleyimizə...

Suriya başçısı Hafiz Əsədin
Sərt üzünü görmüş Qərbçilər onu

Anlayıb bildi ki, 80-lər  bu gün
Deyildir 70-in əvvəli, sonu...



Reyqan gecikmişdi  "səhnəyə" bir az:
Oyun  dəyişmişdir, cənab Şultuslar.
BMT nə qədər çalsa da avaz:
Sovetdə **general Yaşkin**lər də var!

Bəli, az deyildi belə generallar
Sovetin Silahlı Qüvvələrində.
Əllərdə avtomat – çöldə şaxta-qar
Savaşa gedirdik günün birində...

Sovetlər əsgəri olmuş babamı
Hərdən-bir salırdım sərhəddə yada.
Savaşa girərək bir qış axşamı,
Vida deməliydim mən də həyata?!

Əsgər şərəfini itirə bilməz!
Canın yox, Andını qoruyar əsgər.
Mən də fəxr edirdim: babam filankəs
Cahan savaşında göstərib hünər:

Qorumuş Moskva şəhərini o,
Alman faşizminin ordularından.
Azadlıq yolunda son səhərini o,
Moskvaya baxıb, keçib canından...

Sərhəddə gedərək tez-tez xəyala
Çəkirdim özümü sorğu-suala...
Nədir bu dünyanın dərdi, görəsən?
Bəşər bir-birini öldürür nədən?..

Niyə bombalansın dinc Əfqanıstan,
Yurdundan didərgin düşsün Fələstin?
Bir yanda günahsız tökülsün min qan,
Bir yanda maskarad: BMT üçün...

Biz hələ bilmirdik, nə davasıdır:
Nədir dövlətlərin mübahisəsi?!
Biz hələ bilmirdik baş bəlasıdır
Qara Neft uğrunda Şərq müharibəsi...

Siyasi şətrəncin At gedişləri:
Bir addım irəli, üç addım geri...
"Birləşmiş Millət"in pat gedişləri
Bölüb parçalayır "Şah" ərəbləri.

...Burada kiçik bir haşiyə verib,
Bizim "Qarabağ"ı yada salıram.
Fələstin-Qarabağ: eynilik görüb,
Dünyanın işinə lap mat qalıram:

(Bakını Livana çevirəcəyik!-
Belə söyləmişdi bizə Köçəryan.

Qələtlər edərək başından böyük
Şuşa Zəfərimə qədər bir zaman?!)

...83-ci ilin ilk aylarından
İyunun-avqustun sonuna kimi.
İranla sərhəddə tutaraq “məkan”
Gözlədik son əmri bir nəfər kimi!



“Sovet xalqı” idi bizim “komanda”,
Qarşıda gözləyən NATO-ABŞ-dı.
İlk “oyun” olmuşdu Əfqanıstanda,
İndi də növbədə Dəməşq: “YARIŞDI”...

İranı keçərək İraqa girmək,
Sonra da SURİYA, LİVANA sarı
Əcəllə üz-üzə durub aslan tək
Şəhid olmalıydıq ömrün baharı...

BMP-lər, tanklar dağ döşlərində
Torpaq yuvalarda tutmuşdu mövqe.
Kim bilir, Arazın hansı yerində
Kimi gözləyirdi birinci zərbə?

Aylarla səbrini basıb gözlədik,
Hərə bir əfsanə, nağıl söylədi.

Cəmi iki illik zabitlər idik:
Biz hardan bilirdik müharibə nədi?!

Oxucum, asandır bir filmə baxmaq:
Ölüb-öldürməksə asan iş deyil.
Nə qədər özünü aldatsan da bax,
Dünyanın sonudur savaş elə bil...

Dünya neft davası aparır, sən "can",
Ya sən öldürəcək, ya sən öləssən...
Qanına boyanıb tüm Əfqanıstan,
Misir və Suriya, Livan, Fələstin...



Ey könül, Oyunun bir parçasısan:
Özün istəsən də, istəməsən də!..
Səni tərk edəndə cavan ikən can,
Qismətin olmadı, bəlkə, kəfən də...

Tarix Sərmayədar zamanəsidir:
Neftə bağlanıbdır Dolların ömrü.
Könüllər çox da eşq xəzinəsidir:
Öldür! Ya Öl!- deyir taleyin əmri.

Bir vaxt Heminquey, Sent-Ekzüperi
Cahan savaşına qatılıb mən tək...
Sülhə çağırışın gənc ədibləri
İnsan öldürüblər, insan sevərək?!.




Astardır dünyanın görünən üzü,
Surətlər aldatmaq bacarmaz gözü.
Əgər qəlb deyəni tale demirsə,
Həyatın üstünə ölüm gəlirsə,

Silah götürürsə Heminqueylər...
Namiq Atabəylər və daha kimlər...
Qəlbə dar gəlirsə fikrin meydanı,
Tarix qınamasın gərək İnsanı...

Çox da İlahidir insanda nəfəs:
Belə düşünməyir döyüşdə heç kəs...
İstər general ol, istərsə əsgər,
Şöhrətin-şərəfin bir yalnız Zəfər!

Xidmətdir  arzudan, ömürdən uca,
Döyüşən  əsgərdə ürək vurduqca...
Əsgər hər bir zaman xalqa əzizdir,
Əmrə tabe olmaq  vəzifəmizdir...

İmperiya savaşsız yaşaya bilməz,
İstər İsgəndər ol, istərsə Sezar.
Ölümdür savaşın aldığı nəfəs,
Arzusu, niyyəti soyuq bir məzar.

Dahi Tolstoyun “Hərb və sülh”ünü
Təkrar keçirirəm gözüm önündən.
Bəlkə, öləcəyəm ilk savaş günü:
Hərgah Balkonski doğulmadım mən!..

Livan mühasirə, Beyrut zəbt olub:
Fələstin qaçqını bombalar altda.
Qədim Ərəbistan meyitlə dolub,
BMT düşünmür əsla “Sülh” haqda?!

Bir Kazak dostumuz “ingiliscədən”
Hər gün məlumatlar gətirir bizə.
Çoxu yalan olur, düz çıxır hərdən,
Eh, nə var efirdən yayılan səsə?..

Yanvarda (1983-cü il) 220-ci polk
Dəməşq civarında ilk mövqe aldı.
“Qafqaz-2” adlı təlim quraraq,
Sovetlər Məğribə vahimə saldı...

Biz də bir növbəti “Marş”ı gözləyib,
Araz kənarında saatı qurduq...
Allaha təvəkkül!- Nə olar deyib,
İran sərhədində farağat durduq.

Bir gün səs yayıldı: yenə sərhədə
Baxış keçirilir: hazır olunuz!

Siz nədən qorxursuz,- gürcülər dedi:
-Komissiya sədridir bir  eloğlunuz!



Ucaboy General edib cəsarət
Özü gəlmiş idi sərhəd ağzına.
Sağında-solunda rəsmi bir heyət,
Hərbi salam verdik biz bir-bir ona.

Heyətdən ayrılıb tək qaldı bizlə:
Bir xeyli dinməyib, fikirli durdu...
Yenidən görüşdü hər birimizlə,
Əlini mənim də çiynimə vurdu...

-İgidlər hazırmı öndəki hərbə?
-Yaşasın Sovetlər, yaşasın Vətən!..
O çətin  günlərdə gördüm ilk dəfə
General Mustafa Nəsirovu mən.

Bəli, ilk sərhəd generalıydı
Mustafa Nəsirov- mənim xalqımın.
O mənim elimin öz vüqarıydı,
Hərbi rəmziydi milli haqqımın!

Biləndə bitirib Universiteti,
Könüllü gəlmişik bizlər Orduya.
-Salamlar! Möhtərəm, müəllim heyəti!
-SALAM!- Generala verildi dünya!

Bizi gülə-gülə dinləyib dedi:
-Silah yox, ağıldır döyüşdə baş şərt.
Biliyə bağlayıb siz cəsarəti,
Göstərə bilərsiz hərb şücaəti!..

Müəllim olmağı sənət seçmişsiz,
Xidmətdən bir başa Məktəbə dönün.
Biliyi ən ağər cəbhə sayın siz:
Elmdə, savadda rəqibi yenin!

Müəllim olmağı çox arzuladım,
Cahan savaşında keçdi həyatım.
Xalqın ilk səngəri Məktəb partası,
İlk atəş xəttidir şagird yazısı!

Sokratdır bəşərin ilk müəllimi,
Yaşayır cahanda bir Simürq kimi
Elmdən kənardfa üstünlük yoxdur,
Elmsiz ürək də buz tək soyuqdur.

Qaldırın bayrağın Məktəbin göyə!
Bu Vətən, bu millət bizimdir!-deyə.
Təəccüb bürüdü hər birimizi,
Nədən Ön cəbhədən general demir...

Soruşduq: bir anda dəyişdi səsi.
-Aydın deyilmidir verilmiş əmr?!.

Cəsarət göstərib kimsə dinmədi,
Baxıb üzümüzə gülərək dedi:

-Qorxmayın! Qorxaqlıq bir nadanlıqdır,
Daim uca tutun AZƏRİ adın!
Balıq bilmədiyin bilən Xalıqdır:
Vətəni, Milləti mərd tək tanıdın!

Xidmət etdiyiniz bu şanlı alay
Barədə kim nəyi bilir söyləsin.
Hamı mənə baxdı bir az naqolay,
General dilləndi:- Qorxma, de gəlsin...

Hissənin tarixi haqqında guşə
Vardə kazarmada. Yadıma düşdü.
Dedim ki, söyləyə bilərəm nəsə...
Cənab generalın üzü dəyişdi.

-Bir zaman **general Əliyarbəyov**
402-ci Diviziya ilə.
Getmiş Təbrizəcən, saçaraq alov.
(Fəxrdir bunları gətirmək dilə!..)



Taqanroq 416-mızın
Dahi sərkərdəsin unutmaq çətin.

**“Körpünün həsrəti” Vurğun**umuzun
Bu gün də ağrıdır bu xalqın qəlbin...



General Tərlan Əliyarbəyov
Bax, elə buradan Arazı keçdi.
Mazdokdan Berlinə yayılan alov
İrana azadlıq libası biçdi...

Tarixçi, kimyaçı idi yoldaşlar,
Filoloq olansa təkcə mən idim.
General soruşdu:-Şairliyin var?..
-Hərdən uydururam!- gülərək dedim.

Dedi ki, bir zaman bu təpə üstdən,
Arazın bu şimal səmti tərəfdən
Dahi Səməd Vurğun, Mirzə İbrahim,
Balaş Azəroğlu, Cəfər Xəndan... kim...

Vətəndən Vətənə səfər etmişlər.
Yaşasın Azadlıq! Vətən!- demişlər.
Onlara bənzə sən, möhtərəm şair,
Azəri oğlu ol, ya Əlcəzair?!.

O cəllad, müstəbid Rza Pəhləvi
Təbrizə, Makuya bomba salanda...

Ərdəbil, Urmiya şam kimi söndü,
Bakımın çörəyi zəhərə döndü...

Bir baş Berlindən göndərilmişdi,
Türkü bombalayan aviasiya...
Ruzveltlər, **de-Qoll**ar baxıb gülmüşdü,
Qana boyananda Təbriz, Urmiya...



-Doğrudur dediyin, cənab leytenant!
Amma İrana yox, səfər Şamadır.
Bizlədir Fələstin işində İran,
Şərqin böhranları bir tapmacadır...

Farağat dayanıb, sinəmi gərdim.
Soruşdu:- A şair, sən haralısan?
Vurğunun dililə tez cavab verdim:
"Çörəkli Kürdəmir, şeirli Şirvan.."

...Misirlə Kemp-David sövdələşməsi
Dəyişdi tarixin gedişatını.
Xidməti bitirib, qayıtdıq, nəsə...
Bir səmtə yürütdü hər kəs atını.

O gözəl insandan biz ayrı düşdük.
Ötüşdü fəsillər, dəyişdi illər...

Sovetlər çökəndə bir də görüşdük
Xalqımın ilk sərhəd generalı ilə.

MDB-daxili sərhəd xətlərin
Çəkən bir heyətə o da üzv idi.
Bakıda görüşdük: köks çəkib dərin
-Son Zəfər bizimdir, Namiq bəy!- dedi...

Azəri Yurduna göz dikənlərin
Gözünü yerindən çıxarmalıyıq!
"Dost" cildə bürünmüş qart düşmənlərin
Hər birin Vətəndən çıxarmalıyıq!



Dedim:- Prezidentin əsgəriyəm mən!
Dəyişdi onun da gözündə aləm.
Söz açdım yazdığım məqalələrdən.
"-Qələm əlimdədir! Mən tələsmirəm!.."

-Tələs, tələsməyi əmr edir zaman!
Gecikmək axirət yoludur yalnız.
Cəsarət istəyir Can Azərbaycan!
Düşmən hiyləgərdir, həm də imansız!

Hər kəsin vicdanı, şəxsi adıdır
Bu gün xəritədə çəkilmiş hər xətt.

Vətən hər bir zaman qorunmalıdır,
Namusdur, qeyrətdir Vətəndə sərhəd!

Siyasət, ərəbcə, at yarışıdır,
Zəfərdən məhrumdur yortaq gedən at.
İlahi nizama daim bağlıdır,
Ulduzlu, günəşli bütün kainat...

Erməni faşizmi yenilər bir gün,
Cəmi 40-ca gündür yalanın ömrü.
"Azadlıq dastanı" yaz Tarix üçün,
Belədir Vətənin sonuncu əmri!



Qəlbim dilə gəldi həmin andaca
Dönüb keçmişimə baxdım kədərlə.
And içdim ilk sərhəd generalıma
İLHAMım doğacaq şanlı Zəfərlə!..

4

Dünya bir sınaqdır, həyat bir yarış:
Çətindir sınaqdan ağ üzlə çıxmaq!
Vətəndir torpaqda hər kiçik qarış,
Qələbə ən böyük namusdur ancaq!

Mən də bu savaşda öz Dövlətimlə
Qəhrəman xalqımın yanında durdum.
Mən də öz Qələmin, öz Sənətimlə
Faşist ermənini qəlbindən vurdum!..

Mükafat ummadım öz Dövlətimdən,
ZƏFƏR mükafatım oldu mənim də.
Kasıb bir şair yaşasam da mən:
Varlıyam hamıdan öz Vətənimdə!

Heyflər olsun ki, sərhədçi general
Bu böyük Zəfəri görmədən öldü...
8 Noyabrda Zəfər günəşi
Onun da cənnətdə üzünə güldü!

Dünən sərhədimin son xəritəsin
Çəkmiş ilk sərhəd generalımı.
Belə yad eləyir şair könlümün
Əbədi çağlayan coşqun İlhamı!..



Sərhəddən başlayır daima Vətən!
Sərhəd pozulmazdır vətəndaş varsa.
Vətəndaşlıq yoxdur: düşmən əlində
Yurdun bircə qarış torpağı qalsa.

Bəli, sərhədimiz  bərpa edildi:
Qoruduq yenidən doğma sərhədi.
Naxçıvan-Türkiyə-İran dəhlizi
Boyunca baharın müjdəsi gəldi.

Göndərmiş Rusiya sülhməramlılar
İpək Yollarını qorumaq üçün.
Çinin, Pakistanın, Türkiyənin də
Geniş marağı var  Dəhlizdə bu gün!..

Təklənmiş erməni faşizmi artıq,
Yoxdur Avropadan ona hay-haray...
Göydə Dan Ulduz var qaşı çatıq,
Bir də Hilal ilə gülümsər  bir Ay!..

Böyük təlaşdadır narkobaronlar:
Faşist erməniyə dəstək verənlər.
Bayram içindədir halal insanlar:
Böyük Avrasiyanı vahid görənlər!




Erməni faşizmi yenildi axır:
75 İL sonra Böyük Zəfərdən...
Hər şanlı misramdan min “ura” çıxır:
Qələbən mübarək, ey Böyük Vətən!

**Sevin, Rza baba, bu böyük Zəfər,**
**Sənin də sonuncu Zəfərin oldu.**
**Vətən tariximdə yeni bir səhər**
**İlhamlı bir Günəş kimi doğuldu!..**



Rusiya faşizmə dayan, dur dedi.
Susdu Paşinyanın salxaq topları:
“Folkistorizm”lə dolu bidəti,
Paralel tarixlər yazan gopları...

Rusiya böyükdür dostluğu qədər,
Ağır sınaqlarda sınandı bu hiss.
Nəyi dəyişsə də qəzavü-qədər,
Dostları dəyişə bilmədi hərgiz.

**Rusiya böyükdür hürr sevgisiylə,**
**Tarixə ad qoymuş Dekabristlər.**
**Faşizmə əbədi pak nifrətiylə**
**Həm də ruslarındır Şuşada Zəfər!**

Rusiya böyükdür öz səbri qədər,
Sonsuz düzənləri, ormanları tək.
Tarixi Turandan Romaya gedər,
Vikinq-varyaqları, normanları tək...

Rusiya böyükdür öz qəlbi kimi,
Dahi Lomonosov, Puşkini ilə.
Kainat qədərdir Rusun orbiti,
Böyük məhəbbəti, böyük kinilə.

Rusiya böyükdür qıpçaq türkləri-
Məsihi Suvarov, Kutuzovuyla!
Şirvanlı memarın Ağdaş Kremli,
Atabəylilərin Bayraq - tuğuyla!..

Rusiya böyükdür Avrasiya kimi:
Slavı, ləzgisi, türkü, tatıyla...
Dünyanın özündən günün bügünü
Rusiya böyükdür təkcə adıyla!!.

Nəhayət, dur, dedi faşistə Putin!
Endi ayaqlara Nijdenin tuğu.
Bir də hay başını qaldırsın çətin:
Qəlbində, ruhunda, canında qorxu!

**Bəli, Böyük Sülhə hazırıq biz də,**
**Sülhün təməlidir bu şanlı Zəfər!**
**Hər kəs müsavidir Vətənimizdə,**
**İnsantək yaşamaq istərsə əgər!..**

# Sonuncu nəğmə

**(Epiloq əvəzi)**



**Ey Böyük Zəfərə imzasın atmış**
**Qüdrətli, yenilməz, igid komandan!**
**İLHAMLI ZƏFƏRlə bitdi bu savaş:**
**İLHAM ƏLİYEVdir can AZƏRBAYCAN!..**

1

**Bayraqdar bu xalqa ilk HEYDƏR oldu,**
**Ardınca milyonlar səf qurub getdi.**
**Heydərlə Azadlıq eşqi doğuldu,**
**Zəfərə İlhamla bir yerdə yetdik!..**

**BAYRAQ vətənimin namusu, arı,**
**BAYRAQ vətənimin ruhu, canıdır.**
**BAYRAQ azadlığın ilk ixtiyarı,**
**Bayraq İlhamımın həyəcanıdır...**

**BAYRAQdır yaşadan qəhrəmanlığı,**
**BAYRAQa bükülüb ölmək şərəfdir.**
**BAYRAQdır yaşadan tüm insanlığı,**
**BAYRAQ ali məqsəd, ən son hədəfdir.**

**Bayraqdır qeyrəti hər bir ölkənin,**
**Bayraqsız millətin vətəni olmaz.**
**Bayraqdır baqisi ömrün, mədfənin,**
**Bayraqsız bir ruhun məskəni olmaz.**

**Bayraqsız bir ordu, başsız bir bədən,**
**Bayraqsız bir həyat ölüm deməkdir.**
**Bayraqdır hürriyət, bayraqdır Vətən,**
**Bayraqsız azadlıq kimə gərəkdir?..**

**Arzuda, əməldə, könüldə, qanda**
**Bayraq insanlığın qətiyyətidir.**
**Yaşamaq uğrunda, Vətən uğrunda**
**Bayraq nəsillərin estafetidir!**

2

Beşinci poemamı bitirərkən mən
Üzümü əbədiyyətə tuturam:
-Ey bizdən sonra gələn nəsillər.
Bunu da yadında saxlayın əzbər:
Nə dəryalar, dənizlər,
Sevdiyiniz əzizlər,
Nə uzaqdan boylanan o əlçatmaz üfüqlər,
Nə paytaxt gecələri başlar üstə yellənən
Çıraqlar, çilçıraqlar...
Nə də güvəndiyimiz o müqəddəs, o ülvi,
O başı qarlı dağlar...
Göy üzündə hər axşam yanıb sönən ulduzlar,
Sevdiyimiz kitablar...
Nə də sevgilimizdən aldığımız cavablar,
Nə uca kürsülərdən səslənən gur xitablar,
Nə ruhu bu Zəfərlə coşduran təntənələr,

Nə bu Azad günlərdə
Qələbə sevincləri
Mövcud ola bilərdi
Sizi qorumasaydı,
Bizi  qorumasaydı
O qəhrəman, o igid, o yenilməz şəhidlər!
Onlarındır Azadlıq, onlarındır bu səhər!
Ən ülvi məhəbbətə layiqdir məhz onların
Uğrunda öz canından keçdikləri bu Zəfər!..

O ağ atlı igidlər
Yeni tariximizə  Zəfəri gətirdilər!
Şöhrəti gətirdilər!
Qüdrəti gətirdilər!
Hörməti gətirdilər!
Məhz onlar bu millətin
Hüququnu, haqqını Tanrıya yetirdilər!..

Burdan bir atlı keçdi!
Simürq qanadlı keçdi!
Ömrün Cıdır düzündən
ZƏFƏR PARADlı keçdi!..

Rəhm umdu Rəhmanından!
Dönmədi inadından.
Nacinslər zamanından
Əsilli, zatlı keçdi!

Doğdu Günəş içindən,
Yer titrədi gücündən.
Dünyanın qəm köçündən
Toylu, büsatlı keçdi!

Qarabağ torpağından,
Qələbə sorağından,
Taleyin sınağından
Şərəfli, adlı keçdi!

Savaşın sərt qışından,
Vətənin çağrışından!
İgidlər yarışından
Cıdır həyatlı keçdi!
Xızır qanadlı keçdi!..

Əlində bir BAYRAQ,
Dilində Allah!
Arxasında zülmət,
Önündə Sabah!..

Bir Bayraq eşqiylə verdik öz canın,
Diriltdik  Tarixin Azərbaycanın!

Oxuyan oxumayana,
Bilən bilməyənə tən deyildir:
Torpaq onu qoruyan,
Əkib becərən yoxsa
Vətən deyildir!

Vətən ürəklərdə yanan çıraqdır!
Vətən Qalibiyyat ruhlu Bayraqdır!

İstiqlal yönümündən
Dönən deyil bu Bayraq!
Azərbaycan göyündən
Enən deyil bu Bayraq!

Mavi, Yaşıl – həmahəng...
Al qırmızı bir  çələng.
Öz əyninə başqa rəng
Geyən deyil bu Bayraq!

Bakı, Şamaxı, Gəncə...
Vətən hər şeydən öncə!
Göydə Günəş də sönsə,
Sönən deyil bu Bayraq!

Qədim Şirvan! Naxçıvan!
Bütündür Azəraycan!..
Bakı-Şəki heç zaman
Bölən deyil bu Bayraq!

Ülvi, uca yerdədir,
Sülhdədir! Hərblərdədir!
Döyünən qəlblərdədir,
Ölən deyil bu Bayraq!

Bənzər bir Baba Dağa,
Dənizdə gur mayaka.
Ər qürurun ayağa
Sərən deyil bu Bayraq!

Günəşim, nurum olub,
Əbədi  uğurum olub.
Zəfərlərdən doğulub:
Güvən!- deyir bu BAYRAQ!..

Tarixi, keçmişi gətirib dilə
Yazdım bu dastanı  qəlb istəyimlə!
Zəfərə qovuşmuş  FATEH haqqında:
Düşündüm şeirimin İlham çağında...



**Tarixə çevirib bu  Həqiqəti,**
**Farağat durmuşam  İLHAMımla mən.**
**Bütün var gücümlə deyirəm qəti:**
**Fateh bir Heydərdir, bir də ki VƏTƏN!..**

Siz ey  ilk  dərs günü
Şəhid ataların postamentinə
Çiçəklər düzən məğrur balalar!..
Sizdə  yerə-göyə sığmaz bir məğrurluq var!
Qoruyun bu qüruru,
Zəfər qürursuz olmur!
Şəhidlər bu Vətənin əbədi şərəfidir!
Şəhadət bu millətin
Qürurlu tərəfidir!

Mənim də İlhamım qürurla yazır
Bu böyük zəfərin ilk dastanını.
Mürəkkəb edərək qəlbin qanını:
Vəsf etdim millətin  İstiqlalını!

Qarabağ ərazi bütövlüyümüz,
Qarabağ Azəri təyinatımız.
Qarabağ cahandan böyüklüyümüz,
Qarabağ ismimiz, ilk adımızdır!..

Oxuyun tarixi siz varaq-varaq,
Yurdun sabahına tam inanaraq...

Hər yeni il günü, hər yeni bahar
Sizin taleyiniz min çiçək açar...
Sizlərsiniz
Bu Yurda
Ən xoş arzular!
Sizə həsr edirəm bu Dastanı mən:
Sizindir bu Zəfər, bu Dövlət,  Vətən!

Sizsiniz Vətənin Azadlığı,  Bayrağı,
Sizsiniz  Yer üzünün ulduzu, göy üzünün çırağı.
Allahın şah əsəri,
Şeirimin ilhamı, beyti misrası.
Sizsiniz sazımın, tarımın ən gözəl havası.
Cümləmin mübtədası!

Məzarı torpaqda olan bu şəhidləri
Siz könüldə yaşadın.
Umura almayın boş təhdidləri,
Mənası sizsiniz  azad həyatın!..
Hər addım başında göstərin hünər!

Ey vətən sərhədində dayanmış əsgər,
Dinlə məni  sən də axıracan:
Qəlbin darıxmasın doğmaların,

Toy-düyünlərin,
Dostların uzaqlığından.

Vətənin məhvəridir
Keşiyində durduğun yerlər.
Vətənin ən gözəl səhəridir
Sərhəddə açılan səhər.

Sərhəddə sevmişəm mən də bir zaman
Qəlbimin sultanını.
Sərhəddə dadmışam
Qəlbin ilk vüsalını, ömrün son hicranını...

Sərhədçi əsgər!..
Sevin ki,
İlk öncə səndən ötrü açılır səhər,
Vətənə doğan Günəşın ilk salamını
Sən alırsan.
Günəşlə birgə
Zenitə ilk sən ucalırsan.
Vətən  torpağına vətəndaşlığın
İlk cığırını sən salırsan.

Başın üzərindəki
Bayraq kimi yenilməz şərafətli ol.
Bayraq kimi əyilməz qətiyyətli ol.
Qorunmayan sərhəd qorunmayan ləyaqətdir,
İtirilmiş şərafətdir...
Millətin şah vüqarı sənsən!
Unutma:
Dostun da, dümənin də qarşısında
Sənin qəddinlə dik durur Vətən!

Dövlət ilk növbədə sərhəd deməkdir,
Dövləti yıxmaqdır sərhədi pozmaq!
Millətlər içində qüdrət deməkdir
Dövlət sərhədinə bir dayaq asmaq!

Ünvanı dəryada saxlamaq üçün
Bir mayak olmaqdır bir Dövlət olmaq!
Vətəni Vətənə bağlamaq üçün
Bir Bayraq olmaqdır bir Dövlət olmaq!

İblislik edənlər Allahdan dönər,
Hüma himayəsi göylərdən enər.
Nifrəti, rüşvəti, hiddəti yenər
Bir növraq olmaqdır bir Dövlət olmaq!

Vətən himni çağlar qəlbin səsində,
Vətən havası var hər nəfəsimdə.
İnamın, ürəyin, ömrün içində
Bir çıraq olmaqdır bir Dövlət olmaq!

Uçuşda doğulur pər qanadlanan,
Qartal ola bilməz hər qanadlanan.
Tarixin qoynunda Vətən adlanan
Bir torpaq olmaqdır bir Dövlət olmaq!

Qaniçən deməsin qoy Tarix bizə
Bizdə könül də var, məhəbbət də var.
Hər kim göz dikərsə Vətənimizə,
Özünə cənnət yox, cəhənnəm tapar!

İLHAMım, yetişdik biz də ünvana:
Nəhayət, Dastanı bitirməliyik...
Uğurlar diləyib Azərbaycana,
Sabaha salamlar yetirməliyik!..

Tarixə sığmayan bir Zəfər üçün,
Yazdığım son əsər kiçik olsa da,
Dastana çevirdim ömrümü bu gün:
“Fateh”im əbədi qalsın dünyada!..

3



Qorxmadıq əsla bir an kimsədən, ey şanlı Vətən!
Canı, ruhuyla bütün Azər(i)baycanlı Vətən!
Bayrağı ulduz, hilal, ey şühəda qanlı Vətən!
Gəncə, Dərbənd, Bakı, Şuşa, Nəqşicahanlı Vətən!

Çatmadıq çöhrəmizi afaqa güldükcə hilal,
Bizim olmuş, olacaq daima hürr təxti-cəlal.
Yalnız hürriyyət ilə yüksələcək əqli-kəmal:
Azəri övladıyıq, hürr anamız İSTİQLAL!

Mən əzəldən bəri öz irqimə Turan demişəm.
Haqqıma qəsd edənin taxtına viran demişəm.
Mənə “qan-qan” deyənə “buyur sənə Qan!” demişəm.
Azəri övladıyam, dostlarıma “CAN” demişəm.

Qərbin afaqını tutmuşsa da hər türlü raket,
Mənəm imanlı Doğu, Batılar bir adi maket.
Yürü, elmi-ürəfam, ucal, ərşi-əlayə yet:
Alimi bir üləma, məscidini mədrəsə et!..

Arxadaş, bir bax özün gör özünü afaqda.
İstər ol köylü, ya ki sən də yaşa paytaxtda...
Kamalı , ağlı oturt könül adlı bir taxtda.
Harda olsan, düşün ancaq bu vətən, xalq haqda.

Basdığın torpağın üstündəki gül şə  hid qanı:
Güllü gülzara çevir onlar üçün hürr  Vatanı!
Sənin uğrunda veribdir şühəda şirin canı.
Mərd isən, mərdlik elə: namərdi yox, mərdi tanı!

Kim bu cənnət Vətəni sevdisə, mömindir əziz!
Uca Allaha odur iman ilə, qəlb ilə düz!!
Bir fikir, bir də əməl içrə qalır həyatda iz.
Damlasan, nəhrə qarış, çünki anandır o Dəniz!

Ruhumu süngü edib, çəkmişəm əflakə sipər:
Qona bilməz bu vətən güllərimə bircə kədər.
Vətənimçin açılır dünyada hər sübhi-səhər,
Vətənimçin çalınır dünyada ən şanlı zəfər!

O zamanlar ki Qılınc idi yazan Tarixə şan,
Fütühat idi bizə layiq olan namü-nişan.
Çevirib dünyamızı  Mədrəsə etdi ki QURAN:
Daima qardaş olaq, “Oxu”yub, ey əhli-iman!

Allahın lütfüdür, ey Ata, bizə əqlü-kamal!
Mehmet Akif təki İlhamlıdı bu şeyrü-xəyal.
Dalğalan, şanlı  Tuğum!  Sönməsin o ulduz-hilal,
Yaşa, var ol, yaşa var ol, ey Milli İstiqlal!..

**Bakı şəhəri.  2020-2021**

# II HİSSƏ
# İNTERNET MEDİA

(məqalələr, çıxışlar, müsahibələr və müəllif barədə fikirlər)

http://atatv.az › gundem › 18345-namiq-atabyli-ermni-...

Namiq Atabəyli: "Erməni faşizminin sonu- Nikol Paşinyan"

19 okt 2020 — **Namiq Atabəyli** (Avrasiyayönümlü yazıçı-publisist) **Erməni** faşizminin sonu- Nikol Paşinyan 1. Soros Fondunun Qafqazda ikinci narıncı lideri ...

Ata TV

19 okt 2020. 12:42



**Namiq Atabəyli (Avrasiyayönümlü yazıçı-publisist)**

## Erməni faşizminin sonu- Nikol Paşinyan

### I YAZI

**1**

Soros Fondunun Qafqazda ikinci narıncı lideri Nikol Vova oğlu Paşinyanın 2018-ci ilin 8 mayında üçrəngli Bayrağın fonunda Ermənistan Respublikasının Baş naziri seçilməsi ilə çoxları elə başa düşdü ki, bundan belə Qafqazda nəsə ciddi siyasi dəyişikliklər start götürəcək. Baş tutmamış hüquqşünas Saakaşvili təcrübəsini hansısa jurnalist Paşinyan cəhdi uğurla başa çatdıra bilər?! Amma bu fikirdə olanlar bir şeyi unutmuşdular: 8 may (1992-ci il) Azərbaycan Respublikasının qədim mədəniyyət mərkəzi Şuşanın erməni faşistləri tərəfindən işğal günüdür. Bu isə əvvəl başdan Qərbin Qafqazdakı növbəti "Nikol Paşinyan demokratiyası"na ümid bağlayanlara az şey demirdi?!. Sonuncu "Qarabağ müharibəsi" bunu təsdiqlədi. Ermənistanda narıncı inqilabın ilk günlərindən bəlli olan bu idi: Nikol Paşinyanın erməni faşizminin bədnam liderlərinə qarşı, o cümlədən Robert Köçəryan və Serg Sərkisyanla şəxsi ədavəti vardır. Siyasi rəqibləri tərəfindən illərlə həbsxanalara atılmış Paşinyan hakimiyyətə keçən kimi, ilk öncə, "korrupsiyaya qarşı mübarizə

aparmaq" niyyətini qəti şəkildə ortaya qoydu. Hakimiyyətinin ikinci ilində MDB ölkələri arasında "Korrupsiya indeksi" üzrə Ermənistanın müsbətləşmə mövqeyi 35 baldan 42 bala qədər yüksəldi və beləliklə o, mənfi göstəriciləinə görə 105-ci yerdən 77-ci yerə qalxdı.

Əlbəttə, bu irəliləyiş keçmiş jurnalist N.Paşinyanın "Qarabağ münaqişəsi" formatına salınmış 30 illik müharibənin həllində nə isə müsbət dəyişikliklərə imza atacağına ümidləri bir qədər də artırdı. Amma gözləntilər özünü doğrultmadı. Nə üçün? Məlumdur ki, Qafqazın bütün son 30 illik siyasi həyatı "milli-etnik münaqişələr" burulğanından gəlib keçmişdir. Ermənistan Respublikasının "Qarabağ münaqişəsi" formatına salınmış 30 illik işğalçılıq müharibəsi ilə bağlı Rusiya Strateji Tədqiqatlar İnstitutunun "Проблемы национальной стратегии" jurnalının 2015-ci il (№-2(29) sayında "İnstitutun hesabatları" baş yazısının "Azərbaycan" bölməsində oxuyuruq: «Азербайджан нужен ЕС для полноченной европейской интеграции, главным образом для того, чтобы вытеснить Россию из региона.» (səh.:42) Deməli, rus strateqlər "Qarabağ münaqişəsini" ilk başdan Azərbaycanın Avropa İttifaqına girişinə qarşı qoyulmuş "açar" hesab etmişlər. Digər maraqlı məqam da var: "Перед Европы стоит и другая важная задача- ослабив Россию, не допустить чрезмерного усиления Турции в регионе Южного Кавказа." (səh.: 43). Hesabat müəlliflərinin fikrincə, Avropa məkanında Azərbaycanın əsas idxal və ixrac tərəfdaşları İtaliya, Almaniya, Fransa və Böyük Britaniyadır. Sual doğur: onda Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etmək üçün işğalçı Ermənistan Ordusu ilə apardığı ədalətli müharibəyə qarşı Fransa rəhbəri Makronun anti-Azərbaycan mövqeyi nədən qaynaqlanır?.. Mənim yuxarıda gətirdiyim statlar bu "müəmmaya" aydınlıq gətirir: "ослабив Россию, не допустить чрезмерного усиления Турции в регионе Южного Кавказа."

Nikol Vova oğlu Paşinyan Qədim Roma müəlliflərinin tarixi əsərlərində "erməni ikiüzlüyü" barədə yazılmış xüsusiyyətlərdən xali deyil. Bu mənada, o da Azərbaycana münasibətdə ikiüzlü siyasət yürüdən Avropa siyasətçilərindən heç nəyi ilə fərqlənmir. Narıncı inqilabın "erməni fiquru" tarixdə istisna deyil. Deməli, sələflərinə və xələflərinə çəkmişdir...

Yerevan Dövlət Universitetinin filoloji fakültəsinin jurnalistika bölməsindən elmi müəssisənin kommunist rəhbərliyini cəsarətli tənqidlərinə görə son kursdan qovulmuş Paşinyan, bir çox başqaları kimi, 1988-ci ildə İcevan şəhər 1№-li orta məktəbdə hələ şagird ikən üzdəniraq "Qarabağ hərəkatı"na üzv olmuş, müxtəlif tətil və nümayişlərdə fəallıq göstərmişdi... "Qarabağ hərəkatı" məhvə məhkum Kommunist rejiminin "demokratik demontajlar"ının Qərblə razılaşdırılmış ilk üzdəniraq dalğalarından biri idi. Polşada "həmrəylik" (solidarnost), Baltikyanı ölkələrdə "əməkdaşlıq" və s. tipli hərəkatların sırasında Ermənistanın sistemdağıdıcı icadı məhz "Qarabağ oyunu" sayılırdı. Bu icadın "baniləri"- Mixail Qorbaçov, Aqambekyan, Şahnazarov və başqaları yəqin ki, yaddan çıxmamışlar.

Azərbaycan Xalq Cəbhəsi fəallarının (Tofiq Qasımovun başçılığı ilə) Riqada keçirilmiş anti-Rusiya "xalqcəbhələri" konfransından sonra, erməni faşistləri gözləmə mövqeyində duraraq, "Azərbaycan cəbhəsi"nin Kreml əleyhinə şüarlarının səslənişini bir qədər gözləməli oldular. Bakının keçmiş Lenin Meydandan Moskva əleyhinə bəyanatların gur çağında Yerevan cəbhəçiləri Rusiya ilə öz xalqının və ölkəsinin ayrılmazlığını və əbədi birliyini elan etdilər... Deməli, Paşinyan da məhz bu "yoldan keçib" yetkinliyə çatmışdır.
Mərəzin kökü də burdadır.

Onun 90-cı ilin sonunda və 2009-2010-cu ildə jurnalist fəaliyyətləri ilə əlaqədar "həbsləri" təxminən Nemət Pənahlının ötən əsrin 80-90-cı illərindəki Meydan "həbs"lərini xatırladır. SSRİ-nin iflasından sonra biz postmodern bir zamanədə yaşayırıq: bu dövrdə "qəhrəmanlar" yetişmir, əsasən, yetişdirilirlər.
Nikol Paşinyanın 2018-ci ilin 13 aprelində Serj Sərkisyanın Baş nazir seçilməsi əleyhinə keçirdiyi "aksiyalar" onun bir demokrat kimi "Qarabağ cəlladları" ilə əqidə davası deyil, "stol savaşı" idi. Təbii bir sual doğur: bəs bu tipin necə bir "demokrat" olması Soros Fonduna məlum deyildimi?..

Əgər yadınızdadırsa, Yerevanda "demokratiya yürüşləri" fonunda Baş nazir cəllad Sərkisyan narıncı hərəkat lideri Paşinyanı azadlığa buraxdıraraq, vəzifəsindən istefa verkən demişdi: "Nikol Paşinyan haqlı idi. Mən səhv etmişəm..."

Gəlin, bu "etirafın səmimiyyətini" bir yana atıb, səbəbləri üzərində düşünək. Köçəryanlar, Sərkisyanlar məktəb uşağı olan Paşinyanların da cəlb edildiyi üzdəniraq "Qarabağ münaqişəsi"nin Qaynar xəttinə

necə və nə üçün gəlib düşmüşdülər?.. Erməni faşizminin mahiyyəti də sonda məhz bu sualın cavabına bağlıdır.

**2**

Kimsəyə sirr deyil ki, SSRİ-nin dağıdılması posindistrual epoxaya qədəm qoymuş problemli dünyamızı yeni problemlərlə üz-üzə qoydu. Qlobal işsizlik və iqtisadi xaoslar yaşayan Qərb bu tarixi fürsətdən yararlanmaq yolunu tutdu. Birdən-birə planetar ölçüdə "qaçqınlar-köçkünlər" problemi, tiranların devrilişi, sui-qəsdlər, terrorla mübarizə hərəkatları baş qaldırdı. Qərb problemin tam ortasında ikən "demokratiya" ixracına başladı. İndiyədək totalitar sistemlərdə yaşamış keçmiş "kommunist" və "komsomolçu gənclər" sürətlə "demokrat" cildinə büründülər. "Xalq cəbhələri" tipli bidətçilik hərəkatları KP və çekistlərlə gizli ittifaqda qüruba enən Dövlətin maddi soyxasına (kommunizmin mənəvi mirasına yaxın durmadan) sahiblənmək məqsədilə Qərb demokratlarının "demokratik layihələrinin" könüllü icraçılarına çevrildilər. Bu cür saxta "demokrat" qlablı erməni neofaşistlərinin məlum üzvləri- Zori Balayan, Silva Kaputkyan, Levon Ter-Petrosyan, Robert Köçəryan, Serj Sərkisyanlar sırasında hələlik çox kiçik görünən "məktəbli Paşinyanların da" yer alması təbii idi. Atalar demiş: saxla samanı, gələr zamanı.
Əlbəttə, 30 ildən sonra Paşinyanın da samanlığı işə düşdü. 8 may 2018-ci ildə Vovanın oğlu Erməni dövlətində Baş Nazirliyə qədəm qoydu. Nikol Paşinyanın da qarşısında hələ ötən əsrin sonlarında bütün dünyanı bürümüş qlobal problemlər dayanmışdı... Bunların həlli yolları Roma Klubunda da hələ heç kəsə aydın deyildi. Bəs Vovayeviç nə etməli idi?.. Təbii ki, yeganə bir asan yol vardı: Azərbaycan Respublikasını ərazi bütövlüyünə qarşı illərlə sürən işğalçı müharibəni davam etdirmək.
Dahi Nikola Makiavelli "Hökmdar" əsərində yazırdı: "Hökmdar müharibədən, hərbi sərəncamlardan və hərbi elmdən savayı heç nə ilə məşğul olmamalı, başını digər fikirlər, qayğılar, işlərlə yormamalıdır. Çünki yalnız Müharibə yeganə sahədir ki, hakimiyyət öz məsuliyyətini ölkədə başqalarının üzərinə yıxa bilir..."(Seç. əsərləri. Moskva-1982, səh.: 342).
**(ardı var)**

**"İctimai Xəbər Agentliyi" MMC**

https://atatv.az › gundem › 18398-namiq-atabyli-ermni... ▾

[Namiq Atabəyli - "Erməni faşizminin sonu: Nikol Paşinyan", II ...]

21 okt 2020 — **Namiq Atabəyli** (Avrasiyayönümlü yazıçı-publisist) **Erməni** faşizminin sonu: Nikol Paşinyan II YAZI Qurani-şərifin "Mələklər" surəsinin 28-ci ...

İXA TV



**21-10-2020, 17:12**

**Namiq Atabəyli**
**(Avrasiyayönümlü yazıçı-publisist**

## Erməni faşizminin sonu: Nikol Paşinyan

### II YAZI

### 1

*Qurani-şərifin "Mələklər" surəsinin 28-ci ayəsində deyilir: "Allahdan qorxanlar Onun yalnız bilikli qullarıdır."*

Hələ Rus çarizmi dövründə millətindən asılı olmayaraq yüksək təhsil görmüş bütün insanlara çar bürokratiyasında iş tapılırdı. Mənim Atabəylər nəslimin ilk təhsilli nümayəndəsi Fərəc bəy Şamaxıda təhsil alıb gələndən sonra, Qafqaz Dəmir Yolunun ilk müsəlman stansiya (Saqiri stansiyası) rəisi olmuşdu. Azərbaycanın "Vağzalı" adlı məşhur musiqisi də məhz Sığırlı vağzalının Açılışı zamanı hərəkət edən ilk Qatarın yola salındığı dəqiqələrdə Ağsulu Əli Kərim tərəfindən ekspromt ifa edilmişdir. Bunu müsiqişünaslarımız heç yerdə söyləməsələr də, fakt faktlığında qalır! Onu da deyim ki, bu əsərin qonararını mənim anamın babası Hacı Kərbalayi Ələsgər kişi bir kisə qızılla ödəmişdir.

2004-cü ilin 24 aprelində (Prezidentin Mətbuat

katibliyində işdən çıxarıldığım barədə məlumat aldığım ilk gün) evə dönərkən, yoldan dönüb, yaxınlıqdakı Bakı Dəmir Yol vağzalına gəldim və bütün gecəni səhərədək orda keçirib, təhtəlşüurla rusca bir yazılı Nitq qələmə aldım: “Нобельское выступление без ПРЕМИИ”. Sabaha kimi yazıya alacağım həmin nitqdə Ağıllı insan tarixinin 12 min illik keçmişini təhlil etməyi qarşıma məqsəd qoyaraq, Türk dünyasının son mədəniyyət- Elmi-texniki tərəqqi erasında geri qalma səbəblərini araşdırmaq istədim... Gecənin yarısında Yığıcı-ovçu cəmiyyət mədəniyyətini yekunlaşdırıb, sonra gələn Aqrar mədəniyyətin təhlilininə keçdim. Amma səhər açılanadək İkinci mərhələni başa çatdırıb, üçüncü mərhələyə addımlaya bilmədim. Aqrar mədəniyyətlə bağlı yazdığım son cümlə əzbərdən yadımdadır: “Aqrar mədəniyyət – 10 min illik tarixilə - Dövləti simvolizə edən Padşahların Allahlığı deməkdir.” Məhz Aqrar mədəniyyət insan sitayişinin obyekti olan bütlərin sayını Təkə endirib, monoteizmə yol açmışdır.

Faşizmin ”Fürerlik” stixiyası Aqrar təfəkkürün infalt izlərindən biridir. Erməni faşizminin bu infalt təfəkkürə hesablanmış “tarixi gedişləri” üzərində dərin təhlil aparmağa dəyməz. Bir faktı isə ayrıca qeyd etməyə dəyər: erməni faşizminin atası Qaregin Njdenin bütləşdirilməsi istiqamətində ilk addımı Kommunist terrorizminin banisi mənfur Lev Trotski hələ 19 iyul 1913-cü ildə “Киевский мысль” qəzetində Birinci Balkan müharibəsində Osmanlı Türkiyəsi əleyhinə müharibə haqqında yazdığı oçerkdə başlatmışdı. Faşist cəllad Qaregin Ter-Artyunyan Njde barədə aşağıda məlumat verəcəyim üçün onun 1983-cü ilin avqustunda məhbəs qəbiristanlığından Ermənistana gətirilmiş leşi barədə danışmaq istəyirəm. Bu leş müxtəlif adamlar arasında uzun müddət gizlədiləndən sonra, nəhayət, 8 may 1987-ci ildə (-indi aydın olur ki, Şuşanın işğalı nədən 8 May tarixinə düşmüşdür) Rafael Ambarsumyanın

təşəbbüsü ilə Vaykada Spitakavorun qədim kilsəsinin həyətində gizlincə dəfn edildi. Lakin bu leşin digər parçası (boyun fəqərəsi) hələ 1983-cü ilin 7 oktyabrında Zəngəzurun Xustup dağ yamacında basdırılmışdı. Qaregin Njdenin sağ əl və digər iki sümüyü isə 2005-ci ilin aprelində Ermənistan Respublikası hökuməti tərəfindən Qafanda "memorial-abidə"nin yanında torpağa verildi. İndi təəccüblənəcəksiniz ki, bu necə Dəfn mərasimidir? Bəli, məsələnin qəlizliyi və sadəliyi də elə bundadır. Faşizmin bütpərəstlik ritualları "müasir erməni cəmiyyətini" XXI əsr təfəkküründən uzaqlaşdıraraq, xristianlıqdan öncəki keçmişə bağlamışdır. Öz rəsmi xristian "tarixini" 301-ci ilə qədər uzatmağı sevən Ermənistan "ülamaları", əslində bütpərəst küfrün yolundadırlar. Ölkədə "erməni neobütpərəstliyi" (армянское неоязычество) kimi tanıdılan bu bidət-«ересть» hələ 30-cu illərdən geniş təbliğ edilmişdir. 1989-cu ildən erməni ziyalıları erməni xalqının "xristianlıqdan öncəki" inama qayıtmasını irəli sürdülər. Bu yeni bidətçilik hərəkatında isə sonradan gorbagor Njdenin çoxsaylı qəbirləri daha çox işə yaradı: Ermənistan ərazisində üç məzar- Spitakavor monastırı (Vayotsdzor vilayəti), Qafan şəhəri, nəhayət, Xustup dağı,- ziyarətgah elan edildi. Burada təbii ki, keşişləri bütpərəst kahinlər əvəzləmişlər. Njde həm peyğəmavər, həm də erməni bütpərəstlik panteonunun "allahlarından" biri elan edilmişdir.

Faşizmin sakrallaşma təcrübəsi, göründüyü kimi, heç də Adolf Hitlerin "fürerizmi" ilə başa çatmamışdır. Ermənistan narıncı inqilabının lideri Baş nazir Nikol Paşinyan bu bidətin tam içərisindədir. Hər bir bütpərəst ritual isə, məlumdur ki, insan qurbanı tələb edir. Bu gün Ermənistandan Qarabağa yola salınan gənclər Paşinyanlar Panteonunun növbəti qurbanlıq qoyunlarıdır. Anti-Avrasiya hərbi-siyasi blokunun yeni mərhələ "siyasi fəalı" permanent həbslər dalğasından sonra arzuladığı "posta" oturmuşdur.

XXI əsrin faşizmi isə ideologiyadan çox “para maniyasıdır.“ Bu sifət isə Paşinyan qruplaşmasında heç də Köçəryan və Sərkisyandan az deyil.

2

Paşinyan faşizminin daha bir “gül üzü” Anna Vaçikovna Akopyandır. Üzdəki maskaya inansaq, bu əli avtomatlı



qadın guya jurnalistdır. Tərəfsiz, azad media sahəsində həqiqət davası aparmışdır. Ermənistan prezidentinin qeyri-rəsmi arvadı sayılan bu xanım dörd övladın anasıdır. Qərb dairələri bu jurnalist xanımın şəxsində erməni narıncı inqilabının fonunda “Qadınlar sülh uğrunda” adlı hərəkat yaratmışlar. Yəqin ki, Annanın əlində AK (Kalaşnikov avtomatı) Azərbaycan Respublikasının Ermənistan ordusu tərəfindən işğal edilmiş ərazilərində Qarabağın azərbaycanlı mülki əhalisinə- azyaşlı uşaqlara, məktəblilərə, qocalara tərəf tuşlanmış zooloji NİFRƏTini İnternetdə paylaşdığı şəkillər də aydınca ifadə edir... Bu azmış kimi, həmin üzdəniraq “sülh uğrunda hərəkat” başçısı elan olunmuş erməni Qadın öz oğlunu da Azərbaycan Respublikasının işğal edilmiş ərazilərində hərbi xidmətə göndərmişdi... Heç şübhəsiz ki, indi Vətən müharibəsi aparan Azərbaycan əsgərinin qorxusundan Aşot Paşinyan da bir çox başqa faşist balaları kimi vaxtında müharibə meydanından əkilib, Yerevana qaçmışdır. Paşinyanların “narıncı günəşinin” isə necə qüruba endiyi artıq göz qabağındadır...

İllərlə partiyadan partiyaya, fraksiyadan fraksiyaya, həbsxanadan həbsxanaya yer dəyişərək, Erməni narıncı inqilabının başına gətirilmiş Nikol Paşinyanın faşist sifəti

Hitler faşizminin əsas simalarından biri olmuş Qaregin Yeqiş oğlu Ter-Artyunyan Njdenin xatirəsinə büst, momerial və heykəl ucaldılması səbəbilə əlaqədar meydana çıxmış beynəlxalq qalmaqallarda bütün aydınlığı ilə üzə çıxdı. Erməni faşist ideologiyası tsexakronizmin banisi və II Dünya savaşında III Reyxin ən fəal əməkdaşı, faşist Almaniyasındakı erməni legionerinin rəhbəri olmuş Qaregin Njdeni Azərbaycanda da tanımayan yoxdur. Onun faşist fəaliyyətlərilə ilk olaraq Cənubi Azərbaycan türkləri qarşılaşdılar. Belə ki, Qərb maliyyə dairələrinin liberal libasa bürüdükləri 1907-ci il İnqilabında Njde birdən-birə İranda peydalandı və Qacar İranına qarşı "inqilabı" fəaliyyətə başladı. Qaniçən Pəhləvilər dinastiyasına yol açan bu "inqilab" sonda (1922-ci ildə) Fars şovinizmi tərəfindən Azəri türklərinin tam əsarətilə nəticələndi. Elə həmin ildə Ndje Tehrandan Bolqarıstana dönüb, Türkiyə cümhuriyyətçiləri əleyhinə terrorçuluq hərəkatının başına keçdi.

1918-1920-ci illərdə Njdenin rəhbərlik etdiyi Daşnak hərbi qüvvələri təkcə Zəngəzur mahalında 115 azəraycanlı kəndini yer üzündən silərək, 10 min nəfərdən yuxarı azəri türkünü uşaqlı-böyüklü amansızca məhv etmişdi.

"Böyük Ərməniyə" nağıl-əsatirini irəli sürərək, öz xalqının böyük hissəsinin başını zəhərləmiş Qaregin Ter-Artyunyan (Nijde) Alman faşistlərinin köpəyi olmaqdan da axıracan zövq almışdır. O, Vermaxtin nəzdində SS təlimatçılarının başçılığı altında təlim keçmiş ilk erməni hərbi hissələrinin yaradılmasına birbaşa rəhbərlik etmişdir.

Bu gün işğalçı ölkə olan Ermənistanda növbəti faşizm fırtınası tüğyan edir. Hitler faşizmi ilə fəal əməkdaşlıq etmiş erməni liderləri- Artaşes Abeqyan, Abram Fulxandyan, Atyun Baqdasaryan, David Davidxanyan, Qaregin Njde, Vaqan Papazyan, Dro Kananyan, Dertovmasyan və başqalarının ləkələnmiş adlarını "təmizə çıxarmaq" üçün

çalışanlar bir şeyi unutmuşlar: heç kim unudulmur və heç nə yaddan çıxmır!

Böyük Vətən müharibəsinin qələbəsindən sonra, alman nasistləri kimi, Şimali Qafqazda və Qərb cəbhəsində sovet xalqına və onun anti-faşist əsgərlərinə qarşı xəyanətkar savaşlar aparmış erməni legionerləri də layiqli cəzasını aldılar. Belə ki, Böyük Vətən müharibəsinin gedişatında sovet ordusu Sofiya şəhərini azad edərkən Njde də ələ keçirildi. Lubyankada həbsxanasında öz layiqli yerini tutan Qaregin Njde keç. SSRİ-nin Ali Hərbi tribunalının hökmü ilə güllələnmə cəzası aldı. Amma 1947-ci ildə SSRİ-də Güllələnmə cəzası ləğv edildiyi üçün Njde 24 aprel 1948-ci il tarixində 25 illik həbs cəzasına məhkum edildi. "24 APREL" tarixi qondarma "erməni genosidinin" günüdür. Qaregin Ter-Artyunyanın (Njdenin) 25 illik cəza hökmünün "24 Aprel" tarixli təyinatında, heç şübhəsiz ki, Azərbaycan xalqının böyük oğlu, dahi Avrasiya geosiyasətçisi, Azərbaycan KP MK-nın Birinci katibi Mir Cəfər Bağırovun da müsbət tarixi rolu olmuşdur. Heç kəsə sirr deyil ki, başda Andronik, Dro və Njdenin olduğu ilk Daşnak-faşist hərbi hissələrinə qarşı Qarabağ və Zəngəzur torpaqlarında aparılmış mübarizədə Mir Cəfər Bağırov ŞƏXSƏN yaxından iştirak eləmişdir.

2004-cü ildə Ermənistanda nəşr edilmiş "Qargen Njdenin təlimi" adlı kitabda Njde ölkədə yeni yetişən erməni gəncliyi üçün sonuncu büt və "allah" olaraq təqdim olunub.

Azərbaycanın Qarabağ torpağında bu gün Milli Azadlıq Ordumuza qarşı vuruşan erməni əsgərləri məhz həmin faşist bütpərəstliyi təlimatının növbəti qurbanlarıdır.

Sevindirici haldır ki, Azərbaycan ordusu Qarabağı işğalçı Ermənistan Ordusundan azad edərkən regionun dinc mülki əhalisinə qarşı diqqətli davranır, bununla da azad edilmiş torpaqlarımızda Konstitusiya rejimini bərpa edir. Bu, Azərbaycan Prezidenti İlham Əliyevin şəxsi göstərişidir.

Ölkəmiz tolerant bir ölkədir. Qanunlarımız din, dil və siyasi əqidəsindən asılı olmayaraq ona riayət edən hər bir vətəndaşımız üçün bərabərdir. Dövlətimiz dini radikalizmi və fanatizmi qadağan etmişdir. Milli-dini ayrıseçkilik yol verilməzdir.Əlbəttə, bu sözləri bizim xalqımıza qarşı işğalçılıq müharibəsi aparan qonşu Ermənistan Respublikası haqqında əsla söyləmək olmaz.

Alman faşizmi üzərində Qələbənin 75 İlliyi qarşısında Ermənistan Respublikasında neofaşist əhvali-ruhiyyənin yenidən baş qaldırması təsadüfi hadisə deyildi... Odur ki, son illər bu faşistpərəst qüvvələrin başında duran erməni Baş naziri Nikol Paşinyan və onun xanımı Anna Akopyanın üzdəniraq fəaliyyətləri kimsədə təəccüb doğurmadı.

MDB Dövlət Başçılarının Aşqabad sammitində İrəvanda erməni faşizminin banisi Qaregin Njdeyə heykəl qoyulmasını kəskin ittiham edən Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev MDB məkanında "faşistlərin bütləşdirilməsi"nin yol verilməzliyini bəyan elədi. Azərbaycan Prezidentinin səsinə ilk olaraq, Rusiya ictimaiyyəti reaksiya verdi. Onlar Nikol Paşinyanın Azərbaycan Prezidentini "erməni xalqına hörmətsizlikdə, tarixi faktları və rəsmi sənədləri şəxsi rəyi ilə təqdim etməkdə" günahlandırmasına qarşı çıxaraq, Armavir şəhərində faşist Qaregin Njdenin xatirə lövhəsinin dərhal sökülməsi tələbilə çıxış etdilər. Armavir Şəhər Dumasının deputatı Aleksey Vinoqradov nasizmin köləsi, hərbi cinayətkar və faşizm havadarı Qaregin Njdenin Rusiya ərazisindəki ilk "xatirə lövhəsi"ni qara rənglə boyadı, az sonra bu məlğun "xatirə" lövhəsi sökülüb ayaqlar altına atıldı.

Neofaşizm kultunun son illər dünyada digər millətlər işərisindəki ekstremist insanlar arasında da yayılması halları məlumdur. Bu mənada, faşizm üzərində Böyük Qələbənin

75 İlliyi ərəfəsində Böyük Vətən müharibəsi şəhidi, qəhrəman hərbi pilot, azərbaycanlı antifaşist Cahangir Bağırovun büstünün keçmiş Quba Rayonu İcra Hakimiyyəti başçısı Yaşar Məmmədovun əmrilə yerindən götürülüb, 6 il ayaqlar altına atılmasına vandalizmdən başqa bir ad tapmaq mümkün deyildir. Bu barədə mənim AtaTv.az və d. Saytlarda "Azərbaycanda neofaşizmə meydan olmamalıdır" ittiham yazım işıq üzü gördüyü üçün geniş dayanmıram. Mən fəxr edirəm ki, babalarımdan biri- Rzaxan Əhmədov 1941-1945-ci illərdə Alman faşizminə qarşı Bəyük Vətən müharibəsində gənc həyatını bəşəriyyətin azadlığı yolunda qurban vermişdir. Bu yolda şəhid olmuş hər bir kəs dilindən, dinindən, millətindən asılı olmayaraq, bizim babamız, atamız, qardaşımızdır.

Neobütpərəstlik yolunu seçmiş erməni cəmiyyətinin bu gün hansı bidətlə məşğul olması onun öz işidir: amma özlərini lazım gələndə "məzlum xristian qardaş" cildinə salaraq, Avropada ikiüzlü siyasətçilərlə yandaşlıq etmək, Azərbaycan əleyhinə "panislamist" hay-küyü qopartmaqla xristian aləmini üzərimizə qaldırmaq onlara heç zaman qismət olmayacaqdır. Çünki faşizm və bidətçilik hərəkatları kitab əhli olan xalqlar arasında qəbul edilməyən postulatlardır.

(Əvvəli: Saytın 19 oktyabr 2020-ci il tarixli buraxılışında. Ardı var)

**"İctimai Xəbər Agentliyi" MMC**
**www.İxatv.az**

http://atatv.az › gundem › 18441-namiq-atabyli-ermni-...

Namiq Atabəyli - Erməni faşizminin sonu: Nikol Paşinyan

23 okt 2020 — **Namiq Atabəyli** - **Erməni** faşizminin sonu: Nikol Paşinyanb/b **Namiq** ... tam demokratik” və ya “**az** demokratik” olması ilə izah etmək olar?

**Ata TV**

23 okt 2020. 14: 03

**Namiq Atabəyli**
**(Avrasiyayönümlü yazıçı-publisist)**





# Erməni faşizminin sonu: Nikol Paşinyan
## III YAZI

Müasir kateqorial anlamda, Müharibə ən azı 1000 nəfərin ölümünə səbəb olmuş dövlətlərarası silahlı münaqişəyə deyilir. Beynəlxalq təhlükəsizliyin “demokratik dünya” nəzəriyyəsinə görə, bir xalq və ya dövlət nə qədər qeyri-demokratikdirsə, orda müharibə təhlükəsi də bir o qədər yüksəkdir. Məsələn, ötən əsrdə baş vermiş bir çox hərbi münaqişələri məhz bu prizmadan izah etmişlər: Yunanıstan və Türkiyə arasında Kipr adası üstə gedən qısamüddətli savaş hər iki ölkədə demokratiyanın tamamilə geriliyi, Folklend adaları üstə İngiltərə ilə Kanada arasındakı savaşı isə tərəflərdən birində demokratiyanın kifayət qədər inkişaf etməməsilə əlaqələndirmişdi.

Əlbəttə, məsələyə bu prizmadan yanaşmada primitivlik göz qabağındadır. Qafqaz ölkələrində SSRİ-nin dağılmasından sonra yaradılmış institusional idarəçilik qurumları, demək olar, tamamilə eynidir: azad bazar yönümlü respublika idarə üsulu. Bəs, Beynəlxalq Təhlükəsizlik Təşkilatlarının- BMT, ATƏT, NATO, MDB KTŞ və sairin 30 il ərzində "milli münaqişə" formatına saldığı Ermənistan-Azərbaycan müharibəsini hansı tərəfin " tam demokratik" və ya "az demokratik" olması ilə izah etmək olar?..

Mənim I Yazımın sonluğunda İtaliya filosofu Nikola Makiavellinin "Hökmdar" əsərindən bir stat gətirilmişdir: "Hökmdar müharibədən, hərbi sərəncamlardan və hərbi elmdən savayı heç nə ilə məşğul olmamalı, başını digər fikirlər, qayğılar, işlərlə yormamalıdır. Çünki yalnız Müharibə yeganə sahədir ki, hakimiyyət öz məsuliyyətini ölkədə başqalarının üzərinə yıxa bilir..."(Seç. əsərləri. Moskva-1982, səh.: 342). Təəssüf ki, sondakı "bilir" leksemi korrektura səhvidir: "bilmir" yazılmalı idi. Mən bu iki dəyişik fikrin üzərində düşünərkən, onlardan hansının daha düzgün olmasını özüm üçün aydınlaşdırmağa çalışdım. Məlum oldu ki, indiki Tarixi şəraitdə əgər Nikola Makiavelli sağ olsa idi, o da öz fikrini "müharibə yeganə sahədir ki, hökmdar öz məsuliyyətini başqalarının üzərinə yıxa bilir" kimi yazardı. Çünki hal-hazırda BMT Təhlükəsizlik Şurası və Baş Assambleya, Beynəlxalq Məhkəmə dünyada baş verən müharibə cinayətkarlığının qarşısında öz səlahiyyətlərini icra edə bilmədiyindən tamamilə aciz durumdadır. 30 illik "milli-etnik münaqişə" formatına salınmış Ermənistan ilə Azərbaycan arasındakı Qarabağ müharibəsi buna əyani sübutdur. Elə bu üzdən də BMT-nin bu 30 illik "müharibə-münaqişə" ilə bağlı işğalçı Ermənistana qarşı çıxardığı 4 Qətnamə 30 ildir ki, icrasız qalmışdır. Əgər "müharibə" ən azı 1000 nəfərin ölümünə səbəb olmuş dövlətlərarası münaqişədirsə, onda Qarabağ müharibəsi öz masştabına görə müasir dövrün ən iri müharibələrindən biri kimi Tarixə düşməlidir.

Mən əvvəlki yazılarımda Qarabağ müharibəsinin əsas səbəbkarı kimi ERMƏNİ FAŞİZMİNİ ünvan verdim. Lakin məsələni yalnız "erməni faşizmi" ilə məhdudlaşdırmaq işi

bəsitləşdirməkdir. Çünki digər elə amillər var ki, bu münaqişə-müharibədə onların rolu da az olmamışdır. Bu amillərdən biri keçmiş sovet cəmiyyətində formalaşmış Qafqaz mafiyasıdır. Təsadüfi deyil ki, ümumbəşəri təhlükəsizliyə qarşı yeni qlobal təhlükə qüvvələri sırasında Mafiya və Terrorizm ilk yerlərdən birini tutur. Ənənəvi beynəlxalq aktorlar sırasında- dövlətlər, dövlətlərarası institutlar, habelə müəyyən subnasional strukturlarla birgə bu gün dünya siyasətində iştirak edən transmilli korporasiyalar, beynəlxalq banklar, qeyri-hökumət təşkilatları, fövqəlmilli aktorlar- AŞ, ATƏT, NATO, MDB KTŞ, mafioz strukturlar, görkəmli şəxslər və i.a... adları da çəkilə bilər.

İkinci Dünya müharibəsi zamanı Dövlət-Mafiya münasibətlərində ən "örnək" hadisə italiyan, ispan, irland, yəhudi, erməni və afrikan mənşəli Amerika mafiyasının ən nəhəng "təmsilçisi" sayılan siciliyaəsilli qanqster Luçiano ilə ABŞ hökumətinin faşist İtaliyasının dəniz sahillərinə Amerika Silahlı Qüvvələrinin rahat çıxarılması üçün bağlanmış "gizli müqavilə" hesab oluna bilər. ABŞ hərbi-dəniz donanmasının "Underworld" adlanan bu əməliyyatı demokratiya tarixində ən qara ləkə kimi məşhurdur.

Mənim fikrimcə, erməni mafiozası ilə gorbagor Sovet hökumətinin keçmiş rəhbərliyinin SSRİ-nin müttəfiq respublikası sayılan Azərbaycan SSR-ə qarşı Kəlbəcər qızılının qarət edilməsi ilə bağlı gizli sövdələşməsi II Dünya müharibəsindən sonrakı dövrdə Dövlət-Mafiya münasibətlərinin ən böyük cinayətkar hadisələrindən biridir. İndi Azərbaycan ilə Ermənistan arasında qanlı müharibənin getdiyi bir vaxtda bu məsələnin üzərini açmaq zamanı gəlib çatmışdır. Keç. SSRİ-nin iqtisadi xəritəsinə "qızıl" işarəsilə daxil edilməmiş Kəlbəcər qızıl mədəninin qeyri-qanuni mənimsənilməsi və Mafioz emalı indiyədək cəzasız qalmış beynəlxalq cinayətlərdən biridir.

Keçmiş SSRİ-də "Qarabağ münaqişəsi" zəminində Qarabağ Muxtar Vilayətinin Ermənistana verilməsi tələblərinin nədən Qarabağ ərazisi hesab edilməyən Kəlbəcər qızıl mədəninə qədər uzadılmasının sirri də məhz bundadır.

Rusiya Federasiyası hökumətinin ilk Prezidenti Boris Yeltsinin və bu ölkənin Təhlükəsizlik Şurasının rəhbəri Yevgeni

Primakovun erməni mafiyası ilə əlaqələri hamıya məlumdur. SSRİ hərbi-sənaye kompleksini ölənədək öz əlində saxlamış Y.Primakov hələ 70-80-ci illərdə müsəlman ərəb ölkələrində yaradılmış hərbi münaqişələrdə əsas "silah alverçisi" idi. Mixail Qorbaçov dönəmində Qafqazda yaradılmış "Qarabağ münaqişəsi" də məhz Yevgeni Primakovun paranoidal-xəstə zehniyyatının məhsulu olmuşdur.

Ermənistan Respublikasındakı "narıncı inqilabın Baş naziri" Nikol Paşinyanın hakimiyyətə gələn kimi keçmiş prezidentlərdən Robert Köçəryanı Rusiyadan tələb edərək həbsə atması nə Qarabağda dinc azərbaycanlı əhaliyə qarşı həyata keçirilmiş qətli-amlara, nə də siyasi əqidə fərqinə görə idi. Problem işğal edilmiş Kəlbəcərin son 30 ildə qarət edilmiş 13 min tonluq qızıl xəzinəsinin bölüşdürülməsindən ibarət idi. Faşist Paşinyan da öz payını istəyirdi.

NATO-nun son hərbi doktrinalarından biri BMT-nin sanksiyası olmadan öz məsuliyyət zonasından kənara çıxaraq, hərbi təcavüzə məruz qalmış dövlətlərə və xalqlara "hümanitar işəqarışma" siyasəti ilə yardım göstərməkdən ibarətdir. Lakin belə bir "hümanitar kömək" Azərbaycana indiyədək göstərilməmişdir. Nə üçün? Çünki "Rusiyanın zəiflədilməsi" proqramı çərçivəsində Erməni mafiyasının Qafqazdakı rolu ABŞ-a sərf edir. İlk yazımızda bu məsələnin izahını Rusiya strateqlərinin öz statları ilə belə vermişdik: Ermənistan Respublikasının "Qarabağ münaqişəsi" formatına salınmış 30 illik işğalçılıq müharibəsi ilə bağlı Rusiya Strateji Tədqiqatlar İnstitutunun "Проблемы национальной стратегии" jurnalının 2015-ci il (№-2(29) sayında "İnstitutun hesabatları" baş yazısının "Azərbaycan" bölməsində oxuyuruq: «Азербайджан нужен ЕС для полноченной европейской интеграции, главным образом для того, чтобы вытеснить Россию из региона.» (səh.:42)

Deməli, rus strateqlər "Qarabağ münaqişəsini" ilk başdan Azərbaycanın Avropa İttifaqına girişinə qarşı qoyulmuş "açar" hesab etmişlər. Digər maraqlı məqam da var: "Перед Европы стоит и другая важная задача- ослабив Россию, не допустить чрезмерного усиления Турции в регионе Южного Кавказа." (səh.: 43).

ABŞ-ın XXI əsrdə dünya liderliyini əldən verməmək üçün Avropa ilə gizli savaşda olduğu məlumdur. Keçmiş ABŞ prezidenti Klintonun təhlükəsizlik məsələləri üzrə müşaviri Entoni Layk NATO-nun genişləndirilməsi siyasətində dörd strateji istiqaməti irəli sürmüşdü: bazar iqtisadiyyatının nüvəsi olaraq, ABŞ, Kanada, Yaponiya, Qərbi Avropanın müdafiəsi; konsolidasiya ediləcək yeni demokratiyalara- keç. SSRİ, Cənubi Afrika Respublikası, Nigeriyaya dəstək; demokratiyaya düşmən ölkələrin – İran, İrak, Kubanın (habelə Şimali Koreyanın) təcrid edilməsi; nəhayət, aralıq zona olaraq qeyri-demokratik dövlətlər zonası kimi nəzərdə tutulmuş iqtisadi liberalizasiya yolu tutmuş Çin və İslam ölkələri. Deməli, ABŞ-ın Böyük strategiyasında Azərbaycan da, Türkiyə kimi bir müsəlman ölkəsitək inkişafına müəyyən məhdudiyyətlər qoyulmuş “ZONA”-da yerləşir. Azərbaycan-Ermənistan arasında gedən son müharibədə ABŞ prezidenti D.Trampın “mən bundan sonra milli münaqişələrə qarışmayacağam” deməsinin pərdə arxası Qafqazda “Rusiyanı zəiflətmək” və “Türkiyəni Cənubi Qafqaza buraxmamaq” məqsədini güdür. Bəs, bu prosesdə faşist erməni Baş nazirin rolu nədən ibarətdir. Beynəlxalq səviyyədə cəzasız qalacağına tam əmin olan Nikol Paşinyan 30 il erməni işğalında olmuş Azərbaycan ərazilərindən qovulan Ermənistan Ordusunun raketlərini Azərbaycanın şəhər və kəndlərinin dinc əhalisinə tərəf tuşlayıb atəş açdırır: BMT susur?!. Bu gün Azərbaycan Respublikasının Azadlıq Ordusu Qarabağ ərazisində təqribən 1918-20-ci illərdə ABŞ mandatlı Ermənistan dövlətinin və onun erməni faşizminin banisi Qaregin Njdenin doğma Qarabağımızda məhv etdiyi Azərbaycan kəndlərinin sayı qədər qədim yaşayış məskənlərimizi azad etmişdir.

**BÜTÜN BUNLAR DEMƏYƏ ƏSAS VERİR Kİ, ERMƏNİ FAŞİZMİNİN YENİ NARINCI LİDERİ İLK NÖVBƏDƏ AVRASİYANIN AZAD GƏLƏCƏYİ ÜÇÜN 1№-li STRATEJİ TƏHLÜKƏDİR.**

(Ardı var. Əvvəli: Saytın 19.X. və 21.X. 2020-ci il tarixli buraxılışlarında)

**“İctimai Xəbər Agentliyi” MMC.**

http://atatv.az › gundem › 18809-ermni-faizminin-sonu...

Erməni faşizminin sonu: Nikol Paşinyan - Atatv.az

14 noy 2020 — **Erməni** faşizminin sonu: Nikol Paşinyanb/b **Namiq Atabəyli** (Avrasiyayönümlü yazıçı-publisist) **Erməni** faşizminin sonu: Nikol Paşinyan.

**Ata TV**

14 noyabr 2020. 15:37



**Namiq Atabəyli**
**(Avrasiyayönümlü yazıçı-publisist)**




# Erməni faşizminin sonu: Nikol Paşinyan

IV YAZI

Azərbaycanda kadr siyasəti sahəsində əski proteksionist mehdiyevçiliyin postmehdiyev mərhələsi ilə əvəz edilməsi nəinki ən son dövrlərə, bütünlüklə bütün tarixi keçmişə baxışın təzələnməsini tələb edir. Tarixə baxış gələcəyin açarıdır.

Qafqazda son 20-30 ildə baş vermiş ictimai-siyasi proseslərin düzgün izahı üçün Tarix ciddi araşdırılmalı və folk-istorizmdən təmizlənməlidir. Bu mənada, erməni faşizminin mahiyyəti də tədqiqatdan kənarda qala bilməz. Lakin unutmaq olmaz ki, Qafqaz vahid olduğu kimi, burada cərayan etmiş bəzi proseslər də ümumi xarakterlidir...

Azərbaycan Respublikası Prezidentinin keçmiş administrasiya Rəhbəri kimi Ramiz Mehdiyevin ismi

indiyədək daha çox ermənimeylli qüvvələrin içərisində hallanmışdır. Onun hal-hazırda AMEA-na rəhbərlik etməsi bu məsələni daha da ciddiləşdirir. Erməni faşizminin mahiyyətini izah edərkən “Ramiz Mehdiyev sindromu”nu da ciddi araşdırmaq lazım gəlir. Mən ötən əsr 90-cı illərin ortalarında bu Zatın antituran məzmunlu kitablarını oxuyarkən, onun həqiqətən bir türk ölkəsində Türk düşmənçiliyi apardığını aydınca hiss etmişdim. Əlbəttə, kiçik bir dövlət məmurunun Administrasiya Rəhbəri ilə ideya mübarizəsi aparması elə də asan iş deyildi...

Başqa həmkarlarımdan fərqli olaraq, mən 30 illik Jurnalist fəaliyyətimlə bərabər, eyni zamanda şirvanlı qocaman bir jurnalistin oğluyam. Hələ də müstəqil şəkildə jurnalistik fəaliyyətini davam etdirən atam Rəşid Fərəcovun bu gün 82 yaşı var: mənim orta məktəb şagirdi olduğum illərdə atamın Rayon Partiya komitəsinin qəzetində (“İrəli” qəzeti) deyil, nə üçün mərkəzin “Kommunist” qəzetində Kürdəmirdə pambıq sahələrinin hədsiz genişləndirilməsi üzündən əhalinin öz heyvan-qarasını otarmaq üçün yer tapmadığından bəhs edən bir məqalə dərc etmişdi və bu, böyük qalmaqala səbəb olmuşdu. O zaman atama qarşı belə bir “oyun” sərgiləndi: atamı rayon daxilində cəzalandırmaq üçün dərhal “Zəhmətkeş məktubları və ərizələri” şəbəsinin müdirliyindən çıxarıb, müxbir vəzifəsinə endirdilər. Əlbəttə, onun həmin dövrdə Azər.KP MK-nın ideoloji katibi vəzifəsində çalışan Ramiz Mehdiyevə yazdığı şikayət ərizələrinin aqibətindən danışmağa da dəyməz... Mən bir jurnalist oğlu kimi hələ məktəbli yaşımda o vaxt Ramiz Mehdiyevi çoxsifətli bir şəxs hesab eləmişdim. Amma sonralar Tarix bizi 10 il eyni ünvanda işləməyə məcbur etdi?!.

Məşhur İsveç repertyoru Erik Fichtelius “Jurnalistikanın on qızıl qaydası” kitabında 9-cu Qızıl qaydanı “Nəticələrə qarşı neytral olmalı” adlandırmışdır. Nəticələr isə bəzən

şəxsi mənada o qədər ağır olur ki, neytralitet gözləmək qeyrətsizliyə çevrilir. Mehdiyevin siyasi müxalifət içərisindən özü üçün kadr ehtiyatını necə topladığına xüsusi fikir vermək pis olmazdı: Mais Səfərli (keç. müxalifətçi deputat. O, eyni zamanda R.Mehdiyevin öz oğlu Timur ilə C.Hacıbəyli küçəsində Azay Möhnətova məxsus çoxmərtəbəli yaşayış binasında hələ 2004-cü ildən qapı bir qonşu “etdiyi” şəxsdir. Mehdiyevin adı Azay ilə birgə EUROHOME ticarət mərkəzlərində şərik kimi çəkilir. Bu obyektlərdən biri də memarlıq abidəsi kimi adı Dünya memarlığı siyahısına daxil edilmiş Qarabağ (keç. Turist) mehmanxanasının 2004-cü ildən bəri varvarca dağıdılmasından sonra, onun yerində salınmışdır), anti-Rusiya çıxışları ilə gündəmi doldurmuş “Ümid” partiyasının funksioneri, dörd çağırış MM deputatı, biznesmen İqbal Ağazadə və özünü NATO tərəfdaşlıq cəmiyyətinin sədri elan etmiş Fərəc Quliyev... Mən bütün digər ikinci sıra ismləri burda sadalamaq istəmirəm. Diqqəti çəkən nüans bunların hər birinin tarixdə oynadığı ümumi mürtəce fəaliyyətlərdir. Mais Səfərli “Yurddaş” təşkilatı və sonra partiyasını “yaradaraq”, Avrasiya məkanında xalqımızın mühacirət eloktratının parmçalanması və yanlış yollara istiqamətləndirilməsilə məşğul olmuşdur. Fərəc Quliyevin isə təkcə “Avroatlantik tərəfdaşlıq” kimi mürtəce ideyalarını yada salmaq kifayətdir. Vaxtilə bu zatların hər ikisinin əleyhinə mənim məqalələrim “Azərbaycan” qəzetində dərc edilmişdir. İqbal Ağazadənin Sülh müqaviləsi ərəfəsində Rusiya prezidenti cənab V.V.Putinə yazdığı təhqiramiz məktublar yaddan çıxmamışdır.

Mənim Heydər Əliyevin Mətbuat xidmətində çalışarkən yazdığım məqalələrə yazıların dərcindən öncə “cavab məqalələri” yazmış Mais Səfərlinin fəaliyyəti inidulmazdır. İddialarımın sübutu məhz Ulu Öndər Heydər Əliyevin stolunun üzərindən mətbuata aparılmış həmin

yazılarımdadır. Hər iki zat: Mais Səfərli və Fərəc Quliyev mənim Prezidentin Mətbuat Katibi xidmətindən uzaqlaşdırıldığım vaxtdan bəri Ramiz Mehdiyevin hesabına zamanla millətvəkilliyi statusunu qazanmışlar?!

Erməni faşizminin irqçi və regionçuluq ideologiyalarına söykəndiyi məlumdur. Bəs, Ramiz Mehdiyevin kadr siyasəti hansı ideoloji prinsiplərə əsaslanmışdır. Məncə, keçmiş Azər.KP MK-nın Birinci katibi Əbdürrəhman Vəzirov öz siyasi fəaliyyəti ərzində nə qədər çox səhvlər eləmiş birisi olsa da, onun Ramiz Mehdiyevi məşhur Partiya konfransında MK-da İdeoloji katiblikdən "X"-i qovan kimi qovarkən" söylədikləri tamamilə haqlı fikirlər olmuşdur!.. Ermənistan Respublikasının faşist rəhbəri Nikol Paşinyanın acınacaqlı aqibəti bu gün bizim ölkəmiz üçün də əsl dərsdir: belə ki, bütün dünyada yerliçilik və irqçilik üzərində qurulmuş idealojiyaların sonu iflasdır! Əlbəttə, Mehdiyevin Kadr və dövlət qulluğu məsələlərindən uzaqlaşdırılmasından sonra ölkədə müəyyən müsbət dəyişikliklərin baş verdiyini inkar etmək düzgün olmaz. Amma "boz kardinalın" boz əməllərinə qarşı KARDİNAL dəyişikliklərə hələ də ehtiyac vardır. Qoqolun "Şinel"indən çıxmış məmur ordası artıq o şineldən az şeylər mənimsəməyiblər: məktubları cavabsız qoymaq, tanışbazlıq, vəzifə borcunu unutmaq, konformizm və s. Xüsusilə son dövrlər sürətlə yeni "Gədəbəy qruplaşması" formalaşmaqdadır ki, bu simbioz dəstə heç də "Naxçıvan qrupundan" az təhlükəli göprünmür… Ayrum (rumiyani-sufiyan) qacarizmi kəskin nəzərə çarpır. Bu klanda anti-şirvan meyllər də məhz buradan irəli gəlir.

Mən öz cəmiyyətimi hazırda bir yazıçı kimi nəzərdən keçirirəm. Əgər bu gün Erməni faşizmi üzərində Böyük Qələbəmizin münasibətilə ultra-millətçi şüarlarla bəzənərək sevinc sellərində üzürüksə, bu hələ hər şeyin həlli deyil. Məğlub olan tərəf ən böyük Dərsi alan tərəfdir. Xalqların gələcəyini müasir Silahlar deyil, elmi-texnoloji tərəqqi və

mədəni inkişaf müəyyənləşdirir. Biz hüquqi dövlət (maddi hüquq sistemi) yaratmadan əldə olunmuş uğurlarımızı da tezliklə itirə bilərik. Tarixdən dərs götürmək vaxtıdır. Mən dövlət başçısının Paytaxtda təyin etdiyi Qadağan saatını pozaraq, gecə saat 4-dən küçələrdə keçirilmiş avtoşouların, səsgücləndiricilərin nümayişində mədəniyyət elementi görmürəm. 1992-ci ilin 8-9 Mayında bütün Türkiyə mediyası manşetlərdə yalnız bir söz yazmışdı: Azərbaycanda bu gün bircə güllə belə atılmamışdır. Əlbəttə, Şuşanın "satılması" ağır ittiham idi. Amma bu baş vermişdi... Elə həmin gün mən də bir çoxları kimi Vətənin xilası üçün öz nəzərlərimi Ulu Öndər Heydər Əliyevə çevirmişdim. Tarix unudulmur: 8 Noyabrda geri alınmış Şuşa qalamız minlərcə igid oğlun qanı bahasına başa gəlmişdir. Paytaxtda qadağan saatlarından etibarən Bayraq gəzdirən gənclər həmin vaxt Şuşada olmalı idilər?!. Noyabrda 8 Mayı da yada salmaq lazımdı. Amma heyf ki, belə olmadı…

Mənim Ulu Öndər Heydər Əliyevin ideyalarına xidmət tarixim Prezidentin Mətbuat Katibi xidmətində 10 illik "böyük məsləhətçiliyim" ilə yekunlaşmır. Bu məsələyə sonra qayıdacağam...

Öncə deyim ki, Ermənistanın "jurnalist" Baş naziri İcevan 1 №-li orta məktəbin idman müəlliminin oğlu faşist Nikol Paşinyan bir çox başqa yaşıdları kimi, 1988-ci ildən baş qaldıran "Qarabağ hərəkatı"nın fəal üzvlərindən biri olmuşdur. O, 1991-ci ildə orta məktəbi bitirib, Yerevan Dövlət Universitetinin filolojiya fakültəsinin jurnalistika şöbəsinə qəbul edilibdir. Bu tarix, təxminən, mənim SSRİ Teatr İttifaqı Yaradıcılıq İstehsalat Birliyinin Azərbaycan bölməsində Kiril Lavrovun məktub-müraciəti əsasında yaradılmış "İlham" qəzetində şöbə müdiri kimi ilk Jurnalistik fəaliyyətə başladığım dövrdür. Mən bu qəzetdə iki ayrı-ayrı mərhələdə çalışmışam: birinci mərhələ- 14

noyabr 1990-cı ildən 9 aprel 1991-ci ilə kimi (bu dövrdə Heydər Əliyevin şöbə müdiri olduğum "İlham" qəzetində ilk Müsahibəsinin- Vətənin cənubu, şimalı yoxdur- təşkilinə nail olmuşam, 20 Yanvar cinayəti əleyhinə məqalələr yazmışam ); ikinci mərhələ isə 5 oktyabr 1993-cü ildən 30 dekabr 1995-ci ilə qədər çəkmişdir. Bu təzad nədən ortalığa çıxmışdı?!. Məsələ bundadır ki, 1995-ci ildə Azərbaycan Konstitusiyasının müzakirə və qəbulu zamanı məndən xahiş olunmuşdu ki, bu prosesdə fəal iştirak edim. Rəsmi mətbuata tam nəzarəti ələ keçirmiş Ramiz Mehdiyevin "mənim əlimə oynamalısan!" göstərişinə boyun əymədiyim üçün yazdığım məqalələrin yalnız "Yeni Azərbaycan" qəzetində dərci mümkün idi. Baş redaktor Xeyrəddin Qoca məni Prezident Aparatında çalışdığım halda "müqavilə əsasında" müvəqqəti işə götürdü. Beləliklə, mən özümü növbəti Ramiz Mehdiyev şərindən qorumaq üçün (o həmin dövrədək məni artıq iki dəfə qeyri-qanuni olaraq, "işimdən azad" etmişdi. Bütün bu Sərəncamlar isə Prezident Heydər Əliyevin şəxsi müdaxiləsilə iki həftə ərzində anulirə edilmişdi) əlavə daha iki yerdə "işçi kimi" özümü sığortalamağı lazım bildim. "İlham" qəzetində "Azərbaycançı kosmopolitizm, yoxsa milliyyətçi türklük" və "Azərbaycan konstitusiyası..." adlı iki silsilə məqalələrim dərc edildi. Bu yazılar birbaşa Ramiz Mehdiyevin antituranizmi əleyhinə yönəlmişdi. Əlbəttə, açıq müstəvidə mən Admnistrasiya Rəhbərilə üz-üzə gəlmişdim. Bu yazılarımdan ayrı-ayrı parçalar hətta "Azadlıq" radiosunda Mirzə Xəzərin şəxsən özü tərəfindən oxunmuşdu. "Yeni Azərbaycan" qəzeti isə mənim "Siyasi yol", Birinci məqalə (№-22/85. 14 oktyabr 1995-ci il), "Siyasi yol", İkinci məqalə (№-27/90, 4 noyabr 1995-ci il), "Sağlam düşüncə" (№-31/94. 2 dekabr 1995-ci il), "Azadlığın qədri" (№-34/97, 23 dekabr 1995-ci il), "Milli zəfər yürüşü" (№-21/84, 7 oktyabr 1995-ci il) və digər məqalələrimi dərc etmişdi.

Azərbaycanda Konstitusiya rejiminin bərpası dövrün ən zəruri məsələlərindən biri idi. Sovet Azərbaycanının Əsas Qanuni qüvvədən düşmüşdü, yenisi isə hələ də yoxdu... Bu hüquqi boşluq demək idi. Bu boşluq Ramiz Mehdiyevin də işinə yarayırdı. Odur ki, Azərbaycan Konstitusiyasının qəbulu ərəfəsində, yəni iyun-iyul aylarında Admnistrasiya Rəhbəri şəxsi təşəbbüsü ilə mənim işdən azad edilməyim barədə növbəti Sərəncam verdi. Heydər Əliyev onun bu volyuntarizminə dərhal son qoydu. Sərəncam anulirə edildi və mən "itirilmiş vəzifəmə" qaytarıldım...

Bütün bu və digər şəxsi təcrübə və qənaətlərim əsasında etiraf və bəyan edirəm ki, Qafqazda yeni demokratik dəyişikliklərin baş tutması üçün iki mürtəce xəttin-yerliçiliyin və irqçiliyin aradan qaldırılmasını çox zəruridir. Faşist dünyagörüşü də məhz bu iki faktora söykənir. Adolf Hitlerin "Bavariya qrupu" onun ideoloji bazasının maddi təməllərindən birincisi idi. Sevinirəm ki, 2004-cü ildən bəri mühdiyevşinanın təqibləri ilə üzləşmiş atasının çəkdiyi 18 illik müsibətləri mənimlə birgə yaşamış qız övladlarım, Ermənistanın faşist lideri jurnalist Nikol Paşinyanın qızı Məryəm Paşinyanın bu günlərdə söylədiyi son sözləri bir dəfə də olsun dilinə almadılar: "Mənim bütün arzularım, ümidlərim məhv oldu..." Ümidini itirmiş gələcək bəşəriyyətə gərək deyil!

"Erməni faşizminin sonu- Nikol Paşinyan" mövzuma qayıdaraq, erməni şovinist dairələri arasında xüsusi ideologiya halına salınmış saxta "paralel tarixçilik" və ya folk-istorizminin təsiri altında Azərbaycanda formalaşmış elmi bidətlərə cavab vermək istəyirəm. Bunlardan birincisi "erməni dövlətinin ruslar tərəfindən" yaradılması iddialarıdır. Erməni dövlətinin yaranmasını Çar Rusiyasının adına bağlamaq əsl tarixi saxtakarlıqdır. "Erməni dövləti" planı Qərb imperialist güclərinin "liberalizm" pərdəsi altında gizlətdikləri işğalçılıq siyasətinin məhsuludur. Qərb

maliyyə bosslarının yardımları ilə Çar Rusiyasını dağıdaraq, bu ölkədəki maddi sərvətlərə yiyələnməyə can atan Qərbcu mürtəce qüvvələr bir sıra başqaları (rus sosial-demokratları, Bunt yəhudi partiyası və s.) kimi, erməni təşkilatlarına da Xaç atalığı etmişlər. Yalnız Çar hökuməti süqut etdikdən sonra, dünya siyasi xəritəsində "Ermənistan Respublikası" peyda olmuşdur. Mifik əfsanələrdən quraşdırılmış amorf təəssüratların əsasında Qafqazda "vətəndaşlıq statusu" almış bu qondarma dövlət yarandığı gündən irqçı-faşist xarakterini büruzə vermişdir. Erməni faşizminin antitürk irqçilik siyasəti haqqında əvvəlki yazılarımda Njde barədə qeydlərimdə ətraflı söylənmişdir. Təkrara ehtiyac görmürəm. Erməni faşizminin Qafqaz xalqları arasında mürtəce rolu geniş şərh tələb edir. Yalnız bir faktı yada salıram: Leninin bolşevik hökuməti 1918-ci ilin 19 yanvarında Ümumrusiya Müəssislər Məclisini dağıtdıqdan sonra, idarəçilik sistemini itirmiş Qafqaz xalqları azəri türkü, gürcü və erməni tərkibli Zaqafqaziya Seymi yaradıldı. Alman cəsusu olmuş V.İ.Lenin təcili şəkildə Antanta blokundan çıxardığı Yeni Rusiya ilə alman dövləti arasında Saziş bağladı. Bu əsasda alman-rus Bretsk-Litovski sövdələşməsi baş tutdu. Elə həmin dəqiqədən etibarən erməni millətçilərinin də Zaqafqaziya Seymi daxilində destruktiv fəaliyyəti Almaniya-Türkiyə hərbi ittifaqını pozmaq istiqamətinə yönəldi. Seymin erməni və gürcü fraksiyası 31 Mart (1918-ci il) tarixində azərbaycanlı üzvlərin iradəsi ziddinə gedərək, Türkiyəyə müharibə elan etdilər. Bu qısa müddətli savaş Seymin məğlubiyyətilə başa çatdı. Almaniya hökuməti öz müttəfiqinə qarşı ikiüzlülük edərək, I Cahan müharibəsindən sonra Qafqazın öz müttəfiqi olan Türkiyənin nüfuz dairəsinə düşməsinə mane olmağa çalışırdı. Gələcək alman faşizminə gedən yolun başında olan Türkiyə "müttəfiqi" üçün erməni faşizmi daha cazibədar görünürdü. Zaqafqaziya Seymini ilk olaraq,

gürcülər tərk etdilər. 26 Mayda gürcülər, 28 Mayda isə azərilər öz istiqlalını elan etdilər. Bundan sonra, Ermənistanın ABŞ-ın kurasiyası altına keçməsi və ABŞ mandatı altında Qafqazda öz anti-türk faşist siyasətini davam etdirməsi daha geniş söhbətin mövzusudur...

...“Qarabağ hərəkatı” ilə ötən əsrin sonlarından yenidən vüsət almış erməni faşizmi minlərlə ermənininin başını yediyi kimi, hazırkı erməni narıncı lideri, faşist Baş nazir Paşinyanın da beynini ilk gəncliyindən yuya bilmişdir. Bu faşist hərəkatın sıralarında hələ orta məktəb illərindən yer almış N.Paşinyanın tələbəlik illəri “inkarçı mövqeyilə” başqalarından heç də seçilmədi. O da hümanitar sahənin bir çox mütəxəssisləri kimi jurnalistik fəaliyyət yolunu tutdu. Onun bu yolu çox eniş-yoxuşlu olmuşdur: belə ki, o, 1993-cü ildən 1994-cü iləcən “Dprutyun” qəzetində korrespondent, 1994-1997-ci illərdə “Lraqir”, “Lraqir-or” və “Molorak” qəzetlərində korrespondent, 1995-1997-ci illərdə “Molorok” qəzetinin “Em-es-e” əlavəsində redaktor kimi çalışmışdır. 1998-ci ildə “Oraqir” qəzetini təsis edərək, burada Baş redaktor vəzifəsində çalışmışdır. Onun jurnalist kimi baş ağrılarından biri: öz qəzetində Ermənistan parlamentinin deputatı Artaşes Qeqemyanın xanımı və deputatlığa namizəd Norik Ayvazyan əleyhinə yazdığı bir yazıya görə məhkəməyə verilməsi və 25 min dollar cərimə edilməsidir. Birinci instansiya məhkəməsi onu üç punkt üzrə günahkar bilmiş və bir il müddətinə həbs qərarı çıxarmışdır. Qəzet qapadılmışdır.

1999-cu ildə o, “Aykakan jamanak” qəzetinin baş redaktoru olmuş, 2008-ci ilədək bu vəzifədə qalmışdır. Bundan sonra onu vəzifədə xanımı Anna Akopyan əvəzləmişdir. 2004-cü ilin 22 noyabrında Yerevan şəhərinin mərkəzində N.Paşinyanın avtomobili partladılmışdır. Bu zaman o, maşında olmamışdır. Bu hadisənin erməni sahibkar Qaqik Çarukyan tərəfindən təşkil edildiyi sübut

edilə bilməmişdir. 2007-ci ilin Parlament seçkilərində Nikol Paşinyan "İmpiçment" blokundan siyahıda Birinci olaraq, prezident Robert Köçəryanın və baş nazir Serj Sarksyanın istefalarını tələb etmişdir. Onu da deyim ki, 2008-ci ildə Yerevanda saxta seçkilər əleyhinə baş qaldılrmış mitinqlərin silalı yolla dağıdılmasına əmr vermiş Mixail Arutyunyanın (əslən Şamaxı rayonun Saqiyan kəndindəndir) gülləboranı altından keçənlərdən biri də N.Paşinyan olmuşdur. Bir il sonra prezidentliyə namizəd Levon Ter-Petrosyanın seçki qərargahının üzvü kimi Seçkidən sonra ictimai qayda pozuntusu səbəbilə axtarışa verilmişdir. 2009-cu ildə hakimiyyətə könüllü təslim olmuş, növbəti ilin yanvarında 7 il müddətinə azadlıqdan məhrum edilmişdir...

Göründüyü kimi, Nikol Paşinyan ilk baxışda ölkədə azadlıq və hüquq müdafiəçisi olaraq daha çox nəzərə çarpır. Amma bu heç də belə deyildir. Bəs, vəziyyət əslində necədir?!

Məgər bir "demokratiya çarçısı" başqa millətdən olan insanların azadlığına qarşı mübarizə aparan qara qüvvələrlə yandaşlıq edərmi? Faşist-jurnalist Nikol "erməni həqiqətləri" kimi tarixə sırınmış yalanların əleyhinə öz jurnalistik fəaliyyəti ərzində bir kəlmə belə işlətməmişdir. Onun savaşı faşizmin banisi Adolf Hitlerin "fəlsəfəsindən" heç nəyi ilə seçilmir. Hitler də "alman xalqının üstünlüyü" kimi irqçi mövqedən çıxış edərkən, heç şübhəsiz, özünü tamamilə haqlı sayırdı... Bu faşist boşboğazlıq ona ilk növbədə özünün alman xalqı üzərində "ağalıq statusu"- FÜRERLİK etməsi üçün lazım idi. Vaxtilə B.Mussolini jurnalistlərə müsahibə verərkən demişdi: "İRQ! Gerçəklik deyil, hissdir." İnsan təkamülü üç mərhələdə inkişaf yolu keçmişdir: kosmik, bioloji və mədəniyyət. Tarix dönə-dönə sübut etmişdir ki, faşizm mədəniyyətdən uzaq bir dünyagörüşdür. Doqquz milyon il bundan əvvəlin Ramapithecusu ilə bizim dövrümüzün Homo sapiensi

arasında təkamül prosesi nəticəsində çox dəyişikliklər baş vermişdir. Lakin faşist təfəkkürü hətta müəyyən mənada Ramapithecusun təfəkküründən də aşağıdır. Hər halda təbiətdə mövcudluğunu qoruyub saxlamağa çalışan heç bir canlı boş bir hissiyyat xatirinə öz həmcinsini məhvə qalxmır. Dovşan dovşanı, ayı ayını öldürmür...

Müasir texnoloji sivilizasiyanın matimatik mahiyyəti postsənaye əsrində bütün bəşəriyyətin sıx birləşməsini tələb edir. Bütün insanlıq planetar böhran içərisindədir. Biz uzun illər özümüzü aldadaraq, Rusiyanın xüsusi yol ilə getdiyinə və başqa xalqları da öz ardınca apardığına inanıb, ömrümüzü Kommunizm illüziyalarına qurban vermişik. Dahi rus münəvvəri Konstantin Leontyev ömrünün axırlarında Rusiyaya və ümumiyyətlə tərəqiyə inamını tamamilə itirmişdi. Faşizmi ortaya çıxaran fəlsəfi inanclar, əsasən, Nitsşe və Şopenhauerdən qaynaqlanır. Fövqəlinsan cəfəngiyyatı boş ideoloji illüziyadır. İnsan yalnız üzvü olduğu bir cəmiyyətin tərəqqisi ilə həmahəng şəkildə tərəqqiyə nail ola bilər. Burada müəyyən istisnalar, dahilik və s. aspektlər də nəzərə alınmalıdır. Amma kimsədə Allah olmaq gücü yoxdur.

Kibersavaşların yeni "cəngavərləri" üçün insanlıq hələ də faşist xülyaların icrası üçün bir vasitə kimi tanınır. Elmi-texniki tərəqqini, mədəniyyəti bir tərəfə atıb, insanlığı saxta irqi məqsədlərin icra alətinə çevirmək, əlbəttə, heyvanlıqdan da aşağıda durmaq deməkdir. Erməni faşizmi də bu mənada yalnız heyvani təfəkkür və hissiyyatdan ibarətdir. Mən Osvald Şpenqlerin "Avropanın qürubu" (1911) əsərində 2000-ci ildən sonraya verdiyi nihilist proqnazu: "bəşəriyyəti tam 200 il xırda tiranlar idarə edəcəklər"- qəbul etmirəm. Çünki mən də bu ümumbəşər cəmiyyətinin bir üzvüyəm!.. Hətta qədim yunan eposunda Baş Allah hesab edilən Zevs belə bütün kainat üzərində hakimiyyətə malik olmamışdır. O, "PRİMUS İNTER PARES"- sayılırdı. Zevs

allahların və insanların tale tərəzisini əlinə alarkən Hektorun püşkünə əsaslanmışdı. Deməli, Antik ruh kiçik allahlar olimpində yalnız birgəyaşayışa üstünlük vermişdir.

Fransanın Nobel laureatlı antifaşist yazıçısı Romen Rollan demişdir: "Böyük xalq intiqam alan deyil, haqqı bərpa edən xalqdır." Bu fikrinə görə onu antialman (antifaşist yox) əhvali-ruhiyyənin Fransada tüğyan etdiyi dövrdə ölkədən qovmuşdular. R.Rollan faşizmin revanşist müharibəsini alman və fransız xalqlarının müharibəsi deyil, Alman reyxinin başçısı Hitlerin insanlığa qarşı cinayəti hesab etmişdi. Həqiqətən, əsl yazıçı yalnız Sülh və Qardaşlıq ideyalarının carçısı olmalıdır. Rollan alman xalqının dahi simalarını Fransada kütləvi aşağılanma və təhqirlərdən qorumaq üçün təkbaşına mübarizə aparakən də antifaşist idi!..

Sovet dövründə Kəlbəcər, Laçın, Zəngilan və Tərtərdəki qızıl, gümüş, civə, mis, qurğuşun, daş kömür, dekorativ daşlar və digər yataqların necə istifadə edilməsindən bizim heç bir xəbərimiz olmamışdır. Nə Azərbaycanın, nə də Ermənistanın iqtisadi coğrafiyasında bu barədə bircə cümlə belə yoxdur. Elə isə "Qarabağ Muxtar vilayəti"nin Azərbaycandan ayrılıb, Ermənistana birləşməsini tələb edən "hərəkatın" Kəlbəcər, Zəngilan və ya Laçında nə işi vardı?.. İşğal olunmuş bu yataqları əsl sahibinə geri qaytarmamaq üçün öz xalqının 10 minlərlə günahsız gəncinə yenidən çəhrayi libas geyindirib ölümə göndərmiş Baş nazir faşist Nikol Paşinyanın tarixdə hansı üzlə yaşayacağı indidən bəllidir: QARA ÜZLƏ!..

Məlumat var ki, faşist Nikolun xanımı Anna Akopyan sərvətini yığışdıraraq, artıq ölkədən qaçıb getmişdir. Mən bu hadisəni Qədim Roma ilə Karfegen arasındakı III Pun müharibəsi ilə müqayisə etmək istəyirəm: iki Pun müharibəsi Romanı Aralıq dənizinin ən qüdrətli dövlətinə çevirmişdi. Lakin Karfagen də boş durmamışdı. O, indi əsas

diqqətini Şimali Afrikadakı qonşu tayfalarla iqtisadi əlaqələrə vermişdi. Bu, əlbəttə, Roma tacirlərini narahat etməyə bilməzdi. Romalılar Karfageni qəti şəkildə məhv etmək üçün bəhanə gəzirdilər. Nəhayət, bu bəhanə də tapıldı. Numidiya şahı bu oyun üçün əsl oyuncaq fiqur seçildi. Roma senatı 161-ci ildə Karfegenin Empori əyalətini Numidiyaya vermişdi. Karfagenin Romaya şikayətləri isə təbii ki kağız üzərində qalırdı. Nəhayət, Karfagen də yenidən hərbi əməliyyarta başladı. Roma onu Müqaviləni pozmaqda müqəssir bilib, növbəti müharibə meydanına çəkdi. Bu savaş tarixdə III Pun (e.ə.149-146-cı illər) müharibəsi adlanır. Bu müharibənin sonu Karfagen üçün çox faciəli bitdi. Şəhər tamamilə qarət edilib, dağıdıldı. Karfagenin məğlubiyyətini qalib Roma sərkərdəsi Ssipionun qarşısında diz çökmüş öz əri Hasdrubala bağışlamayan xanımı hamının qarşısında ona belə demişdi: " Sən bu dünyada ən utanmaz, xain və qorxaq kişisən! Bizi bürüyən bu alovlar mənə və uşaqlarına qəbir olacaqdır. Sən Karfagenin böyük sərkərdəsi ikən, qalib düşmən qabağında alçaqcasına diz çökmüsən..." Bu sözlərdən sonra o, hər iki uşağını və özünü alovların içinə atıb, yandırmışdı.

Faşist Ermənistan ordusunun Azərbaycana qarşı son 44 günlük (27 sentyabr-8 noyabr 2020-ci il) savaşındakı acınacaqlı məğlubiyyətindən irəli Baş nazir Nikolun qeyri-rəsmi arvadı Anna Akopyanın Ermənistandan qaçıb xaricə getməsi, ən azından, onu öz xanımı qarşısımda belə bir xəcalətdən xilas edib... Əlbəttə, xanım Anna Akopyan vaxtında aradan əkilsə də, onun faşist ərinin Azərbaycanın işğal olunmuş ərazilərində güdaza verdiyi minlərcə gənc əsgərin anaları qarşısında cavab verəcəyi gün qaçılmazdır.

**PS: Bu yazı Xəbər Portalına verildiyi ərəfədə Yeni Avrasiya Hərəkatının lideri, Rusiya FR-in Prezidenti zati-aliləri Vladimir Vladimiroviç Putinin şəxsi təşəbbüsü ilə Ermənistanla Azərbaycan arasında silahlı**

**münaqişənin dayandırılması barədə mühüm Müqavilə imzalandı.** Avrasiya məkanında son 30 ildə yaradılmış bu cür münaqişələrin geosiyasi məqsədləri barədə yazdığım silsilə təhlil məqalələrimdə söylədiyim fikirləri təkrarlamayacağam. Bir Avrasiya yazıçısı olaraq, mövqeyim bəllidir: AVRASİYAnın kontinental bütövlüyü və vahidliyi prinsipi. Biz müasir postsənaye erasının planetar böhranından 50-60 il bundan əvvəl Alman faşizminə qarşı babalarımızın apardığı birgə mübarizəni qardaşca davam etdirməklə qurtula bilərik. Xalqları bir-birinə düşmən elan etmək olmaz! Faşist Almaniyasının üzərində 1945-ci ildə II Dünya müharibəsinin sonunda qurulmuş Nurinberq məhkəməsi alman xalqının mühakiməsi deyil, Alman Reyxinin və nasional-sosialistlərin mühakiməsi idi. Mən hesab edirəm ki, yalnız Qafqaz mafiyasına dayanaraq, erməni faşizminin törətdiyi 30 illik qardaş qırğınına son qoyulmamışdır, eyni zamanda Böyük Vətən müharibəsində Böyük Qələbəmizin 75-ci ilində Qafqazda faşizm üzərində son Zəfər çalınmışdır.

Mən Sovet ordusunun zabiti olmuşam. Babalarımdan biri- Rza Əhmədov bəşəriyyətin xilası uğrunda alman faşizmi ilə müharibədə 25 yaşında həlak olmuşdur. Odur ki, Qərb dünyasının mürtəce faşist dairələri tərəfindən qardaş Avrasiya xalqlarının azadlığına və tərəqqisinə qarşı yönəldilmiş hər cür təcavüzkarlığa və fitnələrə qarşıyam. Mən Qafqaz xalqlarının arasında Sülh və Qardaşlığın yenidən bərpa edilməsində göstərdiyi böyük tarixi xidmətə görə bir daha Rusiya xalqına və onun Prezidenti cənab V.V. Putinə öz dərin minnətdarlığımı bildirirəm. Yaşasın Sülh! Yaşasın Qardaşlıq! Yaşaqsın Avrasiya Birliyi!..

**(Əvvəli: Saytın 19 -21 -23. X. 2020-ci il tarixli buraxılışlarında)**

## "İctimai Xəbər Agentliyi" MMC

http://ulusestv.az › gundem › 7627-mehriban-liyeva-av... ▾

Mehriban Əliyeva: Avrasiya geosiyasətinin yeni qadın lideri...

28 noy 2019 — **Namiq Atabəyli** (Avrasiyaçı yazar-publisist) **Mehriban Əliyeva**: ... **Mehriban** bəyim **Əliyeva** bu dörd günlük tarixi Səfərində Avrasiya məkanının ...

**ULUSESTV.az**
Onlayn internet televiziya

Tarix : 28-11-2019, 16:17 Oxunub : 473



**Namiq Atabəyli.**
**Avrasiyayönümlü yazıçı-publisist**

# Mehriban Əliyeva: Avrasiya geosiyasətinin yeni qadın lideri

Azərbaycan Respublikasının I Vitse-Prezidenti Mehriban bəyim Əliyevanın Azərbaycan dövlətinin ikinci rəsmi siması kimi Moskvaya 21-24 noyabr (2019) tarixli ilk səfəri çox mühüm



beynəlxalq hadisə sayılan Faşist Almaniyası üzərində Avrasiya xalqlarının böyük zəfərinin 75 İlliyi ərəfəsində baş vermişdir.

Bu tarixi səfərə dünya ictimai fikrində müxtəlif yanaşmalar oldu, heç şübhəsiz ki, bunlar da gözlənilən idi… Xaricdən idarə edilən müxalif KİV nümayəndələrinin "fikirləri" barədə sonra… Mənim diqqətimi çəkən xarici informasiyalar arasında Rusiya informasiya agentliyi TASS-ın baş direktoru keçmiş həmyerlimiz Mixael Qusmanın: müasir dünyada "heç də hər kəsin görüşü belə zəngin proqram xarakterli olmur" qiymətləndirməsidir. Həqiqətən, bu cür fikirlərdən sonra ABŞ-ın "Eurosianet" informasiya portalının Mehriban Əliyeva barədə "Zaqafqaziya

Qafqazın qadın Liderinin yeni siyasi statusda Moskvaya ilk səfəri çərçivəsində postsovet məkanında birinci azad Qafqaz ölkəsi olaraq, müstəqil Azərbaycanın çağdaş mədəni və iqtisadi qüdrəti nəinki MDB məkanına, o cümlədən bütün dünyaya açıq-aşkar nümayiş etdirildi.

Mehriban bəyim Əliyeva bu dörd günlük tarixi Səfərində Avrasiya məkanının əsas mərkəzi sayılan Rusiya Federasiyası dövlətinin paytaxt şəhəri Moskvadan bütün bəşəriyyətə 9 May Qələbəsinin qazanılmasında mühüm rol oynamış Azərbaycan xalqının neft sənayesi və elm-texnika, habelə hümanitar sahələrdə böyük tarixi perspektivlərini simvolizə etmiş oldu. Bu, müasir narahat dünyamızda Azərbaycan xalqının bu bir çox başqaları kimi işğalçı sifətlər daşımadığının, hərbi ritorikalardan tamamilə uzaq olduğunun açıq nümayişi idi...

Əlbəttə, bu dəsti-xətt bütün azəri xalqının ürəyincədir. Müstəqil ölkəmiz tolerantlıq və vətəndaş cəmiyyəti istiqamətində sürətlə inkişaf edir. Bildiyimiz kimi Alman faşizmi üzərində Böyük Qələbənin 75 İlliyinə həsr olunacaq təntənəli Yubiley törənlərinə cəmi altı ay qalır. Bu ümumbəşəri ZƏFƏRin qazanılmasında mənim də babam Rza Əhmədov cəmi 25 yaşında həlak olmuş, anam yetim böyümüşdür... Mən əminəm ki, bütün xalqlar kimi, Azərbaycan xalqı da öz qonşuları ilə dinc yanaşı və qarşılıqlı hörmət əsasında yaşamağa can atır. Bu, həmişə belə olub, bundan sonra da belə olacaqdır! Bizim Respublikamızda 50-dən yuxarı xalqın nümayəndələri yaşayırlar. Azərbaycan onların da Vətənidir! Vətən heç vaxt bölünməz, daim qorunub saxlanılar! Və inkişaf etdirilər! Nadürist adamlar hər bir xalqın arasında var. Lakin belələri xalqların həqiqi simasını təşkil etmirlər...

Son dövrlər Azərbaycan-Rusiya, o cümlədən digər xalqlar və ölkələr arası DOSTLUQ sahəsində ən müqəddəs bağlardan, mənəvi körpülərdən biri sayılan 9 May Bayramını aşağılamaq istiqamətində fəallaşmış bəzi irticaçı qüvvələr Böyük Vətən müharibəsi şəhidlərimizin xatirələrinə: onlara həsr edilmiş bədii əsərlərə, dünyasını dəyişmiş antifaşist ədəbiyyat xadimlərimizə, 1941-1945-ci illər müharibə dövrü qəhrəmanlarımızın heykəl və

büstlərinə qarşı bədnam fəaliyyətlər göstərməyə başlamışlar. Mənim ”AtaTv.az“ xəbər portalında işıq üzü görən iki mövqe yazım- “Azərbaycanda neofaşizmə yer olmamalıdır” və “Səməd Vurğun dühası: Avrasiyaçılıq kontekstində” məqalələrim antirusiya-antiavrasiya mövqe tutan qaragüruha tutarlı bir cavab oldu. Çox əlamətdar haldır ki, dövlət-hakimiyyət strukturlarımızda və yerli idarəçilik sistemində bu cür hallara göz yummuş, bir çox hallarda onları fəal dəstəkləmiş yuxarı yaş həddində olan bəzi vəzifəlilər Mehriban Əliyevanın Moskva səfəri qabağı işlərindən uzaqlaşdırıldılar. Əlbəttə, bu siyasi xətt



cəmiyyət içərisində ilk dəqiqədən ölkədaxili irticaçı fəaliyyətlərə qarşı Birinci Vitse-Prezidentin fəal həyat mövqeynin nəticəsi kimi qiymətləndirildi.

Rusiya – Azərbaycan dostluq əlaqələri hər iki xalqın dövlətçilik tarixinin ən qədim səhifələrində özünə yer tutmuşdur. 861-ci il Şirvanşahlar Azərbaycanının Birinci minillikdə ilk İstiqlal tarixinin, 862-ci il isə Rus dövlətçiliyinin (Kiyev-Rus dövlətinin) yaranmasının ilk səhifəsidir… Qədim Şirvan Azərbaycanı – Şirvanşahlar dövləti rus xalqı üçün həyati əhəmiyyət daşımış Şimal-Cənub nəqliyyat dəhlizinin əsas dayağı olmuşdur. Orta əsrlər məşhur Rus səyyahı Afanasi Nikitinin Hindistan səfərinin məhz Şamaxıdan gəlib keçməsi bunun daha bir əyani təsdiqi idi. Bu dostluq və mədəni-iqtisadi əlaqələrin XIX əsr Azərbaycan maarifçiliyində Qızıl hərflərlə yazılmış parlaq səhifələri vardır. Biz dahi klassikimiz, ilk yeni tipli milli məktəbimizin banisi (-yeri gəlmişkən cari il həmin Məktəbin 150 İlliyidir: 1869-2019) pedaqoqumuz Seyid Əzim Şirvaninin Rus şeirinin günəşi Aleksandr Sergeyeviç Puşkinə Moskvada heykəl qoyulması münasibətilə yazdığı şeiri (“Nizami-aləmin icrasına hər qəridə bir kəs…) əzbərdən bilirik. Seyid Əzimin: “Ey oğul, hər lisanə ol rağib, Xüsusən, rus elminə ol talib” proqram xətti çağdaş Azərbaycan gəncliyinin də əsas təhsil kredosudur.

Birinci Vitse-Prezidentin Moskva səfərində rus ictimaiyyəti üçün ən maraqlı məlumatlardan biri, heç şübhəsiz Azərbaycanda indiyə kimi dahi şairimiz və ilk milli pedaqoqumuz Seyid Əzim Şirvaninin 100 il bundan əvvəl irəli sürdüyü xəttə xalqımızın göstərdiyi sədaqət və sayğı oldu: keçmiş Çarizm və SSRİ dövrlərində ölkəmizdə rus dilində təhsil verən müəssisələr nəinki ləğv edilməmiş, əksinə daha da artırılıb inkişaf etdirilmişdir.

Mehriban Əliyevanın ilk dəfə yeni komanda kimi beynəlxalq arenaya çıxardığı gənclərdən ibarət dövlət və hökumət nümayəndə heyəti xüsusilə Respublikamızın xaricdəki imicinin daha da ucalmasına yol açmış oldu. O, özü ilə yeni hakimiyyət komandasının nümayəndələrini aparmışdı: heyə, əsasən, yeni komandanın iqtisadi və mədəni cinahını təmsil edirdi. Bəzi "milli" qara piar jurnalistləri I Vitse-Prezidentin bu tarixi səfərinə kölgə salmaq üçün dərhal hərbi ritorikanı işə saldılar və Mehriban bəyim Əliyevanı "Qarabağ mövzusuna" müraciət etməməkdə suçlamağa başladılar. Sual doğur: Avrasiyanın yeni qadın Liderinin Rusiyaya bu ilk müstəqil və mühüm tarixi səfərində 1987-ci ildən meydana çıxarılmış həmin mövzuya



qayıtmağın nə əhəmiyyəti ola bilərdi?.. Əlbəttə, heç kəsə sirr deyil ki, Azərbaycanla Ermənistan arasında yaradılmış geosiyasi "Qarabağ problemi" indiki Rusiya lideri cənab Vladimir Vladimiroviç Putinin keçmiş



Şərqi Almaniya ərazisində hərbi xidmət etdiyi illərə təsadüf etmişdir. Cənab V.Putin ilə mənim SSRİ ordusunda hərbi xidmət illərimiz təqribən üst-üstə düşür. 1982-ci ildə keçmiş SSRİ ilə Suriya arasında hərbi müqavilə əsasında "Qafqaz-2" gizli planı üzrə Yaxın Şərqdə müharibə zonasına göndərilməli idim. SSRİ-nin İran sərhədində hərbi xidmət edirdim. Misir prezidenti Ənvər Sədatın separatizmi üzündən

Suriya-İsrail münaqişəsi cildinə salınmış növbəti imperialist Müharibə gözlənilmədən dayandırıldı və son anda mənim də bu dünyada indiyədək sağ qalmağım mümkün oldu. Bu acı həyati həyəcanlar mənə deməyə haqq verir ki, keçmiş SSRİ ilə Qərb imperializminin üz-üzə dayandığı Alman sərhədindəki xidmət illəri cənab Putinə də az müdriklik verməyib. Odur ki, jurnalist camiyəsi adından bu gün bəşəriyyəti Faşizm üzərində Qələbənin 75 İlliyi qabağı müharibə çağrışları ilə həyəcanlandırmaq heç də müdriklik deyildir. 1988-2019-cu illər arasında Azərbaycanda altı Rəhbər dəyişikliyi baş vermişdir. Qərb siyasətçiləri ilə Avrasiyaçılar arasında gedən böyük geosiyasi mübarizənin ağır nəticəsi olaraq, "Qarabağ problemi" özündə bir çox mübhəmləri sirr kimi gizlədir. Bunun birinci sirri odur ki, Qərb diplomatik modeli olan ATƏT-in Minsk Qrupu formatında indiyəcən aparılmış danışıqlar prosesi aydın şəkildə onu göstərmişdir ki, ölkəmizin ilk Prezidenti möhtərəm Ayaz Mütəllibovun 1992-cilin 2 martında, yəni müstəqil Azərbaycanımızın BMT-yə qəbulu günüdə devrilməsi ilə Avropa dövlətləri Qarabağ münaqişəsinin həlli yolunda heç bir konkret həll təklifi irəli sürmədilər. İşğala uğramış Qarabağın taleyi BMT-dən Avropa müstəvisinə- ATƏT-ə keçirilməklə indiki vəziyyətinə salındı: bunun siyasi cavabdehi kimlərdirsə, bloger Sevil Osmanqızının sualları onlara yönəldilməlidir?! Digər tərəfdən, indiki postindistrual dövrdə dünya postmodern siyasət girdabındadır: beynəlxalq təşkilat strukturlarında hakim elitaların şəxsi mənafeləri, əsasən, Dövlət maraqlarının üstündədir. Müasir dünyada "Qarabağ" tipli münaqişələr dünyanın ÜST elitalarında yalnız qazanc mənbəyinə çevrilmişdir. Müasir dünyadakı "qaynar nöqtələr"in taleyi bunun əyani sübutudur. Bu təzadların səbəblərini Avropadan və ATƏT-dən soruşmaq lazımdır. Üçüncü tərəfdən, indiki halda zərərdidə olaraq, münaqişə tərəfinə çevrilmiş xalqların Xalq diplomatiyaları işə salınmadan belə münaqişələrin həlli qeyri-mümkün görünür. Müxtəlif cəbhələri təşkil edən böyük güclərin özləri üçün yaratdıqları əndərabadi Oyun qaydalarına qarşı mübarizənin zorakı üsullarının tətbiqi əsla mümkün deyil. Dünya siyasi elitası lazım gələndə "xalqların öz müqəddəratını həll etmə" haqqına, lazım gələndə isə ölkələrin ərazi bütövlüyü prinsipinə əl ataraq,

problemin həllini SIFIR vəziyyətinə salırlar. Mən istərdim ki, Avropada qərarlaşmış azəri blogerlər elə həmin ölkələrin siyasi elitasından otuz illik mövqe dəyişikliklərinin səbələrini sorğulasınlar!! Qafqaz regionunda vaxtilə müxtəlif hakimiyyət dəyişiklikləri fonunda "yağlı kökələr" əldə etmiş bəzi diletant müharibəpərəst "milli qüvvələr" unutmasınlar ki, 21-ci əsrdə müharibə ilə ərazi dəyişiklikləri iddiasına düşmək siyasi diletantlıqdan savayı bir şey deyil. Çünki indiki halda nə BMT, nə ATƏT, nə də MDB özünün tam hüquqlu heç bir üzvünə özbaşına ərazi dəyişikliyi etməyə imkan verməz. Odur ki, Mehriban Əliyevanı Moskva səfərində müharibə tematikasından kənarda durduğuna görə ittiham etmək, əlbəttə, tamamilə haqsızlıqdır… Bu cür münaqişələrin yeganə həlli yolu xalqlararası Birgəyaşayış və Sülh siyasətidir!.. Mən bunun ilk formatı olaraq: Qərbçiliyi deyil, Avrasiya Birliyini görürəm…

Azərbaycanda bütün müxalifət qüvvələrini Mehriban Əliyevanın əleydarı da adlandırmaq doğru fikir olmazdı. Maraqlıdır: ənənəvi radikal müxalifət liderlərindən bəzilərinin liderləri siyasətdən çəkildiklərini bəyan ediblər. Bu mədəni jestin arxasında, məncə, az mətləb durmur… Bir tərəfdən, kimlərsə Azərbaycanın yeni qadın Liderinə qarşı müxalifət partiyası yaratmaq iddiaları sələndirir,digər tərəfdən, kimlərsə siyasətdən getdiyini bəyan edir?!.

Qədim Şərq əxlaqına görə, Qadın Liderə qarşı vuruşmaq heç vaxt kişilik kataqoriyası kimi qiymətləndirilməmişdir. Mənim 2004-2005-ci illərdə "Həftə içi" və "İslam" qəzetlərində "Sultan Səlahəddini yenmiş xatun: Xilat hakimi Atabəy Zübeydə Eldəniz" adlı bir məqaləm dərc edilmişdi. Bu məqalədə Misir Məmlük hökmdarı Səlahəddin Eyyubinin Azərbaycan atabəyi Cahan Şah Eldənizin vəfatından sonra Xilat (indiki Ermənistan) Zəngi Dövlətini Misirə qatmaq üçün hərbi yürüşünün baş tutmaması səbəbi əks etdirilmişdi. Sultan Səlahəddin eşidəndə ki, Xilat hakimi Ərmənşah Zübeydə Xatun Eldəniz ünlü Azərbaycan hökmdarı Atabəy Cahan Şah Eldənizin övladı olmaqdan əlavə, həmçinin Xaç yürüşlərinə qarşı vuruşmuş görkəmli İslam sərkərdəsi rəhmətlik Nurəddin Zənginin dul qadınıdır: dərhal geri dönmüşdü! Təəssüf edirəm ki, məqalənin dərcindən sonra nəinki

mənim özümü, hətta "Həftə içi" qəzetinin gənc məsul katibini də dərhal işindən azad etdilər. İşə Gömrük komitəsinin avtomobil nömrəsilə gəlib gedən xanımı Braziliya və Paris düşündürdüyü halda, "işsiz" qoyduğu əməkdaşların ailəsi əsla maraqlandırmadı...

Yazımı Azərbaycan qadınının tarixdə böyük roluna, aparıcı siyasi fəaliyyətinə işıq salmaq məqsədilə qələmə almışdım. Bununla xatırlatmaq istəyirəm ki, Mehriban Əliyevanın ölkədə siyasi Lider haqqına yiyələnməsi heç də asan qazanılmamışdır. Bu mənada, iqtidariçi bəzi irtica qüvvələri də Birinci Xanımın nüfuzuna qarşı gizli şəkildə illərlə kəskin mübarizə aparmışlar... Faktdan qaçmaq olmaz!

Əlbəttə, mən bu misalla "iqtidariçi" irticanın deyil, ölkədə ümumiyyətlə müxalifət mübarizəsinin dayandırılmasını təklif etmək fikrində deyiləm. Lakin qadın siyasətçi-yazar, bloger Sevil Osmanqızının Azərbaycanın yeni qadın Lideri Mehriban bəyim Əliyevanın Moskva səfərini dərhal qara xətlərlə təsvir etməsinə də haqq qazandırmıram…

Mənim kimi onun da bir bir jurnalist övladı olduğunu nəzərə alaraq, Sevil xanıma daxil olduğum camiə arasında böyük hörmətim vardır. Bizim hər ikimiz jurnalist ailəsində doğulub böyümüşük. Bəzilərinin düşündüyü ki, bu heç də asan həyat tərzi deyildir. Jurnalist ailəsi daim mənfur qüvvələrin hədəfində olur. Mən və ailəm bu iztirabı yaşamışıq... Sevil Osmanqızının öz vətənindən uzaq düşərək, hansısa Qərb dövləti ərazisindən Mehriban Əliyevaya qarşı tənqidi fikirlər səsləndirməsinin əsas səbəbini, əlbəttə, Azərbaycan mətbuatında indiyədək davam etdirilən əndərabadi fəaliyyətlərin nəticəsi hesab edirəm.İnamaq istərdim ki, bu "şete" axır-əvvəl ifşa olunacaqdır. Bax o zaman onların əsl simasızlığı üzə çıxacaqdır. Ümidvaram ki, bundan sonra görkəmli jurnalistimiz rəhmətlik Osman Mirzəyevin övladına qarşı kimsənin güc ritorikasından davranmağa cəsarəti çatmayacaq! Odur ki, Sevil xanımın hansı siyasi mövqedə durmasından asılı olmayaraq, indən belə Azərbaycana dönüşündə mən heç bir maneə görmürəm. Ölkəmizdə 1000-ə qədər jurnalistə mənzil paylanılmışdır. Onların əksəriyyətini yaxşı tanıyırm: bu əksəriyyət vaxtilə Ümummilli lider Heydər Əliyev əleyhinə gen-

bol yazılar yazmışlar. Əlbəttə, onların indi siyasi mövqe dəyişdirib, iqtidar jurnalisti olması yalnız gülüş doğura bilər.

2004-cü ilin aprel ayında (zənnimcə, 20-22 aprel tarixli saylardan birində olmalıdır) "Azad Azərbaycan" qəzetində "Milli informasiya məkanı və KİV" adlı bir məqaləm dərc edilmişdi. Azərbaycan mətbuatının Qərb (maarifçi) prinsiplərdən uzaqlaşıb, ABŞ-ın informasiya tipli biznes mətbuata çevrilməsini təklif etmişdim. Jurnalistik fəaliyyətin asanlaşdırılması üçün "Dövlət mətbuatı"nın dərhal ləğv edilməsi, Mətbuat komissarlığının yaradılması təklifini vermişdim. Əlbəttə, bu təklifə qarçı iqtidariçi qüvvələr ayın 23-24-ündə mənim taleyimi həll etdilər: Prezidentin Mətbuat xidmətində 10 illik işimdən azad edildim. Azərbaycan Prezidentinin bu günlərdə son Müşavirədə səsləndirdiyi bəzi vuzunömürlü əzifə sahiblərinin "hakimiyyət daxili" kompramat savaşının anonsunu 16 il bundan əvvəl mən həmin məqalədə vermişdim… Lakin gözlədiyimin tam əksi oldu: iqtidar və müxalifət qəzetləri hər iki cəbhədən mənə qarşı hücuma keçdilər. Mən o tənqidi təhqirləri indiyədək özümdə yadigar saxlayıram.

Vaxtilə ingilis Uinston Çörçill yazırdı ki, bir ölkədə hamının hər şeyi əla vəziyyətdə görməsi halı ağrılı-xəstə bir bədənin narkotik həzzinə bənzəyir. Tanrı ingilis xalqını belə bir bəladan daim uzaq eləsin!..

Mənim zənnimcə, müxalifətçi-bloger Sevil Osmanqızının öz Vətəninə dönüşünə ən çox maneəçilik edənlər hal-hazırda İqtidar komandasından xeyli mənzillər və "imtiyazlar" almış keçmiş anti-Əliyevçi həmin "müxalif jurnalist"lərdir. Sevil xanımın fikirləri üzərində ona görə belə çox durdum ki, Mehriban Əliyevanın Moskva səfərini ən ziyadə onun dilindən tənqid edilmiş gördüm. Və buna çox təəssüf etdim…

Avrasiyanın qadın Lideri olaraq, Mehriban bəyim Əliyevanın Rusiya Federasiyası dövləti və hökuməti tərəfindən yüksək qiymətləndirilməsi, məncə, çox təqdirəlayiq hadisədir.

Xüsusən, işğalçı Alman Faşizmi üzərində Böyük Qələbənin 75 İlliyi ərəfəsində Azərbaycan liderinin Rusiya dövlət baçısı tərəfindən "Dostluq" ordeni ilə təltif edilməsi bütün Avrasiya geoməkanı üçün böyük beynəlxalq əhəmiyyətə malikdir. Bunu etiraf etmək lazımdır.

Qonşu Fedarativ ölkəyə Azərbaycan Respublikasının I Vitse-Prezidentinin ilk müstəqil rəsmi Səfərinin bütün Rusiya dövlət və hökumət rəhbərləri tərəfindən yüksək səviyyədə qarşılanmasına yalnız xalqımıza düşmən qüvvələr qıcqanclıqla baxa bilərlər. Bu da birmənalıdır!

Bu gün Avropa məkanında qadın dövlət başçıları az deyil. Lakin onların idarə etdiyi cəmiyyət uzun illərin inkişaf yolunu keçmişdir. Azərbaycanın ilk qadın Lideri isə tarixin xalqımız üçün ən ağır dönəmində siyasi fəaliyyətə başlamışdır. Mehriban bəyim Əliyevanın Liderlik keyfiyyətləri barədə indiyədək çox yazılmışdır. Bunları təkrarlamağa lüzum görmürəm. Lakin bir xarakter xüsussiyyətini ayrıca qeyd etmək istərdim: Avrasiyanın bir siyasi qadın Lideri olaraq, Mehriban Əliyeva tarixə hərbcu cizgilərlə deyil, yalnız sülhpərvərli keyfiyyətləri ilə daxil olacaqdır. Bu həmçinin onun gələcəkdə Avrasiya məkanında Nobel Sülh mükafatına ən real namizəd olacağını ehtimal etməyə əsas verir. Mən əminəm ki, onun bu yüksək hümanizmi Azərbaycanın tarixi Qarabağ ərazisinin erməni vətəndaşları arasında da laqeyd qarşılanmayacaqdır!.. Çünki Sülh siyasəti xalqlarımızı Avrasiya Birliyinə aparan yeganə düzgün yoldur...

Möhtərəm Vitse-Prezident çoxmillətli Rusuya Federasiyasına bu ilk müstəqil rəsmi Səfəri çərçivəsində ölkəmizin güc strukturlarının rəhbərlərini deyil, özü ilə məhz yeni iqtisadi və mədəni hakimiyyət eşelonunu aparmışdı. Əlbəttə, bunun da özünəməxsus simvolik mənası vardı...





Birinci Vitse-Prezidentin Rusiya səfərinin daha bir əlamətdar cəhəti isə istər iqtisadi-siyasi, istər mədəniyyət və elm, istərsə də idman sahəsində mövcud əməkdaşlığın daha keyfiyyətli yeni mərhələyə keçməsi üçün mühüm zəmin yaratmasıdır. Təsadüfi deyil ki, onun Rusiya-Azərbaycan Regionlararası Forumun Plenar iclasında tərəfmüqabili Federal məclisin Federasiya Şurasının sədri xanım

Valentina Matveyenko oldu. Sədrin ona aşağıdakı müraciəti Rusiya–Azərbaycan dostluq siyasətinin uğurlu gedişatından əyani xəbər verir: “Möhtərəm Mehriban Arif qızı!.. Mən Sizi Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində, əfsanəvi “Kosmos” pavilyonunda X yubiley Rusiya-Azərbaycan Regionlararası Forumunda salamlamağa ürəkdən şadam”. Bu, adi təmtəraq ritorikası deyil, real uğurlu fəaliyyət üçün deyilmiş ifadələrdir.

Bu kiçik xitabat detalının özü müasir Avropa qadın Prezidentləri arasında Mehriban Əliyevanın beynəlxalq nüfuzuna görə necə böyük yer tutduğunu əyani əks etdirir.

Mehriban bəyim Əlyevanın Rusiya səfərinin dünyanın bir çox aparıcı informasiya vasitələri tərəfindən geniş işıqlandırması Moskva səfərinin böyük perspektivlərə hesablanmış addım olduğunun daha bir əyani təsdiqidir. Əlbəttə, hər bir azərbaycanlı üçün bu hal milli qürur mənbəyi sayılmalıdır. Azərbaycan tarixində qadın liderlər az deyil. Görkəmli pedaqoq-jurnalist Nəsir İmanquliyevin tələbəsi olmuş atam Rəşid Fərəcovun ADU-da tələbə Diplom işi “Azərbaycan qadınının mübariz həyat yolu” mövzusu olub. Hələ orta məktəb illərində mən bu əsəri dəfələrlə oxumuşam. Gəldiyim qəti qənaət belə olmuşdur ki, dahi Cavidimiz demişkən: “Bəşəriyyət qadınla yüksələcəkdir!..” Moskva səfəri göstərdi ki, Mehriban Əliyevanın yeni Liderlik amili kimi meydana çıxan parlaq siması Azərbaycan qadınının həm siyasi, həm də hümanist keyfiyyətlərinin bütün dünyaya nümayiş etdirilməsi yolunda yeni tarixi səhifədir. Fikrimi qardaş Türkiyə Cümhuriyyətinin Bahçaşəhr Universitetinin magistri olmuş böyük övladım Aynur Atabəylinin “Ne mutluyam türküm diyene” devizli MHP-nin “Orta Doğu” qəzetinin 2011-ci il 4 mart tarixli sayında Mehriban Əliyevanın 8 Mart Beynəlxalq Qadınlar Günü üçün bayram təbriki olaraq dərc etdirdiyi “Bir şiir Mehriban Hanım için” sərlövhəli təbrik-şeirindəki son bəndlə bitirirəm:

**Ne kadar “Rast” denir, “Şur” haray salır,**
**Zeferdir coşduran Vatanın kanın.**
**Ne kadar “Mehriban” ünvanı kalır:**
**Yaşayır umudu Azərbaycanın!.**

**AtaTv.az**

http://atatv.az › gundem › 9269-smd-vurun-dhas-avrasi...

Səməd Vurğun dühası: Avrasiyaçılıq kontekstində - Atatv.az

4 iyl 2019 — **Səməd Vurğun** dühası: Avrasiyaçılıq kontekstindəb/b **Namiq Atabəyli** (yazıçı-publisist) 2019-cu il ölkəmizin Prezidenti İlham Əliyev tərəfindən ...




4 iyul 2019. 20:56



**Namiq Atabəyli (Avrasiyayönümlü yazıçı-publisist)**

# Səməd Vurğun dühası Avrasiyaçılıq kontekstində…



*2019-cu il ölkəmizin Prezidenti İlham Əliyev tərəfindən Nəsimi İli elan olunmuşdur. Şirvan Azərbaycanımızın bəşəriyyətə bəxş etdiyi dahi oğullardan biri kimi Şeyx İmadəddin Nəsimi (1369-1404) poeziyası başdan-başa şər qüvvələrə qarşı mübarizə ideyası ilə zəngindir. Nəsimi də istilaçı Teymur ordularına qarşı aparılan mübarizədə bir yalnız öz xalqının deyil, bütün Şərqin ümumi azadlıq savaşının bir üzvü idi.*

Dahi sənətkarımız Səməd Vurğun əleyhinə gedən vulqar-sosioloji təhqirlərə qarşı ədəbi tənqidin büdcədən maliyələşən nümayəndələrinin son dövrlər ağzına su alıb susduğu tarixi şəraitdə mən öz etiraz səsimi gizlətməyi mümkün saymadım. Bir

Avrasiyaçı-yazar olaraq, mövqe bildirməyi qərara aldım. Əlbəttə, Comoluqmanın (Everestin) ucalığını kimə isə xüsusi sübut etməyin həmin ZİRVƏ üçün heç bir əhəmiyyəti yoxdur. XX əsr milli ədəbiyyatımızın korifeyi olaraq, Səməd Vurğun ucalığı da bu gün hər cür təhqirdən və tərifdən yuxarı durur, durub və duracaqdır!..

Bəxtiyar Vahabzadə "Səməd Vurğun" adlı kitabında rus tənqidçisi V.Oqnevin dilindən ölməz sənətkarımızın belə bir fikrini təkrarlayır: "Səməd Vurğun belə bir fikri təkrar etməyi sevirdi ki, qüvvətli adamın zəif cəhətləri də gərək onun gücünü göstərsin. Otellonun hər şeyə inanması onun böyük ürəyinin təmizliyindən doğur. Böyük şəxsiyyətlər olan Vurğun da, Dovjenko da qüvvətli hisslərin arzusunda idilər, çünki onlar böyük ideyalara inanırdılar. Geniş ürəklə yaşayırdılar… Onların bu aludəçiliyində bir nəciblik vardı, çünki onların məqsədləri alicənab və ümumbəşəri idi."

Səməd Vurğun bütün Avrasiya xalqlarının azad kontinental taleyinə qanına və iliyinə qədər bağlı olan dahi şəxsiyyət idi. Onun mənəvi qüdrətini yalnız bu gün Azərbaycan respublikaçılığı ilə məhdudlaşdırıb, "Azərbaycan" şeiri, poemaları və dramları, fəlsəfi iris ilə bağlamaq çox gülünc hərəkət olardı. Elə çağdaş anti-Səməd Vurğunçu güruhun da əl atdığı əsas vasitə budur. Lakin Vurğun şəxsiyyəti qlobal əzəməti ilə onun əleyhinə qalxanların solğun simalarını cılız vəziyyətə salmaqda davam edir...

Səməd Vurğun sona kimi azərbaycanlı olduğu qədər də, həmçinin bir mükəmməl Avrasiyaçı münəvvər olmuşdur. Onun Rusiya xalqları, Moskva haqqında yazdığı şeirləri heç də amerikalı "Zəncinin arzuları" qədər az əhəmiyyət daşımır. 1991-ci ildə mənim şöbə müdiri olduğum "İlham" qəzetinin redaksiyasına göndərdiyi bir səhifəlik təbrik məktubunda 100 hərf səhvi buraxmış Biri-nin ədəbiyyatşünaslığımıza "Azərbaycan ədəbiyyatı tarixi" adlı "fundamental" cildlər ərməğan etməsi indiki vəziyyətdə başa düşüləndir. Amma içərisində elmi nöqteyi-nəzərdən heç nə olmasa da, belə 1000 səhifəliklərin "müəlliflərinin" Səməd Vurğun əleyhdarlarına Ədəbiyyat postundan heç bir cavab verməməsi başa düşülən deyil.

Azərbaycanın son ikiyüz illik kəşməkeşli taleyi onun Avrasiya ilə nə qədər sıx ilahi bağlılığını açıq-aşkar sərgiləyir. Qəti əminliklə bəyan edirəm ki, çağdaş anti-Səməd Vurğunçuluq anti-Avrasiyaçılığın əsl üzüdür. Bu, bir ideoloji müharibədir və cavabı verilməlidir.

Sovet dövrü ədəbi dahilərimiz əleyhinə yönəldilmiş iftira hərəkatının mənbəyi eynidir: birincisi, coğrafi yerlibazlıq, siyasi proteksionizm və total danabaşlıq. İkincisi, ədəbiyyatşünaslıq mövzuları altında gizlədilmiş anti-Avrasiyaçı ideoloji cəbhələşmə.

Rus xalqının dahi oğlu Puşkinin ölməz "Yevgeni Onegin" poemasını "Vaqifin şirin dilinə" çevirən Səməd Vurğunun müdafiəsi haqqında söz demək üçün əvvəla müəyyən "mənəvi səlahiyyətə" malik olmaq gərəkir. Amma bütün səmimiyyətimlə etiraf edirəm ki, mənim ADU-da müvəffəqiyyətli filoloji təhsilim və 30 illik bədi yaradıçılığım belə bir səlahiyyəti mənə vermir… Amma gələcək susanların deyil, danışanların haqqını tanıyır…

Bakı şəhərinin 1428-ci ildə ikinci dəfə Şirvan Azərbaycanımızın paytaxtı olaraq yenidən siyasi mərkəzə çevrilməsi kimi mühüm tarixi hadisəni 1944-cü ildə İkinci Cahan savaşının ən həlledici bir mərhələsində nəzərdən qaçırmamaq üçün anadan yalnız Səməd Vurğun doğulmaq lazım idi. "Bakının dastanı" poemasında Vurğun bugünümüzədək sürüb gələn 500 illik antişirvan güruhuna qarşı təkbaşına gedərək, Şirvanşahların tarixi qiymətini geri qaytarmaq cəsarətini göstərdi. Xalqımızın əbədi mənəviyyat qalası sayılan Bakımızın tarixi simasını poemada parlaq boyalarla canlandıran Səməd Vurğun böyük fəxarətlə yazırdı:

Beş yüz illik bu Sarayın ömrü vardır:
Yaratmışdır Şirvan şahı Xəlilullah.
Yazılardan gözə çarpır "BİSMİLLAH",
O zər yazı bir rəssamdan yadigardır.

…Bakı adlı dünya görmüş bir limanda
O hökmdar qurdu Şirvan paytaxtını.
Qəsbkarlar axışdığı bir zamanda
Dönə-dönə o sınadı öz baxtını…

Bəli, o qəsbkarlardan biri də İran şahı Ağaməhəmməd Qacar olmuşdur. Səfəvilərin 1538-ci ildə siyasi varlığına son qoyduğu Şirvan Azərbaycanının tarixi əraziləri üzərinə ənənəvi yürüşlərinə heç bir zaman ara verməmiş qəsbkarlar əleyhinə dahi Səməd Vurğunumuzun sərgilədiyi açıq vətənpərvərlik mövqeyi onun bu günkü provinsiallıqdan çox-çox uzaq BAKILI qutsal mənəvi simasını təşkil edir.

Şirvanşahlar ölkəsinin tarixi parçası olan və ta qədimlərdə daha çox Arran kimi tanınmış Qarabağın öz əzəli gücündən qoparılıb, zəif salınması siyasəti Ərəb xilafətindən tutmuş, Şəddadilər, Sacilər, Rəvvadilər, daha sonra Monqol-tatarlar və Teymuri qəsbkarların ümumi dəsti-xətti olmuşdur. Odur ki, qədim Qafqaz ölkəsi olan Şirvan torpaqlarına yeni yürüş etmiş Qacarın vəhşi-qəsbkar xislətini yəğmaçının öz dili ilə ifşa edən Vurğun "Vaqif" pyesinin Dördüncü pərdə Səkkizinci şəkilində yazırdı:

Keçdi pəncəmizə gözəl Qarabağ,
Öpsün qılıncımı hər qaya, hər dağ.
Mən Qacar nəsliyəm, şahlar şahıyam,
Mən də Yer üzünün bir Allahıyam.

Gərək biz qoymayaq daşı daş üstə,
Atın yığın-yığın leşi baş üstə!
Mənim vicdanım da, qəlbim də qandır,
Dünya qan üstündə bir xanimandır!..

Gəlin onu da unutmayaq ki, tarixi Qarabağ ərazisindəki erməni məlikləri (-indi onlara nə qədər alban adı verilsə də) yalnız Şirvanşahlar dövlətinin 1538-ci ildəki süqutundan sonra ortaya çıxarılmışlar. Bu gün o "alban" adlı kilsə əhli erməni xalqının ayrılmaz tərkib hissəsidir… Və Azərbaycanın cümhuriyyət coğrafiyasına qarşı ərazi iddeaları irəli sürür. Şirvanşahlığın süqutundan ötən 210 il ərzində qədim Qafqazın "Şir tinətlilər ölkəsində" (-İbrahim Əli oğlu Xaqani Şirvani) ağalıq edərək, bir-birini əvəzləmiş Səfəvi-Əfşar-Qacar iran sülalələrinin xalqımızın taleyində heç bir şanlı səhifəsi yoxdur. Heç şübhəsiz ki, Səməd Vurğun da ölməz "Vaqif" pyesində onların Qafqaz ölkəmizdəki bədnam fəaliyyətlərini özündən uydurub yaza bilməzdi...

Səməd Vurğun şəxsiyyəti ədəbiyyatımızda yalnız Məhəmməd

Füzuli ilə müqayisə ediləcək mənəvi zirvədir. Ölməz şair mənim üçün Universitet müəllimlərim olmuş Mir Cəlal və Bəxtiyar Vahabzadə qədər dəyərli tarixi simadır. İndiyə qədər yazıb nəşr etdirdiyim dörd poemamda ən çox təsirləndiyim sənətkar da məhz Səməd Vurğundur. Xüsusilə, əsası dahi pedaqoq-şairimiz Seyid Əzim Şirvani tərəfindən qoyulmuş ilk milli-anadilli yeni məktəbimizin yaranmasının bu il (1869-2019) tamamlanmış olan 150 İlliyi münasibətilə 2016-cı ildə "Elm və təhsil" nəşriyyatında nəşr etdiyim "Müəllim" pedaqoji poemamın bütün mürəkkəb poetik arxitektonikası Vurğun sənətkarlığının üzərində qurulmuşdur. Mənim fikrimcə, Səməd Vurğunu ən azı Bəxtiyar Vahabzadə və Mir Cəlal qədər özümün Universitet müəllimim hesab etməyə hər cür haqqım çatır. Sözügedən poemaamda deyildiyi kimi:

Tarixə qılınclar, qalxanlar deyil,
Elm, mədəniyyət yol açacaqdır.
Bizi istilalar, tiranlar deyil,
Məktəblər, qələmlər yaşadacaqdır.

Bir sərgi deyildir məktəbin işi,
Zəhmətdir, rəncidir, alın təridir.
Elmlə fırlanır göyün gərdişi,
Məktəb kainatın tək məhvəridir.

Elm ilahinin nurudur! Sanma
Biriylə başlayıb, biriylə bitdi.
Bəşər yaranandan bəri daima
Məktəb sona çatmaz bir estafetdir…

Səməd Vurğunun hər iki oğulu dünyasını dəyişəndən sonra başladılmış mütəşəkkil anti-Səməd Vurğun təbliğatların arxa sırasında durmuş gizli "sima"ların özləri də artıq bu günlərdə üzə çıxmağa başlamışlar. Əlbəttə, onların unutduğu bir şey var: Səməd Vurğun məktəbi məhz öz parlaq tarixi missiyası ilə "sona çatmaz bir estafetdir." Onu varissiz saymaq ən azı axmaqlıqdır. Dahi şair "Rus şeirinin günəşi" məqaləsində Puşkinin özündən sitat gətirərək yazırdı:

-Yayılıb səsim tutar bu böyük Rusiyəni,
Hər tayfa öz dilində oxuyar məni.
(S.Vuğun. Seç. əsərləri, 5 cilddə, V cild,
Bakı-2013, Şərq-Qərb, səh.: 189).

Bəxtiyar Vahabzadə "Səməd Vurğun" kitabının Beşinci fəslini "İnqilabi-romantik poeziya" adlandırıb. Çox doğru qiymətləndirmədir. Amma bu inqilabilik xarakteri ilə o eyni zamanda milli ənənəyə, milli klassikaya ən çox baağlı olan şairimizdir. Vurğunun məqalələrindən biri elə belə də adlanır: " Mən öz yaradıcılığmı ölənə qədər Füzulinin, Vaqifin üzərində aparacağam". (Göst. cild, səh.: 72-74).

Bir şair ömrünün cəmi 50 yaşda tamamlanması daha çox, əlbəttə, təbiətin və cəmiyyətin günahıdır. Səməd Vurğunun qısa ömrü onun ölməzliyinə mane ola bilmədi. Odur ki, bu gün Səməd Vurğun əleyhdarları olan tənqidçi-baytarlar, akademik-mirzələr və i…-lər bir şeyi unutmasınlar ki, indi zəncilərdən tutmuş mədəni Avropaya qədər Səməd Vurğunu hər millət öz dilində oxuyur… Və oxuyacaqdır!

Dahi Məhəmməd Füzuli Bağdadda xilafətin baş qazisi Seyid Məhəmmədə yazıb göndərdiyi məşhur "Mənzumeyi-həsbihal" (Mən kiməm) qəsidəsində özünün çağdaş dövri-dunun sosial sürüsü içərisindəki qiymətinə belə məna vermişdi:

Mən kiməm?- Bir fəqiri-bisərü pa,
Kəmtərin bəndəvü kəminə gəda.
Sayiri-kargahi-səbrü sükun,
Saliki-şahrahi-fəqrü fəna…

Füzuli İslam dövlətinin İkinci adamına fikrinin davamı olaraq, açıq dillə söyləyirdi ki,

"Olmuşam eylə məhv kim, məsəla:
Mərkəzi-xaki etsə zirü zəbər,
Bulamaz gərdimi nəsimi-səba."

Məncə, iki "şanlı türk hökmdarının" (Sultan Səlim və Şah İsmayılın) padşahlığı altında olan bir coğrafiyada ölməz sənətkarımızın bu acı tarixi Həsbi-halı dövrümüzün bir çox qəliz suallarının da cavabıdır. Əlbəttə, dahi Səmədin yüksək sənətkarlıq qiymətini yalnız qədirbilən xalqımız deyil, eyni zamanda onun ən kəşməkeşli tarixi dövründə "hökmdarı" olmuş Mircəfər Bağırov

da vermişdir. M.C.Bağırovun bu böyük tarixi xidmətini unutmağa haqqımız yoxdur. İstər Musavat Azərbaycanının rəsmi-dövlət qəzetinin Baş redaktoru olmuş ölməz bəstəkarımız Üzeyir Hacıbəyovun, istərsə də digər yaradıcı ziyalılarımızın müəyyən qisminin siyasi repressiyalardan qorunub saxlanılmasında ən



yüksək tarixi rol məhz **Mircəfər Bağırov**a məxsusdur. Bu gün Çingizxanların, Əmir Teymurların, Səfəvilərin və Osmanlının tərifində dil yoranların ölməz Füzulinin Qəsidələrini də oxuması lazımdır: çünki bunsuz Səməd Vurğun dühasının qədr və qiymətini bilmək imkansızdır:

*Bir diyar içindəyəm ki, xəlqindən,*
*Eyləməz heç kim mənə pərva*
*Kimsə yox dərdim söyləyim izhar,*
*Eyləyim ondan iltimasi-dəva.*
*Ləlvəş daş içindədir vətənim,*
*Gül kimi xarı qılmışam məva.*

Sovet hakimiyyəti dönəmində Səməd Vurğunun bir yaradıcı ziyali və alim kimi, siyasi və ictimai xadim kimi əldə etdiyi nailiyyətlər müqayisə edilməzdir: Azərbaycanın ilk xalq şairi (1956), Azərbaycan SSR əməkdar incəsənət xadimi (1943), iki dəfə Stalin mükafatı laureate (1941, 1942), iki dəfə Lenin Ordeni kavaleri, Azərbaycan Yazıçılar İttifaqının sədri (1941-1948), Azərbaycan SSR Ali Sovetinin deputatı, Azərbaycan Xarici Ölkələrlə Mədəni əlaqə Cəmiyyətinin sədri, Azərbaycan SSR EA-nın akademiki (1945) və vitse-prezidenti (1954-1956)…

Heç şübhəsiz ki, cəmi 50 illik ömür üçün bunlar az uğur deyil. Odur ki, Bakı şəhərinin mərkəzini 1960-cı ildən bəri məhz dahi sənətkarımızın heykəli bəzəyir.

AMEA-nın prezidenti Ramiz Mehdiyevin başçılığı altında son illər dahi şairimiz Səməd Vurğuna qarşı aparılan aşağılama kampaniyası, əlbəttə, ləyaqətsizlikdir. Mehdiyevin Səməd Vurğunu “Vaqif” dramında işğalçı Ağaməhəmməd Qacarı mənfi surətdə təqdiminə görə kəskin tənqid etməsi hiddət doğurmaya

bilməz. Bu onun şəxsən özünün və ətrafının tarixi savadsızlığının və ədəbiyyata vulqar baxışlarının əyani təsdiqidir.

2015-ci il Avropa Oyunları qabağı paytaxtı yanğınlar törədən bina üzlükləri ilə bəzəmişdilər. Bir müddət Bakı şəhəri yanğınlara bürünmüşdü. Bu üzlüklərin istehsalçısı Ramiz Mehdiyevin kürəkəni İlham Əlisəftər oğlu idi. Azərbaycan Milli Məclisinin IV və V çağırış üzvü olmuş bu "ictimai-siyasi xadim"in xalqımıza verdiyi "töhfələri" saymaqla bitmir... O da "məsul sahələrdə" daim öz qaynatası kimi hərəkətlər eləmişdir.

Sənətkara verilmiş qiymət ideoloji aspektdən deyil, ədəbi-estetik mövqedən olmalıdır. Ramiz Mehdiyevin Səməd Vurğuna və Molla Pənah Vaqifə qarşı mövqeyində sırf yerlibazlıq və regionçuluq qərəzi açıq-aşkar göz qabağındadır. O, bir güllə ilə həm Molla Pənah Vaqifi, həm də Səməd Vurğunu "məhv etmək" istəmişdir. Bu günəcən Mir Cəfər Bağırovun tikdirdiyi və yaratdığı Akademiyada oturmuş Ramiz Mehdiyevin Respublikamızda çoxlarını "məhkəmə" salonlarına göndərdiyi bəllidir, amma 90-cı illərdən onu "müxalifət KİV-i" səhifələrində "Boz kardinal" ilə titullaşdıranların heç birinə qarşı iddia qaldırmamışdır?!. "Boz kardinallar" yalnız Oyuncaq kraliyyət Saraylarında mövcud olmuşlar. Məsələ aydındır...



Yazımızın əvvəlində dahi şairimizin kommunist ideyalarına "alicənab" səmimi inamı ilə bağlı V.Oqnevin fikirlərini sitat gətirmişdik. Əlbəttə, Vurğunun romantik-inqilabi poeziyasından kommunizm ideoloji rənglərini yox etmək, şairin misralarını "retuşlamaq" niyyətimiz yoxdur. Buna heç ehtiyac da görmürəm. Çünki S.Vurğun bu ideyalara səmimiyyətilə inamışdır. Məncə, açıq etiraf etməyin zamanıdır ki, bu ideyaya elə bizim də əksəriyyətimiz uzun illər beyət etmişik. Mənim "kommunist biletim" olmasa da, komsomol biletim vardı. Şairin "Komsomol poeması" ən çox sevdiyim əsər idi. Amma bu gün həmin qırmızı biletləri ayaqlar altına ataraq, əcdadlarından "xan" və "şah" düzəldənlərin arasında yer almadığım üçün özümü daha xoşbəxt sayıram. Çünki "Atabəyli" ləqəbim mənim gerçək "atabəylikdən"

gələn tayfa mənşəyimdir. Bu fakt Q.Qeybullayevin 1994-cü ildə nəşr edilmiş “Azərbaycan toponimləri lüğəti“ kitabının “Atabəyli” şərhində Sığırlı kəndinin Atabəyli məhəlləsi şəklində verilmişdir. Mən əcdadlarımdan imtina edə bilmərəm. Çox əlamətdar haldır ki, dahi Səməd Vurğunumuzun da nəsil mənşəyi məhz bir Bəy ailəsinə bağlı olmuşdur. Məhz bu “bəylik” şəcərəsi deməyə əsas verir ki, Monqol titulu sayılan “xan” titulundan fərqli olaraq, Vurğunun nəsil şəcərəsi onu Qıpçaq türklüyünə bağlayır. Məhz qədim bir Qıpçaq ərazisi olaraq tanınan Borçalı və Şəmsəddin mahalları Vurğun poeziyasının bədii mayasını təşkil edir. Bəxtiyar Vahabzadə şairin ana təbiətə bu tarixi bağlılığının genezisinin araşdırarkən maraqlı açıqlamalar vermişdir: “Şair təbiətə müstəqim mənada sadəcə daş-torpaq, ağac, qaya, dağ kimi baxmır, onda “insan kamalını”, “insan əməllərinin təcəssümünü”, “çırpınan ürəklərin həyəcanlarını” axtarır”. Tamamilə doğru fikirdir.

Bununla belə, şairin haqlı bir əndişəsi də var:

Kür qırağı… Qarayazı… Göy çəmən…
Qoşa palıd, tüstülənən od-ocaq,
Saç ağarıb, unutmadım sizi mən.
Hansı şair sizi bir də yazacaq?..

Bu gün anti-Səməd Vurğun cəbhəsi yaradanların cəhdləri Sovet hakimiyyətinin ilk illərindəki anti-Füzuli, anti-Nizami cəbhəçilərin ambissiyalarını xatırladır. Anti-Füzulilər dahi sənətkarımızı Saray-feodal ideologiyasının nümayəndəsi hesab edirdilər, anti-Səməd Vurğunçular isə onu “kommunizmin mübəlliği” sayırlar. Füzulinin şeir sənətkarlığı dövrün ən populyar vəznində- Əruzda olduğundan ədəbiyyat diletantlarımız klassik şeir texnologiyasını “feodalizm ünsürü” adlandırıb, “daloy Füzuli” bağırırdılar, Vurğun poeziyasındakı inqilabi-romantikanı da onun oppozisyonerləri kommunizm ideologiyası sayaraq, əleyhinə qalxmışlar. Bu, əlbəttə, çox acınacaqlı bir haldır. Bir zamanlar Füzulinin, Nizaminin Allah, peyğəmavərlər və şahlar üçün yazdığı tərənnümləri rədd edib, irsindən çıxaranlar, indi də Vurğunun kitablarının təftişinə girib, onu inqilabi-romantikadan məhrum etməyə üz qoymuşlar. Nə üçün?!

Başa düşmək lazımdır ki, Səməd Vurğunun faşizm üzərində bəşəriyyətin 9 May (1945-ci il) qələbəsinə həmin gün yazdığı "Zəfər bayramı" şeiri millətimizin millətlər içərisində görünən ən Böyük imzasıdır. Qarşıdan həmin tarixi zəfərin 75-ci İldönümü gəlir. Bu Qələbənin naminə mənim də babalarımdan biri antifaşist cəbhədə çox gənc yaşında həlak olmuşdur. Anam atasız böyümüşdür. Böyük Avrasiyamızın azadlığı yolunda şəhid olmuş babalarımızın tarixi qəhrəmanlığına dahi Səməd Vurğunumuzun aşağıdakı qızıl beytlərindən yüksək qiyməti kim verə bilər?!

Yazılsın tarixə bir qızıl xətlə
45-ci ilin Doqquz May Günü.
Başlansın şeirlə, sazla, söhbətlə
Bu ellər bayramı, ellər düyünü.

Mən də haqq eşqinə, İnsan eşqinə
Günəşi qaldırdım piyalə kimi.
Şəhidlər ömrünün saf türbəsinə
Şeirim ətir saçır bir lalə kimi…

…Gül, ey nazlı Vətən!- Odlar torpağı!
Duz-çörək hazırla qəhrəmanlara.
Böyük bir ordunun zəfər bayrağı
Günəş tək yayılır asimanlara.

2019-cu il ölkəmizin Prezidenti İlham Əliyev tərəfindən Nəsimi İli elan olunmuşdur. Şirvan Azərbaycanımızın bəşəriyyətə bəxş etdiyi dahi oğullardan biri kimi Şeyx İmadəddin Nəsimi (1369-1404) poeziyası başdan-başa şər qüvvələrə qarşı mübarizə ideyası ilə zəngindir. Nəsimi də istilaçı Teymur ordularına qarşı aparılan mübarizədə bir yalnız öz xalqının deyil, bütün Şərqin ümumi azadlıq savaşının bir üzvü idi. Bu poeziya ilk növbədə vahid bölünməz Avrasiya birliyi ideyasının təməl daşlarından olmuşdur. Və olaraq qalır! Böyük Nəsimi bütün mütərəqqi insanlığı Yaxşılığı əldə Bayraq tutaraq ümumi Şərə qarşı mübarizədən bir addım belə geri çəkilməməyə səsləyirdi. Ümumbəşəri əqidəsi və azadlıq ideyası yolunda həyatını qurban vermiş bu dahi şirvanlının mənəvi siması onu 1945-ci ildə Faşizm

üzərində qələbə çalmış babalarımızın 9 Mayını qutlayan dahi Səməd Vurğunumuzla doğmalaşdırır, eyni nəsil bağında birləşdirir və əbədiləşdirir…

Nəhayət, bədii ədəbiyyatımızda gələcək Vahid Avrasiya birliyimizin son azadlıq ruporu olmuş Səməd Vurğuna qarşı cihad edən qaragüruhlara cavab kimi, Şeyx Nəsimi İlimizlə əlaqədar olaraq, sözümü dahi şirvanlı eloğlumuzun Fars Divanından (-“Sirlər dəryası” ndan) aşağıdakı beş beytlə bitirirəm.

Əzəl gündən Allah birdir, bir olaraq qalacaq da,
İnsan ruhu- Haqqın nuru, insan ağlı bir Peyğəmbər.

Zər eşqilə Allah eşqi sığışmaz bir saf ürəyə
Heç bir ölkə abad olmaz, iki şahı olsa əgər.

Bir mədəndən çıxarırlar poladı də, dəmiri də,
Biri safdır ayna kimi, digərindən nal düzələr.

Arif işin dürüst tutar, nadan daim eyb axtarar,
Nöqsan gəzməz pak könüldə əsli gövhər ər oğlu ər.

İnsan özün dərk edərsə, dərk eləyər Allahı da:
Əməlində, imanında YAXŞILIĞI tutar rəhbər!..

**AtaTv.az**

NYUS.AZ
İNTERNET PORTALI




Axtar... axtar
Saytın əvvəlki xəbərləri

7-05-2019, 23:37. 653 dəfə oxunub.

http://atatv.az › gundem › 8251-heydr-liyev-avrasiyann...

Heydər Əliyev: Avrasiyanın son mogikanı kimi » Atatv.az

**Namiq Atabəyli** (Yazıçı-publisist. 1994-2004-cü illərdə Ulu Öndərin Mətbuat xidmətində böyük məsləhətçi olmuşdur.) Hələ 1990-cı ilin iyununda "Azərbaycan ...

7 may 2019. 21;23




**Namiq Atabəyli**
**(Yazıçı-publisist. 1994-2004-cü illərdə Ulu Öndərin Mətbuat Katibliyi xidmətində 10 il böyük məsləhətçi vəzifəsində çalışmışdır.)**

## ***Heydər Əliyev: Avrasiyanın son mogikanı kimi***

Hələ 1990-cı ilin iyununda "Azərbaycan müəllimi" qəzeti (20.VI. № 46/ 6982) üçün yazıçı Əkrəm Əylisli ilə "İnsan olduğumuz yerdən..." adlı bir müsahibə hazırlamışdım. Burada antiəliyevçi kampaniya aparanlara qarşı öz fikirlərimi səsləndirmişdim. Onda Əkrəm ilə fikirlərimiz üst-üstə düşürdü: bizim ümumi fikrimizcə, Azərbaycan KP MK-nın keçmiş birinci katibi, Sov.İKP Siyasi Bürosunun keçmiş üzvü kimi Heydər Əlirza oğlu totalitar rejimin mürtəce tarixi xarakterindən irəli gəlmiş siyasi fəsadlara görə birbaşa məsuliyyət daşıya bilməzdi. Çünki kommunizmin ideoloji-fəlsəfi əsasları onun tərəfindən hazırlanmamışdı. Bizə görə, böyük bir ölkədə baş vermiş müxtəlif repressiyalara, kütləvi həbslərə və siyasi diskrimassiyalara görə marksizm-leninizm baniləri sorumlu sayılmalı idilər... Durğunluq dövrü, Beşilliklər və s. mövzular ətrafında yaradılmış sünii ajiotajlar Kommunist-totalitar sistemə haqq qazandırmaq üçün qurulmuş ssenarilərdi. Odur ki, Heydər Əliyevin də keçmiş kommunist fəaliyyətinə tarixi yanaşma üçün tamamilə yeni elmi-

metodoloji baxış tələb olunurdu. Lakin istər respublika daxilində, istərsə də Ümumittifaq miqyasında antiəliyevçi kampaniyaları aparanların belə bir məqsədləri yox idi...

Mənim bildiyim qədəri 2010-cu ildən yazıçı Əkrəm Əylisli Heydər Əliyevə münasibətdə əvvəlki mövqeyini tamamilə dəyişmişdir. Əlbəttə, bu onun öz işidir. Mən kimsədən hər hansı əqidəyə xidmət etməyi tələb edə bilmərəm. Əgər belə bir haqqım olsa idi, ilk öncə 90-cı illərdə "müxalifət qəzetlərini" tirajdan kənar sayda rayonlara göndərib, əhalidə antiəliyevçi siyasi ruhiyə yaratmağa çalışmış indiki psevdo-əliyevçi "Milli jurnalistika bosslarına" üzümü tutardım. İndi "Mövqe" sərgiləyənlər, sual doğur, həmin çətin tarixi dövrlərdə nə üçün ağızlarına su alıb susmuşdular?!




Əkrəm Əylislini bu gün çox gözəl başa düşürəm: Yevgeni Zamyatinin "Biz" (1920), Oldos Xakslinin "Bu yeni vəhşi dünya"(1932) və Corc Oruellin "1984" fantastik romanlarındakı total siyasi əxlaqsızlıqların dahiyanə təsvirlərini, mən əminəm ki, yazıçı Əkrəm Əylisli məndən daha əvvəl oxuyub qiymətləndirmişdi... Amma hər halda bununla belə Əkrəmin "Daş yuxular" və "Böyük tıxac" tipli romanlarını təqdir etmirəm. Azərbaycan siyasi gerçəkliyində "siyasi mollanümalıq" mərəzi yalnız XX-XXI əsrlərin bəlası deyil. Hələ Şah İsmayılın başına yığılıb, Şirvanı talamağa gəlmiş Qarın ordalarını bu gün digər cinsdən hesab etmək, əlbəttə, çox yanlış olardı. Səfəvi işğalçıların 1501-ci ildə şirvanlı bir qadından şəhər hakimi Qazıbəyin cəsur xanımı Bikə bəyimdən aldıqları Bakıda "13 yaşlı" QALİB cocuğa Milli istiqlalımızın ilk illərindən əzəmətli heykəl qoyulmuşdur. Bu ideyanın ilk təşəbbüsçüsü isə bəzilərinin hələ də "milli lider" hesab etdikləri Əbülfəz Əliyev (Elçibəy) olmuşdu. Mollanüma tarixçilər qızılbaş İsmayıl Səfəvinin bu "qəhrəmanlığı"nı cilid-cilid kitablara çevirmişlər. Bu "əsərlərə görə" müxtəlif Dövlət

mükafatları almışlar. Əkrəm Əylislini "Qərbi Azərbaycanlıları" "yeraz" təhqirinənə görə AYB-dən çıxaran "qüvvələr" nədənsə eyni hərəkəti Şirvanlıları, Şirvanşahları təhqirinə görə Yunus Oğuza qarşı göstərməmişlər:


Daşkənddə Nizami Cəfərov və Yunus Oğuzla görüş keçililib » Miq.AZ ...
miq.az › daskendde-nizami-ceferov-ve-y...
27 февр. 2014 г. · Yunus Oğuz Daşkənddə özbək dilində çap edilmiş "Əmir Teymur" romanının yaxşı ... silahı 10.10.2017 17:35 · " ŞİRVANŞAHLAR TARİXİMİZİN UTANC YERİDİR...

**"Şirvanşahlar tariximizin utanc yeridir..." ifadəsi** yalnız oturaq Şirvan mədəniyyətinin, klassik poeziyanın təhqiri deyildir, eyni zamanda "Şirvani" künyəsini daşımış X-XII əsrlərdə Bağdad və Şam universitetlərində 10 minlik Şirvan maarifçisinin, habelə ölməz Xaqanilərin, Nəsimilərin, Seyid Əzimlərin təhqiridir. Vətənin azadlığı yolunda şəhid olmuş Şirvanşahların-Əfridunun, II Axsitanın, Siyamərkin, I Fərrux Yasarın və Şahruxun qutsal ruhunun təhqir deməkdir. Bəşər tarixinin ilk Sufi şairi, filosof və mövlana Baba Dağ Bakuvi-Şirvaninin (933-1050) bugünəcən Vətənə yol tapmamış "Divan"ının təhqiridir... Və nəhayət, bütün əsl şirvanlıların alçaldılmasıdır... Əfsuslar ki, bu cür təbliğat işi hələ də cəzasız olaraq davam etdirilir. Bəzilərinin nəzərində "şirvanlı" qılıbında "görünən" yazıçı Anar Rzayev Y.Oğuzu Dövlət başçısına dönə-dönə "istedadlı gənc" kimi təqdim edir. Əli Həsənovun xanımının yaxın qohumu sayılan bu şəxsin KİV-də tərifi göyə çıxarılır...

Məni Heydər Əliyev ilə eyni platformada hansı ideyanın birləşdirdiyini indi açıq mövqedən söyləmək məcburiyyətindəyəm: ADU-da tələbəlik illərimdə (1977-1982) bir siyasi əqidə olaraq qəbul etdiyim Avrasiyaçı geosiyasi ideoloji-fəlsəfi baxışlarım bizi 90-cı illərdə eyni tarixi ideya cəbhəsində bir araya gətirmiş oldu.

Əbülfəz Elçibəyin 100 günlük hakimiyyətini mən "Axtarış" qəzetində dərhal "Faşist xuntası" adlandırdım... Çünki "Xalq Cəbhəsi" ideyası 1940-cı illərdə Avropada fransız xalqı tərəfindən

Alman faşizmi əleyhinə Ümumi koolisiya hökumət formatı olaraq yaradılmışdı. İstiqlaliyyətinə yenicə qovuşmuş və xarici təcavüzə məruz qalmış öz ölkəsinin iqtidarı əleyhinə yaradılmamışdı. Deməli, mənim Elçibəyizmlə ortaq heç bir fəaliyyətim ola bilməzdi. Elə buna görə də Bakıda "Fövqəladə Hərbi vəziyyət" şəraitində Naxçıvanda yaşayan Heydər Əliyev ilə geniş Müsahibə aparılmasını planlaşdırdım. "İlham" qəzetinin yeganə şöbəsinin müdiri idim. Bir redaktor- Əmir Pəhləvan, bir müavin-Vaqif Əlixanlı, nəhayət, bircə şöbə- Namiq Fərəc Sığırlı (-mən). Hazırladığımız sualları müraciət formasında o dövrdə



yerləşdiyimiz teatr binasında boş-boşuna gəzən "Səlahəddin" (onu "Bakı-Baku" qəzetindən yenicə qovmuşdular) adlı bir texniki işçiyə verib, həmin illərdə SSRİ Teatr İttifaqına aid "İİTİFAQTEATR" yaradıcılıq istehsalat birliyinin Azərbaycan filialında təsərrüfat işləri üzrə direktor müavini vəzifəsində çalışan **Kamaləddin Fəttah oğlu Heydərov** vasitəsilə Naxçıvan şəhərində yaşayan Heydər Əliyevə çatdırdıq. "Jurnalistin oğlu" avtobioqrafik romanımda K.Heydərovla bağlı sonrakı "münaqişələrimizi" geniş təsvir etmişəm...

Səlahəddin Quliyevin Naxçıvandan redaksiyamıza gətirdiyi diktofon yazısı üzərində Redaktorla birgə xeyli çalışdıq, materialı Müsahibə şəklinə saldıq, Fövqəladə Vəziyyət şəraitində (məsuliyyəti bölüşmək üçün hər ikimiz-Əmir Pəlvan və mən) qəzetin senzor nüsxəsinə qol çəkərək, "İlham" qəzetində "Vətənin Şimalı-Cənubu yoxdur" sərlövhəli tarixi Müsahibə şəkilində dərc etdik. Yəqin ki, Senzura nüsxəsi aidiyyəti qurumların arxivində qalır. Beləliklə, ölkədə siyasi plüralizmə yol açıldı, sonradan Əliyevçilik kimi formalaşacaq siyasi qüvvə hərəkətə gətirildi... Bir jurnalist kimi, mən öz peşə həyatımda bu hadisəyə böyük tarixi əhəmiyyət verirəm.

Ə.Elçibəyin saxta "milli rəngə" bürünmüş gizli "naxçıvanşahlıq" mübarizəsinin qarşısına avrasiya yönümlü siyasi xadim kimi Heydər Əliyev şəxsiyyəti çıxarılmışdı. DTK-nın (KQB) yaratdığı "cəbhə" güruhu "Meydan"da təkbaşına at oynada bilmədi. Siyasi palitra dəyişdi.

Heç şübhəsiz ki, mən bir peşəkar jurnalist oğlu kimi analitik təfəkkürümlə (-onu da deyim ki, ADU-nun filologiya fakültəsində bir ədəbi tənqidçi kimi ixtisaslaşmışdım) hər hansı PARTİYA və ya "Cəbhə" üçün yetişməmişdim. Təbii ki, 90-cı illərdən siyasi meydana çıxarılan heç bir kütləvi partiyanın, o cümlədən YAP-ın da üzvü olmadım… Çünki partiya quruculuğunda yalnız maaşlı kadr partiya sistemini qəbul edirdim, vətəndaşların adının DTK üçün Ədliyə Nazirliyinə təqdim olunan hər hansı ilüstrativ "müxalifət-iqtidar" siyahılaşması Oyunlarına qarşı idim. Məncə, postkommunist sistemində ilk növbədə kütləvi partiya və fürerizmdən çəkinmək lazımdı. Nemət Pənahlı, Elçibəy, E.Məmmədov, S.Rüstəmxanlı, Tantəkin və başqaları Meydana total məqsədlər üçün salınmışdılar: DTK (KQB) bu qüvvələri siyasi və iqtisadi iflas yaşayan Sovet hökumətində varisliyi ələ keçirmək məqsədilə ortaya atmışdı… Azadlıq və demokratiya şüarları altında "senzura" aparılır, yadfikirlilər hər yerdən sıxışdırılırdılar…



1

…Heydər Əliyevin ikinci dönəm hakimiyyəti başlayandan az sonra, daha doğrusu, 1994-cü ilin yanvar ayından mənim üçün Prezident Sarayına xüsusi buraxılış vəsiqəsi hazırladılar, rəsmi "Azərbaycan" qəzetində çalışsam da, əsasən, Sarayda oldum, mənə verilmiş tezislər əsasında Qərpərəst müxalifət əleyhinə məqalələr silsiləmi burada açıq şəkildə davam etdirməyə başladım. 1996-cı ildə həmin yazılarımın bir hissəsi "Azadlığın qədri" (İşıq nəşriyyatı, Bakı, 3000 tiraj) kitabımda işıq üzü gördü. Kitab Rabitə Nazirliyi tərəfindən maliyələşdirilmişdi.



2

Bu kitabın nəşri ilə mənə qarşı ətrafımdakıların münasibəti də dərhal mənfiyə doğru dəyişildi: dəfələrlə prokurorluq (Səbail rayonu), polis (Nərimanov rayonu, 18-ci bölmə) və s. inzibati təsisatlarda müvəqqəti saxlanma və həbslərlə üzləşdim. Müxtəlif sünii insidentlər yaradaraq, əleyhimə yeddi əssassız cinayət işləri açıldı...

Odur ki, nəhayət, məcburiyyət üzündən Heydər Əliyevin oğlu ARDNŞ-ın vitse-prezidenti İlham Əliyev ilə görüşmək istədim: bu ərəfədə gözləmədiyim proseslər baş verdi- ən yaxın çevrəmin sui-qəsdinə məruz qaldım. “Zarafat” zəminində ayağım xəsarətə uğradı, baş barmağım qırıldı. “Dostlarım” (Əmir Pəhləvan, Səlahəddin Quliyev, İlqar Həsənov, Elçin Bilaloğlu və b.) məni Bakı şəhər təcili yardım xəstəxanasına aparıb ayağımı gipsə saldırdılar və beləliklə, İlham Əliyev ilə sabahı gün saat 11-ə (köməkçisi Cəmilə xanım tərəfindən) ) təyin edilmiş görüşüm baş tutmadı. Məncə, bu bir “ölüm oyunu” idi ki, yarı yolda dayandırıldı. Və beləcə “zarafat” olaraq qaldı…

Siyasi savaşda Rəqiblərin ən çox yaxın ətrafdan istifadə etdikləri ağlıma gəlmədiyindən, Vəzifəmdən “çıxarılanadək” (23 aprel 2004-ci ilədək) vəziyyətdən baş aça bilmədim… Yalnız “dostlarım” ətrafımdan tamamilə “itəndən sonra” hər şeyi anladım. “Siyasət”dən tamamilə uzaqlaşdım.

İlham Əliyev ilə görüşüm baş tutmadığı həftə ilk kitabımla əlaqədar AzTv-də məlumat verildi. “Dost” cildinə girmiş “banda” ətrafımdan geri çəkildiyindən, insidentlərin əsas sifarişçilərinin inzibatçı “əlaltılar”ı da yaxamı bir müddət buraxdılar.

Bütün Oyunlarda “naxçıvan izi” aydınca hiss olunurdu. Necə deyərlər, “Azadlığın qədri” mənim qədərimi həll edirmiş…

**♣ E-kitablar - Heydər Əliyev. Elektron sənədlər toplusu - Prezident ...**

**♣ heydaraliyev.preslib.az/ebooks.php Перевести эту страницу**

**♣ E-kitablar .... Sərlövhə, Heydər Əliyevlə unudulmaz görüşlər: Heydər Əliyev Naxçıvan qarnizonunda: I kitab-albom. Müəllif ..... Sərlövhə, Azadlığın qədri.**

Mən “Azadlığın qədri” kitabımın adını dahi intibah şairimiz İbrahim Əli oğlu Xaqani Şirvaninin “Həbsiyyə” əsərindən

götürmüşdüm. Bəlkə, elə buna görə də ilk həbs cəhdim həmin kitabın ilk nüsxəsini əlimə aldığım gün gerçəkləşdirildi… Lakin “həbs” baş tutmadı. Müstəntiq Namiq Nəsrullayev (və ya Nurullayev) məni günorta saat 14-ə dək Nərimanov RPİ-də saxlayıb, sonra “Rəisi” bu Oyuna qoşulmadığı və İdarəyə gəlmədiyi üçün” öz xidməti otağındanca məni “azad etdi” və tələbim üzrə əlimə “müvəqqəti tutuqlu” arayışı verib, Prezident Aparatına yola saldı.

Və təəssüflər olsun ki, yaxın ətrafımdakı “olduğu kimi deyil, göründüyü kimi tanıdığım” saxta “dostlarım” bundan sonra da əleyhimə savaşdan tamamən geri çəkilmədiklərini yenidən ortaya qoydular. Onların vəziyyətini başa düşürdüm: mənim Qələmim artıq kimsəyə lazım deyildi. Bir şirvanlı olaraq, mən “çujoy” sayılırdım. Odur ki, mənə qarşı naməlum şəxslər vasitəsilə müxtəlif insidentlər yaradaraq, sonrakı 7 il ərzində tam-tamına hər ilin yeddi ayı müxtəlif məhkəmə, polis idarələri və rayon prokrorluğuna çağrıldım… Əvəzində, oliqarxiyaya çevrilməkdə olan “arxa cərgə” mənim “Azərbaycanda müxalifətçilik sindromları” məqalələr silsiləmin “Üçüncü hissə”sinin “Azərbaycan” qəzetindəki dərcinin dayandırılmasına nail oldular. Atəşkəs mümkün deyildi. Son yazım “Naxçıvan” qəzetinin № 16/77, 28 aprel-4 may 1994-cü il tarixli sayında işıq üzü gördü. Məqalədə ölkədə müxalifətin “üçüncü qanadı” kəskin ifşa edilmişdi: “Üçüncü mənbə, mövcud iqtidarın öz daxilində maskalı fəaliyyət göstərən “gizli müxalifət” qanadıdır. Həmin qüvvələr … həm iqtidar, həm də müxalifət sifətilə siyasi büqəlamunluq edirlər… Milli iqtisadiyyatın dövlət sektorunu nəzarətsiz və qanunsuz şəkildə talan etmək yolu tutan bu dairələr birbaşa mafioz strukturlarla çulğalaşmışlar.”

Mənim “Azərbaycan” qəzetilə əlaqəm kəsildi. Rəqiblər “gözləmə rejimi”nə keçdilər. Oyunu əllərinin arxasını yerə qoyub laübalı “üzr diləməklə” bitirdilər. Bu geri çəkilmədə Fuad Ələsgərovun da Nərimanov rayon prokurorluğuna, əleyhimə mübarizədə dəridən-qabıqdan çıxan bir “stajiyor xanıma” təsadüfi zənginin mühüm rolu oldu… Qadın istintaqçının mənə hədələyici telefon danışığını operativ rabitə ilə Fuad Ələsgərova qoşa bilmişdim… Bundan artıq ifşa edilmək imkansızdı. İnzibati

vasitələr boşa çıxandan sonra, KİV-ə əl atıldı, “7 Gün” və sair qəzetlərdə əleyhimə yazılar təşkil edildi, haqqımda bədnam şayiələr yayıldı…

Beləliklə, bu qara Oyunların üzündən mən Prezident Aparatında 10 illik iş stajıma baxmayaraq, növbəlik əsasında mənzil ala bilməyən yeganə şəxs oldum… Bu mənada, Ramiz Mehdiyev və ətrafı mənə qarşı ilkin məqsədinə nail oldular.

Vəzifədən necə getdiyimi də söyləyib, əsas mövzuma qayıtmaq istəyirəm: Prezident İlham Əliyevin Brüsseldə İnformasiya və Kommunikasiya Texnologiyaları Sammitində iştirak etdiyi gün, yəni 2004-cü ilin 23-24 aprelində Prezidentin Mətbuat xidmətində böyük məsləhətçi vəzifəmdən azad edildim... Səbəbi izah edilmədi. Sonra öyrəndim ki, polis serjantı olan kiçik qardaşım Qabil Fərəcova qarşı “axtarış” verilmişdir. Həmin gün də məni işdən azad etmişlər. Mən Ramiz Mehdiyevin Admnistrasiya Rəhbərliyindən gedəndən sonra onu əvəzləmiş şəxsə “işdən çıxarılma səbəbimlə bağlı” ”Şikayət Məktubu” göndərdim. Mənə yazılı heç bir cavab verilmədi. İşdən çıxarılma haqqında Sərəncamın surətini də verməkdən imtina etdilər. Əmək kitabçamdakı qeydin Sərəncamda da yer tutduğunu bildirdilər. Deyilənlərdən belə anladım ki, Ramiz Mehdiyev sonradan məni xəbərim olmadan “Müqavilə əsaslı” işə götürmüş və Müqavilə müddəti bitdiyi üçün azad etmişdir. Anlaşılan budur ki, o, bu “Oyunu” mənim keçmiş OMBUDSMANa şikayət Ərizəmdən sonra gerçəkləşdirmişdilər. Bu tədbirdə “Ümumi şöbə”nin də (müdir: Süleyman İsmayılov) əli olduğunu güman edirəm…




Corc Oruell **“1984”** romanında (1948) baş verən hadisələrin mərkəzi kimi London şəhərini göstərirdi. Maraqlıdır ki, baş qəhrəman Vinston da mənim kimi bir yazıçı-jurnalistdir. Hesab edirəm ki, oxucular həmin pomandan xəbərdardır. Odur ki, əhvalatı nəql etməyəcəyəm. Amma bir məsələyə aydınlıq

gətirmək istəyirəm: romanda iki qüvvə mübarizə aparır- başında İngiltərənin dayandığı Avropaçılıq (-Avroatlantizm) cəbhəsi və Rusiyanın durduğu Avrasiyaçılıq cəbhəsi. C.Orvellin mövqeyindən aydın görünür ki, o da mənim kimi Avrasiya yönümlü siyasi baxışların daşıyıcısıdır... Əsərin qəhrəmanı Vinstonu anqlosaks totalitarizmində təkləyən ideya tənhalığı içərisində işıq görünmür. Amma mən özümü xoşbəxt sayıram ki, azad Avrasiya xalqlarımızın "qapalı dairələrdən çıxaraq", yalnız kriminal-oliqarxik sosium deyil, bir mədəniyyət potensialı olduğunu subuta yetirmək əzmim sonda zəfər çalacaqdır. Sosializmin Stalinçi kazarma növünə deyil, Skandinav tipinə olan müsbət meylim və çağdaş Rusiyada solçu-vətənpərvər qüvvələrin siyasi fəallığı məndə əminlik yaradır ki, postsovet dövrünün oliqarxik sistemi, nəinki bizdə, bütün dünyada tezliklə çökəcəkdir. Qəti əminəm ki, nə qədər çətin olsa da, Avrasiya xalqları və onun həqiqi xalqçı ziyalıları çox tezliklə bizim özünəməxsus sivilizasiyamızın mənəvi siması ola biləcəklər. Yaxın perspektivdə Orta sinfin formalaşması baş tutacaqdır. Nəzərimdə yaşayan Heydər Əliyev obrazı mənim üçün hələ də yalnız belə qalmışdır... Bu dahi şəxsiyyəti bir ovuc harın ailənin siyasi aləti, stalinizmin oliqarxik davamı olaraq, heç zaman təsəvvürümə gətirməmişəm. Mənim fikrimcə, Heydər Əliyevin işıqlı siması xalqçılığın və ədalətin son rəmzidir. Bu mənada o, Avrasiyanın son mogikanıdır!

Heydər Əliyev haqqında sonda bunu demək istəyirəm ki, işdən çıxarılandan sonra ilk olaraq "Ədalət" qəzetinin 8 may 2004-cü il tarixli sayında "Simürğ kimi..." sərlövhəli ilk xatirə yazımı dərc etdim. 90-cı illərdən özümlə eyni Avrasiya ideoloji-siyasi platformanın insanı kimi qəbul etdiyim Heydər Əliyev mövzusuna bu günədək bir də qayıtmadım. Üzərində çalışdığım "Jurnalistin oğlu" poman-tərcümeyi halımda bu hadisələr bədii-sənədli əks edilmişdir. Düşünmürəm ki, oxucularım bu romanı 2023-cü ildən qabaq oxuya biləcəklər. Bu kitab mənim Ulu Öndərin anadan olmasının qarşıdan gələn 100 İlliyinə sanballı töhfəm olacaqdır.

---

**AtaTv.az**

http://atatv.az › gundem › 8150-azrbaycanda-neofazm-...

AZƏRBAYCANDA NEOFAŞİZMƏ MEYDAN OLMAMALIDIR!

1 may 2019 — **AZƏRBAYCANDA NEOFAŞİZMƏ** MEYDAN **OLMAMALIDIR!**b/b (Çağımızdan bütün dünya yazarlarına müraciət) **Namiq Atabəyli** Şirvani (Keçmiş Sovet hərbi ...

Bu səhifəyə 2 dəfə daxil olmusunuz. Son daxilolma: 10/10/21

ATA TV.az **Ata TV**

***1 may 2019. 19:30***



**Namiq Atabəyli.**
**Avrasiyayönümlü yazıçı-publisist**

# AZƏRBAYCANDA NEOFAŞİZMƏ MEYDAN OLMAMALIDIR!

Hörmətli qələm dostlarım!

Gələn il bütün bəşəriyyət babalarımızın Alman faşizmi üzərində




Böyük Qələbəsinin 75 İlliyini təntənəli surətdə qeyd edəcəkdir. Bəli, biz bəşəriyyəti faşizm taunundan xilas etmiş nəslin varisləriyik və bununla fəxr edirik. Bu müharibədə mənim də anamın atası babam Rzaxan Əhmədov gənc yaşında Moskva ətrafındakı döyüşlərdə həlak olmuşdur.. Təbii ki, anam Laləzar bəyim Rzaxan qızı Fərəcova məni də özü kimi antifaşist ruhda tərbiyə etmişdir.

Lakin bu günkü narahat dünyamızda planetimizin bir çox guşələrində yenidən neofaşist qüvvələr baş qaldırmaqdadır. Onlar müxtəlif yerlərdə milli zəmində qaynar nöqtələr yaradır, insan qırğınları törədir, terror və iğtişaşlarla məşğul olurlar. Mən hesab edirəm ki, həmin mənfur qüvvələrə qarşı mübarizədə 1941-1945-ci illərdə Vahid Qüvvə kimi birləşmiş antifaşist babalarımızın ümumbəşəri nailiyyətlərinə sahib çıxmalıyıq!

Çağımızda baş qaldıran neofaşizmin daha bir iyrənc fəaliyyəti Böyük Vətən müharibəsində həlak olmuş şəhid babalarımızın anıt abidələrini yer üzündən silməkdən ibarətdir. Onlar bununla, qəhrəman Sovet əsgərinin (-babalarımızın) faşizm üzərində tarixi Qələbəsinin üzərindən qara xətt çəkmək istəyirlər. Böyük təəssüf hissi və sonsuz hiddətlə bildirirəm ki, son zamanlar belə qara qüvvələr mənim Vətənimdə, Azərbaycanda da fəallaşaraq öz həddini aşmış, respublikamızın Şimal bölgələrindən birində Böyük Vətən müharibəsi şəhidinin xatirəsini təhqir etmişlər...



Bu mənfur hadisə respublikamızın Quba rayonunda baş vermişdir. KİV-də oxuduğum aşağıdakı xəbər məni avrasiyaçı geosiyasi baxışlı bir yazar olaraq xüsusilə hiddətləndirdi***: “Faşizm üzərində Qələbənin 75 İlliyi qarşısında (1945-2020) Azərbaycanın Quba rayonunda II Dünya müharibəsinin iştirakçısı, keçmiş Sovet zabiti, bəşəriyyətin Azadlığı yolunda həyatını qurban vermiş hərbi pilot Cahangir (Vladimir) Mircəfər oğlu Bağırovun xatirəsinə qarşı hörmətsizlik, deyərdim ki, ağır cinayət törədilmişdir. Uzun illər Azərbaycana rəhbərlik etmiş kommunist Mircəfər Bağırovun oğlu, Böyük Vətən Müharibəsində 8 alman təyyarəsini öz həyatı bahasına tarana gedərək məhv etmiş və cəmi 24 yaşında həlak olmuş hərbi leytenant Cahangir Bağırovun büstü yerindən götürülərək ayaqlar altına atılmışdır”.***

Əziz dostlar! Bu xəbər hamı kimi məni də sarsıtdı. Bir yazıçı-publisit olaraq, XXI əsrdə bir çox ölkələrdə olduğu kimi mənim də Vətənimdə baş qaldırmış bu cür NEOFAŞİSZM meyllərinə qarşı öz hiddətli səsimi qaldırmağı lazım bildim. Bəşəriyyətin ümumi azadlıq hərəkatı sıralarında gələcək nəsillərin xoşbəxt həyatını naminə canını qurban vermiş hər bir antifaşist şəhidin xatirəsi hamımız üçün əziz olmalıdır. Onlar siyasi əqidəsindən, dinindən, millətindən, məsləkindən və coğrafi mənsubiyyətindən asılı olmayaraq, bəşəriyyəti ümumi dəyərlər sisteminə daxildirlər: daim əzizdirlər, hörmət və məhəbbətə layiqdirlər, müqəddəsdirlər.

Bunu heç vaxt heç kim unutmamalıdır. Alman Faşizmi üzərindəki tarixi qələbə bütün mütərəqqi bəşəriyyətin ümumi nailiyyətidir. Dünyanın harasında baş qaldırır qaldırsın, neofaşizm qüvvələri öz cavabını almalıdır.

Mən Cahangirlə eyni yaşda 1982-1984-cü illərdə keç. SSRİ-nin cənub sərhədində Sovet zabiti olaraq, Vətənə həqiqi hərbi xidmət göstərmişəm. "Qafqaz-2" hərbi təlimi adı altında Suriyaya qarşı NATO qoşunlarının İsrail təcavüzü pərdəsi altında müharibə teatrına yollanmaq üçün SSRİ Quru qoşunlarının tərkibində İran sərhədində gərgin anlar yaşamışam.

Böyük Vətən müharibəsində mənim də hər iki babam iştirak etmiş və onlardan biri 24 yaşında Alman faşizminə qarşı aparılan Vətən müharibəsində həlak olmuşdur.

Döyüşdə ağır yaralansa da, özünün Azərbaycanda ən yüksək rəhbər vəzifədə çaqlışan atasına- Mircəfər Bağırova qəhrəman oğlunun yazdığı Məktubu əsl vətənpərvərlik nümunəsidir.

*"Əziz ata! Artıq iki ay yarımdır ki, mən öz yerimdə deyiləm, havayı çörək yeyirəm – hansı ki, indi çox bahadır. Nə zaman ki, vətən təhlükədədir, onun minlərlə oğlu həyatını və qanını əsirgəmədən vətən müharibəsi cəbhələrində vuruşurlar. Mən isə xüsusən ən qızğın döyüş olan yerdə olmalıyam, çünki mən sənin oğlunam, vətənimizin oğluyam, partiyamızın oğluyam.*

*Əgər sən bir bilsəydin ki, mən gənc, sağlam olduğum və arxa cəbhədə oturduğum üçün insanların gözünün içinə baxmağa necə utanıram?! Səndən xahiş edirəm, mənim cəbhəyə getməyimi tezləşdir, hər nə ilə olur olsun döyüşməyə hazıram. Mənə onların iki ay yarımdır gözlədiyim şöhrətli təyyarələri lazım deyil, mən hətta U-2-də də uçmağa hazıram, o halda da mən döyüşəcəm, işsiz qalmayacam. Bir həftə də səbr edə bilərəm, sonra isə cəbhəyə və qarşıma çıxan birinci hissəyəcə gedəcəyəm.*

*Səbirsizliklə cəbhəyə göndərilməyimi gözləyirəm və sübut edəcəyəm ki, sənin oğlun öz atasına və vətəninə layiqdir.*
*Bərk-bərk öpürəm. Sənin Vladimirin. 04.02.1943 "*

Cahangir Mir Cəfər oğlu Bağırov 1919-cu il oktyabrın 6-da anadan olub. Orta məktəbi bitirdikdən sonra ordu sıralarına göndərilib. 1938-ci ildə hərbi dəniz-təyyarəçilik məktəbini

bitirmişdi. Yüksək dərəcəli qırıcı təyyarəçi "Lenin" ordeni, "Qızıl Ulduz" medalına layiq görülüb.



Джахангир Мирджафар оглы Багиров Описание

Джахангир Мирджафар оглы Багиров, известный также под именем Владимир — советский лётчик времён Великой Отечественной войны, гвардии старший лейтенант, кавалер ордена Ленина. Сын первого секретаря ЦК КП Азербайджана Мирджафара Багирова. Первый азербайджанец, совершивший воздушный таран. Википедия. Родился: 6 октября 1919 г., Астрахань, Россия. Умер: 5 июня 1943 г., Обоянь, Россия.

Bu il Azərbaycanda ölkə rəhbərinin Sərəncamı ilə Nəsimi İli elan olunmuşdur. Böyük intibah şairimiz öz həyatını işğalçı qüvvələrə qarşı ümumi mübarizədə Azərbaycan Şirvanı ilə bərabər, İran, Osmanlı, İraq və Misir xalqlarının azadlığı yolunda qurban vermişdir. Orta çağın Azadlıq mücahidi, filosof-şairi Şeyx İmadədddin Nəsiminin qutsal Divanı hər kəsi bu gün də insanlığa və hümanizmə səsləyir:

Vücudundan kənar bilmə Xudanı,
Xaliq sənsən hər görünən əşyaya.
Ey Nəsimi, söylə, axı bu gün sən
Dürdanəsən pak görünən dəryaya.
Simürğiyik bu məkansız cahanın,
Məqsədiyik Yer ilə Asimanın!

Beynəlmiləl bir ailədə yetişmiş: anası rus-Mariya, atası müsəlman- Mircəfər olan sovet zabiti, Böyük Vətən müharibəsi şəhidi hərbi pilot leytenant Cahangir (Vladimir) Bağırovun xatirəsinə hörmətsizlik göstərənlərin öz layiqli cəzasına çatdırılmasını tələb edirəm. Mən bu müracətimlə bütün yazıçı həmkarlarımı 9 May- Faşizm üzərində Qələbə Günü ərəfəsində səsimə səs verməyə çağırıram.

**Bakı şəhəri, 1 May 2019-cu il.**

https://atatv.az › gundem › 24122-shirvanname-ili-evra... ▾

Namiq Atabeyli: ШИРВАННАМЕ, или ЕВРАЗИЙСКАЯ ...

16 avq 2021 — ШИРВАННАМЕ, или ЕВРАЗИЙСКАЯ МОДЕЛЬ БУДУЩЕГО АЗЕРБАЙДЖАНА **Namiq** Atabeyli ... Odur ki, bu yeni **ŞİRVANNAMƏ**-də ilk öncə məni Şirvan...

ATA TV.az **Ata TV**

16 avqust 2021 ***15:24***



**Namiq Atabəyli.**
**Avrasiyayönümlü yazıçı-publisist**
E-MAIL: farajovnamiq@ gmail.com

# ШИРВАННАМЕ, или ЕВРАЗИЙСКАЯ МОДЕЛЬ БУДУЩЕГО АЗЕРБАЙДЖАНА



**Только змеи сбрасывают кожи,**
**Чтоб душа старела и росла.**
**Мы, увы, со змеями не схожи,**
**Мы меняем души, не тела.**
**(Nikolay Qumilyov)**

I YAZI

Dövlətin keçmişini xatırlamadan gələcəyini təsəvvür etmək mümkünsüzdür. İnsanın həyatı da eynən belədir. Odur ki, bu yeni ŞİRVANNAMƏ-də ilk öncə məni Şirvana və şirvanlılığa bağlayan müqəddəs bağları xatırlamaq istəyirəm: Şamaxıdakı Çuxuryurdda yerləşim tariximiz Arandakı Sığırlı kəndində

məskunlaşmağımızdan xeyli əvvəl olmuşdur. Mənim fikrimcə, bizi burada əvəzləmiş malakanların dağıtmadığı dədə-baba qəbiristanlığımız bu gün onların yerini tutmuş “milli oliqarxlar” tərəfindən uçurulub dağıdılmayıbsa, onda Atabəylərin Şirvan tarixini qətiyyətlə 1160-cı illə bağlamaq olar: həmin il Şirvanşah I Axsitan ibn III Məniçöhr (1160-1196) atabəylərin sayəsində Şamaxıda hakimiyyət çevrilişinin qarşısını alıb öz qanuni taxtına oturmuşdur...

Mən Şamaxını həmişə sevmişəm! Bəlkə də, ona görə ki, çarxanlı Gülbikə nənəmi həyatımda hamıdan artıq istəmişəm. Şamaxılılar mənim üçün daim azadlıqsevərliyin, həqqaniyətin və vətənpərvərliyin örnəyi olmuşlar. Mənim maarifçiliyə, şeirə, siyasətə böyük marağım da daha çox şirvanlılığımdan irəli gəlmişdir.

Antik epoxa 50 insan nəslini əhatə edir. Sokrat və Aristotelin idrak, İsgəndər və Sezarın isə hakimiyyət ehtirasları bu dövrün məhsulu olmuşdur. Bu ehtiraslardan yalnız biri əbədiyyət nişanəsidir: BİLİK! Bütün hakimiyyətlər zaman və məkanca məhduddur. Bilik ehtirasında bəşəriyyətə xidmət, hakimiyyət etirasında isə şəxsi ağalıq missiyası hökmfərmadır. Şirvan ziyalılarının antik nəslindən yalnız Troya dövrünə gedib çıxmış Mark Bakuviusun ismi məlumdur. Orta əsrlər dövrü Şərq maarifçiliyi ŞİRVANİLƏRin sonsuz pleyadasını üzə çıxarmışdır. Türk-İslam dünyasının ilk Universiteti sayılan Bağdad “Nizamiyyə”sində (1066) müəllim heyətinin yarıdan çoxu “Şirvani” künyəsini daşımışlar. Şamaxılı Əbu Bəkr Məhəmməd Şirvani bu Universitetin ilk fiqh (hüquqşünaslıq) müəllimi olmuşdur. Qəvaməddin Nəsr Yunus ibn Mənsur ibn İbrahim əş-Şirvani Universitetin ən ünlü pedaqoqlarından biri idi. Şirvanlı filosoflardan Müəyyin əd-Din Əbül-Fəzl Bəxtiyar ibn Mühənna ibn Əbd ər-Rəhman əş-Şirvani Təbriz mədrəsələrində dərs deyirdi. Zəki ibn əl-Həsən ibn Ömər Əbu Əhməd əl-Beyləqani Dəməşqdə, İsgəndəriyyədə və Yəməndə elm-maarif sahəsində çalışırdı. Şəmsəddin Məhəmməd ibn Əhməd ibn Saleh əş-Şirvani Ərəb dünyasına fəlsəfi mühazirələr oxuyurdu. Görkəmli Şərq tarixçisi Yaqut Həməvinin əsərlərində Şirvan alimlərinin sonsuz siyahısı Şir tinətlilərin yalnız Qılınc və Qalxan tutmaqda deyil,

eyni zamanda Elm sahəsində də böyük şücaətlərindən xəbər verir...

Etiraf edim ki, məhz şirvanlı ədəb-ərkanıma söykənərək, Azərbaycanda xalqımızın Birinci Xanımı, ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevaya olan böyük ehtiramımı və heyranlığımı daim qoruyub saxlamışam...

Amma məsələ bundadır ki, indiyədək Mehriban Əliyeva haqqında qələmə aldığım hər bir Yazı mənim üçün rok (qəzavü-qədər) hadisəsi olmuşdur. Sanki onun Azərbaycanda Birinci Şəxs olmaq haqqı və ya uğurları kimlərdəsə xüsusi qısqanclıq və hiddət doğurmuşdur?!. Nə üçün?.. Dəqiq deyə bilmərəm. Dahi Avrasiyaçı alim-geopolitik Lev Qumilyovun anası şairə Anna Axmatova "Gündəliy"ində belə bir qeyd vermişdi: "Di Sarra mənim şeirlərimin Mixail Kuzmindən gəldiyini yazır. Kuzmin mənim "Gecə" (1912) şeirlər kitabıma ön söz yazmışdır. Məni bu üzdən xarici ölkələrdə də M.Kuzminin tələbəsi sayırlar. Beləcə, məni ikiləşdirmişlər. Həqiqi Anna Axmatova və "dvoynik" Anna Axmatova. Sual doğur: dünyada nə qədər belə "dvoyniklər" dolaşır və onların son rolu nə olacaqdır..." Mənim Dövlət qulluğundan 46 yaşında azad edilməyimi bəziləri Mehriban Əliyeva haqqında 2004-cü ildə "Səs" qəzetinə "Mehriban Əliyeva: milli mədəniyyətimizin inkişaf perspektivləri" adlı bir məqalə təqdim etməyimlə əlaqələndirir. Yazı həqiqətən çapa imzalanmışdı. Amma onun çapına bir gün qalmış məqalə "çıxarılsın" Redaktor (Ağabəy Əsgərov) dərkənarı ilə mənə geri qaytarılmışdı (Ariz Əbdüləzizov tərəfindən). Nə üçün?- dəqiq deyə bilmərəm. Mətbuat Katibi vəzifəsini mənə hələ 2000-ci ilin əvvəllərində təklif etmişdilər. Heydər Əliyevin xəstə yatdığı günlərdə general Vaqif Axundov məni özünün "Ələddin" adlı video-çəkiliş operatoru vasitəsilə Nazirlər Kabinetində ikinci mərtəbədəki otağına çağırtdırmış, bir neçə saatdan sonra "Mətbuat katibi" Sərəncamımın televiziyada elan ediləcəyini bildirmişdi... Mən ona qəti etiraz eləmiş və qapı arxasında həll edilən bu cür təyinatı qəbul etmədiyimi bildirmişdim...

Mehriban Əliyevaya insani ehtiramımın səbəbləri çoxdur: amma bunlardan ən mühüm olanı, açıq etiraf edim ki, Şirvanlı olmağımdır!

Şirvan camaatı barədə hər iki Azərbaycanın (Cənubun və Şirvanın) klassik ədəbiyyatında tərənnüm şeirləri az deyil. Bu cəhətdən, şirvanlılar tariximizin ən qürur verici insanlarıdır.




...Atam Rəşid Fərəcov ADU-nun jurnalistika fakültəsində tələbəlik illərində anasının Şamaxı əsilli olduğunu nəzərə alaraq, Aida İmanquliyevanın kasıb Şirvanlı tələbələrə, o cümlədən ona himayədarlıq göstərdiyindən çox danışmışdı, hətta böyük bacımın adını "Aida" qoymuşdu... Mənim özüm də ADU-da görkəmli yazıçı-pedaqoqumuz Mir Cəlal Paşayevin tələbəsi olmuşam. Odur ki, Aida İmanquliyevaya və övladlarına olan bu cür yüksək insani münasibət bu gün 80 yaşını qeyd etməkdə olan jurnalist-veteran atam Rəşid Fərəcovun şəxsində bütün ailəmiz üçün ənənəvi xarakter daşıyır. Məncə, bu bir ziyali nəslinə digər bir milli ziyalı ailəsinin adi milli-mənəvi münasibətidir, burada heç bir qəbahət yoxdur və ola da bilməz...




Aida xanım İmanquliyevanın elmi fəaliyyətini və nailyyətlərini sadalamağa ehtiyac yoxdur: bu ilk görkəmli ərəbşünas qadın alimimiz, təsadüfi deyil ki, keçmiş SSRİ və Azərbaycan SSR Elmlər Akademiyalarının ən ünlü simalarından biri hesab olunurdu. Livan yazıçısı Mixail Nüaymənin ən gözəl tədqiqatçısı sayılırdı. O, ittifaq və dünya miqyasında Yaxın Şərq ədəbiyyatının ən gözəl bilicilərindən idi... Bununla belə, Aida xanım daha çox yüksək əxlaqi keyfiyyətləri ilə də ictimai diqqəti özünə cəlb etmişdi. Şirvan diyarının ilk ixtisaslı jurnalisti və Jurnalistika fakültəsinin məzunu olmuş atam Rəşid Fərəcovun öz böyük qızına, yəni mənim böyük bacıma bu görkəmli ziyalı qadının ismini verməsi heç də adi bir təsadüf deyildi. Aida xanım bütün millətimiz üçün örnək bir sima idi.

Atam məni də qədim Şirvan mədəniyyətinə və ənənələrinə dərin məhəbbət ruhunda tərbiyə etmişdir. **“Şirvanşahlar haqqında saqa” roman-epopeya**mın




yazılmasında atamın daim xatirini əziz tutduğu Aida İmanquliyevanın tarixi rolu olduğunu etiraf etməliyəm. Rəşid müəllimin Diplom işi “Azərbaycan qadının azadlıq yolu” olub. Atamın dediyinə görə, bu mövzunu da ona məhz Aida xanım təklif etmişdir. Aida xanımla söhbətlərindən birində bu görkəmli ziyalı qadın atama özünün bir iradını bildirmişdir: “Şirvanlı ziyalılarımız nə üçün öz vətəninin qədim tarixinə biganədirlər? Qırx üç müsəlman şirvan şahından ona qədəri Vətənin müdafiəsində şəhid olmuşlar. Nə üçün ədəbiyyatımızda köçəri tayfa liderləri, qaçaqlar, xanlar, bəylər geniş təbliğ edildikləri halda, Şirvanşahlar unudulmalıdırlar?.. Mən görürəm ki, siz istedadlı vətənpərvər bir gəncsiniz. Jurnalistika fakültəsinin ilk tələbələrindən birisiniz. Niyə də qələminizi bu mövzuda sınamayasınız?!.”

Atam bu mövzuda Sara Aşurbəylinin tədqiqatlarını qeyd edəndə, onunla razılaşmayan Aida İmanquliyeva demişdi: “Mən Şirvan şahlarının bədii obrazlarının yaradılması haqqında danışıram.” Tələbə atam jurnalist kimi ixtisaslaşdığını və istedadını yalnız öz sahəsində sınaya biləcəyini söyləmişdir. Bundan sonra Aida xanım ondan oğlanlarının adını soruşmuşdur: Namiq, Qabil, Cavid, Bəhruz,- deyə atam cavab vermişdir. Gənc bir tələbənin öz kasıb komasına yığdığı bu qədər “dahi sənətkarların” içərisində yalnız birinci ism onu daha çox maraqlandırmış, dahi türk şairinin heyranı olduğunu etiraf etmişdir. Aida xanım: “Rəşid müəllim, daxili bir hiss mənə deyir ki, Şirvan şahlarının tarixi haqqını onlara Namiq qaytaracaqdır. Ondan muğayat olun. Onun daşıdığı ad nəinki Türk, bütün İslam aləminin roman yaradıcılığı tarixində ən böyük əzəmət mücəssəməsidir. Namiqi ədəbiyyata yönəlt, qoy həm öz adını doğrultsun, həm də mənim arzumu gerçəkləşdirsin...”

ADU-ya daxil olarkən buna məndən çox Aida bacım sevinmişdi. Sonralar Prezidentin Mətbuat Xidmətində 10 il çalışdığım dövr ərzində mənə: "Sənin təyinatın Şirvan şahlarının




müsbət obrazlarını yaratmaqdır. Qardaşım, nə vaxt öz missiyana başlayırsan?- deyə soruşardı. Mən Aida bacımın tələbinə çox gec əməl edə bildim. 2011-ci ildə peşakar yazıçılığı özümə sənət seçdim. Poemalar, hekayələr, esselər yazdım, nəzəri-poetika elmi-tədqiqatım üzərində çalışmalarımı başa çatdırdım, nəhayət, bacımın böyük oğlunun toyunda ona verdiyim Söz yadıma düşdü. Beləliklə, bu dünyada mənə əziz olan iki AİDA xanımın Şirvan arzusunu gerçəkləşdirməyə başladım. Bir-birinin ardınca dörd tarixi romanı bitirib, nəşr elədim. Bu işlərdə yeganə xeyriyyəçim hörmətli ziyalımız, ARDNŞ-in sabiq vitse-prezidenti Mikayıl İsmayılov oldu. Hal-hazırda "Şirvanşahlar haqqına saqa" roman-epopeyamın sonuncu, yəni Beşinci romanımın tamamlanma mərhələsindəyəm. "Sonuncu Şirvanşah ŞAHRUX" romanımı, Allah qismət edərsə, Aida xanım İmanquliyevaya ithaf etmək fikrindəyəm...

Kimsəyə sirr deyil ki, Şirvan xalqı nə qədər mədəniyyətpərəsdirsə, bir o qədər də Şirvan şahları elmə və ədəbiyyata hörmətkar olmuşlar. Şirvan şahlarının mədəniyyətə və elmə verdiyi uca qiyməti XII əsrin dahi Şirvan şairi İbrahim Əli oğlu Xaqani Şirvani belə vəsf etmişdi:

**Ey Şirvanşah!..**
**Nə qədər ki, dövlət quşu qapındadır pasiban,**
**Açacaqdır qucağını sənə geniş asiman.**
**Yalnız xurma ağacından bol xurmalar dərərsən,**
**Kəpənəklər uçub gedər yel əsdikcə söyüddən.**
**Mənim yüksək qiymətimi bir təkcə sən bilərsən:**
**Simürğə də bu dünyada Cəmşid verə bilər dən!..**

**(İbrahim Əli oğlu Xaqani Şirvani: 1126-1199)**

Onu da deyim ki, son romanımın ilk nəşrini bəzi mühüm səbəblər üzündən İstanbulda gerçəkləşdirmək arzusundayam. Məncə, Azərbaycan cəmiyyətinin müəyyən hissəsi Şirvan şahlığının 500 il bundan irəli məhv edilməsində əsas iştirakçı olmuş tayfaların- Qacarların, Ayrumların (Rumiyani-Sufiyanların), Şamlu və Ustaclıların, Padar və Talışların mürtəce fəaliyyətlərinin ifşa edilməsində maraqlı deyildir. Respublikamızda İslamın Bakı sufizminə tarixi qayıdışına ehtiyac var. Birinci planda İslamın ilk milli simasını özünə qaytarmalıyıq. Bunu yeni Avrasiyaçı geopolitik perspektivimiz bizdən tələb edir.

Mövzuya qayıdaq... Mənim tanıdığım Mehriban xanım Əliyeva, ilk növbədə, qədim Şirvan diyarında doğulub böyümüşdür. Tanınmış ziyalı nəsildəndir. Xeyirxahdır. Xeyriyyəçidir. Bəlkə də, elə buna görə Ulu Öndərimiz onu yaxın gələcəkdə təsis etməyi planlaşdırdığı ilk xeyriyyəçi Fondun Rəhbəri olaraq görmüşdü. Mən isə 10 ildən yuxarı elə həmin Ulu Öndərin Mətbuat Katibliyi xidmətində böyük məsləhətçi vəzifəsində çalışmışam... Belə bir Fondun zərurətini həmişə hiss etmişəm.

Bu ilk ümummilli Xüyriyyə Fondunun Heydər Əliyevin ismini daşıması da təsadüfi deyil. Məncə, bu mühüm məsul vəzifənin öhdəsindən Mehriban Əliyeva son on altı ildə layiqincə gələ bilmişdir.

Şirvandan danışırkən, “Şirvanşahlar haqqında saqa” roman-epopeya müəllifi olaraq, xalqımın bəzi xüsusiyyətlərini də qısaca qeyd etmək istərdim. Yuxarıda bildirdim ki, Dövlətin keçmişini xatırlamadan onun gələcəyini təsəvvür etmək mümkünsüzdür. Bu gün adına Azərbaycan Respublikası söylədiyimiz ölkə tarixi Şirvanşahlar ərazisidir. İstər coğrafi, istər mənəvi, istərsə də tarixi mənada. Mənim nəzərimdə Şirvan anlayışı Azərbaycan anlayışından dəfələrlə böyükdür... Lakin bununla belə XII əsrin ilk dahi Şirvanisi İbrahim Əli oğlu Xaqani “Şirvan” deyəndə öncə Şamaxını və şamaxılıları nəzərdə tutmuşdur:

Şirvan ki var: hər cəhətdən ülviyyətin anasıdır!
Onun hər bir səhər yeli dərdlərimin dəvasıdır!

Mən Vətənə qurban olum, qurulmuşdur sədaqətdən:
Bağdadı da dolandıran onun bollu qidasıdır.

Şirvan əhli alicənab yaranmışdır başdan-başa.
Bu yer gözəl təbiətli bir lətafət məvasıdır.

Vətənimin fəqirləri dözümlüdür hər zəhmətə,
Gözləri tox, könülləri kərəm-səxa dəryasıdır!

Mərifətdə şirvan əhli yüksək durur ərəblərdən:
Xaqaniyə həyat verən doğma yurdun havasıdır!

Şamaxı əhli üst-üstə, əsasən, üç mədəni-mənəvi etnogenetik qatdan ibarətdir: qədim şirvanlılar, İran həmşəriləri və monqol-tatar əşirətləri. Onların hər birinin ümumi və əlahiddə xüsusiyyətləri var. Qədim şirvan əhli- massaget-skif mənşəlidir. Mübarizlik, təvözəkarlıq və səxavət onların əsas xarakter cizgisidir. İran həmşəriləri Kəsranilər və Qızılbaş dövrlərinin köç camaatıdır. Əsasən, İranın Deyləm (-Gilan) və Ərdəbil vilayətlərindən gəlmişlər. Şeirə, ədəbiyyata, ümumiyyətlə mədəniyyətə aşırı meylliliklləri ilə seçilirlər. Şirvandakı monqol-tatar tayfaları isə əsasən çobanilərdir. Onları Şamaxıya Hülakilər və Cəlairilər yerləşdirmişlər. “Sərkarilər” kimi tanınmış son Şamaxı xanları da onların nəslindəndir... Saz sənətinə və təsərrüfatçılığa, xüsusən heyvandarlığa daha çox bağlıdırlar. Öz soyuma gəldikdə, mənim atabəylilər nəslimin şirvanlılığı nə qədər gəlmədirsə, bir o qədər də yerli xarakter daşıyır. Biz qıpçaq kökənliyik: məsihilik və müsəlmanlıq bizi tarixən iki müxtəlif hissəyə bölmüşdür. Həm 89 illik müsəlman Azərbaycan Atabəylər dövləti (1136-1225), həm də dörd əsrlik “Sa-Atabaqo” xristian-qıpçaq Atabəylər dövləti (1268-1663) bizim nəslimizin Qafqaz odisseyasını təşkil edir.

Mənim üçün bir yazıçı kimi ən önəmli tale yazısı Şamaxıdır! Çünki Şamaxı şəhəri xalqımızın oturaq sivilizasiyasının ilk mogikanı, ilk mayakı və ilk məbədi olmuşdur. Bu gün anti-şirvan

siyasi qüvvələrin ən böyüş əndişəsi də məhz bu camaatın Rusiya və Avrasiya geosiyasi məkanına hər kəsdən artıq və etibarlı bağlılığıdır. Mən bu gerçəkliyi "Şirvanşahlar haqqında saqa" roman-epopeyamda geniş qələmə almışam. Bunu mən bu gün bayrağı Rusiyanın dövlət atributuna çevrilmiş atabəyliyimdən artıq, bir şirvanlı kimi söyləyirəm. Baxmayaraq ki, Moskva Knyazlığının baniləri olmuş Boqolyubskilərin Qafqaza ayaq basmış ilk nümayəndəsi Yuri Andreyeviç Boqolyubski gürcü çariçası Tamara Baqrationi ilə izdivacını pozduqdan sonra, məhz Gəncə şəhərinə gəlmiş və Atabəylər dövlətinə sığınmışdır. Atabəy Qızıl Arslan ilə onun qardaşı oğlu Əbu Bəkr Moskva knyazına himayədarlıq etmişlər. Anası qıpçaq türkü olmuş bu knyazı atabəylər ilə həm də ana südü birləşdirmişdir. Lakin mənim fikrimcə, Şirvan xalqının və şahlarının rus xalqı ilə tarixi dostluq və qardaşlıq əlaqələri daha böyük və uzunömürlü olmuşdur... "Şirvanşahlar haqqında saqa"m məhz bu dostluğun dastanıdır!

Kimsəyə sirr deyil ki, "azadlıq ölkəsi" çağrılan Şirvanşahlar diyarı tarixən Avrasiya birliyi ideyasının ən mühüm daşıyıcısı kimi tanınıb. Onun "Albaniya" ("albi" yunanca ağ və ya azad anlamını verir) çağırılması da təsadüfi deyildir. Qaf (Qafqaz) dağlarının qoynunda yerləşən bu ilk oturaq sivilizasiya ölkəsi və onun xalqı bütün şanlı tarixi ərzində azad Avrasiya xalqları üçün əsl mədəniyyət mayakı olmuşdur. Şirvanın azadlıq odisseyası bu gün Rusiya adlandırılan "Dəşti-qıpçaq"ın tarixi ilə 2500 illik bir keçmişlə bağlıdır. Belə ki, Araz çayını keçərək Şirvan torpağına təcavüz etmiş İran Əhməni şahı II Kirin e.ə. 529-cu ildə başını öz əlləri ilə kəsib həmin çaya atmış massaget-qıpçaq hökmdarı Tomrisin (b.e.əvvəl 570-520-ci illər) rəşadəti danılmaz tarixi faktdır. Heredotun Tomris haqqında fikirləri eyni zamanda qədim türk yurdu Şirvanın tarixi xarakteristikası idi: "Massagetlər çoxsaylı və cəsur bir tayfadırlar. Onlar issedonlarla qarşı-qarşıya Günəşin doğuşu istiqamətində Şərqdə, Araz çayının arxasında yaşayırdılar..." Bu tarixi şücaət



(Piter Paul Rubensin "Tomris əfsanəsi" rəsmi. Əhməni şahı *Kirin başının kəsilməsi.)*

Piter Paul Rubensin "Tomris əfsanəsi" rəsmində parlaq təsvirini tapmışdır:

Şirvanşahlar dövlətinin İslamiyyətdən öncəki tarixi keçmişi ilkn şirvanşahlar mərhələsi hesab edilsə də, indiyədək lazımınca araşdırılmamış, öyrənilməmişdir... Bu gün bəziləri hətta “Bakı” adının belə Şirvan və Şirvan şəhəri demək olduğunu qəbul edə bilmirlər. Bakının “Qız qalası”nı, “Axsitan” (-Bibi Heybət) məscidini şirvanşah Böyük Axsitan tikdirmişdir. Onun məşhur qala divarları, Dəniz tərsanəsi, Mərdəkan qalası, Dəniz şəhərciyi, Mayakları şamaxılıların yadigarıdır. Şamaxısız Bakı, Bakısız Şamaxı ola bilməz. Çünki Şamaxı bir Şam (-işıq, ocaq) qardaşlığıdır. Bütün Şirvanın işığı, elm-mədəniyyət nuru indiyədək məhz bu qədim paytaxtdan yayılıb. Bakını da tarixən məhz Şamaxı öz ardınca aparmışdır...

Roma imperiyasında latın sözü olan “Albaniya”, yəni “köləliyi qəbul etməyən xalqlar” anlayışının qədim ŞİRVANLILAR üçün işlədilməsi anlaşılandır. Amma bu ərazilərin Armeniya tərəfindən işğal edilməsi “faktı” isə gülünc söhbətlərdir. Qəti demək mümkündür ki, Musa Qalaqayıtlının “Şirvan tarixi” (saxta variantda: “Albaniya tarixi” və ya “Aquan tarixi”) əsəri erməni şovinistləri tərəfindən son iki yüz ilin ərzində qədim pəhləvicədən müasir ermənicəyə çevrilib saxtalaşdırılmış bir “mənbədir”. K. Patkonova görə, “Albaniya tarixi”nin ən qədim əlyazması 1279-cu ilə aiddir. Bu o tarixdir ki, 10 il ondan əvvəl 1269-cu ildə monqolların Talass Qurultayı bütün monqol şahzadə və köçəri əyanlarının şəhərlərdə deyil, çöllərdə yaşamalarına Fərman vermişdi.

VII əsr “ alban tarixçisi” Moiseyin 1279-cu il tarixli bu “ilk əlyazması”nın qədim ermənicsini ermənilərin özü “Albaniya tarixi” deyil, “Aluank ölkəsinin tarixi” adlandırıblar?! Bu ziddiyyətli kitab Şirvanşünaslıq elminin yerinə gətirilmiş ilk Albanşünaslıq təlimidir?.. Azərbaycan albanşünaslığının ən tanınmış nümayəndəsi F.Məmmədova rusca nəşr etdirdiyi «Кавказская Албания и албаны» (Баку-2005) kitabında erməniləri xarakterizə edərək yazır: “Армяне, потеряв свои государства (свои государства??-N.A.) приступили к созданию истории армянского народа,.. расширяя его

территории, возвеличивая ее правителей, пытались представить Армению третей державой после Рима-Византии и Персии.” (Göst. Kitab, səh.: 199).

Qədim Şirvanın minillik oturaq mədəniyyətini X əsrin dahi şirvanlısı Baba Dağ Bakuvi-Şirvaninin (933-1050) şəxsində Tarixdən silməyə çalışanlar, bu ilk şirvanlı mövlanə, filosof və sufi şairin dünyaca məşhur “Divan”ını hələ də Azərbaycan ədəbiyyatının faktı kimi qəbul etmir, onun yaradıcılığını nə AMEA-nın Əlyazmalar İnstituna, nə də Ədəbiyyat Muzeyinə yaxın buraxırlar... Halbuki kimsəyə sirr deyil ki, XIII – XV əsrlərdə Ağqoyunlu Bayandurilərin tatar-türkmən mühitində yenidən formalaşmış “Kitabi-Dədə Qorqud” dastanı, monqolca əsli “Sudrın çuulqan” (-Salnamələr toplusu) olmuş və monqol xanı Qazanın əmrilə vəziri görkəmli İslam tarixçisi Rəşidəddin Həmədani (1247-1318) tərəfindən üç dildə tərtib edilmiş bir folklor nümunəsidir. Bu folkloru Şirvan xalqının oturaq mədəniyyətinə qarşı qoymaq nə qədər də anlamsızdır! Şirvanşahlar dövləti tarixən nə qədər tolerant olsa da, onun coğrafiyasında daim müxtəlif dini-ideoloji mübarizələr də getmişdir. Bu tarixi savaşlar daha çox Monqol-tatar işğalları və Qaraqoyunlu-Aqqoyunlu yürüşləri dövründə baş vermişdir.




Monqol-tatar istilaları dövründə Şirvanşahların tarixi ərazilərində həm müsəlman, həm də “Kitabi-Dədəm Qorqud” dastanlarında rast gəldiyimiz məsihi qıpçaqların yaşaması təsadüfi faktlar deyildir. Onların ortaq işlənən danışıq və mədəni dilləri isə məhz şirvan türkcəsi idi. Bu dövrdə hətta müsəlmanların “Qurani-Şərif”indən fəqli olaraq, məsihi türklərin İsa Məsihə dua və sənaları da türk dilində ifadə olunurdu:

Dini görüşlərdən daha artıq tayfa şüuru və instiktlərilə hərəkət

edən monqol-tatarların İslam dünyasının Böyük Şirvan gerçəkliyinə qarşı tarixi savaşı məhz bu dövrlərdən start götürmüşdür. Biz də başa düşürük ki, bu düşmənçiliyin mental qatları çox dərindir. Məsələn, orta əsr Şirvanında klassik İslam mədəniyyətinə qarşı Monqol-tatar əşirətləri sayılan Qara qoyunlu və Ağ qoyunlu türkmən-tatar tayfalarının özləri ilə Qafqaza gətirdikləri "Kitabi-Dədə Qorqud" dastanlarında üz-üzə qoyulmuş Qıpçaq Məlik ilə Oğuz Qazan xan (Oğuz kağanın Huntürk xaqanı Mete olduğunu nəzərə alsaq, monqol-tatar xanı Qazanın "oğuz" adlandırılması yalnız gülüş doğurur) haqqında uydurma süjetlər, ilk növbədə, şirvan xalqının hədəri mədəniyyətini, klassik simasını köçəri mühitində əridib yox etməyə hesablanmışdır. Ağ və Qara qoyunlu tayfalarının Qafqaza monqollar tərəfindən gətirildiyi məlumdur. Bu dastanın baş qəhrəmanı, əslində, kimdir? Qazan xan adının daha çox bir Monqol noyanının adını xatırlatması unudulmamalıdır. Yeri gəlmişkən, tarixdə iki Qazan xan olmuşdur. Bunlardan biri Hülaki-çobani tatarlarından sayılan Qazan xan (-1295-1304), digəri isə Cığatay Ulusundan, Batı xanın nəslindən olan Qazan xan (1301-1346: ona bəzən Qazan-Teymur xan da deyilib) idi. Qazan xan ünlü monqol-cığatay hökmdarı Özbək xanın (1313-1341) qardaşı olub. Həm Qazan xan, həm qardaşı Özbək xan, həm də sonuncunun oğlu Canı bəy xan (1342-1357) qətiyyətli müsəlmanlar olmaqla, əhli-sünnət müsəlman Şirvanşahların ən yaxın dostu və Hülaki-çobanilərə qarşı mübarizədə müttəfiqləri idilər.

**"Kitabi-Dədə Qorqud"a gəldikdə, onun əslinin bir monqol folkloru- "Sudrın çuulqan" (-Salnamələr toplusu) olduğunu sübuta ehtiyac yoxdur. Əsli monqolca yazılmış bu kitab kökü Azərbaycan atabəylərindən olan məşhur həmədanlı türk-qıpçaq tarixçi Rəşid əd-Din Fəzlullah Həmədaninin (-1247-1318) farscası daha geniş yayılmış "Cəmi ət-təvarix" əsəridir. Bu kitab elxani-monqol Qazan xanının tapşırığı ilə Baş Vəzir Rəşid əd-Dinə yazdırılmışdı. 1301-ci ildə Xan öz vəziri və şəxsi həkimi Rəşid əd-Din Həmədaniyə Monqol xalqının tarixini yazmağı, bu barədə mövcud olan bütün mənbələri bir yerə toplayıb vahid bir kitab halına salmağı əmr edir. Odur ki, bu əsərə eyni zamanda "Tarix-i Qazan" da deyilir. Bu əsər 1311-**

**ci ildə, yəni 10 ilə yazılıb, daha doğrusu tərtib edilib başa çatdırılmışdır.**

Tarix boyu oturaq sivilizasiyalar barbar-köçəri tayfaların arasıkəsilməz basqınlarına məruz qalmışlar. Bu mənada, şirvan xaqı da özünün azadlıq və istiqlaliyyəti uğrunda az mübarizə aparmayıb. Odur ki, qətiyyətlə demək olar: Şirvan tarixi İslam tarixinin ən şanlı səhifələrindən biridir!

Səlib yürüşləri, Monqol-tatar yürüşləri, Temurləngin və Şah İsmayıl Səfəvinin apardığı müharibələr Şirvanşahlar dövlətindən yan keçməmişdir. Monqollara qədər və sonrakı illərdə İslam dünyası 9 Xaçlı (-Səlib) yürüşünü dəf etmişdir: 1) 15 avqust 1096-1099-cu illər; 2) 1147-1149-cu illər; 3) 1189-1192-ci ilər; 4) 1202-1204-cü illər; 5) 1217-1221-ci illər; 6) 1228-1229-cu illər; 7) 1248-1254-cü illər; 8) 1270-1280-ci illər; 9) 1289-1291-cu illər. Lakin bu yürüşlərin heç biri Türk-İslam birliyinə Monqol-tatarların Sarı (-İblis) barbar yürüşü qədər ağır zərbə vurmamışdı. Bu gün monqol Çingiz Xanın tarixini cani-dildən Türk tarixi ilə qarışıq salanlar onu da bilməlidirlər ki, müsəlmanları Monqol-tatar əsarəti altına almış Monqol xanlarından məhz Xabulay 1284-cü ildə özünün hökumət strukturunda İslam dünyasının ərazisində ilk dəfə Xristian Dini İşlər İdarəsi yaratmışdı... Bu o dövrdür ki, xristian monqol-tatar xanları olmuş Batı, Abaqa, Hülaki və başqaları məsihi ağ və qaraqoyunlulara (indi onların varisləri özlərinə nə qədər müsəlman "oğuz" desələr də?!) Şirvandakı məscidləri dağıtdırıb, yerində kilsələr tikdirmişlər. Beləcə, Monqol-tatarların ağ və qaraqoyunluların əlilə həyata keçirdikləri yeni xaçpərəstlik hərəkatı Şirvanda fəaliyyətini 642-ci ildən etibarən dayandırmış kilsələrin bərpa və təkrar fəaliyyətinə rəvac verdi. Nəticədə, Müqəddəs Yelisey (VI-XIII əsrlər), Xatvarak (XIII əsr), Böyük Aran (VI-VIII əsrlər), Gəncəsar (XIII əsr, ind. Ağdərə r-nu), Yeddi kilsə (V-VIII əsrlər), Xotavəng (XIII əsr, ind. Kəlbəcər r-nu), Həmşivəng (XIII əsr, ind. Gədəbəy r-nu), Hütəvəng (XIII əsr, ind. Hadrud r-nu) və s... kimi kilsələr inşa olundu. Şirvanşahlıq daxilində İslamı zəiflətmək, prinsipcə, bu müsəlman dövlətin təməllərini dağıtmaq demək idi. İndi Vatikandan gətirilmiş "əlyazmaları" ilə öz əcdadlarını İslama bağlamağa çalışan anti-şirvan "tədqiqatçılar" məsihilər ilə Ağ və

Qaraqoyunlu başçılarının qohumluq əlaqələrini də gərək unutmasınlar. Qədim Şir tinətlilər diyarında tolerant mühitin pozulmasında əsas rol indi olduğu kimi, o zaman da məhz bu ikili standartlarla oynayan anti-şirvan güruhun sələflərinə məxsus olmuşdur. Qızıl Ordanın banisi sayılan Batı xanın (1227-1255) komandanlığı ilə Bulqar çarlığı, Qərbi Dəşti-Qıpçaq müsəlmanları, o cümlədən anti-monqol İslam koalisiyasının zəifləməsi üzündən Russ və bütün Şərqi Avropa ölkələri də işğala məruz qalmışdır. Altını cızaraq, xüsusi qeyd etmək istəyirəm ki, yalnız 1320-ci ildən, yəni Özbək xanın dövründən Qızıl Ordanın rəsmi dövlət dini kimi İslam qəbul olunmuşdur. Monqol-tatar aləmində islamlaşma Şirvan ülamalarının fəal beynəlxalq dini-ideoloji fəaliyyətinin nəticəsi idi.

Monqol-barlas Teymurilərin İslam bayrağı ilə pərdələnmiş çöl Yasalarına əsaslanan və Roma Papası ilə razılaşdırılmış İslam-Türk birliyinə qarşı apardığı müharibələr, əslində, Türk-müsəlman dünyasının Orta Asiyadakı Xarəzmşahlar, Ön Asiyadakı İran və Osmanlı, Qafqazdakı Şirvanşahlar, Yaxın Şərqdəki Məmlük-qıpçaq dövlətlərinə növbəti bir Monqol-tartar basqını idi... Əfsuslar olsun ki, Şirvanşahlar dövlətinin varlığına 500 il bundan öncə son qoymuş Şah İsmayıl Səfəvinin Qızılbaş hərəkatı da, bəzilərinin söylədiyi kimi, ümumazərbaycan hərəkatı deyil, prinsipcə monqol-tatar yürüşlərinin davamından başqa bir şey deyildi. 1538-ci ildə “şahi-İran” (Məhəmməd Füzuli) tərəfindən işğala uğramış Şirvanşahlar dövlət 500 ilə yaxındır ki, dünya xəritəsindən silinmişdir... Şirvan dövlətinin 500 il bundan əvvəl süqutunu İranın tarixi xəyanətkarlığı hesab etmiş şirvan əsilli dahi şairimiz Məhəmməd Füzuli yazmışdı:

Gözü doymaz hərisin dəhrdə, çünki həris insan
Olarsa şahi-İran, tutmaq istər mülki-Turanı.
Tamahla odlanan bir qəlbin heç vaxt atəşi sönməz,
Qızıldan ötrü şiddət kəsb edər hər ləhzə böhranı.

(Məhəmməd Füzuli. Xaqani-Şirvaniyə nəzirə olaraq yazılmış “Ənüsil-qəlb” şeirindən).

Bu fikirlərdə anti-iranizm axtarmaq əbləhlik olardı. Çünki Şirvan mədəniyyəti və azadlıq eşqi İran xalqı üçün də daim fərəh və iftixar mənbəyi olmuşdur. Məsələn, Təbriz şairi

Məhəmmədhüseyn Şəhriyar məşhur “Səhəndiyyə” poemasında Şirvana vurğunluğunu belə ifadə etmişdir:



Gül ağacları nə tavus kimi çətrin açıb əlvan,
Hillə karvanıdı çöllər, bəzənər sürsə bu karvan...
Dəvə karvanıdı dağlar, yükü atlasdı bu heyvan,
Sabirin şəhrinə doğru qatarı çəkmədə sarvan-
**O XƏYALIMDAKI ŞİRVAN!..**
...Qəsrlər vardı qızıldan, qalalar vardı əqiqdən,
Rafael tablosu tək səhnələri əhdi-ətiqdən!..
**(M.Şəhriyar. Yalan dünya. AE nəşri, Bakı-1993, səh.: 77)**

Bakıda şirvanlı mövlanə sufi şair-filosof Baba Dağ Bakuviyə kiçik də olsa, bir büst qoyulmadığı halda, bütün İran əhalisi indiyədək bizim X əsr sənətkarımızın Şirazdakı məqbərəsini ziyarətə gəlir... Qəribə deyilmi?!.

Şirvan tarixi Avrasiya tarixinin ən şanlı səhifəsidir!.. Bu gün Yeni Avrasiya Birliyi uğrunda mübarizə aparan qüvvələr çox gözəl bilirlər ki, Avrasiyanın arteriya damarı sayılan Şimal-Cənub tranzit yoluna nəzarət əsrlərcə Şirvanşahlar dövlətinə məxsus olmuşdur. Bu yolun paralizə edilməsi məhz Səfəvi xanədanı tərəfindən Şirvanın istilası ilə başlamışdır. Şirvanşahların öhdəsində olmuş Xəzər və Mazandaran sahilləri boyu Hindistanadək taranzit xəttini nəzərə alan Gürcü səlnaməçiləri bu coğrafiyanı bütünlüklə “Şirvan” kimi tanımışlar. Səfəvilərin Şirvan istilası Avropa geopolitikasının strateji məqsədlərindən biri idi. Lakin 500 illik bu istila tarixi yalnız Şirvan mənəvi ruhunun ölməzliyini və əbədiyyətini sübut etdi. Şirvanlıların ilk qürbət odisseyası yadelli gilan, deyləmi-kəsrani

istibdadı dövründən başlamışdır. Bu qürbətin ilk izi uzaq-yaxın Təbrizdə "Şairlər məqbərəsi"ndə əbədi uyuyan Xaqanimizin ilk qərib məzarıdır. Bu taleyi ondan sonra Seyid İmadəddin Nəsimi (1369-1417), Seyid Əli Zülfiqar Şirvani (1190-1304, məzarı Sürxab qəbiristanlığında Xaqani ilə yanaşıdır), Həbibi (?—1518. Südlücə, Cəfərabad təkyəsi), Nitqi Şirvani (XVI əsr), Məhcur Şirvani (XVIII əsr), Ağa Məsih Şirvani (XVIII əsr), Mirzə Nəsrullah Bahar Şirvani (1834-1883. Təbrizdə Sürxab məqbərəsində dəfn edilib), Məhəmmədhüseyn Rüsva Şirvani (Baharın qardaşı, Kaşanda dəfn edilib) və başqaları yaşadılar. Nə qədər faciəvi görünsə də, etiraf etmək lazımdır ki, XVII-XVIII yüzilliklərdə Azərbaycan ədəbiyyatı tarixində xüsusi bir hadisə--Mühacirət ədəbiyyatı meydana çıxır. Şah Abbasın hakimiyyəti illərindən bu hicrət daha da artıb kütləvi hal almışdı... Belə ki, Şakir, Naseh, Vahid, Nadir,Vüqui, Zahid, Hali, Həsiri və b. İsfahana sürgün edilir. 30-dan artıq şair ölkədən baş götürüb qaçır: Saib, Məsih, Arif, Məhvi, Məlun, Hümai, Şeyda, Rabit, Razi, Rəhməti, Rəşid... Habelə, Bürhan,Yusif Qarabaği kimi şairlər Şah Abbasın əli çatmayan yerlərdə yazıb-yaradırlar... Bu gün Azərbaycan ədəbiyyatşünasları və onun akademik təsisatları (Ədəbiyyat İnstitutu, Əlyazmalar İnstitutu, Ədəbiyyat Müzeyi və i.a.) isə şirvan xalqının mədəni irsini öz vətəninə qaytarmaq fikrindən çox uzaq görünürlər. Antişirvanizm ədəbiyyat alanını o qədər bürüyüb ki, onlar Şirvanşahlar dövlətinin klassik yazılı ədəbiyyatını XIII-XV əsrlər monqol-tatar dövrünün gəlmə ünsürü olan "Kitabi-Dədə Qorqud dastanları"ndan belə sonrakı mərhələyə salmaq üçün bir-biri ilə yarışa girmişlər.

Bu günlərdə yenidən Vatikan kitabxanasından Qara kıyın və Ağ kıyınlara aid minlərcə əlyazma sənədləri gətizdirmiş "tədqiqatçı" cənablar X əsrin ən böyük ədəbi dühası olan Baba Dağ Bakuvi Şirvaninin (933-1050) dünyaca məşhur Divanının surətini İrandan öz tarixi vətəninə gətirmək fikrinə belə düşməmişlər?!. Və düşməyəcəklər.

Şirvanşahlar cəmiyyəti bəşər mədəniyyətinə X əsrin ən nəhəng ədəbi-fəlsəfi siması sayılan mövlanə Baba Dağ Bakuvi-Şirvanini (-Əbu Abdullah Əli ibn Məhəmməd Bakuvini) bəxş etmişdir.

Məzarı bu gün İranın cənubunda Şiraz yaxınlığındakı Cəfərabad kəndi üstə dağ başında yerləşən bu dahi filosof-şairin məqbərəsi min ildir ki, Arazın hər iki tayı üçün ziyarətgah hesab olunur.




Baba Dağ Bakuvinin (933-1050) dünya xalqlarının əksəriyyətinin dilinə tərcümə olunmuş Divanından cəmi bir qəzəlini mən ingiliscədən onun öz doğma şirvan türkcəsinə tərcümə etmişəm:

Hər məscidə, hər deyrə varıb Allahı gördüm!
Min daği-Bisütunu yarıb Allahı gördüm!

Qəlbimdə kədər, qüssə, "pənah Allaha" derkən,
Hər dərdimə dərmanı bulub Allahı gördüm!

Dildən duamı eyləmədim əskik Onunçun,
Allah Rəsulun yada salıb Allahı gördüm!

Ruhumla, vücudumla Ona can nisar etdim,
Dünyəvi-məfihaya dalıb Allahı gördüm!

Açdım gözümü aləmə bir nur məni tutdu,
Yumdum gözümü nuru sarıb Allahı gördüm!

Bir şam kimi atəşdə yanıb can əridirdim,
Od dilləri tək hey ucalıb Allahı gördüm!

Baxdım özümə gözlərimi pərdə qapatdı,
Baxdım yuxarı səcdə qılıb Allahı gördüm!

Köçdüm, bu fəna mülkünü tərk eylədi cismim,
Ruhumla, BABA, baqi qalıb ALLAHı gördüm!

Ölməz şairimiz Səməd Vurğun "Bakının dastanı" poemasında "çörəkli Kürdəmir, şeirli Şirvan" yazarkən, məncə, bu camaatın daha çox xeyirxahlıq ənənələrini nəzərdə tutmuşdu. Allahpərəst, saf qəlbli, zəhmətkeş bir xalq kimi şirvanlıların daim yazılı ədəbiyyatımızda nümunəvi obrazı yaradılmışdır.

Şirvanın tərifi Şirvan şahlarına daha çox tənqid yazmış Xaqanidən başlamışdır. Çünki şirvanlılara şahsevənlikdən çox, vətənsevərlik ruhu xasdır. Amma özünü XIX əsrdə "naibi-Xaqani" adlandıran ilk ən böyük avrasiyaçı şair-pedaqoqumuz dahi Seyid Əzim Şirvani öz qədim dövlətinin şirvanşahlarını belə vəsv etmişdir:

Bu həmin şəhrdi kim, adlanır idi Şirvan:
Burda Şirvanşəhilər dutdu səadətlə məkan.
Axsitan şah, Xəlil şah, o şahi-Xəndan—
Bax təvarixlərə gör nə hekayət görünür!..

Onu da xüsusi qeyd eləmək istəyirəm ki, Şirvan şahlarının haqqında müsbət fikirlərin səsləndirilməsi halları Böyük Vətən müharibəsi illərində artmışdı. Məncə, burada sonralar kommunizmə xəyanətdə və "şirvanpərəstlikdə" Mühakimə edilmiş görkəmli siyasi xadim Mir Cəfər Bağırovyn əvəzsiz rolu



olmuşdur. Azərbaycanda ilk belə elmi çıxışı **böyük rus alimi İlya Pavloviç Petruşevski** etmişdir. Böyük Vətən müharibəsinin ən qaynar ilində, yəni **1942-ci ildə onun Bakıda nəşr etdirdiyi "Великий патриот Ширваншах Ибрагим" kitabı** ölkədə uzun əsrlər tabu sayılmış mövzunu gündəmə gətirdi. Akademiyanın nəşri olan bu əsər yeni-yeni tədqiqata yol açdı. Əlbəttə, alim Dərbəndilər türk sülaləsinin ilk padşahının müsbət xüsusiyyətlərini sadalayarkən, ilk növbədə, onun Şahlıq seçiminin xəlqiliyini göstərmişdir. Mənim "Şirvanşahlar haqqında saqa" roman-epopeyamda "Şirvanşah Şeyx İbrahim" trilogiyam xüsusi yer tutur. Epopeyada bu dahi şəxsiyyətin uşaqlıq, gənclik və padşahlıq dövrünün ən mühüm hadisələri yer almışdır. Azərbaycan ədəbiyyatında əsl şah necə olmalıdır sualı hələ

Nizami Gəncəvi çağından bəri qoyulmuşdur. Mən bu suala real tarixi şəxsiyyətin simasında cavab verməyə çalışmışam.

http://anl.az › upload › File › berpa › berpa-25-file PDF

Великий патриот Ширваншах Ибрагим

Азербайджанской Республики. Национальная Библиотека Азербайджана имени М.Ф.Ахундова. Проф. И.П. ПЕТРУШЕВСКИЙ. ВЕЛИКИЙ ПАТРИОТ. ШИРВАНШАХ...

21 səhifə







Şirvanşah Şeyx İbrahim barədə akademik nəşrin özündən gətirilmiş sitatda professor İ.P.Petruşevsi şirvan xalqının seçimi ilə bağlı həmin suala yığcam bir cavab verərək yazırdı:

Выбор оказался чрезвычайно удачным. Ибрагим был прежде всего патриотом, горячо любившим свою родину и готовым пожертвовать для нее своим положением, своим самолюбием, имуществом, жизнью. Этот патриотизм Ибрагим доказал всем своим последующим поведением. Он смотрел на себя не как на господина – вотчинника, а как на первого слугу своего государства. При военных конфликтах с сильными державами гибкая тактика Ибрагима сводилась к тому, что в тех случаях, когда приходилось иметь дело с противником, располагавшим подавляющим превосходством, Ибрагим готов был наружно подчиниться, дабы сохранить существование своего государства, но там, где была какая-либо надежда на успех, Ибрагим отстаивал независимость Ширвана с величайшим упорством.

Bu gün də bizim ölkəmiz mürəkkəb geopolitik problemlər ilə üz-üzədir. Rusiya və Ermənistan ilə olan mövcud ziddiyyətlər bu qəbildən hesab edilə bilər. İllərlə yaxın dostluq və qonşuluq şəraitində yaşamış Avrasiya xalqları və ölkələri arasında yenidən dərin Sülhün əldə edilməsi yolunda hər bir ziyalı zəhmət çəkməlidir. Şirvan şahları ilə Rusiya arasında tarixən həm dostluq və sülh, həm də müharibə dövrləri olub. Lakin bu heç vaxt xalqlarımız arasında açıq düşmənçiliyə çevrilməmişdir. Əgər belə

olmasa idi, şirvanlı memar Kərəm Əli bəy hələ XIV əsrdə monqol əsarəti altında olmuş rus xalqı üçün Ağdaşlı Kremlə ilk memarlıq etməzdi... Tarix sübut edir ki, ikinci Rus paytaxtının ağac tipini ilk dəfə məhz şirvanlılar daş cildə salmışlar. Mənim artıq tamamlamaq üzrə olduğum “Şirvanşahlar haqqında saqa” roman-epopeyamın ikinci kitabında bu örnək hekayət geniş qələmə alınmışdır. Bu monimental Saqa şirvan xalqının oturaq sivilizasiyasının ilk yazılı dastanıdır. İnanıram ki, onun əsil qiymətini ilk öncə öz doğma xalqım, sonra isə qardaş rus xalqı verəcəkdir!..

Şirvan ilə Rusiya arasında belə tarixi əlaqələr çox zəngindir. Təkcə bir faktı göstərmək istəyirəm: Şirvanşahlarin qədim paytaxt şəhərlərindən biri olmuş Dəmir Qapı Dərbənd bu gün Rusiya Federasiyası ərazisindədir və onun ən qədim şəhəri hesab olunur. Deməli, Şirvan tarixi yalnız Azərbaycan Respublikasının deyil, artıq Rusiya tarixinin də ayrılmaz bir səhifəsinə çevrilmişdir. Ona görə də “Şirvanşah Şeyx İbrahim Dərbəndi” tarixi trilogiyamın birinci cildini Rusiya Federasiyasının möhtərəm prezidenti Vladimir Vladimiroviç Putinə həsr etmişəm. Bu gün Avrasiya birliyi istiqamətində göstərilən geopolitik fəaliyyətlər bizim üçün çox önəmli məsələdir. Azərbaycan xalqı öz yaxın keçmişini yenidən xatırlamaqla, ötən bir neçə on illikdə buraxılmış səhvlərindən və əldə edilmiş uğurlarından müsbət nəticələr çıxarmalıdır.

Mehriban Əliyeva bir siyasətçi olaraq ilk növbədə ümummilli liderimiz Heydər Əliyevin seçimidir. Ona həvalə edilmiş ilk ən prestij vəzifə Heydər Əliyev Fondunun prezidentliyi olmuşdur. 2004-cü ilin 10 mayında-Heydər Əliyevin doğum günündə təsis edilmiş Heydər Əliyev Fondunun əsas məqsədi milli-mənəvi dəyərlərimizi qorumaqdan ibarətdir. Bu gün elm, təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafını təmin edən layihələrin dəstəklənməsində də aparıcı rolun məhz bu Fond tərəfindən oynanılması təsadüfi deyil. Mənim 10 ildən yuxarı fasiləsiz çalışdığım Azərbaycan Prezidentinin Mətbuat Katibi xidmətini 46 yaşında tərk edəndən cəmi 12 gün sonra xanım Mehriban Əliyeva Heydər Əliyev Fonduna rəhbər təyin edilmişdi... O vaxt mən bu vəzifənin nə üçün yaradıldığını təxmin edərkən, bəzi kiçik

səhvlərə yol vermişdim. Mənim ilkin qənaətim belə idi ki, Mehriban Əliyevanın "mədəniyyət sahəsində fəaliyyəti"nin siyasətə heç bir dəxli yoxdur və yəqin ki olmayacaq. Amma mən öz şirvanlı sadəlövhliyimə aldanmış oldum. Tarixi hadisələrin sonrakı gedişatı göstərdi ki, xalqımızın və vətənimizin gələcək taleyi bu gün Prezident İlham Əliyev qədər və bəlkə də daha artıq Mehriban Əliyevanın Heydər Əliyevçi siyasi kursa münasibətindən asılıdır. Xalqımızı yaxın keçmişin qaranlıq girdabından işıqlı sabaha çıxarmış Ulu Öndərimiz Heydər Əliyevin layiqli seçimi olaraq, ölkəmizin Birinci Ledisi və Birinci vitse-prezidenti Mehriban Arif qızı Əliyeva hansı geopolitik yola üstünlük verəcəkdir?!.

Bu gün Avroatlantik geosiyasətin başında ABŞ, Avrasiyaçılığın başında isə Rusiya Federasiyası durmuşdur. Özümə gəldikdə, açıq etiraf edirəm ki, mən avrasiyaçıyam!!.

(ardı var)

**AtaTv.az**

# Ata TV

18 avqust 2021. 11:52

**Namiq Atabeyli**
**ЕВРАЗИЙСКИЙ ПИСАТЕЛЬ, г. БАКУ**
**E-MAIL: farajovnamiq@ gmail.com**

## ШИРВАННАМЕ, или ЕВРАЗИЙСКАЯ МОДЕЛЬ БУДУЩЕГО АЗЕРБАЙДЖАНА



**Только змеи сбрасывают кожи,**
**Чтоб душа старела и росла.**
**Мы, увы, со змеями не схожи,**
**Мы меняем души, не тела.**
**(Nikolay Qumilyov)**

## II YAZI



Bu gün kimsəyə sirr deyil ki, Avroatlantik geosiyasətin başında ABŞ, Avrasiyaçılığın başında isə Rusiya Fedaerasiyası durmuşdur. Amerika geosiyasi məktəbi admiral Alfred Meksenin “Dəniz qüvvələrinin tarixə təsiri (1660-1783)” və “Amerikanın dəniz qüvvələrinə marağı” əsərlərinin ideya təsiri altında

formalaşmışdır. A.Meksen “dəniz qüvvələri” konsepsiyasını geopolitik üstünlüyə nail olmağın əsas amili kimi irəli sürmüşdür. Bu məqsədlə o, rəqib ölkələrin əsas strateji obyektlərinin dəniz yolları vasitəsilə mühasirəyə alınmasına hesablanmış “Anakonda prinsipi” adlı qlobal geopolitik strategiya yaratmışdır. Bu strategiya ABŞ, Böyük Britaniya, Almaniya və Yaponiya kimi əsas dəniz dövlətlərinin ən iri kontinental Avrasiya dövlətlərinə-Rusiya və Çinə (o cümlədən Turan xalqlarına) qarşı vahid blokda birləşməsini perspektiv məqsəd elan edirdi. Göründüyü kimi bu ideya “Dəniz” ilə “Quru” arasında əbədi qlobal münaqişələr prinsipi üzərində qurulmuşdur.

Alman geopolitik məktəbi bu konsepsiyadan cüzi olaraq fərqlənir: Kayzer hökumətinin ekspansiya və təcavüzkarlıq xarici siyasətini nəzəri əsaslandırmaq məqsədini güdən bu geosiyasət F.Ratselin “territorial genişlənmə”, K. Xausxoferin “alman fövqəl dövlətçiliyi”, R.Çelleinin “fövqəlregion” ideyalarını əsas götürürdü. Regionun başlıca kontinental gücü statusunu almağa çalışan Almaniya bu sahədə Böyük Britaniyanı əvəzləməyə çalışırdı. Xausxofer dörd panregion: ABŞ-mərkəzli Amerika, Almaniya-mərkəzli Avropa-Yaxın Şərq-Afrika, Yaponiya-mərkəzli Şərqi Asiya və Sakit Okean, Rusiya-mərkəzli Rusiya çölü-Sibir-İran-Hindistan panregionlarını yaratmaq təklifini vermişdi. İngiltərəyə qarşı duruş gətirmək üçün məhz bu üzdən Almaniya, SSRİ və Yaponiya kontinental bloku nəzərdə tutulmuşdu. Lakin SSRİ ilə konfliktə girən Alman nasist rejimi K.Xausxoferin bu sağlam ideyasından əl çəkdi, özünü isə daxili düşmən kimi Daxau konslagerinə göndərdi. Karl Xausxofer burada həyatını intiharla başa vurdu. İki cəbhədə vuruşan Alman faşizminin aqibəti isə hamımıza məlumdur...

Azərbaycan xalqının belə bir mürəkkəb tarixi dövrdə yetişdirdiyi ilk böyük siyasi şəxsiyyət general-polkovnik Mir Cəfər Bağırov olmuşdur. Təəssüflə qeyd etmək istərdim ki, Azərbaycan cəmiyyətinin əksər hissəsində xalqımızın ilk dahi Avrasiya geosiyasətçisi Mir Cəfər Bağırov haqqında hələ də dəqiq düzgün məlumatlar formalaşmamışdır. **1990-cı ilin 22 iyun tarixində “Azərbaycan müəllimi” qəzeti üçün iki sabiq kommunist Partiya funksioneri- Heydər Əliyev və Mir Cəfər**

**Bağırovun müdafiəsilə bağlı bir müsahibə hazırlamışdım.** Sonra bu müsahibənin bir hissəsini "Azadlığın qədri" (İşıq nəşriyyatı, Bakı-1996) adlı ilk publisistik kitabıma daxil elədim.



Bu gün "Heydər Əliyev. E-Sənədlər toplusu"nda yer almış bu ktabda təkrar işıq üzü görmüş həmin fikrimi təkrar təqdim edirəm: "İstər M.C.Bağırov, istərsə də H.Ə.Əliyev olsun- bizim tariximizin ayrılmaz parçası olan şəxsiyyətlərdir. Onların fəaliyyətinə düzgün elmi-tarixi qiymət vermək... əvəzinə, söyüşlər çap eləmək... tarixə ləkə yaxmaqdan başqa bir şey deyil."

Mən heç bir siyasi partiyanın üzvü deyiləm, heç vaxt olmamışam da... Amma Heydər Əliyevin hakimiyyətsizliyi və ikinci hakimiyyəti dönəmində onun Avrasiya mövqeyini müdafiə etmişəm. Nə üçün? Çünki SSRİ-nin çöküşündən sonra məhz Ulu Öndər Heydər Əliyev Qafqazda baş verən geopolitik kataklizmlərin əsil mahiyyətindən və səbəblərindən baş aça bilən yaganə Lider olduğunu sübut edə bildi...

Bu barədə yazdıqlarımı təkrarlamaq istəmirəm. Bu fikirlər yığcam halda mənim son dövrlərdə bir çox E-Saytlarda dərc edilmiş yeni məqalələrimdə də öz əksini tapmışdır. Odur ki, Mir Cəfər Bağırov haqqında fikirlərimə yenidən qayıdaraq, onları bir daha hörmətli oxucular ilə bölüşmək istərdim. Kimsə səhvsiz olmur. Mir Cəfər Bağırova münasibətdə mənim də gəncliyimdən irəli gələn bəzi yanlışlarım olmuşdur. İndi bu böyük tarixi şəxsiyyəti dərindən anlayıb başa düşdüyüm vaxtda, onun ruhu qarşısında üzr diləyirəm. Açıq şəkildə etiraf etməliyik ki, Azərbaycanın ilk mükəmməl Avrasiya modeli məhz Mir Cəfər Bağırov tərəfindən işlənib hazırlanmış və irəli sürülmüşdür. Ötən əsrin ortalarınadək bu görkəmli inqilabçı və əqidəli kommunist qədər öz vətəninin və xalqının gələcəyini dərindən düşünmüş və bu yolda fədakarlıq göstərmiş ikinci bir tarixi şəxsiyyət tanımıram. Sonralar bu tarixi "faktlar" onun güllələnməsi üçün məhkəmə "dəlilləri və sübutları" düzəldənlərin də işinə az yaramamışdır. İstedadlı gənc Bağırovşünas Adıgözıl Məmmədov

bu günlərdə nəşr etdiyi “Mir Cəfər Bağırov: siyasi portret” (“Zərdabi Nəşr” MMC, Baki-2021) kitabında bu əsassız ittihamları onun əleyhdarlarının ifadələri üzrə 10 istiqamətdə qruplaşdırmışdır ki, bunların da hər birində Bağırovun vətənə, xalqa və dostluğa yalnız sədaqəti özünü açıq büruzə verib...

Vətənin və xalqın tarixi taleyinin müəyyənləşməsində M.C.Bağırov özünəqədərki Azərbaycan mədəni elitasının M.F.Axundov, Mirzə Kazım bəy, S.Ə.Şirvani, A.Bakıxanov, Firudin bəy Köçərli, Həsən bəy Zərdabi ilə gələn Avrasiya yönümündən çıxış etmişdir. O, milli kadrlarımızın böyük əksəriyyətini bacardığı qədər totalitar sovet rejimi şəraitində qırmızı terrordan qorumağa çalışmışdır. Bu mənada, Üzeyir bəy Hacıbəyov, Əli bəy Zizikski, Əhməd Triniç, Musa Şəmsəddinski, Mir Əsədulla Mir Qasım, Kübra Fərəcova, Cəfər Cabbarlı, Əziz Şərif, Əliağa Vahid və yüzlərcə b.-nın həyatı labüd repressiyadan xilas olmuşdur.

Avrasiya geopolitikası Rusiyaçılıq demək deyildir. Lakin bu ideyanın ilk müəllifləri və hal-hazırda əsas davamçıları rus ziyalılarıdır. Etiraf etmək lazımdır ki, Azərbaycan tarixində rus ziyalısının müsbət tarixi xidmətləri az olmamışdır. Əlbəttə, bizim azəri xalqımızın nümayəndələri də rus tarixində müsbət fəaliyyətləri ilə daha çox yaddaşlarda qalmışdır. Məsələn, mənim ana babam Rzaxan Əhmədov çox gənc yaşında Böyük Vətən müharibəsində Rusiyanın Hitler faşizmindən müdafiəsində Moskva ətrafında həlak olmuşdur və orada “Qardaşlıq məzarı”larından birində dəfn edilmişdir. Gənc əmim nəvəsi Toğrul bəy Vaqifoviç Fərəcov isə bu gün Rusiya Federasiyasının Kosmik Hərbi silahları üzrə Baş konstruktorudur. Bu kimi faktları istənilən qədər artırmaq da olar...

Rusiya ilə Azərbaycanı bu gün iki düşmən cəbhəyə ayırmaq istəyənlər az deyil. Bu geopolitik oyunlarda öz şəxsi mali maraqlarını güdənləri başa düşmək olar. Amma Azərbaycan ziyalısı adından çıxış edərək, rus xalqını təhqir etməklə özünə ucuz “xal toplamağa çalışanlar” bir şeyi unutmamalıdırlar: tarix bir nöqtədə dayanıb durmur. Ötən əsin sonları ilə əvvəlində buraxılmış tarixi səhvləri təkrarlamaqla biz müasir geopolitik oyunlarda heç nəyə nail ola bilmərik. Müasir Azərbaycanın yolu

nə Məhəmmədəmin, nə də Elçibəyin yoludur. Bu xadimlərimizin hər ikisi Geopolitikanı düzgün başa düşməmişlər. Odur ki, bu səhvlərin bədəlini əvvəla onların özü, sonra da bütün xalqımız ödəməli olmuşdur...

Təəssüflər olsun ki, yuxarıda adı çəkilən xadimlərimiz Qacar xanlığının geopolitikada buraxdıqları səhvləri təkrarlamışlar. Belə ki, Qacar şahları İranı iki hissəyə- cənub və şimal təsir dairələrinə bölərək, cənubu ingilis kralına, şimalı isə rus çarına tabe etməklə guya siyasi bəsirət nümayiş etdirmişdilər?! Nəticə acınacaqlı oldu: çarizm və ingilis imperializmləri son Qacar şahını milliyyətcə talış olan keçmiş çar kazakı Pəhləvi Rza ilə əvəzlədilər. Öncə onu "prezident" kimi təbrik etdilər, sonra isə şaha çevirdilər... Son Qacar şahı Əhməd Qacar isə Londonda səfalət içərisində kimsəsizcə öldü. Yaxud öldürüldü?!. Beləliklə, Qacarlar sülaləsi öz keçmiş sələfi, 1500-ci ildə anti-Şirvan 7 minlik qoşunu əsasən Ərzincan və Mazandaran qacarilər tayfa ünsirlərindən, habelə Rumiyani-sufilərdən təşkil etmiş Səfəvilərin Qərbçi (yunanofil) siyasətinin növbəti qurbanı oldular. Eyni siyasəti son İran şahı da ötən əsrin 70-ci illərində təkrarladı... Bu dəfə də ingilislər ABŞ-n şah oyuncağını Fransa və Rusiya (keç. SSRİ) ilə birləşib Əhməd şah Qacarın yanına- gedər-gəlməzə yolladılar...

Qədim və orta əsrlər dönəmində İran dövləti Şirvanşahlar ilə sabit sülhə əsaslanan diplomatiyaya üstünlük vermişdir. Lakin bu qaydanı pozan Səfəvi xanədanı Şirvan dövlətini aradan qaldıran kimi, Roma katolik Papasının təlimatlarını əldə rəhbər tutaraq, dərhal anti-Rusia, anti-Avrasiya fəaliyyətlərinə başladı. İngilis kapitalını "Şirvan bəylərbəyliyi"nin İpək ticarəti sahəsinə cəlb etdilər. Moskva ilə şərikli olsa da, bu düşünülməmiş addım İranın qaranlıq gələcəyinə ilk yol açdı. İlk Rusiya-İran müharibələri məhz Səfəviyyə dövründən başlandı...

Qızılbaş hakimiyyətinin davamı olan Əfşarilər dövlətinin süqutundan sonra İranda monqol cəlairilərinin qədim bir qolu olan Qacarların (bu tayfa birliyi Mazandaranda hakimiyyət sürmüı ilk monqol noyanı Qacarın adını daşıyır) uzun müddətli istibdad tarixi başladı. Qacarlar sona kimi İranda türk dilinin rəsmi qəbuluna sədd çəkdilər. Təsadüfi deyil ki, məhz onlar İranı

iki təsir dairəsinə böldülər: şimal hissə Rusiyanın, cənub hissə isə İngiltərə kolonistlərinin təsir dairəsinə çevrildi. Bu geosiyasət Avrasiyanın bel xətti sayılan qədim Şirvan dövlətçiliyinin bütün əski nailiyyətlərini məhv etməyə hesablanmışdı. Başdan-başa anti-Avrasiya mahiyyəti daşıyırdı.

İndiki İran "molla regimi" Fransa və keçmiş SSRİ-nin sayəsində qurulmuşdur. Görünür ki, İran özünün bədnam keçmişindən tarixi dərs almışdır: bu günkü anti-türk İran rejimi özünü müəyyən mənada Avrasiya geopolitikasının ən sabit və ardıcıl üzvlərindən biri kimi aparmağa çalışır. O, Çin, Rusiya, Turan dövlətləri, o cümlədən Pakistan ilə pozitiv siyasət yürüdür.

Halbuki yaxın keçmişimizdə eyni rejimin əmmaməli və əmmaməsiz agentur şəbəkəsi (90-cı illərdə) bizə Rus imperializminin "şər üzünü" geniş təbliğ edir, bununla da anti-Rusiya təbliğatı aparırdı.




Tarixi hadisələr aydın şəkildə göstərdi ki, ikisifətli İran molla rejimi bizə dost dövlət deyildir. Lakin bu heç də o demək deyil ki, gələcək bizi qarşıdurmaya və müharibəyə sürükləməlidir. İrandakı rejim bu xalqın daxili işidir. Azərbaycan Respublikası İRANİZMin daxili mahiyyətinə və anti-türk cərəyanlarına qarşı yalnız RESPUBLİKANİZM ideologiyası ilə mübarizə aparmamalıdır. Çünki İran özünü bizdən az respublika hesab etmir. Məncə, çağdaş anti-İran geo-oyunda neoşirvanizm ən güclü ideoloji gedişdir. Şirvanşahlar bizim ölkəmizin tarixində yeganə faktordur ki, biz onu oturaq mədəniyyətimiz olaraq ortaya çıxara bilirik. Bütün digər hallarda bizim öz keçmişimizi köçəri, gəlmə tayfalara, o cümlədən monqollara bağlamaq tendensiyalarımız daha çox İranizmin təbliğat işinə yarayır. Mənim qələmə aldığım "Şirvanşahlar haqqında saqa" roman-epopeyam da məhz bu ideoloji təhlükəyə qarşı sağlam milli məqsədə xidmət üçün yazılmışdır... Təəssüf ki, ölkəmizdə bölücülük xəstəliyinin xroniki daşıyıcıları anti-Şirvan platformadan bir addım da geri çəkilmək istəmirlər. Onlar üçün babalarının köçərilik keçmişi hər cür oturaq sivilizasiyadan daha

əhəmiyyətlidir?!. Qarət, yəğma və soyğun psixologiyası əvəz edilməzdir. Bu, onları monqol-tatar keçmişə bağlayan bağdır.

Tarixə kiçik bir ekskurs edək: Çar Rusiyası XIX əsrin ikinci on illiyində Qafqaza növbəti gəlişində Şirvanda monqol-tatar işğalları dövrünün idarə sistemi olmuş keçmişin üzdəniraq "xanlıq üsuli-idarələrini" ləğv etmiş və burada ilk idarə sistemi kimi mərkəzi Tiflis olan İmeretiya quberniyasını və mərkəzi Şamaxı olan Kaspi vilayətini yaratmışdı. Bu dövr Şirvanda maarifçiliyin ilk çıçəklənmə mərhələsidir. Maarifçilik işığı məhz Şamaxıdan orta əsrlər yuxusunda yatmış bütün Şərqə yayılmışdır. Təsadüfi deyil ki, Rusiya imperiyası tarixində Şərqşünaslığı elm səviyyəsinə də məhz Kazan Universitetinin şirvanlı dekanı Mirzə Məhəmməd Əli KAZIMBƏY qaldırmışdır. Deməli, Rus elmi ictimaiyyəti Şərqə Mirzə Kazımbəyin gözlərilə baxmışdır. Bu mənim yox, böyük rus şərqşünası B.B.Bertelsin qənaətidir. Odur ki, mən Saqamın ilk romanını- " Şirvanşah Böyük Axsitan" kitabımı Mirzə Kazım bəyə ithaf etmişəm.

Biz şirvanlılar, əlbəttə, əcdadlarımızın qədim və orta əsrlər tarixini təhrif etməklə məşğul olan psevdo-ziyalıcıqlara yalnız əməli işlərimizlə cavab veririk... Çar Rusiyasının bizim əhaliyə "adurbadaqan" və "alban" taxma isimlərini verdiyi ilk gündən dahi Seyid Əzimlərimiz X əsrdən bəri sürüb gələn mədəni ənənələrimizə sədaqətini nümayiş etdirmək üçün özlərinə "ŞİRVANİ" nisbəsini götürmüşdülər.

Fərhad mənəm ki, belə şirin-süxənim var!
Yox məmləkəti-Reydə şəhi-Nasiri-dinin
Ol gövhəri-nayibi ki, Şirvanda mənim var!..

Seyyid, nə gərəkdir mənə ol ləli-Bədəxşan,
Yüz lələ dəyən tazə əqiqi-Yəmənim var!..

Xalqımızın hansı mədəni dəyərləri əldə rəhbər tutacağından gələcəyimiz çox asılıdır. Az da olsa, tarix savadı olan hər kəs bilir ki, insanlıq tarixində ayrı-ayrı mədəniyyətlərin məhvi az olmayıb. Misir Memfes, Hindistan Xarappa, Mohenco-Daro, Kiçik Asiya Şumer, Akkad, Urartu və indiki ABŞ ərazisindəki qırmızıdərililər mədəniyyəti bu süqutun örnəkləridir. Amma müasir Azərbaycan cəmiyyəti hələ çox gəncdir. Bu ölkənin qədim tarixində yalnız bir

oturaq sivilizasiya mövcud olmuşdur: Şirvan mədəniyyəti. Biz bu oturaq sivilizasiyanı yaşatmalıyıq.

Odur ki, mənim fikrimcə, müasir kiber sivilizasiyanın yalnız oturaq xarakterli olmasını nəzərə alaraq Yeni Şirvançılıq ideoloji xəttinə qayıtmaqla öz gələcəyimizi daha təməlli qura bilərik. XXI əsrin cəmiyyətini yalnız perspektiv layihələr üzrə potensial qüdrətə çevirmək mümkündür. Bu inkişafın lekomotivi, heç şübhəsiz ki, müsir düşüncəli gənclik ola bilər. Onların qarşısında bu gün iki perspektivdən birini seçmək məcburiyyəti var: ya quruculuq mərhələsini yaşayan Vətən (Avrasiya coğrafiyası), ya da inkişaf etmiş Qərbə (ABŞ və Avropaya) mühacirət. Ölkəmizin demokratik inkişaf istiqaməti və milli dəyərlər sistemi yetişməkdə olan gəncliyin tarixi seçimini müəyyənləşdirəcəkdir... Bunu hal-hazırda süni insidentlərlə özlərini "siyasiləşdirməyə" çalışan bəzi əsayiş keşikçilərimiz də unutmamalıdırlar. Azəbaycanda son dövrlər, çox təəssüflər olsun ki, "polis macəraları" əsas mövzu halına gətirilmişdir. Əslində, bu gün müəyyən qüvvələr bundan istifadə edərək, cəmiyyətdə diqqəti əsas mövzudan yayındırmağz çalışırlar.

Mən sevimli müəllimim Bəxtiyar Vahabzadənin diplomat oğlu İsfəndiyar Vahabzadənin bu günlərdə "rus millət" əleyhinə səsləndirdiyi təhqirləri bağışlanmaz səhv hesab edirəm. Onun RF Dumasının vitse-spikeri Jirinovski əleyhinə "cavab xarakterli" çıxışını, bəlkə də, anlamaq olar, amma Rus millətini nə üçün aşağılamağını başa düşmək imkansızdır. Azərbaycan xalqının Rusiya ilə müsbət qonşuluq və əməkdaşlıq münasibətləri uzun sürən gərginlikdən sonra çıx çətinliklə əldə olunmuşdur. "Rus milləti murdar donuzdur" tipli ifadə tərzi nəinki şəxsən sabiq diplomatımıza, ilk növbədə Azərbaycanın görkəmli şairi və mənim Universitet müəllimim Bəxtiyar Vahabzadənin oğluna yaraşmır!!. Bu günlərdə İnternet mediada məndən müsahibə götürən gənc jurnalistə hər hansı milləti, o cümlədən erməni xalqını aşağılayan ifadələr işlətməkdən çəkindirməyə çalışdım. Məncə, döyüşən ordunu qoyub, əməkçi xalqa qarşı "mübarizə aparmaq" siyasi donkixotluqdan başqa bir şey deyil.

Avrasiya məkanında yazıçı olmağımla bərabər, siyasi-ideoloji baxışlarıma görə, mən sosialist solçu vətənpərvərlərdən biriyəm.

Postsovet məkanında gedən 40 illik son geopolitik prosesləri diqqətlə təhlil edərkən belə bir qəti qənaətə gəldim ki, Yeni



Avrasiyaçılıq hərəkatının lideri rus siyasi xadimi, Rusiya Federasiyası Dövlət Duması "Ədalətli Rusiya" fraksiyasının rəhbəri vitse-spiker, "Ədalətli Rusiya-Vətənpərvərlər-Həqiqət uğrunda" partiyasının sədri cənab Sergey Mironovun aşağıdakı fikirlərində uzun illər axtardığım dərin həqiqətlər vardır: **"Мы считаем, что альтернатива — это будущее нашей страны. У нас должна быть только социалистическая альтернатива… Я категорически не хочу строить капитализм. Я не хочу, чтобы мерилом всего у нас были деньги. Все определяют деньги! Это бесит просто!.." Sergey Mironov** yaxın keçmişə qiymət verərək haqlı nəticəyə gəlmişdir: "...**У нас социализма в Советском Союзе не было реально. Эта идеология коммунистическая и номенклатура все пожрала. И в этой связи как сегодня номенклатура и коррупция пожирает основы нашего государства, мы тоже это видим. Поэтому при социализме нормальном никто еще не жил.»**

Sergey Mironova görə, **"реальный социализм — когда не только социальная защищенность, но и государство уважительно относится к своим людям. Не запрещает им выезжать за рубеж; дает им возможность нормально зарабатывать, а не всех ровненько по одной полочке расставляет; и не навязывает идеологию, в которую сами не верят. Вот это не нужно делать. Если у государства есть идеология, она должна быть такой, которая признается всеми и которую большинство разделяют...»**

Nəticələri nəzərə almadan səbəblər üzərində baş yormaq da məntiqi planda mənəvi donkixotluqdur. Çünki nəticə gerçəyin yeganə görünən üzüdür. Əlbəttə, həyatda pul da qazanmaq lazımdır. Lakin bu, idala çevrilməməlidir. Mənim ilk tarixi epopeyamda və süjetli poemalarımda Şirvanda xeyriyyəçiliyi ilə

məşhur olmuş sahibkarlarımızdan Xacə Fasih Bakuvi-Şirvani və Xacə Şamil Sığırlı-Şirvani (XIV əsr), Nabat xanım Aşurbəyli və Mahmud ağa (XIX-XX əsrlər), Hacı Zeynalabdin Şirvani (XIX əsr) və Hacı Zeynalabdin Bakuvi (XX əsr), İsmayıl İsmayılov (XXI əsr) kimi tarixi simalarımızın parlaq obrazları yaradılmışdır. Bu böyük biznes xadimlərimizin Rusiya ilə müsbət əlaqələri, qarşılıqlı faydaya söykənən tarixi fəaliyyətləri gələcək nəsillərimiz üçün də əsl örnəkdir.



Bu günlərdə «Vahid Rusya» partiyasından Dövlət Dumasına qarşıdakı seçkilərdə federal lider kimi irəli sürülmüş beş liderdən biri olaraq, cənab **Sergey Şoyqu** siyasi arenaya Rusiya paytaxtının Sibirə dəyişdirilməsi təklifi ilə gəldi… Bu ideyada Azərbaycan üçün də müsbət toxumlar az deyil. Çin-Hindistan (şimal-cənub) tranzit yolunun çəkilməsi gələcək Avrasiyanın strateji hədəflərindən biridir. Paytaxtın Sibirə dəyişdirilməsi ideyası PANRUSİYA geopolitikasında ABŞ-ın yeni yaratdığı Dördlük hərbi bloka- kvadrantaya (ABŞ-Avstraliya-Hindistan-Yaponiya) qarşı yeni güc mərkəzi formalaşdırmaq məqsədini ifadə edir. Bu layihə hələ Çar Rusiyası tərəfindən irəli sürülmüşdü. İngilis kolonistləri İranı iki hissəli təsir dairəsinə bölməklə bu mühüm layihənin gerçəkləşməsini əngəllədilər. 1917-ci ildə Çarizmin devrilməsinin başlıca səbəbi də məhz bu layihə oldu. Quru ölkələri siyahısına daxil olan müasir Azərbaycan Respublikası üçün müasir rus siyasətinin böyük simalarından biri kimi general-mayor Sergey Şoyqunun irəli sürdüyü Asiyanın mərkəzində Rusiya paytaxtının yerləşməsi, heç şübhəsiz, yeni müsbət ideya olaraq böyük əhəmiyyətə malikdir... Sibirdə Çin investiyasının hesabına milyonluq onlarca yeni sənaye şəhərinin salınması nəzərdə tutulmuşdur. Əlbəttə, Azərbaycan bu qlobal layihədən kənarda qalmayacaq. Və qala da bilməz. Zatən Qarabağ münaqişəsinin son uğurlu həllində də Rusiyanın bu tranzit siyasətinin az rolu olmayıb... Məni bu kimi məsələlərdə ən çox gələcək Azərbaycanın Avrasiya modelinin necə olacağı

maraqlandırır. Biz hansı yolla gedəcəyik?.. Mehriban Əliyeva ilə bağlı silsilə yazılarımda məhz bu oriyentasiyanı qabarıq nəzərə çarpdırmağa çalışmışam:

Mehriban Əliyeva barədə yazdığım hər bir məqaləmdən sonra, açıq etiraf edim ki, əleyhimə aparılan kütləvi hücumlarla qarşılaşmışam... Bunun mənim yalnız şirvanlı kimliyimlə bağlı olduğunu zənn etmirəm. Düzdür: atam Rəşid Fərəcov ADU-da tələbəlik illərində anasının Şamaxı əsilli olduğunu nəzərə alaraq, Aida İmanquliyevanın Şirvan himayədarlığını gördüyünü çox söyləmişdi, hətta böyük bacımın adını "Aida" qoymuşdu... Mənim özüm də ADU-da görkəmli yazıçı-pedaqoqumuz Mir Cəlal Paşayevin tələbəsi olmuşam. Mənim tanıdığım Mehriban




Əliyeva Şirvan torpağında doğulub böyümüşdür. Tanınmış ziyalı nəslindəndir. Xeyirxahdır. Xeyriyyəçidir. Bəlkə də, elə buna görə Ulu Öndərimiz onu təsis ediləcək ilk ümummilli xeyriyyəçi Fondun gələcək Rəhbəri kimi görmək istəmişdir...

Mən heç bir zaman öz geopolitik düşüncələrimi kimsəyə zorla təlqin etmək fikrində olmamışam. Prezident Aparatında çalışdığım illərdə də öz məqalələrimi şəxsi mövqeyim kimi təqdim etmişəm. Elə bu gün də köhnə "bitərəf demokrat" titulumdan uzaqlaşmamışam. Ədlində, bu "bitərəflik" mənim sol xalqçı mövqeyimin, sosialist platformamın inkarı demək deyildir. Mən birmənalı olaraq, avrasiya geosiyasətinin adamıyam. Avrasiya xalqlarının demokratik birliyinə can atıram.

Bütün əleyhimə yönəldilmiş tənqidləri (təhqirləri demirəm) zamanla öz üzərimə götürmüşəm və bəzi müsbət nəticələr çıxarmağa çalışmışam. Jurnalistikada "müxalkifət" anlayışını qəbul etməmişəm. Ona görə yox ki, belə mətbuatı sevməmişəm, əksinə ona görə ki, mən ümumiyyətlə əlinə Qələm götürməyi müxalifətçilik saymışam. Əks-təqdirdə hər şey gözəldirsə, onda nəyi isə yazıya almağın nə anlamı vardır? Orta əsrlər Azərbaycanında dahi şairimiz Məhəmməd Füzuli yazırdı ki, "mən müxalifəm." Kimə qarşı?!. Əlbəttə, şər qüvvələrə qarşı! Bu gün

kimsə iddia edə bilməz ki, bu ölkədə, cəmiyyətdə hər şey gözəldir?!. Xeyr, belə şey mümkünsüzdür. Şünki GÖZƏLLİK hər şeyin öz yerində olması deməkdir. İctimai həyatda buna ədalət deyilir. Hanı o ədalət?.. Əgər ədalət olsa idi, onda bu qədər vəzifələrə gəlib gedən insanlar, çalıb çapan məmurlar, həbslər, təqiblər nədən ötrü idi...

Amma mən bir şeydə qəti əminəm ki, millətin Lider simaları öz fəaliyyətlərində tarixin dərslərini nəzərə almadan hərəkət edə bilməzlər. Çünki liderlik ilk başdan ciddi məsuliyyət deməkdir! Bu gün Avrasiyada gedən materikal geoprosesləri ciddi izləmədən, Tarixin inkişaf vektorunu müəyyənləşdirmək bizim üçün də imkansızdır... Təəssüflər olsun ki, bu gün Azərbaycanda siyasi fəaliyyətini Biznes üzərində qurmuş bəzi cırtdan "siyasi liderlərin" leksikonunda son zamanlar daha çox keçmiş Səfir cənab İsrafil Vahabzadəyə xas anti-rus ritorika artmağa başlamışdır. Məsələn, **"Ümid" partiyasının sədri, sabiq millət vəkili, biznesmen İqbal Ağazadə** bu günlərdə Rusiya Federasiyasının prezidentinə açıq Məkub yazaraq, öz təhqirlərinə "bütün azərbaycanlıları" şərik qoşmuşdur:

**Reyting.az (14/01/2021):**

**"-Təəssüf ki, siz... yaxşı qonşu deyilsiniz...**

**-Bizi sizlərə - Rusiyaya "hələlik" deməyə məcbur edən siyasət yürüdürsünüz...**

**-İndi Azərbaycandasınız, cənab Putin, sülhməramlı adı ilə. Heç Rusiyanın nə vaxtsa sülhdən yana olduğunu xatırlayırsınızmı? Burda da sülh üçün deyilsiniz. Güc olduğunuzu bu şəkildə bizlərə də, çevrə dövlətlərinə də isbatlamaq niyyətindəsiniz. Hələlik alınır. Amma hələlik...**

**-Gəldiyiniz gündən birtərəfli siyasətinizlə Azərbaycan cəmiyyətində qəzəb və nifaq yaratmağa başlamısınız. Gəlişinizin hansı məcburiyyətdən olduğunu hamımız gözəl bilirik– bütün azərbaycanlılar.**

**-Birdən Azərbaycan Dərbəndi sizdən geri almaq istəsə, hansı reaksiyanı verərsiniz?! Axı Dərbənd əhalisinin çoxu azərbaycanlılardır, həm də 1813-cü ildə "Gülüstan" müqaviləsi ilə Rusiyanın tərkibinə verilib. Siz heç Kuril adalarını Yaponiyaya, Kalininqradı Almaniyaya, Krımı Ukraynaya qaytarmağı düşünmədiniz...**

**-Bütün xəyanətkarların taleyi eyni olduğu kimi, imperialist dövlətlərin də gec-tez sonunun başqalarından fərqlənməyəcəyini bilirəm. Rusiya da eynən bu taleyi yaşayacaq. Həm də çox acınacaqlı...**

**-İkinci Qarabağ savaşının aktiv fazası bitmiş hesab oluna bilər. Ən azı hərb meydanında atəşkəsdir. Savaş Qarabağ torpaqlarından masa arxasına daşınıb. Bu masalar harda qurulacaq? Uzaq ABŞ-da, Avropada, yoxsa Rusiyada?! Hələlik masanın qurucusu da, başında əyləşən də, tərəflərə diktə edən də Rusiyadır...**

**-Rusiya postsovet ölkələrindən çəkilmək istəmir. Hər vasitə ilə mövcudluğunu qoruyur, özünə bab hakimiyyətlər yaratmağa, alınmayanda isə etnik-milli separatizmi dəstəkləməklə orada olmağa çalışır... Və hələlik bacarır. Rusiyanı durduran kimsə yoxdur. Bugünlük..."**

Heç şübhəsiz ki, vaxtilə Ramiz Mehdiyevin fəal siyasi arenaya çıxardığı bu tip "siyasətçilərin" qonşu ölkənin rəhbərinə yönəldilmiş hədyanlarının "azərbaycan xalqına" heç bir aidiyyəti yoxdur və ola da bilməz. Və bu cür hədyanlardan sonra Rusiya-Azərbaycan münasibətlərinin pozula biləcəyi ehtimalı sıfıra bərabərdir. Lakin özünü Rusiya və V.V.Putin ilə yaxın "dostluq" epitetləri ilə tanıtmış Ramiz Mehdiyevin sayəsində dörd çağırış Milli Məclisə eyni seçki dairəsindən (Xətai rayonu) deputat "seçilmiş" İqbal Ağazadələrin belə cəhdləri dövlətlərarası münasibətlərdə müəyyən qanqaralığı yaratmaya bilməz... Azərbaycan xalqının Rusiya ilə əlaqələrinin qırılmasında guya "xüsusi rolu olmuş" (?!) sinəsi Rusiya ordenli Ramiz Mehdiyevin sayəsində bu günlərdə Rusiya Prezidentinə "bütün azərbaycanlılar" adından hədyan yazmış İqbal Ağazadə tipli şəxslərin nədən və necə Azərbaycan Respublikasında nəinki böyük biznes imperiyası qura bilməsi, hətta dörd çağırış ölkənin ali qanunverici orqanına- Azərbaycan parlamentinə deputat seçilməsi, əslində "siyasi xadimə" çevrilməsi ölkəmizdə uzun illər ərzində əsil Avrasiyaçı geopolitik qüvvələrin zəiflədilməsi və sıxışdırılması hesabına baş vermişdir...

Nə Ağ, nə də Qırmızı imperiyalar rus xalqının iradəsini ifadə etmişdir. Amma rus dekabristləri və sürgün şairləri birmənalı olaraq, Azərbaycanı sevmişlər. Xalqımız üçün ilk Universitetin yaradılmasında da əsas rol rus ziyalısı Razumovskiyə məxsusdur.

Kazarma sosializmi olan Stalinizm başdan-başa anti-Rusiya və anti-Rus bir ideologiya olmuşdur. Bu gün kimsəyə sirr deyil ki, XX əsrin əvvəllərindən etibarən Avropada qurulmuş terror təşkilatlarının maliyə və təlimat mərkəzi Rotşildlərin bank mərkəzləri idi. Bu barədə mənim "Putinsiz Rusiya Ağ Afrika deməkdir" sərlövhəli məqaləmdə geniş şərh verilmişdir, dediklərimi təkrarlamaq istəmirəm. Yalnız onu söyləmək istəyirəm ki, bolşevizm "rus oyunu" deyildi… Məncə, bu gün Rusaiya Federasiyasında Rus çarizminin imperiya atributlarını qəbul etmiş qüvvələr də bunu gözəl başa düşmüşlər... Yeni Rusiya imperializmin deyil, rus dövlətçiliyinin bərpası və dirçəlişindən ibarətdir. Bu dövlətin isə qədim Şirvan ölkəsi və onun xalqı ilə daha çox sıx dostluq əlaqələri və qarşılıqlı faydalı əməkdaşlıq telləri birləşdirirdi.

Çağdaş Rusiya FR-in Dağıstan ərazisində yerləşən qədim Şirvan şəhəri Dərbəndin coğrafi taleyinin "günahkarı" "işğalçı ruslar" deyil, işğalçı Səfəvilər olmuşlar. Rus çarı Pyotr Bakıya və Dərbəndə ayaq qoyanda, artıq 200 il idi ki, Qafqazda ən qədim oturaq mədəniyyətin daşıyıcısı olmuş Şirvan dövlətçiliyi altı köçəri "ŞAHSEVƏN" tayfası tərəfindən tamamilə dağıdılmışdı… Bu güruhun başında isə məhz monqol-tatar əşirəti olmuş QACARLAR durmuşdular.

Bu gün bəşəriyyət ağır iqtisadi və ideoloji böhran keçirir: həm mənəvi, həm də maddi resurslarda qıtlıq yaranmışdır. Hələ 1972-ci ildə görkəmli qlobalist Volfqanq Fridman "Dünya okeanının gələcəyi" adlı maraqlı bir kitab nəşr etdirmişdi. Alimin fikrincə, "dəniz azadlığı" prinsipi ayrı-ayrı "əllərin azadlığı" olmamalıdır. Çünki dünya okeaniyasında mövcud olan mineral resurslar və digər təbii sərvətlər bir və ya on ailənin ixtiyarına verilə bilməz. Bu məqsədlə "azad bazar" proqramı əsasında yaradılmış "kapitalizm və sosializm arası əməkdaşlıq" sistemi çox qısa müddətdə ikinci qüvvənin süqutu ilə nəticələndi. Əlbəttə, biz, sosialistlər, buna real sosializmin mənəvi çöküşü demirik. Çünki Yer kürəsinin əhalisi beş-on ailənin maraqları ilə deyil, ümumi planetar qanunauyğunluqlarla yaşamağa məhkumdur. Hal-hazırda dünyanın 57 ölkəsində baş verən qlobal meşə yanğınları, məndə belə bir qəti qənaət yaratdı ki, sosializm

qaçılmazdır. Roma klubu rəhbərlərindən biri olan Pekka Kuusi kommunizimə qiymət verərkən yazırdı: "Marks bir alim kimi haqlı çıxdı, lakin bir inqilabçı kimi yanıldı." Finlandiyalı alim-menecerin fikrincə, sosialist inqilabları barədə danışan diletantların əksəriyyəti çox zaman onun heç də hərbi çevriliş yolu, vətəndaş müharibəsi və diktaturadan başqa bir hədəfinin olmadığını söyləyirlər. Halbuki bu, tamamilə yanlış fikirdir. Çünki sosializmin dinc inkişaf yolu da var. Maddi-hüquq dövlətinə əsaslanan bir çox Qərb ölkələri, xüsusilə Skandinav xalqları məhz bu yolla inkişaf etmişlər. Hal-hazırda biokibernetika və sosiokibernetika sahəsində aparılan araşdırmalar aktuallıq qazanmaqdadır. Xüsusilə, fin sosiokibernetiki Arvid Aulin marksist ideyalar əsasında belə bir haqlı nəticəyə gəlmişdir ki, hümanistləşmə bayrağı altında sosializmin təsirilə İnsanlıq dövlət nəzarətindən tamamilə azad oluna bilər. Dövlət hər şeydən öncə inzibati məcburiyyət resursları deməkdir. O üzdən dövlət qulluğundan sui-istifadə edən hakim elitalar məhz həmin resursları istənilən an inzibati dələduzluq alətinə çevirə bilmək imkanı qazanırlar. Xüsusilə, indiki kütləvi işsizlik dövründə bu kimi hüquqi sitəmlər xalqın böyük əksəriyyətinin  ağ terror uğramasına gətirib çıxara bilər… Deməli, real sosializm prinsipi əsaslı şəkildə qeyri-real totalitar sosializmdən fərqli bir yoldur. Bu yolun təkamülü mədəni sistemlərin özünüidarə və özünənəzarət prinsiplərinə söykənməlidir. İnsan öz cinsinin təkamülünü idarə etməyi bacarmalıdır...

Tarix və sosiologiya ondan dərs götürənlər üçün yazılır. Yoxsa onun heç bir qiyməti olmaz... Bu gün Azərbaycan iki qlobal geopolitik cəbhədən birini seçmək məcburiyyəti qarşısındadır: ya avroatlantik cəbhə, ya da Avrasiya cəbhəsi. Üçüncü yol yoxdur... (ardı var)

**Atatv.az**

https://atatv.az › gundem › 24245-namiq-atabeyli-shirv...

Namiq Atabeyli: ШИРВАННАМЕ, или ... - Atatv.az

20 avq 2021 — **Namiq** Atabeyli: **ШИРВАННАМЕ**, или **ЕВРАЗИЙСКАЯ МОДЕЛЬ** БУДУЩЕГО АЗЕРБАЙДЖАНА **Namiq** Atabeyli ЕВРАЗИЙСКИЙ ПИСАТЕЛЬ, г. БАКУ Е-...

**Ata TV**

20 avqust 2021. 19:39


**Namiq Atabeyli**
**ЕВРАЗИЙСКИЙ ПИСАТЕЛЬ, г. БАКУ**
E-MAIL: farajovnamiq@ gmail.com


**ШИРВАННАМЕ, или ЕВРАЗИЙСКАЯ МОДЕЛЬ БУДУЩЕГО АЗЕРБАЙДЖАНА**



*Только змеи сбрасывают кожи,*
*Чтоб душа старела и росла.*
*Мы, увы, со змеями не схожи,*
*Мы меняем души, не тела.*
*(Nikolay Qumilyov)*

# III YAZI

Kimsəyə sirr deyil ki, XIX əsrin əvvəlindən başlayaqraq Rusiya imperiyasına ilhaq edilmiş Şirvan Azərbaycanının mədəni dəyərlər sistemi SSRİ-nin çöküşü ilə üçüncü kərə süquta üz qoydu... Çünki "Rotşild kapitalının" (ABŞ Ehtiyatlar sisteminin) yeni "inqilabçılar cəbhəsi" milli anlayışdan başqa hər şeyə önəm

verən tayfabaşlar güruhu idilər. Onların ”milli dövlət” və “demokratiya” anlayışları da yalnız dil oyunlarından təşkil olunmuşdu... Bu məsələyə “Azadlığın qədri” (İşıq nəşriyyatı, Bakı-1996) kitabımda ətraflı izah vermişəm. Məncə, hamının bildiyi şeylərin təkrar izahına heç bir ehtiyac yoxdur. Bu günlərdə millət vəkili Tahir Kərimli Ulu Öndərin 90-cı illərin ortasında Əbülfəz Elçibəyə öz sağlığında Bakı şəhərində Binəqədi rayonu ərazisindəki “İstanbul evlər”ində 700 min manatlıq iki mənzil bağışladığını bildirdi. Bu dövrdə mən Prezident Aparatında çalışdığım 10 il müddətinəcən və indiyədək ala bilmədiyim mənzil növbəsində idim. Eyni zamanda Prezident Administrasiyasının sabiq Rəhbəri Ramiz Mehdiyevin təqdim elədiyi tezislər əsasında AXC sədri Elçibəyin əleyhinə məqalələr yazırdım?!. Bu kimi faktlar çağdaş dövrdə ŞİRVANLI olmağın nə demək olduğunu əyani əks etdirir...

Mənim Atatv.az Xəbər Portalında işıq üzü görmüş “38-lər imzası məhkəməyə mediakratik təzyiq deməkdir” sərlövhəli məqaləm, bəlkə də, kimlərə görə, sadəlövh şirvanlılığımın bir təzahürü kimi görünə bilər. Lakin bu, belə deyildir. Milləti vəkili olaraq, bu gün keçmiş cəbhəçi Tahir bəy Kərimli özü də bilmədən Ulu Öndərimiz Heydər Əliyevin geniş hümanizmini dilə gətirmişdir. Siyasi baxışların fərqliliyi cəmiyyəti düşmənçilik cəbhələrinə bölməməlidir. Hər bir vətəndaşın xoşbəxt yaşamaq haqqı olmalıdır.

Keçmiş Elçibəy hakimiyyəti prinsipcə Şirvanda yaradılmış ilk avroatlantik yönümlü hakimiyyət deyildi. Amma mən deyərdim ki, onun Şirvan camaatına vurduğu maddi və mənəvi zərbə Şah İsmayılın qəzılbaşlarının bu xalqa XV-XVI əsrlərdə vurduğu zərbələrdən dəfələrlə ağır olmuşdur. Əvvəla, Şirvanın mədəni elitası, özünəxas mədəniyyəti, oturuşmuş sovet aqrar sistemi, siyasi tərəfsiz və maarifçi ziyalı təbəqəsi təkrar repressiyaya uğradıldı. Məktəbdə nəinki direktorlar “gəlmələrlə” (qaçqınlarla) əvəzləndi, tezliklə yerli müəllimlər də məktəblərdən uzaqlaşdırıldılar, onların təkrar işlə təminatı əlavə əngəllərlə qarşılandı. Bu represantların içərisində ən dəhşətlisi, heç şübhəsiz, “əmanət hesabları” ilə birgə məhv edilmiş orta sinif hesab olunmalıdır. Onu da deyim ki, bu oyun mənim jurnalist atamın

ailəsinin 40 illik bütün “əmanətlərini” də yox etdi və bu gün Azərbaycan dövlətindən 30 illik jurnalist fəaliyyətimə görə mənzil ummağımın yeganə səbəbi də məhz budur... Yerli aborigen əhalini qarşıdakı “özəlləşmə” prosesindən kənarda qoymaq üçün “əmanət vəsaitlərini” pul “ermənilərin əlinə keçməsin” kimi bəsit laflarla xaincəsinə aldatmaq, əlbəttə, ləyaqətli hərəkət deyildi... Əslində, yerli xalqın almadığı pulu həmin “keçmiş erməni vətəndaşlar” çox qısa müddətdə Moskvanın xəttilə artıqlaması ilə almışdılar.
Oturaq yerli şirvan xalqının öz tarixi ərzində müxtəlif talançı köçəri tayfa yürüşlərinə məruz qaldığı hallar az olmamışdır. Tarix ondan dərs götürməyənləri bəzən daha amansız üsullarla cəzalandırır... Mən bir şirvanlı yazıçıyam. Var-dövlət hərisliyim də yoxdur. Şirvan şahlarının mədəniyyətə və elmə verdiyi uca qiyməti XII əsrin dahi şairi İbrahim Əli oğlu Xaqani Şirvani belə vəsf etmişdi:



- Ey Şirvanşah!..
Nə qədər ki, dövlət quşu qapındadır pasiban,
Açacaqdır qucağını sənə geniş asiman.

Yalnız xurma ağacından bol xurmalar dərərsən,
Kəpənəklər uçub gedər yel əsdikcə söyüddən.

Mənim yüksək qiymətimi bir təkcə sən bilərsən:
Simürğə də bu dünyada Cəmşid verə bilər dən!..
**(İbrahim Əli oğlu Xaqani Şirvani: 1126-1199)**

Şirvanın qədim tarixi onun Avrasiya taleyinin əyani güzgüsüdür. Əbədi dəyişməz olan yalnız Allah-taaladır. Dünyada hər şey və hər kəs dəyişikliyə məruzdur. Dövlət qulluğunda yeni nəsil idarəçilərin görünməsi eyni zamanda şəxsiyyətə düzgün qiymət verilməsi sahəsində buraxılmış səhvləri aradan qaldırmalı, tarixin təzədən dəyərləndirilməsi istiqamətində çalışmalara yol açmalıdır. Xalqa Çingiz xanların, Topal Teymurların, Səfəvi şahlarının vəhşi işğalçı simasını bütləşdirməklə yol göstərənlərin qarşısına yenidən tarixi dəyərləndirmələrə və korrektəyə məruz

qalmış Şirvan şahlarının və yaxud Mir Cəfər Bağırov şəxsiyyətinin titanik təcəllisi qoyulmalıdır!.. Mir Cəfər Bağırovun əqidə saflığı və şəxsiyyət bütövlüyü ona olan yeni heyranlığın mənəvi əsasını təşkil edir. Bəlkə də, belə bir güclü tarixi şəxsiyyət üçün adi tarixi şəraitdə XX əsrin vulqar avroatlantik xülyalarına uymuş Azərbaycan cəmiyyətini totalitar sistemin əzici vasitələri ilə Avrasiya xəttinə qaytarmaq da lazım gəlməzdi... Lakin tale Mir Cəfər Bağırov kimi böyük bir şəxsiyyəti amansız üsullara əl atmağa məcbur etmişdi... Ötən əsrin əvvəllərindən etibarən xalqı tarixin təbii inkişaf istiqamətindən çıxararaq, yanlış geopolitikanın əyri yoluna salmışdılar... Odur ki, Azərbaycanda hakimiyyət başında olduğu ilk gündən Mir Cəfər Bağırov tiranik metodları və üsulları Qırmızı Moskvadan hökm və fərman şəkilində alırdı. Başqa cür hərəkət edə bilməzdi. O, əsrin əvvəlində özünün güclü iradi keyfiyyətlərinə söykənərək, sonralar Əbülfəz Elçibəyin 90-cı illərdə xalqımızı yenidən düçar elədiyi fəlakətlərdən qurtardı. Bu gün tarixə qiymət verərkən biz bu fakt unutmamalıyıq. Geopolitika əyləncə deyildir. XV əsrin birinci yarısında Şirvanşah Şeyx İbrahim Dərbəndi düzgün geopolitik seçimi ilə Şirvan xalqını Əmir Teymurun dəhşətlərindən xilas etmişdi. Amma bu gün qədim Şirvan paytaxtında heykəl İbrahim şaha deyil, Bakını dəhşətli şəkildə qırğın və talanlara məruz qoymuş Şah İsmayıla qoyulmuşdur. İsmayıl Səfəvini Ərdəbildə dizi üstünə qoyulmuş kitabla şair kimi təqdim ediblər, amma Bakıda isə anoloji heykəlin dizi üzərində qılınc görürük?!. Nə üçün axı?!.

SSRİ-nin çöküşü ilə Azərbaycan cəmiyyəti hələ XIX əsrin ortalarından etibarən çarizmlə başladılmış elmi-mədəni inkişaf xəttini bir kənara qoyub, kapitalizmin “romantik boyalarına” aludəçilik yoluna düşmüşdü. Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Seyid Əzim Şirvani, Firudin bəy Köçərli kimi dahi pedaqoq ziyalılarımızın maarifçilik xəttini “azad bazar” ehtiraslı yeni tip hacıqaraların və heydər bəylərin İlkin Kapital Yığımı əvəz elədi. Heç şübhəsiz ki, bu ticari maraqların örtüyünü ilk gündən panturanizm kimi sionist planlar təşkil edirdi. Kimsə ağlına gətirmirdi ki, eyni iddiaya Amerikanın qədim aborigenləri asketlər, saklar düşərsə, bu gün onları ABŞ-da nə gözləyərdi?!.

Axı bir zaman qədim Hun türklərinin vətəni olmuş indiki Rusiya Federasiyası ərazisində Mete kağanın reinkarasiyası ilə məşğul olmaqda çağdaş türk xalqları üçün nə fayda ola bilər?.. Xalqımız bu kimi avroatlantik geo- tryukların ağır bədəlini 100 il bundan əvvəl artıqlaması ilə ödəmişkən, onu təzədən səhv yola salanların məqsədləri, heç şübhəsiz ki, şəxsi maddi maraqlardan başqa bir şey deyildi. Onların Avropada şəxsi pul hesabları var, qaçmaq icazələri var, hüquqi təminatları var...

Geopolitika haqqında fikirlərimə qayıdaraq, demək istəyirəm ki, Geosiyasət (geopolitika)- qədim yunanca γῆ - yer, πολιτική - dövlət və ictimai fəaliyyət bildirən sözlərin birləşməsindən yaranıb, müəyyən ərazi üzərində nəzarət və müxtəlif ölkələr və dövlətlərarası birliklər arasında həmin coğrafiyada təsir dairəsinin bölüşdürülməsi qanunauyğunluqları haqqında konsepsiya deməkdir. 500 ilə yaxın istila sürəci ərzində Şirvan Azərbaycanının ilk milli iqtisadi həyatı sosialist tipli də olsa, ilk dəfə “milli xarakterli iqtisadi həyat” qeyri-real sosialist əsaslı olsa da, məhz Mir Cəfər Bağırovun sayəsində bərqərar edilmişdir. Azərbaycan xalqının həyatında ilk dəfə məhz o, öz vətəninin şimal və cənub hissələrinin yenidən birləşdirilməsi, vahid ana dili, qanunçuluq və siyasi idarəçilik prinsipləri ilə qurulmasından çıxış etmişdir. AMEA, Mingəçevir Su-elektrik stansiyası, xəstəxanalar, minlərlə kolxoz və sovxoz təşkilatı, məktəb və mədəniyyət evləri şəbəkəsi M.C.Bağırovun parlaq zəkasının və yorulmaz fəaliyyətinin məhsulu olmuşdur. Nə qədər acı olsa da, Çar Rusiyasında yetişmiş bir çox rus münəvvərlərinin Azərbaycan ədəbiyyat və sənət adamlarına aşağılayıcı imperialist nəzərlərlə yanaşmasını qəbul etməyən bu dahi şəxsiyyət Avrasiya məkanında ilk dəfə mədəniyyətlərin dialoquna çağırmış, elm-mədəniyyət xadimləri arasında dostluq və qardaşlıq əlaqələrinin qurulmasına çalışmışdır. SSRİ daxilində ilk Milli diviziyaları yaratmaqla Avrasiya məkanında gələcək İstiqlalçı məfkurəyə də məhz o, real yol açmışdır. Bu gün ölkəmizdə Müttəfiq dövlətçilikdən Müstəqil dövlətçiliyə doğru atılmış ilk zəruri addım Mir Cəfər Bağırovun parlaq tarixi şəxsiyyətinə ləkə salmaq istəyənlərə ən tutarlı cavabdır...

Mən istərdim ki, İqbal Ağazadələrin anti-Rusiya, anti-Avrasiya demoqogiyasına uyanlar, onun ABŞ sevgisini II Dünya müharibəsinin sonlarında ABŞ-ın ən müasir hərbi aviasiyasını Qərb cəbhəsindən çıxarıb İrana göndərmiş Trumenin Cənubi Azərbaycan şəhərləri- Təbriz, Ərdəbil, Marağa, Urmiya, Rəşt üzərinə tökdürdüyü bombalarla müqayisə eləsinlər. Geopolitika haqqında yuxarıda müxtəlif mütəxəssislərdən gətirdiyimiz iqtibaslar əyani şəkildə göstərir ki, 1918-1920-ci illərin Azərbaycan siyasi elitası özünün ingilis və alman yönümlü fəaliyyətlərində ciddi geopolitik yanlışlara yol vermişlər. Bu səhvlər ötən əsrin sonlarında Əbülfəz Elçibəyin özü və ətrafı tərəfindən də təkrarlanmışdır... Mən Əbülfəz bəyin və Məhəmmədəmin Rəsulzadənin öz xalqını məndən az sevdiklərini söyləmək istəmirəm. Yanlış olan geopolitik mövqeyin seçimindədir. Tarixi seçim olaraq, avroatlantizm quru materiklərdə yaşayan xalqların baş bəlasıdır. Bu yol bizim xalqımızı da səadətə yetirə bilməz.

Bilmək lazımdır ki, nə Amerika, nə Almaniya, nə də digər Qərb geopolitik məktəblərində Azərbaycanın yeri PANRUSİA regional mərkəzindən kənarda nəzərdə tutulmamışdır. Siyasət reallığa əsaslanan idarəetmə sənətidir. Boş xəyalpərvərliyə uymağın sonu isə, nəhayətdə, A.Hitlerin tərəfdarlarının aqibətinə uyğun surətdə Nurinberq məhkəməsindən o tərəfə getmir...



44 Günlük II Qarabağ müharibəsi dövründə mənim də onlarca məqaləm, siyasi şeirlərim dərc edilmiş, iki tarixi romanım (“Azadlığa aparan yol” və “1382-ci il”) işıq üzü görmüşdür. Bu xidmətimin hələlik yeganə “mükafatı” yaşadığım Nərimanov rayonu Təbriz küçəsində bu günlərdə polislər tərəfindən üç saatlıq qanunsuz həbs tarixçəm olmuşdur. “AtaTv.az” Xəbər Portalına elə həmin gün azadlığa buraxılarkən verdiyim eksklüziv Müsahibəmlə Nərimanov rayomu 18 saylı polis bölməsində çalışan ağdamlı paqon əhlinə “şirvanlı minnətdarlığımı” əyani çatdırmışam... Bu gün bəşəriyyətin tarixi üfiqləri məkan və zamanca xeyli genişlənmişdir. Xamutlu at ilə

gəmi kapitanının irəliyə dikilmiş nəzərləri eyni səviyyəni görə bilməz. Azərbaycanda hüquq sistemində kardinal islahatlara ehtiyac vardır. Biz formal-hüquq sistemini maddi hüquq sistemi ilə əvəzləməliyik. Hakimiyyətlərin düzgün bölünməsi onlar arasındakı qarşılıqlı nəzarətin əsasını təşkil edir. Əks-təqdirdə, qanun adına baş verən qanunsuzluqlar gündən-günə artır və artacaqdır...




Prezident yanında Kadr və Dövlət qulluğu siyasəti üzrə Komissiyanın  keçmiş sədri Ramiz Mehdiyevin uzun illik “tiranizminə” son qoyulandan sonra, Şirvan əhli də müəyyən mənada rahat nəfəs almaq imkanı əldə etdi... Yarıtmaz kadrların dövlət qulluğundan uzaqlaşdırılması ölkədə müsbət dəyişikliklərin ilk anonsunu verib. Amma əfsuslar olsun ki, gənc kadrlar arasında da hələ ki, vətəndaşların məktublarını cavablandırmaqdan yayınma halları davam edir. Bu hallarla mənim özüm də həyatda az qarşılanmamışam. Görünür ki, Ramiz Mehdiyevin “Şinel”i elə də dayaz deyilmiş... Orada üzüb boğulmaq eşqində olanlar hələ ki çoxdur. Bu qüvvələri birləşdirən ümumi cəhət antiavrasiya təmayülüdür.



Qardaş Türkiyə Cümhuriyyətindəki FETO olayları bu cür simasızların astar üzünü aşkara çıxardı. Məncə, bu hadisələr bizim dövlətimizi və cəmiyyətimizi də ayıq salmalıdır. Sabiq PA Şöbə müdiri Əli Həsənovun sədası bu gün Kaliforniyadan gəlir… Heç şübhəsiz, Fətullah Güləndən məsləhətlər almağa getmişdir?!. Belə simasızlara qarşı mübarizə üsulu yalnız inzibati-hüquqi qaydalardan ibarət ola bilməz. Çünki bu qara “hərəkat” ilk növbədə ideoloji xarakter daşıyır... Mənim bu günlərdə Ata Tv.az

xəbər portalında işıq üzü görmüş “38-lər imzası məhkəməyə qarşı mediakratik təsir deməkdir” sərlövhəli məqaləm həmin qüvvələrin ifşasında xüsusi rol oynadı. Bu qüvvələr elə bilməsinlər ki, mənim onlarla mübarizəm yalnız qanuni mənzil haqqımı dəfələrlə pozmaqlarından irəli gəlir. Xeyr! Bu, ilk növbədə bir ideoloji müharibədir. Biz müxtəlif cəbhələri təşkil edən jurnalist camiəsiyik. Onların hər bir anti-Atabəyli hərəkətində məntiq var: cəmi 200 nüsxədən ibarət qəzetlər üçün Vüqar Səfərlidən aylıq 100 min manat nəşr pulu almışlar, iki ay yanlarında gəzdirdikləri qohum-əqrəbaların Prezidentin jurnalistlər üçün tikdirdiyi binalardan 200 min manatlıq mənzillər mənimsəmişlər... Nəticə göz qabağındadır: informasiya bazarında rentabellik yoxdur. Pullar göyə sovrulmuşdur...

Mən tərəfsiz, azad, müstəqil jurnalisikadan yanayam. Çünki Azad Avrasiya birliyinə aparan yol yalnız bu azadlıqdan gəlib keçir... Qripbazlıq, qohumbazlıq və korrupsiya ilə jurnalistika bir araya sığa bilməz...

Müharibə günlərindəki silsilə məqalələrimdə (“Erməni faşizminin sonu...” məqalələr silsiləmdə) ölkəmizin tarixi perspektivi ilə bağlı əsas geopolitik düşüncələrim özünə yer almışdı: “ Rusiyanın zəiflədilməsi” proqramı çərçivəsində Erməni mafiyasının Qafqazdakı rolu ABŞ-a sərf edir. İlk yazımızda bu məsələnin izahını Rusiya strateqlərinin öz sitatları ilə belə vermişdim: Ermənistan Respublikasının “Qarabağ münaqişəsi” formatına salınmış 30 illik işğalçılıq müharibəsi ilə bağlı Rusiya Strateji Tədqiqatlar İnstitutunun **“Проблемы национальной стратегии” jurnalının 2015-ci il (№-2(29) sayı**nda “İnstitutun hesabatları” baş yazısının “Azərbaycan” bölməsində oxuyuruq: **«Азербайджан нужен ЕС для полноченной европейской интеграции, главным образом для того, чтобы вытеснить Россию из региона.» (səh.: 42).**

Deməli, rus strateqlər “Qarabağ münaqişəsini” ilk başdan Azərbaycanın Avropa İttifaqına girişinə qarşı qoyulmuş “açar” hesab etmişlər. Digər maraqlı məqam da var: **“Перед Европы стоит и другая важная задача- ослабив Россию, не допустить чрезмерного усиления Турции в регионе Южного Кавказа.”** (səh.:-43).

ABŞ-ın XXI əsrdə dünya liderliyini əldən verməmək üçün Avropa ilə gizli savaşda olduğu məlumdur. Keçmiş ABŞ prezidenti Klintonun təhlükəsizlik məsələləri üzrə müşaviri Entoni Layk NATO-nun genişləndirilməsi siyasətində dörd strateji istiqaməti irəli sürmüşdü: bazar iqtisadiyyatının nüvəsi olaraq, ABŞ, Kanada, Yaponiya, Qərbi Avropanın müdafiəsi; konsolidasiya ediləcək yeni demokratiyalara- keç. SSRİ, Cənubi Afrika Respublikası, Nigeriyaya dəstək; demokratiyaya düşmən ölkələrin – İran, İrak, Kubanın (habelə Şimali Koreyanın) təcrid edilməsi; nəhayət, aralıq zona olaraq qeyri-demokratik dövlətlər zonası kimi nəzərdə tutulmuş iqtisadi liberalizasiya yolu tutmuş Çin və İslam ölkələri.

Deməli, ABŞ-ın Böyük strategiyasında Azərbaycan da, Türkiyə kimi bir müsəlman ölkəsitək inkişafına müəyyən məhdudiyyətlər qoyulmuş "ZONA"-da yerləşir. Azərbaycan-Ermənistan arasında gedən son müharibədə ABŞ-ın keçmiş prezidenti D.Trampın "mən bundan sonra milli münaqişələrə qarışmayacağam" deməsinin pərdə arxasında Qafqazda "Rusiyanı zəiflətmək" və "Türkiyəni Cənubi Qafqaza buraxmamaq" məqsədi güdülür. Bəs, bu prosesdə faşist erməni Baş nazirin rolu nədən ibarətdir. Beynəlxalq səviyyədə cəzasız qalacağına tam əmin olan Nikol Paşinyan 30 il erməni işğalında olmuş Azərbaycan ərazilərindən qovulan Ermənistan Ordusunun raketlərini Azərbaycanın şəhər və kəndlərinin dinc əhalisinə tərəf tuşlayıb atəş açdırır: BMT susur?!. Bu gün Azərbaycan Respublikasının Azadlıq Ordusu Qarabağ ərazisində təqribən 1918-20-ci illərdə ABŞ mandatlı Ermənistan dövlətinin və onun erməni faşizminin banisi Qaregin Njdenin doğma Qarabağımızda məhv etdiyi Azərbaycan kəndlərinin sayı qədər qədim yaşayış məskənlərimizi azad etmişdir. Bütün bunlar deməyə əsas verir ki, bu gün erməni faşizminin yeni narıncı lideri ilk növbədə Avrasiyanın azad gələcəyi üçün başlıca strateji təhlükədir."

Qafqaz xalqlarının tarixi qardaşlığı və dostluğu barədə mənim son dövrlər xeyli məqalələr silsiləm də dərc edilmişdir. Bunlardan xüsusilə "Atabəylərin xristian tarixi..." silsilə məqalələrim geniş oxucu marağı qazanmışdır. Əsl dostluq əbədi olsa da, düşmənçilik

əbədi deyildir. Biz Avrasiyanın azad gələcəyini xalqların düşmənçiliyi deyil, yalnız dostluğu üzərində yarada bilərik. Məncə, bu sahədə yorulmaz çalışmaları ilə Azərbaycanın birinci vitse-prezidenti möhtərəm Mehriban xanım Əliyevanın xidmətləri xüsusi qeyd edilməyə layiqdır.

Birinci-vitse Prezidentimizin siyasi fəaliyyətlərini mən də digər ziyalılarımız kimi uzun illər izləmişəm, əlbəttə, etiraf edim ki, indiyədək onun xeyriyyəçilik fəaliyyətləri daha çox məni özünə cəlb etmişdir. Şirvanşahlar dövrünün mədəni irsinin toplanılması və qorunub saxlanılması istiqamətində Heydər Əliyev Fondunun xəttilə aparılan işlər xüsusilə diqqətəlayiqdir. Biz XXI əsrin ilk kibernetik inkişaf mərhələsinə qədəm qoymuşuq. İnformasiyalı cəmiyyət quruculuğu ilə məşğuluq. Belə bir dövrdə bizim xalqımız üçün uzun illər üzdəniraq ideoloji məqsədlər güdərək "paralel tarix" yaratmış bəzi pevdo-alimlərin "folk-istorizmini" təkzib etmək elə də çətinlik törətmir. Məndə "Şirvanşahlar haqqında saqa" roman-epopeya yaratmaq ideyası da məhz bu məqsəddən yarandı. Mən hal-hazırda Avrasiya yönümlü həmin roman-epopeyamın son, yəni beşinci kitabı üzərində çalışıram. Şirvanşahlar dövlətinin 16 yaşlı sonuncu müsəlman padşahı Şahruh ibn II Fərrux Yasar 1538-ci ildə Şamaxıdakı "Gülüstan" qalasının bir illik mühadirəsindən sonra, əsir götürülüb İrana aparılmış və orada bir il Ölüm quyusunda saxlanılandan sonra amansızlıqla edam edilmişdir. Bu amansız və imansız zülmün başında gənc Şirvanşahın dogma əmisi II Xəlilullahın dul arvadı, Şah İsmayıl Səfəvinin böyük qızı Pəri Xan xanım durmuşdur. Ərinə, şahbanu olduğu ölkəyə, nəhayət, cəmi 16 yaşlı Şirvanşah Şahrux Dərbəndiyə qarşı bu qədər xəyanətkar bir qadını necə müsbət planda təsvir etmək olar?!.




Məhz bu köçəri işğalından sonrakı əsrlərdə Şirvanın qədim oturaq mədəniyyətinin tənəzzülü gerçəkləşdirilmişdir. Mədrəsə təhsili ləğv edilmiş, Şirvanda ziyalı təbəqə tamamilə

repressiyaya uğradılmışdır. Səfəvilərin bu kimi əməllərinə "Böyük Azərbaycançılıq" prinsipindən yanaşmaq gülünc söhbətdir. XIV-XVI əsrlər Avropada milli dövlətlərin yaranması və çiçəklənməsi dövrüdür. Səfəvilər "milli dirçəliş" adına heç nə yoxdur. Səfəvizm farsizmin dirçəliş platformasından başqa bir şey olmamışdır. XXI əsrdə özünü boş yalanlarla aldatmaq mənasızdır.

Biz bu gün məhz oturaq mədəniyyətimizə varisliyimizi daha güclü şəkildə təbliğ etməliyik. Bu, bizim bu areala "gəlmə" olmadığımızı sübut edəcək yeganə dəlilimizdir. 677 illik tarixə malik müsəlman Şirvanşahlar dövləti əleydarlarımıza qarşı bizim ən böyük arqumentimizdir!..

Bu bir faktdır ki, tarixə avrasiyaçılıq konsepsiyasından yanaşmaqla, məhz çar Rusiyası öz gələcək geopolitik məqsədlərini gerçəkləşdirmək naminə Şirvan xalqına və tarixinə yeni yanaşma nümayiş etdirmiş, burada milli maarifçiliyin ilkin toxumlarının atılmasına tarixi şərait yaratmışdı.

Qədim Şirvanın "albaniya" (qədim yunancadır: "albi" ağ və ya azad insan deməkdir) ölkəsi adlandırılması elmi yanaşmadan çox, Rus tarixşünaslığının qədim Şirvanşahlar ölkəsinə mənəvi baxışını əks etdirmişdir.

Əlbəttə, 500 illik süqut hələ Şirvan mədəniyyətinin tamamilə məhvi demək deyildir... Məhz bu mədəniyyətin dirçəliş qüdrətilə şirvanlıların vətənində son əsrlərdə Bakı paytaxtlı üç cümhuriyyət dövləti yaradılmışdır: AXC, Az.SSR və Azərbaycan Respublikası. Görkəmli mədəniyyətşünas-filosof Arnold Toynbi 1948-ci ildə nəşr etdyi kitabını belə adlandırmışdı: "Mədəniyyət sınaq qarşısında." Bu gün təbiətdə hökm sürən kataklizmlər- total meşə yanğınları, sel-sunami, burulğan və zəlzələlər heç də İnsanlığın uğradığı mənəvi tənəzzüldən çox qorxunc deyildir. Sivilizasiya insanlığın oturaq həyata keçməsilə başlamışdır. Biz nə üçün ilk oturaq mədəniyyətimiz sayılan Şirvanşahlıq tariximizdən əl çəkməliyik? Nə üçün öz əcdadlarımızı köçəri soyğunçu qüvvələrlə identfikasiya etməliyik?..

Aqrar mədəniyyət 10.000 illik bir dövrü əhatə edir. İki əsr bundan əvvəl Sənaye erasına ayaq basmış bəşəriyyət özünün müharibə ənənəsini daha bir müddət qoruyub saxladı və iki dünya müharibəsinə imza atdı....

İnsanın canlı aləmdə ilk şüurlu mədəni növə çevrilməsi üçün təbiət onu üç mərhələdən- vəhşilik, barbarlıq və sivilizasiyadan keçirmişdir. Arnold Toynbinin II Dünya müharibəsindən sonra dərhal belə bir kitabla bəşəriyyətə müraciətinin səbəbi özlüyündə aydındır. Müharibə aqrar mədəniyyətin infalt qalığı olsa da, vəhşilik və barbarlığın mənəvi simasızlığı kimi hələ də bəşəriyyəti tərk etməmişdir.

Bu məqaləni yazarkən, Arnoldun öz əsərində Avropanın yalnız aqrar keçmişini deyil, milli dövlətlərin və sənayenin yaranması ilə amansız müharibələr girdabına baş vurduğunu, xüsusən daha çox XX əsrin qlobal savaşlarını nəzərdə tutduğunu anladım. Avropada XVI əsrdə 25 illik, XVII əsrdə isə cəmi 7 illik sülh dövrü olmuşdur. XVIII əsr isə daimi müharibə illəri idi. Heç şübhəsiz ki, müharibələr insanlığın təkamülünə qarşı ən böyük maneələrdir. Arnoldun narahatlığını bu mənada anlamaq mümkündür... Ümid və inamdan məhrum gələcək kimsəyə lazım deyildir. Biz Qafqazda da məhz ümidli bir gənc nəsil yetişdirməliyik. Onlar dost və qardaşca yaşamağı öyrənməli, sivilizasiyanın yeni tələblərinə cavab verməlidirlər. Qafqazdan kənarda ictimai həyata vətəndaşlıq və humanizm, Qafqazda isə irqi düşmənçilik və milli ayrı-seçkilik prizmasından yanaşmaq, əlbəttə, mənəvi simasızlıqdır. Mənəvi-milli simanı ilk növbədə Qafqazda qoruyub saxlamaq lazımdır.

Kapitalizm sistemi feodalizmin “sədaqət” cəngavərlik konsepsiyasını hakim elitalarda əsas vəzifə təyinatı kodeksinə çevirmişdi. Şahmat oyununu 500 il bundan əvvəl Şirvanşahlar dövlətini aradan qaldırmış qədim Fars şüubiyyə təfəkkürü yaratmışdır. Çünki VII-X əsrlərdən etibarən ərəb-türk İslam birliyi tərəfindən qeyb olmuş İran-Fars dövlətçiliyinin Monqol-tatar əsarətindən sonra yenidən bərpa edilməsində feodal fars elitasının vəzifə etibar etdiyi şəxslərdən “sədaqət” tələb etməsi bu arealda üstün siyasi əxlaqi keyfiyyət hesab olunmuşdu. Şahmatda fiqurların bir-birini qoruyub saxlaması əsas oyun tələbidir. Ötən əsrin əvvəllərində İosif Stalin və Serqo Orconikidze Azərbaycan xalqının böyük oğlu Nəriman Nərimanovu Leninin ölümündən cəmi bir il sonra məhz bu prinsiplə aradan götürmüşdülər.

N.Nərimanovun "Leninə məktub" (Ucqarlarda inqilabımızın tarixinə dair) əsərində oxuyuruq: "Azərbaycanda daşnak siyasəti tam gücü ilə həyata keçirilir. Mənim zərrə qədər də şübhəm yoxdur ki, Serqo və Stalinin simasında AKP MK biz türklərə etibar etmir və Azərbaycanın taleyini erməni daşnaklarına tapşırır..."



Lakin bu gün fəxrlə deyə bilərəm ki, azad Avrasiyanın gələcəyi daha çox Türk xalqlarının Slav xalqları ilə birliyinə bağlıdır!.. Bu, Rusiya Prezidenti cənab V.V.Putinin mövqeyidir. Və mən bu mövqeyi dəstəlkəyirəm!..

Təəsüflər olsun ki, XX əsrin sonundan etibarən kapitalizmə dönüş hərəkatı kimi tarixə yoldaşlıq etmək iddiasına düşmüş mürtəce avroatlantik qüvvələr hələ də XVI əsrin birinci yarısında Şirvanda oturaq mədəniyyəti məhv edərək, Monqol-tatar dövrünün "xanlıq şüuru"na qayıdış etmiş barbar köçərilərin varisləri kimi hərəkət etməkdədirlər.. Çökmüş sovet iqtisadiyyatının mirasını mənimsəmək hesabına "kapitalistləşmə yolu", əlbəttə, əhalinin geniş təbəqələrinə yaxşı heç nə vəd eləmədi. Nəticədə keçmiş sovet dövrünün "orta sinfi" əmanət banklarındakı pul hesabları ilə birgə tarixin "arxivinə" verilmiş oldu. Mədəni təbəqəni çox tezliklə mənbəyi korrupsiya, xüsusi imtiyazlı qaçqınlıq statusu, regionçuluq, qarət və xəraca bağlı yeni tip "varlılar sinfi" əvəz etdi. Elmi-texniki tərəqqidən uzaq olan bu yeni yırtıcı sinif yerli zəhmətkeş xalqa, əsasən, işsizlik, səfalət, regionçuluq, müharibə və mühacirət həyatı bəxş eləmişdir... Təəssüf edirəm ki, mənim də qarşımda bu gün Mühacirət seçimindən savayı çıxış yolu qoyulmamışdır. Lakin vətəni atıb hara isə getmək, əslində, xalq, millət qarşısında tarixi məsuliyyətdən qaçmaq deməkdir. Eyni zamanda bu, Avrasiyanın azad gələcəyinə və birliyinə ümidin qeyb olunması deməkdir?!. Mən qəti inanıram ki, bütün azəri xalqımız kimi Şirvan camaatı da gələcək Avrasiya Birliyi daxilində xoşbəxt bir cəmiyyət həyatı yaşamağa qadir və layiq olduğunu sübut edə biləcəkdir!!. Mən istərdim ki, İqbal Ağazadələrin və Ramiz Mehdiyevlərin

anti-Rusiya, anti-Avrasiya, anti-Şirvan demoqogiyasına uyanlar, onların avroatlantika sevgisini II Dünya müharibəsinin sonlarında ABŞ-ın ən müasir hərbi aviasiyasını Qərb cəbhəsindən çıxarıb İrana göndərmiş Trumenin Cənubi Azərbaycan şəhərləri- Təbriz, Ərdəbil, Marağa, Urmiya, Rəşt üzərinə tökdürdüyü bombalarla müqayisə eləsinlər.

Geopolitika haqqında yuxarıda müxtəlif mütəxəssislərdən gətirdiyimiz iqtibaslar əyani şəkildə göstərir ki, 1918-1920-ci illərin Azərbaycan siyasi elitası özünün ingilis və alman yönümlü fəaliyyətlərində ciddi geopolitik yanlışlara yol vermişlər. Bu səhvlər ötən əsrin sonlarında Əbülfəz Elçibəyin özü və ətrafı tərəfindən də təkrarlanmışdır... Mən Əbülfəz bəyin və Məhəmmədəmin Rəsulzadənin öz xalqını məndən az sevdiklərini söyləmək istəmirəm. Yanlış olan geopolitik mövqeyin seçimindədir. Tarixi seçim olaraq, avroatlantizm quru materiklərdə yaşayan xalqların yalnız baş bəlasıdır. Bu yol bizim xalqımızı heç bir vaxt səadətə yetirə bilməz.

Bilmək lazımdır ki, nə Amerika, nə Almaniya, nə də digər Qərb geopolitik məktəblərində Azərbaycanın yeri PANRUSİA (Avrasiya) regional mərkəzindən kənarda nəzərdə tutulmamışdır. Siyasət reallığa əsaslanan idarəetmə sənətidir. Boş xəyalpərvərliyə uymağın sonu isə, nəhayətdə, Adolf Hitlerin tərəfdarlarının aqibətinə uyğun surətdə Nurinberq məhkəməsindən o tərəfə getmir...

Mən avrasiyaçılığın luspərəstliklə qarışıq salınmasını istəmirəm: çağdaş Rusiya özünün olqarxik siması ilə məndə az nifrət yaratmır. Lakin bu, rus xalqının günahı deyil: Mixail Qorbaçov kimi qaiçənin öz xalqının başına açdığı aqibətdir. Biz, bütün digər Avrasiya xalqları ilə, o cümlədən rus xalqı ilə birgə əl-ələ verərək bu tarixi bəladan qurtulmalıyıq. Bu Qurtuluşun yeganə yolu: real sosializmdir! Daha doğrusu, sosializmin Skandinav yolu. Maddi hüquq sisteminə dayalı siyasi həyat yeni Avrasiyanın xalqlarını Avropa Birliyindən daha yüksək rifaha gətirib çıxaracaqdır: mən buna tamamilə əminəm!

Azərbaycanın Birinci-vitse Prezidenti xanım Mehriban Əliyevanın siyasi fəaliyyətini mən də digər ziyalılarımız kimi uzun illər izləmişəm, əlbəttə, etiraf edim ki, indiyədək onun

xeyriyyəçilik fəaliyyətləri daha çox məni özünə cəlb etmişdir. Bu geniş fəaliyyət qlobal xarakterlidir: onun hesabında UNESCO-nun xoşməramlı səfiri (13 avqust 2004-cü il); BMT-nin Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (WIPO) qızıl medalı (2006-cı ilin mart ayı); ISESCO-nun xoşməramlı səfiri (23 noyabr 2006-cı il); Dünya Səhiyyə Təşkilatı (WHO) İcraiyyə Komitəsinin mükafatı (29 yanvar 2007-ci il); Pakistanın "Şəhid Bənazir Bhutto Qadın Mükəmməlliyi Mükafatı — 2013" mükafatı (27 dekabr 2013-cü il); "Yüzilliyin mesenatları" Beynəlxalq Xeyriyyə Fondunun "Yaqut Xaç" ordeni (9 iyun 2005- ci il); Polşa Respublikasının "Xidmətlərə görə" Böyük Komandor Xaçı ordeni (14 sentyabr 2009- cu il); Fransa Respublikasının "Şərəf Legionu" ordeni (15 fevral 2010-cu il); UNESCO-nun "Qızıl Motsart" medalı (30 iyul 2010-cu il); Krans Montana Forumunun Qızıl medalı (24 iyun 2011-ci il); Beynəlxalq Olimpiya Akademiyasının "Olympic Excellence" xüsusi fəxri mükafatı (2014- cü ilin iyun ayı); Küveyt Dövlətinin Fəxri diplomu (2014-cü ilin avqust ayı); İtaliyanın "Xidmətlərinə görə" Böyük Xaç Kavaleri ordeni (18 iyul 2018-ci il) olduğu kimi qonşu qardaş Rusiya dövlətinin də bir çox mühüm orden və medalları vardır. Bunlardan Rusiyada Müqəddəs Mələksima Knyaginya Olqa ordeni (26 dekabr 2017-ci il), Rusiyanın "Dostluq ordeni" ( 14 avqust 2019-cu il), Rusiya Federasiyasının İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Fəxri professoru (13 aprel 2012-ci il); MDB iştirakçısı olan dövlətlərin Humanitar Əməkdaşlıq Şurasının və MDB iştirakçısı olan ölkələrin Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondunun "Birlik Ulduzları" dövlətlərarası mükafatı (13 aprel 2012-ci il); Rusiya Federasiyasının Həştərxan vilayətinin "Həştərxan vilayəti qarşısında xidmətlərinə görə" ordeni (2014-cü ilin avqust ayı) və i.a. ümummilli sevinc mənbəyimizdir. Heç şübhəsiz ki, bu mükafatlar içərisində ən parlağı onun 2009-cu ilin 5 mayında öz vətənində layiq görüldüyü Azərbaycan Respublikasının Heydər Əliyev Mükafatıdır.

Azərbaycan Respublikasının Birinci Ledisi, Birinci Vitse-prezident Mehriban xanım Arif qızı Əliyeva haqqında bir kitab yazsaq, yenə də azlıq edər... Əlbəttə, onun barəsində hər kəsin öz

düşüncəsi, öz qiymətləndirmə meyarı vardır. Bu, təbiidir. Mənim onun haqqında 26 Avqust (1964-cü il) Doğum Günü öncəsi qələmə aldığım bu təəssüratlarım obyektiv olduğu qədər də subyektiv xarakter daşıyır... Lakin mən sadəcə bir Yubiley tərifi yazmamışam. Hesab edirəm ki, bu üç məqalə ilə Birinci Ledimizə, Birinci Vitse-prezidentimizə əsas fikirlərimi və ümidlərimi çatdırmağa çalışmışam.
"Qabusnamə" (1183) əsərinin VII-VIII fəsillərində belə bir ibrətamiz hekayət var: xəlifə Məmun ibn Harun ər-Rəşid (anası fars qızı olmuşdur) Əcəm şahlarının şahı sasani Ənuşirəvan Adilin məzarına baş çəkmək istəyir. Ziyarət vaxtı məzar daşı üstdə pəhləvicə qızıl suyu ilə yazılmış bir neçə sətirlik yazı görür. Tərcüməçi gətirib oxutdurur. Deyilirdi: "Nə qədər ki, sağ idim, Allahın bütün bəndələri məndən kömək alırdılar. Ölüm qarşısında aciz qaldım. Düşündüm ki, əgər bir adam bir vaxt məni ziyarətə gəlsə, bu yazıları oxuyub yadda saxlasın, qoy bu nəsihət və öyüdlər də məndən ona ayaq zəhmətinin mükafatı olsun." Həmin 56 nəsihətdən 17-cisi belədir: "Əgər istəmirsənsə, sənə divanə desinlər, onda tapılmayan şeyi axtarma!.."
Hörmətli Mehriban xanım Əliyeva!.. Ümid edirəm ki, 64 yaşlı bir yazıçının bu məqalələri Sizə yetişəndə, ona "divanə" deməyəcəksiniz...




**Ne kadar "Rast" denir, "Şur" haray salır**
**Zaferdir coşturan Vatanın kanın.**
**Ne kadar "Mehriban" ünvanı kalır:**
**Yaşayır umudu Azerbaycanın!**
**(Aynur Namiq qızı Atabəyli. Fərəcova)**

Müasir gənc nəsilin xoş ümidi olaraq, Mehriban Əliyevanın Azərbaycan dövlətinin siyasətində Birinci Sima olmaq üçün qarşıdakı Prezident seçkilərinə qatılacağına bu gün mənim ailəm də minlərcə başqaları kimi tam əminik. Çünki xoşbəxt tale Mehriban bəyim Əliyevanı xalqımız üçün yalnız BİR İNCİ olaraq doğurmuşdur! **(yazının sonu)**



**Namiq Atabəyli**

Avrasiyaçı yazıçı-publisit. Jurnalist ailəsində doğulmuşdur.
S.M.Kirov ad. ADU-nun filologiya fakültəsini bitirmişdir. Mir Cəlal, Əkrəm Cəfər, Bəxtiyar Vahabzadə, Ağa Laçınlı, Gülhüseyn Hüseynoğlu, Firuz Təbrizli (Sadıqzadə) və başqalarının tələbəsi olmuşdur.
1982-1984-cü illərdə keç.SSRİ Silahli Qüvvələrində leytenant rütbəsində həqiqi hərbi xidmət etmişdir. 1994-2004-cü illərdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Mətbuat Katibliyi xidmətində böyük məsləhətçi vəzifəsində çalışmışdır.
Tarixi romanlar, poema, poetika və publisitik əsərlərdən ibarət 15 nəşr edilmiş kitabın müəllifidir. Bakı şəhərində 30 ildən yuxarı Jurnalistik fəaliyyət göstərmişdir. Hal-hazırda əsasən İnternet Mediada çıxış edir. Bədii, elmi və publisistik yaradıcılığı əsasən e-kitabxanalar, saytlar və xəbər portalları vasitəsilə onlayn yayımlanır.

PS:**AtaTv.az Xəbər Portalı və məqalə müəllifi olaraq, Azərbaycan xalqının Birinci Xanımını qarşıdan gələn Doğum Günü münasibətilə qabaqcadan təbrik edir, ona can sağlığı, uzun ömür, oğul nəvəsi, ailə xoşbəxtliyi və xalqımız, Vətənimiz üçün məsul fəaliyyətində yeni-yeni uğurlar arzulayırıq!..**

**AtaTv.az**

https://atatv.az › gundem › 23745-namiq-atabyli-38-lr-i... ▾

Namiq Atabəyli: "38-lər imzası KİV adına məhkəməyə ...

26 iyl 2021 — **Namiq Atabəyli**: "**38-lər imzası** KİV adına məhkəməyə mediakratik təzyiq deməkdir..." Prezident İlham Əliyevin jurnalistlərin peşə bayramı ...

Ata TV

16 iyul 2021. 14:46.

**Namiq Atabəyli**
E-MAIL: farajovnamiq@ gmail.com

# 38-lər imzası KİV adına məhkəməyə mediakratik təzyiq deməkdir...

Prezident İlham Əliyevin peşə bayramı qabağı Azərbaycan jurnalistlərinin ailələrinə İkinci binanın təhvil verilməsi ilə bağlı təbrik Nitqində oxuyuruq: "Biz indi də ikinci binanın açılışını qeyd edəcəyik. Birinci binada 156, ikinci binada isə 255 mənzil var və eyni zamanda, bu gün biz üçüncü binanın təməlini qoyacağıq. Üçüncü binada da 255 mənzil nəzərdə tutulur. Beləliklə, qısa müddət ərzində yüzlərlə jurnalistə dövlət tərəfindən mənzil verilir. Bu, dövlət tərəfindən Azərbaycan jurnalistikasına göstərilən növbəti diqqətin təzahürüdür."

Lakin təəssüflər olsun ki, hazırda ləğv edilərək, əvəzində publik-hüquqi şəxs olaraq Media İnkişaf Agentliyi yaradılmış keçmiş KİVDF-nin (Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondunun) bu gün həbsdə olan və məhkəmə-prosessual qaydada mühakimə edilən rəhbərliyi jurnalistlərə hədiyyə edilmiş iki binanın 500-ə yaxın mənzilini, əsasən, haqqı çatmayanlara paylamışdır. Kimsəyə sirr deyil ki, bu işdə onun "iş ortaqları" illərlə həmin üzdəniraq "rəhbərdən" (-Vüqar Səfərlidən) yardım-dotasiya və müxtəlif mükafatlar almış, lakin cəmiyyətə rentabelliyi olmayan informasiya məhsulu sırımış mediakratiya

üzvləri idilər: Mətbuat Şurası üzvləri, rentabelsiz KİV-ə rəhbərlik edən Redaktorlar, müxtəlif dövlət informasiya qurumlarında rəhbər vəzifələr tutmuş şəxslər və b...



Bu cinayətkar ortaqlığın nəfsi üzündən həmin hədiyyə "jurnalist mənzilləri" bu gün Prezidentin öz göstərişilə məhkəmə işinə çevrilmişdir.

Bu gün Azərbaycanın informasiyalı cəmiyyəti bu cinayət işinin layiqli və ədalətli yekununu gözləyir. Lakin son vaxtlar Milli Məclisin üzvü, tanınmış təhsil eksperti cənab Etibar Əliyev qabaqcadan bu məhkəmə işininin ədalətinə kölgə salmaq məqsədi güdən bir sıra iddialar irəli sürərək, müxtəlif əsaslı və əsassız fikirlər səsləndirmişdir. Onun fikrincə, "binaların tikintisi zamanı total mənimsəmələr də daxil olmaqla, bütün bu işlərin başında durmuş Prezidentin sabiq köməkçisi Əli Həsənovun, ardınca isə Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondunun rəhbəri Vüqar Səfərlinin vəzifələrindən azad olunmasından sonra bu cinayətlərə hüquqi qiymət veriləcəyi gözlənilsə də, təəssüf ki, bu gözləntilər hələlik özünü tam doğrultmayıb..."

Formal-hüquq sistemində yaşayan və məhkəmə islahatına böyük ehtiyac duyan Azərbaycan cəmiyyəti ölkəmizdə Məhkəmə işlərinin sünii uzadılması faktlarına çoxdan adət etmişdir. Lakin bu heç də Prezidentin şəxsi göstərişilə başladılmış cinayət işinin "özünü doğrultmayacağı" anlamına gəlmir. Möhtərəm deputatdan fərqli olaraq, mən qəti əminəm ki, cinayətkarlar layiqli cəzasını alacaqlar. Onlar hansı "krışalar" altında gizlənsələr də, hansı xarici ölkələrə qaçıb getsələr də, geci-tezi özlərinin keçmiş cinayət ortağı- Vüqar Səfərlinin aqibətini yaşamış olacaqlar.

Jurnalistika XXI əsrdə informasiyalı cəmiyyət həyatının ən mühüm atributlarındandır. Həsən Zərdabi kimi müqəddəs bir şəxsiyyətin sənətini xalqın gözündən salmaq üçün bu camiənin təmiz adını rüşvətxorluq və korrupsiya ilə ləkələmək

bağışlanmazdır. Odur ki, journalist camiəsi arasında bu cür qara əməllər heç də həqiqi jurnalist zümrəsinin deyil, bu ad altında gizlənmiş xain bir “ordanın” çirkin fəaliyyətinin nəticəsidir. Ümidvaram ki, cinayətkar dəstədə hər bir kəs layiq olduğu cəzanı alacaqdır.

Məlumat var ki, aparılmış istintaq tədbirləri ilə Fondun sabiq icraçı direktoru Vüqar Səfərlinin müvafiq vəzifələrdə çalışmış Bünyamin İsmayılov, Ədalət Vəliyev, Nadir Məmmədov və digər 7 nəfər şəxslə qabaqcadan əlbir olması müəyyənləşib: “Onların vəzifə səlahiyyətlərindən sui-istifadə edərək dövlət satınalmalarına dair qanunvericiliyin tələblərinin pozulması, dövlət vəsaitlərinin təyinatı üzrə istifadə edilməməsi, tikinti normalarına əməl olunmamaqla iş həcmləri və qiymətlərinin şişirdilməsi yolu ilə dövlətə məxsus ümumilikdə 18 milyon 500 min manat məbləğində pul vəsaitinin mənimsəmə və israf etmə yolu ilə talanmasına, rəsmi sənədlərə bilə-bilə yalan məlumatlar daxil etməklə vəzifə saxtakarlığı törədilməsinə, habelə cinayət yolu ilə əldə edilmiş 5 milyon 700 min manat pul vəsaitinin leqallaşdırmasına əsaslı şübhələr müəyyən edilib. Toplanmış sübutlar əsasında Vüqar Səfərli və digərlərinə müvafiq olaraq Cinayət Məcəlləsinin 179.4 (mənimsəmə- xüsusilə külli miqdarda ziyan vurmaqla törədildikdə), 193-1.3.2 (cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini leqallaşdırma- külli miqdarda törədildikdə), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə- ağır nəticələrə səbəb olduqda), 313 (vəzifə saxtakarlığı) və digər maddələri ilə ittiham elan edilib, Vüqar Səfərli barəsində məhkəmənin qərarı ilə həbs, digər şəxslər barəsində isə polisin nəzarəti altına vermə qətimkan tədbiri seçilib”. Rəsmi məlumata görə, hazırda cinayət işi baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib: “İbtidai istintaq zamanı cinayətin törədilməsi nəticəsində vurulmuş maddi ziyanın bir hissəsinin ödənilməsi təmin edilib, habelə təqsirləndirilən şəxslərə məxsus olan daşınar və daşınmaz əmlak və bank əmanətlərinin üzərinə həbs qoyulub”. “Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən aparılan istintaqa ikinci binadan ev alan əksər jurnalistlər cəlb edilib, onların izahatları alınıb. Hətta bəzi jurnalistlər bir neçə dəfə dindirilib. Araşdırma

nəticəsində məlum olub ki, mənzil verilən 20 nəfər "Jurnalistlər binası"ndan ev almaq üçün müəyyənləşmiş tələblərə uyğun deyil. Bəzilərinin fəaliyyəti orada qoyulan tələblərə cavab vermir, bəzilərinin isə təqdim etdiyi sənədlər saxtadır. Məsələ ilə bağlı sənədlər toplanıb və aidiyyəti qurumlara təqdim olunub. Saxta yolla əldə edilən mənzillərin geri alınacağı gözlənilir..."

Əlbəttə, bütün bunlar haqqı pozulmuş jurnalistlərdən biri kimi məni də çox sevindirir. Çünki KİVDF-nin keçmiş İcraçı direktorunun qanunsuz mənzil almış nümayəndəsi "Samir Mustafayev" isimli birisi mənim 2017-ci ildə bu quruma (şəxsən ona) təqdim etdiyim Ərizəyə "qəbul edildi" yazıb, dərkənar qoysa da, ona dəftərxana qaydalarına uyğun şəkildə Qeydiyyat nömrəsi verməmişdir. Bəli, yuxarıda adı çəkilən "mediakratik çetenin" qanunsuz əməlləri nəticəsində mənim də ailəm indiyədək 18 kvadrat metrlik yaşayış sahəsinə malik təkotaqlı dar mənzildə yaşamağa məcbur qalmışdır…

Kimsə bilməsə də, Əli Həsənov və Vüqar Səfərli, Milli Mətbuat Şurası Sədri Əflatun Amaşov və digər Şura üzvləri, habelə müxtəlif qəzet redaktorları mənim Azərbaycan mətbuatında 30 illik fəaliyyətimdən yaxşı məlumatlı olmuşlar. 2010-cu ildən bəri müstəqil jurnalist və azad yazıçı olaraq çalışsam da, 14 elmi, bədii və publisistik kitabın və minlərcə məqalənin müəllifi olsam da, jurnalistik fəaliyyətimin xronoloji xəttini bir daha mediakratlara təqdim etmək məcburiyyətindəyəm:

**-1990-cı ilin 14 noyabrından 1991-ci ilin 9 aprelinə kimi "İlham" qəzetində şöbə müdiri;**

**- 1991-ci ilin 10 aprelindən 1994-cü ilin 18 yanvarın kimi "Dan Ulduzu" qəzetində müxbir və baş redaktorun müavini (baş redaktor);**

**-1993-cü ilin 10 mayından 1993-cü ilin 1 sentyabrınadək Azərbaycan Yazıçılar Birliyinin "Ulduz" jurnalında ədəbi işçi (-paralel olaraq);**

**-1994-cü ilin 18 yanvarından həmin ilin 18 aprelinəcən Parlamentin "Azərbaycan" rəsmi qəzetində Məktublar və xüsusi müxbirlərlə əlaqə şöbəsində müxbir;**

**-1994-cü ilin 18 aprelindən 2004-cü ilin 23 aprelinə kimi 10 ildən yuxarı Azərbaycan Respublikası Prezidentinin Mətbuat Katibi xidmətində böyük məsləhətçi;**

**-10.V. 2004-cü ilin 10 mayından 2007-ci ilin 10 mayınadək “Həftəiçi” gündəlik xəbər qəzetində korrektor. Bu qəzetdə korrektorluqdan əlavə qələmimi işlədib, onlarca tarixi-etnoqrafik, habelə erməni kilsəsi və əlifbası mövzularında jurnalistik məqalələr dərc etdirmişəm;**
**-2007-ci ilin 1 iyunundan 2010-cu ilin 11 yanvarınadək “Region Plus” MMC-də eyniadlı jurnalın Azərbaycan nəşri üzrə korrektor.**

**2010-cu ildən bəri müstəqil jurnalist və azad yazıçı kimi beş kitabdan ibarət tarixi epopeya – “Şirvanşahlar haqqında saqa” (-sonuncu romanım nəşrə hazırlanır), bir poetika (“Azad şeir və onun poetikası”), dörd poema, üç klassik şeir Divanım nəşr edilib, oxucuların ixtiyarına verilmişdir. Əsərlərim kitabxana və elektron daşıyıcılarda dünyanın dörd tərəfinə yayılmışdır. Ölkəmizdən savayı, Türkiyə, Pakistan (urdu dilli auditoriya), Rusiya, Qazaxıstan və s. ölkələrdə oxucularım vardır.**

**44 Günlük II Qarabağ Vətən müharibəsi müddətində “Erməni faşizminin sonu...” məqalələr silsiləm, “Azərbaycan bayrağı” (Ali Baş komandana ithaf edilmişdir), “Azərbaycan marşı” (cənab R.T.Ərdoğana ithaf olunmuşdur) şeirlərim, “Azadlığa aparan yol” və “1382-ci il” tarixi romanlarım işıq üzü görmüşdür.**

Mən “38 həpəndin imzası ilə” Prezidentə “yol göstərmək” istəyənlərə 44 günlük müharibə ərzində bir jurnalist və söz əhli kimi bu vətən və xalq üçün, Ali Baş komandanımız üçün nə etdiklərini soruşuram... Sizə kim haqq verib ki, indi mənim kimi yüzlərcə başqasının haqqını pozmuş cinayətkar dəstəyə həmrəylik nümayiş etdirərək, jurnalistlərin mənzilini başqa subyektə “HƏDİYYƏ ETMƏK” kimi belə sərsəm ideyaya qoşulmuşsunuz?.. Məgər bu mənzillərin sahibisinizmi?... Sizin, ola bilsin ki, rahat, komfortabelli şəxsi mənzilləriniz, bahalı minik avtomabilləriniz, bağ evləriniz var, amma “hamınızın qəzet və jurnallarınızın yayıcısı olan Qasid” Mətbuat Yayımı idarəsinin 26 illik işçisi olan Dördüncü (axırıncı) dərəcəli xərçəng xəstəsi Nanə xanım Səmədovanın ümumiyyətlə mənzili yoxdur. Olmazmı ki, Prezidentdən hədiyyə aldığınız mənzillərinizi özünüz istədiyiniz şəxslərə “hədiyyə” edəsiniz?!. Məncə, bu daha əxlaqi olardı. Hədiyyə onun sahibinə məxsus olmalıdır, başqasına yox...

Bu gün üzdəniraq Vüqar Səfərli, bəlkə də, daha çox sizin səhlənkarlığınızın üzüdən məhbəsdədir... Axı, komissiya üzvləri, Fonddan illərlə maddi dəstək almış redaktorlar olaraq, Prezidentin media işçilərinin ailələrinə hədiyyə etdiyi mənzillərin əyri yollarla haqqı olmayanlar arasında "bölüşdürülməsində" sizin də iştirakınız olmuşdur... Deməli, cinayət ortağısınız. Doğrudanmı Əli Həsənovun arvadı şairə Sona Vəliyevanın "şeirlərini" redəktə eləmiş Əkbər Qoşalı "Azadlığın qədri" məqalələr toplusu ("Azadliğin qədri" publisistik kitabı) "Heydər Əliyev. E-Sənədlər toplusu"nda yer almış Namiq Fərəc Sığırlıdan (Namiq Atabəylidən) daha önəmli fəaliyyətlə məşğul olub: dörd otaqlı mənzillə mükafatlandırılıb?!. Halbuki bu "jurnalistin" ONLAYN türkçü məcmuələrdə şeir quruculuğundan başqa heç bir mətbuat vasitəsində real fəaliyyəti olmayıb. Necə olub ki, həmin binada cəmi iki dörd otaqlı mənzil olduğu halda onun biri bu gənc ailə başçısına verilmişdir?.. Əlbəttə, bu mükafat yalnız Sona Vəliyevanın poetik iradəsilə deyil, ilk növbədə onun ərinin- sabiq Prezident Aparatı şöbə müdiri Əli Həsənovun və onun müavini əslən Şıxlı (Qazax rayonu) kəndindən olan dostunun- cənabın adını hələlik çəkmirəm- distruktiv fəaliyyətinin nəticəsidir. Deməli, belə SANBALLI İMZALAR-ın da əsil təşkilatçısı öz keçmiş BOSS-una sədaqət nümayiş etdirən həmin Prezident Aparatının "işçisidir…"

Bu jurnalist çetesini yeni siyasi dalğaların zərbələrindən qorumaq üçün həyata keçirilən belə xilasedici tədbirlərə bu gün məsuliyyətdən qaçaraq uzaq Kaliforniyada girlənən Əli Həsənovun həqiqətən də böyük ehtiyacı vardır?.. Amma unutmaq olmaz ki, bu kimi tədbirlər eyni zamanda Jurnalist evləri ilə bağlı Prezident İlham Əliyevin xüsusi göstərişilə açılmış Məhkəmə araşdırmalarına qarşı getməkdir... Eyni zamanda məhkəməyə vahid güc nümayişidir.

SSRİ-nin çöküşündən sonra Ulu Öndər Heydər Əliyevin Azərbaycanda ilk mətbu müsahibəsini təşkil etmiş, bu Müsahibənin Fövqəladə Vəziyyət şəraitində senzor nüsxəsinə imza atmış "İlham" qəzetinin şöbə müdiri Namiq Atabəyli (Namiq Fərəc Sığırlı) jurnalistikada Əkbər Qoşalı qədər də yoxdurmu?!. 30 ilin jurnalisti kimi mənim hüququmu nə üçün

qorumurdunuz?!.. Doğrudanmı, 1995-ci ilin 17 martında Dövlət çevrilişinə cəhd edən hərbi qüvvələrə qarşı “Azərbaycan” qəzeti üçün “Xəyanətin zirvəsi” baş məqaləsini yazmış Namiq Fərəc Sığırlı (Namiq Atabəyli) Sona Vəliyevanın şeir texnikası və bədii məzmundan tamamilə məhrum cəfəng şeir yaradıcılığından aşağıda dururmuş?!. Xeyr, cənablar, gözləriniz, sadəcə olaraq, həqiqəti “görmür...” Vüqar Səfərlinin təmənnalı əli sizə də az fayda verməmişdir… Aldığınız maliyə dəstəyinin əvəzində Dövlətə nə qədər gəlir vermişsiniz?.. Həftəlik və aylığı 200-300 tirajlıq qəzetlər üçün aldığınız maliyə dəstəyinə görə utanmaq lazım deyilmi?.. Yox, aydındır ki, siz utanmaq fikrində deyilsiniz… Belə olmasa idi, sizlər 30 ilə yaxın Mətbuat Yayımında çalışmış işçisinin, ən ağır xərçəng xəstəsinin mənzilini başqalarına “hədiyyə etmək” kimi sərsəm fikirlərə düşməzdiniz... Məhkəmə poetika qaydaları ilə deyil, hüquqi moduslarla işləyir. Bu imzaların arxa üzündə Kimlər gizlənir, artıq hamıya yaxşı məlumdur!.. Məncə, məhkəmə bu imzaların, xüsusilə mənzil almış Redaktor və Komissiya üzvlərinin də mal varlığını sərf-nəzər etməyə borcludur.

Jurnalistik fəaliyyət ictimaiyyətin gözü qarşısında olan sənətdir.




Xalqın gözü tərəzidir. Kimin kim olduğunu hamı bilir. Şəhid jurnalistlərimiz Sirac Abışovu və Məhərrəm İbrahimovu kim tanımır?!. Nə bahalı maşınlar, nə neçə yerdə mənzillər və villalar, nə də restoranlarda kef və ziyafətlər jurnalisti tanıda bilməz… Əsl jurnalistin kimliyi onun yaradıcılığıdır! Fədakarlığıdır! İstedadıdır! Yorulmaz zəhmətidir! 44 Günlük II Qarabağ savaşında iştirak etmiş jurnalistlərimizin əksəriyyətinin mənzili yox idi. Məncə, Milli Mətbuatımızın növbəti İldönümü qarşısında cənab Ali Baş komandanımız, Prezident İlham Əliyevin Kəlbəcərdə vəzifə başında həlak olmuş jurnalistlərimizin: AzTV-nin operatoru Sirac Abışovun və

AzərTAc-ın əməkdaşı Məhərrəm İbrahimovun ailələrinə mənzil bağışlaması çox gözəl tədbir olardı!..

Bəs bu 38 imzanın "müəllifləri" həmin müharibə dövründə harada idilər?.. Mən onların qarşısına həmin günlərdə dərc edilmiş "Erməni faşizminin sonu…" məqalələr silsiləmi, nəşr edilmiş iki tarixi romanımı, nəhayət, qəhrəman Prezidentimizə və dostumuz cənab T.Ərdoğana həsr etdiyim iki şeiri- "Azərbaycan bayrağı" və "Azərbaycan marşı" əsərlərimi qoyuram… Digər yazılarımı qoyuram... Qarşıda Qələbəmizin İldönümü gəlir: bu Zəfər ildönümümüzə də, Allah qoysa, oxucularımı qəti əmin edirəm ki, hələ döyüş gedişndə başladığım "Fateh" zəfər poemamla gələcəyəm!..




KİV-də gedən rəsmi məlumatlara görə, Prezidentin hədiyyəsi olan "jurnalist mənzilləri" ilə bağlı aparılmış istintaq tədbirləri Fondun sabiq icraçı direktoru Vüqar Səfərlinin və müvafiq vəzifələrdə çalışmış daha 7 nəfər vəzifəli şəxsin qabaqcadan cinayət əlbirliyində olması faktını müəyyən etmişdir...

Mən hesab edirəm ki, Üçüncü Binanın təhvil verilməsi ərəfəsində həmin mənzilləri aidiyyəti şəxslərə deyil, digər subyektlərə yönəltməyə çalışan 38 imzanın "müəllifləri" məhz bu əlbirliyin davamından ibarətdir... Heç şübhəsiz ki, Prezidentin və Ədalət Məhkəməsinin qarşısını ucuz demoqogiya ilə kəsməyə can atan həmin "38-lər imzası", ilk növbədə, "KİV adına" Prezidentimizə və azad Məhkəmə hakimiyyətinə qarşı mütəşəkkil mediakratik təzyiq deməkdir...

**AtaTv.az**

**Namiq Atabəyli.** **(yazıçı: tarixi romanlar müəllifi, tənqidçi)**
**E-MAIL: farajovnamiq@ gmail.com**

# “Şirvanşahlar tarixinə rekonstruktiv mental baxış”

**araşdırma məqalələr silsiləsi Qərbi Kaspi Universitetinin 23-24 yanvar 2021-ci il tarixli onlayn forumu üçün hazırlanmışdır. Onlayn bağlantı texniki səbəblərdən baş tutmamışdır...**




**Urfan Muradlı**
**Qərbi Kaspi Universiteti**
Gənclərlə Sosial və Humanitar tədbirlərin təşkili və təşviqi şöbəsi

## Problemin qoyuluşu:

1. **Şirvanşahlar dövləti xalqımızın Azadlıq və İstiqlal simvolu kimi.**
2. **Tarixi keçmişə yeni baxış: Albanşünaslıq, yoxsa Şirvanşünaslıq?!**
3. **Şirvanşahlar dövləti və məsihilik.**
4. **Şirvanşahlar dövləti və İslamiyyət.**

https://atatv.az › gundem › 20366-irvanahlar-tarixin-re... ▾

Şirvanşahlar tarixinə rekonstruktiv-mental baxış - Atatv.az

6 fev 2021 — Şirvanşahlar **tarixinə** rekonstruktiv-mental baxışb/b **Namiq Atabəyli**. ... Tarixin **şirvan** xalqının qədim mədəniyyəti ilə bağlı səhifələrinə ...




**6 fevral 2021, 16:59**

# *Şirvanşahlar tarixinə rekonstruktiv-mental baxış*

## I HİSSƏ

## Şirvanşahlar dövləti xalqımızın Azadlıq və İstiqlal simvolu kimi.




***Azərbaycanın antik və orta əsrlər sinifli cəmiyyət tarixinə diqqətlə nəzər yetirdikə Kuti, Manna, Midiya, Atropetena (Adərbayqan), Albaniya kimi adları görürük...***

Dövlət institutu, ilk növbədə, ərazi, hakimiyyət və əhali deməkdir. Ümumbəşəri təkamül tarixi üç mədəniyyət epoxasını tanıyır: birincisi, yığıcı və ovçu mədəniyyəti, ikincisi, aqrar mədəniyyət, üçüncüsü isə, elmi-texniki mədəniyyət. Hal-hazırda hökm sürən kiberinkişaf dövrü da, prinsipcə, məhz son mərhələnin postsənaye davamından ibarətdir. Aqrar epoxanın isə özlüyündə 4 inkişaf mərhəlisi qeyd

edilir: 1) xırda dövlətlər dövrü (e.ə. 8000 -e.ə. 3500), 2) qədim imperiyalar dövrü (e.ə. 3500- e.ə.600), 3) antik dövlətlər dövrü (e.ə.600- b.e. 500) və nəhayət, 4) Avropa hökmranlığı dövrü (b.e.500-b.e.1750). Sonuncu mədəniyyət epoxasını- Elmi-texniki tərəqqi tarixini - mövzumuza aid olmadığı üçün şərti olaraq bir kənara qoyaq.

Tarixin şirvan xalqının qədim mədəniyyəti ilə bağlı səhifələrinə nəzər yetirək. Müasir tarixşünaslığa istinad etsək (?!), Şirvanşahlar dövləti yalnız ilkin Orta əsrlərin müstəqil feodal dövlətlərindən biri kimi 861-ci ildən ortaya çıxır... Bunun nə dərəcədə doğru-dürüst elmi yanaşma olması mübahisəlidir. Əvvəla, Ərəb İslam cihadının ilk dalğası, bildiyimiz kimi, şirvan xalqından da kənar ötüşməmişdir. "Şirvanşahlar tarixi" elmi əsərinin müəllifi Sara Aşurbəylinin sözügedən kitabında maraqlı açıqlama var: "XIII əsr görkəmli İslam tarixçisi Rəşidəddin (1247-1318) məşhur "Məktubat" əsərində yazırdı: "Şirvanşahlar Dərbənd hökmdarları nəslindən olan qədim xanədandır... Artıq 2000 ilə yaxındır ki, sultan taxtı onların nəslinə məxsusdur." (Bax, S.Aşurbəyli. Şirvanşahlar dövləti. Avrasiyapress, Bakı-2006., səh.:-50). Sara xanım həmin "Məktubat"dan belə bir fakt gətirir ki, Qafqazın ərəblər tərəfindən işğalı zamanı Dərbənd hakimi Şirvanşah Şəhriyar onlarla qarşılıqlı sülh imzalayır. Onun bəyanatında deyilir: "Mənim nə... dağlılar, nə də ermənilərlə heç bir əlaqəm yoxdur. Siz (yəni ərəblər-N.A.) mənim ölkəmi və xalqımı işğal etmişsiniz". (S.Aşurbəyli. Göst. əsər, səh.:-55).

Nəzərə alsaq ki, Ərəblər Şirvanı xəlifə Osmanın dövründə, 642-643-ci illərdə fəth etmişlər, onda qəbul etmək lazımdır ki, Xilafət Arazın şimalında yalnız bir dövlət qurumunu, de-yure və de-fakto, tanımış, onunla da tarixi anlaşma bağlamışlar. Bu, qeyri-islami, politeist, oturaq cəmiyyət qədim şirvan xalqı idi və onun rəhbərliyində sonradan İslamiyyəti Sülh yolu ilə qəbul edən ilkin Şirvanşahlar titulunun daşıyıcısı olmuş siyasi elita durmuşdur.

Müasir siyasi tarixşünaslıq bu dövrdə eyni ərazi, əhali və hakimiyyət daxilində iki müxtəlif mədəniyyət və iki fərqli dövlət ortaya çıxarmışdır: müsəlman Şirvanşahlar və xristian Albaniya.

Bunun ziddiyyətli bir şey olması ilk baxışdan nəzərə çarpır...



Рис. 1. Карта Кавказа в 290 г. до н. э.

Bunun nədən belə alınmasına gəldikdə, etiraf etmək lazım gəlir ki, bu həmin eyni ərazi-əhali və hakimiyyətə iki müxtəlif siyasi-ideoloji yanaşmanın nəticəsidir. Şirvanşahlar tarixinə rekonstruktiv-mental münasibətimizin də əsas səbəbi məhz budur. İki fərqli mövqe arasından əsl Həqiqəti ortaya çıxarmaq üçün tarixin fəlsəfəsinə müraciət etmək lazımdır.

Müasir planetar ideoloji böhran bütün dünya xalqlarını öz keçmişinə yeni nəzərlə baxmağa sövq edir. Türkiyə Osmanlı, Rusiya Çarlıq keçmişinin mədəni dəyərlərinə yeni qayıdış yolundadır. Arnold Toynbi "Mədəniyyət sınaq qarşısında" (1948) və "Tarixin dərki" (1930-50-ci illər) əsərlərində sübut etdi ki, bizim tarixi üfiqlərimiz zaman və məkanca nə qədər genişlənsə də, tarixi baxışlarımız bir o qədər daralmışdır. Odur ki, bəşərin təkamül tarixinin düzgün dərk edilməsində keçmişin bir çox hadisələrinə yenidən elmi-tarixi qiymət verilməsinə böyük ehtiyac yaranmışdır.

Şirvanşahlar dövlətinin tarixində əsas saxtalaşdırma dövrü antik və orta əsrlər mərhələsidir. Yuxarıda qeyd etdiyimiz kimi, Antik dövlətlər mərhələsi e.ə. 600- b.e. 500-cü illəri əhatə edir. Bu dövr Zərdüşt, İsa, Budda və Konfutsinin adlarını tarixə həkk etmişdir. Arnold Toynbi Ümumbəşəri tarixi mədəniyyətlər silsiləsi kimi sıraya düzərkən, ilk yerdə İRAN MƏDƏNİYYƏTİni vermişdir. Məlumdur ki, "İran" sözü X əsr böyük fars-tacik şairi Əbülqasim Firdovsidən o tərəfə keçmir. "Şahnamə" poemasının özündə onun iki nəfər tərəfindən yazıldığı, sonuncunun yarımçıq əsəri tamamladığı qeyd olunur. Təbii sual doğur: əcəba daha sonra bu poemanın üzərində daha neçə əl gəzmişdir?!. Firdovsi poemanı İRAN-TURAN müharibələri sügeti üzərində qurmuşdur. Deməli, poemada qədim

yunanların Troya-Mikena savaşlarının ("İlliada" üzrə) dublikatı çıxarılmışdır. Hal-hazırda əldə olan variantda Firdovsinin "Şahnamə"si görkəmli türk hökmdarı, qatı müsəlman Sultan Mahmud Qəznəvinin qarşısına qoyula bilməzdi. Çünki burada ərəb və türk xalqları barədə xeyli təhqiramiz ifadələr işlədilmişdir... 1923-cü ildə, heç şübhəsiz ki, İosif Stalin "Şahnamə"nin Moskvada hazırlanmış ən son variantını məhz bu ifadələrə görə qeyri-türk İran şahına taxta çıxmağı münasibətilə hədiyyə göndərmişdi.

Digər tərəfdən, 1970-ci ildə son İran şahının "İran dövlətinin 2500 illiyi" tədbirlərinə tökülüb gəlmiş Avropa əyan-əşrəfləri də artıq 200 ilə yaxın idi ki, bu ölkəni "Persiya" (Persua), paytaxtını isə "Persopol" adlandırırdılar. Və bu qondarma əsatiri tarixlə bağlı İranın heç bir canlı həyatı olmayan bir səhralığına yığışmışdılar. Deməli, Arnold Toynbi "İran mədəniyyəti" deyərkən, ilk növbədə, müasir Fars ədəbiyyatına ilk klassiki hesab edilən şirvanlı Baba Dağ Bakuvinin Avropaya səs salmış Divanınından çıxış etmişdir. İlk klassik fars poeziyası isə, heç şübhəsiz, İran deyil, Şirvan əsaslı bir mədəniyyət faktı idi. Tarixin ilk saxtalaşdırıcısı sayılan Misir Fironu Böyük Ramzesin özünə qədərki qədim ehramlar üzərindən bütün isimləri və relyef səhnələrini pozdurub, öz adını əks etdirdiyi "əbədiyyət əbləhliyi" dövrü çoxdan geridə qalmışdır. Çağdaş iformasiyalı cəmiyyətdə bu cür cəhdlərin təkrarlanması tamamilə əbəsdir. Amma bunula belə, Tarix elmi sahəsində, təəssüf ki, elməbənzər mühakimələr üzərində qurulmuş ideoloji məqsədlər güdən saxta tarixşünaslıq, daha doğru folk-istorizmlər hələ də baş alıb gedir. Belə ideoloji təcavüzlərin ilk qurbanlarından biri də oturaq mədəniyyətiimizin mühim bir qismini təşkil edən qədim Şirvanşahlar dövləti və onun xalqıdır. Şirvan tarixidir. Bölücülük siyasəti yürüdən mürtəce qüvvələrin bu təcavüzü milli mənəviyyatımızın utanc yeridir.

Antik epoxa 50 insan nəslini əhatə edir. Sokrat və Aristotelin idrak, İsgəndər və Sezarın isə hakimiyyət ehtirasları bu dövrün məhsulu olmuşdur. Bu ehtiraslardan yalnız biri əbədiyyət nişanəsidir: BİLİK! Bütün hakimiyyətlər isə zaman və məkanca məhduddur. Bilik ehtirasında bəşəriyyətə xidmət, hakimiyyət etirasında isə şəxsi ağalıq missiyası hökmfərmadır. Şirvan

ziyalılarının antik nəslindən yalnız Troya dövrünə gedib çıxmış Mark Bakuvisin ismi məlumdur. Orta əsrlər dövrü Şərq maarifçiliyi ŞİRVANİLƏRİN sonsuz pleyadasını üzə çıxarmışdır. Türk-İslam dünyasının ilk Universiteti sayılan Bağdad "Nizamiyyə"sində (1066) müəllim heyətinin yarıdan çoxu "Şirvani" künyəsini daşımışlar. Şamaxılı Əbu Bəkr Məhəmməd Şirvani bu Universitetin ilk fiqh (hüquqşünaslıq) müəllimi olmuşdur. Qəvaməddin Nəsr Yunus ibn Mənsur ibn İbrahim əş-Şirvani Universitetin ən ünlü pedaqoqlarından biri idi. Şirvanlı filosoflardan Müəyyin əd-Din Əbül-Fəzl Bəxtiyar ibn Mühənna ibn Əbd ər-Rəhman əş-Şirvani Təbriz mədrəsələrində dərs deyirdi. Zəki ibn əl-Həsən ibn Ömər Əbu Əhməd əl-Beyləqani Dəməşqdə, İsgəndəriyyədə və Yəməndə elm-maarif sahəsində çalışırdı. Şəmsəddin Məhəmməd ibn Əhməd ibn Saleh əş-Şirvani Ərəb dünyasına fəlsəfi mühazirələr oxuyurdu. Görkəmli Şərq tarixçisi Yaqut Həməvinin əsərlərində Şirvan alimlərinin sonsuz siyahısı Şir tinətlilərin yalnız Qılınc və Qalxan tutmaqda deyil, elm sahəsində də böyük şücaətlərindən xəbər verir...

Əlbəttə, belə bir Dövlətin üzərinə zaman-zaman hücum çəkmiş ac, nadan, vəhşi köçəri sürülərinin əməllərində öz əməyinin sayəsində qarnını doyura bilməyənlərin instiktlərindən savayı hərəkətverici qüvvə axtarmaq çox gülünc görünür... Ən ağır işğal şərtləri altında belə şirvan xalqı şirvanlılığını qeyb etməmişdir. Şirvanşahlar dövlətinin tam süqutundan sonra bu ərazidə işğalçı Səfəvilər xanədanı tərəfindən XVI əsrin ortalarından etibarən vassal "Şirvan hakimliyi" və yaxud "Şirvan bəylərbəyliyi" yaradılmışdı. Yalnız Rusiya çar imperiyası bu ərazilərdə müxtəlif qubernatorluqlar yaratmaqla, Şirvan adını tarixdən itirmək siyasətinə al atmış, qədim şirvan xalqını "adurbadaqan tatarları", ərazini isə bütövlükdə "adurbadaqan" adlandırmaqla ilk siyasi-coğrafi riyakarlığa başlamışdır.

Birinci rus inqilabının məğlubiyyətindən sonra İran ərazisinə qaçmağa məcbur olmuş Məhəmmədəmin Rəsulzadə 1909-1911-ci illərdə Böyük Britaniyanın İrandakı konsulluğunun maddi dəstəyilə İran Sosial Demokrat Partiyasının orqanı kimi Tehranda farsca nəşr etdiyi "İran-i Nov" (baş redaktoru olmuşdur), habelə 1912-ci ildən İstanbulda "Türk Yurdu" adı ilə türkcə nəşr

etdirdiyi qəzetlərdə İran və İran türklərilə bağlı dərc etdiyi silsilə məqalələrdə nədənsə "Şirvan" adının üzərindən tamamilə xətt çəkərək, məhz İranın (və bu coğrafiya içində Azərbaycanın) əsatirlərə söykənən "tarixi" əhatəsini böyütməyə çalışmışdır.

Məsələn, "İran haqqında məqalələr" silsiləsinin ilk yazısı "İran nədir?" adlanırdı. Məqalədə oxuyuruq: "İran nedir ve neresidir? Acemistan diye yad edilen bu memleket... şarkdan: Çin hududuna, qarpdan: Afrikaya, Mısır ve Yunan sevahiline, şimalden: Bahr-i Hazar sevahil-i şimaliyyesine ve cenuptan: Hindistan sahillerine kadar yayılmış idi..." (Bax, Mehmed Emin Resulzade. İran türkleri. İstanbul-1993. Səh.: 46). Göründüyü kimi, bu coğrafiyada nəinki Şirvanşahlar, hətta Azərbaycan adında da bir coğrafi-siyasi məkan mövcud deyildir. Deməli, böyük türk lideri sözügedən dövrdə İgilislərdən İran Qacar dövlətini iflasa uğradıb, yerində "İran Respublikası" yaratmaq və qədim Şirvanı da bu coğrafiyanın içərisinə almağı planlaşdırıbmış??. Elə isə, Məhəmmədəmin Rəsulzadəyə görə, İran daxilindəki Azərbaycan "neresidir?" Həmin suala M.Ə.Rəsulzadə "İran türkləri-II" məqaləsində cavab verir: "İran türkleri denildigi zaman hatira Azerbaycan gelir... Azerbaycan, nüfusça, İranın en eski bir kıtasıdır. " (Bax, Göst. əsər, səh.: 13). Məncə, bu fikirlərdə qaranlıq bir şey yoxdur. İranda Məşrutə (konstitusiyalı monarxiya) uğrunda mübarizə apararaq, nəticədə Qacar sülaləsinin fars-Pəhləvi sülaləsilə əvəz edilməsinə yol açmış Məhəmmədəmin Rəsulzadənin 1918-ci ildə nədən qədim Şirvan ölkəsini də "Azərbaycan Xalq Cümhuriyyəti" adlandırmasının əsl səbəbi beləcə aydın olur. Deməli, əgər "Azərbaycan" İranın ən əski bir qitəsidirsə, onda "Azərbaycan" adlandırılmış ŞİRVAN ölkəsi də, təbii ki, "İranın əski bir qitəsinə" çevrilmiş olur?!.

Bu cür tarixi nöqteyi-nəzərlə barışmaq, ilk növbədə, qədim azadlıqsevər şirvan xalqının anti-fars (antikəsrani) və antiərəb siyasi-ideoloji mübarizələr aparmış İbrahim Xaqani Şirvanilərinin ruhunu təhqir etmək demək olardı.

Şirvanın ziyali elitası ilə gəlmə siyasi qüvvələrin arasında daim kəskin mənəvi münaqişə olmuşdur. Bu ilk növbədə, intibah şairi İbrahim Əli oğlu Xaqani Şirvaninin yaradıcılığında özünün bariz

ifadəsini tapmışdır. Şirvanda yadelli Kəsrani elitasının yürütdüyü İrani-fars şovinizminə münasibətdə Xaqani qürurla belə cavab vermişdir:

**Məra der parsi fohşi ke quyənd,**
**Gərkeşan be torki ke "SƏNSƏN!"**
**(Tərcüməsi:**
Məni farsca söyənə, fələklər türkcə
deyər "SƏNSƏN!").

Hakim ərəb siyasi elitasına qarşı isə şair heç nədən çəkinmədən açıq-aşkar öz xalqının mənəvi üstünlüyünü bəyan edirdi:

**Şirvan ki var: hər cəhətdən ülviyyətin anasıdır,**
**Onun hər bir səhər yeli dərdlərimin dəvasıdır.**

**Mən vətənə qurban olum, qurulmuşdur sədaqətdən,**
**Bağdadı da dolandıran onun bollu qidasıdır.**

**Şirvan əhli alicənab yaranmışdır başdan-başa,**
**Bu yer gözəl təbiətli bir lətafət məvasıdır!..**

**Vətənimin fəqirləri dözümlüdür hər zəhmətə,**
**Gözləri tox, ürəkləri sanki kərəm dəryasıdır.**

**Mərifətdə Şirvan əhli yüksək durur ərəblərdən,**
**Xaqaniyə həyat verən doğma yurdun havasıdır.**
(Xaqani Şirvani. Seçilmiş əsərləri, Lider nəşriyyatı, Bakı-2004. Səh.- 384-385)

Bu kimi faktlar Şirvan ölkəsində İslamiyyətəqədərki siyasi elitanın yadigar qoyub getdiyi mənəvi idrakın etnokultiroji, etnopsixoloji və etnopolitik strukturundan xəbər verirdi. Rus tarixçisi Vl. Minorski bu diyarın yadelli ərəb, deyləmi və kürd işğalları üzündən cəmi iki əsr Dərbənddə- Haşimilər, Şirvanda Yəzidilər, Gəncədə- Şəddadilərin hökmünə tabe edildiyini yazır. Şirvanda hakimiyyət sürən Məzyədilərin mənşəcə ərəblərin Şeybani tayfasından olduqları halda, 861-ci ildə bu ölkənin müstəqilliyini elan edərkən nədən onu yenidən "Şirvan" adlandırmasının səbəbini Vl. Minorski çox doğru olaraq belə izah edirdi: "Во всяком случае престиж династии правителей

Ширвана стоял горазде выше, чем репутация курдских пришельцев в Арране или даже Хашимидов ал-Баба…" (История Ширвана и Дербенда X-XI вв. Изд.-во Восточной литературы. Москва-1963, стр.-155). İlk Ərəb işğalı dövründə Şirvanın Girdiman vilayətinin son hökmdarının "Cavan ŞİR" adlanmasını da bu üzdən təsadüfi hesab etmək olmaz.

"Tarix" adına edilmiş hər hansı saxtakarlığı dəqiq elmi dəlillərlə ifşa etmək üçün, ilk növbədə, müasir ideoloji tarixçiliyə deyil, Tarixin fəlsəfəsinə əsaslanan ciddi elm-metodoloji araşdırmalar aparmaq lazımdır. Odur ki, biz də Tarixin fəlsəfəsilə məşğul olmuş alman filosofu Herder İohann Qotfridin (1744-1803) məşhur "Bəşəriyyətin tarixi fəlsəfəsinə dair fikirlər" (1784-1791), Gevorq Vilhelm Fridrix Hegelin (1770-1831) "Tarixin fəlsəfəsinə dair mühazirələr" (1822-1830), avropamərkəzçiliyin qəti əleyhdarı olmuş ingilis filosofu Arnold Cozef Toynbinin ( 1899-1975) lokal mədəniyyətlər nəzəriyyəsinə söykənən 12 cildlik "Tarixin dərki" (1934-1961), Roma Klubu nümayəndələri- ilk prezident Aurelio Peççeinin (1908-1984) "İnsanlıq məziyyətləri" (1971-1980), Amerika filosofu Elvin Tofflerin "Üçüncü Dalğa" (1979) və digər tarixi-kultraloji əsərlərə əsaslanaraq, xalqımızın Şirvanşahlar tarixinə "Tarix mədəniyyətin gerçəkləşməsidir" prinsipindən yanaşmağa üstünlük verdik.

Bütün İslam tarixində, hətta ərəblərin özündən də xeyli qabaq, ilk dəfə klassik Divan yaradıcılığına imza atmış oturaq mədəniyyətin sahibi olan şirvan xalqının X əsr dahi mütəfəkkiri sufi-şair Baba Dağ Bakuvi-Şirvaninin (933-1050) ismini onun öz Vətənində gələcək nəsillərə unutdurmaq cəhdi, məncə, qədim Misir fironu Böyük Ramzesin tarixi riyakarlığından daha təhlükəli bir addımdır. Ümidvaram ki, bu günədək mədəni irsimizə böyük qayğı göstərmiş Heydər Əliyev Fondu və onun möhtərəm Prezidenti Mehriban Əliyeva, məncə, bu sahədə də ilk təşəbbüsü ələ alaraq, nəhayət, X əsr ilk klassik şairimiz, filosof və mövlanamız Baba Dağ Bakuvinin (Baba Kuhinin) dünyaca məşhur olan Divanının Bakıya gətirilməsinə, orijinalda və milli dilimizə tərcümədə xalqımıza çatdırılmasına yardımçı olacaqdır.

Qaf dağlarının ilk aborigen əhalisi olan şirvan xalqının tarixində başqa xalqlar üzərinə köçərilərə xas işğalçı yürüşləri

görmürük. Əksinə, bu oturaq sivilizasiya fasiləsiz şəkildə yadelli işğalçı qüvvələrin aramsız təcavüzlərinə məruz qalmış, öz varlığı ərzində əsrlərlə azadlıq və istiqlal mübarizələri aparmışdır. Bildiyimiz kimi, köçəri yürüşlərinin məğzi Vətən müharibəsi aparmaq deyil, başqalarının maddi-mənəvi nemətlərini qarət etməkdən və ağalıq ehtiraslarından ibarət olmuşdur. Qədim şirvan xalqının həyatı bu üzdən onu dörd tərəfdən bürümüş müxtəlif qarətçilərlə savaşlarda keçmişdir. **Baba Dağ (X əsr) və Nəsimi (XIV-XV əsrlər) sufizmi**nin məğzi insanlığa verilmiş üniversal mənəvi dəyərlərdən irəli gəlirdi. Hər iki filosof-şair dünyanı və insanlığı müsbət ideallara doğru dəyişdirmək iddiasında idilər. Baba Dağın İranda Şirazdakı məqbərəsinin, Azərbaycanın Ağsu rayonundan az yuxarıda qeybə çəkildiyi Dağın ziyarətgaha çevrilməsi həmin idealın ilk xəlqi təsdiqidir!..



Şirvan xalqı daim öz dövlətçiliyini, mədəniyyətini və varlığını qoruyub mühafizə etməyə məcbur qalmışdır. Şirvanşahlar dövlətinin bütün varlığı ərzində onun yazılı klassik ədəbiyyatının baş mövzusu vətənpərvərlik, azadlıq eşqi və ədalətə çağırışdan ibarət olmuşdur. Şirvanı tərk etməyə məcbur olmuş ailələrdən birinin oğlu sayılan Bayat (atabəyli) kökənli Məhəmməd Füzuli İraqda hökm sürən XV əsr qaranlığı içərisində yazırdı:

Tutar ahu Vətən ol yerdə ki, otlu-suludur!

Füzulidən üç əsr öncə Şirvan şairi İbrahim Xaqani isə öz vətəndaşlıq nmövqeyini ucadan fəxrlə belə bəyan etmişdi:

**-Şirvan ki var: hər cəhətdən ülviyyətin anasıdır...**
**Mərifətdə Şirvan əhli yüksək durur ərəblərdən**
**Xaqaniyə həyat verən doğma yurdun havasıdır.**

“Füzuli” demişkən, rəhmətlik Əzizə Cəfərzadənin son əsəri sayılan “Eşq sultanı” romanı Məhəmməd Füzulinin şirvanlı əsli-kökündən bəhs edir. Məhəmməd Füzulinin əsli-kökünün hansı “Bayat” kəndindən olmasından asılı olmayaraq, bu dahi sənətkar ilk növbədə, Şirvan ədəbi mühitinin “məhsulu” idi. Orta əsrlərin

Bağdad ədəbi mühitində yazıb-yaradan sənətkarların da əksəriyyəti, Teymur və sonrakı dövrün siyasi xəritəsində Şirvanşahlar hesab edilmiş tarixi ərazilərdən köç etmiş nəsillərin nümayəndələri olmuşlar.

Ötən əstin 70-ci illərində ilk tələbəlik vaxtımda yolumu ata nənəm Gülbikə xatunun kəndinə- Çarxana salmışdım. Oraya yetişməmiş yolda Füzulinin atası Süleyman kişinin dədə-baba yurdu sayılan Bayat kəndinin buldozerlərlə vandalca dağıdıldığını gördüm. Rayon Partiya Komitəsinin birinci katibi Feyruz Mustafayev uzaqdan bu acı mənzərəni gülümsər üzlə seyr edirdi. Ətrafı milis nəfərləri ilə dolu idi. Səbəb çox sadə idi: kimsə



Azər.KP MK-nın İdeoloji katibliyində belə düşünüb ki, bir halda, Qarabağda da Bayat kəndi var, burada bir rayona "Füzuli" adı verilib, deməli, Şamaxı ərazisində ikinci "Bayat" adlı kəndə heç bir ehtiyac yoxdur. Bu hadisəyədək artıq iki dəfə Universitetdən qovulmaq təhlükəsilə üzləşmişdim. Vəziyyətdən zorla salamat qurtarmışdım: anam məni Pirili kəndinə xalası qızının Şeyx Sıracətdin Kürdəmirinin adı ilə bağlı Ocağına aparıb, bir daha heç bir haqsızlığa qarşı "baş qaldırmayacağıma" and içdirmişdi. Odur ki, Universiteti bititmək naminə susmağa məcbur oldum. Sakit etiraz əlaməti olaraq, Xaqaniyanə "sükut əlifbasına" (ət-əna-ya) uyub yolumu yarımçıq qoydum və Bakıya geri döndüm... Əlbəttə, bir kəndi yox etmək kimi vandal düşüncənin sahibləri bir şeyi anlamamışdılar: həmin dövrdə təkcə Azərbaycan ərazisində beş Bayat kəndi vardı. Bu kəndlərdən bəhs edərək, XIX əsrin məşhur topoqraf alimi İbrahim ağa Vəkilov onlardan birinin Şuşa, birinin Göyçay, birinin Salyan, birinin Quba, birinin də Şamaxı qəzalarında yerləşdiyini göstərmişdi. Nə üçün məhz Şamaxıdakı Bayatın dağıdılması, məlum məsələdir ki, dahi şairimiz Məhəmməd Füzulinin soy-kökünün Şamaxı izlərini Yer üzündən silmək məqsədi güdürdü...

Daha bir faktı da qeyd edim ki, xalq şairimiz Səməd Vurğun tez-tez məhz Şamaxı Bayatının ərazisində qırqovul ovuna gələrdi. Burda onun Lütfi (Vitka) adlı ovçu dostu vardı. Bu kənd yer

üzündən silinsə də, üzərində Səməd Vurğunun süfrə açıb, yemək yediyi və öz ov bıçağı ilə çızıb işarə qoyduğu Daş hələ də çörək qədri bilən şamaxılılar tərəfindən qorunub saxlanılmaqdadır. Heç də təsadüfi deyil ki, milli ədəbiyyatımızda neçə illərdən sonra Şirvanşahlar haqqında ilk müsbət fikri söyləyən sənətkar da məhz Səməd Vurğun olmuşdur. Dahi şairin 1944-cü ildə yazdığı "Bakının dastanı" poemasında oxuyuruq:

**Bakı adlı dünya görmüş bir limanda**
**O hökmdar qurdu Şirvan paytaxtını.**
**Qəsbkarlar axışdığı bir zamanda**
**Dönə-dönə o sınadı öz baxtını...**

(Səməd Vurğun. Bakının dastanı. Seç. əsərləri. II cild. Poemalar. Azərnəşr. Bakı-1976, səh.- 66)

Ədəbiyyatımızda vətənpərvərlik mövzusu və "Vətən duyğusu" ilk dəfə məhz ilk intibah şairimiz İbrahim Xaqaninin yaradıcılığında özünü büruzə vermişdir. Bunun da əsas səbəbi odur ki, şirvan xalqı öz dövlətçiliyini və oturaq mədəni dəyərlər sistemini qorumaq üçün əsrlərlə müxtəlif yadelli imperialist və köçəri-bədəvi qüvvələrlə mübarizə aparmışdır. Əhməni və Sasani İranı ilə qədim Yunanıstan və Roma imperiyaları arasında getmiş qanlı müharibələrin əsas döyüş teatrı Şirvan əraziləri olmuşdur. Bədəvi ərəblərin, monqol-tatarların, Teymurilərin işğalçılıq məqsədilə seçdikləri əsas hərbi-forpost coğrafi sahə, təsadüfi deyil ki, Şirvanşahların qədim Arran vilayəti idi. Bu gün "Qarabağ" adlandırılan həmin sahə hələ də antiazərbaycan, antişirvan irtica qüvvələrinin nəzərində əzəlki "hərbi forpost" mahiyyətini itirməmişdir.

Şirvan xalqına, onun ziyalı elitasına qarşı yadelli təcavüzkarların repressiyaları permanent xarakter daşımışdır. Belə ki, ağqoyunlu və qaraqoyunlu türkmən-tatar tayfalarının Səfəvilərin rəhbərliyi altında Şirvan üzərinə son yürüşündən sonra təkrarən uzun sürən repressiya, təqib və mühacirət həyatı yaşamış Şirvan ziyalılarını xatırlamaq yerinə düşərdi. Müasir Azərbaycan ədəbiyyatşünaslıq elmində layiqincə təmsil olunmamış bu ədiblər özlərindən əvvəlki Şirvan ziyalı nəsilləri kimi işğal dövrünün bu faciələrin bütün acılarını daxilən yaşamış və isatilaya uğramış öz xalqını təcavüzkara qarşı İstiqlal savaşına səsləmişlər. Məsələn,

XVI- XVIII əsrin tarixi mənzumələri, tarixi-epik poemalarında artıq anti-şirvan tarixi qüvvələrə qarşı növbəti bədii etirazların açıq səsləndirildiyini görürük. Vətəni əsarət altına düşmüş Şirvan ziyalıları Vətən və İstiqlal idealı altında tarixin fəlsəfəsini yenidən dərk edib qiymətləndirərək, öz xalqını cəsarətlə Azadlıq savaşına səsləyirdilər. Şakir Şirvaninin ”Əhvali-Şirvan” (1743), Ağa Məsih Şirvaninin ”Şahnamə”, ”Eşidin etdiyini Şahsevən Əhməd şahın” (1749), habelə Məhcur Şirvaninin ”Qisseyi-Şirzad” əsərlərindən açıq hiss olunurdu ki, bu ədəbiyyat hələ də XII əsr klassik Şirvan intibah poeziyasının İbrahim Xaqani təməli üzərində durmuşdur. İbrahim Xaqaninin Şirvanşah III Məniçöhr və oğlu I Axsitanın rus varyaqlarına qarşı apardıqları azadlıq mübarizələrini vəsf edən əsərləri Azadlıq salnaməmizin qızıl səhifələridir. Bu əsərlərdə ilk dəfə yadelli işğalçılara qarşı xalqımızın mübarizə əzmi və Azadlıq ruhu oyadılmışdır.

Məhcur Şirvani məhz Xaqani poeziyasının ədəbi təsiri altında yazdığı “Qisseyi-Şirzad”da XVIII əsrdə Nadir şahın Şirvana işğalçı yürüşlərinə qarşı öz xalqının siyasi etirazını poema şəklində ümumiləşdirməyə üstünlük vermişdir. Lakin tarixi şəraiti nəzərə alaraq, o, əfşarilərin qanunsuz hakimiyyət zəbtinin təsvir məkanını Şirvandan Səmərqəndə köçürmüşdür.

Şirvan xalqı və onun dövlətçiliyi bütün tarix boyu yadellilərin həm qibtə, həm də kin mənbəyi olmuşdur. Lakin bununla belə şirvanlıların Azadlıq əzmi qonşu ölkələrin, o cümlədən İranın ərazisində yaşayan azadlıqsevər, haqnəvis insanlarda da daim azadlıq simvolu kimi duyulub hiss edilmişdir. Bunun bariz ifadəsi Fədai Təbrizinin (XV-XVI əsrlər) ”Bəxtiyarnamə” poemasında açıq hiss edilirdi. Fədai də, Böyük Şirvan idealının ilk carçısı sayılan Arif Ərdəbilinin ”Fərhadnamə”sindəki siyasi məramı təkrar irəli sürmüşdür. Fədainin əsərində hadisələr Şirvanda cərayan edir. Əsərin baş qəhrəmanı Behzad da məhz Şirvan hökmdarının oğludur. Məlumdur ki, Arif Ərdəbili eşq yolunda Bisütun dağını çapan Fərhadı Şirvanlı kimi qələmə verib, onun Şirvanda yaşayan əqrəbalarını, tikib yaratdığı abidələri təsvir və tərənnüm etmişdi. Arif Ərdəbili şirvan xalqının əbədiyyət simvolu sayılan tarixi “Gülüstan” qalasını dahi memar və heykəltaraş Fərhadın ölməz eşqnaməsi saymışdır. Və onun bu ölməz əsəri

Fərhad-Şirin eşq salnaməsinin Fərhad-Gülüstan adlı Şamaxı boyu kimi qiymətləndirilməlidir. Əlbəttə, İran ziyalı elitası da zaman-zaman İranda fars şovinizmi ilə birgə müxtəlif yad köçəri ünsürlərin təcavüzünə məruz qalmış bütün aborigen insanlar kimi daim Şirvan xalqına və onun şanlı İstiqlal keçmişinə fəxarətlə nəzər yetirmişlər. Belə bir hal hətta XX əsrdə Təbrizli dahi şair Şəhriyarın da yaradıcılığından yan keçməmişdir. XX əsr dahi Azərbaycan şairi Məhəmmədhüseyn Şəhriyar məşhur ”Səhəndim” əsərində Şirvaşahların əzəmətli İstiqlal tarixini milli qürur hissi ilə tərənnüm edərək yazırdı:



Gül ağacları nə tavus kimi çətrin açıb əlvan,
Hillə karvanıdı çöllər, bəzənər sürsə bu karvan.
Dəvə karvanıdı dağlar, yükü atlasdı bu heyvan,
Sabirin şəhrinə doğru qatarı çəkmədə sərvan,
O, XƏYALIMDAKI ŞİRVAN!..
...Qəsrlər vardı qızıldan, Qalalar vardı əqiqdən,
Rafael tablosu tək səhnələri əhdi-ətiqdən...
(Bax.M.Şəhriyar.”Yalan dünya”, AE nəşri,
Bakı-1993, Səh.-77)

Burada əsas diqqətəlayiq cəhət odur ki, ölməz Şəhriyarımız milli Azərbaycan dövlətçiliyimizin genetik kökündə Şirvanşahların tarixi rolunu və yerini çox gözəl başa düşmüşdür. Yalnız möhtəşəm tarixi təcrübəyə söykənən bir dövlət Dünya sivilizasiyasnda, hətta Avropadan da neçə-neçə əsr qabaq, bəşəriyyətin İntibah mədəniyyətinə ilk imza ata bilərdi. Heç şübhəsiz ki, üsyankar şair İbrahim Xaqani Şirvaninin Azadlıq fəlsəfəsi şirvanlılığın daim təməl mərəmnaməsi olub və olaraq qalır. Çünki İ.X.Şirvani özünün mənəvi AZADLIQ eşqini hər cür ritual və sakraldan, vəzifə və rütbədən, təriqət və dindən, büt və səcdədən yuxarı tutan ilk ülviyyət şairi idi:



İki aləmdə bir iş var ki, bizlər qəmdən azadıq,
Könül, əylən səhər vaxtı, iki aləmdən azadıq.

Yetir meylə dolu saxsı qabı torpaq dodağıma,
Daşa vur cami-Cəmşidi, saqi ki, Cəmdən azadıq.

Bitir Xaqaniyə Zəmzəmlə Kəbə söhbətin, ey dost,
Gətir badə bizə, çünki Kəbə, Zəmzəmdən azadıq!

Şərabını cami-Cəmşidlə (padşah qədəhi ilə) deyil, torpaq dodağı ilə içməyi daha şərafətli sanan Xaqani, bu imtinanı Cəmdən (yəni Cəmşiddən) azad olması, şahlara, xaqanlara baş əyməməsi ilə əlaqələndirmişdir. Bu cəsarət orta əsrlər monarxiya dövründə nəinki Şirvan şahlığı üçün, hətta bütün Qərbi Avropa cəmiyyətləri üçün də qeyri-səciyyəvi idi.

İbrahim Əli oğlu Xaqani Şirvani bütün Türk dünyasında vətəndaşlıq mövqeyini sənətdə hər şeydən üstün tutmuş ilk şairdir. Məşhur "Həbsiyyə" poemasında "Azadlığın qədrini bilin, bu dünyada ondan qiymətli heç nə yoxdur" ideyasını irəli sürmüş dahi şairin yaradıcılığı Azadlıq duyğuları ilə zəngindir. Məhz bu azadlıq və İstiqlalçılığın nəticəsidir ki, Şirvan ziyalıları müxtəlif işğalçı rejimlər şəraitində Vətəndən illərlə mühacirət etməyə məcbur olmuşlar, lakin bununla belə öz azadlıq məramını maddi şeylərə heç vaxt dəyişməmiş, əksinə sona qədər mübarizə aparmışlar.

Yadelli Kəsrani və digər siyasi-elitar qüvvələrə qarşı əqidə və azadlıq mübarizəsi aparmaları üzündən Vətəndən uzaq düşmüş qürbət şairlərimizin başında uzaq-yaxın Təbrizdə "Şairlər məqbərəsi"ndə əbədi uyuyan Xaqanimizin öz qərib məzarının durması təsadüfi deyildir. Bu taleyi Vətəni Əmir Teymurun istilasına məruz qalmış Şeyx İmadəddin Nəsimi (1344-1404) də ondan sonra yaşamış oldu. Bu mühacirlər köçü uzun bir siyahıdır: Nitqi Şirvani (XVI əsr), Məhcur Şirvani (XVIII əsr), Ağa Məsih Şirvani (XVIII əsr), Mirzə Nəsrullah Bahar Şirvani (1834-1883: Təbrizdə Sürxab məqbərəsində dəfn edilib), Məhəmmədhüseyn Rüsva Şirvani (Baharın qardaşı, Kaşanda dəfn edilib) və başqaları bu mühacirət yolunun davamçıları olublar. Nə qədər faciəvi görünsə də, etiraf etmək lazımdır ki, XVII-XVIII yüzilliklərdə

Azərbaycan ədəbiyyatı tarixində xüsusi bir hadisə--Mühacirət ədəbiyyatı meydana çıxmışdır. Şah Abbasın hakimiyyəti illərindən bu hicrət daha da artıb kütləvi hal aldı. Belə ki, Şakir, Naseh, Vahid, Nadir,Vüqui, Zahid, Hali, Həsiri və b. İsfahana sürgün edildilər. Otuzdan artıq şair öz ölkəsindən baş götürüb qaçmağa məcbur oldu: Saib, Məsih, Arif, Məhvi, Məlun, Hümai, Şeyda, Rabit, Razi, Rəhməti, Rəşid... Habelə Bürhan,Yusif Qarabaği kimi şairlər də zülmkar Şah Abbasın əli çatmayan yerlərdə yazıb-yaratmağı davam etdirdilər...

Göründüyü kimi, Şirvan tarixi əsasən bədii salnamə kimi qələmə alınmışdır, lakin bu, onun tarixilik mahiyyətini yox etmir və edə bilməz.

XIX əsrin əvvəllərindən qədim Şirvan torpaqlarını növbəti işğala məruz qoymuş Çar Rusiyasının müstəmləkə mühitində dahi pedaqoq-şairimiz Seyid Əzim Şirvaninin Şirvan tarixindən bəhs edən əsəri haqqında məşhur gürcü pedaqoqu A.Zaxarovun yazdığı “Qafqaz tatarlarında xalq təhsili” adlı məqaləsində maraqlı məlumata rast gəlirik: “O, birinci dərəcəli şair kimi tanınmaqdadır. Onun bədii əsərlərindən “İlham dəqiqələri” adlı əsəri Təbrizdə nəşr edilmişdir. “Şirvan xanlığının tarixi” adlı bir əsər də yazmışdır ki, hələ də çap olunmamış qalır”. Təsadüfi deyil ki, Seyid Əzim işğalçı Çar Rusiyasının “Adurbadaqan” və “Adurbadaqan tatarları” adlandırdığı müstəmləkə Şirvanında özünə “Şirvani” nisbəsini vermiş ilk milli ziyalımız oldu. Dahi pedaqoq-şair XIX əsrin ortalarında (1869-cu ildə) yeni tipli ilk milli məktəbimizin əsasını qoyarkən, yeni üsullu məktəbdə təhsil alan tələbələrinə üz tutaraq fəxrlə yazmışdı:



**Naib-e XAQANİyəm, əndər diyar-e u, bəli,**
**Zərreyi-xorşid ra başəd be xorşid entisab.**

*(Tərcüməsi*: Xaqani diyarında onun varisi-naibi mənəm,
Necə ki günəşin zərrəsi onun özünə aiddir)

Bu da onun rus çarizminin müstəmləkə siyasətinə qarşı öz mürşidinin yolunu davam etdirdiyinə açıq-aşkar işarət idi. Məhz bu üzdən, çar rejimi onu dəfələrlə müəllimlikdən uzaqlaşdırmağa

çalışmış, nəhayət, dərs dediyi Məktəbin yaxınlığındaca yerli bəy-molla qaragüruhunun əlilə amansızcasına qətlə yetirmişdir. Seyid Əzim Şirvani bizim milli pedaqoji tariximizdə ilk şəhidimizdir.

Şirvanşahlar dövlətinin süqutu, heç şübhəsiz ki, Şirvan mədəniyyətinin də süqutu demək deyildir. Dahi şairimiz Seyid Əzim Şirvaniyə qədər və sonrakı dövrlərdə sürüb gəlmiş "Şirvanilik" missiyasının 1918-ci ildə nə üçün və necə laik bir cümhuriyyətlə başa çatdığını, Qərb və Şərq mədəniyyətlərinin sintezinə söykənmiş bir mədəniyyət zirvəsinə yetişməsini təsadüfi saya bilmərik. Məhz dahi şair-pedaqoqumuz Seyid Əzimin maarifçilik fəaliyyəti və bu yolda şəhadəti ilk milli inqilabımızın tarixi təməli idi.

Elmdir baisi-tərəqqiyi-tam,
Alimə tay deyil güruhi-əvam.
Hələ qalsın bu rəmzlər bari,
Elmsiz adəmin nə miqdari?..

Mən "Müəllim" pedaqoji poemamda ("Elm və təhsil" nəşriyyatı, Bakı-2017) Seyid Əzimin yaratdığı ilk milli məktəbimizin Vətənimizin şimalı və cənubu boyu necə müzəffər yürüşlə başa çatdığını təsvir və tərənnüm etmişəm. Dünyanın hər yerinə əsrlərcə ziyalı göndərmiş qədim şirvan cəmiyyəti 1501-1538-ci illər arasında işğal rejimi şəraitində elə bir repressiya və deqradasiyaya məruz qaldı ki, bundan belə tək gücü ilə ayağa durmaq iqtidarını tamamilə itirdi. Hal-hazırda üzərində çalışdığım "Sonuncu Şirvanşah: ŞAHRUH" tarixi romanımda 14-15 yaşında Şirvan taxtına oturdulmuş bakılı bir gəncin Vətən və Azadlıq uğrunda başı Qırmızı çalmalı köçəri-türkmən tayfalarına qarşı qəhrəman mübarizəsi və müqəddəs şəhadəti təsvir edilir. "Şirvanşahlar haqqında saqa" epopeyamın beşinci cildi olan bu yekun əsərimi öz xalqıma və Vətənimə son xidmətim hesab edirəm. Ümidvaram ki, bu son ədəbi məqsədimə də nail olacağam.

Vətənimizdə ilk "siyasi-milli bütövləşmə" hərəkatı məhz Şirvanda başladılmışdır: 1749-cu ildə Quzey Azərbaycan xanları Şirvan camaatının çağırışına yetərək, işğalçı Nadir şahın Şirvandakı satrapı Şahsevən Əhməd şahın zülmünə son qoymuşlar. Bu, Azərbaycanın Quzeyində Azadlıq hərakatının ilk

məşəli idi. Həmin tarixi savaş indiki Ağsu rayonunun Şixmüzə düzündə baş vermişdir. Dədəgünəşli dahi şairimiz Ağa Məsih Şirvaninin həmin il qələmə aldığı "Şahnamə" poemasında bu tarixi Zəfər mükəmməl bədii əksini tapmışdır.



Heç də təsadüfi deyil ki, de-fakto, Şirvan Azərbaycanında ümumazərbaycan Bayrağı altında üç dəfə Respublika elanı məhz qədim Şirvanın paytaxt şəhəri Bakıda bəyan edilmiş və qurulmuşdur. "Böyük Vətən uğrunda" bütün azadlıqsevər insanlarla birgə məhz Şirvan siyasi elitası 1918-ci ilin İstiqlaliyyətinə doğru hərəkat başlatmışdır. Azərbaycan tarixində milli olan hər şeyin bünövrəsi Şirvanda qoyulmuşdur: Seyid Əzimin ilk anadilli müasir məktəbi, Həsən bəy Zərdabinin miili "Əkinçi" qəzeti, Hacı Zeynalabdin Tağıyevin ilk milli teatr binası, nəhayət, Məhəmməd Əmin Rəsulzadənin ilk milli parlamenti ilk növbədə qədim oturaq mədəniyyətin daşıyıcısı olmuş Şirvan cəmiyyətinin avanqard roluna əsaslanmışdır.

**(ardı var)**

**AtaTv.az Xəbər Portalı.**
**İctimai Xəbər Agentliyi.**

http://atatv.az › gundem › 20370-irvanahlar-tarixin-rek... ▾

Şirvanşahlar tarixinə rekonstruktiv-mental baxış - Atatv.az

7 fev 2021 — **Şirvanşahlar tarixinə rekonstruktiv**-mental baxışb/b **Namiq Atabəyli**. (Yazıçı: **tarixi** romanlar müəllifi, tənqidçi) E-MAIL: farajovnamiq@ ...

**Ata TV**

**7 fevral 2021, 12:17**



**Namiq Atabəyli.**
**(yazıçı-jurnalist : tarixi romanlar müəllifi, şair, tənqidçi)**
**E-MAIL: farajovnamiq@ gmail.com**

# *Şirvanşahlar tarixinə rekonstruktiv-mental baxış*

II HİSSƏ

## Tarixi keçmişə yeni baxış: Albanşünaslıq, yoxsa Şirvanşünaslıq?!




Tarixin fəlsəfəsi ilə məşğul olmuş böyük münəvvərlər Tarixə müxtəlif izahlar vermişlər. İohann Herdər tarixi "insan cinsinin tərbiyələnməsi", İmmanuel Kant "azadlıq anlayışının inkişafı", Gevorq Hegel isə "Dünya ruhunun özünü açımı" hesab etmilər. Qlobalizmin banisi Osvald Şpenqler "Avropanın qürubu" əsərində haqlı qeyd edir ki, heç də bütün xalqlar "tarixi şüur"a

malik olmamışlar. Məsələn, qədim Hind “tarixçiliyi”nin əsası nirvanadır: bu da zamansızlıq deməkdir. Şpenqlerə görə, qədim yunanlara da uzun müddət Tarix lazım olmamışdır. Bu xalq da uzun müddət əsatirlərə söykənib yaşamışdır. İlkin yunanların tarix anlayışı Homerin poetik əsatirləri idi.

Bu gün Qədim Şirvanşahların tarixinə müraciət edən alimlərin əksəriyyəti qədim yunan tarixçilərinə istinad edərkən məhz bu məqamı unudublar.

Yalnız ellin dövrü yunan ziyalı elitası ilk dəfə “tarix” haqqında da düşünməyə başladı. Lakin tarixə baxış prinsipləri keçmişi mifləşdirmədən ibarət olan bu “Tarix”çilər də Yunan-İran müharibələrini həqiqətdən daha çox mifik düşüncələrin məhsulu kimi qələmə aldılar. Bu mifləşdirilmiş əhvalatlar ciddi tarixi faktları da tamamilə saxtalaşdırılmış məzmuna salaraq, gələcək elmi tarixşünaslığın yolunda ciddi maneələrə çevrildi. Heç şübhəsiz ki, qədim Şirvan tarixi də ilk növbədə məhz qədim İranla bağlı uydurulmuş belə yunan əsatirlərinin içərisində əriyib itmiş oldu.

Alman klassik filosofu Gevorq Heygel “ümumdünya-tarixi xalqları”nı sıralayarkən, ilk olaraq “FARS” adını çəkirdi. Deməli, onun bu qənaətə düşməsinin səbəbi, heç şübhəsiz ki, əsatirlərlə düşünən qədim yunan tarixçiləri olmuşlar. Hegelin Farsdan sonrakı “tarixi xalqlar” sırası belədir: misirlilər, finikiyalılar, yəhudilər. O, “BÖYÜK XALQLAR” deyə çin və hind xalqlarına xüsusi yer ayırıb, sıranı yunan və romalılarla davam etdirmişdir. Nəhayət, slavyan və german xalqları ilə bu sıranı bitirmişdir. Əlbəttə, Tarix folk-istorizmlər əsasında dərk edilə bilməz. Məhz bu cəhətdən, Azərbaycan tarixşünaslığında mifoloji prinsiplər əsasında albanşünaslıqla əvəz edilmiş şirvanşünaslığın dərin elmi təhlilinə bu gün böyük ehtiyac vardır.

Şirvanşahlar tarixinə, MİFOLOJİ prinsiplərlə yanaşanlar, əksəriyyətlə qədim Yunanıstan və Roma, habelə xristianlıqla birgə ortaya çıxarılmış Erməni “tarixçilərinin” (?!) qondarma “sənədlərinə” istinad edərək, Şirvanşünaslığı “albanşünaslığa” çevirmişlər.” Təəccüblü deyil ki, müasir albanşünaslığın təməli, əsasən, Erməni və ya “alban” kilsə ədəbiyyatının üzərində qurulmuşdur.

Faktoloji təhlil aydın şəkildə göstərir ki, İlkin Şirvanşahlar hakimiyyəti dövründə İsa Məshin həvarilərinin Roma zülmündən xilas olmaq üçün qaçıb gəldikləri əsas istiqamətlərdən biri qədim yunanların azadlıq diyarı, yəni "albi" ölkə adlandırdıqları Şirvanşahlar dövləti olmuşdur. Şirvan xalqına yunan sözü olaraq "albi", yəni "ağ insan" və ya "azad insan" deyilməsinin əsl səbəbi də məhz bu idi. Şirvan Roma (habelə qədim Yunanıstan) ilə İran padşahlarının qarşılıqlı olaraq sərhəd kimi tanıdıqları bufer zonada yerləşmiş yeganə Azadlıq adası idi. Tarixşünaslıq sahəsində terminoloji aparat düzgün qurulmadan heç bir həqiqəti ortaya çıxarmaq mümkün deyil. Odur ki, "Albaniya" termininin izahını vermək istəyirəm: Ön Asiya doğumlu I əsr antik tarixçi Plutarx (46-120) məşhur "Seçilmiş bioqrafiyalar"əsərində iki qədim şəhərin: Afina və Romanın əsasının qoyulması tarixini "gəlmələr" ilə- birincini Tesey, ikincini isə "Alban çarları" nın adları ilə bağlamışdır. Alban çarları varislərinin- Numitor və Amuleyin (başqa sözlə, Romul və Remin) şəxsində latınca "germani" (iki qardaş) mənasını verən çağdaş Qərbi Avropa (German) mədəniyyətinin köklərinin Qafqaz dağlarına və Arqonavtların gəlib çıxdığı məkanacan uzandığını görürük.

Deməli, müəyyən mənada, sonralar 1268-1578-ci illərdə Xristan Atabəylər Hökuməti (Sa-Atabaqo, Atabəy yurdu, yaxud Çıldır Atabəyləri) kimi tanınmış qıpçaq-kuman və Albaniya kimi tanıdılmış Müsəlman Şirvanşahların tarixi əraziləri də bu əsatirin ehtiva etdiyi coğrafiyada yerləşir. Əlbəttə, əsatir ilk növbədə əsatirdir...

İndi də digər bir elmi mənbəyə- "Azərbaycan tarixi" dərsliyinə diqqət yetirək: "Abbasilər xilafətinin dağılmasının gedişində Azərbaycanda yaranmış müstəqil dövlətlərdən biri Şirvanşahlar dövləti idi" (BDU. Azərbaycan tarixi. Dərslik. Bakı-2009, Çıraq nəşriyyatı, səh.: 206.). 861-ci ildə Şirvan dövlətinin istiqlaliyyətini elan edən Məzyədilər tərəfindən Şirvanşah titulu ona görə götürülmüşdü ki, İslama qədər bu titulun daşıyıcıları olmuşdur. Yuxarıda göstərdiyim "tarix dərsliyindən" bəzi məqamlara diqqət yetirməyinizi istəyirəm: "Miladdan öncə V əsrin ortalarında alban tayfalarının (söhbət 26 dildə danışan

tayfalardan gedir-N.A.) vahid ad altında birləşməsi başa çatmamışdı... Herodot kaspilər adı altında alban tayfalarını nəzərdə tutmuşdu. (səh.: 91). Miladdan öncə IV əsrin axırıncı rübündə və III əsrin əvvəllərində müstəqil Alban dövləti yarandı. (səh.: 92). Səlcuq türklərinin hakimiyyəti dövründə Azərbaycanın dövlətçilik ənənələri aradan qalxmadı. Azərbaycanın quzeyində Şirvanşahlar dövləti yenidən dirçəlirdi. (səh.: 219. Kursiv mənimdir.- N.A.). Əgər tarixi "Şirvanşahlar dövləti" aradan qalxmayıb,"yenidən dirçəlirdisə", nədən bəs yenidən dirçələn bu dövlətin keçmişi Azərbaycan tarixində yoxdur?.. Hanı Şirvanda 861-ci ildə İstiqlal elan edərkən, ərəb əmirlərinin qədim "Şirvanşah" tiulunu öz üzərinə götürdükləri ilkin Şirvanşahların Tarixdəki yeri?.. Şirvanşahlıq və Dərbənd bir medalın iki üzüdür... Bu da inkaredilməzdir!

Həm Parfiya, həm də Sasani imperiyaları dövründə Dərbəndin qala və istehkamlarını qoruyanlar üçün "Şirvanşah" titulu mövcud olmuşdur. AMEA-nın 7 cildlik "Azərbaycan tarixi" yazır: "İran Mihranilər nəslinin hökmdarı Mihr, Sasani hökmdarı Xosrov II Pərvizin (591- 628-ci illər) qəzəbindən xilas olmaq məqsədilə 30 min qohum-əqrabası ilə Xosrovun düşmənləri olan xəzərlərə sığınmaq üçün İrandan baş götürüb qaçmışdı." (Göst. əsər. Səh.: 163). Ardınca yazır: "Mihranilərin simasında Albaniyada yenidən albanların milli, lakin fars mənşəli sülaləsi bərpa olundu."(səh.: 164). Sonra xristian Mihranilərin şəcərə cədvəli verilir: Mihr, Armeal, Vard (I), Vardan,.. Varazman... (səh.: 163). Bütün İran ərazisində II-VI əsrlərdə xristianlığın geniş və azad şəkildə yayıldığını bilirik. Təkcə bir tarixi mənbə olaraq, İslamın Tanrı elçisi Məhəmmədin (s.a.s.) xristianlarla bağlı qəbul etdiyi 6 sənəddən biri kimi "Fars xristianları ilə Müqaviləsi"əsərinə diqqət yetirmək kifayətdir ki, məsihiliyin ümumiran mənzərəsini göz önünə gətirək. Şirvanı "İranadan baş götürüb qaçmış" Mihrin qohum-əqrəbasına aid etmək üçün qədim bir ölkəni- Şirvanşahları yox edib, kimlərəsə burada keşişlərin uydurduğu "xronikalara" cavab verən xristian "alban dövləti" düzəltmək lazım gəlmişdir. Məhz bunun üçün uydurma "elmi planda" ilkin Şirvanşahlığın üzərindən asanlıqla xətt çəkilmişdir.

XIX əsr Azərbaycan tarixşünaslığının ən böyük nümayəndəsi Abbasqulu ağa Bakıxanovun "Gülüstan-i İrəm" (əslində gerçək adı: "Şirvanın və Dağıstanın tarixi"-Müəllif.) əsəri ilə bağlı hələ 1925-ci ildə Parisdə olan Ceyhun bəy Hacıbəyli Asiya Cəmiyyətinin iclasında məlumat vermişdi ki, bu əsərin 320 səhifəlik rus dilində tərcüməsini əldə etmişdir: «Этот русский перевод имеет заглавие «История Ширвана и Дагестана» (Bax, "Гюлистан-и Ирам" Баку, 1991. Akad. Ziya Bünyadovun Ön Sözü, səh.: 6-7.) Həmin əsərdə A.Bakıxanov çox maraqlı mülahizələr irəli sürərək yazırdı: "В 115 (734) г. Хишам назначил для управления Арменией, Азербайджаном и Ширваном своего брата..."(Bax, Göst. əsər, səh.: 56-57). Və ya: "После смерти Хулагу-хана в 663 (1265) г. наследовал его сын Абака-хан, который передал управление Азербайджаном, Арменией и Ширваном своему брату Йошмуту" (Bax, Göst. əsər, səh.: 74-75).

Göründüyü kimi, A.Bakıxanov QƏDİM VƏ ORTA ƏSRLƏR dövründə Şirvan ilə Azərbaycanı fərqli adlarla təqdim etmişdir. "Azərbaycan" adı 1918-ci ildən bəri Milli cümhuriyyətçiliyimizin ünvanı olsa da, bununla belə heç bir kəsin şirvanlılara öz şanlı keçmişini unutdurmağa da haqqı yoxdur. Bu gün "Şirvanşahlar" adını tatixdən silməyə çalışanlar ilk növbədə yalnız düşmən dəyirmanına su tökürlər... Tarixçi-ədib yazır: "Албания получила свое название от римлян слово Альбус, Алби (белый)... в смысле «свободный»"(Səh.: 17-18). «Белый» (ağ) sözünü Belorusiya adı ilə müqayisə edərək, Bakıxanov onun "azad" mənasını daşıdığını da irəli sürür. Sa-Atabaqo Xristian QIPÇAQ ATABƏYLƏR DÖVLƏTİnin (1268-1578. Paytaxti-Artvin) uzun illik müqaviməti sayəsində Monqol işğalından kənarda qalmış bir ölkə kimi Belarusiyanın azad Rusiya adını daşıdığı şübhə doğurmur. Şirvan şahlığının azadlıq ölkəsi kimi Albuslaşdırılması (Albaniyalaşdırılması) Qədim Roma üçün başa düşüləndir. Bu faktın özü də Şirvanın AZADLIQ DİYARI olmasının tarixi təsdiqidir. Amma bəzi çağdaş Azərbaycan tarixçilərinin ilkin Şirvanşahları tarixdən silmək cəhdləri açıq-aşkar xalqa xəyanətdən başqa bir şey deyil. A.Bakıxanov "aqvan"

sözünün yanında bir qayda olaraq, mötərizə içərisində “Şirvan”sözünü də işlədir. (Bax, səh.: 42-43). Çünki alimə görə: “М.Чамчыян в «Армянской истории» Ширван называет Агваном” (Bax, Göst. əsər, səh.: 11-12).

Tarixi xronika göstərir ki, Avrasiya məkanına Şirvanşünaslığı əvəzləmiş Albanistikanı saxta erməni tarixçilərindən sonra, ilk dəfə rus alimi Vladimir Fyodoroviç Minorski gətirmişdir. V.Minorski akademik B.Dornın almanca təkrarən Sankt Peterburqda nəşr edilmiş “Versuch einer Geschichte der Schirvanschahe”. (Mem. de l’Akad. de St. Petersburg) adlı əsərindən misal gətirərək, Şirvanşah III Mənuçöhrün öz sarayında yaratdığı yüksək mədəni intibahı xüsusi qeyd edirdi: “Он (-Şirvanşah Mənuçöhr-N.A.), по-видимому, превозшел всех своих предшественников и потомков в любви к наукам, в особенности к самой прекрасных из них- поэзии ”. (Минорский В.Ф., «История Ширвана и Дербенда X-XI веков». Москва-1963, Изд.-во восточной литературы., səh.-10-11). Onu da qeyd edim ki, Minorski bu əsəri ingilis dilində yazıb, nəşr etdirmiş, əsərin rusca ilk nəşri isə 1953-cü ildə “Kembric Universiteti” seriyasından erməni S.Q.Mikaelyanın tərcüməsində “Qafqaz tarixi üzrə etüdlər” adı altında işıq üzü görmüşdür. “X-XI əsrlər Şirvan və Dərbənd tarixi” sərlövhəsinin “Qafqaz tarixi...” kimi dəyişdirilməsi özlüyündə Şirvana qarşı qərəzli “akademik” niyyətdən xəbər verir: bunun adı elmi şirvanşünaslığın psevdo-albanşünaslıqla əvəzlənməsindən savayı bir şey deyildi. Acı həqiqət budur ki, bu fəaliyyət hələ də davam etdirilir... V.F.Minorskinin əsərində ayrıca “Albaniya” fəsli yoxdur. Amma kitabda “alban xristianlığının” erməni faktoru (?!) olması dəfələrlə vurqulanmışdır. O yazır: “Мы уже видели обращение албанцев в христианство и введение албанского алфавита было делом армян. Армянские поселенцы и культурные элементи способствовали дальнейшему поглощению албанской народности” (Gəst. əsər., səh.35-36). Digər bir stata baxaq: “Мелкие армянские правители Сюника и Арцаха (на юге от Барда’а) играли значительную роль в делах Албании” (Göst. əsər, səh.-36). Minorski “Armeniya”nın 387-ci ildə “Arazdan Kürə, hətta Kürdən şimala doğru” ərazilərini

itirdiyini yazır. (Səh.-35-36). Deməli, B.F.Minorski "Şirvan tarixi"dən yazdığı halda, "Ermənistanın itirdiyi Albaniyadan" danışır. Bu isə o deməkdir ki, V.F.Minorski tarixi Şirvanşahlar ərazisini Ermənistan coğrafiyasına salaraq, sonrakı " milli addımların atılmasına" da ilkn yol açmışdır.

Alabanşünaslığın söykəndiyi ən önəmli "tarixi əsərlər" içərisində Moisey Kalankatuklunun adına çıxarılmış "Albaniya tarixi" və Mxitar Qoşun adına deyilən kiçik kitabçadır ki, onlarda da kilsənin "Albaniya" adlandırdığı ölkənin Şirvanşahlar olduğu heç kəsdə şübhə doğurmur. Moisey Kalankatuklunun "Albaniya tarixi" akad. Ziya Bünyadovun tərcüməsində (şübhəsiz ki, ruscadan- N.A.) Mahmud İsmayılovun redaktorluğu ilə 2006-cı ildə "Avrasiya Press" nəşriyyatında təkrar işıq üzü görmüşdür. Redaktor bu əsərdəki anoxronizmləri qeyd edərkən, haqlı bir sualla çıxış edir: "VII yüzilliyin abidəsi Albaniyanın Kalankatuk kəndindən olan Moisey Kalankatuklunun "Albaniya tarixi" əsəri üç hissədən ibarətdir,.. ikinci və üçüncü hissələr X əsrdə yazılmışdır. Əlbəttə, VII əsrdə yaşayıb yaratmış müəllif X əsrə qədər, üç yüz il yaşaya bilməzdi" (Bax, Göst. əsər., səh.:-5). Orijinalı itmiş, bizə ermənicə çevirməsi gəlib çatmış bu kitabın əsli olubsa, heç şübhəsiz, şirvanlı Musanın yazdığı bu əsər qədim pəhləvicə olmalı idi. Çünki o dövrün ellinizm xarakteri müxtəlif xalqların mədəniyyətinin sintezi olaraq, özündə qədim yunan və İran ünsürlərini daha çox birləşdirmişdir. Deməli, hər iki "qədim ermənicə mənbə"nin qondarma bir şey olmasını sübuta ehtiyacı yoxdur. Amma Şirvanın (psebdo-tarixdə: Albaniyanın- N.A.) "Armeniyaya " birləşdirilməsinə gəldikdə isə belə bir şey də tarixdə, ümumiyyətlə, heç vaxt olmamışdır. Çünki sözü gedən əsrlərdə Tarixin səhnəsində iki imperiya söz sahibi olmuşdur: İran Sasaniləri (ATƏŞPƏRƏST bayrağı altında) və Roma (əvvəlcə bütpərəst, 313-cü ildən sonra isə XRİSTİAN bayrağı altında). Armeniya nə mənə idi ki, işğal siyasəti həyata keçirib, hələ bir "Albaniyanı" özünə ilhaq da edə idi??.

Fəridə xanım Məmmədova "Qafqaz Albaniyası və albanlar" kitabında yazır: "Хотя официальное принятие христианства (в 314 г.) в Албании связано с греческим влиянием (деятельность Григория Просветителя в Армении, Нирщ- в Грузии,

епископа из Рима, прибывшего в Албанию), тем не менее влияние грекофильской школы сказалось значительно позднее.» (Göst. Kitab. Səh.: 12-13). Şirvan xalqı bütün varlığı ərzində çeşidli işğalçı qüvvələrlə qarşılaşmış və bir çox hallarda uzun illik əsarət zülmü görmüşdür. Bunlar yalnız köçəri-bədəvi qarətçilər olmamışlar. Zamanın ən nəhəng quladarlıq imperiyaları da onun İstiqlaliyyətinə dəfələrlə qəsd etmişlər. Roma imperiyasının latın sözü olan "Albaniya", yəni "köləliyi qəbul etməyən xalqlar" anlayışının qədim ŞİRVANLILAR üçün işlədilməsi anlaşılandır. Amma bu ərazilərin Armeniya tərəfindən işğal edilməsi "faktı" isə gülünc söhbətlərdir. Qəti demək mümkündür ki, Musa Qalaqayıtlının "Şirvan tarixi" (saxta variantda: "Albaniya tarixi" və ya "Aquan tarixi") əsəri erməni şovinistləri tərəfindən son iki yüz ilin ərzində qədim pəhləvicədən müasir ermənicəyə çevrilib saxtalaşdırılmış bir "mənbədir". K. Patkonova görə, "Albaniya tarixi"nin ən qədim əlyazması 1279-cu ilə aiddir. Bu o tarixdir ki, 10 il ondan əvvəl 1269-cu ildə monqolların Talass Qurultayı bütün monqol şahzadə və köçəri əyanlarının şəhərlərdə deyil, çöllərdə yaşamalarına Fərman vermişdi.

VII əsr " alban tarixçisi" Moiseyin 1279-cu il tarixli bu "ilk əlyazması"nın qədim ermənicsini ermənilərin özü "Albaniya tarixi" deyil, "Aluank ölkəsinin tarixi" adlandırıblar?! Bu ziddiyyətli kitab Şirvanşünaslıq elminin yerinə gətirilmiş ilk Albanşünaslıq təlimidir?.. Azərbaycan albanşünaslığının ən tanınmış nümayəndəsi F.Məmmədova rusca nəşr etdirdiyi «Кавказская Албания и албаны» (Баку-2005) kitabında erməniləri xarakterizə edərək yazır: "Армяне, потеряв свои государства (свои государства??-N.A.) приступили к созданию истории армянского народа,.. расширяя его территории, возвеличивая ее правителей, пытались представить Армению третей державой после Рима-Византии и Персии." (Göst. Kitab, səh.: 199). Göründüyü kimi, İslam dünyası üzərinə Roma katoliklərinin xüsusi planı ilə yürüş edən Monqol-tatar işğalçı qüvvələrinin ilk ağalıq illərində ermənilər də əsarətə alınmış müsəlman xalqlarına qarşı sözü gedən bu siyasəti ideoloji müstəvidə fəal şəkildə qorxusuz-hürküsüz həyata

keçirmişlər. Əlbəttə, Monqol istilası dövrünün bu mürəkkəb tarixi şəraitindən sui-istifadə edərək, erməni "tarixçiləri" Şirvanşahlar dövləti ərazisində VII-XIII əsrlərə gedib çıxan saxta "alban xalqı və Albaniya dövləti" yaratmaq cəhdlərində olmuşlar. Bu elə indi də davam etdirilən bir siyasətdir. Amma bu siyasətin bizim alimlərimiz tərəfindən indiyəcən müdafiə olunmasına nə demək olar?!

Əgər "alban xalqı" olmuşdursa, hanı onun öz dilindəki "Albaniya tarixi"?.. Doğrudan da müasir xristian dinli udinlər tarixi "alban xalqı"nın yadigarıdırsa, onda "alban dilli mətnlər" nə üçün ciddi-cəhdlə Ermənistanın Matenadaranından kənara çıxarılmır??? Onu da deyək ki, udin xalqı, onun milli dilində bu gün nə qədər erməni kilsə terminologiyası işlədilsə də, ləzgidilli Qafqaz xalqlarından biridir. F.Məmmədova yazır: "Исследование… освещает историю албанского этноса, просуществовавшего длительный период с I в. до н.э. по VIII в. в превелах всей страны Албании (от Аракса на юге до Дербенда на севере) и далее с VIII в. по XIX в. в Арцахе, Ути и Шеки-Камбисене, Сюнике." (Фарида Мамедова. Кавказская Албания и Албаны. Баку-2005. səh..:- 379).

1937-ci ildə gürcü prof. İlya Abuladze XV əsrə aid erməni əlyazmaları içərisində guya "alban əlifbası"nı tapıb üzə çıxarmışdı. 52 hərflik bu yazı "Aluanic girne" (-yəni aqvan yazısı) adlandırıldı. Matenadaranda saxlanan bu "iki əlyazması"na aşağıdakı ümumi başlıq verildi: "Об истории святого и божественного елея, которую написали отцы Востока агванским письмом и перевели на армянский язык". Deyək ki, çox əcəb, bəs cənab İlya Abuladze hanı bu "alban əlyazmaları"nın orijinalları?? Bir halda ki, "Известия" qəzetinin 28 sentyabr 1937-ci il sayında erməni alimi Qraçya Açaryan onun barəsində təntənəli şəkildə bütün keç. SSRİ əhalisinə xəbər yaymışdı?.. Deməli, "erməni dilinə tərcümə edilmişdir", bəs hansı dildən?- Bu əlifba Alban dillli əlyazmadırsa, onun əslini kimdən gizlətmişlər? Və nə üçün?.. Yaxud bu xalq elə "erməni xalqı" olmuşdursa, onda Moisey Kalankatuklu (ermənilər onu "Movses Kalankatuatsi Dasxurantsi" adlandırırlar) niyə qeyd edir ki, "müqəddəs Ruhun mərhəmətilə üç xalqa, yəni ermənilərə, albanlara və gürcülərə,

əlifba düzəldən birinci vardapetlərdən olan şəxs- Mesrop Maştos" (Bax, Moisey Kalankatuklu. Albaniya tarixi. Avrasiya Press., Bakı-2006, səh.:-35) olmuşdur?!. O, nə üçün iki "eynidilli xalqa (alban və ermənilərə) iki müxtəlif "əlifba" düzəldirdi?!. Bu təzadları da bir yana qoyaq! Bəs, hanı bu "alban" xalqının öz vətəni uğrunda ərəblərə və ya monqollara qarşı azadlıq mübarizəsi?! Hanı onun şirvan xalqının cəsur oğlu Şirvanşah II Axsitan kimi vətən şəhidliyi?!..

Deməli, Şirvanşünaslıq elminə qarşı müasir milli "Albanşünaslıq" psevdo-elmi məhz İosif Vissorionoviç Stalin Cuqaşvilinin (çox güman ki, Cuqaşvililər Xəzər imperiyasının süqutundan sonra, Dərbənd qapıları ağzındakı Çoqadan İrana qaçaraq, İsfahan altındakı Nor-Cuqada erməni adı altında gizlənmiş İmam Hüseyni öldürən qatillərin nəslindən olub, sonradan xristian qılığına girmiş Nor-Cuqalı gəbrlərdəndir: "Cuqaşvili" soyadı bunu bəlli edir. Onun atasının farsmənşəli məsihi "osetin" olması da buradan qaynaqlanmışdır. Cuqalılar barədə Minorskinin tarix kitabında X əsr ərəb tarixçisindən götürülmüş 50 səhifəlik son əlavəyə bax:.-Red.) əmri ilə belə psevdotarixlər üzərində yaradılmışdır. "Albaniya tarixi" adlı bu kitabın "ilk əlyazmasının tarixi"ndən, yəni 1279-cu ildən 100 il əvvəl bütün dövrlərin ən dahi Şirvanlısı şair İbrahim Əli oğlu Xaqani Şirvani (1120-1199) yazırdı:

Şirvan ki var: hər cəhətdən ülviyyətin anasıdır,
Onun hər bir səhər yeli dərdlərimin dəvasıdır.

Yenə də Sara Aşurbəylinin "Şirvanşahlar dövləti" əsərindən bir parçaya diqqət yetirək: "IX əsrdə ibn Xordadbeh xəbər verir ki, ilk Sasani şahı I Ərdəşir "(224-240) Şərqi Zaqafqaziyanın bir sıra hakimlərinə şah titulu bağışlayırdı: Azərbazkan şah, Baraşkan şah (ehtimal ki, Balasakan şah-S.A.), Allan şah (Muğan), Ərmin şah, Filan şah və s. İbn Xordadbeh onların arasında "Şiryanşahın da adını çəkir."(səh.:-47). Maraqlıdır, Alban Mehrani hökmdarlarının adları qədim pəhləvicə olduğu halda, Ərəb fütuhatı dövrünün "alban rəhbəri" Cavan Şir adlanırdı. Sara xanım "Albaniya tarixi"ndən misal çəkərkən müəllifin (M.Kalankatuklunun- N.A.) Alban-Mehranilərinin həm Kəsra Nuşirəvanın, həm də Bəhram Çubinin Albaniyaya köçmüş nəsil nümayəndələri olaraq

göstərildiyini qeyd edir. Onların adlarının ilk hissəsi:-Varaz Qriqor, Varaz Peroj, Varaz Tridad, Varazman və s.-in pəhləvi dilində "qaban" demək olduğu bildilir. (səh.: 49). Hesab etsək ki, "Şir" sözü də (bizim Namiq adımız kimi) qədim pəhləvi sözüdür, onda Şirvanşahlar dövlətçiliyinin massaget-qıpçaq əsaslar üzərində Qədim İran və Yunan-Roma ellinizminin sinkretik ümumcahan sivilizasiyası olduğu aşıq-aşkar ortaya şıxır. Deməli, "albanşünaslığa" "tarixi əsaslar yaratmaq üçün" F.Məmmədovanın rusca nəşr etdirdiyi «Кавказская Албания и албаны» (Баку-2005) kitabında hər hansi "erməni faktoru"nun bu cür şişirdilməsi: "Армяне, потеряв свои государства (свои государства??-N.A.) приступили к созданию истории армянского народа,.. расширяя его территории, возвеличивая ее правителей, пытались представить Армению третей державой после Рима-Византии и Персии." (Göst. Kitab, səh.: 199), əlbəttə, yalnız "расширять" edilmiş Şirvan Dövlətinin hesabına irəli sürülmüş bir gopdur; həm də müasir Azərbaycan və Ermənistan "tarixçilərinin" hesabına?!. Əlbəttə, işğal illərində Şirvanşahlardan nə isə itirilmişsə, Şirvan xalqından və onun 4500 illik tarixi dövlətindən qeyb olmuşdur, hər hansı absurd "erməni böyük dövlətindən" yox... Bundan əlavə: qədim pəhləvicə Vəxranşah (Qabanlar şahı), Şirvanşah (Şirlər şahı), Filan şah (Fillər şahı), Alanşah (Qarğalar şahı) və s. titullar arasında Şirvan şahlarının identifikasiyası özlüyündə Şirvanşünaslığı Albanşünaslıqla əvəzləyənlərə ən tutarlı cavabdır.

Məhz V.F.Minorskinin "История Ширвана и Дарбанда" əsəri uzun illər ərzində "Azərbaycanlı" alimlərin geniş istifadə etdiyi tutarlı bir "mənbə" kimi Şirvanşünaslığı aradan qaldırıb, "milli Albanistika" yaradılmasının əsası olmuşdur. Məhz bu kitabın ideyaları əsasında tarix elmləri doktoru Fəridə Cəfər qızı Məmmədova da bizim üçün sözü gedən "Кавказская Албания и албаны" monumental əsərini (Qafqaz Albaniyası Tədqiqatlar Mərkəzi, Bakı-2005) yazıb nəşr etdirmişdir.. Albaniya üçün 1000 illik tarix düzəldən tarixçi xanım yazır: "Я имею в виду не только культурное наследие 1000-летнего Албанского государства, а также культурное наследие поздных албан,

пяти албанских меликств и остальных албан” (F.Məmmədova, Göst. əsər, səh.-3).

Belə məlum olur ki, hətta, XVIII əsrin Qarabağ xanlığının beş xristian məlikliyi də XVI əsrdə Kakuyilərin revanşı olaraq hakimiyyətə gətirilmiş Səfəvilər tərəfindən dağıdılmış Şirvan dövlətinin bir məsihi-provaslav rundamenti deyil, uzun ömürlü qondarma “Albaniya dövləti”nin tarixi davamı imiş... Şirvanşünaslığın sıradan çıxarılaraq, “albanşünaslıq”la əvəz edilməsi sahəsində çalışmış alimlərin uzun siyahısını çıxarmağı lazımsız bilirəm. Amma memarlıq doktoru, porofessor Gülçöhrə Məmmədova və fəlsəfə doktoru Səbinə Hacıyevanın iki cildlik “Qədim və erkən orta əsrlər dövründə Azərbaycan memarlığı” (Şərq-Qərb nəşriyyat evi, Bakı-2013) kitabında təqdim edilmiş III Fəsilin adı: “Qafqaz Albaniyasının memarlığı” , xüsusilə Gülçöhrə xanımın şəxsən yazdığı VIII-XIV əsrlər arası dövr memarlığı, Monastır kompleksləri, “Alban memarlığı abidələrinin memarlıq konstruksiyaları və dekorativ həlli” ilə Şirvan xristian abidələrinə sahibliyi hansı əsasla uydurma etnosun adına çıxardığının fərqində olduğunu düşünmürəm. Şirvan adını elmi tarixşünaslıqdan vurub çıxarmış “Albaniya” termini haqqında daha bir elmi əsərə müraciət etmək istəyirəm: bu M.S.Mitinin “Белая Русь. Хроника употробления термина” (Рига-2017, Институт белорусской истории и культуры.) kitabıdır. Bu kitab “alban terminologiyası üzrə” görkəmli tədqiqatçı Ales Belıy və Oleq Latışenkonun hazırladığı faktlar üzərində yazılmışdır. Ales Belıyın faktlarından nümunələr verən müəllif həmin kitabın 7-ci səhifəsində aşağıdakı statları gətirir:

«с.40. Самоназвание народа, который римляне называли «Албания», не известно, а этимологию их латинского псевдонима сейчас почти невозможно восстоновить».

«с.43.Термин Alba Ruscia, как нам кажется, в контексте этого контексте может означать «часть Руси, которая когда-то была Албанией», т.е. страной «албанов…»

«с.48. Но даже усли Белая Русь- своеобразный «клон» Албании, она не вытеснила прототип польностью»
.
«с.53. Превращение Албании в Белую Русь, произошло не только на севере Восточной Европы,.. но и в Северноь Причерноморье и Приазовье.»

Deməli, "Albaniya" termini "ağ" və "azad" mənalarını bildirən latın sözü olub, Roma imperiyası dövründən bəri əsarət qəbul etməyən, qula çevrilməyən xalqların və ölkələrin ümumi adı sayılmışdır. Elə buna görə də "Balkan Albaniyası" və "Qafqaz Albaniyası" kimi qeyri-tarixi anlayışlar yaradılıb, ortaya atılmışdır. Buradan da indiyəcən nə üçün Şirvandakı xristian kilsə xadimlərinin yazdığı kitablarda məhz "Albaniya ölkəsi və xalqı" adlarının sabit yer alması məlum olur.

Şirvan şahlığının Roma işğalları dövründə meydana çıxarılmış "Albi" latın sözü ilə XIX əsr Alman katolik kilsə kafedralarının Şirvanşahların vətən anlayışını əvəz etmək cəhdi hələ də davam edir... Buna geniş rəvac verən amillərdən biri də ölkəmizdə dağıdılmadan qorunub saxlanılmış xristian kilsələrinin mövcudluğudur. Lakin bu faktın çox səmimi izahı vardır: onlar şirvan xalqının özünə məxsusdur. Çünki uzun illik işğalların üzündən şirvan xalqı və onun ölkəsi gah xristianlığı, gah da atəşpərəstliyi qəbul edərək, fiziki yaşam uğrunda mübarizə aparmışdır. Bunu atəşpərəstlik məbədləri üzərində tikilmiş xristian kilsə və monastırları əyani şəkildə sübut edir. Şirvan xalqının İslamın qəbulundan sonrakı dövrlərdə öz ərazisindəki xristian məbədlərini nə üçün dağıdıb məhv etməməsi də məhz bu kilsələrin onun özünə məxsus olmasının daha bir bariz ifadəsidir. Amerikanın yerli hindularının öz ölkələrini necə çağırması ilə anqlosaksların qoyduğu ad arasında nə qədər fərqin ola biləcəyini təxmini zənn edin... Hər bir xalqın öz tarixinə öz milli baxışı vardır. İstər Sasani hökmdarı II Yəzdəgird (438-455), istər I Xosrov Ənuşirəvan (531-579) dövrü olsun, istər Makedoniyalı İsgəndərin eramızdan əvvəl IV əsri, istərsə də daha qabaqkı əsrlərdə Dərbənd divarlarının və qalalarının mühafizə ixtiyarı yalnız Şirvanşah titulunun daşıyıcılarına həvalə edilmişdir. "Kaspi qapıları" (alban deyil) adı ilə bu tikililər ilk dəfə Qeqatey

Miletlinin (eramızdan əvvəl VI əsr) yazılarında xatırlanmışdır. M.ö. IV əsrdə Xares Mitelenli Dərbənd divarlarından e.ə. VIII-VII əsrlərin hadisələri ilə bağlı söz salmışdır. Bu qala və divarlar daha çox Şimaldan gələn dağıdıcı yürüşlərin qarşısını almaq məqsədinə xidmət etmişdir. Bütün tarix yekdilliklə təsdiq edir ki, Dərbəndin mühafizəsi Şirvanşahlıq titulu ilə əlaqədardır. Və Şirvanşahlar dövləti özünün həm tarixi, həm də mifoloji keçmişi etibarı ilə qüzey sərhədimiz olmuş Dərbəndlə bağlıdır. Zatən, sonuncu Şirvanşahlar nəsli də Şirvanşah I İbrahimdən başlayaraq, tarixə məhz “Dərbəndilər” sülaləsi kimi düşmüşdür! Əgər Əhməni və Sasani dövlətləri zamanında Dərbənd sədlərini (keçidlərini) qorumuş knyazlar “ilkin Şirvanşahlar” titulunun sahibləri olubsa, onda Vətənimizin Arazdan quzeydəki tarixi dövlət qurumlarını YUNAN-ROMA tarixçilərinin və ya erməni keşişlərin “əsərləri” əsasında “Alban” və ya “Ağvan ” dövlətləri- “ALBANİYA” adlandırmaq nə dərəcədə doğrudur?!.

Omu da xüsusi qeyd etmək lazımdır ki, qədim yunan hökmdarı fateh Makedoniyalı İsgəndərin Qafqaza ayaq qoymadığı tarixşünaslıq elmində sübut edilmişdir. Elə isə dahi Nizami Gəncəvinin “İsgəndərnamə” diologiyasında təsvir və tərənnüm edilmi “İsgəndər” kim olmuşdur? Məlumdur ki, Nizami Gəncəvi Şirvan hökmdarı I Axsitanla çox yaxın olmuş və onun sifarişilə “Leyli və Məcnun” poemasını yazmışdır.



Рис. 1. Карта Кавказа в 290 г. до н. э.

XII əsrdə Şirvana Dərbənd səddini aşaraq, tez-tez varyaq-rus yürüşləri təşkil edilmişdir. Bu işğalçı qüvvələr üzərində baba-ata-bala şirvanşahlar I Əfridun, III Məniçöhr və I Axsitan müdafiə döyüşləri aparmışlar. Sonuncu düşmənə həlledici zərbə endirərək, onu uzun müddətə Dərbənddən dışarı çıxarmışdır. Bu savaşlar XII əsr klassik şairlərimizin – İbrahim Əli oğlu Xaqani, Məhəmməd Fəlaki, Nizami Gəncəvi, Əxsitəki və Müciləddin Beyləqaninin

poeziyasında geniş vəsf edilmişdir. Buradan belə nəticə çıxara bilərik ki, N.Gəncəvinin VARYAQ-RUS işğalçı qüvvələri



üzərində Dərbənd zəfərinin qəhrəmanı sayılan "İsgəndər" məhz Şirvanşah I Axsitandır. Mən Avrasiya xalqlarının tarixində böyük əhəmiyyəti olmuş bu Zəfəri "Şirvanşahlar haqqında saqa" roman-epopeyamın ilk kitabında **"Şirvanın zəfər salnaməsi (Dərbəndnamə)"** adlı hissədə geniş təsvir etmişəm. Bu mübarizədə Şirvan şahı I Axsitana gürcü dayısı III Georgi, Bizans imperatorunun varisi Andron Komnenos şirvan xalqına Azadlıq savaşında hərbi yardım etmişdilər. Bu savaşın mənəvi rəmzi isə şirvanşahın doğma Bibisi- Bibi Heybət İsmətəddin bəyim olmuşdur. Romandan bir parçanı təqdim edirəm: *"Daxili çəkişmələr nəticəsində Kiyev-Rus dövlətinin ünlü simalarından biri sayılan Andrey Boqolyubski 1174-cü ildə öldürülmüşdü. Onun oğlu Yuri Andreyeviç (çariça Tamaranın gələcək əri) bir müddət Novqorodda (1172-1175) knyazlıq etsə də, atasının ölümündən sonra ordan qovulub, yerini Svyatoslav Mstislaviçə verməli olmuşdu. Belə bir qarışıq dövrdə Şirvan dənizinə girmiş yağmaçı qüvvələrin arasında hər hansı ideya birliyindən danışmaq qeyri-mümkündü...*

*Bizans vəliəhdi Komnenos düşmənin içəridən parçalanması üçün onlarla separat danışıqlar aparmağı təklif etdi. Amma onun bu təklifi xalaoğluların qoca dayısı gürcü çarı Georgi tərəfindən birmənalı olaraq rədd edildi.*

*Dərbəndin içində müsəlman əhali öz Şirvanşahlar dövlətinin zəfərini asanlaşdırmaq üçün amansız cihada başlamışdı.*

*Ağır baltalarını işə salmış varyaqların vəhşi səsləri Dərbənd divarlarına dəyib əks-səda verirdi. Camaat yağıların bütün ehtiyat anbarlarını atəşə vermişdi. Dərbəndin dişi aslanları əmri yerinə yetirərək, Vətənin Şir Bayraqlarını şəhərin gözə gürünən bütün ən hündür yerlərindən asaraq, xalqı daha da cəsarətləndirməkdə idilər. Yalnız Dərbənd qalasının üzəri Bayraqsız qalırdı.*

*Nəhayət, hərbi uğurların sevincindən şirə dönmüş Andron Komnenos şirvanlıların dəniz desantının yardımçı ox yağmuru altında özünün şəxsi varyaqları ilə qüzeydən qala divarlarını aşmaq üçün irəli atıldı.*

*Böyük Bibi əlində tutduğu Bayrağı yelləyərək bu hücum qvardiyaqsının önünə keçdi. Andronun oğlu 9 yaşlı Manuel də nənənin yanında yer almışdı. O da I Ordu komandanlığı tərəfindən Bayraqdara yardım vəzifəsinə gerövləndirilmişdi. Düşmən də boş durmayıb yuxarıdan aşağıya ox yağdırırdı. Andronun yunan atəşləri onları tez-tez qala bürclərindən geri çəkilməyə məcbur edirdi.*

*Nəhayət, bizanslıların ilk qala nərdivanları öz cəngavərlərinin ilk dəstəsini Dərbənd divarları üzərinə çıxardı. Amansız savaş saatlarla sürdü. Hər iki tərəfdən baltaların kəsdiyi başlar Narınqaladan aşağıya dığırlanıb tökülürdü. Yeddi rus soyundan-Burtas, Alan, Xəzran, Kiyev, Smolenski, Vladimir-Suzdal, Novqoroddan yığılmış Varyaq-Rus döyüşçüləri qorxu bilmədən amansız savaşa girmişdilər:*

*Alanlı bir atlı döndü aslana,*
*Qara əjdaha tək girdi meydana...*
*Əlində 70 zor igidin gürzü,*
*Kökündən ayırar qoca Elbürzü.*

***(Nizami Gəncəvi. "İsgəndərnamə" poeması. Şərəfnamə. İsgəndərin Dərbənd qalasını alması. Lider nəşriyyatı. Bakı-2004. Səh.: 337).***

*Vardı bir pəhləvan, adı da Tartus,*
*Mərdlikdə tanırdı onu hər bir Rus.*
*-Mənə Tartus adı vermişdir anam,*
*Rusların Rüstəmi sayılır bu nam.*

***(Yenə orda. səh.: 335)***

*Dərbənd qapıları, nəhayət, içəridəki 30 dişi aslanın şəhadətinin ardınca amansız savaşa qatılmış dərbəndlilərin mərdliyi hasabına taybatay açıldı. Çar Georgi gürcü cəngavərlərini şəhərə yeritdi.*

*Axsitanın Donanması isə şəhərin mühasirəsini bütünlüklə başa çatdırmışdı. İndi burdan bir quş belə qanad açıb, başqa yerə uça bilməzdi. Cənub tərəfdə həm sağ, həm də sol cinahdan Şahənşahın orduları xeyli irəliləyə bilmişdi. Hücum edənin canlı itkisi çox olur. Hər bir addım üçün neçə-neçə gəncin həyatı qurban getməkdə idi.*

*Dayı Georginin hərbi qüvvələri ilə eyni zananda Bərdə qapısından şəhərə girmiş Şahənşahın ordusu savaşı artıq Dərbəndin küçələrində aparırdılar. Onun qüvvələri ilə çar Georginin əsgərləri birləşərək irəliləyə-irəliləyə şəhərin Böyük Cümə məscidini düşmənlərdən azad etməyə başlamışdı.*

*Axsitan mühasirə işini tamamlayıb, şəxsi mühafizə qvardiyası ilə içqalaya daxil oldu. O, dörd gözlə Böyük Bibini axtarırdı. Döyüşün ümumi gedişatına rəhbərlik edən Böyük Xaqanın qəlbində Zəfərə şübhə yeri olmasa da, artıq Bibidən yana qəlbi bərk həyəcan keçirməyə başlamışdı... Xaqan Qələbə paradını əsla Böyük Bibisiz keçirmək istəmirdi.* ***Bibinin son sözləri yadına düşdü: "Dur sənə bir sözüm də var: əgər Bibin Dərbənd davasında şəhid olsa, ona yas saxlama... Nə mənə, nə şəhid olmuş balalarıma-Möminata, Şahruha, Zöhraba... Əxi, oğlum! Qalib ölkədə yas saxlanmaz. Dediyimi unutma..."***

*...Bu arada Böyük Bibi də Dəmir qapı Dərbəndin ən uca bürcünə çıxa bilmiş bizanslılar arasında idi. Bibi bu hündürlüyə Xaqanın xalaoğlusu Andron Komnenosun bizanslı cəngavərlərinin sayəsində nail olmuşdu. İndi o, balaca Manuel Komnenosla köməkləşib, Əfiridunun şanlı Bayrağını bu uca bürcə sancırdı. İsmətəddinin illərlə gözlədiyi an gəlib çatmışdı... Nəhayət, xəyal gerçəyə çevrildi: şəhid Şirvanşah Əfiridunun qızı Şir rəmzli Vətən Bayrağını Şirvanın Dərbənd bürcündən asdı!..*



*Şirvan dənizinin dalğalandırdığı bu müqəddəs Bayraq 76 yaşlı nənənin ən ali idealı idi. Nənə çılğın bir sevinc hissi ilə bürcün*

*təpəsindən üzü aşağıya İbrahim Əli oğlu Xaqani Şirvaninin sözlərini söyləməyə başladı.*

*-Mərd odur, dərd əlindən etməsin bir ahü zar,*
*Dərd odur, mərd yanında olsun daim bərqərar.*
*Kim qurar eşq büsatın qəm çölündə şövq ilə,*
*Gülzari-eşq seyrinə qazanmış hər ixtiyar.*
*Zülfi-canan hökm edər məni kafər olmağa,*
*Mərd deməzlər aşiqə iman olsa payidar.*
*Yar camalı nur ilə bəzəyərsə cahanı,*
*Sübhidən dəm vurmağın nə zövq, nə mənası var?*
*Mərd Xaqani saraylar qapısın tərk etsə də,*
*Şirvanın Bayrağıyla daim edər iftixar!!*

***(Xaqani Şirvani. Tərcümədə vəzni dəyişiklik edilib.-Müəl.)***

*Kiçik Manuel də nənəyə qoşulub, başa düşmədiyi bu gözəl sözləri onunla bir ağızdan ucadan təkrarlayırdı. Onların qələbə sevincinin həddi-hüdudu yox idi. Birdən Dərbənd hasarını içəri aşmaqda olan Andron Komnenosun gur səsi eşidildi: -Nənə-can, Manueli qoru!.. Onu vuracaqlar...*

*İsmətəddin xanım balaca bizanslını hədəfə almış varyaq piratını gördü. Düşmən çox yaxın məsafədə idi. Onun axıracan çəkilmiş yayının oxu dümdüz kiçik Manuelə tuşlanmışdı. Oxun yaydan çıxması ilə Böyük Bibinin öz sinəsini onun qabağına verməsi bir oldu... Nənə yıxıldı və dərhal ağzından qan açılaraq dünyasını dəyişdi. Hər şey bircə anda baş verdi.*

*Manuelin nənəni ayağa qaldırmaq cəhdi alınmadı. Düşmənin başını balta ilə bədənindən üzən Andron özünü Böyük Bibiyə yetirib, oxu onun sinəsindən çıxardı. Sonra dizini yerə ataraq, İslamı qəbul etmiş atası İsaakdan öyrəndiyi kəlmeyi-şəhadəti kobud Bizans ləhcəsi ilə oxumağa başladı.*

*Andronun gur səsi ikinci kəz də gurladı. İndi onun səsi bütün aləmə yalnız dəhşət saçırdı:- Mənim qartallarım! İrəli. Mən sizə düşməni son nəfərinədək məhv etməyi əmr edirəm!..*

*Kiçik Manuel canı bir anda çıxan Böyük Bibinin cəsədi üzərində Bayraqdan tutub, "Yaşasın Şirrvanşah Böyük Axsitan" deyərək*

*çığırmağa başladı. Bu səsə bənd imiş kimi ətrafdakı bütün ordu da ona qoşuldu.*

*Manuelin səsi exo verərək, dalğa-dalğa Dərbəndi başına almışdı. Böyük Bibi məhz bu coşqun sədalar içində intiqama qalxmış Şirvanşahlar Dərbəndinin ən uca qala bürcündə səssizcə uzanıb, dalğalanan Bayrağının altında cənnət yoluna saribanlıq edirdi...*

*Ağzını açırkən odlu əgdaha,*
*Rusları əzdilər yer-yerdən daha...*
*Əzdilər Qıntalı, üstün gəldilər...*
*Ruslardan, Qıntalın aslanlarından*
*Əsir düşdü neçə qılınc oynadan.*
*Qalanlar yem oldu ac qılınclara,*
*Fitnəyə ölümdən başqa yox çara!*

***(Nizami Gəncəvi. Göst. əsər. Səh.: 356-357)***

*Təpələr şəhəri olan Dərbənd insan bağırtıları içində ən qorxunc nağıllar dünyasına dönmüşdü. Savaş daha üç saata qədər sürdü. Başlarına müxtəlif heyvan maskaları keçirmiş buynuzli-quyruqlu bir işğal sürüsü Qafqaz və Bizans gənclərindən ibarət Birləşmiş Avrasiya Xilaskarlıq Ordusunun amansız ox və qılınc zərbələrindən tamamilə yenilənədək qırılıb töküldü. Yenildi. Və... yox oldu!.."*

Mən N.Gəncəvidə Yeni Avrasiya geosiyasətinin müsbət elementlərini görürəm: rus imperializminin Qafqaz istilası ağılsızlıq yoludur. Bizi- Qafqazlıları və Rusları yalnız dostluq və qarşılıqlı, bərabərhüquqlı qonşuluq telləri bağlaya bilər. Odur ki, Nizaminin XII əsrdə etdiyi xəbərdarlıq tarixi əhəmiyyətini saxlayır: "İsgəndərnamı"nin baş qəhrəmanının prototipi olaraq, Şirvanşah I Axsitanın apardığı Vətən müharibələri içərisində onun Xəzər dənizi uğrunda qıpçaq və ruslarla vuruşları xüsusi yer tutur. O bununla 40 il şirvanşahlıq etmiş atası Mənuçöhrin (1120-1160) 1130-cu ildə 36 rus gəmisi ilə Bakı savaşını təkrarlamışdı. 1170-ci ildə olmuş Xəzər savaşında rus və qıpçaq ordusunun 73 hərbi gəmisi iştirak edirdi. Lakin Axsitan dahi bir sərkərdəlik qabiliyyəti göstərərək, nəinki Rus donanmasını ağır məğlubiyyətə uğratdı, hətta onların əvvəllər işğal etdiyi Şabiranı və Dərbəndi də

geri aldı. Bu zəfər Nizami Gəncəvinin ”İsgəndərnamə ” (1197-1200) poemasında İsgəndərin şəxsində bədii şəkildə ümumiləşdirilmişdir. Təəssüf olsun ki, Azərbaycan ədəbiyyatşünaslığı bu faktı hələ də inkar yolundan əl çəkmək istəmir?!. Poemada oxuyuruq:

Quldurluq, oğurluq, bir də yol vurmaq,
Düşmənin mərdliyi bax budur ancaq.
Ruslarla döyüşdə heç vaxt qorxmaram,
Onlar bir sel isə, mən də bir dağam! ..
Türklərin oxuyla yenə hər zaman,
Qabar əskik olmaz rus ayağından.

**(Bax.N.Gəncəvi.İsgəndərnamə, I cild, Lider nəşr, Bakı-2004, səh.-322)**

Təəssüflər olsun ki, Qafqaz Ali Ruhani İdarəsi rəhbərliyi



tərəfindən “Bibi Heybət” məscidinin bərpası zamanı 1170-75-cı illərə aid bu tarixi abidənin üzərində Şirvanşah I Axsitan haqqında kitabə tamamilə unudulmuşdur. Məscidin “əsl ismi” , Böyük Bibi (Bibi Heybət) şahzadə İsmətəddin ümbül Əfiridun əvəzinə, ictimai fikrə şiə teokratiyasına uyğun yanlış əfsanələr buraxılmışdır... Bu isə ilk növbədə, Azərbaycanda İslam dininin öz daxildə olan tolerantizmə zidd hərəkətdir. Yolverilməzdir.

Şirvanşahlar tarixinin unudulduğu yerdə müasir Azərbaycan da yoxdur. Bəziləri son 500 illik anti-Şirvan tendensiyanı fərəhlə davam etdirərkən, bəhəbəhlə Türklüyün keçmişini “köçəri”əsaslar üzərinə qoymağa çalışır, “azərbaycançılıq” ideologiyası altında, vulqar doktrinal baxışlara əsasən, Şirvan oturaq mədəniyyətini unutmaq və unutdurmaq siyasəti yeridirlər... Əlbəttə, azərbaycançılıq ilə şirvanşünaslıq heç də hər nöqtədə birləşmir. Amma bu o demək deyildir ki, üzərində yaşadığımız tarixi goğrafiyaya və onun şanlı keçmişinə qarşı BÖLÜCÜLÜK aparmaqla “kimlərdənsə” bir “maledes” eşitməyə çalışaq. Bu üsul uzun illər Azərbaycanda akademik adların, elmi dərəcələrin əldə edilməsinin ən asan yolu sayılmışdır. Elə bu üzdən də Şirvanşahlar tarixi Azərbaycanda ən az öyrənilmiş sahə olaraq

qalır... Lakin bu oturaq mədəni TARİXin qarşısına qoymağa işğalçı köçəri yürüşlərindən başqa heç bir real "tarixi" faktlar yoxdur... Çünki söhbət təkcə İslam keçmişilə 1000 illik bir faktdan gedir.**İlk rus şərqşünaslar nəslindən olan Boris Dornın fikrinə haqq verməmək olmaz: "Şirvanşahlar min ilə qədər müddət ərzində tamam müstəqil dövlət kimi yaşamışdır."**

Rus tarixçisi Vl. Minorski isə bu diyarın yadelli ərəb, deyləmi və kürd işğalları üzündən cəmi iki əsr Dərbənddə- Haşimilər, Şirvanda Yəzidilər, Gəncədə- Şəddadilərin hökmünə tabe edildiyini yazır. Lakin bununla belə, o, Şirvanda hakimiyyət sürmüş Məzyədilərin mənşəcə ərəblərin Şeybani tayfasından olduqları halda, 861-ci ildə bu ölkənin müstəqilliyini elan edərkən nədən onu yenidən **"ŞİRVAN"** adlandırmasının səbəbini çox doğru olaraq belə izah edirdi: **"Во всяком случае престиж династии правителей Ширвана стоял горазде выше, чем репутация курдских пришельцев в Арране или даже Хашимидов ал-Баба…"** (История Ширвана и Дербенда X-XI вв. Изд.-во Восточной литературы. Москва-1963, стр.-155).

İlk Ərəb işğalı dövründə Şirvanın Girdiman vilayətinin son hökmdarının "Cavan ŞİR" adlanmasını da bu üzdən təsadüfi hesab etmək olmaz.

**(ardı növbəti sayda)**

**AtaTv.az Xəbər Portalı**
**İctimai Xəbər Agentliyi.**

10-02-2021, 20:39

**Namiq Atabəyli.**
**(yazıçı-publisist: tarixi romanlar müəllifi, şair,tənqidçi)**
**E-MAIL: farajovnamiq@ gmail.com**

# Şirvanşahlar tarixinə rekonstruktiv-mental baxış




## III HİSSƏ
## ŞİRVANŞAHLAR DÖVLƏTİ VƏ MƏSİHİLİK



1

Azərbaycanın antik və orta əsrlər sinifli cəmiyyət tarixinə diqqətlə nəzər yetirdikə Kuti, Manna, Midiya, Atropetena (Adərbayqan), Albaniya kimi adları görürük. Şirvanşahlar dövləti yalnız ilkin Orta əsrlərin müstəqil feodal dövlətlərindən biri kimi 861-ci ildən ortaya çıxır. Bunun nə dərəcədə doğru-dürüst elmi yanaşma olması mübahisəlidir. Əvvəla, Ərəb İslam cihadının ilk dalğası, bildiyimiz kimi, şirvan xalqından da kənar ötüşməmişdir. "Şirvanşahlar tarixi" elmi əsərinin müəllifi Sara Aşurbəylinin sözügedən kitabında maraqlı açıqlama var: "XIII əsr görkəmli İslam tarixçisi Rəşidəddin (1247-1318) məşhur "Məktubat" əsərində yazırdı: "Şirvanşahlar Dərbənd hökmdarları nəslindən olan qədim xanədandır... Artıq 2000 ilə yaxındır ki, sultan taxtı onların nəslinə məxsusdur." (Bax, S.Aşurbəyli. Şirvanşahlar dövləti. Avrasiyapress, Bakı-2006., səh.: 50).

Sara xanım həmin "Məktubat"dan belə bir fakt gətirir ki, Qafqazın ərəblər tərəfindən qəzavat zəminində fəthi zamanı Dərbənd hakimi Şirvanşah Şəhriyar (ilkin şirvanşahlar sülaləsinin son nümayəndəsi-N.A.) onlarla qarşılıqlı sülh imzalayır. Onun bəyanatında deyilir: "Mənim nə... dağlılar, nə də ermənilərlə heç bir əlaqəm yoxdur. Siz (yəni ərəblər-N.A.) mənim ölkəmi və xalqımı işğal etmişsiniz". (S.Aşurbəyli. Göst. əsər, səh.:-55).

Ərəblər Şirvanı xəlifə həzrəti-Ömər Faruxun  dövründə 642-ci ildə İslami qəzavat nəticəsində fəth etmişlər. Bu zaman Xilafət Arazın şimalında yalnız bir dövlət qurumunu, de-yure və de-fakto, tanımış, onunla da tarixi anlaşma bağlamışdır. Bu, qeyri-islami, politeist, oturaq mədəni cəmiyyət qədim şirvan xalqı idi və onun rəhbərliyində sonradan İslamiyyəti Sülh yolu ilə qəbul edəcək ilkin Şirvanşahlar titulunun daşıyıcısı olmuş siyasi elita durmuşdur.İlkin şirvanşahların son nümayəndəsi "Şəhriyar" adı ilə tanınmışdır. Qafqazda İslamiyyət,  rəsmi dövlət dini olaraq, məhz onun- Şirvanşah Şəhriyarın  ismi ilə tarixə yoldaşlıq edir. Görünür, Şəhriyarın Dərbəndi  İslam dünyası üçün "kafirlərdən" qorumaq missiyasını öz üzərinə alması bir müddət onun Sasani İranının ənənəsinə uyğun şəkildə "Filan şah" adlandırılmasına səbəb olmuşdur. Cahangir Zeynaloğlu 1931-ci ildə İstanbulda

nəşr etdirdiyi "Şirvanşahlar yurdu" adlı kitabında Derblonun verdiyi məlumata əsasən, xəlifə Vasiq dönəmində Şirvanşah Şəhriyarın "Filanşah" ismilə bir müddət Dağıstanın bəylərbəyi kimi fəaliyyət göstərdiyini qeyd etmişdir. (Bax, Göst. Kitabın Bakı nəşri, 2019, səh.- 57).

861-ci ildə Şirvanşahlar dövlətinin siyasi elitası tərəfindən ölkənin İstiqlaliyyəti yenidən bəyan edilmiş, beləliklə 861-1538-ci illər ərzində 677 illik, təxminən yeddi əsrlik müstəqil türk-islam dövləti tarixi varlığını qoruyub saxlamışdır. Bu müddət ərzində bu dövlətin azadlıq və İstiqlaliyyətinin müxtəlif xarici işğalçı qüvvələrdən- rus-varyaqlar, monqol-tatarlar, hülaki-çobanilər (padarlar), qaraqoyunlu, ağqoyunlu, səfəvi-qızılbaş və sair yadelli-köçəri tayfalardan qorunması və müdafiəsi yolunda **yeddi nəfər dövlət başçısı (-Şirvanşah) və şahzadə şəhid edilmişdir: Şirvanşah I Əfridun, II Axsitan və oğlu Kəyumərs, Şirvanşah I Fərrux Yasar, Şirvanşah Qazıbəy və həyat yoldaşı şahbanu Şahbikə bəyim Bakuvi, nəhayət, sonuncu Şirvanşah Şahrux ibn II Fərrux Yasar.**

Dünya tarixində öz xalqının azadlığı və ölkəsinin İstiqlaliyyəti yolunda bu sayda hökmdar yalnız 600 il ömür sürmüş qonşu çar Rusiayasında baş vermiş, çar İvan Qroznı (1547-1584) daxil 7 rus çarı vəzifə başında öz canını dövlətçilik yolunda fəda etmişdir. Bu, həmin IV İvan Qroznıdır ki, rus çarı böyük knyaz III Vasilinin oğlu idi: o, ata tərəfdən Ruriklər nəslinin Moskva budağına aid olmaqla, ana nəsli ilə Monqol-tatar Mamay xanın Litva knyazlığına gəlin köçmüş nəvəsi Yelena Qlinskayanın oğlu olmuşdur. Onun ata tərəfdən nənəsi isə Bizans imperatorunun qızı Sofiya Paleoloq idi. Tarixin ironiyası üzündən məhz İvan Qroznı Monqol-tatar Qızıl Ordasının qalıqları olan xanlıqları- Kazan, Həştərxan, Qərbi Sibir, Don Qoşunları vilayəti, Başqırdıstan və Noqayın istiqlaliyyətinə son qoyub, onları Rusiyaya birləşdirmişdir.

Onu da xüsusi qeyd edək ki, Monqol-tatar Ordası tərkibində regiona gətirilmiş köçəri tayfalar tərəfindən Şirvanşahlar dövlətinin süquta uğradılmasının intiqamını almaq və gələcək Böyük Rusiyadan hərbi kömək götürmək üçün çar İvan Qroznının Ordusunun başında Şirvanşahlardan Qazı bəyin və

Səfəvilərin öldürtdüyü şahbanu Şahbikə bəyim Bakuvinin oğlu və ya nəvəsi Qazıbəyoviç ismli şirvanlı şahzadə durmuşdur. Kazan şəhərinin istilasında rus suvarisinə Qazibəyoviç rəhbərlik edirdi. Təəssüf ki, İvan Qroznının zəhərlənərək sui-qəsdlə öldürülməsi və Rusiyada gedən sonrakı katolikyönümlü proseslər Şirvanlı sərkərdənin Şirvanşahlar Dövlətinin bərpası planlarını pozdu... Mücxalifətə keçmiş Şirvan şahzadələrindən Burxan Əli bəy (1539), onun şəhadətindən sonra qohumu Qurban Əli bəy, Qasım Mirzə, daha sonra Əbu Bəkr Mirzə (1550-1602) azadlıq mübarizəsini davam etdirmişlər. İlk rus şərqşünas-şirvanşünaslarından Boris Dorn şirvan xalqının İslam keçmişini belə təqdim edirdi: "Şirvanşahlar min ilə qədər müddət ərzində tamam müstəqil dövlət kimi yaşamışlar." (Boris Dorn. Şirvan haqqında verilən iki konfrans. "Записки Академии Наук. . S.Peterburq-1840, 1845").

Miladi 1453-cü ildə İstanbulun (Konstantinopoliusun) İslam qüvvələri tərəfindən fəthinin intiqamı naminə tarix səhnəsinə Bizans elitası və Papa tərəfindən maddi və mənəvi dəstəklənərək çıxarılmış Səfəviyə-fars şüubi dövləti 237 illik varlığı ərzində şirvan xalqının aramsız azadlıq mübarizəsi ilə qarşılaşmışdır. yaşamışdır. Bu savaşın sonu 1747-ci ildə Səfəvilərin varisi olan Nadir şah Əfşarinin Şirvandakı satrapının indiki Ağsu ərazisində Şıxmüzə düzündə Ümumazərbaycan Qüzey Azadlıq qüvvələri tərəfindən ağır məğlubiyyətilə başa çatmışdır.

Bu azadlmübarizəsi mükəmməl ideoloji bazaya malikdi. Belə ki, XII-XVI-cı illərin ədəbiyyatını bir kənara qoysaq, XVIII əsrin tarixi mənzumələri, tarixi-epik poemaları kifayət edir. Bu əsərlərdə artıq anti-İran siyasi etirazların əsl ictimai mahiyyəti dərindən duyulmağa başlamışdır. Xüsusən, Şakir Şirvaninin "Əhvali-Şirvan" (1743), Ağa Məsih Şirvaninin "Şahnamə", "Eşidin etdiyini Şahsevən Əhməd şahın" (1749), habelə Məhcur Şirvaninin "Qisseyi-Şirzad" əsərlərindən hiss olunur ki, bu ədəbiyyat hələ də XII əsr klassik Şirvan intibah poeziyasının Xaqani azadlıq və intibah təməli üzərində möhkəm durmuşdur. "Qisseyi-Şirzad"da Nadir şahın Şirvana işğalçı yürüşlərinə qarşı etiraz poema şəklində ümumiləşdirilmişdir. Lakin qanunsuz hakimiyyət zəbtinin təsvir məkanı Səmərqəndə köçürülmüşdür.

Azadlıqpərəst Şirvanlıq ruhu yalnız şirvanlıların özündə deyil, daim  Güney Azərbaycanda da milli bir azadlıq əhvalı kimi duyulub hiss edilmişdir. Şirvanşah I İbrahimin təsirilə baş qaldırmış bu hərəkat  öz bariz ifadəsini  ilk olaraq, Fədai Təbrizinin (XV-XVI əsrlər) ”Bəxtiyarnamə” poemasında və Arif Ərdəbilinin ”Fərhadnamə”sində tapmışdır. Fədainin əsərində hadisələr Şirvanda cərayan edir. Əsərin baş qəhrəmanı Behzad da məhz Şirvan hökmdarının oğludur. Arif Ərdəbili isə eşq yolunda Bisütun dağını çapan Fərhadı Şirvanlı kimi qələmə verib, onun Şirvanda yaşayan əqrəbalarını, tikib yaratdığı abidələri təsvir və tərənnüm etmişdir.

Ağa Məsih Şirvaninin tarixə ikinci ”Şahnamə” kimi düşmüş real tarixi məzmunlu əsəri Azərbaycan ədəbiyyatı tarixində xüsusi hadisə olaraq dəyərləndirilməlidir. Çünki burada artıq XIX əsrdə Vətənimizin və Millətimizin taleyini rus imperatoru ilə Araz çayı boyu bölüşəcək şər qüvvələrə qarşı Ümumazərbaycan istiqlal mübarizəmizin ilk akordları səslənmişdir. A.M.Şirvani öz ”Şahnamə”sində sanki Nizami Gəncəvinin ”İsgəndərnamə ”sini yeni tarixi müstəviyə çıxarıb, ona təzədən bədii həyat vermişdir. Poema tarixi dramın təkrar bədii mənzərəsini canlandıraraq, Nadir şahın köməyi ilə hakimiyyəti zəbt etmiş Əhməd xanın Şirvan üzərindəki istibdadını nəzmə çevirmişdir. Ağa Məsih ümumi şərin aradan qaldırılmasında da Nizaminin süjet və kompozisiyasından yaradıcılıqla yararlanmışdır. Ağsunun Şıxmüzə düzündə baş vermiş bu tarixi müharibədə Arazdan şimala bütün avtonom stallitetlərin birləşmiş qüvvələri Şirvanın azad edilməsində fəal iştirak edib, bununla da, əslində, ümumi vətənimizin bölünməzliyi və istiqlalı uğrunda ilk birgə milli mübarizəyə tarixi imza atmışlar. Şair əsərdə Şəki xanı Hacı Çələbini, Qarabağlı Pənah xanı, Quba, Lahıc, Ərəş, Xançobanı, Belokən, Qıssalı hakimlərini... xüsusi bədii cizgilərlə qələmə alıb. Ağa Məsih bu ”Şahnamə”də Ağsuya köməyə yığılmış yerli xanların birləşmiş qüvvələrini bir-bir Şıxmüzə hərb meydanında ümumi düşmənlə üz-üzə qoyaraq qarşılaşdırıb, Nizami ruhunda onların döyüş rəşadətini epik-lirik təsvir etmişdir. Açıq deməliyik ki, ədəbiyyat tariximizdə bu, yeni siyasi hadisə hələ XVIII əsrdə Milli istiqlal məfkurəmizin başlanğıcı  demək idi.

Şirvan tarixin bütün səhifələri milli qürur doğuran səhifələrlə doludur. Belə ki, Şirvanşahlar dövlətinin ərəb istilasından sonra təkrar bərpası və İstiqlalyyətə qovuşmasından danışarkən, qeyd etmək lazımdır ki, ərəb Məzyədilər nəslinin Deyləmi (Lahican-Gilan) qadınlarla izdivacından doğulmuş yeni nəsil şirvanşahların, daha doğrusu, Heysən ibn Xalid Cavadın (ərəb kökü Şeybani qəiləsindəndir) öz anasının təsirilə bu addımı atdığına şübhə yoxdur. Bu qadınlar öz şah övladlarının belə ərəb mənşəli adlarını tezliklə əcəmləşməyə məruz qoymuşlar: Fəribürz, Əfridun, Mənişöhr, Axsitan, Gərşəsb, Keyqubad və s. buna sübutdur. Lakin bu heç də Şirvanda matriarxat qurulması anlamına gəlmir. Şirvan Azərbaycanında matriarxat hakimiyyəti daha çox Səfəvilərin bu ölkəni işğalından sonrakı mərhələyə təsadüf edir.

Şah İsmayıl (1487-1524) 1501- ci ildə hakimiyyətə gətiriləndə onun cəmi 13-14 yaşı vardı. Əslində, 235 il sürəcək bu yeni sülülə hakimiyyəti İran şüubi Fars dərin dövlətinin hazırladığı bir proqram çərçivəsində gerçəkləşdirilmişdi. Şüubiyə Fars Ordeninin ant-ərəb və anti-türk komplo siyasətinin əsas beynəlxalq dayağı çökməkdə olan Bizans və Katolik Roma Papası idi. Bu plan kişilərdən çox, qadın fiqurlar üzərində qurulmuşdu desək, məncə, daha düzgün olar. Çünki səfəviləri ana xətti daha çox Yunan-Bizans aləminə çıxara bilirdi...

Təəccüblü deyildir ki, ilk Səfəvi Şahı I İsmayıl öz hakimiyyətinin ilkin mərhələsində onu taxta çıxarmış ayrı-ayrı işğalçı köçər-tatar (türkmən) tayfa başçıları ilə birgə anası Marta (Aləmşah) bəyimin də güclü təsiri altında olmuşdur. O, bu təsirdən yalnız 1522-ci ildə öz doğma anasını Şirazın İstəxr həbsxanasına göndərəndən və burada qətlə yetirəndən sonra azad ola bilmişdir.

Lakin bu ilk Səfəvi şahının qadın təsirindən tamamilə qurtulduğu anlamına gəlmir. Çünki Mosul türkmənlərindən Bəktaşoğlu Mihmad bəyin qızı kimi tanının Taclı xatun (Şah İsmayılın ilk arvadı) məhz siyasi məqsədlərlə 14 yaşında ərə verilmiş, Çaldıran döyüşündə əsir düşməsilə nə qədər adını bədnam etsə də, sonralar da Qızılbaş şahı üzərində təsirini itirməmişdir. Taclı xatun Səfəvi sarayındakı bu təsirini ərinin

ölümündən sonra da uzun müddət saxlamışdır. O, taxta əyləşdirdiyi oğulluğu (günüsü Bəhruzə xanımın oğlu) Şah I Təhmasibin onu da qaynanası Marta (Aləmzər) bəyim kimi Şiraza sürgünə göndərməsinədək Saraydakı hökmünü davam etdirmişdir. Taclı bəyim 1540-cı ildə sui-qəsdlə öldürülərək Şirazda Bibi Dihtəran məzarlığında dəfn edilmişdir.

Belə taxt-tac düşkünü olmuş Qızılbaş qadınların sırasında Şah İsmayılın Şirvanşah II İbrahimin oğlu gələcək Şirvanşah II Xəlilullaha (gənc Sultan Xəlilə) ərə verdiyi böyük qızı Pərixan xanım da xüsusi yerlərdən birini tutur.

Şirvan xalqının yeddi əsrlik müsəlman dövlətçiliyinin süquta uğramasında ən fəal rollardan birini və ya birincisini Şah İsmayılın türklərə ağır Çaldıran məğlubiyyətindən sonra, məhz Şirvanşah Şeyxşahın (II İbrahimin) oğlu Sultan Xəlilə (II Xəlilullaha) ərə verdiyi qızı Pərixan xanım oynamışdır.

Səfəvilərin Çaldıran məğlubiyyətindən sonra bağlanmış bu nikah, şirvanşahların tarixində ən böyük strateji səhvlərdən biri idi. Təsadüfi deyil ki, Osmanlı sultanı Səlim Təbrizi alandan sonra, şirvanşahı tam 7 gün orada gözləmiş, İranın taleyini ona təhvil vermək istəmişdir. Şah İsmayıl ilə seperat danışıqlara başı qarışmış Şeyxşah (II İbrahim) isə ata-babalarının intiqamını almaq fikrindən çox uzaq idi... O, gözəl, yaraşıqlı şair oğlunun ailə səadətini düşünürdü. Bu "səadətin mənbəyi" isə ilk Səfəvi şahının böyük qızı Pəri Xan xanım nəzərdə tutulmuşdu?!.



Əri II Xəlilullahın (1524-1535) ölümündən sonra, dərhal Şirvanda açıq pozuculuq fəaliyyətinə keçən bu sonsuz dul qadın ölkədə müxtəlif qarışılıqlar salmaq, yalançı taxt iddiaçıları (dərviş Məhəmməd Əmin və Keçı bəy kimi) ortaya çıxarmaq, daxili qiyam və ixtilaflar yaratmaqla məşğul oldu. Məhz bu qadının məkrli planları ilə Şirvanşahlar dövlətinin 14-15 yaşlı gənc-yeniyetmə son hökmdarı Şahrux iki ilin içərisində taxtdan

endirildi və Təbrizə aparılaraq bir illik Ölüm Quyusunda saxlandıqdan sonra gizlincə edam edilmdi...

Əlbəttə, tarix bu qadının özünü də cəzasız qoymamışdır. “Azərbaycan tarixi” (redaktor: akademik Ziya Bünyadov. Azərnəşr. Bakı-1994. I cild. Səh: 423) ali məktəb Dərsliyində oxuyuruq: **“Saray çevrilişi nəticəsində II İsmayıl öldürüldü (24 noyabr 1577). II İsmayılın ölümündən sonra ölkədə ikihakimiyyətlik yarandı. Qəzvində II Xəlilullahın dul arvadı Pərixan xanım... hakimiyyəti ələ aldı. Bütün əmirlər və “dövlətin sütunları” əvvəlcə ona tabe oldular. Onun vaxtında hətta qızılbaş ağsaqqallar şurası yarandı. Pərixan xanım dövlət işlərini təkbaşına idarə etməyə başladı. Pərixan xanım gələcək şahın Şirazdan gəlişini eşidəndə müqavimətsiz tabe olmaq istəmədi... Qızılbaş əmirləri Pərixan xanımı tərk edib Məhəmməd Mirzənin (I Şah Abbasın atası kor Məhəmməd Xudabəndə-N.A.) tərəfinə keçdilər. Beləliklə, 1578-ci ildə fevralın 13-də Məhəmməd Mirzə (Xudabəndə) müqavimətsiz Qəzvində taxta oturdu. Məhəmməd Xudabəndə (1578-1587) birinci növbədə şahın düşmənlərini Saraydan uzaqlaşdırdı. Pərixan xanımın dönüklüyünə görə, onun əşyalarını 10-15 min tümən qiymətləndirib, Lələ Xəlil xan Əfşara hədiyyə etdi. Fevralın 17-də isə Pərixan xanımı və onun bacısını edam etdirdi.”**

Əlbəttə, bu məlumat doğru deyil. Müəllif I Şah İsmayılın böyük qızı ilə onun adaşı olan qardaşı qızını səhv salmışdır. Pərixan xanım Şirvanşahlar dövlətinin süqutundan sonra Şəki hakimi Dərviş Məhəmmədə ərə verilmiş və bir ilin içərisində müəmmalı şəkildə dünyasını dəyişmişdir. Bəzi şəkili ağsaqallar və tanışziyalılar mənə bu qadının bir “lesbianka” olduğunu və bu üzdən də övladsız qaldığını, Şəki hakimi ilə məcburi izdivacdan sonra isə özünü qayadan ataraq öldürdüyünü bildiriblər.

Şirvan oturaq mədəniyyətinə və klassik ədəbiyyatına qarşı “paralel tarix” (folk istorizm) yaradanların ən çox “güvəndikləri mənbə” XIII – XV əsrlərdə Ağqoyunlu Bayandurilərin tatar-türkmən mühitində formalaşmış “Kitabi-Dədə Qorqud” dastanıdır. Bu folklor əsərinin monqolca əsli **“Sudrın çuulqan” (-Salnamələr toplusu)** adlanır. Onun süjetində sıx-sıx rastlanan

qadın qəhrəmanların Azərbaycan ədəiyyatşünaslığında bu Qızılbaş arvadları ilə müqayisə edilməsi, əlbəttə, ən azı gülüş doğurur. Əvvəla, Momqol-tatar (oxu: türkmən) yürüşlərində Qızıl Orda quyruğunda müsəlman cəmiyyətlərinə hücum çəkmiş bu tayfalar Xristian dəyərlərini əldə rəhbər tutaraq, işğal etdikləri İslam ölkələrində insan kəllələrindən dağlar-təpələr düzəltmiş, yəğma və vəhşiliklər törətmişlər. İkincisi, məhz bu tayfaların aktiv iştirakı ilə İslam xalqlarının məscid və mədrəsələri dağıdılmış və əvəzində kütləvi xristian kilsələri tikilmişdir. Bu vəhşətlər Şirvanşahların monqol-tatar işğalına uğramış müsəlman cəmiyyətindən də yan ötüşməmişdir. Bu dövrün siyasi-ictiamai tarixi vəziyyətini dahi şirvanlı şair İmaddəddin Nəsiminin monqol-tatar xanımlara həsr etdiyi məşhur şeiri daha dəqiq ifadə edir:

**Aşiqin canına batar kirpigin.**
**Sehr oxunu daim atar kirpigin.**
**Ləşgəri-yəğmaçı TATAR kiprigin.**
**Aləmi bir heçə satar kiprigin!**

Monqol-tatar qadının satqın təbiəti, vəhşi-yəğmaçı xarakteri Nəsimi poeziyasına nə qədər uyğun gəlməsə də, dahi Şirvan şairi həqiqəti ifadə etməkdən çəkinməmişdir.

Monqol-tatar (türkmən) ordasının tərkib hissəsi olmuş ağ və qaraqoyunlu Bayandur və Baharlı tayfalarının üzvləri kimi Səfəvi şahlarının ağqoyunlu kökənli yarı-xristian, yarı-müsəlman nənələri haqqında da kişik bir məlumat vermək istəyirik.




Səfəviyyənin dini-ideoloji təməllərinin İslamiyyət ilə nə dərəcədə ciddi bağlantısı vardı, ya yoxdu- özünüz müəyyənləşdirin: tarixi faktlar aydın şəkildə göstərir ki, Şah İsmayılın nə nənəsi (babası Uzun Həsənin arvadı) **Despinə xatun (Trapezund imperatoru IV İohann Kommenosun qızı, əsl adı Teodora**), nə də anası Aləmşah bəyim (əsl adı Marta) təmiz imanlı müsəlman olmuşlar. Onlar

İslamın Ağqoyunlu sülaləsi arasında qəbul edilmiş sünni məzhəbilə yanaşı, həmçinin xristianlığın provaslav məzhəbinə də itaət göstərmişlər. Elə bu üzdən, Şah İsmayılın nənəsi Despinə xatun Diyarbəkirdəki Müqəddəs Georgi kilsəsində dəfn edilmişdir.



**Şah İsmayılın anası Aləmşah bəyimə (Martaya)** gəldikdə isə, onun Səfəvi hökumətinin ölkədə apardığı sünni repressiyalarına qarşı öz oğlu Şah İsmayıla kəskin etirazları üzündən şüubiyə ordeninin təsiri altında olan dogma oğlunun əmrilə Şiraza İtəxr qalasına sürgün edilməsi və 1522-ci ildə isə Şah İsmayılın öz əlilə öldürməsi tarixin ən utanc səhifələri sayıla bilər.

Bu gün həmin Aləmşah bəyimin məzarı Ərdəbildə Şeyx Səfi kompleksindədir. Əlbəttə, bu Şüubiyə fars hərəkatının aldadıcı bir göstərgəsidir. Tarix və Vicdan öz anasına əl qaldırmış bir oğulu heç bir vaxt bağışlamaz.

İnkaredilməz tarixi faktlar Şirvanşahlar dövlətinin necə qeyri-əxlaqi ünsirlər və vicdansız siyasi qüvvələr tərəfindən süquta uğradılması əyani əks etdirir.

“Azərbaycan tarixi” (Azərnəşr, Bakı-1994) kitabında I Şah Abbasın atası kor Məhəmməd Xudabəndənin (1578-1587) hökmdarlıq üsulu belə şərh edilir: “Məhəmməd Xudabəndə taxta çıxdığı ilk gündən onun arvadı Məhdi Ülya “dövlət işlərini öz əlinə aldı”. O, ali divanın vəkili vəzifəsinə yüksəldi. Padşahın fərmanının arxasında vəzirin möhürünün üstündən onun möhürünün vurulması qərara alındı” (Səh.: 423). “Məhəmməd Xudabəndənin yalnız şahlıq adı qalmışdı. I Təhmasibin yarıməsrlik fəaliyyəti dövründə yığılmış var-dövlət bir ilin ərzində xəzinədən yox oldu” (Səh.: 423).

Bu ənənə öz əri I Şah İsmayılı uzun illər öz təsiri altında saxlayaraq, onun keçmiş müttəfiqləri arasında “nüfuz savaşı” təşkil edərək, bir-bir şamlıları, rumiyani-sufiləri, qacarları, ustacları, əfşarları barmağı başında oynatmış Taclı bəyimdən başlamışdır. Osmanlı əsirliyində adını bədnam etmiş Taclı

bəyim Şah İsmayılın ölümündən sonra taxta otuzdurduğu 10 yaşlı ögey oğlu I Təhmasibi (günüsü Bəhruzə xanımın oğludur) 20 il oyuncağa çevirib ölkəni idarə etmişdir. O, nəhayət, taxta çıxardığı oğulluğu Şah Təhmasib tərəfindən də 1539-cu ildə Şiraza sürgün



edilmiş və 1540-cı ildə burada acınacaqlı şəkildə (zəhərlənərək) öldürülmüşdür. **Taclı bəyim** Şeyx Səfi məqbərəsində deyil, "Bibiqızlar" qəbiristanlığında gizli şəkildə dəfn edilmişdir.

Heç şübhəsiz ki, Şüubiyə fars şovinizmi son məqsədinə, yəni İran (Fars) dövlətinin bərpasına Kor Xudabəndənin oğlu I Şah Abbas Səfəvi (1587-1629) dövründə tam şəkildə nail oldu. O, Təbrizdən Qəzvinə köçürülmüş Səfəvi dövlətinin paytaxtını 1598-ci ildə Qəzvindən də İsfahana köçürdü. Beləliklə, Şah Abbasın sayəsində İran Fars dövləti yenidən rəsmən bərqarar olundu. Bu dövlət 1736-cı ildə Nadir şah Əfşar tərəfindən süquta uğradıldı. Və bir daha ayağa qalxa bilmədi. 1000 illik Şirvanşahlar dövlətini süquta uğratmış bir xanədan cəmi 235 il ömür sürdü...

Kişi əxlaqına və kişi mərdanəliyinə sığmayan anti-şirvan işğalçı rejimləri xarakterizə edərkən, bir məqam xüsusi qeyd edilməlidir ki, Şirvanşahlar dövlətinin süqutuna yol açan səbəblər bütünlüklə Monqol-tatar xarakterlidir. Hülaki xanın çobani-padar (sulduz) tayfalarının təhdidlərindən sonra, monqol-cəlairi tayfaları, daha sonra monqol-tatar Ordası tərkibində İran, Anadolu və Şirvana ayaq açmış Ağqoyunlu və Qaraqoyunlu (şahsevən) tayfaları anti-şirvan hərəkatların əsas yəğmaçı və işğalçı güruhunu (cəbhəsini) təşkil etmişlər.

Burada Məvarənnəhr xaqanı Əmir Teymurun ikili standartlar siyasəti də unudulmamalıdır. Məhz Teymurun sayəsində Şeyx Səfiəddin və ümumən Səfəviyyə dərvişləri İran, Anadolu və Şimali Afrikada xüsusi Soyurqalla möhkəmlənmiş mövqe əldə etmişdilər.

Əvvəldə Ərdəbil dərvişi Şeyx Səfiəddinin ətrafına toplaşmış Ağqoyunlu – bayanduri tayfaları, o cümlədən Sufiyani-rumlu

(ayrum), şamlu, ustaclı, təkəli, zülqədər, əfşar, qacar, varsaq, Qaradağ-muğan sufiləri, sonradan 1500-ci ilin payızında Qızılbaş adı altında onun 12 yaşlı nəvəsi İsmayıl Heydər oğlunun başına yığılaraq, yeddi min nəfərlik süvari dəstəsi ilə Şirvanşahlar dövləti üzərinə ilk işğalçı hərbi yürüşü gerçəkləşdirmişlər.

Sözdə guya Dağıstanda rəfizilik yaymaları nəticəsində öldürülmüş babası Şeyx Cüneyd və atası Şeyx Heydərin qan intiqamını almaq üçün öz ağqoyunlu dayıları- Sultan Yaqub və Sultan Rüstəmə qarşı savaş açmaq niyyətini irəli sürən 12 yaşlı Şah İsmayıl, əsl həqiqətdə Şüubiyə Fars şovinist ordeninin anti-ərəb, anti-türk və anti-İslam (anti-sünni) hərəkatının ortaya atdığı oyuncaq bir lider idi... Məhz Şirvanşah I Fərrux Yasarın qətlindən sonra, o, Şirvan xalqının talan edilmiş xəzinəsi ilə Təbrizə gəlmiş və orada özünü İran şahı elan etmişdi.

O da doğrudur ki, Şah İsmayıl 1501-1524-cü illəri əhatə edən şahlığı ərzində Şirvanşahlar dövlətinin tamamilə məhv edilməsinə cəsarət etmədi. Əksinə, 1514-cü ildə Osmanlı sultanı Sultan I Səlimə Maku yaxınlığındakı Çaldıran düzündə ağır məğlubiyyətə uğrayandan sonra, Şirvanşahlarla qohumluq əlaqələri qurmaq yolunu tutdu. Bizans və Katolik Roma Papasının Şirvan dövlətini dünya xəritəsindən silmək və Avrasiyada kontinental xaos yaratmaq planları Şah İsmayılın qızı Pərixan xanım və Şirvanşah II Xəlilullahın izdivacı ilə əsas hədəfinə çatdı. Tarixin ən qədim bir oturaq mədəniyyəti məhvin bir addımlığında idi... 15 yaşlı yeniyetmə sonuncu Şirvanşah Şahrux ibn II Fərrux Yasarın 1538-ci ildə övladı olmayan öz doğma əmisinin vəfatından sonra onun taxtına əyləşməsi ilə keçmiş şahbanu Pərixan xanım Şah İsmayıl qızının anti-Şirvan fəaliyyəti öz pikinə yüksəldi və cəmi üç ildə bu Dövləti süquta gətirib çıxardı.

Şirvan tarixində dini tolerantizm nə qədər güclü olsa da, bu Dövlətin üzərinə daim dışdan həm İslami, həm də Xaçpərəst yürüşlər gerçəkləşmişdir. Bu dövlətin süqutu isə, heç şübhəsiz, bu iki müxtəlif dini qüvvənin ortaq planı kimi qiymətləndirilməlidir. Səfəviyyə isə bu iki "düşmən cəbhənin" anti-Şirvan birliyi demək idi. Bu tarixi faktdır.

Şirvan mənəviyyatının qutsal mahiyyəti hələ ötən əsrin əvvəllərində Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkü də heyran etmişdi. 1931-ci ildə keçmiş silahdaşı və ən yaxın dostu Tevfik Paşa Bıyıkoğlunu yenicə yaratdığı Türk Tarix Kuruluna başkan təyin edərkən, Atatürkün maraqlandığı ilk mövzulardan biri məhz “Şirvan tarixi” olmuşdu. Tevfiq Paşa xatirələrində yazır ki, Atatürk şirvan xalqının azadlıqsevərliyi və vətənpərvərliyi haqqında eşidərkən heyrətini gizlətmədən sevinclə belə sual etmişdi: “Yahu bu ne memleket, Şirvanşahlar kim?!.” Və dərhal xaricdən mütəxəssis gətirib, Şirvan tarixini araşdırmağı ona tapşırmışdı.  Bu tədqiqatçı böyük İranşünas alim, məşhur professor Hans-Heinrich Schaedderin tələbəsi olmuş və əvvəllər Alman Təhsil Nazirliyində yüksək dövlət məmuru çalışmış, sonralar Höttingen Universitetində Yaxın Şərq və Rusiya tarixi və mədəniyyəti üzrə professorluq etmiş **Hinz A. Valther** idi. Hinz A. Valtherin Avropa mənbələrinə və rəsmi tarixi sənədlərə  əsaslanmış kitablarında Səfəvi xanədanı ululарının və varislərinin Roma katolik Papası ilə dərin əlaqələri öz əksini tapmışdır.




Mövzuya qayıdaq: məlumdur ki, Şirvan ölkəsi tarixən tolerant bir cəmiyyətdən ibarət olmuşdur. Xristianlıq Şirvana İslamdan əvvəl gətirilmişdir. İsa Məsihin 12 imamından (-apostolundan) biri olmuş Varfolemeyin ayaq qoyduğu ilk Qafqaz dövləti  də məhz Şirvanşahlardır. İsa Məsihin bu həvarisi 71-ci ildə Şirvanda vəfat eləmiş, məzarı da Şirvanın paytaxt şəhərlərindən biri sayılan qədim Bakıdadır.

Qədim Şirvan vilayəti olan Şəkinin Kiş deyilən bir kəndi var. Müsəlmanların bu gün fəxrlə öz Bayraq rəmzinə çevirdikləri Ay (-Selena) ilahəsinin paqan məbədi əvvəllər burada yerləşmişdi.

Kiş xristian kilsəsi həmin məbədin özülləri üzərində tikilmişdir. İsa Məsihin din qardaşı müqəddəs Yaqub (-Yakov) tərəfindən xristianlığın təbliği üçün Şirvana (-Albaniyaya) göndərilmiş Müqəddəs Yelisey bir müddət Dərbənddə (-Çolada) və Uti (-Şəki) vilayətində missionerlik etmiş, sonra miladi tarixinin 60-cı illərində həmin Kiş kəndinə gələrək orada kilsə tikdirmişdir. Məhz həmin "Müqəddəs Yelisey kilsəsi" "ədalət günəşinin zühur etdiyi illərdə" Şərq ölkələrində ucaldılmış ilk apostol məbədi oldu. Məsihi Şirvanşahlığının məşhur tarixçisi alban Musa Kalankayutlunun "Aquan ölkəsinin tarixi" əsərində belə bir məlumat var: "Yelisey Qüdsün birinci patriki Ağamızın (-İsa Məsihin)" qardaşı müqəddəs Yakovun (-Yaqubun) tövsiyəsi ilə Müqəddəs ruh naminə Şərqə təyin edilir. Yelisey sərəncamına Şərqi (-Şirvanı, yəni Albaniyanı) alır. Qüdsdən ayrılıb İrana gedir və ordan ermənilərin gözündən qaçaraq Məskut (-Dağıstan, Massaget) elinə keçir. Öz təbliğinə o, Çolada (-Dərbənddə) başlayır və müxtəlif yerlərdən şagird toplayaraq, onlara Xilaskarı andırmağa çalışırdı. Müqəddəs Patrik Kişə (-Gisə) gəlir, burada kilsə tikir və qansız qurban verir. Bu yer Şərqin bütün kilsələrinin və şəhərlərinin başlanğıcıdır və biz şərqlilərə xristianlığın qəbul edilməsi mənbəyidir".

Şirvanşahlıq xalqımızın şahanəlik qürurudur... Tarix də o üzdən yalnız əsalətin və nəcabətin tarixi olaraq qalır. Bu gün Avrasiyada ən iri kontinental geosistem Rusiya dövlətidir. 861-ci il müsəlman Şirvanşahlar dövlətinin, 862-ci il isə bütpərəst (ruslar xristianlığı X əsrdə qəbul etmişlər) Rusiya dövlətinin yaranma tarixidir. Görəsən, nə üçün Şərq slavyanlarının öz dövlətçiliyini yaratmaq üçün Skandinaviyadan varyaq-russ-norman (murman)-vikinq tayfalarından Rurik və qardaşları- Sineus və Truvoru öz ölkələrinə dəvət etməsi, bununla da ross və ya norman xalqlarının əqli-fiziki gücü hesabına 862-ci ildə Rusiya (Rossiya) dövlətinin təməlini qoyması böyük tarixi hadisə sayılır, amma bizdə Qafqaza İslamı gətirmiş Məhəmməd (ə.s.ə) peyğəmavər nəslinin nümayəndələri olan Məzyədilərin ruslardan bir il əvvəl, yəni 861-ci ildə qədim ilkin Şirvanşahlığın atributları əsasında yenidən bərpa etdiyi müstəqil Şirvanşahlıq və onun 1538-ci ilədək sürmüş 677 illik siyasi-mənəvi İslam dövlətçilik varisliyi inkar edilir?..

Heç bir elmi əsas gətirilə bilməz ki, əsrlərcə "Azərbaycan" və "Şirvan" coğrafi və siyasi anlayışları fərqli məzmunlar daşımışdır. Odur ki, 1918-ci ilin Cümhuriyyət tarixi ilə "Azərbaycan" adını daşıyaraq günümüzəcən gəlib çıxmış bu şanlı keçmişi, nəhayət, bizim də öz adı ilə çağırmaq haqqımız vardır. Əgər yazıçı Əkrəm Əylisli "yeraz" kəlməsinə görə AYB-də üzvlikdən azad edilirsə, nədən "Şirvanşahlar tariximizin üz qarasıdır"- deyən Yunus Oğuz və ya öz məqalələrində Şirvan şahlarını aşağılayan Füzuli Bayat hələ də Anarın "qəyyumluğu" altındadırlar?!.

Cümhuriyyətimizi bütün xalqımızın ümumi nailiyyəti hesab edirik. Və bu ismlə hamı kimi biz, şirvanlılar da, fəxr edirik. Lakin bu o demək deyil ki, kimlərsə, qərəzlə şanlı tariximizə istədiyi ismi verib, Şirvanımızı bizə unutdursun. Şirvan nə coğragi sahə, nə inzibati obyekt, nə də tarixi mübahisə mənbəyidir. ŞİRVAN heç bir əsarətə boyun əyməyən tarixi mənəviyyatdır. Kimsə unutmamalıdır ki, Araz çayının qüzeyindən Dəmir Dərbəndə kimi qutsal vətən torpaqlarımızın qədim keçmişi Şirvanşahlığın mənəvi nüfuz sahəsidir.

Cəmi 235 illik dövlətçilik tarixinə malik Səfəvi-qızılbaşları və onların başına toplanmış monqol-tatar törəməli gəlmə köçəri tayfaların Şirvanşahlar dövlətini süquta uğratmasını Azərbaycan tarixinin ən şanlı səhifəsi hesab edənlərin cavabını dahi intibah şairimiz İbrahim Əli oğlu Xaqani Şirvani hələ XII əsrdə belə cavablandırmışdı:

**Şirvan ki var: hər cəhətdən ülviyyətin anasıdır!**

Əleyhdarlarımız bu gün də yad idealogiyaların təsiri altına düşərək, Səfəviləri iki əsrlik siyasi səhnəyə çıxarmış anti-ərəb və anti-türk İran-Fars şüubiyə ordeninin proqramları ilə bilərəkdən, ya bilməyərəkdən hərəkət etdiklərini unutmamalıdırlar. Qarşısına ərəbsiz fars İslamı yaratmaq məqsədini qoymuş "Şüubiyə hərəkatı" Xilafətin Əməvilər dövründən, daha dəqiq desək 753-775-ci illərdən etibarən fars milli üstünlüyü iddiyalarını səsləndirməyə başlamışdı. Elə bu dövrdən etibarən, İslam fütuhat qoşunları tərəfindən 651-ci ildə öldürülmüş son Sasani padşahı Yəzdgərd və onun əsir götürülmüş ailəsi haqqında əfsanələr uydurmağa başladılar. Yəzdigürdün fars qanı (qızı Şəhrəbanu vasitəsilə) Məhəmməd Rəsuallahın (s.a.s.) ailəsinə, Əhli-beytə

qarışdırıldı. Bu uydurma əfsanə İran-Fars şovinizminin İslam xilafətini içəridən dağıdacaq 12 İmam ideologiyasının əsasına çevrildi. Türk və ərəb xalqlarının aşağılanması, qədim Sasani bütpərəst mədəniyyətinin, musiqi, ədəbiyyat və adət-ənənələrinin, habelə fars dilinin canlandırılması, İran-fars dövlətinin bərpası, İslam xilafətinin farslaşdırılması və s. kimi məkrli məqsədlər güdən Şüubiyə ordeni öz planlarının icrası üçün Qızılbaş adı altında birləşmiş Ağqoyunlu-Bayandurilər (şamlu, ustaclı, təkəli, zülqədər, əfşar, bayat, qacar, rumiyani-sufi (qaraqoyunlu-ayrım), varsaq, qaramanlı, baharlı, alpout, ərəşli, habelə Qaradağ-Muğan, Əhər və Talış sufilərindən ibarət bir əşirətdən istifadə etməyi planlaşdırdı. Orden tərəfindən Səfəvilər sülaləsinə bu oyunun baş rolu verildi.

Anti-Şirvan ideoloji konsepsiyalarla çıxış edən qaragüruhun əsas "arqumentlər"inin təhlilinə keçək: adətən, açıq anti-şirvan platformadan çıxış edən "alimlik" pərdəsinə bürünmüş şəxslər, Şah İsmayılın ulu babası Səfəvilərin banisi Şeyx Səfiəddin İshaq əl-Musəvi əl-Ərdəbilini (1252-1334) uydurma bir rəvayət üzrə, "yeddinci şiə imamı Musa Kazımdan törəmə " sayır, onu bilavasitə Həzrət Əlinin və peyğəmbərin qızı Fatimənin iyirmi altıncı nəsli" hesab edirlər (Bax, Azərbaycan tarixi. I cild, Azərnəşr, Bakı-1994-cü il, səh.-392). Əlbəttə, bu zaman unudurlar ki, "ərəb" və "farsmənşəli" hesab etdikləri Şirvanşahlara qarşı bəhəbəhlə "türk oğlu türk" adlandırdıqları Şah İsmayılın əcdadlarını, əslində, ərəbləşdirməklə məşğul olurlar?! Məntiq yoxdur! Digər tərəfdən, Qafqaza İslamiyyət gətirmiş Şirvanşahların ulu əcdadları məhz sonuncu Rəsulallah Məhəmmədin (s.a.s.) birbaşa ata nəslinin təmsilçiləri olduğu unudulur?!. Belə ki, Yəzid ibn Məzyəd ərəblərin əş-Şeybani tayfasından olmuşdur. Əş-Şeybanilər tayfası Tanrı rəsulu Məhəmmədin (s.a.s.) ulu babası Mudarın qardaşı Rabiə bin Nizarın yaratdığı Rabiə qəbiləsindən idi. İslamı Qafqaza, o cümlədən Şirvana xəlifə həzrəti Ömər Faruz (s.a.) zamanında, daha dəqiq desək, 642-ci ildə Rabiə tayfasından olan Salman ibn Rabiə gətirmişdir. 861-ci ildə isə qədim "şirvanşah" titulunu öz üzərinə götürərək Şirvanşahlar dövlətinin İstiqlaliyyətini məhz

həmin nəslin nümayəndəsi Heysəm ibn Xalid Cavad elan etmişdir.

İslam Peyğəmavərinə (s.a.s.) və Qurani-kərimə qarşı çıxan mürtəce Şüubiyə fars şovinist Ordenin məhz həmin dövrdən etibarən açıq fəaliyyətləri barədə bunu demək lazımdır ki, hələ Səfəviyə proqramından xeyli əvvəl onlar İslam cihadının qurbanı olmuş bütpərəst Sasani dövlətinin və mədəniyyətinin bərpası məqsədilə "Əlfihrist" və "Şahnamə" kimi fars şovinizmini körükləyən əsərlərin geniş təbliğinə başlamışdılar. Xurəymi, Nəsəvi, Təxaristani kimi şüubi şairlər İslam cəmiyyəti içərisində fars milli üstünlüyü ideyalarını yaymağa başladılar. Sasani dövrü ədəbiyyatının kütləvi tərcüməsi ilə, əslində, anti-islami fars intibahına yol açılırdı… Bu tərcümə hərəkatının başında şüubi İbn-Müqəffə durmuşdu.

Fars şüubiyə hərəkatının baslıca ideoloji xətlərindən biri və ya birincisi Qafqaz, Qızıl Orda, Dehli Müsəlman əmirliyi, Afrika və Orta Asiya coğrafiyasında İslam mədəniyyəti və ideologiyasının əsas mənəvi dayağı olan müsəlman Şirvanşahlar dövlətini məhv etməkdən ibarət idi. Onlar bu məqsəd üçün Səfəvi-Qızılbaş doktrinasını irəli sürmüş və özləri isə böyük məharətlə bu mürtəce xətti-hərakatın arxasında gizlənmişdilər.

Yenidən "Şirvan", yoxsa "Albaniya" probleminin üzərinə qayıdaq. Əlbəttə, şübhə yoxdur ki, bu terminoloji oyunbazlıq da məhz eyniməqsədli və proqramlı antişirvan irtica qüvvələrinin məkrli oyunlarından başqa bir şey deyil. Bu saxtakarlığı ifşa edən tarixçi-ədib Abbasqulu ağa Bakıxanov yazırdı**: "Албания получила свое название от римлян слово Альбус, Алби (белый)... в смысле «свободный»"(Səh.: 17-18).**

«Белый» (ağ) sözünü Belorusiya adı ilə müqayisə edərək, Bakıxanov onun "azad" mənasını daşıdığını irəli sürürdü. Monqol işğalından kənarda qalmış ölkə kimi Belarusiyanın azad Rusiya adını daşıdığı şübhə doğurmur. Şirvan şahlığının azadlıq ölkəsi kimi Albuslaşdırılması (Albaniyalaşdırılması) Qədim Roma üçün başa düşüləndir. Bu faktın özü də Şirvanın məhz bir **AZADLIQ DİYARI** olmasının tarixi təsdiqidir. Amma bəzi çağdaş Azərbaycan tarixçilərinin ilkin Şirvanşahları tarixdən silmək cəhdləri açıq-aşkar xalqa xəyanətdən xəbər verir...

A.Bakıxanov “aqvan” sözünün yanında bir qayda olaraq, mötərizə içərisində “Şirvan” sözünü də işlədirdi. (Bax, səh.: 42-43). Çünki alimə görə: “М.Чамчыян в «Армянской истории» Ширван называет Агваном”(Bax, Göst. əsər, səh.: 11-12). Deməli, albaniya, aqvan və s. adlarının nə üçün Şirvan sözünün əvəzində işlədilməsinin bir səbəbi bəlli oldu... “Ağ ölkə”, “Azadlıq diyarı” və ya “Ağvan” kimi Qərb terminologiyasının Rusiyada nə qədər möhkəm oturuşmasına daha bir misal olaraq, Mərkəzləşmiş Moskva knyazlarının XV əsrdə Şirvanşahları diplomatik sənədlərdə və xitabatda “Ağ xan” adlandırmalarını qeyd edə bilərik (Bax. “Azərbaycan tarixi”. I cild, Azərnəşr, Bakı-1994, səh.: 386).

Rusiya ilə Şirvanşahlar dövlətinin arasında çox mürəkkəb tarixi əlaqələr olmuşdur. Bu tarixin səhifələrində təcavüzkar monqolların ram edilməsindən tutmuş, Rusiyanın istiqlala qovuşmasına qədər qarşılıqlı proseslər vardır. Moskva şəhərinin ağdaşlı cildinin yaradılmasında məşhur şirvanlı memarın iştirakı səbəbsiz deyildi. Şirvan-Rusiya beynəlxalq münasibətləri ayrıca bir söhbətin mövzusudur. Bu hadisə mənim “Şirvanşah Şeyx İbrahim” trilogiyamın I cildində bədiiləşdirilərək, geniş təsvir edilmişdir.

Monqol istilası dövrünə qayıdaraq, deyim ki, Çingiz xanın böyük oğlu Cuçi evləndiyi qıpçaq qızın xatirinə öz atasının əmrini pozaraq, şimal xalqlarını- Rus, Çərkəz, Başqırd, Kelar, Dəşti-Qıpçaq ellərini ram etməmiş və qətiyyətlə Monqolustana getməkdən imtina etmişdi. Odur ki, Çingiz xan onu müəmmalı şəkildə öldürtmüşdü. Etiraf edək ki, monqol istila rejimi şəraitində öz dövlətçiliyini qorumağa çalışan Şitrvanşahlar sözügedən dövrdə müsəlman Qıpçaq tayfalarına kömək əli uzatmağa qadir deyildi. Deməli, bu faktdan da “albanizmin çiçəkləndiyi” dövrdə İslamın Dəşti-Qıpçaqdakı mövqeyinin Xristian monqol təəssübkeşliyi şəraitində necə zəiflədiyi aydınca nəzərə çarpır...

Bu dövrdə Şirvanşahların tarixi ərazilərində kilsə və monastırların tikilməsi və ya yenidən dirçəldilməsi yüksək rəvac tapdı. Diqqətlə baxanda, aydın olur ki, İslam mədəniyyətinin ən güclü mərkəzlərindən birinə, bəlkə də, birincisinə çevrilmiş

Şirvanşahlar dövlətinin tarixi ərazilərində XIII əsrdə birdən-birə sürətlə tkilib artırılmış kilsə və digər məsihi məbədlərinin arxasında hansı kənar qüvvə dayanmışdır: bunlar, heç şübhəsiz ki, nəsturi dinini qəbul etmiş Monqol xanları idilər. Onlardan Monqol Hülaki xanın arvadı Doqquz xatunun, Abaqa xanın arvadı Bizans imperatoru VIII Mixailin qızı Despinə xatunun (əsl adı Maria Paleoloqina) anti İslam və anti-şirvan fəaliyyətləri unudulmamalıdır. Bu xatun ömrünün sonunu bu gün "Qara Kilsə" kimi tanıdığımız Monqolların Müqəddəs Məryəm kilsəsində rahibə kimi başa vurmuşdur.

Monqol-tatar xaçpərəstlik hərəkatı Şirvanda fəaliyyətini 642-ci ildən etibarən dayandırmış kilsələrin bərpa və təkrar fəaliyyətinə də rəvac vermiş oldu. Məsələn, Müqəddəs Yelisey (VI-XIII əsrlər), Xatvarak (XIII əsr), Böyük Aran (VI-VIII əsrlər), Gəncəsar (XIII əsr, ind. Ağdərə r-nu), Yeddi kilsə (V-VIII əsrlər), Xotavəng (XIII əsr, ind. Kəlbəcər r-nu), Həmşivəng (XIII əsr, ind. Gədəbəy r-nu), Hütəvəng (XIII əsr, ind. Hadrud r-nu) və s... bunu əyani sübut edir. Şirvanşahlıq daxilində İslamı zəiflətmək, prinsipcə, bu müsəlman dövlətin təməllərini dağıtmaq demək idi. Bu addımla Katolik dairələr Şirvanın qədim məsihi qıpçaqlarını erməni-qriqoryan dini vasitəsilə müsəlman qardaşlarından qoparıb haylaşdırmaq, onların doğma türk-qıpçaq dilini haykaz dili ilə əvəz etmək siyasətinin başlanğıcını qoymuşdular.

Əlbəttə, Şirvanşahlar da bu irtica qarşısında təslim bayrağı qaldırmamışdılar. Məhz Şirvan üləması və ziyalı elitası Qızıl Orda daxilində kəskin İslam təbliğatı ilə məşğul olurdu. Bu fəaliyyətə dair ən tutarlı fakt Bakı şəhərindəki "Axsitan məscidi"ndə (indiki Bibi Heybət məscidi) xristian Abaqa xanın müsəlman oğlunun ibadət etməsi hesab edilə bilər: 1304-1316-cı illərdə hakimiyyət sürmüş elxani hökmdarı Ulcaytu xana (Arqun xanın üçüncü oğlu) Bakı şəhərində İslam dinini qəbul etməsi münasibətilə klassik qıpçaq dilində Mədhiyyə yazmış şair Nəsir Bakuvi Şirvaninin yaradıcılığı Şirvanşahlığı Kəsranilər dövründə Türk dilindən uzaq "vadi" sayanlara layiqli cavabdır:

Zari-könlüm, Tanrına qılgil sənə iman ilən,
Buldu rövnəq dinü iman taəti-Sübhan ilən.
Taəti-Sübhan bizə fərz oldu cismü can ilən,

Şükr ola şol Həqqə kim bimüntəha ehsan ilən,
Sərəfraz etdi bizi Olcaytu tək sultan ilən.

Naminə küşvərguşalıq yazdı əzəldən Dəbir,
Hifz edə zilli-inayətdə Xudavəndi-qədir.
Şəhrimiz bir asimandır, salınmış mahi-münir,
Şol hünər şahını eylər mədh Bakuyi Nəsir,
Hər zaman canü-könüldən təbi-dürəfşan ilən.

**(Bax, Doktor Cavad Heyət. Azərbaycan ədəbiyyatına bir baxış. Yazıçı. Bakı-1993, səh.: 24-25).**

Heç şübhəsiz, Monqol-tatar istilaları dövründə Şirvanşahların tarixi ərazilərində həm müsəlman, həm də “Kitabi-Dədəm Qorqud” dastanlarında rast gəldiyimiz məsihi qıpçaqların yaşaması təsadüfi faktlar deyildir. Onların ortaq işlənən danışıq və mədəni dilləri isə məhz Türk dili idi.



Atamïz bizim ki
köktäsen,
Ari bolsun atïŋ seniŋ,
Kelsin χanlïχïŋ seniŋ,
Bolsun erkiŋ seniŋ nečik
köktä alay yerdä,
Ötmäkimizni bizim
kündälik ber bizgä
bügün,
Bošat bizgä borčumuznu
bizim,
Nečik ki biz bošatïrbiz
bizim borčlularïmïzga,
Bermägin bizni
sïnamaχlïχka,
Yoχsa χutχar bizni
yamandan,
Zerä seniŋdir χanlïχ da
χuvat,
Da saŋa haybat meŋilik.
Amen.

Bu dövrdə hətta müsəlmanların “Qurani-Şərif”indən fəqli olaraq, məsihi türklərin İsa Məsihə dua və sənaları türk dilində ifadə olunurdu: Nəsir Bakuvinin müxəmməsi məhz bunun bariz ifadəsidir. XIII-XV əsrlərdə Dəşti-Qıpçaqda rast gəlinmiş qıpçaq dilli xristianlıq abidələrini tolerant Şirvan mədəni mühitinin tarixi zəmini olmadan təsəvvürə gətirmək imkansızdır. Çünki şirvan xalqı bütün tarixi ərzində tolerant bir əqidənin və multikultural mentalitetin daşıyıcısı olmuşdur. Dəşti-Qıpçaqdakı coğrafiyada “Kodeks Komenaus” və digər türkdilli xristian abidələrinin geniş yayılmasını məhz Şirvan məsihi mədəniyyətinin təsiri saymaq lazımdır. Şirvanşahlar dövləti bu tolerant yanaşma ilə müxtəlifdinlilik zəminində öz xalqının arasındakı milli həmrəyliyin qorunub saxlanılmasına çalışırdı.

Əlbəttə, bunula belə şirvan ziyalı elitası və İslam ülamalarının İslami dəyərlərin nəinki Şirvanda, hətta bütün dünyada geniş

yaymaqla məşğul olması və fəal təbliğ etməsi də nəzərdən qaçırılmamalıdır. Başa düşmək lazımdır ki, ilkin mərhələdə məhz xristian-bütpərəst Qızıl Ordanın banisi sayılan Batı xanın (1227-1255) komandanlığı ilə Bulqar çarlığı, Qərbi Dəşti-Qıpçaq müsəlmanları, o cümlədən anti-monqol İslam koalisiyasının zəifləməsi üzündən Russ və bütün Şərqi Avropa ölkələri də işğala məruz qalmışdır. Altını cızaraq, xüsusi qeyd etmək istəyirəm ki, yalnız 1320-ci ildən, yəni Özbək xanın dövründən Qızıl Ordanın rəsmi dövlət dini kimi İslam qəbul olunmuşdur. Monqol-tatar aləmində islamlaşma Şirvan ülamalarının fəal beynəlxalq dini-ideoloji fəaliyyətinin nəticəsi idi. Bu gün qədim Osmanlı ərazilərində, İranda, Rusiya FR-nın ərazilərində, Hindistanda, indiki Pakistanda və Orta Asiyada mövcud olan "Şirvan" adlı coğrafi sahələr və bu məkanlarda dinindən və dilindən asılı olmayaraq, özünü şirvanlı kimi identifkasiya edən toplumlar qədim oturaq Şirvan mədəniyyətinin təsir dairələrini əyani əks etdirirlər.

Şirvanşahlar dövləti tarixən, nəinki xristian-qıpçaqlar üçün, hətta bütün İslam aləmi üçün elə bir mənəvi dayaq və maddi sığınacaq yeri olmuşdur ki, zamanla Ərəbistanın özündə ortaya çıxmış siyasi ixtilaflar dövründə Məhəmməd rəsulallahın (s.a.s.) əshabələri də qurtuluş üçün məhz bu ölkəyə üz tutmuş və buranı özlərinə Vətən seçmişdilər. Həzrəti Rzanın bacıları- Həkimə xanımın IX əsrdə Bakıya köçüb, burada yaşaması və yaxud Rəhimə xanımın Bakı ətrafı kəndlərdən birinə, Nardarana sığınması Şirvanşahlığın əsl beynəlxalq İslami mahiyyətindən xəbər verir. Bu tarixi faktlar Şirvanşahlar tarixi əvəzinə, bu qədim xalqın qarşısına "Albaniya tarixi" (Moisey Kalankatuklu) kimi "qədim erməni dilli" ilk psedo-əlyazmaların nə üçün və necə meydana çıxarılması səbəblərini də dəqiq izah edir.

VII əsr " alban tarixçisi" (?!.) Moiseyin 1279-cu il tarixli ermənidilli "ilk əlyazması"nın "Albaniya tarixi" deyil, "Aluank ölkəsinin tarixi" adlanması Şirvan dövlətinin tarixi adı üzərində aparılmış oyunların məkrli mahiyyətindən xəbər verir..

Monqol-tatar tayfalarının "türkləşmiş" (indiki leksika ilə desək, azərbaycanlaşmış) tayfa birliklərinə, yəni cəlairilərə, ağ və qaraqoyunlulara qarşı növbəti Azadlıq və İstiqlal mübarizəsinə

başlamış Şirvanşahlar dövlətinin yeni Lideri Keyqubad Adil (Şeyx İbrahim ibn Sultan Məhəmmədin babası) cəmi 10 il (1335-1345-ci illər) azadlığına və istiqlalına qovuşmuş bu ölkədə tolerantlıq üçün də yeni zəmin yaratdı. Dilindən və dinindən asılı olmayaraq, bu ölkədə yaşayanların hamısı üçün Şirvanlılıq ruhu ümumi mənəviyyat dəyəri qazandı. Çünki bütün tarix boyu Azadlıq şirvanlılığın əsas məğzini və mahiyyətini təşkil etmişdir. Bu "azadlıq adasında" yəhudilik, müsəlmanlıq və ya məsihilik deyilən heç bir dini ayrı-seçkilik heç zaman olmamışdır. XIV əsrin ortalarında məhz şirvanlı bir memarın Monqol işğalında olan Moskva Knyazlığının paytaxt şəhəri Moskvada "ağdaşlı Kreml"in tikintisinə rəhbərlik etməsi sıradan adi hadisə deyildi...

Əlbəttə, Monqol-tatar işğalları dövründən etibarən Xristian-alban yazılı mənbələrində "Şirvan" terminini "Alban" adının əvəzləməsi heç də Şirvanşahlar dövlətinin "Albaniya"ya çevrilməsi hesab edilə bilməz. 861-ci ildən 1538-ci llədək sürmüş 677 illik müstəqil müsəlman Şirvanşahlar dövlətinin yeddi əsrlik tarixi varlığı bunu əyani təsdiqləyir.

**AtaTv.az Xəbər Portalı.**
**İctimai Xəbər Agentliyi.**

İXA TV

10-02-2021, 20:39

# Şirvanşahlar tarixinə rekonstruktiv-mental baxış

**Namiq Atabəyli.**
**(Yazıçı: tarixi romanlar müəllifi, tənqidçi)**
**E-MAIL: farajovnamiq@ gmail.com**




## IV HİSSƏ

## ŞİRVANŞAHLAR DÖVLƏTİ və İSLAMİYYƏT

(yeniləşdirilmiş son variant)



Şirvanşahlıq xalqımızın şahanəlik qürurudur... Tarix də o üzdən yalnız əsalətin və nəcabətin tarixi olaraq qalır. Bu gün Avrasiyada ən iri geosistem hələlik Rusiya dövlətidir. 861-ci il müsəlman Şirvanşahlar dövlətinin, 862-ci il isə bütpərəst (ruslar xristianlığı X əsrin sonu qəbul etmişlər) Rusiya dövlətinin yaranma tarixidir.

Danılmaz tarixi fakt budur ki, ərəb orduları Cihat hərəkatı zəminində Şirvanı xəlifə həzrəti-Ömərin dövründə, 642-ci ildə fəth etmişlər. Deməli, Sasanilərin Şirvanşahlardan qoparıb, Mehranilərə bağışladığı ərazilərdə Roma tarixçilərinin qədim yunan və latın termini kimi ortaya atdıqları "Albaniya" və ya Arran söhbətləri maddi əsası olmayan folk-istorizmdən savayı bir şey deyildir.

AMEA Tarix İnstitutunun 7 cildlik "Azərbaycan tarixi" (Bakı, Elm, 2006) elmi əsərinin II cildinə baxaq: "... Xəlifə Ömər sərkərdələrindən... köməyə göndərdi... Son zərbəni Salmanın (ibn Rəbiənin-N.A.) dəstəsi endirməli idi. Bu zaman Dərbəndin hakimi... qədim nəslə mənsub olan Şəhriyar (və ya Şəhribürz.-N.A.) idi" (Bax, Göst. kitab, səh.: 175).

Deməli, söhbət Şirvanşah Şəhriyardan gedir. Bu FAKT ərəb işğalına qədərki dövrdə indiki Azərbaycan ərazisində Şirvanşalıq adlı tarixi siyasi-inzibati qurumun mövcudluğunu qəti təsdiq edir.

Şirvan bütün zamanlarda tarixi möhtəşəmliyi ilə nəzərləri özünə cəlb etmişdir. Və bu cazibə heç bir vaxt itməyəcək gücdə olub, olaraq qalır!.. Azərbaycanın akademik nəşri yazır: **"Gürcü salnaməsi" ("Картлис Цховреба".Gürcüstanın tarixi.-Red.) 1191/1192-ci ilə qədər Şirvanşah kimi hakimiyyətdə olmuş Axsitanı "Movakan (-Muğan), Şirvan və Dərbənddən Xalxaladək (Ərdəbil yaxınlığında) dəniz sahili vilayətlərin hökmdarı" kimi qələmə verir". (Bax: "Azərbaycan tarixi".Elm, Bakı-2007-ci il, 7 cilddə, II cild, səh. 351).** Deməli, Şirvanşahlar Dövlətinin hər bir tarixi hökmdar siması yalnız epoxal xarakterli olmuşdur. Şirvanda Sözün azadlığı ilə Hökmdarın hökmü arasında nə qədər konflikt ortaya çıxsa da, Axsitandan sonra ( ondan başlayaraq) heç bir vaxt şair edamına və həbsinə imza atılmamışdır. Bu da səbəbsiz deyildir. Çünki

qədim Şirvanda daim şair "müqəddəs ozan" sayılmış, Sözə qutsal dəyər verilmişdir.

Bütpərəst Çingiz xanla başlamış Monqol-tatar yürüşləri az sonra onun oğul və nəvələri tərəfindən xristian-nəsturi məzhəbli açıq Xaç yürüşünə çevrilmiş oldu. Bu proses monqolların Ain-Cəlutda Misir Qıpçaq Müsəlman Dövləti – Dövləti it-Türkiyə (Sultan Baybars) tərərəfindən ilk dəfə tarixi məğlubiyyətə uğramasınadək davam etmişdir. Bundan sonra Ordunun başını yenidən "Dəşti-Qıpçaq"a çevirən Monqol xanları bu əraziləri və xalqları tamamilə işğala məruz qoydular.

Lakin Dəşti-Qıpçaq xalqlarının tarixi inkişafına üç əsr əngəl törətmiş Monqol xanlarının QARIN ORDASI, nəhayət, labüd axirətinə üz qoydu: XV əsrin II yarısından etibarən baş qaldıran və XVI əsrdən etibarən Monqol-tatar xanlarını yenən ruslar paytaxt Moskva ətrafında güclü Mərkəzləşdirilmiş Dövlət yarada bildilər. 1552-ci ildə Kazan, 1556-cı ildə Hacı Tərxan (Astarxan), 1556-cı ilədək Orta və Aşağı Volqa ətrafı, 1598-ci ildə Sibir xanlığı, XVII əsrdə Noqayların Kiçik Sarayı Rusiyayaya birləşdirildi. Bu da bədəvi həyat sürən monqolluğun tarixi yekunu oldu. Hüç şübhəsiz ki, çar İvan Qroznının adı ilə bağlanan bu birləşmə hərəkatının hərəkətverici qüvvəsi yalnız rus xalqı deyildi. Bu yürüşdə iştirak etmiş bütün atlı süvarilər məhz "tatarlar"ın özünə məxsus olmuşdur. Xristianlığı qəbul etmiş həmin qasımov tatarlarının başında Şah Əli durmuşdur. 1552-ci il yürüşünədək ruslar Kazan üzərinə 1487, 1524, 1530- cu illərdə üç dəfə uğursuz hücum etmişdilər. Tarixi mənbələr sübut edir ki, Kazanı işğal etmiş Kasimov tatar süvarilərinə başçılıq etmiş həmin Şah Əli Səfəvilər tərəfindən devrilmiş Şirvan şahlarının nəsil nümayəndələrindən biri olmuşdur. Rus tarixçiləri onu Şirvanşah Qazı bəy (1501) və Qızılbaşlar tərəfindən edam edilmiş bakılı şahbanu Şahbikə bəyimin oğlu sayırlar. Şah Əlinin rus çarı İvan Qroznı ilə bağlı əsas planı onun hərbi yardımı ilə Səfəviləri Cənubi Qafqazdan, o cümlədən Şirvandan çıxarmaq idi. Lakin İvan Qroznının həyatına edilmiş sui-qəsd (zəhərlənərək öldürülmə) bu planı pozdu. Rusiya polşa panlarının, daha sonra alman katoliklərinin anti-İslam və anti-şirvan siyasətinin uzun əsrlik bir alətinə çevrilmiş oldu.

Tarix səhnəsinə "azadlıq" (albianus) ismi ilə çıxmış şirvan xalqı və onun ziyalı elitası heç bir zaman əsarəti qəbul etməmiş, azadlıq və istiqlal yolunda daim ölümün gözünə dik baxmağı bacarmışdır. Bu, İbrahim Xaqani Şirvani, Məhəmməd Fələki Şirvani, İmadəddin Nəsimi, Şah Xəndan Şirvani kimi şir tinətli sənətkarlarımızın şəxsində gerçəkləşmiş faktdır. Lakin bu şücaət yalnız Şirvanda yaşamış dahilərimizin xarakter xüsusiyyəti deyil, onlarca, yüzlərcə Şirvanşahlar yurdundan xarici ölkələrə məcburi köç etmiş şirvanlıların da, onların qürbətdə doğulub böyümüş yeni nəsillərinin də məhz bu sifətlərə malik olduqlarını görürük. Şirvanlı mühacir nəsillərin içərisində dediyimizə ən bariz örnək orta əsrlərin ən dahi şairi əslən şamaxılı Məhəmməd Füzuli olmuşdur.

Şirvanşahlar dövlətinə və şirvan xalqına qarşı tarixi ədalətsizliyə qarşı çıxış edən ilk ziyalıların başında məhz əslən




dahi şirvanlı şair Məhəmməd Füzulinin (1494-1556) durması, əlbəttə, diqqətəşayan hadisədir. Şirvanlı kökləri və əcdadları görkəmli yazıçımız Əzizə Cəfərzadənin "Eşq sultanı" adlı son tarixi romanında geniş təsvir edilmiş bu dahi şairimizin atası Süleyman kişinin Şamaxının Bayat kəndindən Bağdada köç etməsinin tarixi səbəbləri Şirvana arasıkəsilməz Ağqoyunlu, Qaraqoyunlu və Qızılbaş yürüşlərinin zəminində tamamilə başa düşüləndir. Böyük Füzuli heç vaxt Səfəvi-Osmanlı müharibələrinin meydanına çevrilmiş İraqı özünə həqiqi vətən hesab etməmiş, özünü bu torpaqılarda "əsir" saymışdır:

**Tökdükcə qanım oxun ol asitan içər,**
**Bir yerdəyəm əsir ki, torpağı qan içər.**

Əlbəttə, insan öz vətənində özünü "əsir" adlandırmaz. Əsirlik qürbətlə bağlı bir vəziyyətdir. Deməli, Məhəmməd Füzulinin "bir yerdəyəm əsir ki, torpağı qan içər" deməsi həmin dövrdə qürbətə (Bağdada) məcburi köç etmiş şamaxılı sariban Süleyman kişinin ailəsinin gerçək halını əks etdirirdi. Həmin dövrdə Bağdad şirvanlı ziyalılarla aşıb daşırdı. Bu proses dostumuz və naşirimiz Şöhrət Səlimbəylinin "XVI əsr Azərbaycan ədəbiyyatının

Bağdad ədəbi mühiti” və digər kitablarında geniş tədqiq edilmişdir.




Şirvanşahlar dövlətinin müxtəlif köçəri-yəğmacu tayfalar tərəfindən süquta uğradılması Məhəmməd Füzulinin şirvanlı qəlbini daim ağrıtmış, onu Vətən təəssübkeşliyindən açıq çıxış etməyə məcbur etmişdir. İlk belə etiraz şairin XII əsr Şirvan dahisi İbrahim Əli oğlu Xaqani Şirvaninin (1120-1196) dünyaca məşhur “Qəsideyi-şiniyə”sinə nəzirə olaraq yazdığı “Ənisül-qəlb” əsərində səsləndi. Füzuli açıq mətnlə qızılbaş hökmdarı I Təhmasibi “Şahi-İran” adlandıraraq, ondan Turandan və turan xalqlarından əl çəkməyi tələb etmişdir:

**Gözü doymaz hərisin dəhrdə, çünki həris insan**
**Olarsa şahi-İran tutmaq istər mülki-Turani.**
**Tamahla aldanan bir qəlbin heç vaxt atəşi sönməz,**
**Qızıldan ötrü şiddət kəsb edər hər ləhzə böhrani.**

Göründüyü kimi Məhəmməd Füzuli bu günkü qondarma “tarixçi” və “yazarların” bəhəbəhlə “Azərbaycan hökmdarı”, “Azərbaycan Səfəvi dövləti” və s. epitetlərlə tanıtmağa çalışdığı Qızılbaş hakimiyyətini- altı köçəri tayfanın yaratdığı dövləti konkret olaraq öz adı ilə **“şahi-İran”** adlandırmış, bu sülülənin **“mülki-Turanı tutmaq”,** başqa sözlə işğala çalışdığını xüsusi qeyd etmişdir. Bu işğalın səbəbini onların **“gözü doymaz həris insan**lığı” nda görmüşdür.

Azərbaycanda Şah İsmayılın haqqında xeyli bədii əsər yazılmışdır. Əlisa Nicatın “Qızılbaşlar”, Fərman Kərimzadənin “Xudəfərin körpüsü”, Nurəddin Ədiloğlunun “Taxt və Tabut” , “Taclı bəyim” və s. kitabları məlumdur. Bunlardan yalnız Əzizə Cəfərzadənin “Bakı 1501” tarixi romanında qızılbaşların Bakı işğalı obyektiv işıqlandırılmışdır.

Dahi Məhəmməd Füzulidən fərqli olaraq, AMEA-nın Folklor İnstitutunun şöbə müdiri, əslən Masallı rayonunun Xırmandalı kəndindən olub, özünə “Bayat” təxəllüsü götürmüş, ixtisasca Dillər İnstitunun fransız dili məzunu Füzuli Gözəlov (Bayat) adlı birisi görkəmli yazıçımız Əzizə Cəfərzadəyə qarşı hədyan

söyləyərək, onu "Bakı-1501" romanında azyaşlı bir uşağın "İsmayıl Səfəvi" ismilə altı köçəri tayfanın (birisi Bayat olmaqla) başında Bakı şəhərini işğal etməsini obyektiv təsvir etdiyinə görə ağır təhqirə məruz qoymuşdur... Bəlkə də, bu münasibət Şah İsmayılın özünə olan simpatiyadan daha çox, Romandakı təsvirlərin onun türkiyəli filoloqlardan çırpışdırılmış "erkən türk folkloru" və "Dədə-Qorqud" üzrə "tədqiqatları" ilə ziddiyət təşkil etməsindən irəli gəlmişdir. Açıq hiss edilir ki, cənab Füzuli Bayat Minillik Şirvanşahlar oturaq mədəniyyətinə qənim kəsilmişdir, onun üçün Monqol-tatar əşirətlərinin folkloru, xüsusilə "Dədə-Qorqud" adı ilə tanıdılmış türkləşmiş monqol folkloru Şirvanlıların klassik ədəbiyyatından daha əhəmiyyətlidir?!. Odur ki, bu mədəniyyətin tənəzzülə uğradılması onun da sevinc mənbəyidir...

XIII – XV əsrlərdə Ağqoyunlu Bayandurilərin tatar-türkmən mühitində yenidən formalaşmış "Kitabi-Dədə Qorqud" dastanı, monqolca əsli "Sudrın çuulqan" (-Salnamələr toplusu) olmuş və monqol xanı Qazanın əmrilə vəziri görkəmli İslam tarixçisi Rəşidəddin Həmədani (1247-1318) tərəfindən üç dildə tərtib edilmiş bir folklor nümunəsidir. Bu folkloru Şirvan xalqının oturaq mədəniyyətinə qarşı qoymaq nə qədər də anlamsızdır!

Otra əsrlər dövründə Şirvanşahların xəzinəsini Bakıda, Şamaxıda və Qəbələdə talan edib aparmış Səfəvi hökmdarı- "şahi-İrana" dahi Məhəmməd Füzulidən ağır ittiham səsləndirmək mümkün deyildir. **Məhəmməd Füzuli** daha irəli gedərək, növbəti iki poemasında- "Bəngü Badə" (ilk iri həcmli əsəri) və "Söhbətül-əsmar"da da özünün Şah İsmayıla və oğlu I Təhmasibə olan mənfi münasibətini əsl siyasi satiraya çevirmişdir. Bunlardan "Bəngü Badə" I Şah İsmayıla həsr edilmişdir, əlbəttə, "həsr etmək" heç də "ithaf etmək" demək deyildir. Hər iki əsərdə "şahi-İran"ı təcəssüm etdirən surətlərin təkəbbürlü, lovğa, şöhrətpərəst, xudbin siması bədii təsvir edilərək kəskin tənqid olunmuşdur.



Dahi Füzuli özünü heç bir vaxt "əcəm (-İran) şairi" hesab etməmişdir, odur ki, 1537-ci ildə yazıb, Osmanlı Sultanı Süleyman Qanuniyə həsr etdiyi "Leyli və Məcnun" poemasında turani mənşəyini qabardaraq, özünə xitabla belə yazmışdı:

"Leyli və Məcnun" əcəmdə çoxdur,
Ətrakda (türklərdə-N.A.) ol fəsanə yoxdur.
Təqrirə gətir bu dastanı,
Qıl tazə bu əski bustanı...

Məhəmməd Füzuli dövrün dahi bir türk ziyalısı və şirvanlısı olaraq, şüubiyə İran Fars şovinizminin anti-türk məqsədlərinin haralara tuşlandığını gözəl başa düşürdü. Odur ki, Şüubiyənin təlimatları ilə Şirvanşahlar dövlətinin məhvə sürükləndiyi bir vaxtda o, bütün mənəvi gücü ilə yalnız "mülki-Turana" bağlılığı və "ətraka" (türkliyə) xidmət etdiyini açıq şəkildə bəyan etmişdir..




Hal-hazırda üzərində çalışdığım **"Şirvanşahlar haqında saqa" roman-epopeyamın Beşinci kitabı "Sonuncu Şirvanşah Şahrux" adlanır.** Əminəm ki, bu əsər Şirvanşahlar dövləti və onun xalqı əleyhinə hədyanlar yazan anti-şirvan qaragüruha tutarlı tarixi cavab olacaqdır. Qafqazda ən qədim oturaq mədəniyyətin ilk xələfi olan şirvan xalqının və onun yeddi əsrlik İslami "Şirvanşahlar" dövlətçiliyinin adını tatixdən silmək istəyənlər yalnız düşmən dəyirmanına su tökürlər...

Bu günki reallıqdan yanaşanda minillik Şirvan şahlığını İran şahı Nadir Əfşairinin ölümündən sonra Azərbaycan qüzeyində Rusiya işğalınadək formalaşmış 50 illik "xanlıqlara" bərabər

tutmaq, əlbəttə, yalnız gülüş doğurmur: **nifrət doğurur!** Bəlkə də, elə bu üzdən haqqı qabaqlamaq istəyən mürtəce qüvvələr hələ də anti-Şirvan ideoloji konsepsiyalardan əl çəkmək bilmir, bu xəyanətkar fəaliyyəti inadla davam etdirirlər.

Görün, özünü "milli ziyalı" adlandıran bəzi Dövlət mükafatçısı yazarlarımız qədim Şirvanın oturaq mədəniyyətinə, klassik simasına, 677 illik müsəlman Şirvanşahlar dövlətçiliyinə və onun xalqına nə qədər nifrət hissləri bəsləyirlər ki, qardaş Özbəkistan Respublikasına Yunus Oğuz deyilən birinin "Əmir Teymur" romanının təqdimatına gedərkən necə bəsit və təhqiramiz ifadələr işlətmişlər: **"Şirvanşahlar tariximizin utanc yeridir".**




Mən əminəm ki, burada akademik Nizami Cəfərovun ismi yalnız bu bədnam "roman"ın Özbəkistandakı təqdimat mərasimində iştirak etdiyinə görə İnternetdə yer almışdır. Bu məsələdə əsas xidmət Yunus Oğuzun bilavasitə özünə aiddir. Əcəba, Əmir Teymurun Araz çayından Dəmir Dərbəndə kimi ərazinin Şirvanşahlar dövlətinin ərazisi kimi tanınması barədə xüsusi Fərman verməsi onun bu qədim xalqa və onun dövlətçiliyinə ehtiramının tarixi nümayişi deyildimi?! Orta Asiyanı, İranı, Osmanlı dövlətini və Qızıl ordanı qanına qəltan etmiş, insan kəllələrindən dağlar, təpələr düzəltdirmiş Əmir Teymur, doğrudanmı Şirvan şahlarına uydurma "9 qul" nağılı əsasında xüsusi münasibət göstərmişdir?!.

Tarix səhvlərdən də xali deyil. 1514-cü il Çaldıran döyüşündə şirvanlıların Osmanlı Sultanı II Səlim ilə eyni bir cəbhədə yer almaması Şirvan tarixinin ilk ən iri strateji səhvi olmuşdur. Məhz bu tarixi səhv Şirvanşahlar dövlətinin sonrakı süqutunun əsas səbəblərindən biri və ya birincisi idi. Bu məsələ mənim Saqamın

“Şirvanşah Şeyx İbrahim Dərbəndi” trilogiyasında ətraflı təsvir edildiyindən əlavə şərhə ehtiyac duymuram...

Osmanlı sultanı II Səlimlə Çaldıran düzündəki döyüşdə ağır məğlubiyyətdən sonra, Qızılbaş Hökmdarı Şah İsmayıl Səfəvinin dərhal öz qızı Pərixan xanımı Şirvanşah Şeyxşahın (II İbrahimin: 1502-1524) oğlu Sultan Xəlilə (II Xəlilullaha: 1524-1535) ərə verməklə qohumluq yaratmasında onun Şirvan xalqına və onun qədim dövlətçiliyinə daxili heyranlığının heç bir rolu olmamışdır. Qəlbi intiqam hissləri ilə körüklənən Qızılbaş Səfəvi hökmdarı bu məcburi nikah diplomatiyası gedişilə, əslində Şirvanşahlar dövlətinə növbəti həlledici zərbəni vurmaq üçün vaxt qazanmağa çalışırdı. Sonuncu şirvanşahın atası II Fərrux Yasarın öz qardaşı Şeyx Şaha (II İbrahimə) və qardaşı oğlu Sultan Xəlilə (II Xəlilullaha) qarşı apardığı hakimiyyət mübarizəsinin də əsl səbəbi məhz bu olmuşdur. Səfəvilərin qohumluq diplomatiyasına qarşı çıxan son şirvanşahlar (II Fərrux Yasar və oğlu son Şirvanşah Şahrux) şirvan xalqının və dövlətçiliyinin tarixində bu uğursuz addımla heç zaman barışmadılar**. “Sonuncu Şirvanşah Şahrux”** romanımda bu məsələlərə bədii şəkildə geniş aydınlıq gətirilmişdir.

O ki qaldı şirvanşahları tarixin “utancı” hesab edənlərin cəfəng düşüncələrinə, onda qoy bu “cənablar” aşağıdakı suala cavab versinlər: nə üçün Şah İsmayıl 1501-ci ildə işğala məruz qoyduğu Şirvanşahlar dövlətini nəinki dünya xəritəsindən silmək haqqında düşünmədi, əksinə onlarla çox tezliklə qohumluq əlaqələri yaratmağa çalışdı və hətta Çaldıran məğlubiyyətindən sonra öz böyük qızı Pərixan bəyimi Şirvanşahın oğluna ərə verdi, ömrünün sonlarında, yəni 1523-cü ildə isə daha irəli gedərək Şirvanşah Şeyxşahın (I İbrahimin) qızı Münəvvər bəyim Şirvani ilə də ailə həyatı qurdu?!.

Bu tarixi hadisə baş redaktoru akad. Ziya Bünyadov olmuş “Azərbaycan tarixi”ndə (Azərnəşr, Bakı-1994. I cild. Ali məktəblər üçün Dərslik, səh.: 410) belə təsvir edilmişdir: **“1523-cü il noyabrın 5-də , Təbriz yaxınlığında Şah İsmayıl ilə Şirvanşahın qızının təntənəli toy mərasimi keçirildi”.**

Bu gün paytaxt Bakıda Şah İsmayılın Ərdəbildəki heykəlinin dublikatı kimi qoyulmuş abidəsinə “kiçik bir əlavə” edildiyini




görürük: əslində İran variantında Şahın dizi üstə onun şairliyini ifadə etdirən bir kitab olduğu halda, Bakı variantında “Qılınc” qoyulmuşdur. Məgər bu Qılınc qızılbaş şahın ətrafındakı köçəri tayfaların Bakıda, qədim Şirvan paytaxtında kəsdiyi və kəsdirdiyi insan başlarını simvolizə etmirmi?..

Bakı işğalının necə amansizca gerçəkləşdirildiyi hamıya məlumdur: müdafiəçilər qılıncdan keçirilmiş, şəhər qarnizonuna rəhbərlik edən bakılı qadın- şahzadə Qazıbəyin arvadı Şahbikə bəyim Bakuvi əsir götürülərək amansızca edam edilmiş, nəhayət, Şirvanşah Fərrux Yasarın atası I Xəlilullahın məzarı dağıdılmış və sümükləri yandırılmışdı. Qazılar, kələntərlər, şeyxlər və ziyalılar amansız terrora məruz qalmışlar. Təsadüfi deyil ki, Bakını müdafiə edən gənclərin kəsilmiş başları ilə doldurulmuş gölə həmin gündən etibarən “Qanlı göl” adı verilmişdir.




Azərbaycan xalq yazıçısı Əzizə Cəfərzadənin “Bakı-1501” tarixi romanı bu işğalın bədii inikasıdır. Məhz bu romana görə, onu nəvəsi yaşında olan filologiya elmlər doktoru Füzuli Gözəlov (Bayat) ağır təhqirlərə məruz qoymuşdur. AMEA-nın Folklor İnstitunun şöbə müdiri (ixtisasca Dillər İnstitunun fransız dili mütəxəssisi), görəsən, görkəmli ədibədən nə istəyirdi: bu işğala görə, özünə təxəllüs götürdüyü Bayat tayfasının tərifinimi?.. Ya İran şüubiyə ordeninin paniranizminə mədhiyə yazmağımı?..

AMEA-nın folklorşünası Nurəddin Ədiloğlunun “Taxt və Tabut” romanına yazdığı Ön sözdə xalq yazıçımızın obyektiv təsvirlərini boş cəfəngiyat adlandıran Füzuli Bayatın Şirvan

oturaq mədəniyyətinə neqativ münasibəti ilk öncə onun "köçəri aləmə" aşırı "sevgisindən" irəli gəlir. Eyni münasibət Qızılbaşlarla mübarizədə həlak olmuş bakılı qadın sərkərdə Şahbikə bəyimə də şamildir. Bakının təsliminə qarşı çıxan Şahbikə bəyim, ona bu təklifi gətirmiş öz Qazisini belə Səfəvilərin elçiləri ilə birlikdə dərhal edam etdirmişdir. Nurəddin Ədiloğlunun "Taxt və Tabut" kimi əndərabadi romanları tərifə tutanlar unudurlar ki, öz doğma vətənini qoruyarkən qəhrəmancasına həlak olmuş Şahbikə bəyim Bakuvi səfəvi Taclı Bəyimdən daha parlaq tarixi şəxsiyyət olmuşdur. Taclı bəyim öz həyatında iki dəfə əsir götürülmüş qadındır: onun birinci əri Gilan hakimi Hüseyn Kiya Çələbi idi. İngilis tarixçi Roger M.Savori Taclı Bəyimin Gilanşah Hüseyn Kiya Çələbinin arvadı olmasını sübut edərək, Şah İsmayıl ilə evliliyinin 1504-cü ildən başladığını bildirmişdir. Keçmiş "xilaskarı" olmuş Gilanşahların




Gülxəndan və Asta qalalarını ələ keçirən Şah İsmayıl, Hüseyn Kiya Çələbini amansızlıqla (diri-diri yandıraraq) öldürüb, hərəmini əsir götürmüşdür. İkinci əsirlik tarixi isə Çaldıran döyüşü ilə bağlıdır. Azərbaycan yazarı Nəriman Əbdülrəhmanlı "Taclı" romanında bunu inkara qalxaraq, bu qadından namus və qeyrət təcəssümü yaratmışdır?!. Halbuki, ingilis tarixçisi Rogerin irəli sürdüyü versiya tanınmış türk yazarı Reha Çamuroğlu "İsmayıl" tarixi romanında daha dəqiq və təfsilatlı təsvir edilmişdir.

Reha Çamuroğlu "amerika" kəşf etməyib. Səfəvilərin tarixində bu cür qara səhifələr İsgəndər Palanın "Şah və Sultan" əsərində də yer almışdır. Bu gün ölkəmizdə şiə teokratiyası ilə tarixə qiymət verməyə can atan qüvvələr dildə tolerantizmdən danışdıqları halda, Şirvanşahlar tarixinə kin və küdurətdən bir an da əl çəkmək istəmirlər. İş o yerə çatıb ki, Reha Çamuroğlunun milli dilimizə tərcümə edilmiş "İsmayıl" romanını heç bir kitab mağazasında tapmaq mümkün deyildir?!.

Əksinə Taclı Bəyimin tərifi göyə qaldırılmışdır. Bu qadının böyük qızı Pərixan şirvan şahbanusu olduğu halda, gəlini olduğu

xanədanın tarixi süqutuna can atanlardan birincisi idi. Bəlkə, biz, şirvanlılar, qədim oturaq mədəniyyətimizin, şanlı dövlətçiliyimizin süqutuna baiskar olmuş bir qadını şüubiyə təəssübkeşliyə uyub vəsf eləyək?!. Pəri Xan adlanan bu qadın əri Şirvanşah II Xəlilullahın vəfatından sonra onun taxtına əyləşmiş 14-15 yaşlı qaynı oğlunu- Şahrux ibn II Fərrux Yasarın üzərinə şah qardaşı I Təhmasibin ordusunu gətirərək, bir il mühasirədə saxlamış, nəhayət, əsir alaraq, daha bir il Təbrizdə ölüm quyusuna saldırmış, amansız işgəncələr verdirdikdən sonra əcrlə edam etdirmişdir. Heç bir namuslu ana belə bir nankor övladı yetirə bilməz... Bu qadın Şirvanlıların şahbanusu olmaqdan irəli, səfəvi Taclı bəyimin böyük qızı olmuşdur...

Biz Səfəvi hökumətinin daha çox arvadlar tərəfindən idarə olunduğunu göstərdik və bunu faktlarla sübut etdik. Lakin Şah İsmayılın son qadını şirvanlı Münəvvər bəyim barədə də danışmaq istərdim. Şah İsmayıl həyatının sonuna yaxın bu şirvanlı gəlini, daha doğrusu Şirvanşah II İbrahimin böyük qızını Çaldıran döyüşündə əsir düşmüş arvadları- Taclı bəyimin (I Təhmasibin və Bəhramın anası), Bəhruzənin (Sam və Əlqas Mirzələrin anası) və Bacı Xanımın üzərinə günü olaraq gətirmişdi. Taclı bəyimin Osmanlı əsgərlərinə əsir düşməsi haqqında tarixi faktlar "Tarixi-Cahanara" və "Aləm arayi Şah İsmayıl" adlı tarixi mənbələrdə dəqiq təsdiq olunmuşdur. Bundan əlavə, bir çox tanınmış tarixçilər Y.Öztuna, İ.H.Uzunçarşılı,




Ə.Məmmədov, Rzaəddin bin Fəxrəddin və başqaları Səfəvilərin şah hərəminin əsir düşməsi barədə inkar olunmaz dəlillər irəli sürmüşlər. Görkəmli türk yazarı Reha Çamuroğlunun Şah İsmayıl haqqında yazdığı "İsmayıl" romanına qarşı çıxaraq, Şah İsmayılın arvadlarının əsir düşməsini inkar edən akad. Ramiz Mehdiyevin etirazları isə tamamilə əsassızdır. Reha Çamuroğlunun "İsmayıl" tarixi romanı Arif Əmrahoğlu və Paşa Əlioğlunun tərcüməsində Bakıda "Qanun" nəşriyyatı tərəfindən nəşr edilərək oxucuların ixtiyarına verilmişdir.

Bütün bu faktlar deməyə əsas verir ki, 1538-ci ildə Şirvanşahlar dövlətini tamamilə süquta uğratmaq məqsədilə sonuncu Şirvanşah Şahruh ibn II Fərrux Yasarın üzərinə göndərilmiş Qızılbaş ordusunun yönləndiriciləri, Şüubiyə ordeni ilə bahəm, Şah İsmayılın Şirvanşah II Xəlilullahdan dul qalmış qızı Pərixan xanım və mənliyi Osmanlı əsirliyində alçaldılmış şah hərəmi- Taclı xanım və Bəhruzə olmuşlar. Onlar Şirvanlı bir qızın, II İbrahimin Təbrizə gəlin köçürdüyü ismətli Münəvvər bəyimin onların üstünə günü gəlməsini Şirvanşahlar diyarına və xalqına bağışlamamışlar. Bu fakt mənim son romanımda geniş işıqlandırılmışdır... Şirvanlı gəlin öz həyatını Vətənin istiqlalı naminə qızılbaş şahına qurban vermişdir. Bu gün taleyi İran tarixinin qaranlığında itirilib batırılmış Münəvvər bəyim Şirvaninin fədakarlığı fonunda, xəyanətkar Pərixan Şah İsmayıl qızının siması çox cılız və sönükdür.

I Təhmasibin Şirvanşahlar dövlətini məhv etmək kimi ağılsız hərəkəti Şirvanda ümumxalq azadlıq hərəkatına yol açdı. Əslində, azadlıqsevər şirvan xalqı Səfəvi işğalından sonra bu işğal rejiminə qarşı fasiləsiz üsyan xətti-hərəkatı başlatmışdı. İşğalın ilk illərində şirvanlıların bilavasitə özlərinin (Burhanəli Sultan və Burhan Mirzənin) rəhbərliyi altında altı anti-səfəvi üsyan baş qaldırmışdı. Məhz bu üsyanlar Səfəvi dövlətini şirvanlıların həmməzhəbi olan Osmanlılar ilə müharibə meydanına çəkmiş və onun siyasi ömrünü cəmi iki yüz ilin içərisində tamamlamağa vəsilə olmuşdur.

Osmanlı sultanları Qafqazda səfəvi qılbaşlara qarşı apardıqları bütün savaşları öz tarixi müttəfiqi olan şirvanlılara kömək saymışlar.

1586-1589-cu ildə bütün Azərbaycan Osmanlı sultanı II Murad tərəfindən işğal edildi. Osmanlı və Səfəvilər arasında 1590-cı ildə bağlanmış İstanbul Sülh müqaviləsinə görə, Qızılbaş hökuməti Azərbaycandan əlavə, Ərməniyə, Gürcüstan, habelə İranın Qərb vilayətlərini- Navahənd, Luristan və Şəhrizuru Türkiyəyə verməli olmuşdu. Bəlkə də, elə bu üzdən 1918-ci ilin 9 Noyabrında qəbul edilmiş Azərbaycan Xalq Cümhuriyyətinin ilk İstiqlal bayrağı daha çox Osmanlı Sultanı Muradın Qırmızı rəngli, Hilal və Səkkiz guşə ulduzlu bayrağına bənzəyirdi... Məhz bu Bayraq

altında şirvan xalqının Səfəvi əsarətindən xilası uğrunda uzun sürün beynəlxalq mübarizə getmişdir. Azadlıq diyarı olan Şirvanda (Bakıda) yaradılmış ilk türk Cümhuriyyətinin İstiqlaliyyət atributunun 1918-ci ildə məhz Osmanlı dövlətindən əxz edilməsi təsadüfi hadisə deyildi. Uzun sürən tarixi-epoxal bir prosesin yekunu idi.

Şirvan xalqının tarixi keçmişi ilə oynamaq özünü bəribaşdan təhlükələr içərisinə atmaq deməkdir. Çünki tarixdə iki əsrlik Səfəviyyə dövlətinin görə bilmədiyi bir işi indi özünəməxsus tayfa təəssübkeşliyi çəkən bir ovuc əllamənin görə biləcəyi absurd məsələdir. Hamı bilir ki, Azərbaycan klassik ədəbiyyatı XII əsrdən deyil, X əsr Bakı ədəbi mühitindən başlayır. Bu tarixi sima bütün dünya ədəbiyyatında fəxri yer tutmuş Baba Dağ Bakuvi-Şirvanidir (933-1050). Baba Dağ Bakuvinin “Divan”ı bütün Qərb dillərinə tərcümə edilib yayılmışdır. Əcəba, bəs Azərbaycanın “Əlyazmalar İnstitutu”, “Ədəbiyyat muzeyi”, AMEA-nın Ədəbiyyat İnstitutu nə üçün bu dahi sənətkarımızın “Divan”ını arayıb axtarmır. Əlbəttə, bunun çox bəsit bir səbəbi var: tayfabazlıq şüuru. Danabaşlıq! Bu, psixoloji planda tarixi-mental cizgilər daşıyan bir inkarçılıqdır. Problemin izahına keçək: Şirvanşahlar dövləti tarixən nə qədər tolerant olsa da, onun coğrafiyasında daim müxtəlif dini-ideoloji mübarizələr də getmişdir. Bu tarixi savaşlar daha çox Monqol-tatar işğalları və Qaraqoyunlu-Aqqoyunlu yürüşləri dövründə baş vermişdir. Tayfa şüuru və instiktlərilə hərəkət edən qüvvələrin Böyük Şirvan gerçəkliyinə qarşı tarixi savaşı məhz bu dövrlərdən start götürmüşdür. Biz də başa düşürük ki, bu düşmənçiliyin mental qatları çox dərindir. Məsələn, orta əsr Şirvanında klassik İslam mədəniyyətinə qarşı Monqol-tatar əşirətləri sayılan Qara qoyunlu və Ağ qoyunlu türkmən-tatar tayfalarının özləri ilə Qafqaza gətirdikləri “Kitabi-Dədəm Qorqud” dastanlarında üz-üzə qoyulmuş Qıpçaq Məlik ilə Oğuz Qazan xan haqqında tarixi süjetlər, ilk növbədə, şirvan xalqının hədəri mədəniyyətini, klassik simasını əridib yox etməyə hesablanmışdı. Hər iki tayfanın Qafqaza monqollar tərəfindən gətirildiyi məlumdur. Bu dastanın baş qəhrəmanı, əslində, kimdir? Qazan xan adının daha

çox bir Monqol noyanının adını xatırlatması unudulmamalıdır. Yeri gəlmişkən, tarixdə iki Qazan xan olmuşdur. Bunlardan biri Hülaki-çobani tatarlarından sayılan Qazan xan (-1295-1304), digəri isə Cığatay Ulusundan, Batı xanın nəslindən olan Qazan xan (1301-1346: ona bəzən Qazan-Teymur xan da deyilir) idi. Qazan xan ünlü monqol-cığatay hökmdarı Özbək xanın (1313-1341) qardaşı olub. Həm Qazan xan, həm qardaşı Özbək xan, həm də sonuncunun oğlu Canı bəy xan (1342-1357) qətiyyətli müsəlmanlar olmaqla, əhli-sünnət müsəlman Şirvanşahların ən yaxın dostu və Hülaki-çobanilərə qarşı mübarizədə müttəfiqləri idilər.

"Kitabi-Dədə Qorqud"a gəldikdə, onun əslinin bir monqol folkloru- "Sudrın çuulqan" (-Salnamələr toplusu) olduğu unudulmamalıdır. Əsli monqolca yazılmış bu kitab kökü Azərbaycan atabəylərindən olan məşhur həmədanlı türk-qıpçaq tarixçi Rəşid əd-Din Fəzlullah Həmədaninin (-1247-1318) farscası daha geniş yayılmış "Cəmi ət-təvarix" əsəridir. Bu kitab elxani-monqol Qazan xanının tapşırığı ilə Baş Vəzir Rəşid əd-Dinə yazdırılmışdı. 1301-ci ildə Xan öz Vəziri və şəxsi həkimi Rəşid əd-Din Həmədaniyə Monqol xalqının tarixini yazmağı, bu barədə mövcud olan bütün mənbələri bir yerə toplayıb vahid bir kitab halına salmağı əmr edir. Odur ki, bu əsərə eyni zamanda "Tarix-i Qazan" da deyilir. Əsər 1311-ci ildə, yəni 10 ilə yazılıb başa çatdırılmışdır.

Deməli, üzərində Çar müstəmləkəçiliyi və Sovet hakimiyyəti illərində xeyli folk-istorizmlər qurulmuş, paralel tarixlər quraşdırılmış və xüsusi elm sahəsi kimi "oğuzşünaslıq" icad edilmiş bu folklorun klassik Şirvan mədəniyyətinə aidiyyətinin olmaması təəccüb doğurmamalıdır. XII əsrdə Şirvanşah III Məniçöhrün (ismin izahı "ay üzlü" deməkdir) Şamaxı Sarayında əsrin ən güclü Mədəniyyət mərkəzi yaradılmışdı. Yazılı klassik ədəbiyyatın ən qüdrətli dühaları- Əbül Üla Gəncəvi, Məhəmməd Fələki, İbrahim Xaqani, İzzətdin Şirvani, Mücirəddin Beyləqani məhz bu Sarayda fəaliyyət göstərirdilər.

"Kitabi-Dədə Qorqud" dastanlarında kafir Qıpçaq Məlik ilə müsəlman Qazan xan arasında gedən müharibə səhnələrinin Şirvanda baş verməsi diqqəti çəkən tarixi faktdır. Burada kafir-

müsəlman savaşına 642-ci ildən İslamiyyəti qəbul etmiş ilkin Şirvanşahların qarışmaması səbəbsiz deyil. Çünki Monqol işğalları dövründə artıq ilkin Şirvanşahları ərəb kökənli Şirvanşahlar (əslində canişinlər) tamamilə əvəz etmişdilər. Deməli, Şirvanda tolerantizm müvəqqəti də olsa, aradan qalxmışdı. Monqol-tatar istilası dövründə isə şirvan xalqı siyasiləşdirilərək iki siyasi-dini cəbhəyə bölünmüşdü: monqollara qoşulmuş məsihi qıpçaqlara və müsəlman türk və qeyri-türk oboregenlərə. Dastanda Monqol-tatar tayfalarının "OĞUZ" tayfaları adı altında Xristian Qıpçaq Məliklə apardığı savaşlar tarixi əsası olmayan folk-istorizmdən savayı bir şey deyil. Çünki Monqol xanları ilk yürüş mərhələsində özlərinin ağ və qara tatar ətrafı ilə birgə anti-İslam cəbhəni təşkil etmişdilər. Belə ki, XIII əsrdə qədim Şirvan ərazilərində yüksək vüsət almış kilsə tikintiləri bunu qəti sübut edir. Odur ki, qonşu Dəşti-Qıpçaq (indiki Rusiya), Gürcüstan (qıpçaq türkləri), Sa-Atabaqo (Xristian Atabəylər dövləti) qıpçaq türkləri və Monqol-Hülakilərin çobani-padar, cəlairi, ağ və qara tatar tayfaları arasında İslam təbliğatının aparılması, əsasən, Şirvan ülama və ilahiyyatçılarının üzərinə düşmüşdü. Güclü oturaq hədəri mədəniyyətin varisi olan Şirvan ziyalı elitası bu tarixi vəzifənin öhdəsindən layiqincə gələ bildi. Monqol cildindən çıxarılmış "Kitabi-Dədə Qorqud" dastanlarının sonrakı İslami məzmunu da  məhz tarixi bu faktın əyani təsdiqidir.

Məhəmmədəmin Rəsulzadə 1909-1912-ci illərdə İranda və Osmanlı Türkiyəsində dərc etdiyi "İran türkləri" adl silsilə məqalələrində İranda özlərini "türk" adlandıran tayfaların böyük əksəriyyətinin Monqol-tatar Ordası tərkibində gəlib, bu ərazilərdə yerləşdiyini bildirir. Məsələn, "İlat-i Hamse-i Fars" adlanan Azərbaycandan kənar tayfaların, Kaşqaylarla birgə, "kendi iddialarınca, Çingiz xan neslinden gelen Türk ili" (Bax, Göst.əsər. Səh.: 39) olduqları bildirilir. O cümlədən, "Kitabi-Dədə Qorqud" dastanlarında adı çəkilən "Bayandur" və digər "türkmən", həmçinin "Qacar" tayfalarının Monqol-tatar əşirətləri olmasını irəli sürür. Əlbəttə, bunlar inkar edilməz tarixi faktdır. "İlxanilik" və ya "xanlıq" idarəçiliyinə daha çox bağlı olan bu zümrələr İrandakı ağ türklərə, yəni Səlcuqilərə qarşı daim aqressiv qüvvə

kimi çıxış etmişlər. Səfəvi tarixi göstərir ki, bəzi istisnalarla, Səfəviyyə İranda və Şirvanda apardığı tiranlıq və pepressiya siyasətində də məhz sözügedən Monqol-tatar əşirətlərinə- ağ və qaraqoyunlulara söykənərək hərəkət etmişdir. 1501-1502-ci illərdə Təbriz şəhərinin işğalı zamanı I Şah İsmayıl Səfəvi bu şəhərin üçdə ikisi olan sünni məzhəb türklərin tən yarısını edam, üləmaların isə, demək olar, hamısını məscid minarələrindən başı aşağı atdıraraq məhv eləmişdi. Səfəvi bayrağı altında rəfizilik İranda belə zəfər çalmışdır.

Bu gün kimlərsə öz tayfa təəssübkeşliyini əsas tutaraq, Şirvana talançı yürüşlər etmiş Qaraqoyunluların əməlində qəhrəmanlıq nişanələri görə bilər. Hətta bir-iki roman-poema yazıb bu tərifi geniş ictimai təbliğata da çevirə bilər. Lkin bu mövqe heç bir zaman həmin dövrdə işğala uğramış şirvan xalqının və onun varislərinin mövqeyini əks etdirməyəcək. Bunun üçün şirvanlıların mövqeyini ifadə etmiş Bədr Şirvani (1387-1450) var. Bədr Şirvaninin də "Divan"ı 1975-ci ildə Moskvada işıq üzü görmüşdür. Əsərlərini türk, talış, deyləm, fars və sair dillərdə yazmış bu dahi şirvanlı Vətəninə işğalçı yürüşlər edən yadelli-köçəri tayfaların fəaliyyətlərini necə qiymətləndirmişdir: "Türkmanların zülmündən, onların vətənimdə törətdikləri viranəliklərdən ürəyim qan ağlayır. Gör ki, Şamaxıda evim yanır, Dərbənddə isə bacamdan odlu ahımın tüstüsü göyə qalxır..." (Bax, Divan. Səh: 335).

Bu gün ağ və qaraqoyunlu tayfaları haqqında, onların Şirvanşahlar üzərinə talançı yürüşləri barədə onlarca kitab yazılır. Yetişməkdə olan nəslə bu tayfalar əcdad kimi təqdim edilir. Elə isə bir türk-müsəlman cəmiyyətini, oturaq İslam mədəniyyətini, 677 illik dövləti qarətələ məşğul olmuş bu qüvvələr yetişməkdə olan yeni nəslin gerçək "əcdadlarıdırsa", onda bu uşaqların sabah vəzifə başında rüşvətxor, talançı , vicdansız olmayacağına kim zəmanət verə bilər. Odur ki, tarix bizi dilemma qarşısında qoymuşdur: ya qədim oturaq mədəniyyətimizin ilk daşıyıcıları olmuş Şirvanşahlara yeni pozitiv münasibətimizi müəyyənləşdirməliyik, ya da "ağıllı başlarımızın" dedikləri tək "Şirvanşahlar tariximizin utanc yeridir" kimi Şüubiyə İran Fars doktrinalarını qəbul etməliyik?!.

Tarixə qayıdaq: səfəviyyənin hakimiyyətinə qədər müsəlman Asiya xalqları arasında dərin dini ixtilaflar üçün tam zəmin yaradılmışdı. XIV əsrdən etibarən yeni nəsil Şirvanşahlar elitası bütün diqqətini monqolların müsəlmanlaşdırılmasına vermişdilər. Bu isə sıradan adi hal deyil, böyük geopolitik oyunun tərkib hissəsi idi. Lakin bunun əvəzində həmin dövrdə Şirvan dövlətinin varlığına son qoymağa çalışan irtica qüvvələrin bayraqdarı sayılan və hakimiyyət üstündə İranda və Kiçik Asiyada bir-birini öldürən ağ və qaraqoyunluların (ağ və qara tatarların) İslam dünyasına Səlib yürüşü açmış Xristian ölkələlər ilə sıx yaxınlaşdıqlarının şahidi oluruq. Bayandur tayfasından olan ağqoyunlu Uzun Həsən bölgədə geosiyasi vəziyyəti öz xeyrinə dəyişmək üçün Xilafət Türkiyəsi əleyhinə gedərək Venesiya Respublikası, Böyük Moskva Knyazlığı, Polşa, Avstriya, Macarıstan, Çexiya, Almaniya, Vatikan, Burqundiya, Neopolitan Krallığı, Rodos, Kipr və digər xristian dövlətlərindən ibarət hərbi koalisiya yaratmağa can atır, Qızıl Orda, Qaraman bəyliyi, Misir və Hindistan Müsəlman dövlətlərini də Osmanlılar əleyhinə qaldırmağa çalışırdı. O, Trapezund (Trabzon) qeysərinin qızı Despinə ilə evlənmişdi. Anası Sara xatunu Sultana vasitəçi salaraq, nəyin bahasına olursa olsun, Trapezundun müstəqilliyini qoruyub saxlamaq istəyirdi. Eyni zamanda, Uzun Həsən Despinə xatundan olan qızı Martanı (Aləmşah bəyimi) Səfəvi dərvişi Şeyx Cüneydin oğlu Şeyx Heydərə ərə vermişdi. Gələcək Səfəvi şahı İsmayıl da məhz bu qadının oğlu idi. Həmin dövrdə Ağ qoyunlular Şirvanşahlarla ikibaşlı siyasət yürüdürdülər. Şeyx Cüneydin və Şeyx Heydərin Şirvan ərazilərindən keçərək guya Tabasarana, çərkəzlər üzərinə yürüşlərinə icazənamələr verməklə, əslində, Səfəvilərin ŞAH taxtına çıxması üçün Şirvan Dövlətini qurbanlıq seçmişdilər...

Qaraqoyunlular da Ağqoyunlular kimi eyni geosiyasi planla hərəkət edirdilər. Məhz qaraqoyunlular, başda Qara Yusif olmaqla, Teymurilər sonrası İran dövlətinin ləğv edilərək Böyük Şirvan dövlətinə çevrilməsi yolunda ilk mane kimi ortaya çıxdılar, Şirvanşah Şeyx İbrahim Dərbəndinin 1406-cı ilin 22 Mayda, de-yure və de-fakto, gerçəkləşdirdiyi Böyük Şirvan dövlətini iflasa uğratdılar. Deməli, hər iki tatar tayfası Qərbin xaçpərəst

qüvvələrinin əlində mariyenet rolunu oynayırdılar. Momqol-tatar tayfalarının relikt hissəsi olan Qaraqoyunluların hökmdarı Cahan şahın (1436-1467) da eyni siyasi gedişləri əldə rəhbər tutaraq, erməni katolizminin mərkəzini Qafqaza köçürməsi dediyimizə əyani sübutdur. Məhz qaraqoyunlu Cahan şah erməni kilsə mərkəzini 1441-ci ildə Eçmədzinə köçürmüşdür. XXI əsrdə Azərbaycan əhalisini "erməni-müsəlman düşmənçiliyi" kimi absurt mülahizələrlə müharibə meydanına çəkmiş bəzi "liderlər" öz tarixi əcdadlarının "əməllərindən" nədənsə xəbərsiz görünürlər?!.

Erməni salnaməçisi Arakel Davrijetsi bununla bağlı olaraq yazırdı: " Hökmdar Cahan şah və şahbanu Bəyim xatun onu (yəni erməni patriarxı Zəkəriyyəni-N.A.) böyük hörmətlə qarşılayıb, şərəfinə ziyafət təşkil etdilər... O (yəni keşiş Zəkəriyyə), Tanrının və həvarilərin təsviri olan taxt-taca çıxdı, kainatın bütün guşələrində yaşayan xristian xalqının patriarxı oldu" (Bax, Adıgözəl Məmmədov. "Qaraqoyunlu Cahan şahın qara kabusu..." məq., "Bizim yol" qəzeti, 18 fevral 2020-ci il). Beləcə, qədim massaget-zəngi türk diyarı Ərməniyyənin haylaşdırılmasına start verildi...

Şirvan şahlarının İslami dəyərlər uğrunda şəhadət salnaməsi parlaq səhifələrlə zəngindir. Çingiz xanın dördüncü oğlu Tulunun nəslindən Xabulay (1260-1294) Çində "Yuan imperiyası" yaratmışdı. 1258-ci ildə isə İslam-Abbasi xilafətini yer üzündən silmiş xristian Hülakinin törəmələri gah xristianları müdafiə edərək, müsəlmanları qırır (Arqun xan və onun arvadı Tokkuz xatun kimi), gah da İslamı qəbul edərək, Bakıda "Axsitan məscidi"nin (Bibi-Heybət məscidinin-N.A..) ziyarətinə gəlirdi: Olcaytu xan kimi... Bu dövrdə Hülakü tərəfindən azadlıqsevərliyinə görə edam edilmiş Şirvanşah II Axsitan ibn III Fəribürzün (1243-1260) oğlu Şirvanşah II Fərruxzad (1260-1282) hakimiyyətdə olmuşdur. Şirvan şahları içərisində uzaqgörənliyi və şəxsi cəsarətilə xüsusi seçilən və Vətən uğrunda şəhid edilən II Axsitan ibn III Fəribürz 1256-cı ildə əl-Əmud qalası üzərinə xaşxaşı ordeninə savaşa gedən Monqol ordusuna hərbi kömək göstərmiş İraq, Xorasan, Azərbaycan, Arran, Gürcüstan feodalları kimi öz malikləri, sədr və əyanları ilə birgə Hülaki xanın

Qərargahında olmuşdur. Lakin buna baxmayaraq, Hülaki onun şücaətindən qorxaraq, sonradan bu gənc cəsur Şirvan hökmdarını da edam etdirmişdir. Monqol-tatarların mədəni-ellinist ölkələrə qarşı bədəvi-köçəri təcavüz siyasətinin kiçik bir ponaramına baxsaq, həmin dövrlərin "albançılığının" hansı zəmində göyərdiyini aydın görərik. 1235-ci ildə Böyük El Qurultayı tərəfindən Monqol ordusunun rəisi təyin edilən Batı xana bütün azad Avrasiya xalqlarını- qıpçaq, rus, bulqar, macar, başqırd, alan və b.-nı tam əsarətə almaq qərarı verilir. Məhz bu dönəmdə müsəlman Şirvanşahlar dövlətinin dini elitası xristian monqol elitasına qarşı səfərbər edilir, monqol-tatar xanlarının İslam dinini qəbul etmələri istiqamətində açıq-gizli mübarizəyə başlayırlar. Şirvan şəhəri Bakının İçqala divarlarını- İçərişəhəri heyvan tövləsinə çevirmiş nestorian Hülaki xanın siyasətini davam etdirmiş varisi Abaqa xanın (1265-1282-ci illər) hakimiyyəti dövründə "yazılıb" ortaya atılmış "qədim erməni dilli" (?!) "Albaniya tarixi"nin əldə qalan ilk əlyazması bugünəcən Şirvanşünaslığa qarşı "Albanşünaslığı" ortaya atanların ən tutarlı "arqumenti" sayılır. Amma kimsə məsihi monqol xanlarının sonradan necə müsəlmanlaşdırılmasını dilə gətirmək istəmir.

Tarixin bütün sonrakı gedişatı göstərdi ki, monqol-tatar istilası zəminində şirvan xalqı heç də öz tarixi simasını itirmədi: nə monqol-tatar, nə qara qoyunlu-ağ qoyunlu yürüşləri, nə də Səfəvi işğalı bu qutsal simanı dəyişə bildi. Tarix sübut etdi ki, Şirvan nə coğragi sahə, nə inzibati obyekt, nə də tarixi mübahisə mənbəyidir. ŞİRVAN heç bir təcavüzkar gücə və zorakılığa boyun əyməyən tarixi mənəviyyatdır. Bu, ilk növbədə onun qədimliyi, tarixi mədəniyyəti və dövlətçiliyilə bağlıdır.

XIX əsr Azərbaycan tarixşünaslığının ilk ən böyük nümayəndəsi Abbasqulu ağa Bakıxanovun "Gülüstan-i İrəm"(əslində "Şirvanın və Dağıstanın tarixi"-N.A.) əsəri ilə bağlı hələ 1925-ci ildə Parisdə olan Ceyhun bəy Hacıbəyli Asiya Cəmiyyətinin iclasında məlumat vermişdi ki, bu əsərin 320 səhifəlik rus dilində tərcüməsini əldə etmişdir: «Этот русский перевод имеет заглавие «История Ширвана и Дагестана» (Вах, "Гюлистан-и Ирам"Баку, 1991. Akad. Ziya Bünyadovun Ön Sözü, səh.: 6-7.) Həmin əsərdə A.Bakıxanovun özü də çox maraqlı

mülahizələr irəili sürərək yazırdı: “В 115 (734) г. Хишам назначил для управления Арменией, Азербайджаном и Ширваном своего брата...”(Bax, Göst. əsər, səh.: 56-57). Və ya: “После смерти Хулагу-хана в 663 (1265) г. наследовал его сын Абака-хан, который передал управление Азербайджаном, Арменией и Ширваном своему брату Йош-муту” (Bax, Göst. əsər, səh.: 74-75). Göründüyü kimi, A.Bakıxanov QƏDİM VƏ ORTA ƏSRLƏR dövründə Şirvan ilə Azərbaycanı fərqli adlarla təqdim etmişdir. Bu gün sevimli “Azərbaycan” adı Milli cümhuriyyətçiliyimizin tək ünvanı olsa da, şanlı keçmişimizi də gərək unutmayaq. Bu gün biz “Şirvanşahlar” adını tatixdən silməklə yalnız düşmən dəyirmanına su tökə bilərik... Tarixçi-ədib yazır: “Албания получила свое название от римлян слово Альбус, Алби (белый)... в смысле «свободный»”(Səh.: 17-18). «Белый» (ağ) sözünü Belorusiya adı ilə müqayisə edərək, Bakıxanov onun “azad” mənasını daşıdığını da irəli sürür. Monqol işğalından kənarda qalmış ölkə kimi Belarusiyanın azad Rusiya adını daşıdığı şübhə doğurmur. Şirvan şahlığının azadlıq ölkəsi kimi Albuslaşdırılması (Albaniyalaşdırılması) Qədim Roma üçün başa düşüləndir. Bu faktın özü də Şirvanın AZADLIQ DİYARI olmasının tarixi təsdiqidir. Amma bəzi çağdaş Azərbaycan tarixçilərinin ilkin Şirvanşahları tarixdən silmək cəhdləri açıq-aşkar xalqa xəyanətdən başqa bir şey deyil. A.Bakıxanov “aqvan” sözünün yanında bir qayda olaraq, mötərizə içərisində “Şirvan” sözünü də işlədir. (Bax, səh.: 42-43). Çünki alimə görə: “М.Чамчыян в «Армянской истории» Ширван называет Агваном”(Bax, Göst. əsər, səh.: 11-12). Deməli, albaniya, aqvan və s. adlarının nə üçün Şirvan sözünün əvəzində işlədilməsinin bir səbəbi bəlli oldu... “Ağ ölkə”, “Azad diyar” və ya “Ağvan” kimi qərb terminologiyasının Rusiyada nə qədər möhkəm oturuşmasına misal olaraq, Mərkəzləşmiş Moskva knyazlarının XV əsrdə Şirvanşahları diplomatik sənədlərdə və xitabatda “Ağ xan” adlandırmaları xüsusi diqqətə layiqdir (Bax. “Azərbaycan tarixi”. I cild, Azərnəşr, Bakı-1994, səh.: 386).

Şirvanşahlar tarixi planda sərhədi Araz çayında Dəmir Dərbəndə kimi ərazini əhatə etmişdir. Təsir dairəsi etibarilə

zaman-zaman Şirvan (-indiki Xəzər) dənizinin güney hissəsində yerləşən Mazandaran, indiki Rəşt, Xalxal, Ərdəbil, nəhayət, Şirazdan Kəngər (indiki Fars) körfəzinə qədər böyümüşdür. Odur ki, Böyük Şirvan ideyasının da məhz Ərdəbildə meydana çıxmasını təsadüfi hesab etmək olmaz. Bu müəzzəm ideyanın müəllifi dahi Azərbaycan şairi Arif Ərdəbilidir (1310-1372). Xosrov-Şirin, Fərhad-Şirin mövzusuna daha çox beynəlmiləlçilik prizmasından yanaşmış Nizami Gəncəvidən fərqli olaraq, A.Ərdəbili 1369-cu ildə qələmə aldığı "Fərhadnamə" poemasında Böyük Şirvan ideologiyasının əsasını qoyaraq, şirvançılığı irançılığa qarşı ideoloji konsepsiya halına gətirmişdi.

Xaçlı savaşları dönəmində Nizami Gəncəvinin beynəlmiləlçi ideyasına qarşı çıxan Arif Ərdəbili ilk öncə dahi gəncəlinin "dünyada nə qədər kitab var ələ keçirdim" iddiasını rədd edərək, öz "Fərhadnamə"si üçün fərqli bir mənbəni ortaya çıxarır. O, əvvəla, hekayəti iki yerə bölərək, "Hekayəti-Fərhadü Gülüstan" və "Hekayəti-Fərhadü Şirin" adlı iki dastan yazır. İkincisi, İran şahı Xosrov Pərvizə "Fərhadnamə"də epizodik yer ayırır...

Arif Ərdəbilinin Fərhadı şirvanlıdır. Dahi bir memardır. Fərhadın sevdiyi ilk gözəl də Şirvanşahların təsir dairəsində yerləşən Abxaziyada usta ailəsində doğulub böyümüş Gülüstan adlı bir gözəldir. Gülüstan bəyim obrazı ilə A.Ərdəbili şirvanşah III Mənuçöhrin Şirvanşahidzelər (-Şervaşidzelər) adlanan abxaz övladlarına işarət edir, amma ola da bilər ki, daha öncəki zamanlarda ilkin qeyr-müslüm Şirvanşahlar dövrü ilə bağlı Abxaziya-Şirvan münasibətlərini əsas tutaraq, Gülüstan bəyimin tam-tamına bir Şirvan gözəli olğuğunu sübuta çalışır.

Birini o Fərhad oğullarından
Gördüm o diyarda, olsun abadan.
Cavan daşyonandı, ustaydı qadir,
Hünərdə, şeirdə- hər şeydə mahir!

Ondan ta o məşhur Daşyonanacan
Bütün nəsilləri olmuş daşyonan.
İstər məst, istərsə sərxoş olanda,
**Bir kitab olardı həmişə onda**.
Fərhaddan çox sözlər deyilmiş orda,
Sevdi Gülüstanı o necə, harda?!.
**Şirin hekayəsi vardır sərasər,**
**Nizami deyəndən bir ayrı təhər.**
**Deyilmiş Fərhadın həyatı nə var,**
**Nəsli, oğlanları necə oldular.**
Hər biri işində böyük ad alıb,
Həm də hər birindən yadigar qalıb...

(Şeir parçaları "Fərhadnamə" poemasının Azərbaycan dilinə tərcümə kitablarında götürülmüşdür-N.A.)

Şamaxının məşhur Gülüstan qalasının Arif Ərdəbili tərəfindən Böyük Şirvan ideyasının ruporu kimi qabardılaraq, məhz şirvanlı memar Fərhadın şah əsəri kimi tərənnüm edilməsi dahi sənətkarımızın geosiyasi məqsədlərini aydın şəkildə üzə çıxarır. Maraqlıdır ki, əsərin "Gülüstan" bölməsini dahi şair Dərbənddən Ərdəbilə dönəndən sonra, ömrünün sonlarında yazıb başa vurmuşdur.

Arif Ərdəbilinin ikinci hissəsi 1370-ci ildə tamamlanmış hesab edilən "Fərhadnamə" poemasının hər iki hissəsinin yeganə əlyazması bu günədək Türkiyənin "Aysofiya" kitabxanasında saxlanılır: bu da çox maraqlı faktdır.

Onu da deyim ki, Şamaxı ilə bahəm poemalarında bir müddət yaşadığı Dərbənd şəhərini də tərənnüm etmiş Arif Ərdəbili həm son Kəsrani varisi Huşəngə, həm də gələcək sülalənin ilk nümayəndəsi Şeyx İbrahim Dərbəndiyə müəyyən müddət müəllimlik etmişdir.

Yenə üz tut, **Arif**, Dərbəndə sarı,
Qızğındır orada şeirin bazarı!
...Rum, rus arasında oturdum, durdum,
Orda **Gülüstan**a toy-büsat qurdum.

Köçdüm Şamaxıdan Dərbəndə sarı,
Xeyli vətən etdim mən o diyarı!..
(Arif Ərdəbili. "Fərhadnamə" poeması.)

Deməli, teymurilər (Ömər Mirzə) və qara tatarlar (Qara Yusif) ilə sonralar Böyük Şirvan davası aparacaq Şirvanşah Şeyx İbrahim Dərbəndinin əsas ideya mürşidi də məhz Arif Ərdəbili olmuşdur.

Arif Ərdəbilinin öz ideya mürşidi, heç şübhəsiz ki, X əsrdən bəri Şiraz torpağında uyuyan ilk bakılı mövlanə Baba Dağ Bakuvi olmuşdur. İranizmə qarşı Böyük Şirvan ideologiyasının təməli Baba Dağın yalnız Allahın vəsfinə yazılmış qutsal "DİVAN"ındadır.

Arif Ərdəbilinin Şirvan məhəbbətinin ictimai-tarixi səbəbləri də vardı. Öz doğma şəhəri olan Ərdəbildə yaxşı keçməyən həyatını təsvir edərkən o, maraqlı bir məsələyə toxunur:

-Adam pis danışmaz öz şəhərindən,
...Yeddi asimandan ucadır başı
(-Savalan dağı nəzərdə tutulur-Red.).
Xəzinə gizlətmiş torpağı, daşı.
-Nə xəzinə?
**-Böyük Şeyx!**
O təmiz İnsan!
**Din, millət Səfisi! O ali vicdan!**

Göründüyü kimi, Ərdəbil mahalının Savalan dağı döşündə yerləşən Kəlhoran kəndində dünyaya göz açmış məşhur mövlana Şeyx Səifiəddin (1252-1334) barədə belə yüksək fikirlər söyləyən, Səfəviyyə təriqətinin ulu əcdadını Ali Vicdan kimi şirvanlılara təqdim edən Arif Ərdəbili heç vaxt inana bilməzdi ki, həmin "din, millət Səfisi"nin xristian qadınlarından doğulacaq gələcək nəvə-nəticələri Şirvanşahlar dövlətini yer üzündən siləcəklər... Nənəsi Despina xatun (Trapezund yunan hökmdarı Havanesin qızı), anası Marta olmuş Şah İsmayıl və onun oğlu I Təhmasib, dahi şair Arif Ərdəbilinin tərənnüm etdiyi Fərhadın yadigarı

sayılan “Gülüstan” qalasının şəninə məğlubiyyət, ünvanına isə Xaraba namını yazacaqdır?!



Bu xaraba Şirvanşahların qədim oturaq mədəniyyətinin son nümunəsidir. O, Qafqaz tarixində ŞİRVANLI polaraq, ad çıxarmış son ümumbəşəri memarın Fərhad-Şirin və Fərhad –Gülüstan eşqi qədər əbədiyyətə qovuşmuş bir gerçəklikdir!

Mən hər dəfə şirvanlıların bu Qürur xərabatına tamaşa etdikdə ilk olaraq, ölməz Nəsiminin:

**Gülüstan Turi-qüds** oldu, baharın nuri-narından,
Gəl, ey **Musa**, gör asarın çəməndə nur ilə narın.-

beytini, daha sonra da Böyük Şirvan ideyasını şirvan xalqına yetirmiş dahi şairimiz Arif Ərdəbilinin bu xalqa aşağıdakı minnətdarlığını xatırlayıram:

Bu qəm şəhərindən (-Ərdəbil nəzərdə tutulur.-Red.)
mәni qopardı,
Şirvanşah Şirvana çəkib apardı.
...Şirvanlı edəndən şah bu bəndəni,
Himmət, səxavətlə güldürdü məni.
Kamil, tərbiyəli göründüm ona,
Müəllim eylədi məni oğluna.
Şahın övladına təlim verdim mən,
Şah ona bağlıydı candan, ürəkdən.
Mənə dost yanında o verdi şöhrət,
Mənə hamıdan çox eylədi hörmət!

Bu gün şirvanlı Nəsiminin dünyanın 12 yerində qərib məzarı vardır. Belə qəbirlərdən birini Suriyanın Hələb şəhərində

üzə çıxarmış Rəsul Rza xatirələrində yazırdı ki, Nəsiminin Hələb "məzarının" ətrafında divarlara müxtəlif şeir parçaları yazılmışdı Bunlardan biri hicri 1217-ci ildə Məhəmməd Sübhi adlə adam tərəfindən yazılmışdı:

-Üzüldük, dönmədik mərdanəlikdən,
Xudaya böylədir hübbi-səmimi.
Kəsafətdən çıxıb olduq bəhəqqə,
**Gülüstani**-ilahinin **Nəsimi.**

Şeirdən aydın görünür ki, Şirvanın xristian-məsihi bir qızını sevmiş nakam Nəsiminin də eşq ilahiliyi Şirin sevdalı Fərhadın yadigarı sayılan "Gülüstan qalası" ilə rəmzləndirilmişdir.

Əfsuslar ki, Şirvanşah Kavusun oğlu Huşəng öz ərdəbilli dahi mürşidinin Şirvanilik deyil, II Minilliyin əvvəllərində Qərbi İranda yaranıb tənəzzülə uğramış əl-Buyilər nəslindən olan və  Şirvana vəzir kimi ayaq basmış ana tərəfdən ulu babaları- Deyləmi Məhəmməd əl-Kakuya və  Ishaq əl-Kakuyinin İranilik ideyalarının ardınca getdi. Və bu onun sonu oldu!!.

Dahi geopolitik, **filosof-şair Arif Ərdəbilinin Böyük Şirvan ideyası**nın  tarixi həllində ilk fədakarlıq onun dərbəndli tələbəsi Şeyx İbrahimin və  törəmələrinin üzərinə düşdü. Bakı paytaxtlı bu günkü Azərbaycan Respublikası o taylı-bu taylı Vahid-Bölünməz Vətən idealının daşıyıcısı olaraq, məhz Arif Ərdəbilinin "Böyük Şirvan" idealının çağdaş tarixi təcəssümüdür!..

Arif Ərdəbili günümüzün geosiyasi aparıcı ideya istiqamətinə çevrilmiş Avrasiyaçılığın da banisi sayılmalıdır. Avrasiya xalqlarına böyük məhəbbət bəsləyən Arif Ərdəbili öz geosiyasi məramını və ədəbi qayəsini Dərbəndi vəsf edərkən "Fərhadnamə"də belə ifadə etmişdi:

-Şeyri bəyənərlər uca kimsələr,
Şair təqlidçiyə hardan xoş gələr?!
**Rum, Rus** arasında oturdum, durdum,

Orda **Gülüstan**a toy-büsat qurdum!..

Bu misralar aydın şəkildə göstərir ki, Arif Ərdəbili xalqları üz-üzə düşmənçilik cəbhələrinə deyil, dostluğa, qohumluğa, toy-düyünə dəvət etmişdir. Bu ideyanın əbədi rəmzi isə bu gün Şamaxıda xarabasını gördüyümüz "Gülüsta qalası"dır.

**Gülüstan ideyası**, göründüyü kimi, **Arif Ərdəbili**nin dünyagörüşündə yalnız Böyük Şirvanlılığın yüksək mədəni-mənəvi mahiyyətini deyil, eyni zamanda Böyük Avrasiya Birliyinin əbədiyyətini simvolizə etmişdir.

İlk növbədə, Araz çayının qüzeyindən Dəmir Dərbəndə kimi qutsal vətən torpaqlarımızın qədim keçmişi Şirvanşahlığın mənəvi nüfuz sahəsidir. XII əsrdə Şirvan şahları - Əfridun, III Məniçöhr və I Axsitanın Xəzər dənizində və onun quru ətrafında yadelli işğalçılara qarşı müharibələrdə qazandıqları tarixi Zəfərləri bu torpaqlarda yaşayanların unutnaq haqqı yoxdur. Bu zəfərləri İbrahim Əli oğlu Xaqani Şirvani, Məhəmməd Fələki Şirvani, İzzətdin Şirvani, Mücirəddin Beyləqani, Əxsikəti və onlarca dahi sənətkarlarımız vəsf və tərənnüm etmişlər. Dahi şairimiz Nizami Gəncəvi (yeri gəlmişkən, möhtərəm Prezidentimiz İlham Əliyev bu ili Nizani Gəncəvi İli elan etmişdir!) məşhur "İsgəndərnamə" (Zəfərnamə) poemasının "İsgəndərin Dərbənd qalasını alması" (İsgəndər surətinin gerçək tarixi prototipi Şirvanşah I Axsitan olmuşdur) fəslində düzgün olaraq, Şirvan xalqının tarixi vətənini nə müasir saxtakar erməni və ermənipərəst tarixçilərin, nə də qədim yunan və roma tarixçilərinin qondarma mifoloji "Albaniya" termini ilə deyil, tarixdə olduğu kimi, yəni "Şirvan" adlandırmışdır:

**-Bu çətin yollarda heç yorulmadan**
**Ovçu aslan kimi keçdi Şirvandan.**
**Açaraq öz istək qol-qanadını,**
**Oradan Dərbəndə sürdü atını...**
**(N.Gəncəvi. Göst. əsər. Lider nəşriyyatı,**
**Bakı-2004, səh.: 231)**

Yekun olaraq, demək istəyirəm ki, gətirdiyim bütün bu və ya digər faktlar qəti sübut edir: albanşünaslıq adlanan bir elm sahəsi

yoxdur: yalnız qədim Şirvanşahlar rarixi vardır, Şirvanşünaslıq vardır!

**İstifadə edilmiş ədəbiyyat:**


1. Sara Aşurbəyli. "Şirvanşahlar dövləti". Avrasiyapress, Bakı-2006.
2. Xaqani Şirvani. Seçilmiş əsərləri, Lider nəşriyyatı, Bakı-2004.
3. Nizami Gəncəvi. "İsgəndərnamə". Lider nəşriyyatı, Bakı-2004.
4. M. Şəhriyar."Yalan dünya", AE nəşri, Bakı-1993.
5. Səməd Vurğun. "Bakının dastanı". Seç. əsərləri. II cild. Poemalar. Azərnəşr. Bakı-1976.
6. Abbasqulu ağa Bakıxanov. "Гюлистан-и Ирам" (История Ширвана и Дагестана), Баку-1991.
7. Минорский В.Ф. «История Ширвана и Дербенда X-XI веков». Изд.-во восточной литературы. Москва-1963.
8. Фарида Мамедова. "Кавказская Албания и албаны". Баку-2005.
9. "Azərbaycan tarixi". Dərslik. BDU. Çıraq nəşriyyatı. Bakı-2009.
10. "Azərbaycan tarixi". Elm, Bakı-2007-ci il.
11. "Azərbaycan tarixi". I cild, Azərnəşr, Bakı-1994.
12. Moisey Kalankatuklu. "Albaniya tarixi". Akad. Ziya Bünyadovun tərcüməsində. Avrasiya Press" nəşriyyatı. Bakı- 2006-cı il.
13. M.S.Mitin. "Белая Русь. Хроника употробления термина". Институт белорусской истории и культуры. Рига-2017.
14. Mehmed Emin Resulzade. İran türkleri. Türk Dünyası Araştırmalar Vakfı. İstanbul -1993.
15. Doktor Cavad Heyət. "Azərbaycan ədəbiyyatına bir baxış". Yazıçı. Bakı-1993.
16. Gülçöhrə Məmmədova. Səbinə Hacıyeva. "Qədim və erkən orta əsrlər dövründə Azərbaycan memarlığı". Şərq-Qərb nəşriyyat evi. Bakı-2013.
17. Adıgözəl Məmmədov. "Qaraqoyunlu Cahan şahın qara kabusu..." məq., "Bizim yol" qəzeti, 18 fevral 2020-ci il.
18. Hinz A. Valther. İranische Reis... Berlin-1938; Uzun Hasan ve Şeyx Cüneyd. İstanbul-1992


**AtaTv.az Xəbər Portalı.**
**İctimai Xəbər Agentliyi.**

https://araz.az › index.php › zhuend-m › 5965-sirvan-a... ▾

Şirvan Azərbaycanının ilk sufi şairi və filosofu Baba Dağ (Kuhi ...

8 apr 2019 — **Namiq Atabəyli**-Şirvani ... **Baba** Kuhi **Bakuvi**-Şirvani haqqında dünya ədəbiyyatşünaslığında sanballı tədqiqat əsərləri az deyil.

**Namiq Atabəyli-Şirvani**
**(Yazıçı-publisist)**

**Şeyx İmadəddin Nəsiminin 650 İlliyi qarşısında**

# Şirvan Azərbaycanının ilk sufi şairi və filosofu Baba Dağ (Kuhi) Bakuvi-Şirvani



***Şirvan Azərbaycanının ilk sufi şairi və filosofu Baba Dağ (Kuhi) Bakuvi-Şirvanidir (933-1050).***

***Azərbaycan Prezidenti İlham Əliyev Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalamışdır.***

***Sərəncamda deyilir: "Nəsimi dünya poeziyasının ən kamil nümunələri sırasında diqqətəlayiq yer tutan əsərlərində daim insanın əzəmətini, insani məhəbbəti və şəxsiyyətin azadlığını tərənnüm etmişdir."***

**Bu həqiqətən də belədir.** Əks-təqdirdə, 2017-ci ilin may ayında Parisdə YUNESKO-nun baş qərargahında Nəsiminin vəfatının 600 illiyi qeyd edilməzdi. Şeyx İmadəddin Nəsimi kimi dahini isə Orta əsr ümumdünya mədəni mərkəzlərindən sayılan qədim Şaqmaxı və Bakı mühiti yetirmişdir. Azərbaycan ədəbiyyatı tarixində adı




olmayan **X əsr** klassiki- dahi filosof, şair və ilahiyyatçı**: Baba Kuhi Bakuvi-Şirvani**nin tarixi şəxsiyyətinə layiqincə qiymət verilmədikcə, Şeyx İmadəddin Nəsimiyə ümumxalq məhəbbətindən danışmaq qeyri-ciddi görünür. Bir klassik Divanı, üç fəlsəfi traktatı, 30 min mənzum hekayəti və 3 min hədisi ilə Baba Dağ dünya mədəniyyətinin ən nəhəng sufi simasıdır.

Azərbaycan Prezidentyinin Sərəncamı elm və sənət adamlarının qarşısına mühüm vəzifələr qoymuşdur. Bu sahədə Azərbaycan Milli Kitabxanası Nəsimi yaradıcılığı ilə bağlı böyük sərgi təşkil etmişdir. Bu sərgidə mənim də ilk qəzəllər Divanım – "O xəyalımdakı Şirvan" ("Elm və təhsil" nəşriyyatı, Bakı-2015) nümayiş etdirilir. Bu Divanımda Nəsiminin "Dünya duracaq yer deyil, ey can, səfər eylə" misralı əsərinə nəzirə olaraq yazdığım bir qəzəlim vardır. Əslində, mən buna çox təəssüfləndim. Çünki Nəsiminin 650 Iliik Yubleyinə mən daha sanballı bir kitabla gəlməyi planlaşdırmışdım. Bu, mənim "Şirvanşahlar" trilogiyam idi.

Həmin planda "Şirvanşah Böyük Axsitan" romanımı 2018-ci ilin əvvəlində yazıb başa vurub, nəşr etdirdim. **Bu ilin yanvarında isə "Şirvanşah Şeyx İbrahim Dərbəndi" romanımın Birinci cildini tamamlayıb, işıq üzünə çıxardım Bu cild 590 səhifəlik həcmdə olub, dahi Şirvanşahın "Uşaqlıq və gənclik illəri"ni əhatə edir.** Lakin onun "Hökmdarlıq illəri"ni əhatə edəcək İkinci cildin üzərində yaradıcılıq işim çox ləng gedir. Bunun məndən asılı olmayan bir sıra səbəbləri vardır: ilk növbədə xalqımızın X əsr dahi filosof-şairi, dünya sufizm fikrinin İkinci ən böyük dühası bakılı Baba Dağın (Baba Kuhi

Bakuvinin) dünyaca məşhur Divanının hətta əlyazmasının belə öz ölkəsinə indiyəcən gətirilməməsidir.

Baba Kuhi Bakuvi-Şirvani haqqında dünya ədəbiyyatşünaslığında sanballı tədqiqat əsərləri az deyil. Onun əsərləri də əksər inkişaf etmiş ölkələrin dilinə tərcümə edilərək yayılmışdır. Aşağıdakı nümunə ingilisdilli tərcümələrdən biridir:

**In the market, in the cloister –only God I saw.**
**In the valley and on the mountain – only God I saw.**

**Him I have seen beside me oft in tribulation;**
**In favor and in fortune – only God I saw.**

**In prayer and fasting, in praise and contemplation,**
**In the religion of the Prophet – only God I saw.**

**Neither soul nor body, accident nor substance,**
**Qualities nor causes – only God I saw.**

**I opened mine eyes and by the light of his face around me**
**In all the eye discovered – only God I saw.**

**Like a candle I was melting in his fire:**
**Amidst the flames outflashing – only God I saw.**

**Myself with mine own eyes I saw most clearly,**
**But when I looked with God's eyes – only God I saw.**

**I passed away into nothingness, I vanished,**
**And lo, I was the All-living – only God I saw.**

Mən bir şirvanlı kimi Baba Dağ Bakuvinin Divanını fars dili mütəxəssisi olan dostlarımın sətri tərcüməsi əsasında hər vaxt bədii tərcümədə xalqıma təmaənnasız təqdim etməyə hazıram. Amma təəssüflər olsun ki, aidiyyəti qurumlar bu dahi bakılımızın əsərinin heç surətini belə indiyəcən əldə etməmişlər…

Baba Kuhi Divanından edilmiş yuxarıdakı tərcümə Reynold A Nicholson-nun " The Mystics of Islam" kitabından götürülmüşdür. Baba Dağın Sufi baxışları bütün İran və Turanın təsəffüv mütəfəkkürləri üçün Mənsur Həllacdan sonra

ikinci ən böyük xəzinə sayılmışdır. Mən “Şirvanşahlar” trilogiyamın ikinci romanınna yazdığım Son sözdə Baba Dağ Bakuvinin tarixi şəxsiyyəti barədə kifayət qədər müfəssəl məlumat vermişəm. Onları yenidən təkrarlamaq istəmirəm…

Lakin bir məsələyə aydınlıq gətirmək istəyirəm: Bakuvinin vətəni sayılan Bakı şəhərində yerləşən AMEA-nın Ədəbiyyat Muzeyi, Ədəbiyyat İnstitutu, Şərqşünaslıq İnstitutu və Əlyazmalar İnstitutu, görəsən, Şeyx İmadəddin Nəsiminin 650 İllik yubleyinə nə ilə hazırlaşır?.. Nəsiminin sonu “r” hərfi ilə başlayan natamam “İraq divanı”nın təkrar nəşri iləmi, yoxsa Hürufilik və Sufizm barədə elmi ədəbiyyatda indiyəcən çeynənilmiş dolaşıq “fikirləri” cəmiyyətə yenidən sırımaqla?!

Nəsiminin öz yaradıcılığı və müasirlərinin, o cümlədən onun Xələfi, Rəfii Şirvaninin “Bəşarətnamə” və “Cəngnamə” əsərləri deməyə əsas verir ki, o, heç vaxt ailə qurmamışdır. Nəsimini edam etdirən onun müəllimi Nəminin qatilidir: Əmir Teymur!

Azərbaycan ədəbiyyatşünaslarından fərqli olaraq, bütün elm əhlinə yaxşı məlumdur ki, Nəsiminin həyatının son dövrü barədə ən doğru və dəqiq məlumatı onun öz şirvanlı eloğlusu və müasiri Rəfii Şirvani “Bəşarətnamə” və “Gəncnamə” əsərlərində vermişdir. Bu hürufi şair-eloğlumuz haqqında Türkiyədə geniş tədqiqat işləri aparılmış, təmiz Şirvan türkcəsində olan yaradıcılığı çağdaş Türkiyə dilinə çevrilmişdir. Azərbaycan ədəbiyyatşünasları nədənsə Rəfiiyə də eynilə Baba Kuhiyə edilmiş biganəliklə yanaşmaqda hələ də israrlıdırlar…

Son romanımda Nəsiminin bədii surətini yaratmaq, Şirvanşah İbrahim Dərbəndinin parlaq tarixi şəxsiyyətinin xalqımıza düzgün çatdırılmaq mənim də Şeyx Nəsimi Yubileyinə özəl töhfəm ola bilər. Lakin bunun üşün Azərbaycan Nəsimişünaslığını yatdığı qəflət yuxusundan ayıltmaq lazımdır.

**Araz Media Qrupu**

http://atatv.az › 7932-nsimi-simriyik-bu-mkansz-cahann

Nəsimi: “Simürğiyik bu məkansız cahanın…” - Atatv.az

19 apr 2019 — **Namiq Atabəyli**. (Yazıçı-publisist) Nəsimi: “**Simürğiyik** bu məkansız cahanın…”
Şirvan Azərbaycanının iki dahi müqəddəs övladının- Şeyx Baba ...

ATA TV.az **Ata TV**

**19 aprel 2019. 13:58**

**Namiq Atabəyli.**
**(Avrasiyayönümlü yazıçı-publisist)**

# Nəsimi: “Simürğiyik bu məkansız cahanın…”




Şirvan Azərbaycanının iki dahi müqəddəs övladının- Şeyx Baba Dağ Bakuvi (933-1050) ilə Şeyx İmadəddin Nəsiminin (1369-1404) adını yanaşı çəkmədən Allahşünaslıq və İnsanşünaslıq elmi sufizmin məğz və mahiyyətini anlamaq imkansızdır. Böyük Nəsimininin dediyi kimi:

Hər nə ayda, ildə var, adəmdə var,
Hər nə üzdə, əldə var, adəmdə var.
Hər nə yerdə, göydə var, adəmdə var,
Həqq sözün fəhm etməyən adəm də var?!

“Cəmiyyəti dəyişmək çətin deyil, ən çətin şey özünü dəyişməkdir”- bu sözlər çağımızın son dahisi Mandela Nelsona məxsusdur. Əlbəttə, bu gün Nəimi və Nəsimi sufiliyini Şiəlik doktrinasına bağlamaq istəyənlər nə qədər çox olsalar da, bir

məsələni heç kəs unutmamalıdır: Misir Türk-Məmlük dövləti istisna olmaqla, bütün İslam Şərqini istila etmiş türkləşmiş Monqol-bartas mənşəli Əmir Teymurun siyasi hakimiyyətə can atan şiə Ərdəbil şeyxlərinə xüsusi qayğıkeşlik göstərməsi, onların Osmanlı ərazisi daxil- Teymur istilasına uğramış hər yerdə azad şəkildə ideoloji-məzhəb təbliğatını aparmasına icazə verdiyi tarixi faktdır. Nəiminin Xorasan vilayətinin (-bura Məvarənnəhrdən İrana gəlmiş Oğuz türklərinin Dədə Qorqud rəhbərliyində ilk İslam dövlətini qurduqları məkandır) müsəlman-türk əhaləsini soyqırımına məruz qoyan Əmir Teymur, farsca deyilişinə görə "cahanın yarısı" (İsfi-cahan) adlanan İsfahanı tamamilə dağıdıb, 200.000 insanı qətlə yetirmiş və insan kəllələrindən 28 sünii dağ yaratmışdı. Belə olduqda, Şeyx Nəsimini də şiəlik böyasına bürüyüb, onu "Əli", arvadını isə "Fatimə" adlandırmaq nə tarixi həqiqətlərə, nə də məntiqə sığır. Babək Xürrəminin azadlıq davasının və İstiqlal idealının ruhunda döğulub böyümüş Nəimi və Nəsimi işğalçı Teymurilər əleyhinə mübarizə aparmış və şəhid olmuşlar. Bu mənada, 650 İlliyini qeyd edəcəyimiz Şeyx İmadəddin Nəsimi də bu günkü nəsil üçün ilk növbədə XIV əsrdə növbəti işğala uğramış Şirvanşahlar Diyarının istiqlalı uğrunda mübarizəsi aparmış bir Azadlıq simvolumuzdur.

Dünyanı insanlığa çağıran iki ölməz şirvanlının- Baba Dağın və Şeyx Nəsiminin İnsanlıq tarixində əvəzedilməz yeri vardır. Bəlkə, elə ona görə də dünya coğrafiyasında onların hər ikisinə "sahib" çıxanların sayı durmadan artır. Yalnız bizdən savayı?!. Baba Dağı İranın Şiraz, Nişapur və Xorasanından, Nəsimini isə Bağdad, Diyarbəkr, Təbriz, Şiraz və Hələbdən hesab edənlər az deyil. O isə hər iki düha Şirvan Azərbaycanının iki qutsal şəhərinə- Bakı və Şamaxıya məxsusudurlar. Bu, danılmazdır. Odur ki, Azərbaycan Prezidenti İlham Əliyevin cari ilimizi Şeyx İmadəddin Nəsimi İli elan etməsi, əlbəttə, ümumbəşər tarixində mədəni kimliyimizin nə demək olduğunu cahana təkrar nümayiş etdirməyimiz üçün əsl sevinc mənbəyi oldu. Cari ilin yanvarında nəşr etdiyim "Şirvanşahlar" trilogiyamın İkinci kitabı- "Şirvanşah Şeyx İbrahim Dərbəndi" tarixi romanımın növbəti cildində NƏSİMİ əsas qəhrəmanlardan biridir. Əsər tamamlanmamış onun əsasında çoxseriyalı bədii film çəkilməsi üçün təklif almışam.

Əlbəttə, adını qeyd etməsəm də, hörmətli rejissorumuza təşəkkürümü bildirirəm və filmdən imtina etdiyimi anlayışla qarşılayacağına ümid edirəm. Məncə, milli tariximizə qeyri-standart və kreativ baxışların məhsulu olan bitməmiş "Şirvanşahlar" trilogiyamın oxucu auditoriyasına daha çox ehtiyac vardır. Əlbəttə, bunun üçün onun geniş tirajlanması lazımdır. Əsərlərim indiyə kimi yalnız pulsuz paylandığı üçün əlimdə heç bir nüsxəsi qalmamışdır. Özüm də onun yalnız elektron nəşrindən istifadə edə bilirəm.

Tarixini unudan xalq köksüz ağacdır. Baba Dağ və Nəsimi min illərin Şirvanşahlar mədəniyyətinin dünya miqyasında iki ən parlaq günəşidirlər. Əgər bu belə olmasa idi, 19 il bundan sonra süqutunun 500 İlliyinə qədəm basacaq Şir tinətlilər diyarının ölməz Seyid Əzimləri "Şirvani" ismini bu günlərimizəcən yaşatmazdılar. Və biz də bu tarixi ənənəni davam etdirməzdik. Əlbəttə, nə qədər çoxsaylı ədəbi estafetə malik olsaq da, qədim Qafqaz ölkəmiz olan Şirvanşahların yalnız bu iki dahisi: Baba Dağ və Nəsimi- şirvan xalqımızın necə cahanşümul bir tarixi mədəniyyətə malik olduğunu dünyaya sübut etmək üçün kifayətdir. Qaf dağının son Prometeyləri də elə onlardır. Şeyx İmadəddin Nəsimi bütün həyatı və yaradıcılığı boyu daim Qafqaz çoğrafiyasından olduğunu və özünün bu mənsubiyyətilə daim fəxr etdiyini açıq şəkildə irəli bəyan etmişdir:

-Çün Nəsiminin məqamı Qafimiş Ənqaləyin,
Şol müəmma qədrə gər ali gövhər dersəm, nola (r)?!

Tarixi həqiqətlər Şeyx Nəsiminin öz xalqı və ölkəsi tərəfindən daim müdafiə olunduğunu sübut edir. Dərbəndilər türk sülaləsinin hakimiyyətə gətirilməsində Şirvanşah İbrahimin bir saylı yardımçısı olmuş və Kəsrani-deyləmi əsarətinə qarşı xalq mübarizəsində şəhid olmuş şairin qardaşı Şah Xəndanın ismini Şirvanda bilməyən yoxdur. Heç də təəccüblü deyil ki, qədim Şamaxının ən müqəddəs sayılan anıt məzarlığı da Şahxəndan adlandırılmışdır. Şeyx Nəsiminin öz qardaşı Şahxəndanın (Şəhidi-Xəndanın) Vətənin Azadlığı yolunda şəhidliyinə yazdığı,- ola bilsin ki, bu, onun ilk əsəridir,- "Ayrılır" rədifli qəzəlində belə bir beyt var:

**Rəngi-çöhrəm zərd olubdur, qamətim həmçü hilal,**
**Ol günəş üzlü həbibim, lalə Xəndan ayrılır.**

Şirvan xalqı tərəfindən 1382-ci ildə Şirvanşahların Dərbəndilər sülüləsinin hakimiyyətə gətirilməsi faktı ölməz Seyid Əzim Şirvaniyə də:

**-Mən öləndə Şah Xəndana basdırın,**
**Çünki onun şəhidi-Xəndanı var!-** yazdırmışdı. Təsadüfi deyil ki, Saqamın "Azadlığa aparan yol" kitabının əsas qəhrəmanlarından biri Şahxəndandır. Bu obraz Nəsimi kimliyinin şirvan xalqı üçün mühüm təsdiqləyici amilidir. Çünki hal-hazırda Şeyx İmadəddin Nəsiminin şirvanlılığını inkar etmək, onun əhli-sünnət müsəlman olduğuna qarşı güclü ideoloji mübarizə gedir. Bir şirvanlı olaraq biz də öx tarixi faktlarımızı ortaya qoymağa məcburuq. Sufizm Şirvan islamiyyətinin əsas üzüdür.

Məlum olduğu kimi Nəsimi öz mürşidinin- hürufi Nəiminin edamından sonra Bakı şəhərini tərk etmişdir. Lakin bununla belə ona Qafdan bir Ənqanın "Hümayun kölgəsi"nin düşdüyünü inkar etməmişdir. Bu "hümayun kölgə"nin isə şairin öz doğma vətəni- **Şirvanşahlar dövləti**nin olduğuna heç bir şübhə ola bilməz. Nəsimini Bakıda qorumaq imkanları tükənmiş Şirvanşah Şeyx İbrahim Dərbəndi onun Teymurilər tərəfindən işğal olmuş öz Vətənindən kənarda daim müdafiəsini təşkil etmişdir. Elə buna görə də Şeyx Nəsimi yazmışdı:

**-Ey Nəsimi, qafil olma şol hümayun kölgədən,**
**Kim, qılır hər dəm təcəlli Qafidən Ənqa bizə.**

Şübhəsiz ki, Şeyx İmadəddin Nəsimi "hümayun kölgə", "Qafidə Ənqa" dedikdə Şirvan şahı Şeyx İbrahim Dərbəndini nəzərdə tuturdu. Bu münasibətlər mənim "Şirvanşahlar haqqında saqa" roman-epopeyamın "Azadlığa aparan yol" kitabında geniş təsvir edilmişdir. Bu kitab eyni zamanda "Nəsimi İli" üçün hazırladığımız ən gözəl hədiyyəmiz hesab edilə bilər. Əvvəla, bu əsərdə dahi şairimizin həyatı barədə əldə edilmiş ən son məlumatlara əsasən onun əsl sufi siması, həqiqi həyatı və gerçək ölümü Sovet ideologiyasının "qəliblərindən" təmizlənərək qələmə alınmışdir. Şair birmənalı olaraq, işğalçı xaqan Əmir Teymur tərəfindən edam edilmişdir. Bu məşum qanlı hadisə 1404-cü ildə Teymurun sağlığında və onun işğalı altında olmuş ərazidə baş

vermişdir. Fakt şairin müasiri, eloğlusu və son xəlifəsi Rəfiinin canlı şahidliyi ilə baş vermiş hadisənin təsvirinə əsaslanan və 1409-cu ildə qələmə alıdığı əsərlərindən qaynaqlanmışdır. Rəfiinin özü 1409-cu ildə vəfat etmişdir. Deməli, o, Nəsiminin uydurma "1417-ci il" edamında iştirak edə bilməzdi?!. Şeyx İmadəddin Nəsiminin edamını öz gözlərilə görmüş Rəfii Bəşarətnamə" əsərində eloğlu sufi mürşidinin Teymur istibdadında çəkdiyi əziyyətləri belə təsvir etmişdir:

Ol Nesimi rehmeti **fezli Hüda**,
Ol İmadeddin Sirri Mürteza.
Ol şehidi aşki fezli zülcelal,
Bendü zindanlarda yatan mahü sal.
Ol beladan ahü efqan etmeyen,
Söyleyen esrarı, pünhan etmeyen...

"Fəzli-Xüda" tərkibi əbcəd hesabı ilə "1409-cu il" anlamını verir ki, bu da "Bəşarətnamə"nin yazılma tarixidir. Müəllif də həmin il dünyasını dəyişmişdir. Bəziləri Nəsiminin saxta ölüm tarixilə Rəfiinin ölümünü uyğunlaşdırmaq üçün heç bir mənbə göstərmədən bunu "1418-ci il" kimi təqdim etmişlər?!.

Nəsimi ilə əlaqədar "məzar tapıntısı" oyunu keç. SSRİ hökumətinin kəşfiyat rəhbərlərinin Suriyada "mədəni əməkdaşlıq" pərdəsi altında "agentur şəbəkə yerləşdirmə" tədbirlərindən biri idi... Nəsimi məhləsini yüzlərcə şair işlətmişdir: Nəsimüddini-Təbrizi, Nəsimii Şirazi, Əmir Seyid İmadüddin Nəsimi, Seyid Ömər İmadüddin Nəsimi...

Şairin ölüm tarixi müxtəlif mənbələrdə müxtəlif verilmişdir: Əmir Kemalüddin Hüseyn Məcalüsi "Uşşaq" əsərində 1404, Rəfii "Bəşarətnamə" əsərində 1404 və ya 1408, İbnü Hacər əl-Əskəlani 1417, Riza qulu xan Hidayət 1433-cü ili göstərmişlər. Ön Asiyada Nəsimin adına 12 yerdə məzar var. Bütün bunların arasında nəşi 12 yerə parçalanmış və dağıdılmış şairin əsl məzarını müəyyənləşdirmək üçün ilk növbədə ən müasir texnoloji vasitələrlə tədqiqat aparılmalı və nümunələr müqayisəli şəkildə ciddi yoxlamadan keçirilməlidir.

Yalnız bir fakt danılmazdır ki, Nəsimi Teymurun işğal zonasında öldürülmüşdür. Deməli, Nəsiminin edamına imza atmamış sünni məzhəbli dörd hüquq imamının adından saxlanılmış Sənəd də

yalnız onu sübut edir ki, onun ölümünə çox yüksək məqamdam sərəncam verilmişdir. 1404-cü ildə belə bir məqam işğal edilmiş Suriya üçün Əmir Teymur olmuşdur. Həmin illərdə Məvarənnəhr xaqanı Səmərqənddə baş zövcəsi monqol Bibi Xanım (Saray Mülk) üçün bir mədrəsə və bir məscid tikdirmiş, sonda bu abidələrin bütün şirvanlı inşaatçılarını və şamaxılı memar Əli bəy



Quşçunu məhv etmişdir. Deməli, sifarişçi Bibi Xanım (Saray Mülk) ilə onu ilk nikahdan əsir götürmüş sonuncu əri Teymur arasında daxili ziddiyət olmuşdur. Güman etmək olar ki, Teymura ilk yeznəsinin Hərəmindən əsir götürdüyü bu azyaşlı monqol qızcığazın yalnız Çingizxan nəslindən olması, daha doğrusu, Özbək xanın qızı olması lazım olmuşdur: o, özünü bu üzdən daim “kürəkən Teymur” titulu ilə tanıtmışdır. Nəsiminin Saray Mülk xanıma olan münasibəti onun orta əsr zülmətində savadlı bir qadına, ilk planda, feminist baxışlarından irəli gəlmişdir. Aydın görünür ki, Əmir Teymur ilə ər-arvad arası ziddiyətin əsasını yüksək savadlı gənc Bibi Xanım ilə dahi Nəsimi arasındakı naməlum eşq macərası təşkil etmişdir. Nəsiminin həmin dövr qəzəl yaradıcılığında “moğol-çin” bir qadına dərin məhəbbət hissləri özünü açıq şəkildə büruzə verir:



Müənbər sünbülün, şaha, güli-siraba pürçindir,
Məazallah, xəta qıldım, nə pürçin, nafeyi-Çindir!..

Xətadır Çinə həml etmək müənbər zülfünü, billah
Ki, hər bir qılı saçının həzaran Çinü Maçindir!

Sən ol **sultani-xubansan** bu gün aləmdə, ey dilbər
Ki, qul tək cümlə sultanlar sana şahinü laçındır.

Göyərçin tək şikar etdi məni ol nərgisi-fəttan,
Yavuz gözdən irağ olsun ki, xoş türkanə laçındır.

Gözümdən gərçi dilkəşdir saçının şivəsi, amma
**Nəsmi**ni bu sevdayə buraxan şol **Moğolçın**dir!..

Şeyx İmadəddin Nəsiminin həyatının Şirvan bağlarını bilmək üçün Şirvanşah İbrahimin öz xalqının vətənpərvər şairini qorumaq üçün Qafın Ənqası, Simürği kimi hərəkət edərək, onun ardınca Bağdada və Hələbə vətənin Nəsimidən sonra Birinci şairi Rəfii Şirvanini göndərməsi xüsusi qeyd edilməlidir...

Onu da deyim ki, Rəfii Şirvani öz dahi eloğlusunun edamını gözləri ilə görmüş yeganə tarixi şəxsiyyətdir. Bu edam onun 1500 beytdən ibarət "Bəşarətnamə" əsərində geniş təsvir edilmişdir. Kitabın yazılma tarixi "rahi-xuda" tərkibinin əbcəd hesabı ilə hicri 811-ci il 01 ramazan (miladi: 1409-cu il 18 yanvar) gününə düşür ki, bu da Nəsiminin rəsmi 1417-ci il ölüm tarixini inkar edir. Bəşarətnamə" nin aşağıdakı beytindən məlum olur ki, şairin həyatı daim zindanlarda keçmişdir:

Ol şəhidi-eşqi-Fəzli-zülcəlal,
Bəndi-zindanlarda yatan mahü sal.

Rəfiinin "Bəşarətnamə" və "Gəncnamə" əsərləri Azərbaycanda indiyədək nəşr edilməsə də, Türkiyədə dəfələrlə işıq üzü görmüşdür.

Şeyx Nəsiminin 1417-ci ildə qətlə yetirilməsi versiyası doğru deyildir. Bu yanlış "ölüm tarixçəsində" bir siyasət vardır: 70-ci illərdə Misir Respublikası ilə beynəlxalq münasibətləri pozulmuş keç. SSRİ dövləti orta əsrlər Suriyasının Misir Türk Məmlük dövləti (Dövləti ət-Türkiyə) ərazisinə daxil olduğunu nəzərə alaraq, Osmanlını və Misirin yarısını, o cümlədən Dəməşqi işğal etmiş Əmir Teymurun son cinayətini Misir xalqının ayağına yazmağı daha məqsədəuyğun bilmişdir.

XIV əsrə aid bəzi tarixi mənbələr Nəsiminin edamının 1404-cü ildə gerçəkləşdirildiyini sübut edir. Teymur da İranı məhz həmin ildə tərk etmiş və cəmi iki aydan sonra 1405-ci ilin fevralında dünyasını dəyişmişdir.

Şairin müasiri Əmir Kəmaləddin Hüseynin "Məcalisü-Uşşak" əsəri də Şeyx İmadəddin Nəsiminin 1404-cü ildəki edam tarixini

doğruldur. Əlbəttə, elm versiyalara deyil, tarixi fakta söykənməlidir. Nəsiminin ölüm tarixi indiyədək mübhəmlərə qarışaraq, məqsədli şəkildə dolaşdırılaraq, hətta 1433-cü ilə qədər gətirilib çıxarılmışdır. Son tarix Rzaqulu xan Hidayətə məxsusdur…

Nəhayət, Şirvan tarixinin və mədəniyyətinin saxtalaşdırılması tendensiyasına xitam verilməlidir.

Nəsimi digər sufilər kimi öz vətəni Şirvanı məhz Əmir Teymurun tələbilə tərk etmişdir. Bu məcburi mühacirət illərində Nəsimi özünün Teymur istilası altında olan Qafqaz ölkəsini daim yanıqlı dillə yad etmişdir:

-Görmüşəm Simürğü mən dər-kuhi-Qaf,
Həqq dürür, Simürğ, sənsən kuhi-Qaf.
Görməyən Simürği əndər-kuhi-Qaf,
Yetmədi Simürğə əndər kuhi-Qaf.

Nəsimi yaradıcılığının tekstual təhlili aydın göstərir ki, şirvanlı şair "Qaf" deyəndə öz ana vətəni Şirvanşahlar diyarını, "Ənqa" deyəndə isə istilaya uğramış şirvan xalqını yadelli Teymuri-moqol Ordasından hələlik yalnız diplomatik üsullarla qorumağa çalışan Şeyx İbrahim Dərbəndini nəzərdə tutmuşdur. Vəziyyətin ağır olduğunu görərək o, Bakını tərk etməli olarkən, Vətəndən bu məcburi hicrəti kədərlə anaraq farsca yazmışdı:

-Ey Nəsimi, çon Xoda qoft: "İnnə ərzun vasi un,
Xotte-ye Baku be ca boqzar kin ca-ye to nist".
(Ey Nəsimi, Xuda demişdir: "Yer üzü genişdir,
Bakı torpağını tərk elə ki, artıq o, sənini yerin deyil."

Bu tarixi beyt Şeyx Nəsiminin ana yurdu- Şirvanın Teymur işğalı altında necə zülm çəkdiyini əyani ifadə edir. Bəlkə də, elə buna görədir ki, Naxçıvan ərazisindəki Əlincə qalasında edam edilmiş Nəimi Teymur işğalındakı Şirvanı son dəfə belə xatırlamışdı:

Mən bu çağın Hüseyniyəm:
Düşmənlərim yezid və şümir,
Aşura alın yazım,
Və Şirvan Kərbalamdır.

Anti-Teymur hərəkatda Əlincə qalasının müdafiəçiləri sırasında mühüm yer tutmuş Şəki hakimi Seydi Əli Orlatın edamından

sonra onun oğlunu gənc Seydi Əhməd Orlatı məhz Şirvanşah I İbrahim Teymura əhv etdirərək Şəkiyə atasının yerinə hakim təyin etdirmişdi.

Nəiminin edamı qabağı Naxçıvan ərazisini Teymurilərin onun üçün "Kərbalaya" çevrilmiş "Şirvan" adlandırması təsadüfi deyil. Arazdan Dərbəndədək sözdə Şirvanşahın tabeliyinə verilmiş ərazidə eyni zamanda Teymurun Miranşah adlandırılan oğlu paralel hökmdarlıq edirdi. Əlbəttə, vətənin azadlıq mübarizəsini yalnız Şeyx İmadəddin Nəsimi aparmırdı. Bu savaşın başında gizlin şəkildə də olsa, bir-başa Şeyx İbrahimin özü dururdu. Məhz elə buna görə də bu dahi Şirvan hökmdarı, Avrasiyanın böyük siyasət adamı, Şirvanşah Şeyx İbrahim Dərbəndinin (1382-1417) həyat və fəaliyyətini təhlil edərkən Rus sovet alimi professor İlya Pavloviş Petruşevski 1942-ci ildə nəşr etdiyi "Böyük vətənpərvər Şirvanşah İbrahim" kitabında yazırdı**: "Этот Ширваншах… сделал для охраны независимости и свободы своего государства- Ширвана- больше, чем кто-либо из его предшественников. Талантливый правитель и в особенности талантливый дипломат, храбрый полководец, он сделал свое государство цветующим.» (Baku-1942, İzd.-vo Az.FAN. Səh.-6.).**

Onu da qeyd edim ki, Teymurun ölümündən sonra dərhal hərəkətə keçərək İran Azərbaycanını onun oğlu Miranşaha və nəvəsi Əbu Səidə qarşı ayağa qaldıran da məhz Şirvan şahı Şeyx İbrahim Dərbəndi olmuşdur. Və tarixi vətənimizin hər iki hissəsini çox qısa sürədə olsa da, 0, 1406-cı ilin 23 mayında "Böyük Şirvanşahlar Dövləti"ndə birləşdirmişdi. İslam fütuhundan 500 il sonra müxtəlif monqol-tatar (hülaki, cəlairi, ağ və qaraqoyunlu) tayfaları qılıbına girmiş gizli İran dövlətçiliyi beləcə ləğv edilmişdi... Şirvan- öz tarixində ilk dəfə tam Avrasiya fenomenial mahiyyətinə və şəkilinə qovuşmuşdu.

Əlbəttə, Nəsimi kimi qüdrətli cahanşümul bir sənətkara bədəvi tayfalara xas əshabəçilik hissiyyatı və "yerlibazlıq" yad olmuşdur. Lakin işğala uğramış bir xalqın oğlu olaraq, Şeyx İmadəddin də digər Şərq İslam ölkələrində monqol-bartas Teymura qarşı aparılan azadlıq mübarizəsindən kənarda qala bilməzdi. Heç şübhəsiz ki, daha çox təbrizli və ya astarabadlı kimi tanıdılsa da,

əslən xorasanlı (-İsfahanlı) olan Nəiminin işğalçı Teymurilərə qarşı mübarizəsinin əsas səbəbi də təkcə İsfahanda 200.000 türk insanının qətli-amını gerçəkləşdirib, kəllələrindən 28 süni dağ yaratmış monqol-bartas Əmir Teymurun istibdadından İranı xilas etmək olmuşdur. Nəsimini də onunla məhz bu vahid düşmənə qarşı ümumi mübarizə birləşdirmişdi. İstər Nəimi, istərsə də Nəsimi onlardan çox-çox qabaqkı əsrlərdə hazırlanmış Mistik ideyalardan Teymurilərin yeni bədəvi-monqol işğalçılıq yürüşlərinə qarşı xalqları ümumi Azadlıq naminə birləşdirmək üçün istifadə etmişdilər. Bu ideya Şirvan sufizmi idi.

Nəimini ilə Nəsimini məhz dahi bakılı Baba Dağ (Kuhi) Bakuvinin X əsrdə hazırladığı mistik-sufizm ideyaları bir araya gətirmişdi. Bakı şəhəri məhz Baba Dağa görə sufi-hürufi hərəkatının uzun illər əsas mərkəzi halına gətirilmişdi. Təkcə bunu xatırlatmaq istərdim ki, Baba Kuhi Bakuvi kimi tanınmış ilk mövlana, sufi şair və filosofumuzun Divanı, üç fəlsəfi traktatı, 30 min mənzum hekayəti və üç min hədisi bütün dünyada məşhurdur. Nəsiminin 650 İlliyi münasibətilə qələmə aldığım ilk virtual yazımda bu barədə müfəssəl bəhs etdiyimdən deyilənlərin üzərinə təkrar qayıtmıram. X əsr bakılı şair-filosofumuzun ilk sufi Divanından ingilis dilinə edilmiş bir tərcümənin təqdimi ilə kifayətlənirəm:

In the market, in the cloister – only God I saw.
In the valley and on the mountain – only God I saw.

Him I have seen beside me oft in tribulation;
In favor and in fortune – only God I saw.

In prayer and fasting, in praise and contemplation,
In the religion of the Prophet – only God I saw.

Neither soul nor body, accident nor substance,
Qualities nor causes – only God I saw.

I opened mine eyes and by the light of his face around me
In all the eye discovered – only God I saw.

Like a candle I was melting in his fire:
Amidst the flames outflashing – only God I saw.

Myself with mine own eyes I saw most clearly,
But when I looked with God's eyes – only God I saw.

I passed away into nothingness, I vanished,
And lo, I was the All-living – only God I saw.
(İngiliscəyə tərcümə: Reynold A. Nicholson-undur.)

Teymurun 1405-ci ildə qəfil ölümündən sonra baş vermiş hadisələr hürufilərə (o cümlədən Nəimiyə) bakılı Baba Dağdan gəlmiş Sufi ideologiyasının Azadlıq prinsiplərini doğrultdu. Çox tezliklə İran, Osmanlı və Şirvanşahlar teymurilərin işğal rejimindən azad olundular. Bu zəfər "Nəsiminin məqamı Qaf imiş Ənqaləyin" deyən bir şirvanlı şairin İnsanlığı mələklərin səcdə qılacağı Allah yüksəkliyinə qaldırmaq istəyinin yekunu idi: Nəsimi Fəzli-Həqdən çün alıbdır kami-dil, indi Mələklər səcdə etsin qoy ki, Qibləmdə BƏŞƏR vardır. 1404-cü ildə edam edilmiş Nəsiminin cənazəsinin Əmir Teymurun nəzarətində olan 7 böyük vilayətə göndərilməsi onu göstərir ki, sağlığında dəfələrlə həsxanalarda yatırılmış ölməz sənətkarın dövrün hökmdarları arasında böyük NÜFUZu olmuşdur. Elə ona görə də illərlə müxtəlif zindanlarda yatmış bir Avtoritet olaraq, Nəsimi yazmışdı:

O mənəm ki, gün səmada papağım və günlüyümdür,
Qapıma gələr gəda tək bütün aləm hökmranı!

Göründüyü kimi, Nəsimi bir Avtoritet kimi Aləm Hökmranına-Teymura açıq bəyanatlar verməkdən heç vaxt çəkinməmişdir. Monqol mənşəyinə və yasalarına uyğun şəkildə əsir etdiyi xalqları və ölkələri QORXU prinsipi ilə idarə edən Əmir Teymur, heç şübhəsiz, "aləmin hökmranına" qarşı belə açıq BƏYANATlarla barışa bilməzdi. Maraqlı faktdır ki, Teymur İranı yalnız 1404-cü ildə, yəni Şeyx İmadəddin Nəsiminin edamından sonra tərk edib Məvarənnəhrə dönmüşdür. Və 1405-ci ilin fevralında guya Çinə yürüş edərkən xəstələnib ölmüşdür. Teymurun yürüş proqramına baxarsaq, onun heç bir xiristian ölkəsinə və ya bütpərəst xalqa

basqı yapdığını görmürük. Əksinə, o, Qərb xristian ölkələrinin hər birindən müsəlman-türk dövlətləri üzərində qələbəsinə görə təbriklər və hədiyələr almışdır.

Teymurun Çin üzərinə baş tutmamış yürüşü isə sonradan onu İslam aləmində təmizə çıxarmaq üçün uydurulmuş yalandan başqa bir şey deyil.

Şeyx Nəsiminin Teymura qarşı "müharibəsi" monqol-bartas mənşəli Əmir Teymurun Məvarənnəhrdən İrana, Şirvana, Osmanlıya və Misirə qədər uzanmış işqalçılıq siyasətinə qarşı olmuşdur. Şair bu bədəvi vəhşini ilk öncə "Sirlər dəryası" kimi əsərlərinin dili ilə insanlığa çağırmışdı:

"Ayağını bu torpağa hörmətlə bas:

Tamahkarlıq, hərislik yox, mərd insanda hümmət gərək,
Ömür səmum küləyidir, sərvət, dövlət toza bənzər.

Ağlın varsa, gəl gömülmə qızıl üçün torpaqlara,
Mal hərisi məşhər günü siçan kimi çox sürünər.

Məsləksizə hikmət dərsi, nadanlara öyüd neylər,
Ulağın da qabağına gövhər töksən mat-mat süzər".

Əlbəttə, Şeyx Nəsiminin xalqımıza xas azad şirvanlılıq ruhu Məvarənnəhrin vəşhisinə tamamilə yad idi. Şeyx Nəsimini başa düşmək üçün Baba Kuhi və ya Baba Dağ Bakuvi-Şirvani kimi tanınmış Şirvan mövlamızın (-dünyaca məşhur mövlana, sufi-filosof və şairimiz **Əbu Abdullah Məhəmməd ibn Abdullah ibn Übeydullah ibn Bakuyə-Şirvaninin) (933-1050)** mənəvi məktəbini keçmək lazım idi. Teymur belə bir məktəbi köçəri mühitində görə bilməzdi.

Sosial şəbəkələrdə ötən həftə geniş yayılmış "Şirvan Azərbaycanının ilk sufi şairi və filosofu Baba Dağ (Kuhi) Bakuvi-Şirvani" məqaləmin doğurduğu rezonans məni Nəsiminin 650 illiyi münasibətilə ikinci Yubiley məqaləmi yazmağa məcbur etdi.

Apardığı azadlıq mübarizəsinin coğrafiyasını öz doğma Şirvanından daha geniş sahəyə - İran, İraq, Osmanlı və Misirə



qədər böyütmüş "laməkan Nəsimi"ni yetişdirən mürşidin, Baba Dağ (Kuhi) Bakuvi Şirvaninin xatirəsinin necə yad edildiyini bilmək üçün virtual aləmə kiçicik nəzər yetirdim. Çox təəssüflər olsun ki, Baba Kuhini dünyaya gətirmiş öz vətəni Bakıdakı xatirəsi bu gördüyünüz xarabalıqdan ibarətdir. Halbuki,





bakılı mövlanamızın Şirazdakı məqbərəsi dünya memarlığının ən gözəl incilərindən biri hesab edilir. Hər il bura minlərcə zəvvar ziyarətə gəlir.

Əlbəttə, Saytların İntrnet imkanlarını nəzərə alaraq, Nəsiminin 650 İlliyi ilə əlaqədar oxucularıma çatdırılmış Birinci virtual məqaləmdəki faktlara hələlik geniş əlavələr etmək istəmirəm. Elə bilirəm ki, Şeyx Nəsiminin 650 İlliyi kimlərisə, nəhayət, real işlər görməyə sövq edə biləcəkdir. Amma hər halda həzrəti-Baba Kuhiyə onun nəşi yatan Şiraz torpağındakı ümumxalq ehtiramını əks etdirən aşağıdakı səhnələrə, məncə, diqqət yetirməyə dəyər. Müqəddəs sufi mövlanamızın uyuduğu dağdakı Məqbərəsi və İran xalqının böyük Nəsiminin müəlliminə gösrərdiyi ehtiram belədir. Mən hesab edirəm ki, Baba Dağ Bakuvinin mədəni irsinin, ilk növbədə dünyaca məşhur "DİVAN"ının öz vətəni Bakıya gətirilməsi və bu bədii, elmi-fəlsəfi əsərlərin nəşr edilib onun öz

xalqına çatdırılması elə də çətin bir şey deyil. Bu, əlbəttə, Şeyx Nəsimimizin 650 İlliyini qeyd etdiyimiz Nəsimi İlində hər iki mövlanamıza göstərilmiş ümumxalq ehtiramımızın ifadəsi olardı. Amma AMEA-nın şiə teokratiyasına uymuş aidiyyəti institute rəhbərləri, o cümlədən Ədəbiyyat Muzeyinin direktoru şirvanlı deputat Ragael Hüseynov, habelə Ədəbiyyat və Əlyazmalar institutlarının naxçıvanlı rəhbərləri Baba Dağ Bakuvi irsinin qorunması, tədqiqi və vətənə gətirilməsi istiqamətində ciddi addımlar atmalıdırlar… Amma görünən odur ki, onlar öz vəzifə borclarını yerinə yetirmək əvəzinə ayrıca maliyə vəsaiti əldə etmək üçün Prezident Sərəncamını gözləyirlər?!. Unudurlar ki, pul hər şeyi həll etmir.

Və həmçinin Prezidentin Nəsimi İli ilə əlaqədar verdiyi Sərəncam onun mürşidinə- Baba Dağ Bakuviyə də şamildir.

Baba Dağ Bakuvini tərənnüm edən şeirlər silsiləsi tükənməzdir: Nizami Gəncəvi, Hafiz Şirazi, Sədi Şirazi, Nəsimi, Fəxrəddin İraqi, M.Füzuli, Seyid Əzim Şirvani… Baba Dağ şəxsiyyəti onun Şirvanda qeybə çəkildiyi “dağ” qədər ucadır, ülvidir, qutsaldır… Onu görməzliyə vurmaq, əlbəttə, filoloji camiədə yalnız nankorluqdur. Çünki Baba Dağ Bakuvi Azərbaycan ədəbiyyatının ilk klassik simasıdır. Şirvan Azərbaycanının qədim oturaq mədəniyyətinə düşmən kəsilənlər üçün bunun heç bir məna ifadə etmədiyi isə göz qabağındadır…

Vətənimizin Babəkdən sonra ilk böyük İstiqlal mücahidi Şeyx İmadəddin Nəsiminin dediyi kimi:

Haqq sözün gör kim necə dürdanədir,
Həqq sözü bilməyənlər da nədir?
Cahilü nadan nə bilsin “da” nədir.
Daneyi-dana bilir kim danədir!..

**AtaTv.az**

Xalq qəzeti
gündəlik ictimai-siyasi qəzet
6 avqust 1996-cı il. № 151 (22293)
Səh.: 4.



**Xeyrəddin Qoca. Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru**

# Azadlığın qədri bilinərsə...

**(ixtisarla)**

**Müasir dünyada "Azadlıq konsepsiyası"na müxtəlif yönlü münasibətlər mövcuddur. Namiq Fərəc Sığırlının "Azadlığın qədri" (Bakı-1996. İşıq nəşriyatı) kitabında Prezident Heydər Əliyev Azərbaycanın dövlət başçısı, respublika və millətin memarı kimi təqdim və təsvir edilir. O yazır: "Prezident Heydər Əliyev dövlət idealı uğrunda apardığı mübarizənin real və bir o qədər də əsatiri xarakterilə Azərbaycan milli şəxsiyyətini yani tarixi vüsətə qaldırdı. Və millətə yalnlz yeni düşüncə deyil, həm də yeni quruluş və arxitektura verdi."**




...Kitabın 28-29-cu səhifələrində oxuyuruq: "Ölkəmizdə demokratik hüquq və azadlıqların elan edildiyi, siyasi proseslərin üfüqlərinin genişləndiyi indiki tarixi mərhələdə- yeni ictimai həyat quruculuğu şəraitində xalq kütlələrinə nəzarət etmək qabiliyyətinə malik çevik idarəçilik alətinə kəskin ehtiyac duyulmaqdadır. Hələlik bu ehtiyacı Prezident idarə sistemi müəyyən qədər yerinə yetirir. Şübhəsiz ki, təkmilləşməmiş ali icraiyyə institutunun kəm-kəsirləri böyük öndərimiz Heydər Əliyevin şəxsi rəhbərlik istedadının sayəsində işimizin ümumi xəttinə hələlik seziləcək ziyanlar vura bilmir." Bu məqaləni Namiq F.Sığırlı Prezident Aparatına işə dəvət ediləndən cəmi bir

həftə əvvəl, yəni 1994-cü ilin 5 aprelində çalışdığı "Azərbaycan" qəzetinində "Azərbaycanda müxalifətçilik sindromları" silsiləsindən Birinci məqaləsində yazıb dərc etdirmişdi. Elə bilirəm ki, indiyəcən hələ heç bir dövlət rəhbəri onun idarə etdiyi sistemi tənqid edən şəxsi öz Aparatına işə almamışdır. Bu hadisə yalnız ...həqiqi demokrat olan Prezident Heydər Əliyevin idarəçiliyi dövründə baş vermişdir...

**Müəllif Heydər Əliyevi ilk ABŞ prezidenti Corc Vaşinqtonla müqayisə edərək yazır: "Azərbaycanlılarda bütün tarix boyu milli dövlətçilik heysiyyəti güclü olmuş, lakin bunun qəti surətdə gerçəkləşməsi yalnız Heydər Əliyevin şəxsiyyətilə ortaya çıxmışdır. Bu, tarixi faktdır."**

**...Müstəqil parlament barədə müəllifin irəli sürdüyü mülahizələr bir millət vəkili kimi mənim də ürəyimcədir.**

...Müəllifin fikrincə, cəmiyyətimizin hazırkı tarixi mərhələsində partiyalar deyil, yalnız Milli Dövlət yeni Azərbaycan həyatının əsas təşkiledici orqanı ola bilər. Kitabda oxuyuruq: "Heydər Əliyevin dərin zəkası sayəsində qısa bir müddətdə Azərbaycan dövləti cəmiyyətimizin siyasi təşkilinin əsas nüvəsinə çevrildi."

**..."Azadlığın qədri" kitabının işıq üzü görməsi mədəni həyatımızda böyük hadisədir.**

## Xalq qəzeti

www.turkinfo.org

"Türk Dünyası İnfo" İB




**31/01/2019**

**Dilsuz Musa (şair-publisist, tərcüməçi)**



# Azadlıq kitabı, yaxud azad şeir haqqında düşüncələr

https://www.ebooks.az › ...

Azad şeir və onun poetikası (Atabəyli Namiq ) - Prezident ...

Müəllif, **Atabəyli Namiq**. Nəşriyyat, Step ltd. kino şirkəti. Nəşr yeri, Bakı. Nəşr ili, 2017. ISBN. Səhifə, 348. Kateqoriya, Ədəbiyyatşünaslıq.






Azərbaycan filoloji fikrində özünəməxsus səhifələr açan yazıçı-publisist, tənqidçi, şair Namiq Atabəylinin çapdan çıxmış yeni kitabı "Azad şeir və onun poetikası" adlanır. Bu əsərin ilk səhifələri hələ 35-40 il bundan əvvəl Universitet tələbələrinin yataqxanasında qələmə alınmışdır. İlk adı "Sərbəst şeirin poetikası" olan bu tədqiqat işinə görə müəllif hələ ötən əsrin 80-ci illərində Respublika

tələbələrinin VIII elmi konfransında Qızıl Medala layiq görülmüş, bir çox elmi müsabiqələrdə I-III dərəcəli Diplomlar almışdır. Öz tədqiqat mövzusu (Diplom işi) üzərində inadla çalışan Atabəyli, nəhayət, elmi-nəzəri qənaətlərini, daha dəqiq desək, azad şeir poetikası haqqında ilk sanballı kitabını oxucuların mühakiməsinə vermişdir. Bu əsərin dost kitabı olmasından əlavə, mənim üçün daha bir məziyyəti var ki, o da tədqiqatçının özünün dediyi kimi, həmin elmi tədqiqat işinin qeyri-kafedrial şəraitdə başa vurulmasıdır. Müasir elmi tərəqqinin kanonik təşkili prinsiplərinə qarşı müəllifin irəli sürdüyü bəzi fikirləri ilə, bəlkə, nədəsə razılaşmamaq da olar. Lakin 35 ildən sonra müstəqil şəkildə ortaya qoyulmuş bu elmi-nəzəri əsərin itməyən çağdaşlıq təravəti, evristik xarakteri, dünya filoloji səviyyəsində irəli sürdüyü poetika prinsipləri və metodologiyası öz opponentlərindən qeydsiz-şərtsiz müəyyən hazırlıq tələb edir. Elmi ictimaiyyətin gənc nəsli Namiqin azad şeir poetikası sahəsində birinciliyini qəbul etməklə bərabər, onun 35 il öncə irəli sürdüyü nəzəri qənaətlərinin bu gün də aktuallığını itirmədiyini qeyd edirlər.

Namiq Atabəyli yazır: “Biliyin (informasiyanın) padşah kitabxanalarında, feodal qəsrlərində, cadugərlər-tilsimkarlar arasında, kilsə və məbədlərdə saxlanılıb, kütlələrdən ciddi- cəhdlə qorunduğu dövrlər artıq arxada qalmışdır. Lakin əvəzində müstəqil düşünən insanı bir fərd olaraq, sosiopolitik və bioloji izolyasiyalar ilə əhatə edib, zaman-zaman lüzumsuz və mənasız (boz) imformasiyalar içərisində total şəkildə əridib yox etmək vasitələri xeyli artmışdır. Mən inanıram ki, biz XXI əsrin yeni tipli insanı adına layiq olduğumuzu sübuta yetirə biləcəyik.“

N.Atabəylinin, tədqiqat mərkəzi olaraq Azərbaycan Milli Kitabxanasının Açıq kitabxana bölməsindən istifadə etdiyi, yüzlərcə xarici ədəbiyyat korifeyləri ilə birgə, ən son dövr Azərbaycan poeziyasının ünlü simalarını burada “canlı” seyr edib izlədiyi (tədqiq etdiyi) bəlli olur. Aşağıdakı qısa siyahıya diqqət yetirmək kifayətdir: Uolt Uitmen, Emil Verxarn, Qarsia Lorka, Pablo Neruda, Nazim Hikmət, Mariya Svetayeva, Fazil Hüsni Dağlarca, V.Mayakovski, Rəsul Rza, A.Voznesenski, İ.Brodski, Neman, Ə.Salahzadə, Fikrət Qoca, Fikrət Sadıq, R.Rövşən, V.B.Odər, Adil Mirseyid, Tofiq Abdin, Dəyanət

Osmanlı, Qulu Ağsəs, Səlim Babullaoğlu, Paşa Əlioğlu, Zakir Fəxri, Fəxri Müslüm, Əmir Pəhləvan, Ədalət Əsgərzadə, Qəşəm Nəcəfzadə, Əlisəmid Kür, Elxan Zal, Etimad Başkeçid, Aytən Nəsibbəyli, Nərmin Kamal, Sevinc Çılğın, Narıngül, Günay Səma Şirvan, Leyla Əliyeva, Afaq Şıxlı, Ziba Xəlil, İmarət Cəlilqızı, Nuray Nur, Feyziyyə, Arzu Abdulla, Şəlalə Cavanşir, Aynur Atabəyli, Gülnarə İnanc, Alov, Əlixan Qaya, Rövşən Yerfi, Aqşin Yenisey, Rəfail Tağızadə, Balayar Sadiq, Ramin Abbaszadə, Xosrov Barışan, Əli Şirin, Qorxmaz, Yafəs Türksəs, Divanə Ozan, Şaiq Vəli, Ramin Cahangirzadə, Zahir Əzəmət, Elnur Astanbəyli, Xaqani Has, Oqtay Hacımusalı, Ferzad Leysi, Qasid Nağıoğlu, İslam Kəbirli, Fəxrəddin Əsəd, Yeşim Ağaoğlu, Sərdar Amin, Fərid Hüseyn, İlqar Atabəyli, İlqar Kamil, Azər Elşadoğlu, Elvin Paşa, Rəşad Nağı Mustafa, Taleh Eminoğlu, Məmməd Həbib, Əziz Səlami, Emin Piri… Məncə, belə bir virtual şəraiti yaraqtdığına görə AMK-nın rəhbərliyinə dərin təşəkkür etmək lazımdır. Kitabın redktorlarından biri də, təsadüfi deyil ki, məhz AMKin ixtisaslı işçilərindən sayılan hörmətli Frəngiz xanım Əliağa Vahid qızıdır.

Əlbəttə, bu gün azad şeirin dünya miqyasında geniş təcrübənin nəzəri ümumiləşdirilməsi üçün müxtəlif milli azad şeir poetikalarının fundamental işlənib hazırlanması zərurəti yaranmışdır. Bu sahədə N.Atabəylinin “Azad şeir və onu poetikası” elmi-nəzəri əsəri milli ədəbiyyatşünaslığımızda ilk sanballı töhfədir. Müəllif ədəbi faktlara həm tarixi, həm də müasirlik gözü ilə baxaraq, nəzəriyyə ilə təcrübənin bir-birini tamamlamasını uğurla təmin etmişdir. “Azad şeir və onu poetikası” yalnız filologi planda yazılmamışdır. Onu bir çox mənada daha çox sosioloji, geopolitik və fəlsəfi-nəzəri əsər kimi də qiymətləndirmək olardı. Kitabın aidiyyəti digər sahələr üzrə də müəyyən rezonans doğuracağını güman edirəm. Aşağıdakı müəllif fikirlərini nöqtəvergülünə toxunmadan sizə təqdim edirəm:

*–Azadlıq (tarix, xalq və Tanrı qarşısında) mənəvi məsuliyyətdən ayrılmazdır. Fiziki və mənəvi varlığının bütün dövrləri ərzində daim öz Azadlığı yolunda savaşlar içində olmuş Türk xalqının*

*Azad şeir sənətini onun tarixi taleyindən bir an belə ayrı düşünmək, əlahiddə təsəvvürə gətirmək tarixə xəyanətdir.*

*-Qarşıdakı əsr Avrasiya geopolitik məkanında liberalizmin yad Qərb kanonları ilə bizim azad superetnik Ümumavrasiya dəyərlərimizin arasında daha bir həlledici qarşıdurmanı ortaya çıxaracaq.*

*-Əminliklə deyərdim ki, çağdaş Türkiyə verlibrinin əsasını ölməz qazi, Türkiyə Respublikasının yaradıcısı dahi M.K.Atatürkün türkləşdirmə siyasi xəttindən ibarət hesab etmək daha məntiqidir. Bu mənada, Atatürkü Yeni Avrasiyaçılığın baş ideoloqu kimi də görmək olar. Çağdaş modern türk şeiri indiki yüksək səviyyəsinə görə qazi Mustafa paşa Kamal Atatürkə daha çox borcludur...*

*-Burada Nazim Hikmət faktorundan da danışmaq lazım gəlir. XX əsrin Uolt Uitmeni sayılan Nazim Hikmət ilə əsrin dahi Respublikaçı siyasi xadimi Prezident Mustafa Kamal Atatürk arasındakı ziddiyyət yalnız siyasi-ideoloji xarakterli olmuşdur. Nazimlə Atatürk mübahisəsində estetik konflikt yoxdur. Bunun bariz sübutu Türkiyədə sonrakı ədəbi inkişafın əsas istiqamətinin N.Hikmətin Azad şeir yolu olmasıdır. Yeni Türkiyə şeir sənəti bu cümhuriyyətin İstiqlal himnini yazmış Mehmet Akif Ərsoyun klassik şeir yolunu deyil, əksəriyyətlə Nazimin yolunu getdi... Bu, N.Hikmətdən daha artıq Atatürkün qələbəsi idi.*

*-XX əsr Azərbaycan verlibrinin korifeyi Rəsul Rza "Kanonları pozaraq..."məqaləsində yazırdı: "Azərbaycan poeziyasında sərbəst şeirin tarixi qədimdir. Bu şeirin ayrı-ayrı nümunələrinə "Kitabi-Dədə Qorqud"da rast gəlirik. Ölçülü, qafiyəli şeirin, yaxud bu xüsusiyyətlərdən məhrum şeirin daha əvvəl yarandığını demək çətindir. Bu, dərin elmi-tədqiqat tələb edən bir sahədir" (Rəsul Rza. Seçilmiş əsərləri. 4 cilddə, IV cild, Azərnəşr, Bakı, 1974, səh. 485).*

*-Əlbəttə, əski türk azad şeir ənənəsindən danışarkın, bizi də eyni qınağa çəkə bilərlər ki, onun mədəni irsi ilə milli Əruz və Heca vəznli ədəbiyyatımız arasında uzun zaman ərzində fasilə və kəsinti dövrü vardır. Lakin bizim fərqli mövqeyimiz ortadadır: bu gün əski türk şeirinin vəzni Ümumavrasiya (ümumtürk-ümumslavyan) tarixi Azadlıq ruhunun bir hissəsi olaraq maraqlıdır. Bu azad poetik düşüncə sistemi yalnız öz əsrinin və*

*öz tarixi coğrafiyasının hüdudları içində qapanmış halda deyil. O, milli ədəbiyyatımızda kanonik şeirlər ənənəsi yaranana qədər mükəmməl bədii sistem təşkil etmiş, onların məzmun-forma resursları müasir dünya Türklüyünün və Slavların (o cümlədən, yeni dünya ədəbiyyatının) çağdaş mənəvi təlabatlarını ödəməyə həmişə qabil olmuşdur. Hər bir ictimai İnkişaf bir xəttlidir. Axan suya ikinci dəfə girilə bilməz... Lakin ruh tarixdən yuxarıdır.*

*– Miladdan öncə V əsrdə yunan demokratiyasının başında Perikli görürük. Mənim qəti qənaətimcə, miladın 552-ci ilində Tümen (Bumın) xaqan tərəfindən yaradılmış ilk Türk xaqanlığı da bütün parametrləri ilə türk demokratiyasının ilk nümunəsi idi. Quldarlıq xarakterində deyildi. Avrasiya azadlıq ruhunun daşıyıcısı olan idarəçilik sistemi və azad bir insan cəmiyyəti kimi onu yalnız ABŞ-ın ilk azadlıq savaşlarının başında durmuş general C.Vaşinqtonun dövri ilə müqayisə etmək olar. Amerikanların öz ingilis keçmişinə qarşı bu şanlı savaşı ilə Türklərin öz əski Çin əsarətinə qarşı barışmaz mübarizəsi tamamilə səsləşir. ABŞ istiqlaliyyəti Uolt Uitmeni, Ümumtürk istiqlalçılığı Yulluk Tekini doğurmuşdur.*

*-Rus sovet türkologiyasının ən dahi nümayəndəsi, SSRİ EA-nın Leninqrad filialının rəhbəri, akademik V.Jurminski hətta öz əsərlərinin birini "Ritmiksintaktik paralelizmlər qədim türk xalq şeirinin əsası kimi" adlandırmışdı. (Bax: V.Jirmunski. "Ritmosintaktiçeskoy paralellizm kak osnova drevne tyurkskoqo narodnoqo stixa". "Voprosı yazıkoznaniya" jurnalı, № 4, 1964). Paralelizmlərin əski türk şeirinin ritmik əsası olduğunu söyləyən alimlər az deyildi: A.N.Veselovski, V.Şteynits, R.Yakobson, T.Kovalski, A.Lini, J.Lotman, R.Austerlits, O.Brik, V.Poppe, İ.M.Astafyeva, Q.Solçanik, X.Koroğlu, Ə.Abdullayev, K.V.Nərimanoğlu, M.Adilov və b. Lakin bu mülahizələrin müasir türk (o cümlədən Azərbaycan) şeirinin çağdaş poetikası ilə bağlantıları araşdırma mövzusu deyildi. Bu istiqamətdə ədəbi tənqidin də heç bir avanqard rolu nəzərə çarpmırdı.*

*-Biz bu gün XXI əsrin neosferasında (-bilik çevrəsində) yaşayırıq. Nobel mükafatı laureatı olmuş son dövr dünya şairlərinin yalnız modernist təmayüllü yaradıcılar olduğunu görürük. Əlbəttə, bu, yalnız alqışa layiqdir. Ötən əsrin 50-60-cı*

*illərindən etibarən dünyada baş verən elmi-texniki inqilab prosesləri hər birimizin taleyində öz izlərini qoyub. Görünən odur ki, dünyanın vizual üzü ilə virtual üzü arasında dərin uçrumlar var.*

*-Burada xüsusi vurğu ilə söyləmək lazımdır ki, göstərilən poetik metrika Türk şeirinin zəifliyi deyil, Antik imperiyalara qarşı minillik müqavimət gücü toplamış türk superetnik Avrasiya ruhunun bədii məziyyəti idi. Azad türk şeir sistemi kamil metrika və ritmika komponentləri olan şeir sənəti idi. Bu xüsusiyyətlər Ümumavrasiya antiqərb cəbhəsində türklərin tarixi Azadlıq missiyası ilə şərtlənirdi. Avrasiya materikal azadlıq duyğusu heç vaxt Türk dünyasını tərk etməmişdir. Qədim Çin quldar cəmiyyəti ilə Qədim Antik Qərb imperiyaları arasında Azadlığın qorunduğu yer Türklər üçün daim vətən olmuşdur. Ənənəvi Qərb tarixçiliyinin prizmasından yanaşaraq, Avrasiya məkanında yaranmış Qədim Türk dövlət qurumlarını quladarlıq institutları hesab etmək kökündən səhvdir.*

Biz gətirdiyimiz statlarda yalnız filologi məzmun görmürük. Hesab edirik ki, tədqiqatçı qeyri-quldar ictimai formasiyalardan keçib gəlmiş xalqların həyata bədii-estetik baxışlarını quldar cəmiyyətlərdən baş alıb gələn kanonik konvensial baxışlardan kəskin olaraq ayırmaq istəmişdir. Elmi-nəzəri poetika belə bir elmi- tarixi, fəlsəfi dünyagörüşü üzərində qurulmuşdur.

Müəllifə görə, bütün Xilaskar missiyaları tarixdə Quldar cəmiyyətlər üçün ilahi qurtuluş cəhdi olmuşdur. Odur ki, Avrasiya qeyri-quldar cəmiyyətlərində nə təfəkkürün ilahi kanonizasiyası, nə Allah elçilərinin xilaskarlığı, nə də konvensional bədii baxış sistemləri mövcuddur.

Azad şeirin slavyan-türk materikal müstəvisində tarixi irs olaraq dəyərləndirilməsi tədqiqatı elmi-nəzəri fikrin filoloji məzmunundan kənara çıxarır. Bunu əsərin məziyyətimi, qüsurumu saymaq ona necə yanaşmaqdan asılıdır.

"Azad şeir və onun poetikası" kitabında azad şeirin yeni filoloji terminlər və təsnifat sistemi yaradılmışdır. Bu təqdirəlayiqdir. Müəllif özünü haqlı çıxardır ki, "Azad şeirin elmi poetikasının işlənib hazırlanması üçün təsnifat pozuntusuna yol vermədən, bir-birinə çox yaxın və ya uzaq olan poetik təcrübələri ümumi-

universal və differensial terminlərin fərqləndirici və birləşdirici kateqorial sisteminə daxil etməklə konkretləşdirmək lazım gəlir. Milli poetikamızda qəbul olunmuş müəyyən ənənəvi şeir normalarından, məsələn, qafiyə, daxili ritm (vurğu, bölgü, sillabik açıqqapalılıq, assonativlik və ya alliterativlik, epiforluq, seqmentlik, aksentivlik və s.) və sabit bənd quruluşundan bu və ya digər səviyyədə "azad olma"(verlibrizasiya, sərbəstləşmə, bekarlaşma, liberizasiya) dərəcəsindən asılı olaraq, bütün libiristik şeirlərin ümumi adını filoloji təsnifat üçün "Azad şeir" termini ilə tanımağı daha məntiqi hesab etdik. Çünki kateqorial olaraq, Azad şeirin başlıca poetik forma və məzmun keyfiyyəti onun ənənəvi heca və klassik əruz poeziyasında qabaqcadan qəbul edilmiş konvensional qayda və normalardan, vəzn və ritmikadan özünü müəyyən hədlərdə və ya tamamən "azad" elan etməsindədir. Eyni zamanda deyək ki, bu "azadlıq" onun üçün hər hansı konkret kanoniklikdən və ya normativlikdən çıxmaq deyil, özünəməxsus poetik məziyyət, özünəməxsus forma və bədii məğz qazanmağı deməkdir". Əlbəttə, bu məsələdə müəlliflə tam razılaşmaq lazım gəlir.

Diqqəti cəlb edən daha bir cəhət, kitabda azad şeirin təsnifat sistemidir. Həmin təsnifat hamı tərəfindən bir mənalı qarşılanmaya bilər. Lakin elm elə bir sahədir ki, onda hər bir irad üçün arqument qoymaq gərəkir. Əks-təqdirdə belə bir irad qərəzdən başqa bir anlam verməz. N.Atabəylinin azad şeir təsnifatını olduğu kimi təqdim edirəm:

**Azad şeirin zahiri forma-şəkil üzrə növləri:**

1. Azad şeirin zahiri forma-şəkil üzrə növləri:

1.1. Nəsr tərtibli növ. (bu cür şeirlərə, əsasən, Uolt Uitmenin, bir çox amerikalı şairlərin yaradıcılıqında təsadüf edilir. )

1.2. Dalğa tərtibli növ. (Rəsul Rzadan başlayaraq, bu növ Azərbaycan şeirində geniş yayılmışdır.)

1.3. Həndəsi (kvadrat, kub və s.) tərtibli növ. (bu növün ilk yardıcısı şeirimizdə Mikayıl Rəfili olmuşdur).

1.4. Rəsm tərtibli növ. (bu forma şeirimizdə Ərəb əlifbasına aid xəttatlıq ənənəsi kimi yaşamaqdadır).

1.5. Qeyri-müəyyən tərtibli növ.

2.Verlibr ritminin leytünsürü baxımından növləri:

2.1. Azad heca təqtili növ. 2.2.Azad əruz təfiləli növ.
2.3.Qarışıq ritmli növ. 2.4. Nəsr ritmli növ (mənsur şeir və s.) 2..5.Qafiyəli, qafiyəsiz (disrifmik şeir, yəni ağ şeir) və qarışıq qafiyəli növ.
2.6.Disstopik (təqti, bənd və s. daxili ritmik ünsürsüz) növ. 2.7.Fonik, leksik, sintaktik paralelist, strofik və ya siqmentik ritm ünsürlərindən hər hansı birinin prioritetliyi üzrə növ.

3. Verlibrin məzmun xüsusiyyətli növləri:

3.1.Lirik (tərənnüm) məzmunlu növ.
3.2. Epik təsvir məzmunlu növ.
3.3. Dramatik növ.
3.4.Xüsusi təbiət təsvirli növ.
3.5.Psixoloji növ.
3.6.Fəlsəfi növ.
3.7.Ədəbi cərəyan təmayüllü növ (sürrealist, abstraksionist, realist, avanqardist, simvolist və s.).
3.8.Məzmunsuz-mücərrəd növ.
3.9. Assosiativ növ.

4. Verlibrin janr xüsusiyyətli növləri:

4.1. Şeir-verlibr.
4.2. Poema-verlibr.
4.3. Roman-verlibr.
4.4. Dramaturji verlibr.
4.5. Hekayə-verlibr.
4.6. Nəğmə-verlibr.
4.7. Traktat-verlibr.
4.8. Qarışıq janrlı verlibr.
4.9. Qeyri-müəyyən yanrlı verlibr.

5. Tarixi verlibr növləri:

5.1.Əski Türk yazılı ədəbiyyatında verlibr (Orxon-Yenisey şeiri, İssık şeiri, Etrusk-Troya şeiri və s.)
5.2. Azərbaycan folklor verlibri. (“Kitabi-Dədə Qorqud”şeirləri və s.)
5.3.İltisaqi dil mətnli qədim abidələrin verlibr sistemli Sinkretik növü.

6. Modernist-estetik forma və məzmun təmayüllü verlibr növləri:
6.1.Simvolist azad şeir.

6.2. Futurist azad şeir.
6.3.Sürrealist və dadaist azad şeir.
6.4.Abstraksionist azad şeir.
6.5.Sosrealist azad şeir.
6.6.Ekzistensional azad şeir.
6.7.İmajist azad şeir.
6.8.Kubist azad şeir və s…

Müəllif elə həmin təsnifatın altında çox doğru olaraq, bunları xüsusi qeyd edərək yazır: "Azad şeirin növ differensiyası üçün tərtib etdiyimiz bu təsnifat təqribi xarakterlidir. Belə bir elmi-nəzəri materialın yoxluğu üzündən biz məcburi bir addım atmağı lazım bildik. Bu təqribi növ təsnifatı olmadan Azad şeirin ritmik xüsusiyyətlərinin elmi izahı qeyri-mümkündür. Lakin dinamik şeir sistemi sayılan Verlibrin inkişafı gedişində bu təsnifatın getdikcə daha da təkmilləşərək zənginləşəcəyinə heç bir şübhəmiz yoxdur. Odur ki, bu təsnifatın həm yaradıcılıq təcrübəsi, həm də elmi baxımdan uzun müddət faydalı olacağını zənn edirəm."

N.Atabəyli xeyli xarici ədəbiyyatşünaslıq mənbələrini ciddi araşdırmışdır. Burada rus dilli, türkdilli ədəbiyyatdan savayı, fars, fransız və d. dillərdə də materiallar olduğunu görürük. Müəllifin fars ədəbiyyatşünasına verdiyi cavab maraqlıdır: "Fars alimi cənab Salesin iddiasınca guya azad şeir öz forma yenliyi ilə fars xalqını "İslamdan əvvəlki pak və səfalı dövrə"qaytara bilmişdir. Bu, vulqar yanaşmadır. Əvvəla, Sasani İranını İslam cəmiyyətindən daha "pak və səfalı" saymağın özü ən uyğunsuz ifadədir. İslam quldarlığa ən ağır zərbə vurmuş hərakatdır. Sasani İranı isə bir quldarlıq imperiyasından başqası deyildi… Bu da məsələnin ikinci tərəfidir." Müəllif bununla da əski azad şeir irsinə yalnız qeyri-quldar cəmiyyətlərin tarixi varisliyi hüququ olduğunu irəli sürür və bu mədəniyyətin, bir mənalı olaraq, Avrasiya kökü üzərində durduğunu bildirir.

Məncə, "Azad şeir və onun poetikası" kitabı daha çox Azərbaycan filoloji fikrinə yeni baxış gətirməsi və milli poetikanı zənginləşdirməsi baxımından maraqlı olacaqdır. Lakin bununla belə o eyni zamanda müasir dünyada Avrasiyaçılıq kimi populyarlaşmış ictimai-siyasi və estetik-fəlsəfi düşüncəyə əlavə

impuls və məzmun gətirdiyi üçün geniş oxucu diqqətini də özünə çəkə biləcəkdir.

PS: Redaktordan yazıya şərh olaraq:

**Xəzan**

**ƏDƏBİ-BƏDİİ JURNAL**

**C5, N4, 2020**
**İyul – avqust, 2020**



"Xəzan" ədəbi-bədii jurnalının №4. 2020-ci il tarixli **sayında filologiya üzrə fəlsəfə doktoru, Sumqayıt Dövlət Universitetinin dosenti Dəyanət Cümənov**un *"Azərbaycan ədəbiyyatşünaslığında Rəsul Rza ədəbi məktəbi"( məqalə) tədqiqat əsərinə diqqət yetirmək kifayətdir:*

**"Azərbaycan ədəbiyyatşünaslığında ilk verlibr (özgür) şeir poetikası tədqiqatçısı N.Atabəyli milli ədəbiyyatımızda heca və əruz vəznli şeirlərdən nəzəri şəkildə fərqlənən bütün digər sərbəst poeziya nümunələrinin "Azad şeir" termini və ümumi vəzn adı altında ifadə edilməsini təklif edir, öz tədqiqatlarında bunu elmi-nəzəri baxımdan əsaslandırır və belə nəticəyə gəlir ki, "sərbəst şeir" əvəzinə "azad şeir" termini daha məqbul və ümumbəşəridir... Tədqiqatçının fikrini biz də düzgün hesab edirik, çünki o biri vəznlərin öz daxilində, məsələn əruz və hecadaxili sərbəstlikləri də ola bilər. "Azad şeir" termini tutumuna görə daha genişdir..."**
**(Göst. ədəbiyyat. Səh.: 52)**

http://atatv.az › 18096-mqddds-irvan-proyekti-yaxud

Müqəddəs Şirvan proyekti, yaxud... - Atatv.az

2 okt 2020 — Müqədddəs **Şirvan proyekti**, yaxud... Jurnalist Rəsafil Bayramovun yazıçı-publisist **Namiq Atabəyli** ilə növbəti müsahibəsi Sual: (Rəsafil ...

ATA TV.az Ata TV

**2 oktyabr 2020. 18:28**

# Müqəddəs Şirvan proyekti, yaxud…

**(Jurnalist Rəsafil Bayramovun yazıçı-publisist Namiq Atabəyli ilə müsahibəsi)**






**Sual:** (Rəsafil Bayramov):

-Əvvəla, "Şirvanşahlar haqqında saqa" roman-epopeyanızın üçüncü kitabını- "Şirvanşah Şeyx İbrahim Dərbəndi" trilogiyanızı tamamlayıb nəşrə verməyiniz münasibətilə sizi redaksiya heyəti və virtual oxucularımız adından təbrik edirəm. Bu kitab Saqa daxilindəki sizin üç hissədən ibarət monumental "Şirvanşah Şeyx İbrahim Dərbəndi" trilogiyanızı tamamlayır. Həqiqətən də, çox ağır bir işin öhdəsindən gəlmişsiniz… Mən trilogiyanın son kitabının nəşröncəsi əlyazma variantını diqqətlə oxudum. İlk təəssüratlarımı isti-isti Müəllif ilə bölüşmək istəyirəm. Buyurun ilk söz sizindir.



**Cavab: (Namiq Atabəyli):**

-Rəsafil bəy, Redaksiyanızda mənimlə bu xeyirxah Görüş üçün Sizə dərin minnətdarlığımı bildirirəm. Etiraf edim ki, həqiqətən də, bu çətin tarixi və bioloji şəraitdə, Covid-19 pandemiya məhdudiyyətləri çərçivəsində, yəni kitabxanaların bağlı qaldığı, son günlər hətta İnternetin belə fasilələrlə "susduğu" vəziyyətdə 1000 səhifəlik bir kitabı tamamlamaq asan olmamışdır.

Səbri daşmış bəzi qəzet və e-sayt rəhbərləri Romanımın üçüncü kitabını, daha doğrusu "Şirvanşah Şeyx İbrahim Dərbəndi " trilogiyamın son iki kitabını: "Azadlığa aparan yol" və "1382-ci il" romanlarımı öz oxucuları ilə tanış etmək üçün mənə müxtəlif təkliflər göndərmişdilər. Mən bu yoldaşların da hər birinə, o cümlədən "Respublika" qəzetinin redaktoru möhtərəm dostum-mürşidim akademik Teymur Əhmədova öz dərin minnətdarlığımı bildirirəm. Daha bir neçə gün də gözləmək kifayətdir: Üçüncü Kitabın oxuculara tam şəkildə təhvil veriləcəyi vaxta sayılı günlər qalmışdır. İşin bundan sonrası hörmətli naşirim Şöhrət Səlimbəylidən asılıdır. Şöhrət bəylə biz dostuq. Elə bilirəm, inşallah, gecikmə olmaz…

**Sual: -** Bu son romanınızı oxucularınız və pərəstişkarlarınız əldə etməkdə çətinlik çəkməyəcəklər ki?

**Cavab:-** Atalar deyib ki, axtaran tapar... Bilirsiniz ki, mənim əsərlərim satışa çıxarılmır. Bunun iki səbəbi var: əvvəla, Azərbaycanda Kitab satışı sistemi çoxdan dağıdılıb. Kustar üsullarla ayrı-ayrı özəl satış obyektlərinə fərdi şəkildə paylanmaqla intekllektual mülkiyyətdən hər hansı maddi vəsait əldə etmək absurd bir şeydir. Azərbaycan Yazıçılar Birliyinin konfederasiya təşkilatına çevrilməsi günümüzün mühüm məsələsidir. Bu təşkilat öz nəşriyyatına sahib çıxa bilməmişdir… Dövlət ədəbiyyat siyasətini Anar müəllimlə həll etməyə çalışır. Anar isə Sədarətindən yalnız inzibati məqsədlərlə, yəni yerini bərkitmək üçün uğurla istifadə etməyi bacarır. Onunla həmfikir olmayan yazıçıları dərhal "səs çoxluğu ilə" binadan dışarı atır. Mən bu təşkilatın üzvü deyiləm. Daim divar elanında "üzvlük qurultayadək dayandırılmışdır" oxuyuruq. AYB-nin binasında yerləşən "kitab mağazası" yalnız onun üzvlərinin kitablarını satır. Çox gülməlidir. Ədəbiyyatımızın inkişafına büdcədən ayrılan bütün maaliyə vəsaitini AYB alır. Amma yalnız onu "özününkülərə" xərcləyir?!. AYB sovetizmin qalığıdır. Anar getməlidir!.. Ədəbiyyatımızın həm "Anar probleminin", həm də özünün problemlərinin həlli bu birliyin konfederallaşmasını tələb edir. Yoxsa AYB-nin sədri qrupbazlıq mərəzindən sağalan deyil. Ondan soruşmaq lazımdır, xərclədiyiniz dövlət vəsaitindən nə qədər gəlir əldə etmişsiniz?.. Yoxdur elə bir şey!.. Kitab mağazalarımız tamamilə məhv edilmişdir. Tələbə Qəbulu komitəsinin aidiyyəti nəşr

qrumlarının aztirajlı kitab və dərslik ləvazimatlarının ksero nümunələrindən savayı taxçalarda heç nə yoxdur. Azərbaycan yazıçısı, sadəcə desək, AYB-nin avtoritarizminin və ölkədə qanunsuz pirat kitab satışının qurbanıdır. Pirat satış forması, ola bilsin ki, bəzi qara ədəbiyyat tacirləri üçün yararlı üsuldur. 20 illik fasiləsiz jurnalistik fəaliyyətimdən sonra, yalnız 2010-cu ildən peşəkar yazıçı kimi İşsiz statusunda bədii ədəbiyyata qədəm qoymuşam. Əvvəllər müxtəlif qəzet və jurnallarda bədii bölməyə rəhbərlik etmişəm. Mətbuatda tam 20 il redaktor, şöbə müdiri, böyük məsləhətçi, müxbir, hətta korrektor kimi fasiləsiz çalışmışam. 30 ildən yuxarıdır jurnalistik fəaliyyətdəyəm. AYB-nin üzvü olmasam da, onun "Ulduz" jurnalında ədəbi işçi kimi fəaliyyət göstərmişəm. Çox təəsüflər olsun ki, SSRİ-nin dağıdılması ilə Kitab Palatası, Azərİttifaq və aidiyyəti Dövlət komitəsinin bütün kitab satışı Bazaları dağıdıldı və işbaz "optoviklərə" satıldı... İndi bu bazalarda kitabdan başqa hər şey var. Bunula da, Azərbaycan cəmiyyətinin intellektual zümrəsinə ağır zərbə vurulmuşdur. Son on ildə doqquz bədii, bir elmi-nəzəri, bir publisistik kitabım nəşr edilmişdir. Dərc edilmiş minlərcə jurnalistik məqaləm barədə danışmağı isə özüm üçün artıq hesab edirəm. Nə jurnalist yazılarımdan, nə də bədii-elmi kitablarımdan bir qəpik də qonarar almamışam. Onu da deyim ki, qonaradan qaçmış bu nəşrlər siyahısında "Azərbaycan" qəzeti başda gəlir... Bütün əsərlərim oxucuya pulsuz paylanmışdır. Hələlik oxucu ilə təmasın yeganə yolu budur. Necə deyərlər: "Azadlıq verilmir, alınır…" Kitab da insan fikrinin, düşümcəsini azadlıq parametrlərindən hesab edilir. Deməli, o da **alınmalıdır. Amma necə?!.** Hər-halda Dövlətin büdcə maaliyə vəsaitini alıb kefinə xərcləməklə yox…

**Sual: -** "Şirvanşahlar haqqında saqa" roman epopeyanızı qələmə almağa sizi təşviq edən səbəblər nə olmuşdur?.. **Cavab:-** Mən Avrasiyaçılıq ideoloji yönümlü yazıçıyam. Eyni platformada durduğum keçmiş rus həmfikirlərimi keçmiş SSRİ-nin terrorçu ideya rəhbərləri sayılan Lenin, Trotski və Stalin kimi insanlıq düşmənləri amansızca repressiya etmişlər. Xainlərin yaratdığı superdövlətin siyasi süqutundan sonra meydana atılmış neo-liberalların saxta tarixi baxışlarına qarşı yeni avrasiyaçı qüvvələr də növbəti dəfə dinc Diskurs açmışlar. Mən də indiyədək saxta "Folk-historilər" ilə məşğul olmuş dildə "anti-Şirvan"

qaragüruhun ifşa olunması üçün posmodern yazıçılıq metodunu seçdim. Qarşımda Azərbaycan məkanında oturaq mədəniyyətə qarşı amansız savaş açanların, başqa sözlə anti-Şirvan irticanın varislərinin saxta "tarixləri" kəskin sədd çəkmişdi. Mən odur ki, postmodernizmi seçdim. Postmodernizmin əsas texniki priyomu qədim bir ənənənin (deyək ki, əsərin) üzərinə yenisini "yazmaqdır". Mən "Tarix"in üzərinə TARİX yazmaq yolunu tutdum. Səmimi etiraf edim ki, bu roman-epopeyam mənim öz opponentlərim ilə ilk açıq Diskursumdur. Rus həmfikirlərim işğalçı monqol arxitipinə qarşı rus arxitipini dirçəltməyi vacib sayıblar. Mən də şirvan arxitipini irəli sürməkdə xalqımın qədim oturaq sivilizasiyasını intibah amili olaraq irəli sürmüşəm. Beləliklə, mənim qədim Şirvan keçmişimin üzərində saxta "paralel tarix" yaradanlara öz şirvanlı Qələmimlə "əlcək atmışam..." 2004-cü ildə Dövlət qulluğundan qanunsuz kənarlaşdırılandan sonra, sabiq Təhsil naziri qaraqoyunlu-tatar Misir Mərdanova yüzlərcə məktub göndərdim: ona məni aparatdan uzaqlaşdırmış Ramiz Mehdiyevin köləsi olan redaktorun mənim öz köhnə iş yerim olan "Azərbaycan" qəzetinə geri dönüşümə yol verməbdiyini yazıb, heç olmazsa, Bakıda 10 illik pedaqoji fəaliyyətimə təkrar qayıtmaq istədiyimi bildirdim. Bütün məktublarım cavabsız qaldı. Əvəzində, M.Mərdanovun özünün Nazirlikdə yerləşdirdiyi FETO çetesilə birgə vəzifədən rüsvayçı uzaqlaşdırılmasından sonra, öz müəllimi haqqında "qələmə aldığı" "Müəllimim Qoşqar Əhmədov" kitabında "Müəllim" pedaqoji poemamın "izlərini" gördüm. Misir Mərdanov hətta öz kitabı barədə yazdırdığı resenziyaya da mənim poemamın bir misrasını başlıq vermişdi: "Vətənin fazil insanı-müəllim!" (525-ci qəzet, 20.XI.2017.). Mənə bu poemam barədə İNTERNET üzərindən "İnstogram" səhifəmə təşəkkür yollamış tanımadığım İrina Atabekyanı başa düşməkdə çətinlik çəkmirəm. Amma Misir Mərdanovu heş cür anlamadım. Bu fakt epopeyam üzərində düşünməyə məni vadar edən səbəblərdən biri oldu. Mən uzun əsrlərin anti-Şirvan mühitində zəhərlənmiş beyinləri sağlamlaşdırmaq üçün bədii ədəbiyyatdan qüdrətli vasitə görmürəm. Saqamın sonuncu kitabı- "Sonuncu Şirvanşah ŞAHRUX"dur. Sağ qalsam, Allahın köməyilə, bu əsəri də bitirəcəyəm…

**Sual: -** Qədim bir xalqın sayılıb seçilən ziyalılarını öz torpağında

işsiz qoymuş bu cür məmurların roman-epopeyadan sonra "tərbiyələnməsi" qəribə görünmürmü?..

**Cavab:-** İbrahim Xaqani-Şirvani Şirvan taxtını işğal etmiş yadelli Kəsrani-gilani elitaya "Şabran" zindanından belə yazmışdı:

**Bənzəyir qandal ayağımda dəyirman daşına,**
**Qanlı göz yaşımla işlər bu dəyirmanım mənim.**

O zaman yadelli Kəsrani-gilanilər başa düşmürdülər ki, şair İbrahimin bu tarixi çağırışı Şirvanşahlar ölkəsində başqa bir İbrahimi də yetişdirə bilər. Mənim posmodern romanımda 1382-ci ilin anti-Kəsrani İnqilabı şirvan xalqının massaget-türk tarixi xəttinə Böyük Qayıdışını simvolizə edir. Romanda Şeyx İbrahim Dərbəndi məhz bu türkləşmənin mərkəzi simasıdır.

**Sual:-** Sizin roman-epopeyanızda irəli sürdüyünüz ideyalar neoşirvanizm demək deyilmi? Beş əsrlik süquta malik bir tarixi yenidən necə ayağa qaldırmaq olar?..

**Cavab:-** Əgər oturaq mədəniyyətin, milli tərəqqinin alternativ yolu yoxsa, biz bu tarixi yola təkrar qayıtmağa məcburuq. Mən bir atabəyli kimi azərbaycançılıq məfkurəsinin adamıyam. Amma bir yazıçı-ideoloq kimi həmişə qədim şirvan xalqının Haqqının yanındayam. Axı, bunu necə qəbul etmək olar ki, Qədim Şirvanın oturaq sivilizasiyasını yox etmək naminə AMEA-nın aidiyyəti institutları hələ də X əsrin ən qüdrətli şair-filosofunu bakılı olduğu üçün Ədəbiyyat tariximizdən uzaqlaşdırmaqda israrlıdırlar. Onlara bu haqqı kim verib? Baba Dağ Bakuvinin (933-1050) "Divan"ı niyə öz Vətənində işıq üzü görməməlidir? Mən AMEA-nın prezidenti cənab Ramiz Mehdiyevin anti-Şirvan platformasından kifayət qədər məlumatlıyam. Yan-yörəsinə yığılmış naxçıvanlı müavinləri və İnstitut direktorları da onun şanlı davamçılarıdır. Bu damlar hələ də başa düşə bilmirlər ki, Arazın şimalında yalnız bir ŞAHLIQ olmuşdur: Şirvanşahlar! Qondarma "Naxçıvanşahlıq" yaratmaq yalnız gülüş doğura bilər. Ramiz Mehdiyevi bütün dünya islahedilməz bir "regionçu" olaraq tanıyır. Şirvan böyükdövlətçiliyi ilə xırda regional "tayfaçlığı" bir-birindən ayıra bilməyən bu şəxsin Akademiyaya necə rəhbərlik etdiyində işim yoxdur?! Onun Naxçıvanda ən qədim mədəniyyət abidəsi hesab olunan "Qarabağlar" kompleksindəki Qoşa minarələr üzərindəki kitabədəki yazılardan

xəbərsiz olduğunu da güman etmirəm. Rus varyaqları ilə azadlıq müharibəsi zəminində Dərbənd divarları arxasından Naxçıvan ərazisinə köçürülmüş əhali üçün bu kəngərli-qıpçaq şəhərini XI əsrdə Şirvanşah III Mənuçöhr saldırmışdır... O Məniçöhr ki, özünün və oğlu I Axsitanın hakimiyyəti illərində indi adına "Xəzər" deyilən qədim Şirvan dənizinin şəriksiz ağası olmuşdur. Mən bir daha bəyan edirəm: Qədim Şirvan xalqına və onun mədəniyyətinə qarşı elmi-tarixi baxımdan Araz çayının qüzeyində duruş gətirə biləcək heç bir kənar mənəvi keçmiş yoxdur.

**Sual:-** "Neoşirvanizm"- Azərbaycan xalqının yeni tarixi inkişafı üçün irəli sürülmüş "Üçüncü Yol" anlamına gəlmirmi?

**Cavab:-** Bəli, bu məhz Üçüncü Yoldur. Mənim Avrasiya yönümlü bir yazıçı-publisist olaraq qəbul etdiyim 50 illik qənaətim bundan ibarətdir. Bizim ölkəmizə bu gün Üçüncü inkişaf yolu lazımdır. Bu ideyanı mən hələ tələbəlik dövrümdə, ötən əsrin 70-80-ci illərində irəli sürmüşəm. Respublika tələbələrinin VIII Elmi-konfransında "Qızıl Medal"a layiq görülmüş "Sərbəst şeirin poetikası" elmi-tədqiqat əsərim oxucular arsında məşhurdur. Bu sanballı elmi- nəzəri tədqiqat əsərimi sonradan üzərində kiçik əlavə və düzəlişlərimlə 2017-ci ildə Bakı şəhərində "Azad şeir və onun poetikası" adı ilə kitab şəkilində ilk dəfə nəşr etdirmişəm. Mən bu əsərimlə hələ o dövrün qırmızı ideoloqlarının Qara Dəftərində özümə "layiqli yer" qazanmışdım. Universitet Elmi Şurasının qərarı ilə Aspiranturada saxlansam da, SSRİ Silahlı Qüvvələrində zabit kimi həqiqi hərbi xidmətə göndərildim. Sovet Ordusundan tərxis olunmuş zabit kimi Elmi Şuranın qərarını əldə əsas tutub sənədlərimi Azərbaycan Dövlət Universitetinin Aspiranturasına yenidən təqdim etmək istədim: iki illik filoloji staj tələb etdilər. Stajımı düzəldib təkrar sənədlərimi təqdim elədim: bu dəfə sənədlərimi üstümə atıb, məni açıq-aşkar surətdə birdəfəlik rədd etdilər. Bilirsinizmi kim idi bu cür əndərabadi əməllərin baş dəstəkləyicisi: Azər.KP MK-nın İdeoloji katibi Ramiz Mehdiyev. Bu adamın AMEA kimi elmi mərkəzəindi necə rəhbərlik etdiyini təzəvvürümə belə gətirə bilmirəm…

**Sual:-** Namiq müəllim! Sizcə, III Yol nəzəriyyəsi bu gün hərbi-siyasi və milli münaqişələrə cəlb edilmiş Azərbaycan cəmiyyətinə nə kimi fayda gətirə bilər?

**Cavab:-** Böyük Şirvan bölücülük faktı deyil. Əksinə, bu xalqı özünün real tarixi keçmişi üzərində səfərbər etməkdir. 500 il bundan əvvəl FARS şiə idelogiyasının daşıyıcıları tərəfindən süquta uğradılmış əhli sünnət Şirvanşahlar dövləti şirvan xalqı tərəfindən əsarətdə və azadlıqda əsrlərcə müqəddəs tutulmuş dini-ideoloji konsepsiyanın da qoruyucusu olmuşdur. Şirvanşahların ata nəsli Qafqaza İslamiyyəti gətirmiş sərkərdələrdir. Onlar bir-başa Allahın son Rəsulunun soyundan gələnlərdir. Bu gün Azərbaycan Respublikası qonşu Ermənistan tərəfindən yenidən müharibəyə cəlb edilmişdir. Ermənistanın silahlı Qüvvələri Azərbaycan Respublikasının ərazisində işğalçı müharibə aparır. BMT tərəfindən bərabər hüquqlu üzv kimi tanınmış Azərbaycan Respublikasının ərazi bütövlüyünə dəstək verən ölkələr və cəmiyyətlər (Türkiyə, Pakistan, Ukrayna, Polşa, Liviya, Gürcüstan...) arasında Fars Şiizmini görmürük. Qədim Şirvanşahların oturaq sivilizasiyasını da məhz İran-fars şüubiyə şovinizmi süquta uğratmışdır. Hansı etnik gücün hüsabına?- Ağ və Qara tatarların, yəni ağqoyunluların və qaraqoyunluların yürüşləri ilə. Biz şirvan xalqının tarixi haqqını özünə qaytarmalıyıq. Bu şanlı keçmişi Şirvanşünaslıq elmi öyrənməlidir. Hər hansı albanşünaslıq və ya aqvanşünaslıq Şir tinətlilərin qədim oturaq sivilizasiyasını bu məğrur xalqın yaddaşından silə bilməz. Keçmişə münasibət gələcəyin də açarıdır.

**Sual:-** “Müqəddəs Şirvan” doktrinası hardan qaynaqlanır?..

**Cavab:-** Nə 1920-ci ilin bolşevik, nə də 1991-ci ilin liberal inqilabları Azərbaycan cəmiyyətini xoşbəxtliyə qovuşdurdu. Bu, eynən rus xalqı üçün də belə oldu. Avrasiya yönümlü rus ziyalıları əksəriyyətlə “Müqəddəs Russ” a qayıdışın vacibliyini irəli sürmüşlər. Onlar rus çarının devrilməsini Allahsızlıq və Böyük Günah kimi qəbul eləmişlər. Məsələn, L.Reşetnikovun “Rusiyaya dönüş: Üçüncü Yol, yoxsa ümidsizlik dalanları” (Moskva-2014) adlı əsərində Rus üçüncü yolunun Provaslav konsepsiyası ətraflı şəkildə izah olunub. Bildiyimiz kimi, Çar Rusiyası öz tarixi varlığı ərzində “Ermənistan” adlı dövlətin yaranmasına yol verməmişdir. Halbuki Qafqaza rus ayağı çoxdan dəymişdi. Ruslar XII əsrdə onları bu ərazidə- həm dənizdə, həm də quruda məğlub edən yeganə tarixi gücün Şirvanşahlar olduğunu unutmamışdılar. Rusiyanın Avrasiyada

mövcudluğunun əsas tarixi faktoru Şirvanşahlar dövlətçiliyi olmuşdur. Şirvanlılar Şimal-Cənub ipək yolunun yeganə qoruyucuları idilər. Bu yolu Səfəvilər məhv etdilər. İndi isə Çin, Rusiya,Türkiyə, Pakistan, İran, Ərəb dünyası onun bərpasına çalışır. Amma kimsə anlaya bilmir ki, bu yol YENİ ŞİRVANÇILIQ geosiyasəti meydana qoyulmadan mümkünsüdür.

**Sual:-** Sizcə, keçmişin anti-Şirvan geopolitik gücləri neoşirvanizmin dirçəlişinə imkan verəcəklərmi?

**Cavab:-** Qafqazda mif və uydurmalardan yaradılmış "Qədim Ermənistan" dövlətçiliyi çarizmin süqutunun məhsuludur. Bu ideya 1918-ci ildə Avropada liberalizm şüarları ilə yedizdirilmiş anti-çar satqınların xəstə təfəkkürünün sayəsində gerçəkləşdirildi. Müasir rus istoriyasofiyası üçün bu məsələdə qaranlıq mətləb yoxdur. QAFQAZ coğrafiyası yalnız qədim bir tarixi dövlətçilik faktını tanıyır: Şirvanşahlar tarixi! Azərbaycanın qüzey coğrafiyasını müxtəlif köçəri tayfaların yazısız "mədəniyyətinin" arxivinə çevirmək bu qədim diyarın klassik mədəniyyətini, oturaq sivilizasiyasını inkar etmək deməkdir. Biz şirvanşünaslıq elmi kimi yeni tarixi baxışın hələ ilk pioneriyik. Şirvanşahların bizə miras qoyduğu müqəddəs islami dəyərlər, doğma dil, doğma tarix, doğma ədəbiyyat mənəvi inkişafımızın yeganə yol xəritəsidir. Bunsuz biz yaşadığımız coğrafiyada heç kəsik.

**(ardı növbəti saylarda)**

**PS: Bu dəqiqələrdə Azərbaycan dövlətinin ərazi bütövlüyü uğrunda işğalçı Ermənistan ordusu ilə vuruşan qəhrəman əsgərlərimizə növbəti Vətən müharibəsində yeni qələbələr arzulayırıq. Cənab Ali Baş komandanımız İlham Əliyevin rəhbərliyi altında irəli, Azərbaycan əsgəri!..**

**AtaTv.az Xəbər portalı.**
**"İctimai Xəbər Agentliyi" MMC.**

https://525.az › ...
Milli müəllimliyin odisseyası - 525-ci Qəzet
4 fev 2016 — Nizami CƏFƏROV. Bu günlərdə Namiq Atabəylinin "Müəllim" pedaqoji poeması çapdan çıxıb (Bakı, "Elm və təhsil" nəş., 2016).

525.az 525-ci qəzet

**04.12.2016. 14:07. Oxunub: 1097**

**NİZAMİ CƏFƏROV (akademik)**



# Milli müəllimliyin odisseyası

**Bu günlərdə Namiq Atabəylinin "Müəllim" pedaqoji poeması çapdan çıxıb (Bakı, "Elm və təhsil" nəş., 2016).**




Beş hissədən ibarət bu poemada mürəkkəb poetik arxitektura, postmodern metod və qarışıq metrika (şeir vəzni) nəzərə çarpır. Yeni məktəbin (üsuli-cədidin) yaradıcısı dahi çex maarifçisi Yan Amos Komenskinin (1592-1670) "Hamıya hər şeyi öyrətmək" pansofik ideyalarından ilhamlanan şair bu humanist hərəkatın Azərbaycandakı üç əsrlik tarixi yürüşünü bədii əks etdirməyə çalışıb.

Əsərin baş qəhrəmanı dağlar qoynunda kiçik bir kənddə öz mənalı ömrünü yetişməkdə olan nəslin maariflənməsinə sərf etmiş İsmayıl İsmayılovdur. Azərbaycan dili və ədəbiyyatı fənləri üzrə Çiyni kənd orta məktəbində dərs vermiş İsmayıl müəllim Milli maarifçilik ideologiyasının əsas ruporu kimi çıxış edir. İsmayıl müəllimin həyat hekayətini nəzmə çevirən şair Oxucunu aramla dünya pedaqoji nəhrinin dərinliyinə çəkib aparır, onu tarixin aramsız mənəvi fırtınaları ilə üz-üzə qoyur. Gözlər önündə xəfifcə səhifələnən uşaqlıq çağları, yeniyetməlik və ilk gənclik illəri qəhrəmanın ömür izinin nostalgiyasını yaradır... Sonrakı fikir, məfkurə savaşları nastolji bədii başlanğıcın aldadıcı illizorluğunu

üzə çıxarır. Gənc İsmayılın ali pedaqoji təhsil dövründəki yuxusuz tələbəlik gecələri, ideya-məfkurə cihadı ilə Oxucu bəşəriyyətin ilk rəsmi Müəllimi sayılan dahi yunan filosofu Sokratın (e.ə.470-399) öz zəmanəsinə qarşı dəhşət doğuran İttihamnaməsinə qədər gəlib çıxır:

Söyləyin Ləyaqət nə olan şeydir?
Sokrat sual verib cavab istəyir...
Nadan şah da olsa, lovğa səfehdir,
Ləyaqət- müdriklik, bilikdir!-deyir.

Cəllad ola bilməz savadlı insan,
Nadandır birər tüm qatı tiranlar.
Bizi Yunanıstan etmədi "yunan",
Bizi elm etdi müdrik insanlar.

Nəticə-səbəbi sual-cavab bil:
Qürub zilli doğar, tülu sabahı.
Vəzifə, libas, pul bir kimlik deyil,
"Danış, görüm səni": sən kimsən, axı?!

Poemadakı didaktik hekayətlər bədii-pedaqoji fikrin əyaniləşdirilməsi üçün çox gözəl düşünülmüş ədəbi priyom kimi nəzəri cəlb edir. Buradakı süjetlərə Övliya Çələbidən tutmuş, ta baş qəhrəmanın hekayətlərinəcən xeyli müstəqil məntiqi parçalar daxil edilmişdir. Ö.Çələbinin "söhbəti" İnsan və İblis barədə İlahi hekayətdən sonra yerləşdirilmiş ən maraqlı epizodlardan biridir. Övliyanın fikrincə, insan üçün ən qorxunc kasadlıq mənəvi yoxsulluqdur. Bu fikir özünün tam həllini poemanın sonunda İsmayıl müəllimin "Estafet" adlandırdığı gündəliyində tapır. Bu sonuncu didaktik hekayətdə təhsilini yarımçıq qoyub, "Rokfeller olmaq" istəyən iki gəncin faciəsi qələmə alınıb. Maraqlı cəhət budur ki, bu yanlış həyat fəlsəfəsini həmin dostların özü də, gec də olsa, yalnız öz Əbədiyyət yolçuluğunda başa düşürlər:

Ya Rəbbim! Əbədi hökm-fərmansız:
Dünənsiz, bu günsüz, bütün fərdasız.
Cəhənnəm, ya Cənnət dostlarçın birdir,
Dostluğu olmayan dünya qəbirdir.
Madam ki, ölümdən sonra Həyat var:

Bir yerdə olmalı orda da Dostlar!..
Səhvimiz ağırdır, bağışla bizi,
Eyni yerə göndər hər ikimizi.
Gənc idik, aldandıq bir gün Şeytana,
Biliyi dəyişdik cəhlə, nadana.
Öz cəzamızı da çəkdik necə var:
Bizdən ibrət alsın bütün insanlar.

Tanrının insan ağlına olan etibarını İblislərin ayaqları altına atanların cəzası Cəhənnəm əzabıdır. Şairin Sokratın mühakiməsindən çıxardığı məntiqi hökmdə mənəviyyatın bu ilahi qüdrəti öz ifadəsini tapıb.

...Mən zəhər içərək ölürəm, fəqət,
Dəyişin, dünyanı dəyişdirin siz.
Candan əziz olsun sizə Həqiqət,
Qoruyun haqqını həqiqətin siz!

Tarixə yazdığım şan-şöhrət üçün,
Mənim edamıma qərar verib Şah.
Tarix qarşısında ədalət üçün,
Sokratla sırada dayanın Sabah!..

Qaldırın məşəlin Zəkanın göyə,
Dünyanı işıqlı bir Məktəb edin.
Nadanı taxtından endirin yerə,
Haqqın dərgahına Alimlə gedin!

Elm və təhsilin qarşısını kəsməyə çalışan müxtəlif bürokratiya və inzibati qaragüruhçuluğa,vəzifə ardında pərdələnmiş hər cür Şeytani güclərə qarşı mənəvi silaha çevrilmiş bu tarixi Nitqdə Tanrının bəşəriyyətin mənəvi dəyanətinə olan İlahi inamı və etibarı hifz edilib.

Sokratın bu haqq savaşının ön cərgəsində ilk dəfə dahi şairimiz, ilk Milli pedaqoqumuz Seyid Əzim Şirvanini görürük. Seyidin 1869-cu ildə öz kiçik komasında yaratdığı xüsusi tipli ilk anadilli məktəb Azərbaycan Milli Məktəbinin əsası hesab olunur.

Burada müəllifə haqq vermək üçün bir məsələyə aydınlıq gətirmək istəyirəm. Bəzi elmi araşdırmaçılar süni yerli təəssübkeşliyə uyaraq, Azərbaycan Milli Məktəbinin tarixini bir

qədər uzatmağa və banisinin ismini dəyişdirməyə cəhd göstərmişlər. Əlbəttə, bu elmi nöqteyi-nəzərdən yolverilməz haldır. Belə ki, ilk Anadilli məktəbin tarixini Talış mahalının Qaradonlu sərhəd zastavasında (əslən Qarabağlı olan) Mirzə Sadiq bəy Mehmandarovun (Səməd bəy Mehmandarovun atasıdır. Səməd bəyin özü də bu məktəbin 50 şagirdindən biri olmuşdur.) təşəbbüsü və maliyyə yardımı ilə (əslən Şirvanlı , Ləki kəndindən olan) İsmayıl Qasirin müəllimlik etdiyi məktəbdən başlamaq istəyirlər. 1848-ci ildən fəaliyyət göstərmiş bu məktəb "Anadilli məktəb" statusunda və təyinatında olmamışdır. Çarizmin Qafqazı işğalından sonra yerlərdə rejimin inzibati tələbatları ilə bağlı xeyli belə məktəblər intişar tapmışdır. Onlar, əsasən, mütərcimlər və digər sahələr üçün kiçik çar məmurları yetişdirirdilər. Əski mollaxana, mədrəsə təhsili də ayrıca fəaliyyətini davam etdirirdi.

Belə ki, Şamaxının özündə XIX əsrin 30-cu illərində 17 azərbaycanlı molla 395 şagirdin təhsili ilə məşğul olurdu. 1858-ci ildə Şamaxı quberniyasında artıq 299 məktəb və mədrəsə çalışırdı ki, bunlarda 4700 nəfər təhsil alırdı. Bu məktəblərdə, əsasən, Quranın təfsiri, ərəbcə Oxu-yazı, Fars dili və İran tarixi öyrədilirdi. Sonralar buraya rus dili də daxil edildi. Bu fəaliyyətlərin nizamlanması üçün hətta Qafqaz Çar Canişinliyinin rəhbərliyi ilə 1829-cu ildə I Nizamnamə, 1835-ci ildə II Nizamnamə hazırlanıb təsdiq edilmişdi.

Zaqafqaziyada Qəza məktəblərinin yaradılması ideyası da məhz ilk olaraq, canişin general Yermolovun 1825-ci ilin aprelində Rusiya maarif naziri Şişkova rəsmi Məktubunda açıqlanmışdır. Qaradonlu sərhəd zonasında açılmış məktəb də belə məktəblərdən biri olmuşdur. Həmin məktəbin "banisi" hesab edilmiş Mirzə İsmayıl Qasirin özü sonralar Mirzə Sadıq bəyə ithaf etdiyi farsca şeirlərindən birində yazmışdı:

Ariflərin arifidir Mirzə Sadıq bəy-
Duz-çörəkli, düz çərəkli, könül əhli bir insan.
Elmin bütün nöqtəsinə dəymiş onun qələmi.
Saf idrakı bir dəryadır, kamalısa asiman.
Onun ürfan ocağında oxuyurdu uşaqlar,
Yüz beytlik lüğət yazdım şeir ilə o zaman.
Fars dilindən, şəriətdən, bir də şeir-sənətdən

Dərs deyirdim...

Pedaqoq-şairimizin öz etirafı onu zorla "Azərbaycan Milli Məktəbi"nin banisi etmək istəyənlərə tutarlı cavabdır. Qasirin ədəbiyyat və pedaqogika tariximizdə yerini əsla kiçiltmədən deyə bilərəm ki, məhz o, 1860-cı ildə ilk dəfə "Talış dilinin qrammatikası" adlı dərs vəsaitini yazmışdır. Onun Seyid Əzimin təsirilə qələmə aldığı anadilli məktəbimiz üçün ilk Dərs vəsaiti isə 1894-cü ildə yazdığı "Qanuni-Mirzə İsmayıl Qasir" əsəridir. Bu da Qasirin 1883-1900-cü illərdə Lənkəran iki sinifli ibtidai məktəbində 18 illik Ana dili və şəriət müəllimi kimi pedaqoji fəaliyyətinin nəzəri-təcrübi yekunu idi.

Tarixi faktlar sübut edir ki, Azərbaycan Milli Məktəbinin banisi dahi şair-pedaqoqumuz Seyid Əzim Şirvani olmuşdur. Onun 1869-cu ildə Şamaxıda yaratdığı Anadilli xüsusi məktəb xalqımızın ilk Milli Məktəbidir.

Təsadüfi deyil ki, bundan bir il sonra, yəni 1870-ci ildə dahi pedaqoq-şairimiz S.Əzim də Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin açılışına xüsusi dəvətlilər arasında olmuşdur. Seyid Əzimin Anadilli məktəbi əsası Y.A. Komenski tərəfindən qoyulmuş Sinif-dərs sistemli Yeni məktəbin (üsuli-cədidin) bütün tələblərinə və prinsiplərinə cavab verirdi. Belə ki, burada keçilən Dərs kitabları da müasirliyi ilə xüsusi seçilirdi. Bu ilk Anadilli milli məktəbimizdə rus dili K.D.Uşinskinin "Vətən", hesab isə Yevtuşenkonun "Hesab məsələləri" dərsliklərindən tədris edilirdi.

Azərbaycan Pedaqoji Universitetinin 2014-cü ildə"Elm və Təhsil" nəşriyyatında çap etdirdiyi "Azərbaycan məktəb və pedaqoji fikir tarixi" adlı Dərsliyin "Seyid Əzim Şirvaninin anadilli məktəbi" bölməsində oxuyuruq: "Məktəbin tədris planında Ana dili əsas yer tuturdu. Məhz bu xüsusiyyətlərinə görə həmin məktəb Azərbaycan Məktəb Tarixində ilk nümunəvi anadilli məktəb hesab edilir" (Göst. əsər.H.Əhmədov, səh.:185.). N.Atabəylinin bu xüsusda yazdığı aşağıdakı misralar çox yerinə düşüb:

Bilik- nəzəriyyə, bacarıq - əməl,
Vərdişlər, sadəcə, həyat tərzidir.
"Böyük didaktika" deyir müfəssəl:

Məktəb universal həyat dərsidir!

İlk yazı lövhəsi, ilk parta, silgi,
Bir də ilk təbaşir: Seyidin dərsi!
İlk məktəb, müəllim, ilk elm, bilgi,
Milli məktəbimdə Seyidin irsi...

Bir qara tablodur Yazı taxtası,
Bir də ağ təbaşir Məktəbin gücü...
Bütün ömrümüzün nurlu mənası,
Bu qara tabloya cəmləyir bizi!

Müəllif haqlı bir nəticəyə gələrək, hər ilk Dərs gününü Seyid Əzimin adı ilə başlamağı tövsiyə edir. Milli pedaqoji məfkurəsinə görə 53 yaşında şəhid edilmiş ilk Milli pedaqoqumuzun ruhunu bundan gözəl yad etmək olmaz... Zəka məşəlinin əbədi sönməzliyinə dərin inam pedaqoji poemanın hər misrasında açıq duyulur:

Elm İlahinin odudur! Sanma
Biriylə başlayıb, biriylə bitdi.
Bəşər yaranandan bəri daima,
Məktəb sona çatmaz bir Estafetdir.

Pedaqoji poemanın daha bir maraqlı cəhəti ondakı Sələflər-Xələflər məsələsidir. Şair bunu ənənəvi "atalar-oğullar" antoqonizmi kimi deyil, Vahid milli maarifçilik hərəkatının ümumi estafet yürüşü olaraq əks etdirməyə çalışıb. Daha çox nəsillərarası mənəvi bağlantıları, körpüləri işıqlandırmağa çalışıb. Məktəb-Müəllim estafet yürüşündə biz yalnız ümumbəşəri həmrəylik ruhunun bədii ifadəsini görürük. Sokrat-Əflatun, Mir Cəlal-B.Vahabzadə, Əkrəm Cəfər-N.Atabəyli... diadasında bu həmrəylik daha bariz nəzərə çapmışdır. Bu sırada Mir Cəlal, Bəxtiyar Vahabzadə və Əkrəm Cəfər mənim də Universitet müəllimlərim olduğundan poemadakı bu bədii təsvirlərin tarixi xarakterinə şəxsən şahidlik də gətirə bilərəm. Xüsusilə, sevimli müəllimim, görkəmli yazıçımız Mir Cəlal Paşayevin öz tələbəsinə, B.Vahabzadəyə "Gülüstan" poeması ilə əlaqədar həbsə düşdüyü dövrdə göstərdiyi himayə və qayğı ədəbiyyat tariximizin ən parlaq səhifələrindən biri olaraq heç vaxt unudulmamalıdır.

Odur ki, müəllifin poemadakı bu tarixi iradına hər cür haqq qazandırmaq lazım gəlir:

**Mir Cəlal müəllim öz dəstəyini**
**Sonacan elədi Bəxtiyar üçün.**
**Tarix gizlətməsin öz bildiyini,**
**Açıq yazmalıyıq bunları bu gün.**

**KQB zindanı içindən alıb,**
**ADU-ya gətirdi, edib kamiyab.**
**Baxaq bu gerçəyə nəzərlər salıb,**
**Qoy bağlı qalmasın bu "Açıq kitab"!**

"Açıq kitab" Mir Cəlalın Sovet təhsil bürokratiyasına qarşı tələbə-gəncləri müdafiə məqsədilə yazdığı ən gözəl romanlarından biridir. Müəllif həmin romana işarə edərək, görkəmli yazıçı-pedaqoqun həyat idealı ilə yaradıcılıq qayəsinin tamamilə üst-üstə düşdüyünü, şəxsiyyət kamilliyini, mənəvi bütövlüyünü bədii ifadə etməyə çalışmışdır.

Poemada ilk Milli pedaqoq-şairimiz Seyid Əzimin maarifçilik yayan poeziyasına xas olan publisistik şeir təhkiyəsi nəzərə çarpır. Bu, pedaqoji əsərin postmodern tələbatından, habelə pansofik ideyaların, pedaqoji nailiyyətlərin ifadəsində elmiliyin traktat xarakteri ilə bədiiliyin obrazlılığını ustalıqla birləşdirmək zərurətindən irəli gəlmişdir.

Müəllim obrazı ədəbiyyatımızda az deyil. Lakin tarixi yanaşmanı unutmadan deyə bilərik ki, "Müəllim" pedaqoji poemasının qəhrəmanı tamamilə fərqli mənəvi koordinatlara, kriteriyalara uyğun qələmə alınmışdır. Məsələn, Almazdan (C.Cabbarlı) fərqli olaraq, İsmayıl müəllim xalqın dini inancına qarşı nəinki sayğılıdır, hətta onun təbliğ və təşviqində də fəaldır.

Ömrünün ahıl çağlarında məhz İsmayıl müəllimin təşəbbüsü ilə kənddə məktəb və yol çəkilişi ilə bərabər, məscid və mədrəsə inşasına da start verilir.

İsmayıl müəllim belə əxlaqi-dini keyfiyyətlərinə görə cəmiyyət tərəfindən kəndin ilk bələdiyyə sədrliyinə layiq görülür. Onun Allaha və Kitabına (Qurani-şərifə) münasibəti nəsillərə bədii xitabında çox mənalı ifadə olunmuşdur:

Ey bəşər! Könlünü daim açıq tut,
Gözəl rəhmi var gözəl Allahın.
Şeytanın, iblisin adını unut,
Gözəl ismi var gözəl Allahın.

Tanrı məhəbbətdir, iman bir barış,
Tale bir oyundur, həyat bir yarış.
Nə işə əl atsan "Allah!" de, çalış,
Gözəl əzmi var gözəl Allahın.

Qəlblərin şahı ol, Allahın qulu.
Səadət yoludur Quranın yolu.
124 min nəfər rəsulu –
Gözəl məsumu var gözəl Allahın.

Poemanın hər səhifəsində qoca yunanın edam öncəsi söylədiyi Tarixi nitqi qulaqlarda cingildəyir:

**Tarixə qılınclar, qalxanlar deyil,**
**Elm, mədəniyyət yol açacaqdır.**
**Bizi istilalar, tiranlar deyil,**
**Məktəblər, qələmlər yaşadacaqdır.**

Müəllifin əsərin baş qəhrəmanı İsmayıl müəllimin dilindən səsləndirdiyi yekun müraciəti də bu mənada dahi yunanla tam həmahəng səslənir.

**Taleyin Dan yeri Məktəb çağıdır.**
**Sönməz əsrlərcə ağlın şəfəqi.**
**Dünyanın zirvəsi Elm dağıdır,**
**İnsanlığın tacı Kitab vərəqi!**

Sanıram ki, 252 səhifəlik bu ilk bədii-pedaqoji salnamədə cəmiyyətimizin hər bir milli mərifət əhli özü üçün ideya əhəmiyyətli xeyli yeni fikirlər, düşüncələr əldə edə biləcəkdir. Poema barədə hər bir Oxucunun öz rəyi olacağına inanıram. Fikir plüralizminə sayğımı bildirməklə bərabər, düşünürəm ki, Azərbaycan Milli Məktəbinin qarşıdan gələn 150 illiyi (2019) münasibətilə qələmə alınmış bu ilk Pedaqoji poemaya əsl diqqəti və qiyməti də Müəllim və Məktəb verəcəkdir.

**525-ci qəzet (e-versiya). 04.12.2016. 14:07.**

https://525.az › news › 97188-namiq-atabeyli-60-yasin-...

Namiq Atabəyli: 60 yaşın odisseyası - 525.Az

5 apr 2018 — **Namiq Atabəyli** ilə biz tələbəlik yoldaşıyıq. Onun öz 60 yaşının əlamətdarlığı üçün yenicə nəşr etdirdiyi "Şirvanşah Böyük Axsitan" tarixi ...

525.az 525-ci qəzet

**05.04.2018. 16:28**



**NİZAMİ CƏFƏROV (akademik)**

# Namiq Atabəyli: 60 yaşın odisseyası…

**(DÖRD POEMA, ÜÇ KLASSİK DİVAN,
BİR POETİKA VƏ BİR TARİXİ ROMAN MÜƏLLİFİ OLARAQ,
ÖMRÜNÜN ZİRVƏSİNƏ UCALMIŞ AZAD YAZIÇI KİMİ…)**



**Namiq Atabəyli ilə biz tələbəlik yoldaşıyıq. Onun öz 60 yaşının əlamətdarlığı üçün yenicə nəşr etdirdiyi "Şirvanşah Böyük Axsitan" tarixi romanı haqqında ilk Sözü deməyi məndən gözləməsinin səbəbi özlüyündə aydındır.** Amma etiraf edim ki, həqiqətən, ilk gənclik çağından nə yazdığı və necə yazdığına, nə oxuduğu və necə oxuduğuna bir canlı şahid kimi, demək istəyirəm ki, onun faktla və tarixlə ünsiyyəti həmişə heyrətamiz olub. Bunun da əsas səbəbi genetik xarakterlidir. Çünki Namiq mənim çox yaxından tanıdığım peşəkar jurnalist Rəşid əminin oğludur. Tam əminəm ki, Namiq Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirməsə idi belə, yenə də bu uğurlu və kardinal bədii yaradıcılıq yolunu keçib nail olduğu ədəbi zirvəyə yetişə bilərdi...

Namiq bütün ömrü boyu radikal ziyalı olub. Həmişə nə etmək istəyibsə, onun ilk pioneri olmaq istəyib. Tələbəlik illərində azad şeirin poetikası ilə məşğul idi. Respublika tələbələrinin VIII Elmi konfransında Qızıl medala layiq görülmüşdü. Həmin elmi

nailiyyətinin üzərinə o, bir də 35 ildən sonra qayıdaraq, ötən il öz ilk tədqiqatını "Azad şeir və onun poetikası" adı altında nəşr etdirmişdir. Sərbəst şeir sahəsində elmi-filoloji və bədii yaradıcılığın zirvəsində ikən, o, birdən-birə klassik şeir yaradıcılığına da baş vurardı. İki ilin içərisində (2014-2015-ci illər) bir-birinin ardınca üç Qəzəllər divanını nəşr etdirdi.

Namiqin publisistikası da radikallığı ilə məşhurdur. Ötən əsrin 90-cı illərindən 2000-ci illərin ilk on illiyinə kimi "Namiq Fərəc Sığırlı" imzası ilə yazılmış siyasi publisistik yaradıcılığın əsas yekunu "Azadlığın qədri" kitabıdır. Bu kitab İkinci hakimiyyət dönəmində Ulu Öndərin həyat və fəaliyyətini pozitiv əks etdirən ilk kitabdır. Və bu gün "Heydər Əliyev. E-sənədlər toplusu" da 3-cü sırada yer almışdır. Orada kiril əlifbasında nəşri olan hələlik yeganə latın qrafikasından qabaqkı tək sənəddir.

Tələbə yoldaşımın poema janrında qələmə aldığı dörd poemadan - "Eol arfası" (1978), "Şahid" (2010), "Ana ürəyi" (2013), "Müəllim"-dən (2016) sonra, realist roman yaradıcılığına qədəm qoyması da onun yaradıcılığının məhz radikal xarakterindən irəli gəlir. Namiq birdən-birə trilogiaya yazmağa başladı... "Şirvanşahlar" adlı bu trilogiyanın ilk kitabı "Şirvanşah Böyük Axsitan" tarixi romanıdır.

N.Atabəylinin yaradıcılığı, əslində, uzunluq dairəsi 69*40, en dairəsi 37*40 olan milli bir iqlimin coğrafiyasına sığmayan "laməkan" (-Nəsimiyanə) bir alın yazısıdır... Onun koordinatları müxtəlif millətli və dinli (və ya dinsiz) XXI əsr oxucusunun virtual mədəniyyəti, coğrafi sərhəd tanımayan ümumbəşəriliyi, tolerantlığı, vizantizmi və İslami intibahçılığı, Əsli-Kərəm könlünün merdiyanları içindədir. 500 il bundan əvvəl süqut etmiş həmin diyarın adı bu gün öz şahanəliyi ilə əfsanəyə çevrilmiş tarixi ŞİRVANŞAHLAR DÖVLƏTİdir!..

"Şirvanşahlar" tarixi trilogiyasının birinci kitabı 1192-ci ildə Bakı şəhərini ilk dəfə paytaxt elan etmiş müsəlman padşah Şirvanşah Böyük Axsitan haqqındadır. Allahın con rəsulu Məhəmmədin (s.a.s.) ulu babalarından Mudarın qardaşı Rabiə bin Nizar, Rabiə qəbiləsinin başçısı olaraq, Şirvanşahların ulu babası sayılır. Trilogiyanın "Şirvanşah Böyük Axsitan" hissəsini və nəzərdə tutulmuş "Şirvanşah Şeyx İbrahim Dərbəndi" və "Son

Şirvanşah Şahruh Dərbəndi" adlı digər iki kitabını məhz bu müqəddəs nəsil şəcərəsi vahid ana xətdə birləşdirir.

861-ci ildə (yəni Rusiya dövlətinin yaranışından bir il əvvəl) Allahın son Rəsulunun (s.a.s.) əmi nəsli olan Rabiyə tayfasından çıxmış görkəmli İslam sərkərdəsi Heysam ibn Xalid ilkin tarixi "şirvanşahlar" titulunu öz üzərinə götürərək, yenidən Şirvanşahlar dövlətinin İstiqlaliyyətini elan etdi. Və bu dövlət 1538-ci ilədək 677 il (yeddi əsr) ayaqda duraraq yaşadı. Əhli-sünnət Şirvanşahlar İslam dövlətinin 42 nəfərlik (bəzi mənbələrdə 43 nəfər göstərilir.-N.C.) padşahından 20-cisi sayılan XX Şirvanşah I Axsitan 36 il taxtda oturmuşdur. O, tarixi romanın Baş qəhrəmanı olaraq, təsadüfən seçilməmişdir!.. Şirvan xaqanının anası şahbanu Tamar Baqrationi gürcü çarı IV Davidin qızı idi. Tamar xanım ərinin vəfatından sonra həyatının sonunadək indiki Cənubi Osetiyada yerləşən Tiqva qadın monastrında xristian-provaslav rahibə kimi İsa Məsihə ibadətlə məşğul olmuşdur...

Fərqli etnik mənsubiyyət, habelə xristian-provaslav və müsəlmanlıq kimi müxtəlif dini inanclar daşımış şahbanu ana və padşah oğulun faciəvi taleyi, habelə müharibə: Cihad və Səlib yürüşləri, dostluq, dərin eşq iztirabları, ehtiras, etibar və sədaqətin birləşdiyi kəskin tarixi hadisələr və süjet xətti üzərində qurulmuş bu romana hümanist oxucunun biganə yanaşacağı mümkünsüzdür...




Müəllif özünün Son Sözündə "Şirvanşah Böyük Axsitan" romanını şərh edərək yazır: **"Bu əsər Ön Asiya, Rusiya və Qafqaz xalqlarının tarixi dostluq və qardaşlıq əlaqələrinin bədii ifadəsidir. Biz keçmişdən dərs götürərək, həm də gələcəyin dürüst yollarını müəyyənləşdirə bilərik. Trilogiya Gürcüstan, o cümlədən, Abxaziya, Osetiya, Atabək Yurdu (Sa-Atabaqo qıpçaq xristian Atabəkiyə Dövləti: 1268-1578), Bizans (indiki Yunanıstan və Türkiyə), Dərbənd (indiki Rusiya Federasiyasının ən qədim şəhəri) və Şirvan (indiki Azərbaycan Respublikası) arasında geosiyasi birliyin qədim**

**tarixi köklərini və perspektivlərini üzə çıxarmaq üçün qələmə alınmışdır".**

N.Atabəyli postmodernizm ilə ənənəvi realist romanın yaradıcılıq prinsiplərini birləşdirməyə çalışmışdır. Əsərdə süjet və fabula daxili konflikt və əks qütbləşmə, müxtəlif güc sistemləri (baş, qarşı, birləşdirici, itici və s.), personatura, əsasən, qorunub saxlanılmışdır. Lakin elmi-tarixi və faktoloji prinsiplər baxımdan, əsər postmodern ədəbi metoduna söykənir. Yazıçı realist roman üslubuna da çox sadiq qalaraq, sözün hadisəsini (macərasını) deyil, hadisənin sözünü qələmə almış, müəllif mövqeyini son iki əsrdə dünyada geniş yayılmış bir yazının (və ya mətnin) macərasına çevrilmək mərəzindən qoruya bilmişdir. Bu roman yeni minilliyin Oxucu elektoratına ünvanlanmış bədii bir xitabdır. Diqqəti süjet, fabula, fəsil dəyişiklikləri deyil, qəhrəmanlardakı mənəvi dəyişikliklər daha çox cəlb edir. Romanda XII əsrin bir çox ünlü tarixi simaları- Gürcüstan çarı III Georgi və onun qızı çariça Tamara, Bizans impetatoru Manuel Komnenos və vəliəhdi (-son qeyri-latın imperator) Andron Komnenos, Abxaz çaçbaları- Şirvanşahidzelər (-Şervaşidzelər), Dərbənd əmirləri, Azərbaycan Atabəyi Şəmsəddin Eldəniz, şair İbrahim Əli oğlu Xaqani Şirvani və başqalarının bədii obrazları yaradılmışdır.

Romanın əsas qadın qəhrəmanlarından biri şirvanşah Axsitanın anası Tamar David qızı Baqrationidir: öncə şahbanu, sonradan monastr rahibəsi olan bu xanımın keşməkeşli həyat sərgüzəşti romanın əsas süjet xətlərindən birini təşkil edir. Bütün ziddiyyətli dünyagörüşlərinə baxmayaraq, nəhayət, taleyilə barışaraq, ruhən müsəlman oğlu ilə birləşən bu ANA əsrlərin sınağından çıxmış gürcü-azəri Dostluq və Qardaşlığını simvolizə edir.

Şirvanşah III Mənuçöhrün bacısı, I Axsitanın bibisi olmuş İsmətəddin Əfiridun qızı Şirvaninin simasında XII əsr intibahının ziyalı müsəlman qadını təsvir edilmişdir. O, Məlhəm Universitetinin rektoru, diplomat və hərbi qadın sərkərdə kimi ədəbiyyatımıza gətirilmiş ilk intibah qadınıdır.

Bu gün qardaş Abxaziyada minlərcə ünlü isim vardır ki, özlərini knyaz nəsli kimi Şirvanşah III Mənuçöhrün varisləri hesab edirlər. Şirvaşidze (Şirvanşah-idze) olaraq, özünü Şirvanşah oğulları adlandıran bu ünlü nəsilin ilk dəfə öz ata yurdunda

yazılmış bu romanda fəal qəhrəmanlar sırasında görünməsi də, məncə, bu əsərə oxucu marağını daha da artıracaqdır.

Gürcü çarlığının əsarətinə qarşı ilk istiqlal savaşı açmış abxaz Dad əd-Din Şirvanşah-idze (Dardın Şervaşidze) Çaçbanın 1210-1243-cü illəri əhatə edən müstəqil Abxaziya knyazlığı bu gün damarlarında şirvanlı qanı daşıyan hər bir kəs üçün milli qürur mənbəyidir. Çünki istiqlalçılıq və Şirvanlılıq ayrılmazdır. Müəllif tarixə yamaq salmadan tərəfsiz mövqeyi ilə azadlıqsevər bütün Qafqaz xalqlarının ümumi ortaq xarakter cizgilərini qabarıq şəkildə oxucuya təqdim etməyə çalışmışdır.

Şirvanşah-idzelərdən knyaz G.Şervaşidze 1899-cu ildə Rusiya çarının anası imperatiriça Mariya Fyodorovna tərəfindən Sarayın ober-qofmeysteri vəzifəsinə irəli çəkilmiş, çar hakimiyyətinin sonlarında isə imperiatriçanın əri olmuşdur. Georgi Şervaşidze Rusiya çar imperiyası dağılarkən, tacdan məhrum edilmiş II Nikolayın anası imperatiriça Mariya Fedorovna ilə birgə öz oğlu Dmitri Şervaşidzenin uğursuz da olsa, Rusiya imperiyasının taxtına çıxarılmasına cəhd etmişdir... Bu cəhdin özü Rusiya çarlığının timsalında Avrasiyanın şahlıq qürurunun qorunması üçün Şirvanşah-idzelərin son şahanə ŞİRVANLILIQ jesti idi.

Romanda baş qəhrəman, heç şübhəsiz, XX Şirvanşah I Axsitandır (1160-1196). Axsitanın gəncliyi Azərbaycan Atəbəylər Ordusunda sərt hərbi nizam şəraitində keçmişdir. Onun vəliəhdliyinə qəsd etməyə çalışan gürcü anasının çevriliş cəhdinin qarşısı da məhz Azərbaycan Dövlətinin dahi rəhbəri Şəmsəddin Atabəy Eldəniz tərəfindən alınmışdır. Şirvandan və müsəlman övladlarından üz döndərmiş bir ananın Monastra dönərək öz Şirvanşah oğluna qarşı Səlib yürüşçüləri ilə birgə amansız mübarizə aparması, əlbəttə, ən dəhşətli qarşıdurmalardan biridir. Lakin öz oğlunu öldürmək məqamında Tamar Baqrationinin ana əlləri kinlə dolu intiqamçı qəlbinin səsinə uymur. Romandakı dərin psixoloji səhnələrdən birində müəllif həmin həqiqəti belə təsvir edir: "Rahibə özünü itirərək, xəncəri əlindən yerə saldı. O, həzrəti İsaya əyilirmiş kimi indicə öldürməyə çalışdığı oğlunun sinəsi üstünə öz başını qoydu və həzin bir səslə göz yaşları tökərək ağlamağa başladı.

***-Aqsartanım! Cəngavər oğlum... Mən səni dünyanın padşahı etmək istəyirdim. Sən mənə qarşı çıxdın... Baban Davidin Xaçlı Bayrağını daşımadın.. Mən səni həm xristianların, həm də müsəlmanların çarı edəcəkdim, ay oğul. Səni bir imperator edəcəkdim, ay oğul! Ömrüm boyu bunu düşündüm.. Sən mənim bütün arzularımı gözümdə qoydun, Aqsartan?..***

***Rahibə ağı deyə-deyə oğlunun qılınc yaraları ilə dolu köksünü açıb qucaqladı. O, indi göz yaşlarını öz oğlunun salamat bir hissəsi olmayan bədəni üstünə tökərək ağlayırdı. Acı-acı, yanıq-yanıq, həzin bir fəryad içində ağlayırdı...***

***- Sən elə bilirsən qədrini şirvanlılar biləcəklər? Yox, oğlum, mənim kimi sadəlövh olma... Mən ki Şirvanşahların 40 illik məleykəsi idim. Aclarını, yalqızlarını, binəsiblərini doyumuşdum. Hamıya, hər kəsə əl tutmuşdum. Amma sən məni ölkədən çıxaranda, onların hamısı ardımca baxıb gülürdü, oğul. Sənin də qədrini bilməyəcəklər. Vallah-billah bilməyəcəklər. Şirvanlıların yolunda öz cavan canını qılınclara, nizələrə, oxlara nahaq sipər etmisən, mənim balam. Çox nahaq, yaxşılıq nə olduğunu bilən bir müsəlman tanımıram. Bir səndən başqa!.. Çünki sən onlardan deyilsən, mənim balam. Sən David nəslisən... Sən mənim oğlumsan, Aqsartan!.. Onlar unudacaqlar səni... Sən ölən günü unudacaqlar... Taxtından düşdüyün günü sənə anan məsihi olub deyəcəklər, qanın qarışıq olub deyəcəklər, axmaq deyəcəklər... Sənə ərəb deyəcəklər, kəsrani deyəcəklər, oğul... Hər şey deyəcəklər sənə... Bir Haqqını belə, dilə gətirən olmayacaq. Bu tökülən qanlarını, Vətəninin uğrunda apardığın davalarını heç bir şirvanlı yad etməyəcək, oğul. Bu dünya bir qarın dünyasıdır. Kimin qabağına yal atılırsa, o da sahibi üçün hürür. Bunlara kim yal verəcəksə, sabah it kimi yalnız onun üçün hürəcəklər. Sən öldünsə, oğul, haqqın da öldü demək. Bəlkə, heç məzarını da saxlamadılar... Şirvan üçün, İslamiyyət üçün bu qılınclar qabağına qoyduğun cavan canını, sədaqətlə qoruduğun cahangir ismini yada salmayacaqlar, ay oğul. Aqsartanım, aslan oğlum mənim... Sən mənim oğlumsan... Mənim oğlumsan... Sənə ağlayan da mənim ürəyimdi, səni ağrıdan da... Dur, bir kərə, bir kərə mənə "ana" de. Öldürmə məni, oğul... Mən onsuz da ölmüşəm!.."***

Mən hesab edirəm ki, Azərbaycan tarixinin şanlı hökmdarları Xalqımız tərəfindən heç vaxt unudulmayıb və unudulmayacaqdır... Romanda öz övladlarını dini təəssübkeşliyə qurban vermiş dönük bir "Ananın" səsləndirdiyi bu ittihamlar onun özünə haqq qazandırmaq cəhdindən başqa bir şey deyildir.

Rahibə Tamar Baqrationinin öz kiçik oğlu vəliəhd Şahənşah tərəfindən öldürülməsi ilahi bir cəza kimi rəmzi məna daşıyır:

***"Nəhayət, səbri daşmış vəliəhd əlindəki soyuq silahın dəri örtüyünü çıxardı və arxadan xəncəri onun özü üçün dualar söyləyən rahibə anasının ürəyinin başına endirdi...***

***"Ah, öldüm... Allahım keç oğlumun günahından..." - Rahibə Tamar zorla çevrilib, oğlunun qucağına yıxıldı. - Nə üçün, axı, ay oğul?.. - dedi. O, ömrünün bu son faciəvi anlarında belə dodaqlarını uzadıb, Şahənşahı öpməyə çalışdı... Amma can verən rahibədə bunu edə biləcək bir güc yox idi. Artıq tənhalıq və səhvlərlə dolu bu faciəvi həyat onu tərk edib getməkdə idi...***

***Ana son anda yalnız iki dəfə "Aqsartan" deyə bildi və bu dünyanı əbədi olaraq tərk etdi. İsti qan onun ağzından fışqırıb, monastrın parlayan mərmər döşəməsi üstünə töküldü.***

***Şahənşah yalnız indi, anasının cansız bədənini divana qoymaq istərkən, onun üçün bəzədilmiş süfrədəki Qızıl gülləri gördü. Bir anda uşaqkən Şamaxıda Sarayın həyətində susəpənlə Qızıl gül kollarını sulayan anası Tamarı yadına saldı. Sinəsini bürüyən göynərtini boğaraq, ağzından qan açılmış anasına baxıb durdu. Ananın nəmli gözlərində həyat ifadəsi olmasa da, həsrət və həyəcan dolu bir sükut donub durmuşdu. Bu, 14 illik bir ayrılığın donub buza dönmüş göz yaşları idi...***

***...Sonra müsəlman vəliəhd provaslav anasının dilsiz nəşini qucaqlayaraq, asta, lap asta bir səslə onunla canlı kimi danışmağa başladı:***

***-Axı, niyə bizi atdın, ana?.. Bu quru daş divarlarda balalarını əvəz edəcək nə vardı ki?.. Allah dediyin burdan çox-çox yuxarılardadı... Tanrı torpağa əyilməz. Onun yerdə baş verənlərə qarışmaq həvəsi yoxdu. Bax, o, bizi görmür, ana!.. Əgər görsəydi, bu halımıza onun da ürəyi tab gətirə bilməzdi. Allah dediyin səni bizdən, bizi səndən ayırmazdı... Bu divarlar daşdan-torpaqdan başqa bir şey deyil, mənim anam. Monastrlar, məscidlər insan əllərilə tikilib, insan əlləri ilə də dağıdılır... Hanı Tanrı dediyin burda, ana?! Bu ürəyi, qəlbi ki bizə Allah verib, bəs nədir bu dünyadakı kinlər, küdurətlər?.. Sən niyə bizim ürəklərimizi dağıtdın, ana... Niyə övladını siyasətə alət etdin? Altı-yeddi yaşında bir uşağın min illərin Şirvanşahlığının tacını başına qoyması hardan sənin ağlına gəldi? Hansı şərəfsiz xaxam, keşiş, katolikos, patriarx səni bu yola saldı, anacan?.. Yox, səni mən öldürmədim. Sən məni öldürdün, ana. Məni sən qatil etdin. Sən, sən... Tək məni öldürmədin. Sən Axsitanla bizim doğmalığımızı, qardaşlığımızı da öldürdün. Sən özün bütün balalarını öldürdün, ana.***

***Hanı sənin Alçiçəyim?.. Hanı Fəribürzün, Fərruxzadın, Əfiridunun? Bizə tacmı lazım idi, ana? Yox, yox... Bizə-Alçiçəyə, Şahənşaha yalnız ana lazım idi. Ana! Mənə Axsitanın qardaşlığı lazım idi, tacı yox... İndi de özün: hansımız daha çox qatilik, ana?.. Danış, cavab ver, susma!.. O qanlı tacı Aqsartan oğlun indi mənə verib, ana. Mənə tac yox, sən lazım idin! Yalnız sən lazım idin, ana!.. Aç gözlərini. Bu mənəm: Şahənşahın sənin! Qucaqla, öp məni, ana!.. Məgər ana da öz oğlunu beləmi qarşılayar? Qalx ayağa, ana. Mən sənin üçün gəlmişəm... Dur, bir stəkan çay gətir mənə... Axı, sənin üçün çox uzaq yol gəlmişəm, ana... Görürsən, nə qədər yorulmuşam... Acmışam, ana!..***

***Rahibə Tamarın qanı axıb qurtarmış olsa da, gözləri hələ də açıq şəkildə durub, sanki oğluna zillənmişdi. Şahənşah əlləri əsə-əsə anasının gözlərini qapadı..."***

Azərbaycan ədəbiyyatında tarixi roman yaradıcılığı sahəsində təcrübə az deyil. Lakin N.Atabəyli ilk dəfə ədəbiyyatımıza uzun əsrlər kölgədə qalmış Şirvanşahların tarixi-bədii obrazını gətirməklə, bəlkə də, inqilabi bir addım atmışdır. Bunun üçün o, XII əsrə aid geniş elmi və bədii materialları nəzərdən keçirərək, qəhrəmanların dialoq və düşüncələrinə tarixi və yerli-coğrafi kolorit vermiş, klassik Şirvan poeziyasının bədii üslubiyyətini qoruyub saxlamağa nail olmuşdur. Romandakı kəskin dəniz və quru döyüş səhnələri, diplomatik mücadilələr, psixoloji həyəcanlarla bərabər, diqqəti tez-tez özünə çəkən poetik parçaların təqdimi də oxucunu qədim Şirvanın unudulmuş idillik dünyasına aparır, onu Yeni Şirvanlılıq mənəvi materikinə gətirib çıxarır. Uzaq epoxanın sosial problemlərinin canlı obrazlarda təcəssüm etdirilməsi çağdaşlığın qarşılaşdığı bir çox məsələlərin də dərindən anlaşılmasında bizə böyük yardımçı ola bilər. Əlbəttə, tarixə hər nəslin, hətta hər bir ayrıca sənətkarın öz yanaşma tərzi vardır. Məncə, "Şirvanşahlar" trilogiyasının ilk kitabı kimi "Şirvanşah Böyük Axsitan" əsəri N.Atabəylinin tarixi romançılıqda sənətkar mövqeyinin ilk ifadəsi sayıla bilər. Və o, 552 səhifədə özünün XII əsrə aid düşüncələrini kifayət qədər aydın ifadə edə bilmişdir. Bundan müasir oxucunun özünə nə götürəcəyi artıq onun özündən asılıdır.

Qeyd edim ki, bu roman tolerantlığa və multikultuaral dəyərlərə çağırış romanıdır. Bir neçə ildir ki, məşhur Kanada alimi Con

Endrü Morrou (İlyas Əbd-əl-İslam) böyük fədakarlıq edərək, Allahın rəsuluna (s.a.s.) aid xristian və müsəlman xalqlarının ilahi müttəfiqliyini əks etdirən 6 mühüm müqəddəs sənədi aşkara çıxarıb ictimailəşdirmişdir. Çox qısa bir vaxt ərzində Avrasiya ölkələrinin əksəriyyətində, o cümlədən, Rusiya və Azərbaycanda bu sənədlərin tərcümə və nəşri həyata keçirilmişdir.

İslamın Tanrı elçisinin (s.a.s.) bəşəriyyətə təqdim etdiyi tarixi və ilahi sənədlər onun öz imzası, möhürü və şahidləri ilə təsdiqlənmişdir. Bu Sənədlərdən biri 1517-ci ildə Osmanlı sultanı I Səlim tərəfindən Sinay monastrı rahiblərindən 4000 qızıl sikkəyə satın alınmışdır. Həmin sənəd 620-ci ildə Tanrı elçisi Məhəmmədin (s.a.s.) Sinay monastrı rahiblərinə verdiyi vədlərdən ibarətdir. Burada Xristian və Müsəlman xalqlarının "həqiqətin düşmənlərinə qarşı mübarizədə" ilahi müttəfiqliyi öz əksini tapmışdır.

III Minilliyin ikinci on illiyində qələmə alınmış "Şirvanşah Böyük Axsitan" tarixi romanı tolerant-multikultural mədəni dəyərlərə əsaslanan bədii əsər olmaqla bərabər, eyni zamanda, xristian bir ananın (Tamar Baqrationinin) və müsəlman oğulun (XX Şirvanşah I Axsitanın) taleyi fonunda bütün bəşəriyyəti İlahi müttəfiqlik naminə MÜQƏDDƏS TƏŞƏBBÜS-ə bir çağırışdır.

**P.S: Dostum Namiq Atabəyli! Sizi aprelin 4-də tamamlanan 60 yaşınız münasibətilə ürəkdən təbrik edirəm. Məncə, bu yaşda bir yazıçı üçün ən böyük mükafat Oxucunun rəğbətidir. İnanıram ki, Siz bu rəğbəti artıq çoxdan qazanmışsınız. Məna və mübarizə ilə dolu həyatınızda Sizə yeni-yeni uğurlar arzulayıram.**

**525-ci qəzet (e-versiya). 05.04.2018. 16:28**

http://atatv.az › gundem › 8652-namiq-atabyli-v-onun-...

Namiq Atabəyli və onun "Şirvanşahlar" saqası - Atatv.az

29 may 2019 — **Namiq Atabəyli** və onun "Şirvanşahlar" saqası/b b("Şirvanşah Şeyx İbrahim Dərbəndi" romanının Birinci cildi haqqında) Bədii ədəbiyyatda ...

Ata TV

29 may 2019. 19:57

**Rəsafil Bayramov. AtaTV.az saytının Baş redaktoru**




# Namiq Atabəyli və onun "Şirvanşahlar haqqında saqa" roman-epopeyası…

Bədii ədəbiyyatda elmi-texnoloji inkişafın sürəti ilə ayaqlaşmayan mühafizəkar ədəbi-metodoloji kriteryalar dəyişən dünyada dəyişməz maneələr kimi ortaya çıxmışdır. Çağdaş postmodern düşüncə tərzi ənənəvi dünya tarixi şüurunda bir sıra istiqamətdə dəyişikliklər tələb edir. Bu mənada, yazıçı Namiq Atabəylini radikal ədəbi və elmi yaradıcılığın ən kreativ nümayəndələrindən biri saymaq daha doğru olar...

Namiq modernizmdən postmodern yaradıcılığa keçid etmiş bir sənətkardır. Bildiyimiz kimi, modernizmin inkişafı dünyagörüşün tamlığına, kosmosa, dibsiz stixiyalara və ali mənəvi substansiyalara yönəlmişdir. Ona oppozisiya olaraq meydana çıxan postmodernizmdə isə mətn üçün kontekst gərək deyil. Çünki ideya-məzmun daha çox tektsdən kənardadır. N.Atabəylinin postmodern "Şirvanşahlar" trilogiyasının hələlik nəşr edilmiş iki romanında – "Şirvanşah Böyük Axsitan" (2018) və "Şirvanşah Şeyx İbrahim Dərbəndi"-də (2019) avanqard

pradiqma, əsasən, “dünya”, kosmos və insanın özünün yenidən yaradılmasına yönəldilmişdir. Bəlkə də, yazıçı elə buna görə son romanına M.Y. Saltıkov-Şedrinin aşağıdakı fikrini ruscasında olduğu kimi Proloq seçmişdir: «Мне нет никакого дела до истории, и я имею в виду лишь настоящее». Vaxtilə, İ.İlin doğru qeyd edirdi ki, “Postmodernizm epoxasının gəlişi ilə sənətlə düşüncə arasındakı münasibətdə birmənalılıq aradan qalxır.” Tamamilə mümkündür ki, postmodernist mətn əks tərəfin də mövqeyinin eynibərabərli ifadəçisi olsun. Namiq bəy Şirvanşahlar bədii və elmi teması üzərindənki çoxəsrlik tabunu aradan qaldırmaqla, ənənəvi oxucular üçün mənəvi tariximizin Şirvanlılıq və Şahanəlik mövzusuna yeni bir QAYIDIŞ yolunu açmışdır. Baba Dağ Bakuvi Şirvani (933-1050) və İbrahim Əli oğlu Xaqani Şirvani (1120-1199), Şeyx İmadəddin Nəsimi (1367-1404) və Hacı Seyid Əzimlərin klassik yoluna yenidən işıq salmışdır. Bu, özünəməxsus bir intibah, dirçəliş sistemi deməkdir. N.Atabəylinin tarixi romanı yaradıcılığında Tarix ilə Müəllif arası münasibətdə birinci tərəf üstündür. N.Atabəyli , demək olar, yalnız Tarixin haqqını tanıyır. Biz romanın heç bir sətrində, epizodunda Onun özünü görmürük... Bu mənada, mətn mühitində müəllifin ölümü (yoxluğu) kimi bir qeyri-ənənəvi bədii-məntiqi vəziyyət yaranır...

Namiqin Tarixlə gözəgörünməz “dialoqu”, müəyyən mənada, ənənəvi tarixdən imtina etməsində özünü bariz büruzə verir. Hecə deyərlər, yazıçı Tarixi qarşıya qoyduğu problemin həllinə deyil, problemin özünə çevirməyə çalışımışdır. Onun postmodern dünya dərki və bədii prinsipləri ilə yazdığı “konfliktsiz” əsərləri 60-cı illər Azərbaycan ədəbiyyatının korifeylərindən sayılan Mehdi Hüseynin (“Abşeron”, “Yeraltı sular dənizə axır” və d. romanları) və Mir Cəlalın (“Açıq kitab” romanı) sınaqdan keçirdikləri və ədəbi tənqiddə birmənalı qarşılanmamış tarixi təcrübələrinə təkrar qayıdış kimi də görünür. Mən tam əminliklə deyə bilərəm ki, nə qədər amansız qarşıdurmalar, psixoloji və mənəvi ziddiyyətlərlə müşayiət olsa da, “Şirvanşahlar” epopeyası tarixə konfliktoloji yanaşmalardan uzaq bir əsərdir.

N.Atabəylinin klassik janrlarda yazdığı “Vahidiyəm Azərbaycanın”, “Seyidəm ərseyi-eşq içrə...” və “O xəyalımdakı

Şirvan” qəzəllər kitablarındakı ənənəvi “aşiq-məşuq” münaqişə və ziddiyyətləri sözü gedən qeyri-sinfi və postmodern planda qələmə alınmışdır. Üç klassik qəzəllər Divanı ilə o, keçmiş ilə gələcəyi özündə birləşdirən əbədi mövzular və personajlar aləminə qayıdaraq, müasir Azərbaycan ədəbiyyatına yeni innovativ dəyişikliklər etməyə çalışmışdır... Müəllifin yenicə nəşr edilmiş növbəti tarixi romanı- “Şirvanşah Şeyx İbrahim Dərbəndi” (“EUROPA” publishing house, Bakı-2019) əsəri əvvəlki pomanı ilə müqayisədə xeyli konstruksiya-süjet-fabula dəyişikliyinə malikdir.

Əgər “Şirvanşah Böyük Axsitan”da ulduz sistemli kompozisiyanı - hadisələrin yalnız Baş qəhrəmanın ətrafında cərəyan edərək, əvvəl-axır gəlib onda birləşdiyini görürüksə, yeni romanda süjet-fabula üst-üstə düşərək birxətli düzən almışdır. Yeni roman “Şirvanşahlar” saqasının “Dərbəndilər” bölməsini təşkil edir. İbrahim şah 1382-ci ildən 1538-ci ilədək hakimiyyət sürmüş sülalənin ulu öndəri və banisidir. Məhz onun oğlu Şirvanşah Xəlilullah 1428-ci ildə ölkə paytaxtını Şamaxıdan Bakıya köçürərək, XX Kəsrani hökmdarı Böyük Axsitanın (1160-1196) Bakımərkəzli siyasətini davam etdirmişdir. Yeri gəlmişkən, I Axsitan onun ilk tarixi romanının baş qəhrəmanıdır. Bu əsər barədə ilk ədəbi-tənqidi münasibəti isə çox hörmətli akademikimiz N izami Cəfərov “525-ci qəzet”də bildirmişdir. Bizim həmin deyilənlərə əlavə etməyə hələlik heç bir sözümüz yoxdur.

Son romanda əsas müsbət surətlər- qanuni vəliəhd, Dərbənd əmirzadəsi İbrahim ibn Sultan Məhəmməd Dərbəndi, ağdaşlı Moskva Kremlinin memarı boyar Kərəməli Şirvani, ərəb filosofu ibn-Xəldun, dahi Azərbaycan şairi Arif Ərdəbili, şirvanşah Keyqubad Adil, Moskva böyük knyazı Dmitri İvanoviç (Donskoy) və onun böyük bacısı, şirvanlı memarın həyat yoldaşı Anna İvanovna, Böyük knyagina Yevdokiya Dmitriyevna Moskovskaya, Bizans imperatoru V İoann Paleoloq, onun qızı Mariya Paleoloq, Dərbənd əmiri Sultan Məhəmməd, kazak qızı Frola, Məlhəm mədrəsəsinin müdiri İsmayıl İsmayılzadə və onun ziyalı ailəsi, Rusiyanın birliyi ideyasının əsas ideoloqu Moskva mitropoliti Aleksiy, Şirvan sarayının Baş mühafizi Musəddiq

Zəngi və başqalarıdır. Mənfi surətlər sırasında isə əsasən, Şirvan sarayının Baş vəziri Ramz ibn Meho əl-Kakuyi, kazakbaşı Vsevolod, diokratik hökmdar Kavus ibn Keyqubad Adil, onun deyləmi-kəsrani baldızı Şəhrəbanu, knyaz Olqerd Qədiminoviç Litovski və başqalarını görürük.

Romanın əsas qayəsi Elmli mənəviyyat ilə Nadanlıq arasında bilikyönümlü cəmiyyət uğrunda gedən savaşda insanlığın Zəka cəbhəsini təmsil edən mütərəqqi qüvvələrin zəfər çalmasıdır. Namiq Qədim və Orta Əsrlər Şirvanşahların tarixinin Sufi mədəniyyəti ilə Bizans ellinizmi və Rus provaslaviyası arasındakı tarixi mənəvi bağları üzə çıxarararaq, Neoavrasiyaçı baxışların təntənəsini ifadə etməyə çalışmışdır. Məncə, bu məqsədinə tamamilə nail olmuşdur.. Elə ona görə də romanda Qədim Dərbənd şəhəri Şirvan şahlığının son səhifəsi olaraq, amansız MONQOLİST bədii "bu gün" üzərindəki ölümsüz Şirvanlılıq mənəviyyatının ezotrik tarixi Zəfərinin əsas ruporu kimi çıxış edir...

Namiq Atabəyli Azərbaycan Dövlət Universitetini (əyani) bitirən kimi keçmiş SSRİ-nin Hərbi Silahlı Qüvvələrində zabit olaraq həqiqi hərbi xidmət göstərmişdir. Onun xidməti Zaqafqaziya hərbi dairəsində Cənub sərhədlərimizdə keçmişdir. Bu, hərbi təcrübə onun tarixi trilogiyasında təsvir edilən müharibə səhnələrində, döyüş teatrlarında, hərbçilərin psixoloji obrazlarının bədii ifadəsində dərhal nəzərə çarpır. İlk növbədə, Şirvanşah I Axsitanın Şirvan (-Xəzər) dənizində varyaqlarla dəniz savaşlarının təsvirlərində bu xüsusiyyətlər aydın göründü. İkinci romanda Moskva böyük knyazlığının paytaxtı Moskvanın Litva knyazı Olqerddən müdafiəsində Dərbənd əmirzadəsi kimi İbrahim ibn Sultan Məhəmmədin "Ağ canavar" ləqəbi ilə göstərdiyi hərbi şücaətlərin təsvirində də müəllifin hərbi sahədə bilik və təcrübəsi diqqəti cəlb edir. Namiqin filoloji savadı çox yüksəkdir. Onun hələ tələbə ikən yazdığı "Azad şeir və onun poetikası" elmi işi respublika Tələbə-elmi konfransında Qızıl medala layiq görülüşdü. Müəllifin yeni roman yaradıcılığında baş verən innovativ dəyişiklər aydın surətdə göstərir ki, onun nəsr yaradıcılığı da durmadan inkişaf etməkdədir. O, bütün əqli yaradıcılığını dünyanın dəyişən siması ilə uzlaşdırmağa və çağdaş

oxucunun virtual auditoriyasına doğma olmağa çalışır. Mürəkkəb ədəbi əsərlər öz strukturuna görə Körpüyə bənzəyirlər: nəhəng quruluşlu Nyu-York, San-Fransisko körpüləri kimi! Onları çay üzərində quraşdırmaq üçün ən adi trosun belə funksional əhəmiyyəti nəzərə alınmalıdır. Tarixi roman asan yazılmır. Mixail Şoloxovun "Sakit Don"u kimi bir şedevri, heç şübhəsiz, Şumer çarlığında "Sakit Fərat" və ya Qədim Misirdə "Sakit Nil" olaraq yazıya almaq mümkün olmazdı. Çünki Quldar keçmişin sənətkarları M.Şoloxov kimi Avrasiyanın insanı deyildilər. Dahi rus ədibi "Sakit Don"u yaratmaq üçün Rus ədəbi tarixinin bütün təcrübəsini, rus ədəbiyyatşünaslıq düşüncələrini akkumilirə eləmişdir. "Sakit Don"a Puşkin, Qoqol, Tolstoy, Bulqakov və Bunindən keçərək gəlmişdir... Namiq Atabəylinin də, bu mənada, öz müəllim və mürşidləri vardır. İlk növbədə, o, açıq şəkildə Avrasiya yazıçısı olaraq, geopolitik mövqeyini bəyan etmişdir. Qədim Şirvan şahları, Dəmir Dərbənd əmirləri və Moskva Böyük knyazlarının tarixi obrazlarının bədii canlandırılması Atabəyli yaradıcılığının əsas xüsusiyyətlərini təşkil edir. Yəqin ki, elə buna görə yeni romanında geniş təsvir edilmiş Moskva böyük knyazlığı ilə qədim Şirvanşahlar dövlətinin müsbət tarixi əlaqələrini nəzərə alaraq, o, öz əsərini Rusiya prezidenti Zati-aliləri cənab Vladimir Vladimiroviç Putinə ithaf etmişdir. Kitabda oxucuya təqdim edilmiş e-resurslardan bəlli olur ki, yazıçı Rusiyanın rəhbəri ilə virtual dostluq əlaqələrinə malikdir və onun son prezident seçkisinə beynəlxal dəstək vermiş ziyalılardan biri olmuşdur.

Monqol-tatar əsarəti altında olan Rusiyanın azadlıq mübarizəsinə şirvan xalqının pozitiv tarixi münasibətini əks etdirən bədii parçaları şərh edən müəllif **"Türkinfo.org" saytına 4.I.2019-cu il** tarixində verdiyi **Müsahibə**də bildirir. **Sual:** -*Sizin yeni romanınızda şirvanlı memar Kərəməli Şirvani ilə Moskva knyaginası Anna İvanovnanın eşqi, müəyyən mənada, Baba Dağ Bakuvi-Şirvaninin (933-1050) qutsal ilahi məhəbbətini təkrarlayır. Bu nə dərəcədə məntiqidir?*

**N.A.**:- *Romanda Orta əsr şirvan ziyalısının bədii obrazıi olan Moskva memarı boyar Kərəm Əli Şirvani Şirvanlılığın dərin*

*ümumbəşəri mahiyyətini əks etdirir. Kiçik bir epizodu xatırlatmaq istərdim. Moskva mitropoliti Aleksiy sui-qəsdlə öldürülmüş memarın öz xanımına yadıgar qoyduğu yeganə rəsmini ölkə rəhbərinə şərh edərkən söləyir: "Zati-aliləri! Rəhmətlik yeznəmiz ciddi eksfrasis bədiiləşməsi aparıb. Rəsm dünyəvi əsərdən daha çox ikonoqrafik sənət nümunəsidir. Burada Müzəffər Georginin İlan üzərindəki zəfərini Elmin cəhalət üzərində qələbəsi əvəz eləyib. Anna bacımızın simasında rəsm daha çox, Sinay monastırının VI əsrə aid əli kitablı " Христос Пантократор " ikonasını xatırladır. Annanın başı üstəki nimba onu "yer sərhəddindən" çıxarıb, "səma sferasına " qovuşdurur. "Müqəddəs Anna" rəsmi Xlaskarımızın insani təcəssümünü (по-человическому естеству) əks etdirir..."*

Namiq Atabəyli dünya və rus ədəbi ənənəsinə uyğun olaraq, bəzən intim səhnələrin geniş təsvirini vermişdir. Əlbəttə, burada Nabokovun "Lolita"sı ilə Mopassanın "Həyat"ı arasında ortaq hədd saxlanılmışdır. Amma Azərbaycan oxucusunun ənənəvi "oxu kodeksi" nəzərə alınmamışdır. Müəllifə yol göstərmək fikrində deyiləm. Hər halda ciddi tarixi planda yazılmış bir trilogiya üçün bu tənqidi iradlarımı onun gələcəkdə nəzərə almasını istərdim...




Romanı səhifələyərək, bu qənaətə gəldim ki, N.Atabəyli Şirvana Azərbaycanın deyil, Azərbaycana Şirvanın gözü ilə baxmışdır. Onun nə qədər haqlı və ya haqsız olduğunu deyə bilmərəm. Amma romana daxil edilmiş "əbədi obrazlar" sırasında Baba Dağ Bakuvi-Şirvani (933-1050) şəxsiyyətini görəndə müəllif mövqeyinin bəzən çox kəskin qoyuluşunu səbəbsiz hesab etmədim. Üç fəlsəfi traktat, 30 min hekayət və Allaha səcdə ilə yazılmış sufi Divanı ilə bizim bu ilk bakılı filosof-şairimizin ədəbiyyat tariximizdə yer almamasını, müəllifə qoşularaq, mən də təqdir eləmirəm. I Cahan savaşı başlarkən, 1914-cü ildə Parisdə nəşr edilmiş ilk kitab Baba Dağ Bakuvi-Şirvaninin əsərləri olmuşdur. Baba Dağ haqqında Orta əsrlərin "Təbəqat əs-sufiyya", "Əsrar it-touhid", "Şiraznamə", "Kitab əl-ənsar", "Tarix əl-İslam", "Şədd

əl-izhar" və digər onlarca abidəsində bəhs edilmişdir. Avropa və Rus alimləri- R.Nikolson, E.Braun, Q.Amedroza, Y.Bertels, V.Jukovski, A.Krımski onun şəxsiyyəti və yaradıcılığı haqqında yazmışlar. Onun barəsində eyni zamanda Nizami, Sədi, Hafiz, Ə.Cami, Nəsimi, Füzuli, Seyid Əzim... vəsflə dolu beytlər söyləmişlər. Görkəmli Azərbaycan səyyahı Zeynalabdin Şirvani ötən əsrdə Şiraza gedib, öz dahi eloğlusunun məzarını ziyarət eləmiş, məqbərəsində və ətraf ərazilərdə təmir və abadlıq işləri aparmışdır.

Namiqin yeni romanındakı bütün əsas tarixi hadisələrdə Baba Dağın başdan-başa müqəddəsləşmiş ruhu "iştirak edir", yazıçının özünün etiraf etdiyi kimi, Moskva boyarı, memar Kərəm Əli Şirvani də, müəyyən mənada, Baba Dağ ruhunun daşıyıcısıdır. Namiq bu xətti romanın İkinci cildində İbrahim şah- İmadəddin Nəsimi olaraq davam etdirməyi nəzərdə tutmuşdur. Əlbəttə, bu da təqdirəlayiqdir.

N.Atabəyli bir illik ağır zəhmətin bahasına trilogiyanın İkinci kitabınının ilk cildini ortaya qoymuşdur. Heç şübhəsiz, əsas söz oxucunundur... Müəllifin virtual aləmdə böyük oxucu auditoriyası vardır. Məncə, N.Atabəylinin xalqları dostluq və qardaşlığa çağıran bu növbəti romanı cari ilin ədəbi uğurlarından sayılacaqdır.

Dərbənd əmirzadəsi və Şirvan taxtının qanuni vəliəhdi gənc İbrahimin vətənə geri dönüşü zamanı Moskva Böyük knyazlığında şahidi olduğu tarixi səhnəyə bir daha diqqət yetirmək istəyirəm:

*"İbrahim irəli yeriyib, bağlamanı Annaya verdi.*
*Dmitri soruşdu:- Nədir o, Anna?*
*-Yevdokiyanın kasıb moskvalılar üçün detinetsdışı daş mənzillər, yeni rus slobodaları tikilməsi üçün memar Kərəməli bəyə verdiyi cehizlik qızıllarıdır.*
*-Məgər onlar həmin evlərin tikintisinə sərf edilməyibmi? Anna yenidən üzünü Böyük knyaginaya tutub dedi:- Yevdokiya Dmitriyevna, bunu bilməyinizi istərdim ki, Moskva memarı mərhum ərim Kərəməli Şirvani indiyədək kasıb moskalların evlərini öz hesabından tikib, onlara pulsuz hədiyyə etmişdir. Dmitri İvanoviçin gözləri yaşardı. Mitropolit Aleksiy onun qoluna*

*girib, toxtaqlıq verməyə çalışdı. Ərinə baxıb, Yevdokiyanı da ağlamaq tutdu. Otağa daş kimi ağır bir sükut çökmüşdü. Böyük knyagina qarşısında qara geyinmiş baldızı Annaya baxaraq, ərindən qəmli-qəmli soruşdu:*

***-Böyük knyaz, biz moskallar dövrümüzün ən müqəddəs insanını itirdik. Allah Vsevolodun bəlasını versin, necə ki verdi! Memarın ölümü bundan belə bizim Rusiyamızın üzərində əbədi qara ləkə kimi qalmayacaqmı?..***

*Dmitri İvanoviç böyük knyaginanın ona uzatdığı gül naxışlı dəsmalla sifətindəki yaşı silib, nəzərlərini göz yaşları durmadan axıb gedən Şirvan gəlinindən kənara çəkməyə çalışdı. O, ətrafındakı boyar və knyazlara, ilk növbədə isə, Şirvan ölkəsi taxtının qanuni vəliəhdi əmirzadə İbrahim ibn Sultan Məhəmməd Dərbəndiyə tərəf baxaraq, etirazla dilləndi:*

***- Xeyr, Knyagina Yevdokiya Dmitriyevna! Tarixdə dahi memar Kərəməli Şirvanin mənim xalqıma, Moskvama və bacım Annaya olan əbədi eşqi yaşayacaq!..”***

XXI əsrdə xalqlar arasında bu cür dostluq və qardaşlıq çağırışları xüsusi əhəmiyyət daşıyır. “Şirvanşahlar” tarixi trilogiyası bu istiqamətdə yeni ədəbiyyatımızda atılmış müsbət addımlardan biridir. Mənim fikrimcə, Avrasiya xalqlarının tarixi keçmişindən götürülmüş belə müsbət hadisələrin yeni nəslə çatdırılması həqiqi vətənpərvərliyin ayrılmaz hissəsidir. İlk planda “konfliktsiz roman” kimi nəzərə çarpan son postmodern romanda N.Atabəyli elmli-informasiyalı cəmiyyətlə nadanlığı üz-üzə qoyaraq, Avrasiyayönümlü ilk milli Azərbaycan maaarifçiliyinin mövqeyində durduğunu sərgiləmişdir. Romanın Baş qəhrəmanı Şahdır: əski sosialist-realizmi ədəbi metodundan tamamilə uzaq yaradıcılıq yolu tutmuş yazıçının təsvirlərində sinfi düşmənçilik ideologiyası heç yerdə nəzərə çarpmır. Birinci cilddə hələlik uşaqlıq və gənclik çağları qələmə alınmış Şirvan şahı, ali məqamına uyğun olaraq, əsərdə yazıçının müsbət idealının daşıyıcısıdır. Bunu təqdir etməmək olmaz.

Əqli və izahedici fəlsəfələrin işığında elmi və texnoloji inkişafı əvvəlki anlamlardan fərqli mövqedən qiymətləndirməklə keçmişdən gələn məlumatlara (biliklərə) şübhə ilə yanaşılması, akademik zehniyyətə qarşı insan beynində planlı şəkildə boşluqlar

yaratma cəhdi ağlın üstün dialektizminə yol açamaq, ehkamçılığa qarşı getməkdir. Əgər belə demək mümkünsə, yazıçı Atabəyli ənənəvi oxucunun şüurundakı tarixizmi alt-üst edən bir roman yaratmışdır. Bunun hamı tərəfindən birmənalı qəbul ediləcəyinə mən inanmıram...

N.Atabəylinin postmodernizmi bilim, texnoloji ve ideoloji sahədə toplanmış bütün əski modern dəyərlərə şüphə doğuraraq, XXI əsr milli ədəbiyyatımıza ənənəvi rasional, Nyutoncu kateqoriyalara qarşı yeni tənqidi bədii baxışlar sistemi gətirmiştir. Müəllif mövqeyinin əsas pradiqması da elə bundadır. Romanın Şeyx İbrahim Dərbəndinin "Hökmdarlıq dövrü"nü əks etdirən əsas hissəsi bundan sonra yazılacaqdır. Bu il Respublikamızın prezidenti cənab İlham Əliyevin xüsusi Sərəncamı ilə ölkədə "Nəsimi ili" elan edilmişdir. Dahi şair İmadəddin Nəsiminin yeni bədii obrazının canlandırılacağı XIV əsr Şirvan gerçəkliyi, heç şübhəsiz, cəmiyyətimizdə maraqla qarşılanacaqdır. Ümüd edirəm ki, yazıçı "Şirvanşahlar" saqasının "Şamaxı" səhifəsini "Dərbəndilər" səhifəsinə çevirərək, onu tezliklə başa çatdırıb, tam şəkildə oxucularımıza təhvil verəcəkdir. Erməni faşizminə qarşı xalqımızın Vətənimizin ərazi bütövlüyü uğrunda mübarizə apardığı bir dövrdə Namiq Atabəylinin "Şirvanşahlar haqqında saqa" roman-epopeyası yüksək dəyərə malikdir. Görkəmli rus yazıçısı (vaxtilə İ.V.Stalin tərəfindən keçmiş ağ qvardiyaçı kimi güllələnməyə layiq görülmüş) **<u>Vasili Qriqoryeviç Yan</u>**ın (1875-1954) alman faşizminin Rusiya üzərinə işğalçılıq müharibəsi öncəsi qələmə aldığı Monqol-tatar istilaları barədə tarixi romanları: "Чингисхан", "Батый" və s. keçmiş Sovet İttifaqının



həmin başçısı tərəfindən 100000 rubl dəyərində “Stalin mükafatı”na layiq görülmüşdü. 67 yaşlı yazıçının, bəlkə də, bu mükafata artıq heç bir ehtiyacı yox idi. Lakin “ellər atası” bütün Sovet xalqının qarşıdakı müharibə ərəfəsində vətənpərvərlik ruhunun yüksəldilməsində Vasili Yanın romanlarının tarixi əhəmiyyətini düzgün anlamışdı. V.Yanın əsərində Çingiz xanın şəxsində dünya hərb səhnəsində peyda olmuş yeni işğalçı varvarın- faşist Adolf Hitlerin obrazı nəzərdə tutulmuşdu. Stalin bunu dərhal başa düşmüşdü...

**Sonda AtaTv.az Saytı olaraq, bütün xalqımıza erməni faşizmi üzərində qələbə, yazıçı-publisist Namiq Atabəyliyə isə yeni yaradıcılıq uğurları arzulayırıq.**

PS: N.Atabəylinin Ulu Öndərlə bağlı efir çıxışları












## Müəllif haqqında qısa məlumat



**Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində əyani təhsil almışdır. Ədəbi tənqidçi və nəzəriyyəçi kimi ixtisaslaşmışdır. Jurnalist oğludur.**

- ✓ **Nəşr edilmiş 13 kitabın müəllifidir.**
- ✓ **Bundan əlavə, ayrı-ayrı toplularda, kitab, qəzet və jurnallarda yüzlərcə publisistik, elmi və bədii əsərləri, habelə tərcümələri dərc edilmişdir.**
- ✓ **Görkəmli əruzşünas-alim, filologiya elmlər doktoru Əkrəm Cəfər, füzulişünas-alim, yazıçı Mir Cəlal, XX əsrin digər azərbaycanlı pedaqoq-ədiblərindən Bəxtiyar Vahabzadə, Gülhüseyn Hüseynoğlu, Firuz Sadıqzadə, Ağa Laçınlı və başqalarının tələbəsi olmuşdur.**
- ✓ **Ailəlidir, iki qız övladı vardır. Bakıda orta, xaricdə isə ali təhsilini (bakalavr və magistraturanı) başa vurmuşlar. İxtisasca biotexnoloq, marketinq-menecer və proqramist, iqtisadi kibernetika mütəxəssisləridirlər. Dizayner çalışırlar. İlk nəvəsi Ərteymur bir yaşını tamamlamaq üzrədir.**
- ➢ **İstiqlal çağında Ümummilli Lider Heydər Əliyev haqqında nəşr edilmiş (Azadlığın qədri. "İşıq" nəşriyyatı, Bakı-1996. 3000 nüsxə) ilk anadilli kitabın müəllifidir.**
- ➢ **Heç bir təşkilata (siyasi, ictimai, yaradıcılıq və s.) üzv deyil.**
- ➢ **İlk əmək fəailiyyətinə keçmiş SSRİ-nin Hərbi Silahlı Qüvvələrində iki illik zabit kimi başlamışdır. (1982-1984-cü illər)**
- ✓ **10 il Bakı şəhərində pedaqoji fəaliyyət göstərmişdir.**
- ✓ **35 ilədək jurnalistik fəaliyyət göstərmişdir:"Azərbaycan", "Dan Ulduzu", "İlham", "Həftə içi", "Yeni Azərbaycan" və s. qəzetlərdə, "Ulduz", "Region+" jurnallarında müxtəlif vəzifələrdə çalışıb.**
- ✓ **1994-2004-cü illərdə Azərbaycan Respublikası Prezidentlərinin: Heydər və İlham Əliyevlərin Mətbuat Katibliyi xidmətində dəvətlə böyük məsləhətçi vəzifəsində çalışmışdır.**
- ✓ **1991-ci ilin 2 fevralında "İlham" qəzetində dərc etdiyi "Bir kərə yüksələn Bayraq" şeiri musiqi bəstələnmiş ilk əsəridir**

**(bəstəkar Ədviyyə Rəhmətova). Bu simfonik marş Dövlət orkestrinin ifasında müsabiqə əsasında Qızıl Fonda götürülmüşdür. Dünyanın onlarca aparıcı musiqi portallarında yerləşdirilmişdir, minlərcə dinləyicisi vardır.**

- **Nəşr edilmiş kitabları:**

**1.“Azadlığın qədri” (Bakı.1996-cı il. “İşıq” nəşriyyatı, 3000 nüsxə);**

**2.“Ana ürəyi” (Bakı-2013, naşir: “Avropa” nəşriyyatı, 2000 nüsxə);**

**3.“Vahidiyəm Azərbaycanımın” (Bakı-2014, naşir: “Step. Ltd.”kino şirkəti, 2000 nüsxə);**

**4.“Seyidəm, ərseyi-eşq içrə...”(Bakı-2014, naşir: ”Step.Ltd.”kino şirkəti, 2000 nüsxə);**

**5.”O xəyalımdakı Şirvan” (Bakı-2015, 2000 nüsxə, naşir:”Elm və Təhsil nəşriyyatı”);**

**6.“Müəllim” (Bakı-2016, naşir: “Elm və Təhsil nəşriyyatı”, 1000 nüsxə)...**

**7.“Azad şeir və onu poetikası” (Bakı-2017, naşir: “Step” Ltd. Kino şirkəti, 1020 nüsxə);**

**8. “Şirvanşahlar haqqında saqa” roman-epopeya:**

**1) -Birinci kitab: “Şirvanşah Böyük Axsitan” (Bakı-2018, naşir: “Avropa nəşriyyat evi”, 1020 nüsxə);**

**2) -İkinci kitab: I cild. “Şirvanşah Şeyx İbrahim Dərbəndi” trilogiya. (Uşaqlıq və gənclik illəri.) (Bakı-2019, naşir: “Avropa nəşriyyat evi”, 1020 nüsxə).**

**3) -Üçüncü kitab: “Şirvanşah Şeyx İbrahim Dərbəndi” trilogiya. (Hökmdarlıq illəri. Azadlığa aparan yol) (Bakı-2020, naşir: “Avropa nəşriyyat evi”, 1020 nüsxə).**

**4) -Dördüncü kitab: “Şirvanşah Şeyx İbrahim Dərbəndi” trilogiya. (Hökmdarlıq illəri. 1382-ci il) (Bakı-2020, naşir: “Avropa nəşriyyat evi”, 1020 nüsxə).**

**5) -Beşinci kitab: “Sonuncu Şirvanşah ŞAHRUX” (Bakı-2021, naşir: “Avropa nəşriyyat evi”, 1020 nüsxə. Nəşr hazırlıq mərhələsindədir).**

**13. Fateh. (zəfər poeması). Erməni faşizmi üzərində Qələbənin ilk ildönümünə həsr olunur. (Bakı-2021, naşir: “Avropa nəşriyyat evi”, Birinci nəşr. 500 nüsxə. (Birinci zavod-250).**

**PS: ADU-nun elmi məcmuələrində, jurnal və qəzetlərdə, Prezident Administrasiyasının “Qəsd. Dövlət çevrilişləri cəhdlərinin xronikası” (Azərnəşr. Bakı-1995) kitabında, “Terrorizm: qan çilənən torpaqlar” (müəllif Şöhrət Səlimbəyli)**

**kitabında, İnternet Mediada müxtəlif məqalə, poema və s. əsərləri işıq üzü görmüşdür.**
**Jurnalistik fəaliyyət stajı:**

**-1990-cı ilin 14 noyabrından 1991-ci ilin 9 aprelinə kimi "İlham" qəzetində şöbə müdiri;**

**- 1991-ci ilin 10 aprelindən 1994-cü ilin 18 yanvarın kimi "Dan Ulduzu" qəzetində müxbir və baş redaktorun müavini (baş redaktor);**

**-1993-cü ilin 10 mayından 1993-cü ilin 1 sentyabrınadək Azərbaycan Yazıçılar Birliyinin "Ulduz" jurnalında ədəbi işçi (-paralel olaraq);**

**-1994-cü ilin 18 yanvarından həmin ilin 18 aprelinəcən Parlamentin "Azərbaycan" rəsmi qəzetində Məktublar və xüsusi müxbirlərlə əlaqə şöbəsində müxbir;**

**-1994-cü ilin 18 aprelindən 2004-cü ilin 23 aprelinə kimi 10 ildən yuxarı Azərbaycan Respublikası Prezidentinin Mətbuat Katibi xidmətində böyük məsləhətçi;**

**-10.V. 2004-cü ilin 10 mayından 2007-ci ilin 10 mayınadək "Həftəiçi" gündəlik xəbər qəzetində korrektor. Bu qəzetdə korrektor. Habelə sərbəst olaraq həmin qəzetdə onlarca tarixi-etnoqrafik, erməni kilsəsi və əlifbası mövzularında jurnalist məqalələr dərc etdirmişdir;**

**-2007-ci ilin 1 iyunundan 2010-cu ilin 11 yanvarınadək "Region Plus" MMC-də eyniadlı jurnalın Azərbaycan nəşri üzrə korrektor.**

**-2010-cu ildən bəri rəsmi işsizdir. Nərimanov rayon Məşğulluq Mərkəzi: qeydiyyat № 25199. İNDİYƏDƏK müstəqil jurnalistik və ədəbi-bədii fəaliyyət göstərir. Son illər əsasən İnternet Mediada sərbəst çıxışlar edir.**

# Mündəricat:

## I HİSSƏ
# FATEH

(zəfər poeması) .....................................3-139

## II HİSSƏ
## İNTERNET MEDİA

(məqalələr, çıxışlar, müsahibələr və müəllif barədə fikirlər)-------------------------------140-419

**1. Erməni faşizminin sonu - Nikol Paşinyan (I YAZI)---------------140**
**2. Erməni faşizminin sonu - Nikol Paşinyan (II YAZI)--------------144**
**3. Erməni faşizminin sonu - Nikol Paşinyan (III YAZI)-------------152**
**4. Erməni faşizminin sonu - Nikol Paşinyan (IV YAZI)-------------157**
**5. Mehriban Əliyeva: Avrasiya geosiyasətinin yeni qadın lideri-171**
**6. Səməd Vurğun dühası Avrasiyaçılıq kontekstində…-------------181**
**7. Heydər Əliyev: Avrasiyanın son mogikanı kimi-------------------192**
**8. Azərbaycanda neofaşizmə meydan olmamalıdır-------------------201**
**9. ШИРВАННАМЕ, или ЕВРАЗИЙСКАЯ МОДЕЛЬ БУДУЩЕГО АЗЕРБАЙДЖАНА (I YAZI)--------------------------------------------------------205**
**10. ШИРВАННАМЕ, или ЕВРАЗИЙСКАЯ МОДЕЛЬ БУДУЩЕГО АЗЕРБАЙДЖАНА (II YAZI)-------------------------------------------------------226**
**11. ШИРВАННАМЕ, или ЕВРАЗИЙСКАЯ МОДЕЛЬ БУДУЩЕГО АЗЕРБАЙДЖАНА (III YAZI)--------------------------------------------------------241**
**12. 38-lər imzası KİV adına məhkəməyə mediakratik təzyiq deməkdir...----------------------------------------------------------------- 258**
**13. “Şirvanşahlar tarixinə rekonstruktiv mental baxış.” Qərbi Kasbi Universitetində onlayn Forum üçün hazırlanmış məruzə. I HİSSƏ ------------------------------------------------------------ 266(267)**
**14. “Şirvanşahlar tarixinə rekonstruktiv mental baxış” Qərbi Kasbi Universitetində onlayn Forum üçün hazırlanmış məruzə. II HİSSƏ-------------------------------------------------------------------284**
**15. “Şirvanşahlar tarixinə rekonstruktiv mental baxış” Qərbi Kasbi Universitetində onlayn Forum üçün hazırlanmış məruzə. III HİSSƏ-------------------------------------------------------------------305**

**16. “Şirvanşahlar tarixinə rekonstruktiv mental baxış” Qərbi Kasbi Universitetində onlayn Forum üçün hazırlanmış məruzə. IV HİSSƏ----------------------------------------------------------------------327**
**17. Şirvan Azərbaycanının ilk sufi şairi və filosofu Baba Dağ (Kuhi) Bakuvi-Şirvani ----------------------------------------------------------------355**

**18. Nəsimi: “Simürğiyik bu məkansız cahanın… -------------------359**
**19. Xeyrəddin Qoca. Millət vəkili, “Yeni Azərbaycan” qəzetinin baş redaktoru. Azadlığın qədri bilinərsə... (“Azadlığın qədri” kitabı haqqında düşüncələr)-----------------------------------------------------373**
**19. Azadlıq kitabı, yaxud azad şeir haqqında düşüncələr (Dilsuz Musa: şair-publisist, tərcüməçi. Müəllifin “Azad şeir və onun poetikası” kitabı haqqında)---------------------------------------------375**
**20. “Azərbaycan ədəbiyyatşünaslığında ilk verlibr (özgür) şeir poetikası tədqiqatçısı... “ (“Xəzan” ədəbi-bədii jurnalının №4. 2020-ci il tarixli sayında filologiya üzrə fəlsəfə doktoru, Sumqayıt Dövlət Universitetinin dosenti Dəyanət Cümənovun *“Azərbaycan ədəbiyyatşünaslığında Rəsul Rza ədəbi məktəbi” tədqiqat əsərindən bir parça*)---------------------------------------------------------------------384**
**21. Müqəddəs Şirvan proyekti, yaxud… (Jurnalist Rəsafil Bayramovun yazıçı-publisist Namiq Atabəyli ilə müsahibəsi)-385**
**22. Nizami Cəfərov (akademik). Milli müəllimliyin odisseyası... (Namiq Atabəylinin "Müəllim" pedaqoji poeması haqqında)----393**
**23. Nizami Cəfərov (akademik). “Namiq Atabəyli: 60 yaşın odisseyası… “------------------------------------------------------------401**
**24. Rəsafil Bayramov. (AtaTV.az saytının Baş redaktoru). Namiq Atabəyli və onun “Şirvanşahlar haqqında saqa”sı-----------------410**
**25. Müəllif haqqında qısa məlumat-----------------------------------420**

# Hörmətli oxucu!

**BU KİTABLA BAĞLI**
**MÜƏLLİFLİK HÜQUQLARI**
**QANUNLA QORUNUR!..**

**Kitabdan istifadəyə yalnız həmin hüquqi qaydalara ciddi əməl edilməsi şərtləri altında icazə verilir.**

**Namiq Atabəyli**

# FATEH (zəfər poeması)

**(Azərbaycan türkcəsində)**

Kitab iki hissədən ibarətdir. Birinci hissəni "Fateh" (zəfər) poeması təşkil edir. Poema Azərbaycan xalqının 44 Günlük II Qarabağ (Vətən) müharibəsinin qarşıdakı ildönümünə həsr edilmişdir. Kitabın İkinci hissəsi müəllifin əsasən son illərdə müharibə, sülh, mədəniyyət və tarix mövzusunda İnternet Mediada işıq üzü görmüş məqalələrindən ibarətdir. Bundan əlavə N.Atabəyli şəxsiyyəti və bədii və jurnalistik yaradıcılığı haqqında yazılmış-deyilmiş fikirlərə də müəyyən yer ayrılmışdır.-NAŞİR

**"Avropa" Nəşriyyatı. Bakı-2021**.

**© Namiq Atabəyli (Fərəcov Namiq Rəşid oğlu)**
**Намиг Атабейли (Фараджов Намиг Рашидович)**

Redaktorlar:
Aynur Atabəyli (Fərəcova)
Firəngiz Əliağa Vahid qızı (İsgəndərova)
Fəxri redaktor: Ərteymur Atabəyli (Talıbov)
Məsləhətçilər: Dilavər Arif. Rəşid Fərəcov. Nəsir Qubadlı
Rəyçilər: Osman Musayev. Rövşən Şirvani. Mirhəbib Səlimbəyli
Dizayner və bədii tərtibatçı: Gülnar Atabəyli (Talıbova)
Korrektor: Turac Atabəyli (Seyidzadə)
Naşir: **Şöhrət Səlimbəyli**

Kitabın üz səhifəsində istifadə edilmiş tərtibatın müəllifi Aynur Atabəylidir.

Kitabda istifadə olunmuş digər şəkillər açıq mənbə saytı Vikipedia-dan götürülmüşdür. Yığılmağa verilmiş: 23.IV.2021-ci il. Çapa imzalanmış: 15 iyun 2021-ci il. Qiyməti müqavilə əsasında aparılır. Bütün hüquqlar qorunur.

Formatı: 60x84 1/16. Şərti ç/v 25,5. Həcmi: 426 səhifə. Ümumi tiraj: 500 (Birinci buraxılış-250). Birinci buraxılış: yubiley nəşridir. Pulsuzdur. Kitabxanalar, universitetlər və d. qrumlar üçün nəzərdə tutulmuşdur.

**A 5806000000-109**
**8098-2021**

Müəllifin elektron poçt adresi: farajovnamiq@gmail.com

**“Avropa” Nəşriyyatı. Bakı-2021**.

**© Namiq Atabəyli (Fərəcov Namiq Rəşid oğlu)**
**Намиг Атабейли (Фараджов Намиг Рашидович)**



Namiq Atabəyli (Fərəcov) Namiq Rəşid oğlu.
1958-ci il, jurnalist ailəsində doğulmuşdur.
ADU-nun filologiya fakültəsini bitirmişdir.
Keçmiş SSRİ-nin Hərbi Silahlı Qüvvələrində zabit kimi həqiqi hərbi xidmətdə olub.
Evlidir. İki qız atasıdır. Bir nəvəsi var.
Bakı şəhərində 10 il müəllimlik etmişdir.
30 ildən yuxarı jurnalistik əmək stajl var: müxtəlif Sərəncam və Əmrlər əsasında "İlham" qazeti (şöbə müdiri), "Dan ulduzu" (baş redaktor müavini-redaktor), "Ulduz" ədəbi jurnalı (ədəbi işçi), "Azərbaycan" rəsmi qəzeti (müxbir), Prezidentin Mətbuat Katibliyi xidməti (böyük məsləhətçi), "Həftəiçi" qəzeti və "Region Plus" jurnalında (korrektor) fasiləsiz çalışmışdır.
Hazırda 64 yaşına qədəm qoymuşdur.

Nəşr edilmiş 15 kitabın müəllifidir: Bakıda bir publisistik, bir elmi-poetik, üç klassik şeirlər- Divanı, beş poema, dörd tarixi romanı nəşr edilmişdir. Hazırda "Şirvanşahlar haqqında saqa" roman-epopeyasının beşinci cildi: "Sonuncu Şirvanşah Şahrux" postmodern tarixi romanı üzərində çalışır. "Bir kərə yüksələn bayraq" adlı məşhur simfonik marşın (bəstəkar: Ədviyə Rəhmətova) şeir mətninin müəllifidir. Ədəbi-estetik baxışlarına görə, postmodernist təmayüllərə bağlıdır. Solçu sosialist fikir cərəyanlarına aşırı meyllidir. Slavyan-Türk Birliyi Hərəkatının üzvüdür.